# ELMİ İŞ

Beynəlxalq elmi jurnal

## SCIENTIFIC WORK

International scientific journal

aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

**II BEYNƏLXALQ ELMİ KONFRANS**

# ZƏNGƏZURUN

## TARİXİ VƏ COĞRAFİYASI

**II INTERNATIONAL SCIENTIFIC CONFERENCE**
**"HISTORY AND GEOGRAPHY OF ZANGAZUR"**

**15.03.2024**

# ELMİ İŞ

**Beynəlxalq Elmi Jurnal**
**İmpakt Faktor: 2.717**

---

## II BEYNƏLXALQ ELMİ KONFRANS

# ZƏNGƏZURUN

## TARİXİ VƏ COĞRAFİYASI

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

# SCIENTIFIC WORK

**International Scientific Journal**
**Impact Factor: 2.717**

---

## II INTERNATIONAL SCIENTIFIC CONFERENCE

## "HISTORY AND GEOGRAPHY OF ZANGAZUR"

**(15.03.2024)**

**Bakı – Baku**
**2024**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

---

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration No. 2212

Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 99 809 67 68
+ 994 12 510 63 99

**e-mail**
bek.zengezur@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA / Azərbaycan

### Sədr müavinləri

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova

**Məsul katib**

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan

### ÜZVLƏR

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Xəlil KƏLƏNTƏR**, Tohoku Universteti / Yaponiya
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Onur URAL**, Səlcuq Universiteti / Türkiyə
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Bəyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Şəhanə HÜSEYNOVA**, / Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan

**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə. Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Daşqın QƏNBƏROV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Mohsun NAGHISOYLU**, ANAS / Azerbaijan

### Deputy Chairman

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Georgi DUKA**, Moldovan Academy of Sciences / Moldova

### Executive secretary

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr**. **Khalil KALANTAR**, Tohoku University / Japan
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Ibrahim JAFAROV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Ali AZGANI**, The Universty of Texas at Tyler / USA
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Firat University / Turkey
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSHALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Onur URAL**, Seljuc University / Turkey
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University, Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent Pedagogical University / Uzbekistan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India

**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Teachers' Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Dashgin GANBAROV**, Nakhchivan State University / Azerbaijan
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuc University / Turkey
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 7-12**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 7-12**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Mahirə Hüseynova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
huseynova.mahira@yandex.ru

# "ƏKƏRƏK" COĞRAFİ TERMİNİ ƏSASINDA FORMALAŞMIŞ PALEOTOPONİMLƏRİN LİNQVİSTİK ETİMOLOJİ TƏHLİLİ

***Açar sözlər:*** *Əkərək, protürk, Əkərək sözü əsasında oykonim, oronim, hidronimlər, sözün formalaşma tarixi, coğrafi adların transformasiyası*
***Keywords:*** *Akerak, pro-Turk, oikonym, oronym, hydronym based on the word Akerak, history of word formation, transformation of geographical names*

"Əkərək" komponentli paleotoponimlərdə xalqımızın özünəməxsus əkinçilik mədəniyyəti, məşğuliyyəti, qədim estetik görüşləri öz əksini tapmışdır. Bu leksik vahid şumercədən başlayaraq türkcələrin, o sıradan Azərbaycan dilinin müxtəlif dövrləri ilə uyğunlaşmış və dildə, dialekt areallarında baş verən fonetik, morfoloji dəyişikliklər onun inkişaf dinamikasına da öz təsirini göstərmişdir. D.D.Paqirevin 1913-cü ildə tərtib etdiyi xəritəyə istinad edən B.Budaqov və Q.Qeybullayev rəngarəng fonetik tərkibə malik 9 Əkərək adlı oykonim, oronim, hidronim qeydə alınmışdır. Bu 9 toponimdən 7-si "Əkərək", 1-i "Əkərəli", 1-i "Əkəri", 1-i isə "Əkərək talış" fonetik və sintaktik formalarında əksini tapmışdır. "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" əsərinin müəllifləri "Əkərək" əsaslı toponimlərin hər birinə aid toponimik oçerk vermişlər. Bu öçerklərin birində müəlliflər yazırlar ki, *"Əkərək- İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd adıdır. 1918-ci ilin əvvəllərində əhalisi qovulduqdan sonra Türkiyədən gəlmiş ermənilər yerləşdirilmişlər. XIX əsrdə Cənubi Qafqazda, İranda, Türkiyədə çoxlu miqdarda Aqara, Akarak (bəzi hallarda ermənicə əvvəlinə "h" səsinin əlavəsi ilə "hakara"), "Əkərək" toponimi vardır. Mənşəcə Ural-Altay-türk mənşəli şumer dilinə mənsub olan "akar" (Azərbaycan dilində "əkin", "əkmək" sözlərinin kökü olan "ək" sözü ilə eynidir) "əkin yeri", "əkilən sahə" və bunun əsasında "malikanə" (feodalizm dövründə mülkədarların kənd təsərrüfatı malikanələri) sözündəndir. Qədim yunan və latın dillərinə keçmiş bu söz yunanca "aqros"–tarla,*

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*latınca "aqer" - əkin sahəsi və bu dillərdən rus dilinə keçmiş "akr"- torpaq sahəsi və nəhayət "aqronomiya" ifadələrində əksini tapmışdır. Əkərə, Əkərək, Akarak adlı kəndlər məhz qədimdə quldurlara, sonra feodallara, yəni mülkədarlara (o sıradan hökmdarlara) məxsus əkin sahələri əsasında yaranmışdır. Odur ki hələ eradan əvvəl I minillikdə indiki Ermənistan ərazisində yaşamış türkmənşəli etnoslara keçmiş bu söz kənd adlarında əksini tapmışdır. Albaniya ərazisində erkən orta əsrlərdə Kolt Əkərək (yəni Kolt kəndi yaxınlığında Əkərək kəndi) kəndinin adı Musa Kalankatlının "Alban tarixi" əsərində çəkilir"* (Budaqov, Qeybullayev, 1998: 247). 1918-ci ildən başlayaraq vandal ermənilər Əkərək adlı yaşayış məntəqələrini dağıtmışlar və onların adlarını dəyişmişlər və dəyişmələrin əksəriyyəti fonetik səviyyədə baş vermişdir. Belə ki, saxtakar ermənilər bütün hallarda bu qədim toponimin əvvəlinə "h" samitini artırmaqla gah "Həkəri", gah da "Hakkari" şəkillərində işlətmişlər. Bu fonetik tərkibi də ermənilər Azərbaycan dilində işlənən formalardan götürmüşlər. Türk-Azərbaycan mənşəli Əkərək sözünün əsasında "ək" feili dayanır və bu sözün morfoloji göstəricilər hesabına (-ər, -ək) struktur diapazonu genişləndikcə semantikasında da müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, bu sözə şəkilçilər artırılması ilə türkcələrdə, o sıradan Azərbaycan dilində peşə, sənət, məşğuliyyət növü və sahibini, ictimai mövqe bildirən semantik cəhətdən rəngarəng məzmunlu toponimlər yaradılmışdır. Bu keyfiyyətlərinə görə "Əkərək" türkizmi erməni dilində, yəni qohum olmayan dildə də transkripsiya formaları ilə, tərcümə variantları ilə özünü göstərir. Saxtakar ermənilər daim bu qəbildən olan sözləri özününküləşdirməyə çalışsalar da, heç bir məqamda buna nail ola bilməmişlər. Aydın məsələdir ki, bir çox əski türkizmlər kimi "Əkərək" sözü də eradan əvvəlki dövrlərdə belə, çox yüksək toponim yaratma imkanlarını nümayiş etdirmişdir. Əkərək komponentli və ya tərkibli toponimlərə erməni dilinin transkripsionu nə qədər vəhşicəsinə və süni şəkildə əlavə edilsə də, həmin yer-yurd adlarının semantik cəhətdən müəyyən məna çaları qazanması çətin məsələyə çevrilmiş, derivatla bağlı yeni məzmun yaradıla bilməmişdir. Erməni dilinə uyğunlaşdırılmış "Əkərək" vahidi təkcə bu qondarma dilin müvafiq qrammatik kateqoriyaları vasitəsilə adaptasiyasından ibarət deyil, həm də bu sözün bir sıra yeni söz yaratma imkanları üçün də şərait yaratmışdır. Məs: erməni dilində "akartığa" sözünü Azərbaycan dilinə çevirəndə "əkinçi

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

oğlu" mənası alınır. Eradan əvvəlki yüzilliklərdən üzü bəri müasir dövrdə işlənən "Akar//Əkər//Əgər//Ayar//Əyyar fonetik tərkiblərində işlənən yer-yurd adları erməni salnaməçilərinin əsərlərində Aqaryan//Aqaran şəkillərində qeydə alınmışdır. Hiyləgər erməni salnaməçiləri çox yaxşı bilmişlər ki, "Akar//Əkər" sözlərinin əsas, kök hissəsində qədim "ək" feli dayanır və qədim dövrlərdə türk dillərinin dialekt arealında bu söz feil kimi işlək vəziyyətdə olmuşdur. Mahmud Kaşğari "ək" feilini qeydə almış və onun "bir şeyi əkmək" anlamını göstərmişdir. Kaşğari eyni zamanda bu felə qoşulan şəkilçilərlə yaranan sözlərə də diqqət yetirmişdir (Kaşğari, 2006: 170-171). "Ək" feli müasir Türkiyə türkcəsində "ek", Azərbaycan dilində "ək", başqırd türkcəsində "ig", qazax və qırğız türkcələrində "eg", tatar türkcəsində də "eg", özbək, türkmən, uyğur türkcələrində "ək" fonetik tərkiblərində işlənir və "bir şeyi əkmək" mənasını bildirir (Karşılaştırmalı türk lahçeleri sözlüğü, 1993: 206-207). Tarixən olduğu kimi, son yüzilliklərdə də "-ər" şəkilçisi feil köklərinə artırılaraq feildən isim düzəltməyə xidmət göstərmişdir: ək+əkər → əkilən yer, əkinçi. Əkərək komponentli və ya tərkibli toponimlərin sonunda -ək şəkilçisi qəbul etmiş yer adlarında etnonimik xüsusiyyət güclüdür. İ.Bayramov da -ək, -k şəkilçisi qəbul etmiş yer-yurd adlarına indiki Ermənistan ərazisində mövcud olan türkmənşəli əkərək, Quqark oykonimlərini nümunə göstərir (Bayramov, 2005: 307). Tarixin ilk çağlarında yaranmış "əkər//akar" sözünün coğrafi termin kimi işlənməsi oradan isə yer-yurd adlarına transferi barədə professor Həsən Mirzəyevin etimoloji qeydləri də xüsusi maraq kəsb edir və tədqiqatçı yazır: *"Əkərək Dərələyəzdə - Əzizbəyov rayonunda kənd adıdır. 1935-ci ildə ermənilər bu kəndin adını dəyişərək "Akarakadzir" (Əkərək dərəsi) qoymuşlar"* (Mirzəyev, 2001: 69-70). Qeyd edilməlidir ki, Əştərək, Qafan, Meğri, Stepenavan (Calaloğlu), Talin rayonlarında və Eçmiədzində də Əkərək//Aqarak adında yaşayış məntəqələri vardır (Ermənistan Azərbaycanlılarının tarixi tarixi coğrafiyası, 1995: 345). Bundan başqa Türkiyədə, Borçalıda, Dağıstanda da Əkərək adlı kəndlərə rast gəlirik (Mirzəyev, 2006: 111). Erməni mənbələrində "Əkərək" coğrafi termini I əsrdən məlumdur. Onlar bunun "Kiçik kənd", "becərilən torpaq" mənasını bildirdiyini yazırlar (Qərbi Azərbaycan şivələrinin leksikası, 2011: 26). VII əsr coğrafiyaçısı Şiraketen öz coğrafiyasında bunu qala, çay adı kimi xatırlayır. Toponimist E.Murzayev ermənilərin saxtakar alimlərinə

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

uyaraq göstərir ki, guya "aqar" leksik vahidi şumerlərdən yunan, Roma, gürcü, erməni dillərinə keçibdir. Əslində isə, aqarlar türk tayfalarından biridir. Əkinçiliklə bağlı bu tayfa adı Aqar-ak//Əkər-ək oykonimlərində öz əksini tapmışdır. Hətta "Kitabi-Dədə Qorqud" dastanında da bu onomastik vahid kimi xatırlanır. Qeyd edilməlidir ki, türk dillərində meşə bildirən tayfa adına, yer adı şəxs adına, şəxs adı isə yenidən toponimə çevrilə bilir (Mirzəyev, 2006: 111).

Qədim "Əkər//Əkərək" sözü Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələrində başqa morfoloji göstəricilər qəbul etməklə işlənir və arxaik semantikasını mühafizə edib saxlaya bilmişdir. Belə ki, Qərbi Azərbaycanın Çəmbərək şivəsində "əkənəcək", Çəmbərək, Kalinino, Vedi, Zəngibasar şivələrində "əkənək", Qarakilsə şivəsində "əkkəri" morfoloji variantları ilə çıxış edən bu söz "əkin sahəsi" mənasını bildirir (Mirzəyev, 2006: 145). Qərbi Azərbaycanın ağbaba şivəsində də işlənən "əklək" sözündə "əkər//əkərək" semantikası qorunub saxlanılmışdır (Mirzəyev, 2006: 145). Bunlardan başqa, "əkər//əkərək" coğrafi termini digər sözlərə qoşularaq müəyyən mikrotoponimlərin yaranmasında da fəal iştirak etmişdir. Qərbi Azərbaycanın Dərələyəz mahalının müxtəlif yaşayış məntəqələrinin ərazilərində Əkərək tapı, Hüseyn əkərəyi, Əkərək yamacı, Əkərək dərəsi və s. mikrooronimlər XX əsrin son onilliklərinə kimi işlədilmişdir. Bu tipdən olan mikroronimik vahidlərin demək olar ki, əksəriyyəti sintaktik üsulla formalaşmış strukturca mürəkkəb yer-yurd adlarından ibarətdir. Məs.: "Əkərək tapı" oronimi iki coğrafi terminin yanaşması üsulu ilə formalaşmış, hər iki komponentdəki leksik vahidlər coğrafi termini bildirmişdir. "Əkərək" sözü "əkin sahəsi" anlamını bildirmişdir. Sonrakı onilliklərdə vandal və barbar ermənilər həmin mikrooronimi "Aqartap" şəklinə salsalar da yer adının strukturundan da göründüyü kimi onu erməniləşdirə bilməmişlər. Coğrafi termin kimi tap sözü Qərbi Azərbaycanın Çəmbərək və Qarakilsə şivələrində "dağlıq yerdə kiçik düzənlik" mənasında işlənir. Bundan başqa, həmin söz Şəki dialektində, Qax, Mingəçevir şivələrində "ağacdan düşüb əzilmiş meyvə", Oğuz şivəsində "alçaq, yastı" mənalarında, Cəbrayıl, Füzuli, Goranboy, Qax, Tərtər, Şəmkir şivələrində Qərbi Azərbaycanın Çəmbərək, Qarakilsə şivələrində istifadə etdiyi mənada – "dağlıq yerdə kiçik düzənlik" mənasında işlənir (Qərbi Azərbaycan şivələrinin leksikası, 2011: 359; Azərbaycan dilinin dialektoloji lüğəti, 2007: 480). Yuxarıda

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

qeyd etdiyimiz kimi, Qərbi Azərbaycan ərazisində k-g samit əvəzlənməsi ilə işlənən "əkər//əgər" paleotoponimini vandal ermənilər dillərinə "Aqar//Ayaran" şəkillərində transkripsiya etmişlər və bu barədə toponimist S.Sadıqovanın fikirləri xüsusi maraq doğurur: *"Etnonim əsasında yaranan oykonimlərdən biri də Əgərdir. Tədqiqatlarda bu oykonimin mənşəyi barədə fikirlər müxtəlifdir*: Q.Qeybullayevin fikrincə, kəndin adı Ayar (Əyyar) şəxs (mülkədar) adındandır. İ.Bayramov toponimin *"öz təşkilatı olan və varlılar hesabına kasıblara kömək edən şəhər yoxsullarından ibarət təbəqə" mənasında işlənən "əyar" əsasında formalaşaraq nəsil adı bildirdiyini qeyd edir.* Həsən Mirzəyev bu ada *"yayda heyvanların saxlandığı yer*" mənasında işləndiyini göstərir, lakin bu fikirlə razılaşmaq olmaz. *Əvvəla, ona görə ki, bu ad müxtəlif fonetik variantlarda çox geniş areallarda yayılmışdır: Krımda Əyər adlı kənd, Kəlbəcərdə Əyəryurd, Qərbi Azərbaycanda Aqaran adlı bir neçə kənd və dağ, Borçalıda Əgərək, Ərzurumda Əkərək, Əkəran, Dağıstanda Əkərli adlı kəndlər olmuşdur, Zəngəzurda Həkəri çayı vardır. Toponimin belə geniş bir arealda xüsusilə də türk mənşəli əhalinin yaşadığı ərazilərdə yayılması onu göstərir ki, bu toponim etnonim əsasında yaranmışdır. Çünki türk tayfaları tarixən məskun olduqları yerlərə (dağlara, çaylara, düzənliklərə və s.) öz tayfalarının adını vermişlər. (məsələn: Qarqarlar Qarqar çayına, Tərtərlər tərtər çayına, Qaşqaylar Qaşqar çayına, Muğ tayfaları Muğan düzünə, Kuti tayfaları Kəlbəcərdəki Kuti dağına öz adını vermişlər). Əgər toponiminin etnonimin əsasında yaranmasını təsdiqləyən daha bir fakt odur ki, Əyər adını bir çox mənbələrdə "Aqyazı" formasında, bəzilərində isə Ağyar formasında rast gəlirik ki, bu da erməni salnaməçisi Z.Kakerntsinin "Xronika" əsərində adı çəkilən Aqaryan//Aqaran etnonimi ilə üst-üstə düşür"* (Sadıqova, 2014: 54-55). Əkərək etnotoponiminin "ək" komponentindəki "k" samitinin "y" səsinə keçidinə Azərbaycan dilinin müəyyən şivə areallarında təsadüf edirik.

Belə ki, Laçın rayonunda Qarabağ silsiləsinin yamacında yerləşən bir yaşayış məntəqəsi "Əyərək" adlanır. *"Bəzi rəsmi ədəbiyyatlarda "Əyrik" kimi yazılır. Toponim "Əkərək" adının fonetik formasıdır. Kəndin adı XIX əsrə aid ədəbiyyatda Əkərək (Aqaraq, Akarak) kimi qeyd olunmuşdur. Qafqazda geniş yayılmış qədim toponimlərdən olan "Aqarak" (Əkərək) keçmişdə "sahibkar mülkü, sahibkar təsərrüfatı",*

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*"yaşayış yeri" mənalarında işlənmişdir. Mənşəcə şumer dilinə aid edilən aqar//akar (əkin yeri, əkilən sahə) sözü ilə əlaqədardır"* (Azərbaycan toponimləri, 1999: 212).

Bədxah ermənilər Aqar//Akar//Əkər//Əkərək proformantlarını əlavə edərək işlətmişlər ki, bu da onların yaramaz əməllərini nümayiş etdirən linqvistik faktlardır.

Bu fonetik tərkibə malik paleotoponimlərin indiki Ermənistan ərazisində coğrafi mövqeyinin, məna və mənşəyinin, fonetik, leksik, semantik xüsusiyyətlərinin elmi faktlar əsasında düzgün və dəqiq şəkildə tədqiq edilib üzə çıxarılması erməni vandallarının iyrənc sifətlərinə tutarlı və güclü şəkildə vurulmuş sillədir.

## Ədəbiyyat

1. Budaqov, B., Qeybullayev, Q. (1998). Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Nasta-Press, 452 s.
2. Kaşğari, M. (2006). Divani lüğət-it-türk. IV cild. Bakı: Ozan, 252 s. Tərtib edən və nəşrə hazırlayan R. Əskər.
3. Türk ləhcələrinin müqayisəli lüğəti. (1993). Ankara.
4. Bayramov, İ. (2005). Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: Elm, 432 s.
5. Mirzəyev, H. (2001). Ərəbxəncəri, Əkərək, Bəyzadə kəndləri. Filologiya məsələlərinə dair tematik toplu, № 7. Bakı.
6. Ermənistan azərbaycanlılarının tarixi tarixi coğrafiyası. (1995). Bakı.
7. Mirzəyev, H. (2006). Azərbaycan toponimləri və şivə sözləri. Bakı: "Elm".
8. Qərbi Azərbaycan şivələrinin leksikası. (2011). Bakı: Elm və təhsil.
9. Azərbaycan dilinin dialektoloji lüğəti. (2007). Bakı: Şərq-Qərb.
10. Sadıqova, S. (2014). Müasir Azərbaycan dilinin leksikologiyası. Dərələyəz toponimlərinin linqvistik-etimoloji təhlili əsasında. Bakı: ADPU.
11. Azərbaycan toponimləri. (1999). Ensiklopedik lüğət. Bakı: NPB, 588 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 13-16**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 13-16**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Naqif Həmzəyev**
Azərbaycan Respublikası Milli Məclisi
tarix üzrə fəlsəfə doktoru
dr.hamzanagif@gmail.com

# TARİXİ AZƏRBAYCAN TORPAĞI ZƏNGƏZURDAN AZƏRBAYCANLILARIN DEPORTASİYA OLUNMASI

***Açar sözlər:*** *Qərbi Azərbaycan, deportasiya, tarixi-etnik torpaqlar, etnik təmizləmə, zorakı miqrasiya*
***Keywords:*** *Western Azerbaijan, deportation, historical-ethnic lands, ethnic cleansing, violent migration*

Son iki əsrdə Cənubi Qafqazda azərbaycanlılara qarşı məqsədli şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız çox ağır məhrumiyyətlərə, milli faciələrə məruz qalmışdır. Mərhələli şəkildə həyata keçirilmiş bu qeyri-insani siyasət azərbaycanlıların indi Ermənistan adlandırılan ərazidən−min illər boyu yaşadıqları dədə-baba torpaqlarından didərgin salınmasına və tarixi-mədəni abidələrimizin məhv olmasına gətirib çıxarmışdır. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə, zorakı yollarla deportasiya olunması son iki əsrdə soydaşlarımızın başına gətirilən faciələr silsiləsinin bir həlqəsidir. Əhalinin zorakılıqla miqrasiyası sovet hakimiyyəti illərində rejimin müxtəlif üsullarla həyata keçirdiyi siyasi repressiyanın xüsusi forması idi (Abbasov, 1998).

1947-ci il dekabrın 23-də İ.Stalin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 nömrəli qərarını imzaladı. Həmin qərarda 1948-1950-ci illərdə "könüllülük prinsipi əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi qeyd olunurdu. Minlərlə insan ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, mənəvi genosidə dözməyərək həlak olmuşlar (Bayramov, 2015: 415).

Mixail Qorbaçovun 1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi seçilməsindən sonra Dağlıq Qarabağ ermənilərinin öz müqəddaratını təyin etməsi pərdəsi altında Azərbaycana qarşı anneksiya

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

planı işlənib hazırlandı. Azərbaycana qarşı anneksiya planının həyata keçirilməsinə maneçilik törədə biləcək yeganə şəxs – ümummilli lider Heydər Əliyev 1987-ci ilin oktyabrında erməni lobbisinin təzyiqi ilə keçmiş Sov. İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırıldı. Elə həmin il oktyabrın axırından İrəvanda DQMV-ni Ermənistana birləşdirmək tələbi ilə mitinqlər keçirilməyə başlandı. Ermənilərin azərbaycanlı yaşayış məntəqələrinə basqınları intensivləşdi. İlk azərbaycanlı qaçqınlar 1988-ci il yanvarın 25-də Ermənistan SSR-in Qafan və Meğri rayonlarından qatarla Azərbaycana gəldilər. Lakin bu, ictimaiyyətdən gizli saxlanılmışdı. 1988-ci il fevralın əvvəllərindən etibarən İrəvanda kütləvi mitinqlər başlandı. Mitinq iştirakçıları “Ermənistanı türklərdən təmizləməli!”, “Ermənistan yalnız ermənilər üçündür!” kimi şüarlar irəli sürürdülər (Məmmədov, 2009: 272).

Ermənistan ərazisindən isə azərbaycanlıların deportasiyası günü-gündən daha da sürətli şəkildə həyata keçirilirdi. Gəncədə və Naxçıvanda azərbaycanlıların təqib edilmələrinə etiraz əlaməti olaraq aksiyalar keçirilmişdi. Fevralın 27-28-də erməni ekstremistlərinin bilavasitə iştirakı ilə Sumqayıtda kütləvi iğtişaşlar törədildi. Bundan sonra Ermənistandan azərbaycanlıların yeni, daha sürətli şəkildə qaçqınlıq dalğası başladı. Qafanda, Meğridə, Gorusda, Sisyanda müxtəlif vaxtlarda azərbaycanlılara hücumlar edildi, onlar döyüldü, təhqir olundu. Aprel ayından etibarən büdcədən maliyyələşən təşkilatlarda işləyən azərbaycanlı işçilərin maaşlarını açıq-aşkar şəkildə verməməyə başladılar. Azərbaycanlıların evlərinə hədələyici zənglər edilməyə, gecələr azərbaycanlı kəndlərində silahlı erməni dəstələri görünməyə başladılar (Nəcəfov, 2006: 319). Zəngəzura İrəvandan o vaxt “saqqallılar” adlandırılan “Qarabağ” təşkilatının fəal üzvləri gəlməyə başladı. Onlar Qərbi Zəngəzurun hər 4 rayonunda bu təşkilatın özəklərini yaratmağa başladılar. Onların fəaliyyətinin əsasını mitinqlər təşkil etmək, Azərbaycan kəndlərinə hücumlar etmək, onları qorxutmaq, rayon mərkəzi ilə əlaqələrini kəsmək, müxtəlif hədələyici vasitələrlə onları köçüb getməyə məcbur etmək idi. May ayından Zəngəzur azərbaycanlıları artıq öz doğma torpaqlarında yaşamağın qeyri-mümkünlüyünü görərək Azərbaycanın müxtəlif bölgələrinə, xüsusilə Bakı və Sumqayıt şəhərlərinə üz tutdular. Noyabrın 17-də Bakıda “Azadlıq” meydanında kütləvi etiraz çıxışları, digər tərəfdən

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistandakı azərbaycanlı kəndlərinin əhalisi sıxışdırılır, kəndlərə ərzaq göndərilmir, silahlı basqınlar edilirdi. Kəndləri tərk edən ailələrə yollarda divan tutulur, əmlakları qarət edilir, özləri isə döyülür və qətlə yetirilirdilər (Paşayev, 2013: 785). Ermənistandan Azərbaycana gedən bütün yollar üzərində bir neçə yerdə silahlı quldur dəstələri yerləşdirilmişdi. Onlar milis forması geyərək özbaşına yoxlama-buraxılış məntəqələri yaratmışdılar. Bütün maşınları saxlayır, sərnişinlərin sənədlərini yoxlayır və maşında azərbaycanlılar olduğunu müəyyən edən kimi onları maşından düşürür, əmlaklarını boşaldaraq qarət edirdilər. Artıq 1988-ci ilin dekabr ayının əvvəllərində, demək olar ki, Qərbi Zəngəzurda azərbaycanlı əhali qalmamışdı. Sonuncu həmlə isə noyabr ayının son günlərində başladı və bir həftə ərzində tək-tük qalan azərbaycanlı kəndləri vəhşicəsinə boşaldıldı. İnsanlara əşyalarını götürmək imkanı verilmədi. Azərbaycanlılar "PAZ" avtobuslara mindirilərək əli silahlı ermənilərin müşayiəti ilə kənddən çıxarıldılar (6). Qərbi Zəngəzurda yaşayan azərbaycanlıların evləri, əşyaları, mal-qarası, o cümlədən kolxozun varidatı əllərindən çıxdı. 1988-1991-ci illərdə ermənilər Qərbi Zəngəzurun Meğri rayonunun 7 yaşayış məntəqəsindən, Sisyan rayonunun 11 yaşayış məntəqəsindən, Qafan rayonunun 41 yaşayış məntəqəsindən, Gorus rayonunun 4 yaşayış məntəqəsindən azərbaycanlıları vəhşicəsinə deportasiya edərək azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini başa çatdırdılar. Meğri rayonunda qalmış axırıncı azərbaycanlı kəndi olan Nüvədi kəndi 1991-ci il avqustun 8-də boşaldıldı.

Ümumiyyətlə, 1988-1991-ci illərdə Ermənistanın 22 kənd, rayonundan və 6 şəhərindən 250 minə yaxın azərbaycanlılar tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldular (7).

Ümummilli lider, Azərbaycan xalqının xilaskarı Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanla xalqımıza qarşı həyata keçirilmiş zorakı deportasiyaya hüquqi siyasi qiymət verilmişdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Abbasov, İ. (1998). Tarixi ədalətsizlik – Deportasiya. "Azərbaycan" qəzeti, 3 iyun. Bakı.
2. Bayramov, A. (2015). Tarixi faciələrimiz: deportasiya, soyqırım, repressiya. Bakı, 415 s.
3. Məmmədov, N. (2009). Dağlıq Qarabağ gerçəklikləri: soyqırım, terror, deportasiya, işğal. Bakı: Təhsil, 272 s.
4. Nəcəfov, B. (2006). Deportasiya. Bakı: Çaşıoğlu, 319 s.
5. Paşayev, A. (2013). Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası. 1948-1953-cü illər sənədlər toplusu. Bakı: Zərdabi, 783 s.
6. preslib.az
7. e-qanun.az

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Okan Yeshilot**
Marmara University
Professor Doctor
oyesilot@marmara.edu.tr
**Guljan Inaljik**
Marmara University
Doctor Lecturer
gulcan.inalcik@marmara.edu.tr

# ZANGAZUR CORRIDOR AND TURKEY

***Keywords:*** *Zangazur Corridor, Turkey, Azerbaijan, Nakhchivan, Armenia*
***Açar sözlər:*** *Zəngəzur dəhlizi, Türkiyə, Azərbaycan, Naxçıvan, Ermənistan*

After the collapse of Soviet Russia, Armenians' claiming rights in Nagorno-Karabakh, their failure to end their illegal occupation, their daily increasing attacks and the provocative discourses of the Yerevan administration are the main reasons that triggered the Second Karabakh War. The fact that the 28-year activities of the Minsk Group of the Organisation for Security and Cooperation in Europe (OSCE), co-chaired by Russia, the USA and France, which has been conducting the negotiation process between Azerbaijan and Armenia, have not yielded any results, the failure to implement the four resolutions of the United Nations Security Council adopted in 1993 to end the occupation in Nagorno-Karabakh, and the failure to apply any pressure and sanctions against Armenia by the Council are other important factors that prevent the establishment of stability and lasting peace in the South Caucasus (1; 2). As a result, Azerbaijan defended itself after the Armenian attack on 27 September 2020. With Turkey's decisive and solution-oriented full support, the Azerbaijani army liberated Nagorno-Karabakh and 7 districts around Nagorno-Karabakh from Armenia's unjust occupation. A ceasefire agreement was signed by Azerbaijani President Ilham Aliyev and Armenian Prime Minister Nikol Pashinyan under the mediation of Russia, and the conflicts in the Nagorno-Karabakh region ended as of 00.00 Moscow time on 10 November 2020 (3).

Turkey's military, political and diplomatic efforts in Nagorno-Karabakh, where the OSCE Minsk Group failed to find a solution

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

despite the UNSC resolutions, yielded results and Azerbaijani territories, which had been under occupation for nearly 30 years, were liberated from occupation with Turkey’s support. Turkey, acting with the motto “One nation, two states”, increased its political, military and economic weight in the region with the Karabakh victory and strengthened its strategic and central role in the South Caucasus (4).

One of the most important consequences of the Karabakh victory for Turkey is the opening of the Zangezur Corridor. The corridor is a project agreed upon during the Trilateral Declaration signed between Putin, Aliyev and Pashinyan in Moscow on 10 November 2020 to end the Second Karabakh War. According to Article 9 of the Declaration, which was inserted by Azerbaijan at Aliyev’s request, Armenia guarantees to guarantee the security of the transport link between the western regions of Azerbaijan and the Nakhchivan Autonomous Republic and to ensure the unhindered movement of citizens, vehicles and goods in both directions (3). This article implies the opening of a corridor that will provide a direct land connection between Azerbaijan and Nakhchivan, in other words, the Zangazur Corridor.

The first international document to mention the Zangazur Corridor, which will make a significant contribution to the intensification of transport and communication relations between Azerbaijan and Turkey, is the *Shusha Declaration on allied relations between the Republic of Azerbaijan and the Republic of Turkey*, signed in Shusha on 15 June 2021. In the declaration, it was noted that the opening of the corridor is of strategic importance both for regional cooperation between Turkey and Azerbaijan and in general (5). President of the Republic of Turkey Recep Tayyip Erdoğan, in every statement on the subject, stated that the Zengezur Corridor is an issue that needs to be dealt with quickly, and that Turkey’s connections with Nakhchivan will become much stronger with the steps to be taken both by road and railway, and that these connections will be instrumental in strengthening the relations between Turkey and Azerbaijan (6).

For Turkey, the Zangazur Corridor project is important not only in terms of connecting the main part of Azerbaijan to Nakhchivan, but also, as Abdulkadir Uraloglu, Minister of Transport and Infrastructure of the Republic of Turkey, put it, “for all Turkic states with a young and active population of 160 million and an economy of more than 1

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

trillion dollars (7)". The opening of the corridor would create a direct link between the states of the Turkic world, connecting Europe to Turkey, the Caspian ports and Central Asia. In January 2024, Uraloğlu stated that railway and road works on the part of the Zangezur Corridor route in Azerbaijani territory were continuing rapidly and that the corridor could be realised in 2028, but Armenia had not yet taken any steps in this regard (8). Azerbaijan, on the other hand, has reached an agreement with Iran on the construction of land and railway lines that will connect the country to Nakhchivan via Iran with alternative routes in case Armenia does not take any steps. According to the agreement signed between the two countries, it is planned to provide access to Nakhchivan via Iran by constructing road and railway bridges over the Aras River (9).

Another initiative of Turkey aimed at establishing peace and stability in the South Caucasus was the "Six-Platform" covering the South Caucasus and its neighbours, which aims at regional cooperation. The 3+3 (Azerbaijan, Armenia, Georgia + Turkey, Iran, Russia) proposal in the South Caucasus is an important step in terms of showing that Turkey aims for lasting peace and sustainable stability in the region. This initiative includes the opening of borders and the establishment of new transport, economic and logistics networks. The establishment of such a platform will be a stabilising factor not only for the Caucasus but also for the Middle and Near East. Azerbaijan and Turkey have a strong desire to remove all communication barriers to create a transparent and sustainable system of cooperation. This initiative is likely to be realised, but it will require a concerted effort by each participating country (İbrahimov, 2020: 1-5).

In conclusion, the Zangazur Corridor is a project of socio-economic, geopolitical and geostrategic importance linking Central Asia, the Caspian region, Azerbaijan and Armenia to Turkey (11). Therefore, Turkey is very interested in the opening of this corridor. The corridor will primarily help to maintain regional peace. The revival of trade and economic projects in the neighbouring regions and the development of logistics networks will make a significant contribution to the Turkish economy. It will also provide an alternative transport network and a strong economic link with its ally Azerbaijan (Gasımova, Yurcu, 2023: 8). Therefore, Turkey fully supports the Zanga-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

zur Corridor. In this sense, it is possible to define the corridor as a "path to regional prosperity" (13).

In terms of transport connectivity, the Zangazur Corridor is important not only locally but also regionally and intercontinental. The regional significance of the corridor is that it is an incentive for local development in each country through which the new transport route passes. The corridor is planned to pass through the least developed regions of Armenia, Azerbaijan and Turkey. Therefore, it can make a significant contribution to the economic growth of all three regions by connecting the southwestern regions of Azerbaijan, which have been under occupation for nearly 30 years, to Western Zangazur, the least developed region of Armenia, and to the provinces of Turkey's Eastern Anatolia region. The intercontinental importance of the Zangazur Corridor is extremely high. It is an important part of the Central Corridor linking Turkey, the South Caucasus and Central Asia. This route will provide an opportunity to develop trade and economic cooperation among the member states of the Organisation of Turkic States, and will enable the transport of goods from China to the eastern provinces of Turkey and from there to Europe via the Mediterranean Sea or the Bosporus Strait. In sum, the launch of the corridor will increase the economic potential of the entire region from the Black Sea to the Caucasus and Central Asia, India, China and other East and South Asian countries, and will contribute to the development of transport and logistics infrastructure. In this sense, the Zengazur Corridor will serve as an important trade route between Europe and Asia in the near future (14).

## References

1. Rəhimov, R. "BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağda işğala son qoyulmasını tələb edən qətnamələri yerinə yetirilmir". Anadolu Agentliyi. 29.09.2020. https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/daglik-karabagdaki-isgale-son-verilmesini-ongoren-bmgk-kararlari-uygulanmiyor/1989110
2. Rəhimov, R. "Azərbaycanın qalib gəldiyi 2-ci Qarabağ döyüşündən iki il ötür", Anadolu Agentliyi, 27.09.2022, https://www.aa.com.tr/tr/dunya/azerbaycanin-zafer-kazandigi-2-karabag-savasinin-uzerinden-2-yil gecti/2695589

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Altaş, Mümin, Tosun, Mehmet. "Prezident Ərdoğan: Zəngəzur probleminin həlli Türkiyə-Azərbaycan əlaqələrinin möhkəmlənməsində mühüm rol oynayacaq". Anadolu Agentliyi 13.06.2023. https://www.aa.com.tr/tr/politika/cumhurbaskani-erdogan-zengezur-konusunu-halletmemiz-turkiye-azerbaycan-iliskilerinin-guclenmesine-vesile-olacak/2921186

3. İncekaya, G. "Qarabağ zəfəri 2020-ci ildə Türkiyənin xarici siyasətinin ən böyük uğuru oldu". Anadolu Agentliyi, 30.12.2020. https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/karabag-zaferi-2020-turk-dis-politikasinin-en-buyuk-kazanimi-oldu/2093171
4. Ibrahimov, M. (2020). "New Geopolitical Reality in The South Caucasus: "Six-Party Platform". December, Air Center, p.1-5.
5. Bloomberg. "Nazir Uraloğludan Zəngəzur dəhlizinin qiymətləndirilməsi", 18.06.2023. https://www.bloomberght.com/bakan-uraloglu-ndan-zengezur-koridoru-degerlendirmesi-2333300
6. Azərbaycan Prezidentinin Rəsmi İnternet Səhifəsi. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi", 16.07.2021. https://president.az/az/articles/view/52122
7. Veliyev, C. "Building the Zangezur corridor, normalization in South Caucasus". 24.12.2021. Daily Sabah. https://www.dailysabah.com/opinion/op-ed/building-the-zangezur-corridor-normalization-in-south-caucasus
8. 24 TV. "Nazir Uraloğlu açıqladı: Zəngəzur dəhlizi 2028-ci ildə həyata keçirilə bilər". 07.01.2024. https://www.yirmidort.tv/ekonomi/bakan-uraloglu-acikladi-zengezur-koridoru-2028-yilinda-hayata-gecebilir-146075
9. Ministerstvo Inostrannih Del Rossiyskoy Federatsyy. "Zayavlenie Prezidenta Azerbaydzhanskoy Respubliki, Premer-ministra Respubliki Armeniya i Prezidenta Rossiyskoy Federatsii", 10.11.2020. https://www.mid.ru/ru/foreign_policy/news/1446283/
10. Ahmadkhanli, C. "Importance of Zangazur Corridor in three levels". Topchubashov Center, 27.10.2021. https://www.top-center.org/az/expert-opinion/3247/the-importance-of-the-zangezur-corridor-in-three-dimensions

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

11. Rəhimov, R. "Zəngəzur dəhlizinə qədər uzanan avtomobil və dəmir yollarının tikintisi fasiləsiz olaraq davam edir", 09.01.2024. Anadolu Agentliyi.
https://www.aa.com.tr/tr/dunya/zengezur-koridoruna-uzanan-kara-ve-demir-yollarinin-insaati-araliksiz-suruyor/3103794
12. Qasımova, T., Yurcu, Erçin, M. (2023). "Zəngəzur Dəhlizinin Azərbaycanın Xarici Ticarət və Logistika Fəaliyyətlərinə Mümkün Təsirlərinin Swot Təhlili". Dumlupınar Universiteti İqtisadiyyat və İnzibati Elmlər Fakültəsi Jurnalı, Sayı 12, s.1-15.
13. Turkic World. "Zangezurskiy koridor-proekt, vajniy dlya vseh tyurskih gosudarstv-ministr", 26.09.2023.
https://turkic.world/ru/articles/politics/149301

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Sevinc Sadıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sevincsadigova@gmail.com

# ZƏNGƏZUR TOPONİMLƏRİ – TARİXİN YADDAŞI

***Açar sözlər:*** *toponim, oykonim, areal, Qərbi Azərbaycan, Zəngəzur*
***Keywords:*** *toponyms, oykonyms, areals, Western Azerbaijan, Zangazur*

Qərbi Azərbaycanın Zəngəzur mahalı tarixin ən qədim dövrlərindən Azərbaycan türklərinin yaşayış məskəni – ata-baba yurdu, ana vətəni olmuşdur. Bunu sübut edən ən təkzibedilməz faktlardan biri bu torpaqların bağrına vurulmuş möhürlər – toponimlərdir ki, onlar əsrlərin, hətta minilliklərin tarixi yaddaşını özündə qoruyaraq bu günümüzə qədər gətirib çıxarmışdır.

Zəngəzur mahalı Şərqi Zəngəzur və Qərbi Zəngəzur olmaqla iki bölgəyə ayrılmışdır, otuz ilə yaxın erməni tapdağında olan Şərqi Zəngəzurun Laçın, Qubadlı, Zəngilan rayonları 2020-ci ildə düşmən işğalından azad edildi. Qərbi Zəngəzurun Sisian (Qarakilsə), Meğri, Qafan və Gorus rayonları isə, Qərbi Azərbaycanın digər əraziləri kimi, azad olunacaqları günü gözləməkdədir.

Qərbi Zəngəzur ərazisinin köklü-aborigen sakinləri olan Azərbaycan türkləri minillər boyunca yaşadıqları doğma vətənlərindən dəfələrlə deportasiya olunmuş, bununla bərabər tarixi toponimlərimiz də zaman-zaman şovinist ermənilər tərəfindən dəyişdirilərək qondarma adlarla əvəz edilmişdir:

Sisian (Qarakilsə) rayonu üzrə: Ağkənd – Aşotavan (17.04.1948); Qarakilsə – Sisavan; Dərrabas – Darbas (10.09.1946); Əlili – Salvard (03.01.1935); Ərəvus – Aravis (03.07.1968); Məzrə – Bartsravan (10.09.1946); Məliklər – Spandaryan (04.05.1939); Təzəkənd – Tasik (03.07.1968); Saybalı – Sarnakunk (10.09.1946); Urut – Vorotan (03.07.1968); Şenatağ – Larneşen (02.03.1940); Şıxlar – Qızılşəfəq (02.03.1940); Comərdli – Tanahat (09.04.1991); Uz – Uzc (09.04.1991); Ağudi – Aquti (09.04.1991);

Meğri rayonu üzrə: Astazur – Şvanidzor (22.04.1935); Puşgah – Ayqedzor;

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Qafan rayonu üzrə: Axtaxana – Corasten (01.06.1940); Dəymədağlı – Şrvenants; Zeyvə – David-bek (26.06.1949); Kilsəkənd – Sraşen; Kürdəkəndi – Lernadzor; Gütqum – Qexanuş (29.06.1949); Mahmudlu – Çaykənd (01.06.1940); Pirməzrə – Katnarat (29.06.1949); Sirgətas – Xdrants; Tortnu – Andaraşad (29.06.1949); Kilsəkənd – Sraşen; Kürdəkəndi – Lernadzor; Acıbac – Adjabac (09.04.1991); Kərd – Kard (09.04.1991); Qovşut – Kovçut (09.04.1991); Bəydaş – Xorcor (09.04.1991); Qaraçimən – Ditsmayri (09.04.1991); Aşağı Pürülü – Qexanavank (09.04.1991); Şabadin – Yexeq (09.04.1991);

Gorus rayonu üzrə: Bayandur – Bağadur (07.05.1968); Əliquluşən – Azataşen (01.06.1940); Yaycı – Qarjis (03.07.1968); Körü – Dzoraşen (19.04.1950); Muğancıq – Ayqedzor (19.04.1950); Yaycı - Qarjis (03.07.1968); Körü – Dzoraşen (19.04.1950).

Qeyd etdiyimiz statistik məlumatdan göründüyü kimi, çox qədim tarixə malik olan Zəngəzur toponimlərinin qondarma adlarla əvəz edilməsi prosesi bütün iyirminci əsr boyunca davam etmiş, sonuncu azərbaycanlıların deportasiyası ilə addəyişmə prosesi də yekunlaşmışdır. Hal-hazırda tarixi Azərbaycan torpağı olan Zəngəzurda nə bir nəfər azərbaycan türkü, nə də bir türk mənşəli yer adı qalmamışdır. Lakin müstəqil Azərbaycan Respublikasının yürütdüyü ədalətli siyasət bizə gələcəyə ümidlə baxmağa imkan yaradır: biz Qərbi Azərbaycana, həmçinin Zəngəzura qayıdacağıq və bu torpaqların tarixi adlarını bərpa edəcəyik!

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 25-41**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 25-41**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elmira Məmmədova-Kekeç**
Xəzər Universiteti
filologiya üzrə elmlər doktoru
mamedovaelmira4@gmail.com
https://orcid.org/0000-0002-3445-1569

# ZƏNGƏZURDA QƏDİM TÜRK YURDU – DƏSTƏGİRD QƏSƏBƏSİNİN MİKROTOPONİMLƏRİ

***Açar sözlər:****Azərbaycan, Zəngəzur, Dəstəgird, Qarakilsə, mikrotoponim*
***Keywords:*** *Azerbaijan, Zangazur, Dastagird, Karakilse, microtoponym*

Dəstəgird qəsəbəsi 1988-ci ilə qədər azərbaycanlıların yaşadığı qədim türk yurdlarından biri olmuşdur və Şərqi Zəngəzurda Qarakilsə (Sisyan) rayon mərkəzindən 21 km cənub-qərbdə, Bərgüşad dağlarının ətəklərində yerləşir. Dəniz səviyyəsindən 2050 m yüksəklikdədir. 1988-ci ilə qədər kənd əhalisinin statistik göstəricilərində dəyişiklik nəzərə çarpır. Qaynaqlarda 1908-ci ildə 555 nəfər, 1914-cü ildə 400 nəfər azərbaycanlının yaşadığı qeyd edilir (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2007: 132).

1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti Dəstəgird kəndindən də yan keçməmişdir. "Azərbaycan" qəzetinin 1918-ci il noyabr ayına aid sayında bildirilir ki, 1917-ci ilin dekabr ayından 1918-ci ilin avqust ayına qədər Gəncə mahalında ermənilər tərəfindən xarabalığa çevrilən kəndlər haqqında Gəncə valisi Azərbaycan Daxiliyyə Nəzarətinə məlumat göndərmişdir. Həmçinin Zəngəzur naçalniki də raport hazırlamış və burada dağıntılara məruz qalan kəndlərin siyahısı, eləcə də maddi ziyan göstərilmişdir. Həmin mənbədə Dəstəgird kəndinin də adı qeyd edilmiş, aprel ayında dağıntıya məruz qaldığı və yüz min rubl maddi zərər dəydiyi bildirilmişdir (Zəngəzur xəsarəti, 1918: 183).

Söyləyicilərin qeyd etdiklərinə görə, "qaçaquşdux" (qaçqınlıq) dövründə kənd əhalisi müxtəlif istiqamətlərə pənah aparmış və Naxçıvan, Cəbrayıl, Füzuli bölgələri onlar üçün müvəqqəti yaşayış məskənlərinə çevrilmişdir. Daha doğrusu, qaçqınlıq zamanı əhali dağ yolu ilə Murxuz kəndindən keçərək Dəmirli yaylağını aşıb Culfa rayonunun Ləkətağ kəndinə pənah gətirmiş və sonradan isə kənd camaatının bir hissəsi

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Qubadlı rayonunun Xocahan və Füzuli rayonunun Molla Məhərrəmli kəndinə köçərək orada məskunlaşmışlar. Andranikin terror dəstəsinin təhlükəsi sovuşduqdan sonra geri dönmüş və darmadağın olmuş yurdlarını yenidən bərpa edib yaşamağa başlamışlar. Kənddə 1922-ci ildə 358 nəfər, 1926-cı ildə 338 nəfər, 1931-ci ildə 434 nəfər yalnız azərbaycanlı yaşamışdır (Bayramov, 2002: 132).

Təbii ki, qaçqınlıqdan sonra bəzi ailələr geri dönməmişdir. 1931-ci ildə isə kənddə şiddətli zəlzələ baş vermiş və əhalinin bir qismi bu dəfə Cəbrayıla köçmüş və İsaqlı kəndində yaşamağa başlamışdır.

Kəndin qəsəbəyə çevrilməsi prosesi 1950-ci illərdən başlanmışdır. 1947-ci ildə kənddə Mis-Molibden Kombinatı yaradılmış və bundan sonra ermənilər köçürülmüş, onlar əhalinin statistik tərkibini dəyişdirmişdir. Söyləyicilərin bildirdiklərinə görə, kombinatda işləməyə gələnlər azərbaycanlıların evlərində kirayədə qalmışlar. Sonralar isə qəsəbədə beşmərtəbəli binalar da inşa edilmişdir. Bundan sonra digər bölgələrdən ermənilər də köç edib gəlmişlər (s. 5). Söyləyicilərin qeyd etdiklərinə görə, hətta onlar öldükləri zaman kənddə dəfn edilməmişlər (s. 8). Kənddə, sadəcə, türk qəbiristanlığı mövcud olmuşdur.

1969-cu ildə kombinat bağlandıqdan sonra onların bir qismi qəsəbəni tərk etmişdir. Elə həmin ildə qəsəbədə Tibb Alətləri Zavodu açılmışdır və burada işləyənlərin 80 %-dən çoxunu azərbaycanlılar təşkil etmişdir.

1988-ci ilin fevral ayından etibarən kəndin müsəlman əhalisinə qarşı təhdidlər başlamış, köçə məcbur edilmişlər. 1988-ci ilin noyabr ayında isə kənddəki azərbaycanlıların sonuncuları da tarixi-etnik torpaqlarından deportasiya edilmiş, sona qalanlar daha çox məşəqqət çəkməli olmuş və qarlı-çovğunlu havada dağ yolu ilə Naxçıvana pənah aparmış, canlarını zorla qurtarmışlar. Həmin tarixdən etibarən burada, sadəcə, ermənilər yaşayır. Hal-hazırda kənddən qaçqın düşmüş sakinlər Bakı, Sumqayıt, Naxçıvan, Mingəçevir şəhərlərində, Abşeron və Xızı rayonlarında məskunlaşmışlar.

XX əsrin II yarısından sonra qəsəbəyə çevrilən ərazi haqqında tarixi qaynaqlarda geniş olmasa da, müəyyən məlumatlara rast gəlirik. “İrəvan əyalətinin icmal dəftəri” kimi tarixi mənbələrdə kənd haqqında verilən məlumatlar tarixi qaynaq kimi çox dəyərlidir. Həmin dəftərdə Sisyan nahiyəsinin Dəstəgird kəndinin də adı çəkilməkdədir (İrəvan əyalətinin, 1996: 146).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Kəndlə bağlı qaynaqlardan biri də “Naxçıvan sancağının müfəssəl dəftəri”dir. 1727-ci ilə aid həmin dəftərdə Sisyan nahiyəsinə daxil olan 32 kənddən biri olan bu kəndin əhalisinin kənd təsərrüfatı ilə məşğul olduğu bildirilmişdir (Naxçıvan sancağının müfəssəl dəftəri, 2001: 152). Həmin qaynağa görə, o zaman kənddə cəmi bir nəfər qeyri-müsəlman yaşamış, onun yarım çift əkin yerinin olduğu qeyd edilmişdir. Həmin dövrdə qeyri-müsəlmanlardan alınan “ispəncə” vergisinin də cəmi 25 ağça olması bu fikri təsdiq etməkdədir. “İspəncə” qeyri-müsəlmanlardan alınan torpaq vergisi idi və adam başına 25 ağça olaraq müəyyənləşmişdi. Tarixi qaynaqlardan göründüyü kimi, XVIII əsrdə ermənilər kütləvi şəkildə Qafqaza yerləşməmişdilər və Dəstəgird kəndində də, sadəcə, Azərbaycan türkləri yaşayırdılar.

“Zəngəzur mahalının kameral təsviri – 1832-1833-cü illər” adlı kitabda qəsəbədə ancaq türklərin yaşadıqları, islam dininə inandıqları, kənd təsərrüfatı ilə məşğul olduqları qeyd edilir (Əhmədli, 2021: 277). Digər bir qaynaq isə “Zəngəzur qəzasının kameral təsviri – 1874” adlı kitabdır və çox təəssüf ki, bu qaynaqda kənd haqqında geniş məlumata rast gəlinmir, sadəcə *Xoca Musaxlı tayfasından* 40 ailənin yaşadığı bildirilir (Əhmədli, 2021: 13).

Əvvəlki mənbədə isə Qapan minbaşılığına aid kənddə 6 ailənin yaşadığı qeyd edilir. Tayfanın etimologiyası haqqında Ə.Rüstəmli tərəfindən aşağıdakı məlumat verilir: “*Aşağı Xocamsaxlı toponimi. Qubadlı rayonunun ərazisində mövcud coğrafi adlardan biri Xocamsaxlı adlanır. XIX əsr rus rəsmi sənədlərində bu oykonimin adı çəkilir. Cərgəlilik xüsusiyyəti daşıyan Aşağı Xocamsaxlı toponiminin bu məlum tipinə əsaslanaraq digər naməlum toponimi müəyyən etmək olar. Aşağı vasitəsi ilə yuxarı, böyük sözü ilə kiçik, birinci vasitəsilə ikinci toponimik epiteti müəyyənləşdirmək mümkündür. Qeyd edək ki, Yuxarı Xocamsaxlı adlı oykonim də Qubadlı rayon ərazisində, Fərcan sovetliyində yerləşirdi. Bu oykonim XIX əsrin II yarısında Azərbaycana - Zəngəzur qəzasına gələn tayfanın adı ilə Xocamsaxlı (Xoca Musaxlı) adlanmışdır. Həmin dövrdə bu tayfanın Dəstəgird, Qalacıq, Mazutlu adlı qışlaqları olmuş, bunlar sonradan müstəqil yaşayış məskənlərinə çevrilmişdir*” (Rüstəmli, 2016: 104). Toponimlərlə bağlı müxtəlif qaynaqlarda Dəstəgird sözünün “qışlaq” mənası ilə bağlı izahlara rast gəlmədiyimiz üçün həmin qışlağın araşdırma mövzumuz olan qəsəbə olduğunu düşünürük.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Ermənilərin XIX əsrdə Qafqaza köçürülmələri nəticəsində bölgədə xristian əhalinin sayı artmışdır. Növbəti əsrdə isə onlar müsəlmanlar üçün əsl təhlükə mənbəyinə çevrilmiş, “Böyük Ermənistan” xülyaları ərazidə yüzlərlə insanın ölümünə, işgəncəyə məruz qalmasına, Vətən acısı çəkməsinə səbəb olmuşdur.

XX əsrdə kənd sakinləri də dəfələrlə erməni qəsbkarlığı və terroruna məruz qalmışdır. 1905-1906, 1918-1920 və 1988-ci illərdə Qərbi Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Dəstəgirddə də erməni hərbi-quldur dəstələri tərəfindən əhali təzyiqlərə məruz qalmış və nəticədə öz ata-baba yurdlarını tərk etmişlər. 1905-1906-cı illərdəki erməni-müsəlman davası zamanı da Dəstəgird kəndindən 40-50 ailə köçərək Qarabağa getmiş, indiki Yevlax rayonunun Malbinəsi və Qoyunbinəsi kəndlərində məskunlaşmışlar. Azərbaycanın xalq şairi Qasım Qasımzadənin ailəsi də bu illərdə Dəstəgird kəndindən köçmüşdür.

1918-ci ildən başlanan terror və qətliamlar 1919-cu ildə davam etmiş və həmin illərdə Novruz bayramı ərəfəsində də kəndə hücum edən ermənilər qanlı qətliamlar törətmişlər. Dəstəgird sakini Gözəl Əliyevanın qeyd etdiyinə görə, kənddə erməni quldurları Nofəl və Əhməd adlı gəncləri qətlə yetirmişlər (Memmedova-Kekeç, 2015: 80). XX əsr boyunca üç dəfə kəndin əhalisi hücumlardan qorunmaq üçün dağlardan aşaraq köç etmək məcburiyyətində qalmış və 1988-ci il istisna olmaqla, müəyyən müddət sonra ana vətənə geri qayıtmışdır.

**Dəstəgird toponimi – etimoloji variantlar:**

Toponimlər hər bir dövlətin ad sistemində strateji hədəflərdəndir və hər hansı bir yurdun adı onun əhalisinin kimliyinin də göstəricisidir. Bu baxımdan ermənilər ələ keçirdikləri türk yurdlarında, ilk növbədə, toponimik dəyişmələr aparmış və bunlar tarixi sənədlərdə də öz əksini tapmışdır: *“Azərbaycanın tarixi İrəvan bölgəsində 1918-ci ildə Ermənistan dövləti yaradıldıqda buradakı toponimlərin böyük əksəriyyəti Azərbaycan mənşəli olub. 1920-ci ildə Ermənistanda Sovet Hakimiyyəti qurulduqdan sonra, Sovet Rusiyasının dəstəyi ilə onun ərazisi Azərbaycan torpaqları hesabına genişləndirilmiş, nəticədə orada Azərbaycan mənşəli toponimlərin sayı yenidən artmışdır. Ermənistanda həyata keçirilən erməniləşdirmə siyasəti daxilində Azərbaycan mənşəli yer adlarının dəyişdirilməsi məqsədyönlü dövlət siyasətinə çevrilmişdir*” (Shukurov, 2021: 747). Tədqiqat mövzusu olan qəsəbə də bu mərhələdə *Dastakert*

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

şəklinə salınaraq ermənriləşdirilmişdir. 1978-ci ildə doğulduğumuz və 1988-ci ilə qədər yaşadığımız qəsəbənin adı əhali arasında *Dəsdəyird* şəklində tələffüz edilmişdir. Əslində kameral dəftərlərdə də kəndin adı Dəstəgird/Dəsdəgird şəklindədir. Bəzi söyləyicilərin bildirdiklərinə görə, qəsəbənin adı *Dəstəgül* və ya *Dəstəyurd* olmuş, sonradan təhrif edilmişdir (S.1).

Hacı Nərimanoğlunun "Zəngəzur: 100 sual, 100 cavab" adlı kitabında da tədqiqat obyekti olan oykonimin təhsil sistemindən, mədrəsələrdən bəhs edilərkən *Dəstəyurd* olaraq adlandırmışdır: *"Sisianın Şəki kəndində Qazı Məmməd əfəndinin, Qafanın Kurud kəndində axund Əbdürrəhman Hacı oğlunun (o, Tehranda dini təhsil almışdı) 9-10 il təhsil verən mədrəsələri xüsusilə məşhur idi. Bu mədrəsələri uğurla bitirənlər mollalıq etmək hüququ da alırdı. Qafanın Baharlı kəndində molla İsmayıl İmaməli oğlunun, Gığı kəndində molla Fərzalı Piriyev, Şəhərcik kəndində molla Tağı, Sisianın Şıxlar kəndində molla Ələsgər, molla Səməd, Dəstəyurd kəndində molla Nuşirəvan, Vağədi kəndində molla İbrahim Xəlil ibtidai təhsil verən mollaxanalar açmış, cəmi 1 manat təhsil haqqı ilə uşaqlara yazıb-oxumaq öyrətmişdi. Bu dini məktəblər təkcə dini, şəriəti tədris etmirdi, ədəbiyyat, tarix, digər fənlər də öyrədilirdi"* (Nərimanoğlu, 2019: 36).

Tarixçi alim Kərim Şükürovun fikrincə, müasir Ermənistanda mövcud olmuş Azərbaycan toponimləri ilə Azərbaycan ərazisindəki toponimlər vahid sistem təşkil edir (Şükürov, 2021: 748). Fikrimizcə, biz də Dəstəgirddəki mikrotoponimləri öyrənərkən məsələyə bu sistemdən yanaşmalıyıq.

"Azərbaycan toponimlərinin izahlı lüğəti"ndə Dəstəgül oykoniminə yer verilməsi və Tərtər rayonunun Çaylı ərazisində, Qarabağ silsiləsinin ətəyində yerləşən kəndin adının izahında həm də keçmiş adının xatırlanması Dəstəgird toponiminin də şərhində müəyyən ipucu verir. Həmin mənbədə qeyd edilir ki, əvvəlki adı Dostahir kimi rəsmiləşdirilən Dəstəgül toponiminin etimologiyasını yerli əhali Tahir adlı şəxslə bağlayır. "*Tədqiqatçıların bir qismi toponimi XIX əsrdə qeydə alınmış qaraçorlu tayfa birliyinə daxil olan dostagir tirəsinin adı ilə, digər qismi isə alban hökmdarı Vaçaqanın (V əsr) qızı Dəstəgülün adı ilə əlaqələndirir və guya kəndin vaxtilə bu şahzadənin yay iqamətgahı olduğunu söyləyirlər. Əslində, oykonim dəstə (su arxı) və hır (axar) komponentlərindən ibarət olub, "axar su kənarında kənd" mənasını daşıyır. Kəndin Kürəkçayın*

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*qollarından birinin kənarında yerləşməsi və Çaylı adlanan sovetliyin tərkibində olması da bu fikri təsdiqləyir*" (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I, 2007: 162). İbrahim Bayramovun Dəstəgird toponimi ilə bağlı izahında da qaraçorlu tayfasının adının çəkilməsi maraq doğurur və Dəstəgül/Dostagir/Dəstəgird toponimlərinin bənzərliyi təsdiqlənir: "*Toponim qaraçorlu türk tayfasından olan bərgüşad tayfasının mənsub dəstəgird etnonimindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir*" (Bayramov, 2002: 132).

Dəstəgird toponiminin izahında digər bir versiya isə Ə.Rüstəmova məxsusdur. O, "Zəngəzurun türk mənşəli toponimlərinin linqvistik xüsusiyyətləri" adlı dissertasiya işində Dəstəgird sözünün ərəb-fars mənşəli olduğunu qeyd edir. Dissertasiyanın II fəslinin beşinci yarımfəsli "Zonanın toponimiyasında ərəb və fars mənşəli sözlər" adlanır. Həmin sözlərin müasir Azərbaycan dilində ümumişləklik qazandığını bildirən tədqiqatçı nümunə olaraq aşağıdakı sözləri verir. Məsələn: Kamallı, Mahmudlu, Mollalı, Lazımlar, Müsəlləm, Zeyvə, Abbaslar, Əbdüləlilər, Əliquluuşağı, Maralzəmi, *Dəstəgird*, Ərəfsə, Sofulu, Nurəddin, Vəlibəyli, Şərifan, Məmmədbəyli və s. (Rüstəmov, 2022: 36).

Qeyd edək ki, Sasanilər dövründə feodal torpaq mülkiyyətinin iki əsas forması olmuşdur: dastakert və xastak. Dastakert əyanların torpaq sahəsi idi və bəzi tədqiqatlarda kəndin adının buradan qaynaqlandığını bildirirlər.

Fikrimizcə, İbrahim Bayramovun Dəstəgird toponimi ilə bağlı izahı daha məqsədəuyğundur.

**Ərazinin təsviri**

Qəsəbə ümumilikdə sakinlər arasında dörd məhləyə bölünmüş, adlandırmada isə bütün Türk Dünyası üçün səciyyəvi olan cərgəlilik variantı əsas yer tutmuşdur. 1988-ci ilə qədər qəsəbə *məhlə* adlandırılan aşağıdakı məhəllələrdən ibarət olmuşdur:

*Aşağı məhəllə* – oykonim, mürəkkəb
*Yuxarı məhəllə* – oykonim, mürəkkəb
*Orta məhəllə* – oykonim, mürəkkəb
*Baxşallar* – oykonim, sadə

Dördüncü məhəllənin adı etnonimlə əlaqəlidir və həmin tayfanın yaşadığı ərazini bildirir. Bundan başqa, kənddə *Əmiraslanlı, Usublu, Həşimli, Ağabəyim övladı, Ağası, Baxşallar, Mətəli, İskəndərli, Fərzalı, Tabatalı, Nazarlı, Əhmədli* tayfaları da yaşamışlar (Budaqov, Qeybullayev, 1998).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Söyləyicilərin bildirdiklərinə görə, Dəstəgird qəsəbəsindəki mikrotoponimlər aşağıdakı şəkildədir:

*Yarğanbaşı, Mehrili bulağı, Sarı dərə, Sarı torpaq, Aynisə dərəsi, Baldırğan dərəsi, Kəklik dərəsi, Kəklik qayası, Soyuq bulaq, Daşlı bulaq, Yurd zəmi, Hajav dərəsi, Yalbulaq, Payız yurdu, Bulaq dərəsi, Qoçu yurdu, Şıxəhməd piri, Yelli yurd, Ağduzdaq, Sap dərə, Şərbətçilər, Dibəhli, Toppuzlu dərə, Əmiraslan yurdu, Haça qaya, Güney, Nəzər yeri, Muzla suyu, Gığı dərəsi, Quzey, Ayı dərəsi, Tülkülük, Göl yazı, Darın körpüsü, Armudluq, Otuzluq, Çimən yurd, Qırxsaçlı (Qıxsaşdı), Qara qaya, Taxt yurd, Baş yurd, Lalalı yurd, Yataq, Meşə, Haça qaya çayı, Təkbarmaq çayı, Seyidsədyal yurdu, Daşlı qala, Alı ölən, Namaz əli çapılan.*

Sonuncu iki mikrotoponim konkret şəxslərin adları ilə bağlıdır və onların başlarına gələn bədbəxt hadisələrlə əlaqədar olaraq yaranmışdır.

*Yarğanbaşı* – oronim, mürəkkəb. Dəstəgird qəsəbəsi dağın ətəyində yerləşsə də, mikrotoponimlər, əsasən, dörd bir ətrafdakı dağ, dərə, yal, yarğan, bulaq adları ilə bağlıdır. Xalq etimologiyasına görə, yarğanın başlanğıc yeri olduğu üçün belə adlandırılıb. Fikrimizcə, digər yarğanlardan bu ərazidəki coğrafi relyefin fərqləndirilməsi həmin yerin də qəsəbənin daimi sakinləri və ya yay zamanı gəlib məskunlaşan köçəri tərəkəmələr üçün xüsusi əhəmiyyət daşıması ilə bağlıdır. Bu bölgə heyvandarlıqla bağlı diqqəti cəlb edən ərazilərdən olmuşdur (Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, 1998).

*Mehrili bulağı* – hidronim, mürəkkəb. Söyləyicilərin qeyd etdiyinə görə, Azərbaycanın Cəbrayıl rayonundan gələn tərəkəmələrin heyvan saxladıqları məkanlardan biri olmuşdur (S. 1). Qeyd edək ki, Qubadlı rayonunun Fərcan inzibati ərazi vahidində də eyniadlı oykonimə rast gəlinir. Mehrili nəslinin adı ilə əlaqədə izah edilir (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, II, 2007: 100). Kəndin adı bəlli olan tayfa adları içərisində Mehrili nəslinin adına rast gəlinməsə də, Dəstəgird dağlarından yaylaq kimi istifadə edən Azərbaycandan gəlmiş köçərilərin adı ilə izah edilə bilinər. Etnotoponimdir.

*Sarı dərə* – oronim, mürəkkəb. Palçığı sarı olduğuna görə belə adlandırıldığı ehtimal edilir. Eyniadlı oronim Ordubad rayonu Ermənistan sərhədində Zəngəzur silsiləsinin zirvəsidir və hündürlüyü 3754 m olan dağ süxurları sarı rəngə çalan eyniadlı dərənin adını daşıyır. Şahbuz rayonunun Tirkeş, Culfa rayonunun Nəhəcir kəndində eyniadlı dərələr var

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

(Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, II, 2007: 176). Mənsub olduğum ailənin 1988-ci ilə qədər biçin yeri olan dərənin adının rəng etimologiyasından qaynaqlandığını söyləmək mümkündür.

*Yurd zəmi* – oronim, mürəkkəb. Dəstəgird qəsəbəsindəki yurd yerlərinin adlarından biridir. Qəsəbənin mikrotoponimlərinə nəzər saldıqda bəzilərinin şəxs adlarından qaynaqlandığını, bəzilərinin isə əkin sahəsinin növünə görə fərqləndirildiyini görürük. Daim zəmi əkildiyi üçün bu şəkildə adlandırılsa da, təyinin yerini dəyişməsi mikrotoponimin izahında şəxs adının ehtiva olunmasını da istisna etmir.

*Hajav dərəsi* – oronim, mürəkkəb. Hacı evinin dərəsi olması, xalq dilində fonetik dəyişmə baş verdiyi ehtimal edilir. Qeyd edək ki, Dəstəgird qəsəbəsi dialekt etibarilə keçid şivəsinin xüsusiyyətlərini daşıyır, həm Qərb, həm də Cənub dialektlərinin fonetik özəlliklərini özündə əks etdirir. Qəsəbəlilərin danışığında [*c*] səsinin [*j*] səsi ilə əvəzlənməsi səciyyəvidir. Bu baxımdan [Hajı] şəklində tələffüz edilən söz ev sözü ilə eliziyada "Hajav" şəklinə düşmüşdür. Ümumiyyətlə, kənddəki mikrotoponimlərin müəyyən qisminin şəxs və ya tayfa adları ilə əlaqəli olduğunu görürük.

*Yalbulaq* – oronim, mürəkkəb. Dağın başında və ya yalında mənasındadır. Həmin ərazidə bulaq da mövcud olduğu üçün belə adlandırılmışdır. Qəsəbənin cənub istiqamətində olan bu mikrotoponim coğrafi quruluşuna görə adlandırılıb (16).

*Payız yurdu* – oykonim, mürəkkəb. Əkin yerlərindən biri olub. Payız fəslində məhsul toplandığı üçün belə adlandırılıb. Qəsəbənin yurd yerlərindən biri kimi fəsil adı ilə bağlanması maraq doğurur. Toponimikada bu cür adlandırmanın səciyyəvi olmadığını görürük. Payızın başlanğıc ayı olan sentyabrda məhsulun toplanması, biçin işlərinin sona çatması yurd yerlərindən birinin belə adlandırılmasına səbəb olmuşdur.

*Bulaq dərəsi* – oronim, mürəkkəb. Bu dərədə bulaqların sayı çox olduğu üçün belə adlandırılıb. Göründüyü kimi, qəsəbədə müxtəlif səmtlərdəki dərələri fərqləndirmək üçün bəzən rəng, bəzən əlamətlə fərqləndirilmə aparılmışdır. Bu dərənin də məhz bulaq dərəsi adlandırılması həm bir çox su qaynaqlarının bu ərazidə olması, həm də fərqləndirmə zərurətindən irəli gəlmişdir (17).

*Qoçu yurdu* – oykonim, mürəkkəb. Ot biçin yerlərindən biri olub. Fikrimizcə, bu oykonim də müəyyən otlaq ərazi olaraq da istifadə

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

edilib və adını heyvandarlıqdan alıb. Mikrotoponimin izahında ikinci variant qoçların, igid insanların yurdu olması ilə bağlıdır. Əvvəlki dövrlərdə kənd əhalisi biçin dövründən sonra əyləncəli mərasimlər də təşkil etmiş və bu ərazidə toplanaraq güləş yarışmaları aparılmışdır. Söyləyicilərin qeyd etdiklərinə görə, həmin yurd iri, uzaqdan qoçu xatırladan daşlarla əhatələnmişdi. Bunun da bir etimoloji variant ola biləcəyini düşünürük.

*Şıxəhməd piri* – oykonim, mürəkkəb. Ziyarət yerlərindən biri kimi kəndin yuxarı hissəsində yerləşirdi. Pirin adının etimologiyası maraqlıdır. Şeyx Əhmədin adı ilə bağlı olan bu pir haqqında söyləyicilərdən təfərrüatlı məlumat əldə edə bilmədik. Verilən bilgilərə görə, pir yay aylarında ziyarət edilirmiş və bu zaman nəzir deyilən heyvanlar kəsilir, dualar edilirmiş. Söyləyicilərin bildirdiklərinə görə, qış aylarında da pirin ərazisini qar örtməzmiş (S.4).

*Yelli yurd* – oykonim, mürəkkəb. Qəsəbənin bu bölgəsində daima külək əsdiyi üçün belə adlandırıldığını ehtimal etmək mümkündür. Kənd salındığı zaman dağın ətəklərindən istifadə edilmiş və həmin ərazilər daha mülayim, əlverişli iqlim şəraitinə malik olmuşdur. Daha yuxarı, dağların zirvələrinə doğru qalxdıqca isə hava temperaturunun və iqlim şərtlərinin dəyişdiyi müşahidə edilmişdir. Həmin yurd yeri də dağın ətəyindən zirvəsinə qalxan insanlar üçün yeni bir istirahət guşəsi olmuşdur (18).

*Ağduzdağ* – oronim, mürəkkəb. Həmin ərazidə duz əmələ gəldiyi üçün belə adlandırıldığı ehtimal edilir. Mikrotoponimin tərkib hissəsi iki elementdən ibarətdir və birinci hissə rəng bildirir. Yuxarıdakı nümunələrdən də bəlli oldu ki, oronimlərin adlandırılmasında rəng simvolikasına müraciət də səciyyəvi olmuşdur. Ağ duz rənginə bənzər dağ olaraq da açıqlana biləcək oronimi qəsəbənin molibden ehtiyatları ilə əlaqədə şərhi də istisna edilmir. Elementin qəsəbədə emalına 1950-ci illərdən başlanılsa da, qeyd edilən oronim və oykonimlərin mənşəyi daha öncəki əsrlərə aiddir. Oronimin *Ağduzlaq* şəklində oxunuşu isə başqa bir ehtimalı da irəli sürməyimizə səbəb olur. Köçəri tayfaların heyvanlarını məhz həmin ərazidə duzla təmin etməsini də düşünmək mümkündür. Çünki söyləyicilərin bildirdiklərinə görə, həmin ərazidə heyvanlar üçün *arxac* da olmuşdur (S.4).

*Sap dərə* – oronim, mürəkkəb. Dəstəgird qəsəbəsindəki mövcud dərələrdən birini formasına görə fərqləndirmək üçün bu şəkildə adlan-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

dırılmışdır. Dərənin coğrafi quruluşuna görə nazik formada olması onun xalq arasında Sap dərə adlandırılmasına səbəb olmuşdur (19).

*Şərbətçilər* – oronim, düzəltmə. Sözün izahında iki variant ehtimal edilir. Dəstəgird qəsəbəsi ətrafındakı bu yer də biçin yerlərindən olduğu üçün məhsul yığımının sonunda həmin ərazidə müəyyən mərasimlərin təşkil edilməsi, şadyanalıq məclislərinin qurulması və şərbətlərin paylanması ilə başa çatan bir əyləncə yeri olmuşdur. İkinci variant isə köçəri tayfaların yaylağa köçən zaman yurd yerləri olması ilə bağlıdır. Bu baxımdan oronim hər hansı bir etnonimlə, tayfa adı ilə bağlıdır (20).

*Toppuzlu dərə* – Oronim, mürəkkəb. Mikrotoponimin birinci tərəfindəki toppuz sözünün də mərasimlə əlaqədar olduğunu, daha doğrusu, məhsuldarlıqla bağlılığını, biçin bitdikdən sonra müəyyən yarışmaların keçirildiyini düşünməyə əsas verir. 1988-ci ilə qədər biçin yerlərindən biri olması fikrimizi təsdiqləyir. Söyləyicilərin qeyd etdiklərinə görə, kolxoz dövründə burada da məhsul əkilib.

*Əmiraslan yurdu* – oykonim, mürəkkəb. Kənddəki tayfalardan birinin yurd yerlərindəndir. Əslində, bu yurd yerləri sonralar, sadəcə əkin-biçin yerləri kimi istifadə edilmişdir. Etnotoponimdir. Qeyd edək ki, Gədəbəy rayonunun Şəkərbəy inzibati ərazi vahidində də “Əmiraslanlı” adlı oykonim mövcuddur (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I, 2007: 183).

*Haça qaya* – oronim, mürəkkəb. Qayanın haça şəklində olması oronimin yaranma səbəblərindəndir. Söyləyicilərin bildirdiklərinə görə, bu ərazi Cəbrayıldan gələn tərəkəmələrin yaylaq yerlərindən olmuşdur. Eyniadlı oronim Gədəbəy rayonu ərazisində də mövcuddur. Dağın zirvəsi uzaqdan haça şəklində göründüyünə görə belə adlandırılmışdır. Bundan başqa Göygöl rayonunda da eyniadlı kənd mövcuddur. Kəndin adının yaxınlıqdakı Haçaqaya dağının adı ilə adlandırılması ehtimal edilir.

*Güney* – oronim, sadə. Qəsəbənin cənub istiqamətində olan və quraqlığı ilə diqqəti cəlb edən ərazilərdəndir. Coğrafi mövqeyinə görə güney istiqamətində olduğuna görə belə adlandırılmışdır. Geniş bir dərənin bir tərəfi Güney, digər üzü isə Quzey olaraq qəsəbəlilərin hafizəsində yer almışdır.

*Nəzər yeri* – oykonim, mürəkkəb. Qəsəbəlilər tərəfindən Nazar yeri olaraq adlandırılan ərazi kənddəki nəsillərdən olan Nazarlı tayfasının adı ilə bağlıdır. Göründüyü kimi, yurd və yer adlarının bir çoxu

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

kolxozlaşdırmadan öncə əkin-biçin sahəsi kimi bölüşdürülmüş və sovet qurulduqdan sonra da sakinlərin heç bir sərhəd olmasa da yaddaşına əsaslanan təsərrüfat sahələri üzrə adlandırma davam etdirilmişdir.

*Muzla suyu* – hidronim, mürəkkəb. Nazar yerində olan bulaqlardandır. Bu sözün etimologiyasına baxdığımız zaman *muz* kökündən və -la şəkilçisindən yarandığını görürük. Azərbaycan dilinin lüğət tərkibində belə bir sözə rast gəlinməsə də, bulağın suyunun təbii minerallarla zəngin olması, turş dadında olması həmin sözlə dialekt səviyyəsində müəyyən bir kimyəvi elementin adına işarə edildiyini göstərir. Türkiyədə dialekt sözləri arasında *muz* sözünün "acıtəhər" mənası da var və bu kontekstdə hidronimin etimologiyası dəqiqləşir.

*Gığı dərəsi* – oronim, mürəkkəb. Qeyd edək ki, Qafan ərazisində də 26 kəndi əhatə edən Gığı dərəsi adlı oronim mövcuddur. Dəstəgird qəsəbəsindəki oronimin də bununla bağlı olduğunu düşünürük. 1918-ci ildə ermənilərin quldur dəstələrinin Gığı dərəsi boyu qətliamlar törətməsi tarixdən məlumdur. Fikrimizcə, həmin qətliamdan sağ qalanlar müəyyən müddət Dəstəgirddə – sonradan Gığı dərəsi adlandırılmış ərazidə yaşamışlar. Daha doğrusu, bu oronimin adının tarixi hadisələrlə bağlı olduğunu düşünürük.

*Quzey* – oronim, sadə. Güneyin əks qütbündə yerləşən bir oronimdir. Bu bölgə quzeydə, yəni günəş az düşən, şimal istiqamətdə yerləşir və bu səbəbdən əraziyə məhz belə ad verilmişdir. Qeyd edək ki, Ağsu rayonunun Nuran inzibati ərazi vahidində də eyniadlı kənd mövcuddur. Kəndin coğrafi mövqeyinə görə belə adlandırıldığı ehtimal edilir (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, II, 2007: 79).

*Ayı dərəsi* – oronim, mürəkkəb. Bu dərənin bu şəkildə adlandırılmasının səbəbi ayının kənd sakinləri tərəfindən məhz həmin dərədə daha çox görülməsi ilə izah edilir. Qeyd edək ki, Qazax rayonu ərazisində bu adda dağ mövcuddur. Ayı olan dərə mənasındadır. Bundan başqa Azərbaycanın bir çox ərazilərində də ayı epiteti ilə mikrotoponimlər mövcuddur: Ayı qayası (Cəbrayıl), Ayı dərəsi (Ağsu, Qax, Qubadlı, Şahbuz), Ayı mağarası dağı (Qubadlı), Ayı vurulan qaya (Kəlbəcər), Aydı öldürülən çöl (Zaqatala), Ayı meşəsi (Şəki), Ayı təpəsi, Ayı vurulan dağ, Ayı qaçan dağ (Tovuz), Ayı dağ (Krım), Ayıdərə (Türkmənistan) və s. (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I, 2007: 65).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*Tülkülük* – oronim, düzəltmə. Bu ərazidə isə tülkülərə dəfələrlə rast gəlindiyi qeyd edilir. Nəzərə alaq ki, kombinat və zavod tikilməzdən öncə xalq daha çox heyvandarlıqla məşğul olmuş və vəhşi heyvanların hansı ərazilərdə daha çox mövcud olması böyük əhəmiyyət daşımışdır. Buna görə də Dəstəgird qəsəbəsinin mikrotoponimləri sırasında iki vəhşi heyvanla bağlı oronimə rast gəlinməsi təsadüfi deyildir.

*Göl yazı* – oronim, mürəkkəb. Yazı sözü, məlum olduğu kimi, türk dillərində çöl mənasını verir. Söyləyicilərin bildirdiklərinə görə, həmin ərazi düzəngah olmuşdur. Türkiyə türkcəsinin bəzi dialektlərində bu söz ova mənasını ifadə edir. Oronimin izahında ikinci variant isə yazı sözünün ikinci mənası ilə bağlı ola bilər. Burada alban abidəsinin mövcudluğu qədim yazı olan bir ərazinin xalqın yaddaşında əbədi olaraq köçməsi ilə bağlıdır.

*Gavırsandıq* – oronim, mürəkkəb. Qəsəbənin əhalisinin XX əsrdə yaşamadığı hissəsində – kəndin yuxarısında yerləşən qəbiristanlığı bildirən bu mikrotoponim iki tərkib hissədən ibarətdir: gavır (kafir) və sandıq. Müasir dildə qəbiristanlıq şəklində işlənən sözün qarşılığı kimi çıxış edən bu oronimlə qəsəbənin müsəlman sakinləri alban qəbirlərini fərqləndirmək istəmişlər.

*Qazan zəmi* – oronim, mürəkkəb. Oğuz türklərinin qədim abidəsi olan "Kitabi-Dədə Qorqud"un baş qəhrəmanlardan birinin – Qazan xanın adını yada salan bu ərazi dastanın coğrafiyasının içərisində Dəstəgird ərazisinin də mövcudluğunun istisna olmadığını və müasir mikrotoponimlərdə yaşadığını göstərən ən yaxşı nümunələrdəndir.

*Darın körpüsü* – oronim, mürəkkəb. Dəstəgirddən Qarakilsəyə (Sisyana) gedən yolun üzərində salınmış körpüyə verilən ad maraq doğurur. Qəsəbədəki mikrotoponimlərə nəzər saldığımız zaman bir çoxunun II növ təyini söz birləşməsi şəklində olduğunu görürük. Çayın üzərində, çox dar bir yerə salınmış körpünün adının isə III növ təyini söz birləşməsi ilə ifadəsi maraqlıdır. Fikrimizcə, birinci qəbildən olan mikrotoponimlər daha qədimdir. Darın körpüsünün əslində darlığın körpüsü şəklində formalaşdığını, sonradan qısaldıldığını düşünürük.

*Armudluq* – oykonim, düzəltmə. Kəndin bu ərazisi ilə bağlı sakinlərdən çox geniş məlumat əldə edə bilməsək də, qaynaqlarda bu barədə aşağıdakı bilgi verilir: Armudlu-Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunun ərazisində kənd olmuşdur. Dəstəgird kəndindən 1 km aralı, dağın ətəyində

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

yerləşirdi. 1918-ci ildə xarabalığa çevrilib (Bayramov, 2002: 36). Fikrimizcə, daha sonra kənd əhalisi münaqişə yaranmasın deyə bu hadisədən çox bəhs etməmiş və zaman-zaman unudulmuşdur. Bu mikrotoponimə bənzər olan Armudlu adlı ilə dağ (Qax, Kəlbəcər, Xanlar, Şəmkir), dərə (Qazax, Ağdərə, Laçın, Cəbrayıl, Şuşa) yal və çal (Oğuz, Qubadlı, Laçın, Cəbrayıl, Qazax), tala (Tovuz) kənd (Kəlbəcər rayonunun Keşdəki inzibati ərazi vahidində) və s. (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I, 2007: 47-48) mövcuddur.

*Otuzluq* – oronim, düzəltmə. Kəndin qədim türk yurdu olmasını sübut edən oronimlərdən biridir. Mahmud Kaşğarlının lüğətində otuz sözünün on üç (10 dəfə üç) mənasına rast gəlinir. Yuxarıda bəhs etdiyimiz kimi, torpaq bölgüsündə otuzluğun sahə vahidini bildirməsini düşünürük. Otuzluq sözünün ikinci etimologiyası isə alt üz, dağın aşağı üzü mənasındadır. Həmin ərazinin coğrafi mövqeyi bu mənaya da uyğundur.

*Çimən yurd* – oykonim, mürəkkəb. Oronimin etimologiyası ilə bağlı iki izah mövcuddur. Dəstəgird sakinlərinin danışığında Türkiyə türkcəsində olduğu kimi [*ə*] səsinin [*i*] ilə əvəz olunması, çəmən sözünün də çimən variantı şəklində ortaya çıxmasına səbəb olmuşdur. Çəmənlik sahənin olması bu fikri təsdiqləsə də, ikinci tezis isə *çim/çiskin* sözləri ilə bağlı ola bilər. Çünki söyləyicilərin bildirdiklərinə görə, həmin yurdda dağın başı, adətən, həmişə çən-çiskin içərisində olardı.

*Qırxsaçlı (Qıxsaşdı)* – oronim, mürəkkəb. Qəsəbənin yuxarısında – dağların ətəyində bir ərazidir. Mikrotoponimin izahında üç variant mövcuddur. 1) Ərazi dağınıq saç formasına bənzədiyinə görə adlandırılıb. 2) Qədim türklərdə hörük xüsusi əhəmiyyət daşıyırdı. Bu yurdda məskunlaşmış müəyyən tayfanın qırx hörük saxladığı, digərlərindən fərqləndiyi və ərazinin adının buradan qaynaqlandığını düşünmək mümkündür. 3) Mikrotoponimin birinci hissəsində qırx rəqəminin olması yenə də "Kitabi-Dədə Qorqud" dastanını xatırladır və ərazinin müəyyən adlar sisteminin çox qədim olduğunu göstərir.

*Qara qaya* – oronim, mürəkkəb. Qayanın qara rəngə çalması ilə bağlı adlandırılıb. Qeyd edək ki, bu adda həm oronimlərə, həm də oykonimlərə Azərbaycanın digər bölgələrində də geniş şəkildə rast gəlinir. Babək, Xocavənd, Qax, Qusar, Şamaxı rayonları ərazisində bu adda dağlar mövcuddur. Bundan başqa, Qaraqaya oykonimi Babək, İsmayıllı,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Yardımlı rayonlarında da rastlanılır (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, II, 2007: 30).

*Taxt yurd* – oykonim, mürəkkəb. Tərəkəmələrin yurdlarındandır. Fikrimizcə, burada köçəri və təsərrüfatla məşğul olan tərəkəmələr yayda gəlib taxt qurduqları üçün belə adlanmışdır. Taxt sözünün səltənət, hakimiyyət kimi digər bir mənası isə bu ərazinin tarixin müəyyən dövrlərində sarayın yaylaq yeri olmasını da istisna etmir.

*Baş yurd* – oykonim, mürəkkəb. Tərəkəmə yataqlarından olub. Fikrimizcə, yaylağa gələn köçərilər arasında bu yurdlar fərqləndirmək üçün baş epitetinə müraciət edilib. Oykonimin tərkibindəki baş sözünün bəzən "dış" şəklində izah olunması ilə bağlı etimoloji təhlilləri bu birləşmə üçün də istisna etmir (Məmmədova-Kekeç, 2015).

*Lalalı yurd* – oykonim, mürəkkəb. Bitki örtüyünə görə adlandırılan mikrotoponim lalələr bitən bir ərazidir.

*Yataq* – oronim, düzəltmə. Tərəkəmələrin yaylaq yerlərindən biridir. Fikrimizcə, tərəkəmələrin heyvanlarının yataq yerlərindən olduğu üçün belə adlandırılıb.

*Meşə* – oronim, sadə. Dəstəgird kəndinin dağları meşə örtüklü deyildi və son dövrlərdə kənd soveti həmin ərazini yaşıllaşdırmaq üçün ağacların sayını artırmış, yeni bir mikrotoponim ortaya çıxmışdır.

*Haça qaya çayı* – hidronim, mürəkkəb. Yuxarıda qeyd etdiyimiz Haça qayanın adı ilə bağlıdır. Çox güman ki, başlanğıcını bu dağlardan alır.

*Təkbarmaq çayı* – hidronim, mürəkkəb. Fikrimizcə, formasına görə tək barmağa bənzədiyinə görə belə adlandırılıb.

*Seyidsədyal yurdu* – oykonim, mürəkkəb. Şəxs adı ilə bağlı mikrotoponimdir.

Dəstəgird qəsəbəsinin tarixi və mikrotoponimləri onun qədim türk yurdu olduğunu sübut edir. Mikrotoponimlər arasında oronim və oykonimlər sayca üstünlük təşkil edir. Qəsəbə Ermənistan SSR-in tərkibinə daxil edildikdən sonra adı erməniləşdirilsə də, mikrotoponimlər bu yurdların həqiqi sahiblərinin Azərbaycan türkləri olduğunu sübut edir.

Mikrotoponimlər, əsasən, Dəstəgird qəsəbəsini dörd bir tərəfdən əhatə edən yurd yerlərinin adları ilə bağlıdır. Tarixi qaynaqlardan göründüyü kimi, bu ərazi öncəki əsrlərdən yaylaq yerlərindən olmuş,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

1988-ci ilə qədər heyvandarlıqla məşğul olan tərəkəmələrin də yurd yerləri sırasında yer almışdır.

Qəsəbənin daimi və qədimi sakinlərinin hafizəsində yaşayan mikrotoponimlər türkün ədalətini və bəzi nəsillərin izi itsə də, sadəcə, yurd adlarında qaldığını göstərir.

**S1:** Məmmədova, S. (1939). Yaşı 84, Dəstəgird qəsəbəsi, Lise Məzunu. Toplama tarixi: 23/09/2023. Toplanmış materiallar Elmira Məmmədova-Kekeçin arxivindədir.

**S2:** Müsülova, S. (1960). Yaşı 63, Dəstəgird qəsəbəsi, Lise Məzunu. Toplama tarixi: 25/05/2023. Toplanmış materiallar Elmira Məmmədova-Kekeçin arxivindədir.

**S3:** Məmmədova, Z. (1957). Yaşı 66, Dəstəgird qəsəbəsi, Universitet məzunu. Toplama tarixi: 23/08/2017 Toplanmış materiallar Elmira Məmmədova-Kekeçin arxivindədir.

**S4:** Məmmədov, N. (1975). Yaşı 48, Dəstəgird qəsəbəsi, Universitet məzunu. Toplama tarixi: 30/05/2023. Toplanmış materiallar Elmira Məmmədova-Kekeçin arxivindədir.

**S5:** Eyvazov, T. (1952). Yaşı 71, Dəstəgird qəsəbəsi, Universitet məzunu. Toplama tarixi: 29/05/2023. Toplanmış materiallar Elmira Məmmədova-Kekeçin arxivindədir.

**S6:** Eyvazova, Q. (1954). Yaşı 69, Dəstəgird qəsəbəsi, Meslek Lisesi məzunu. Toplama tarixi: 29/05/2023. Toplanmış materiallar Elmira Məmmədova-Kekeçin arxivindədir.

**S7:** Məmmədova, Ç. (1948). Yaşı 75, Dəstəgird qəsəbəsi, Universitet məzunu. Toplama tarixi: 28/05/2023. Toplanmış materiallar Elmira Məmmədova-Kekeçin arxivindədir.

**S8:** Məmmədov, T. (1946). Yaşı 77, Dəstəgird qəsəbəsi, Universitet məzunu. Toplama tarixi: 28/05/2023. Toplanmış materiallar Elmira Məmmədova-Kekeçin arxivindədir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. (2007). 2 clddə, I cild. Bakı: Şərq-Qərb.
2. Zəngəzur xəsarəti. (1918). "Azərbaycan" qəzeti, 1918-1920, II cild, noyabr, 183 s.
3. Bayramov, İ. (2002). Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm.
4. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov Qaramanlı). (1996). Bakı: Elm.
5. Naxçıvan sancağının müfəssəl dəftəri. (2001). 9 məhərrəm 1140 (27 avqust 1727). Araşdırma, qeyd və şərhlərin müəllifi: Hüsaməddin Məmmədov (Qaramanlı. Tərcümə edənlər: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm.
6. Əhmədli, N. (2021). Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər. Bakı: Elm və təhsil.
7. Əhmədli, N. (2021). Zəngəzur mahalının kameral təsviri 1874-cü il. Bakı: Elm və təhsil.
8. Rüstəmli, Ə. (2016). Zəngəzurun toponimləri – tarixin izi. Bakı: "Zəka Print" MMC-nin mətbəəsi.
9. Memmedova-Kekeç, E. (2015). Erməni türklərinin adət və ənənələri. (Sisyan vilayətinin Destegerd qəsəbəsində). III. Beynəlxalq Xalq Mədəniyyəti Simpoziumu. Ankara Türkiyə.
10. Shukurov, K. (2021). State policy and results regarding Azerbaijani toponyms in Armenia. Academic Journal of History and Idea. Vol.8, Issue 2, June, pp.747-768.
11. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı.
12. Rüstəmov, Ə. (2022). Zəngəzurun türk mənşəli toponimlərinin linqvistik xüsusiyyətləri. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı.
13. Budaqov, B., Qeybullayev, Q. (1998). Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli Nəşriyyat evi.
14. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. (1998). Bakı: Gənclik.
15. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. (2007). 2 cilddə, II cild. Bakı: Şərq-Qərb.
16. http://anl.az/el/emb/Qerbi_Azerbaycan/deportasiya.pdf

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

17. https://elibrary.az/docs/ebooks/qerbi_azerb_heqiqetler.pdf
18. https://files.preslib.az/projects/zangazur/az/b6.pdf
19. https://files.preslib.az/projects/zangazur/ebooks/zengezurun_toponimleri.pdf
20. https://zengezur.com/KITABLAR/Zengezur-kitab-1.pdf
21. Məmmədova-Kekeç, E. (2015). Soyqırımı və deportasiya Dəstəgerd (Zəngəzur) qaçqınlarının xatirələrində. Soyqırım Xalq Yaddaşında. Beynəlxalq Elmi Konfransın Materialları. Bakı, Azerbaycan.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 42-49
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 42-49
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Sədaqət Həsənova**
Naxçıvan Dövlət Universiteti
filologiya elmləri doktoru
sedagethesenova@gmail.com

# ZƏNGƏZURLU ULULU KƏRİMİN DİL-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *söz, ifadə, dil, üslub, aşıq*
***Keywords:*** *word, expression, language, style, ashug*

Təfəkkür və milli düşüncəmizdə ağrılı yeri olan, milli faciələrimizə şahidlik edən yurd yerlərimizdən biri kimi Zəngəzur ədəbi-bədii dilimizin müxtəlif tarixi zamanlarına aid müəyyən qədər material verən mahalımız kimi də dəyərlidir.

Zəngəzurun saz-söz adamlarından biri Ululu Kərimdir. Onun XVIII yüzilin 80-ci illərində Zəngəzur mahalının Ululu kəndində doğulması haqqında bilgi vardır. "Mənbələrin verdiyi məlumata görə, ahıl vaxtlarında Şahbuz mahalına köçmüş, yüz ilə qədər ömür sürmüşdür. Xalq arasında şeirləri geniş yayılmışdır. Yüksək təbə malik bu sənətkar aşıq şerinin müxtəlif formalarında yazıb-yaratmışdır" (Ululu Kərim, 169). Ululu Kərimin əlimizdə olan əsərlərinin dili üzərindəki araşdırma aşığın poeziyasında Azərbaycan poetik dilinin klassik üslubuna aid bir sıra faktları göstərir. Bu baxımdan, Ululu Kərimin müraciətləri diqqət çəkir:

Firqətindən, ey dilbəra,
Təngə yetib cana gəldim.
Sənsiz bu xəstə könlümün
Əlindən amana gəldim (Ululu Kərim, 169).

Burada "ey dilbəra" xitabı aşıq poeziyasından çox, klassik üslub materialı kimi qəbul edilir. Belə ki, o arxaik müraciət forması kimi son saiti ilə "ay", "ey" çağırış nidasını ifadə edir. Sözün əvvəlində gələn "ey" nidası ikiqat müraciət mənası bildirərək sözün bədii təsir gücünü artırır. Türk, o cümlədən Azərbaycan təfəkkürünün bədii cəhətdən

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

zənginliyi, dilinin mayasındakı poetik təb onun lüğət tərkibindəki leksik anlamı olmayan sözlərin də obrazlılıq bildirmək məziyyətini təsdiq edir.

Məni bu dildəki nalə,
Saldı bir özgə xəyalə.
Getdim, yetmədim vüsalə,
Yenə yana-yana gəldim (Ululu Kərim, 169).

Şerin dilində ismin yönlük halında işlənən "xəyal", "vüsal" sözlərində dilimizin maraqlı və milliliyi ilə seçilən fonetik qanunlarından olan ahəngin pozulması (qalın sait əvəzinə incə saitin işlənməsi) da klassik üslub elementlərindəndir ki, bunu Ululu Kərimin yaşadığı dövr xüsusiyyətləri ilə bağlamaq olar. Lakin əsərdə səslərin ahəngdarlığı yüksək səviyyədədir ki, bu, poetik irsimizdən qalan əlamət kimi dəyərlidir.

Klassik üslubda yazılan əsərlərin mətnində dilimizin qanunları çərçivəsinə salınmış bir sıra alınma sözlərin ahəngə uymaması halları çoxdur və hətta poetik dildə bu, uzun illər ənənəyə dönmüş hadisələrdəndir. Aşıq dili xalq danışığına əsaslandığından belə faktlar klassik ənənənin digər yazarlar kimi aşıqlar tərəfindən də davam etdirildiyini göstərir.

Bir zaman kuyində qalsam,
Qolumu boynuna salsam,
Küfr zülfün ələ alsam,
Elə bil, imana gəldim (Ululu Kərim, 169).

Şerin dilindəki fars mənşəli "kuy" sözü "küçə", "məhəllə", "keçiləcək yer" anlamlarını daşıyır (Ərəb və fars sözləri lüğəti, 1985: 292). Ululu Kərimin dilində "kuyində" sözü "yanında" leksik-qrammatik vahid kimi işlənmişdir. Buradakı "küfr" sözü maraq doğurur.

Belə ki, lüğətlərimizdə mənfi mənada (kafirlik, Allaha inanmama, dinsizlik, inamsızlıq, söyüş) işlənən bu söz "iman" sözü ilə təzad təşkil edir. Saçlara aid bu sözü epitetləşdirən aşıq bədiiliyin dərinliyini yaradır. Zülfləri ələ ala bilməyən aşıq onları kafir sayır, bu arzuya çatmağı isə imana gəlməklə müqayisə edir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Hicrində qaldım avarə,
Rəhm edən yox dili zarə,
Sən özün elə bir çarə,
Kim, sizin divanə gəldim (Ululu Kərim, 170).

Gəraylının bu bəndində də dil tarixi faktı ilə qarşılaşırıq. Məlumdur ki, tarixi qrammatika materialları ədəbi dilimizin qədim və orta dövründə (hətta bəzən yeni dövrün ilk mərhələlərində) "ki" tabelilik bağlayıcısının sonu samitlə bitən qapalı hecaya malik söz kimi işləndiyini göstərir. Bu bağlayıcı "müasir ədəbi dilimizdə "ki" şəklində sabitləşmişdir, qərb şivələrində isə ilkin formasına yaxın, daha dəqiqi, "kin" şəklində mühafizə olunur: de:r kin, yazer kin. XVIII əsrə qədərki dilimizdə ki//kim paralelliyinə təsasdüf edilsə də, "kim" formasının aktivliyi qabarıq şəkildə görünür" (Tanrıverdi, 2017: 369). Bu baxımdan, aşağıdakı örnək də səciyyəvidir:

Niyə Aşiq unudubdu hər karı,
Sevibdi bir şuxi-çeşmi-xunxarı.
Ol yanağı mahı, lalə rüxsarı
Necə qıyar zülfü pərişan gəzər (Ululu Kərim, 171).

Məlumdur ki, tarixi qrammatikamızda "o" işarə əvəzliyi "ol" şəkilində işlənib. Bu xüsusiyyət Ululu Kərimin dilində qorunub saxlanmışdır.

Hətta XX yüzilin əvvəlinə qədər həmin işarə əvəzliyinin arxaik variantı işlək olmuşdur.

Aşiq, yamandır zamanə,
Etibar olmaz xubanə,
Qoymuşam mərdü-mərdanə
Bu başı meydana, gəldim (Ululu Kərim, 170).

Göründüyü kimi, sözügedən "Gəldim" rədifli gəraylının dilində çox sayda alınma söz və izafət tərkibləri vardır. Lakin aşıq onları elə bir səviyyədə milli sözlərin əhatəsinə salır ki, sözlərin dilimizə xas olmadığı hiss edilmir. Bu anlamda, aşağıdakı misralar da maraqlıdır:

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Ey gözləri cəllad, qəməri mövzun,
Bu qədər bəndəni eyləmə dilxun.
Sərgəştəyi-aləm, hali didərgin
Biri mənəm, biri, yarəb, kim ola?
(Ululu Kərim, 170).

Buradakı on səkkiz söz və bir ifadənin (sərgəştəyi-aləm) onu alınmadır və birinci misradakı "mövzun" sözü poetik dildə işlənmə səviyyəsinin aşağı olması ilə seçilən maraqlı leksik-qrammatik vahidlərdəndir. "Yaraşıqlı", "biçimli", "uyğun" mənasında olan bu söz yertinə düşmüş və ikinci misradakı "dilxun" (kədərli, qüssəli) sözünə qafiyə seçilmişdir. Əsərin dilində diqqətəlayiq faktlardan biri sual cümlələrinin işləkliyidir:

Fələyin əlindən qalan ahu-zar,
Biri mənəm, biri, yarəb, kim ola?
Gülü rüxsarına çəkən intizar
Biri mənəm, biri, yarəb, kim ola?
(Ululu Kərim, 170).

Şerin mətnində dörd sual cümləsi işlənmişdir ki, digər cümlə növlərindıən sayca az olsa da, üslub inkanlarına görə öndə gəlir. "Cümlə nitqin əsas vahidi olmaqla müxtəlif üslub çalarlarına malikdir. Heç bir dil vahidi cümlənin funksiyasını yerinə yetirərək fikir ifadə edə bilmir. Cümlə isə onun mənasını, müstəqilliyini müəyyən edən qrammatik əlamətlərlə fikir ifadəsinə xidmət edir. Cümlə fikir mübadiləsinin bütöv vahididir və o, əşya və hadisələri adlandırmaqla bitmir, obyektiv varlıqda özünü göstərən müəyyən əlaqəni bildirir" (Həsənova, 2005: 79). Bu baxımdan, sual cümləsi müxtəlif yol və üsullarla reallaşaraq üslub gözəlliyini artıran vasitə kimi diqqəti çəkir.

Məlumdur ki, hər bir cümlədə elə üzvlər olur ki, onlar mənaca üstünlük təşkil edir. Sual cümlələrində fikrin məzmununa görə hansı üzv gərəklidirsə, həmin üzv anlam baxımından digərlərindən fərqlənir. Sözsüz ki, həmin üzv, əsasən, sual əvəzliyi ilə ifadə olunan üzv olur. Aşıq Ululu Kərimin dilində seçilən üzv bir tərəfi sual əvəzliyindən ibarət olan arzu şəklindəki mürəkkəb quruluşlu (tərkibi) feildir. Lakin əsas məna yükünü daşımaqda "yarəb" dini müraciəti də az iş görmür:

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Kərimin könlünü eyləmə viran,
Zülmündən usanıb halına bir yan.
Hicran ələmindən didəsi giryan
Biri mənəm, biri, yarəb, kim ola?
(Ululu Kərim, 170)

Burada fikrin məzmununu gücləndirmək baxımından sual sözü ilə xitab üstün mövqelidir. Xitablar və sualların qoyuluşu elə bir gözəllik yaradır ki, onların bu qədər üslub keyfiyyətlərinə malikliyi heyrət doğurur. Xitabın əsrarəngiz üslub gözəlliyi yaratması hələ klassik ədəbi dilimizdən bəllidir. Bu cəhətdən, Nəsiminin dil-üslub keyfiyyətlərində xitabın üstün rolu artıq sübut olunmuşdur. Şairin yeddi beytdən ibarət "Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım, Rəfiqim, həmdəmim, ömrüm, rəvanım, dərdə dərmanım" mətlə beytli bir qəzəli yalnız xitablardan ibarətdir. "Belə ki, bu qəzəldə heç bir müstəqil cümlə və beləliklə, bitkin fikirli bir misra ilə qarşılaşmırıq. Qəzəl 66 xitabdan təşkil olunub (Həsənova, 2020: 22). Dilimizdəki bəzi nəzəri-qrammatik mühakimələri alt-üst edən, yəni dilçilik elmində xitabın yalnız müraciət olunanı bildirməsi haqqında mülahizələr formalaşdıran bu fakt çox diqqətədəyərdir. Ululu Kərimin dilində də xitab sual sözləri ilə bir ortama gətirilərək güclü bədii ovqata yol açmışdır. Aşığın dilində xitab hər hansı bir fikrin, bitkin düşüncənin, dərin hiss və həyəcanın açarı rolunu oynayır. Bu prosesdə aşığın dilə münasibətinin də əhəmiyyəti çoxdur. "Sənətkarın bədii əsər üzərində, dil üzərində işi xüsusi, şəxsi iş deyildir, ümumxalq işidir. Ümumiyyətlə, bədii ədəbiyyatın taleyi bədii dilin vəziyyətindən çox asılıdır. Deməli, bədii əsərin dili məsələsi mühüm ictimai mənaya malikdir" (Adilov, 2020: 253). Ululu Kərimin dilində bir sıra aforizm səciyyəli fikirlərlə qarşılaşmaq olar ki, onlar dilimizin hikmət xəzinəsinə maraqlı töhfə kimi dəyərləndirilməyə layiqdir:

Fürsət əldə ikən yaxşılıq eylə,
Həmişə əlində ixtiyar olmaz.
Gəl güvənmə dövlətinə, malına,
Mala, mülkə, ömrə etibar olmaz
(Ululu Kərim, 171).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Bu hikmətli ifadələr göstərir ki, şeir adi hadisənin təqdimi deyil, ona subyektiv yanaşmadır:

Dörd yanımız bağça ola, bağ ola,
Sinəm üstü düyün ola, dağ ola.
Bir kiçik ki böyüyünə ağ ola,
Düşər el gözündən, bəxtiyar olmaz
(Ululu Kərim, 171).

Ululu Kərimin dilində cinasyaratma bacarığında seçkinlik qazanan Sarı Aşığı xatırladan aşağıdakı örnək də vardır:

Ululu Kərimi axtaran tapar,
Bir könülü yapan Kəbəni yapar.
Sən çalış işini Haqq ilə apar,
Haqdan qeyri kimsə sənə yar olmaz
(Ululu Kərim, 171).

Sarı Aşıq deyirdi:

Mən aşığam yüz qandı,
Əlli qandı, yüz qandı.
Kəbə yıxmaq bir evdir,
Könül yıxmaq yüz qandı
(Pirsultanlı, 2011: 88).

Baxmayaraq ki, sözügedən aşıqların əsərləri müxtəlif janrlara aiddir, "Bir könülü yapan Kəbəni yapar" deyən Ululu Kərimin düşüncələri Sarı Aşığın fikirləri ilə səsləşir. Əsərin dilindəki "yapmaq" feli ümumtürk leksikasına aid vahidlərdəndir. Türk dilində iyirmidən çox məqamda işlənən bu söz XX yüzilin birinci yarısına qədər dilimizdə işlənmiş, sonralar passiv leksikaya daxil olmuşdur.

Bilirsənmi, könlüm, yar, səndən ayrı
Necə miskin-miskin, natəvan gəzər?
Düşüb səhralara şeydalar kimi
Gecə-gündüz bilməz, hər zaman gəzər
(Ululu Kərim, 171).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

İkinci misradakı “miskin-miskin” tərz zərfliyi diqqəti cəlb edən poetik sintaksis örnəyidir. Təkrar sözlərdən ibarət cümlə üzvləri poetik dildə əhəmiyyətli rol oynayır. Ümumiyyətlə, bədii dildə təkrarın müstəsna xidməti vardır. Poetik dildə qrammatiklikdən bədiiliyə keçən təkrar qədim və maraqlı üslub vasitəsidir. Təkrardan poetik göstərici kimi istifadə sənətkarlardan xüsusi bacarıq tələb edir. Ululu Kərimin dilində ritmi ilə yadda qalan poetik örnəklər də vardır:

Bir dilbəri-əla, çeşmi məstanə,
Qüssəsindən könül oldu viranə.
Bilmirəm ki, neyləmişəm canana,
Hər görəndə məndən belə yan gəzər
(Ululu Kərim, 171).

Ritmi şeir dilinin əsası hesab edənlər yanılmayıblar. Xüsusilə də adi söz və ifadələrin “üslublaşması” prosesində ritm mühümdür.

Dildə üslub faktlarının işlənmə məqamlarının bolluğu söz adamlarının sənətkarlığı ilə bağlıdır. Söz sənətkarlığı az və ya çox dərəcədə əlinə qələm alanların (və ya bədahətən söz deyənlərin) hamısında vardır. Bu sənətkarlığın inkişafını təmin edənlər, onu irəli aparanlar əsl sənətkarlardır.

Firqətindən qara bağrım olub su,
Alıbdı qərarım, ol zülfü keysu.
Mən olmuşam ləlü-ləbindən ayru,
Deyərlər ki, cismimdə bəs can gəzər
(Ululu Kərim, 171).

Ululu Kərimin şeir dili zamanının ədəbi dil xüsusiyyətlərini qoruyur və bir daha təsdiq edir ki, aşıq poeziyası dilimizin bədii ləyaqətini qoruyan qiymətli qaynaqlardandır.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 42-49**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 42-49**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Kərim U. Aşıq ədəbiyyatı antalogiyası (Aşıq poeziyası). Bakı: Xalq Bank, s.169-171.
2. Ərəb və fars sözləri lüğəti. (1985). Bakı: Yazıçı, 1036 s.
3. Tanrıverdi, Ə. (2017). Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 538 s.
4. Həsənova, S. (2005). Nitq mədəniyyəti və üslubiyyat. Bakı: ADPU, 126 s.
5. Həsənova, S. (2020). Dilimiz varlığımızdır. Naxçıvan: Əcəmi, 208 s.
6. Adilov, M. (2020). Bədii dilimizin bəzi məsələləri. Əsərləri, VIII c. Məqalələr (1955-1969-ci illər). Bakı: Elm və təhsil, s.253-259.
7. Pirsultanlı, S.P. (2011). Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi. Bakı: Azərnəşr, 156 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 50-54**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 50-54**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Mirvari İsmayılova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
ismayilova.mirvari1960@gmail.com
https://orcid.org/0000-0002-2085-544X

# ZƏNGƏZURUN TÜRK MƏNŞƏLİ ETNOTOPONİMLƏRİ

***Açar sözlər:*** *etnotoponim, toponim, oykonim, areal, oronim*
***Keywords:*** *ethnotoponym, toponym, oikonym, areal, oronym*

*Çıraqlı* qədim oğuz yurdu Zəngəzur bölgəsinin Laçın rayonu ərazisində qeydə alınmış toponimdir. Çıraqlar//Çırak//Çiraq − coğrafi adı əsasında yaranmış oykonim və oronimlərin areallarına istər Azərbaycan ərazisində, istərsə də respublikamızdan kənarda Özbəkistan və Dağıstan ərazilərində rast gəlmək olar. Kəlbəcər rayonunda Çıraqlı kəndi, Xocavənddə Çıraqüz, Şabranda Çıraqqala dağı, Göyçayda Çiraqlılar bulağı hidronimi, Daşkəsəndə Çiraq kəndi, Şamaxıda Çıraqlı adlı kənd və yaylaq, Özbəkistanda Çiraqçı rayon və kənd adı, Dağıstanda Çirakçay, Çirak kəndi, Qərbi Azərbaycanda Çiraklı və s. toponimləri qeydə alınmışdır.

M.Seyidov türk mənşəli sak tayfalarında da *çiraq* sözünün fonetik variantı olan Çiraq şəxs adının olduğunu bildirmişdir.

T.Əhmədov, eləcə də bir sıra başqa tədqiqatçılar bizim də qəbul etdiyimiz belə bir mülahizə yürüdürlər ki, yuxarıda adı çəkilən çıraq sözü ilə bağlı coğrafi adların, demək olar ki, hamısı eradan əvvəl Cənubi Qafqaza və Azərbaycan ərazilərinə gələrək burada məskunlaşmış türk mənşəli *siraq//çiraq//şirak* tayfalarının adını əks etdirir.

XIX əsrin 60-cı illərində 62, 80-ci illərində isə 79 ailədən ibarət çiraqlı adlı bir tayfanın Cavad qəzasında maldarlıqla məşğul olduğu qeyd olunur.

Hidronimin ikinci komponenti olan bulaq sözü "yerin altından sızıb çıxan su mənbəyi; çeşmə, qaynaq; mənbə, qaynayıb daşan şey (yerin altı nəzərdə tutulur)" mənasındadır.

*Seyidlər*. Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında Qərbi Azərbaycanın Sisyan mahalında, Laçın və Zəngilan rayonları

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

ərazisində qeydə alınmış Seyidlər toponiminin areallarına, demək olar ki, respublikamızın əksər rayonlarının ərazisində rast gəlmək mümkündür. Hazırda respublikamızın ərazisində Seyidlər (Gəncə), Seyidəkəran (Lənkəran), Seyidsadıqlı, Seyidan (Salyan), Seyidqışlaq (Qəbələ), Seyiddişen (Xankəndi), Seyidlikəndyeri (Xaçmaz), Seyidbazar (Cəlilabad), Seyidimli (Tərtər), Seyidli (Ağdam), Seyidli, Seyidbəyli (Şuşa), Seyidlər (Zəngilan, Kəlbəcər, Göy-göl, Zərdab, Salyan, Xaçmaz) adlı toponimlər mövcuddur.

Vaxtilə İrəvan quberniyasının Zəngibasar mahalında Seyidkəndi, 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Seyidkulu, İrəvan quberniyasının İrəvan qəzasında Seyidkotanlı, Bazarkeçər rayonunda Seyidlər, Vedi rayonunda Seyidlər kotanlısı, İrəvan xanlığının Dərələyəz mahalında Seyid Məmiş kəndləri mövcud olmuşdur.

Orta əsrlər dövründə Şirvanda Qubaz, Babasəmid, Dərvişlər, Tələ, Cavad, Nügədi, Əbüdal və başqa camaatla yanaşı, Aralıq Seyidlərin də yaşadığı göstərilir.

M.H.Vəliyev (Baharlı) yazır: *"Seyidlər ərəb tayfası hesab olunurlar. Səfəvilər zamanından başlayaraq Azərbaycana gəlmişlər. Seyidlər ərəblərin qüreyş qəbilələrindəndir. Peyğəmbərimiz Məhəmməd Əleyhissəlam da bu qəbilədəndir. Seyidlər İran Azərbaycanından bura gələnədək türkləşmişlər".* Azərbaycan tarixində türkləşdirilmiş seyidlərin Caraca (Hindistan) əyalətindən Nadir şah tərəfindən Salyan vətəgələrinə sürgün edilməsi göstərilir.

Seyidlər adlı yaşayış məntəqələrini Ayrım tayfasının Seyidlər qolu ilə bağlayanlar da vardır.

Mənbələrdəki faktların müqayisəsi bir daha göstərir ki, Seyidlər orta əsrlərdə, Nadir şahdan əvvəl də Azərbaycanda yaşamışlar. A.Axundov ərəblərlə əlaqədar yer adlarının iki şəkildə özünü göstərdiyini yazır: "1) ərəb toponimik arealına daxil olan yer adlarında ərəb etnonimi işlənir; bəzi toponimlərdə bu tərkib hissəsi əvvəldə, bəzilərində isə axırda gəlir; 2) ərəb arealına aid digər qrupa daxil olan yer adları seyid sözü əsasında yaranan toponimlərdir".

Deməli, tərkibində *seyid* sözü olan toponimlər ərəblərlə bağlıdır. Seyidlər mənşə etibarilə ərəb olmalarına baxmayaraq, Azərbaycan xalqı ilə qaynayıb-qarışdıqdan – türkləşdikdən sonra Azərbaycan toponimiyasında iz qoymuşlar.

*Ulaşlı* Qubadlı rayonu ərazisində qeydə alınmış etnotoponimdir.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Ulaşlı etnotoponimini ilkin olaraq, "Ulaş+lı" formasında izah etsək, birinci komponent *ulaş* oniminin yazılışına mənbələrdə müxtəlif variantlarda və mənalarda rast gəlmək olar. İkinci komponent "-lı" şəkilçisi burada mənsubiyyət, aidlik bildirmişdir. M.Kaşğarlının "Divan"ında "ula", "ulaş", "uluş", "uluğ" sözləri iki əsas fərqli mənada göstərilir: 1) çöldə əlamət, bəlgə, yol nişanı; 2) çatmaq, tapışmaq, calamaq, əlavə etmək. *Ulaş* sözü isə "çatmaq, bitişmək, birləşmək" mənasında verilmişdir. "Bir nənq birgə ulaşdı – Bir nəsnə bir nəsnəyə çatdı". Mənbədə *ulas* sözünədə rast gəlmək olur. Lakin həmin söz "köz" ilə birləşmədədir. "Ulas köz – xumar göz".

Orxon-Yenisey abidələrində *ulaş* sözü deyil, *ula* feili vardır və "bağlamaq, qoşmaq, qoşulmaq, ardınca getmək" mənaları verilir. Göründüyü kimi, Orxon-Yenisey abidələrindəki "ula" və Mahmud Kaşğarlıdakı "ula", "ulaş" yaxın semantikalı sözlərdir. M.Kaşğarlıdakı *uluş* sözü "kənd" anlamındadır. Bu mənbədə *uluğ* sözü "ulu, böyük; uca, ululuq, böyüklük" anlamında keçir.

"Kutadqu-Bilik" abidəsində də qeyd olunan sözlər M.Kaşğarlıda verilmiş mənalarda qeydə alınır.

DTS-də yuxarıda verilən sözlərdən başqa, *ul* sözü M.Kaşğarlıda olduğu kimi, "əsas, təməl, özək" mənasında izah olunur.

V.Aslanov ulu//uruk//uluğ sözlərinin "uca" mənasında işləndiyini, eyni semantik kökə, mənşəyə malik olduğunu qeyd etmişdir.

Lakin "Kitabi-Dədə Qorqud" dastanında Ulaş, antroponim kimi qeyd olunmuşdur: "İçib-içib Ulaş oğlu Salur Qazanın alnına şərabın itisi çıqdı".

F.Sümər Rəşidəddinə istinadla qeyd edir ki, əfsanəvi tarixə görə, oğuz hökmdarı Dib Yavkunun böyük bəylərindən biri Ulaş və onun oğlu Ulat salurlardandır. KDQ-dəki "Ulaş oğlu Salur Qazan" ifadəsi də bunu təsdiq edir. Qazan xanın atasının adı Ulaş olmuşdur. F. Sümər yazır: *"Tarsus bölgəsində böyük boylardan biri ulaş boyu idi. Ulaş boyun başçısı olan bir bəyin adıdır. ...Ulaş boyunun yurdu Tarsusun şimal-qərbdən başlayıb Bulqar dağınadək uzanırdı. Böyük bir təşəkkül olan Ulaş boyu bayandır (41 cəmaət), Orxan bəlü və s. obalara ayrılmışdı. ...Ulaş ailəsinin boyun hansı obasına mənsubiyyəti məsələsinə gəlincə, ağla gələn ilk ehtimal onların bayandırlardan olmasıdır. Çünki boyun ən böyük obası bayandırlardan meydana gəlmişdir. Ulaş adı isə ailənin salurlardan olması ehtimalını təlqin edir".*

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Qeyd edək ki, Ulaş şəxs adı müasir qazax antroponimiyasında bu gün də yer alır. A.Bayramov göstərir ki, Ulaş şəxs adı müasir dilimizdə işlənməsə də, Ulaş şəxs adından törənmiş tarixi etnotoponimlər Qafqazda qalmaqdadır. Belə ki, Borçalıda (Ulaşlı), Qubadlıda (Ulaşlı), Göyçayda (Ulaşlı Şıxlı), keçmiş Dərəçiçək mahalında (Ulaşıq) kənd adları vardır. Bunlardan başqa, Pəmbək dağ silsiləsində Ulaşıq dağı, Göyçə dağ silsiləsində Ulaşıq adlı çay olmuşdur. Maymaq dağının ətəyindəki bir kəndin adı Ulaşlı olmuşdur. Ulaşlı toponiminin belə areal xüsusiyyəti kəsb etməsi də onların Qafqazda yaşamış tayfa adından yaranmış etnotoponimlər olmasını təsdiq edir. Ulaş derivatlı etnonimlərin kökündə Ulaş şəxs adı dayanır. Həmin şəxs adının kökündə *ula-(maq)* feilidir. Bu feil bir çox türk dillərində ulaşmaq "çatmaq", "birləşmək", "qovuşmaq", "çağırmaq" mənalarında indi də işlənməkdədir. Ula sözünə qoşulan "-ş" feildən isim və feildən feil düzəldən şəkilçidir. Ulu və ula sözlərinin kökü homogendir. Yeriş, tanış, sarış və s. sözləri də ulaş sözləri ilə eyni modeldədir.

Bəzi tədqiqatçılar Ulaşlı toponiminin Hılaşlıdan törəndiyini qeyd edirlər. Onların fikrinə görə, toponim tarixən mənbələrdə Hilaşlı şəklində yazılmışdır. XI əsr yazılı mənbələri də sübut edir ki, bu oykonim erkən orta əsrlərdə Şimali Qafqazda yaşamış hulaşlar tayfasının (Suriya mənbələrində Kulaş) adı ilə bağlıdır. Ərəb mənbələrində onlardan Xəzər tayfalarından biri kimi bəhs olunmuşdur. XII əsrədək Volqa çayının sahilində bulqarların Hulaş şəhəri olmuşdur. Hulaşların bir qismi müxtəlif vaxtlarda xəzər, bulqar və suvarların tərkibində Azərbaycana gəlmişlər. Keçmiş Borçalı qəzasında (Gürcüstan) Hulaş//Kulaş, Dağıstanda Ulaşlı kəndi, Ermənistan (XVII əsrdə) və Qazaxıstan (XVIII əsrdə) ərazilərində Kulaş yaşayış məntəqələrinin adları hulaşların adı ilə bağlı olmuşdur.

Q.Qeybullayev "kul+as – kulas" sözünün xəzərlərə aid tayfa adı olmasını, bu etnonimin Qubadlı, Göyçay rayonlarındakı Ulaşlı, Dağıstandakı Ulaşlıkənd, Gürcüstandakı Hulaş və Ermənistanda XVII əsrdə olmuş Ulaş toponimlərinin əsasında durmasını qeyd edir. Bu məlumatdan belə çıxır ki, etnonim *kulaş, hulaş, ulaş* formasında fonetik dəyişikliyə uğramışdır.

Fikrimizcə, KDQ kimi tarixi abidədə heç bir fonetik dəyişikliyə uğramadan Ulaş kimi işlənmiş adın daha əvvəllər Hulaş fonetik variantında işlənməsi şübhə doğurur. Ulaş, bayandırlardan olan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

salurların ulaş boyu ilə bağlı etnonimdir. Buna baxmayaraq, Ulaşlı etnotoponimi haqqında elmi ədəbiyyatda müxtəlif fikirlərin söylənməsi əvvəllər olduğu kimi, indi də davam edir.

M.Seyidov Ulaş etnonimi haqqında yazır: *“Ulaş” ula+aş//əş tərkibindən ibarət mürəkkəb sözdür. Ula bir sıra türk dillərində “təpə”, “kiçik dağ”, “ucalıq” deməkdir”.*

K.Bəşirovun da Ulaş adı ilə bağlı araşdırmaları maraqlıdır. Müəllif yazır ki, Ulaş sözü mənbələrdə ulu (yüksək, böyük), uluş (el, oba) və ulamaq (böyürmək) kimi bir-birindən çox da uzaq olmayan mənalarda işlənmişdir.

Yuxarıda adı çəkilmiş müəlliflərin izahlarında bəzi semantik məna fərqi olmasına baxmayaraq, mahiyyət etibarilə əksəriyyəti eyni fikirdədir.

N.Əsgərov Ulaş onomastik vahidini etnotoponim hesab edərək, adı çəkilən tayfanın əsasında Ulaş antroponiminin dayanması fikrini söyləmişdir. Müəllif tədqiqatında başqa tədqiqatçıların fikirlərinə də münasibət bildirərək göstərmişdir ki, T.Nafasov Özbəkistan Respublikasının Şəhrisəbz rayonunda Ulaş adlı oykonim haqqında məlumat verərkən, bu adın tarixi mənbələrdə Oliş, Ulaş, Ulaç variantında yazıldığını qeyd edir. O, Ulaş sözünün semantikasını “qışlaq”, “şəhər” kimi mənalandırır. Müəllif başqa bir tədqiqat əsərində Ulaş adının mənasını “dərya suyu, arx” kimi izah etmişdir. N.A.Baskakov Ulaş (Ulaşeviç) adınının izahını “tale, qismət” kimi vermişdir. Tədqiqatçı kulas və ulaş etnonimləri arasındakı yaxınlıq barədə də fikri diqqət mərkəzinə çəkdikdən sonra sonda belə bir qənaətə gəlir: *“Biz Ulaş onomastik vahidini etnotoponim hesab edir və bu tayfanın əsasında bir çox etnoslarda olduğu kimi Ulaş antroponiminin dayandığını görürük”. Biz də, Ulaşlı etnotoponiminin antroponim əsasında formalaşması qənaətinə üstünlük veririk.*

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 55-72**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 55-72**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Hacı Həsənov**
A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix elmləri doktoru
hacihasanov@mail.ru
**Elmar Məhərrəmov**
A.A.Bakıxanov adına Tarix İnstitutu
elmarmaharram@mail.ru
**Zeynəb Qafarova**
A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
kafarovazeynab@gmail.com

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ZƏNGƏZUR ELİMİZİN MƏDƏNİ HƏYATININ TARİXİNDƏN

***Açar sözlər:*** *Qafqaz, Azərbaycan, Zəngəzur, mədəniyyət, Seyid Nigari*
***Keywords:*** *Caucasus, Azerbaijan, Zangazur, culture, Seyid Nigari*

XIX − XX əsrin əvvəllərində bütün Şimali Azərbaycanda olduğu kimi, əzəli torpaqlarımız − Zəngəzur ellərimizdə də müstəmləkəçi rejim hökm sürsə də, çarizm milli mədəniyyətimizin inkişafı qarşısına maneələr yaratsa da, bölgədə yeni mədəni inkişaf meyillərinin qarşısını almaq mümkün olmamış, Zəngəzur ellərimizdə mədəniyyətimizin tanınmış xadimləri yetişmişdilər.

XIX əsrin sonlarında sürətlə inkişaf etməkdə olan kapitalist iqtisadiyyatının sənayenin müxtəlif sahələrində texnikaya xidmət göstərməyi, kənd təsərrüfatını səmərəli surətdə qurmağı və ən yeni nəqliyyat vasitələrini idarə etməyi bacaran təhsilli ixtisaslı mütəxəssislərə tələbatın artması Şimali Azərbaycanda ümumtəhsil və peşə məktəblərinin sayının müəyyən qədər çoxalmasına, onların təhsil səviyyəsinin yüksəlməsinə səbəb oldu.

İbtidai məktəblər haqqında 1867-ci il Əsasnaməsi Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın təhsil müəssisələri üçün sonuncu xüsusi nizamnamə oldu. Çarizmin köhnə xalq təhsili sisteminin yeniləşdirilməsi siyasəti XIX əsrin 70-ci illərindən etibarən Şimali Azərbaycanda da böyük qətiyyətlə həyata keçirilməyə başladı. Yerli dillər, o cümlədən də Azərbaycan dili icbari fənlər sırasından əsasən

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

kənar edildi. Xalq Maarifi Nazirliyinə tabe olan bütün məktəblərdə təlim ancaq rus dilində aparılırdı. Azərbaycan və digər yerli dillərdə ümumtəhsil məktəbləri açmağa icazə verilmirdi. “Rusiyada məskun olan yadellilərin təhsilinə dair tədbirlər haqqında” 1870-i il 26 mart tarixli “Qaydalar”ın da mahiyyəti ruslaşdırma siyasətinə tabe edilmişdi.

1872-ci il 13 may Əsasnaməsi ilə Şimali Azərbaycanın bütün qəza məktəbləri altıillik təhsil müddəti olan pullu şəhər məktəblərinə çevrildi. İbtidai məktəblər haqqında 1874-cü il 24 may Əsasnaməsi təhsilin aşağı həlqəsi üzrə iki məktəb tipini təsdiq etdi: üçillik təhsil kurslu birsinifli və beşillik təhsil kurslu ikisinifli məktəblər. Beləliklə, Şimali Azərbaycanda kənd əhalisi üçün xüsusi məktəblər meydana çıxdı.

Ana dilində savada yiyələnmək cəhdi minlərlə uşağı mollaxana məktəblərinə cəlb edirdi. Əvvəlki dövrdə olduğu kimi, yenə də say üstünlüyü bu məktəblərin tərəfində idi. Orta əsrlərdən başlayaraq Azərbaycanda təhsil mollaxana, məktəb və mədrəsələrdə aparılırdı. Rusiya işğalından sonra da ölkənin şimalında ibtidai təhsil bütövlükdə müsəlman ruhanilərin ixtiyarında olan məktəblərdə − mollaxanalarda cəmləşmişdi (Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza, 1890: 1-6). Bu məktəblərdə, adətən, öncə düzgün yazmağı və oxumağı, sonrakı üç-dörd ildə isə Quran öyrədilirdi. Qurandan sonra fars dilində yazılmış “Gülüstan” Azərbaycan dilinə tərcümə edilərək uşaqlara oxutdurulurdu. Ondan sonra uşaqlara atadan oğula verilən nəsihətlər toplanmış “Çörək və halva” kitabı tədris olunur, həmçinin “Leyli və Məcnun” poeması da öyrədilirdi.

Şimali Azərbaycanın digər qəzalarında olduğu kimi, Zəngəzur qəzasının, demək olar ki, bütün kəndlərində əvvəlki məktəb-mollaxanalar fəaliyyət göstərməkdə davam edirdi. Seyid Nigari kimi tanınmış bir şəxsiyyətin və b.-nın bu bölgədən çıxması bu mollaxana məktəblərində təhsilin səviyyəsinin heç də sovet və Rusiya tarixşünaslığının iddia etdiyi kimi, primitiv olmadığını göstərirdi.

XX əsrin əvvəllərində də belə məktəblər fəaliyyətlərini davam etdirmişlər. Zəngəzur qəzasının Sisyan mahalının Şəki kəndində və Qafan mahalının Kurud kəndində 9-10 il təhsil verən ibtidai mədrəsə olmuşdur. 1900-1917-ci illərdə Şəki məktəbində Qazı Məmməd Əfəndinin mədrəsəsində təhsil almış şagirdlər Nuxada təsdiq olunduqdan sonra kəndlərdə mollalıq etmək hüququ alırdılar. Kurud kənd mollaxanasında

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

dərs deyən Axund Əbdürrəhman Hacı oğlu Tehranda ali mədrəsə bitirmişdi. Sisian mahalının Urud kəndindəki 9 illik məktəb-mollaxana daha mütərəqqi olub, dini ayinləri öyrətməkdən başqa, dünyəvi elmlərdən də məlumat verirdi. Həmin mollaxanada dərs deyən Mirzə Sadıq Axundzadə Təbrizdəki Ali mədrəsəni bitirmişdi (Urud, 2005: 172-504). Urud, Şəki və Kürdük kənd məktəbləri yerli xeyriyyəçilər tərəfindən maliyyələşdirildiyindən burada oxuyan şagirdlər təhsil haqqı verməkdən azad edilirdilər. Qapan (Qafan) mahalının Baharlı kəndində molla İsmayıl İmaməli oğlu, Gığı kəndində molla Fərzəli Piriyev, Şəhərcik kəndində molla Tağı, Sisyan mahalının Şıxlar kəndində molla Ələsgər və molla Səmənd, Dəstəgird kəndində molla Nuşirəvan, Vağədi kəndində molla İbrahimxəlil ibtidai təhsil verən mollaxanalar açmış və ayda cüzi təhsil haqqı almaqla şagirdlərə oxumağı və yazmağı öyrətmişdilər (Urud, 2005: 172-504).

1874-cü ildə Gorus camaatının Gorusda məktəbin açılması üçün İrəvan və Yelizavetpol xalq məktəbləri müdiriyyətinə müraciətindən sonra idarənin təklifləri əsasında xəzinə hesabına layihə hazırlanaraq məktəb binasının tikintisi işlərinə başlanılması qərara alındı. Lakin idarə məktəb binasının tikintisinin gec olacağını nəzərə alaraq, açılacaq məktəb üçün ayrıca binada dərslərin keçilməsinin mümkünlüyü məqbul hesab olundu (Kavkazskiy kalendar' na 1877, 1876: 28). 1877-ci ildə Gorusda, nəhayət, birsinifli kənd normal məktəbi açıldı. Gorus birsinifli kənd normal məktəbi 1883-cü ildə şəhər məktəbinə, 1884-cü ildən ikisinifli kənd normal məktəbinə çevrildi. 1886-cı ildə bu məktəbdə ilahiyyat dərslərinini axund-molla axund-mirzə Abdulla oğlu tədris etməyə başladı. 1887-ci ildə Gorus birsinifli kənd normal məktəbi nəzarətçisi Qori müəllimlər seminariyasının məzunu Bahəddin bəy Köçərlinski təyin edildi. İlahiyyat dərsinin tədrisi molla Əlinağı oğlu molla Kazıma verildi. 1892-ci ildə artıq ikisinifli olan bu məktəbdə Bahəddin bəy Köçərlinskinin nəzarətçi, molla Əlinağı oğlu molla Kazımın ilahiyyat müəllim olaraq qalırdı (Kavkazskiy kalendar' na 1893 g., 1892: 240).

Lakin 1895-cü ildə 90 şagirdin təhsil aldığı Gorus kənd normal məktəbində ilahiyyat fənninin tədrisi müəllim olmadığına görə müvəqqəti olaraq dayandırılmışdı (Kavkazskiy kalendar' na 1896 g., 1895: 284). Zəngəzur qəzasının qəza mərkəzi olan Gorusda fəaliyyət göstərən, 1901-cü ildə saxlanmasına dövlət xəzinəsindən 1779 rubl

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

ayrılmış bu ikisinifli məktəbdə 88 şagird təhsil alırdı (Otchet o sostoyanii uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga za 1900 god, 1901: 59).

Zəngəzurun yerli əhalisi içərisində Avropa-rus təhsilin yayılmasında bünövrəsi bilavasitə XIX əsrin 80-ci illərinin əvvəllərindən qoyulmuş Qubadlı kənd məktəbinin də böyük rolu olmuşdur.

1882-ci ildə Zəngəzur qəza rəisi A.Karayevin təşəbbüsü ilə qəzanın 3 kəndində (Arsevanik, Qarakilsə və Qubadlı) Xalq Maarif Nazirliyinə məxsus üç şöbəli birsinifli kənd məktəbləri açılmışdır. Qubadlı kənd məktəbinin nəzarətçisi Muxtar Məmmədov təyin olunmuşdu. 1885-ci ildə birsinifli Qubadlı kənd məktəbinin nəzarətçisi vəzifəsində Qori müəllimlər seminariyasının məzunu Haşım bəy Nərimanbəyov çalışırdı. İlahiyyat dərsini Mirzə Rəhim Mirzə Kərim oğlu Qazıyev tədris edirdi. 1887-ci ildə molla Rəhim kərbalayi Zeynalabdin oğlu Burhanov ilahiyyat dərsini tədris etməyə başladı. 1890-cı ildə məktəb Lətif bəy Quliyevə verildi. Lətif bəy bu məktəbin həm nəzarətçisi, həm də müəllimi idi. 1899-cu ildə Qubadlı birsinifli kənd məktəbində 33 şagird oxuyurdu (Otchet o sostoyanii uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga za 1900 god, 1901: 59).

1885-ci ildə Qarakilsə birsinifli kənd məktəbinin nəzarətçisi Andrias Qerasimoviç Serebryakov olduğu, ilahiyyat dərsinin mirzə-axund Ələskər Mirzəəli oğlunun tədris etdiyi məlumdur. Sonrakı ildə Qarakilsə birsinifli kənd məktəbində ilahiyyat dərsini mirzə Əbdüləzim Ələskər oğlu tədris etməyə başladı. 1897-ci ildə 60 şagirdin təhsil aldığı bu məktəbin iki ilahiyyat müəllimi (molla Gülməmməd və Kərbəlayi molla Allahverdi oğlu) vardı (Otchet pochechitel'ya Kavkazskogo uchebnogo okruga o sostoyanii uchebnykh zavedeniy za 1899 god, 1900: 58). 1899-cu ildə Qarakilsə birsinifli kənd məktəbində 68 oğlan və 2 qız oxuyurdu (Kavkazskiy kalendar' na 1898 g., 1897: 313).

1890-cı ildə Minkənd kəndində birsinifli kənd məktəbi açılmışdır. Məktəbdə ilahiyyat dərsini molla Kərbəlayi Vəli oğlu keçirdi. 1897-ci ildə ilahiyyat dərsini molla İmran İsmayıl oğlunun keçdiyi məlumdur. 1899-cu ildə Minkənd birsinifli kənd məktəbində 31 şagird oxuyurdu (Otchet pochechitel'ya Kavkazskogo uchebnogo okruga o sostoyanii uchebnykh zavedeniy za 1899 god, 1900).

1897-ci ildə zemski hesabına ikisinifli 91 şagirdin təhsil aldığı Dığ kənd məktəbi açıldı. Xalq Maarif Nazirliyinin 1898-ci ildə 69 şagirdin

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 55-72**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 55-72**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

təhsil aldığı ikisinifli Xanzirək, həmin ildə nazirliyin 68 oğlan və 2 qızın təhsil aldığı birsinifli ikinci Gorus, 1899-cu ildə isə 32 şagirdin təhsil aldığı birsinifli Bazarçay kənd məktəbləri fəaliyyətinə başladı (Otchet pochechitel'ya Kavkazskogo uchebnogo okruga o sostoyanii uchebnykh zavedeniy za 1899 god, 1900).

1900-cü ildə Mehri və Permant məktəbləri açıldı. Mehri məktəbində 64 oğlan 42 qız təhsil alırdı. Məktəbin saxlanmasına 145 rubl ayrılmışdı. Permant məktəbində 64 oğlan təhsil alırdı ki, bu məktəbə 550 rubl xərclənməsi nəzərdə tutulurdu (Otchet pochechitel'ya Kavkazskogo uchebnogo okruga o sostoyanii uchebnykh zavedeniy za 1899 god, 1900: 57).

Həmin məktəblər qəzadakı kənd cəmiyyətlərindən (öz məktəbləri olan Mehri və Permant kənd cəmiyyətləri istisna edilməklə) toplanılan vəsait hesabına saxlanılırdı. Bu məqsədlə hər bir kəndli ailəsindən ildə 25 qəpik pul yığılırdı və qəza xəzinəsinə təhvil verilirdi. Bəzi kəndlər bu pulu iki dəfəyə (oktyabrın 1-i və aprelin 1-də) ödəyirdi. Bu məktəblərdən hər birinin illik xərci 850 rubl məbləğində müəyyən edilmişdi. Həmin pulun 400 rublu məktəb müdirinə, 100 rublu ilahiyyat müəllliminə, 120 rublu qarovulçuya, 80 rublu kitabxanaya, qalan 150 rublu isə dəftərxana və təsərrüfat xərcləri üçün nəzərdə tutulurdu. 1892-ci ildən bu məbləğ 680 rubla (müdir – 400, ilahiyyatçı və qarovulçunun hər birinə 100, kitabxanaya – 60 və qalan xərclərə 120 rubl) endirilmişdi. İlk illər məktəblər ildə 160 rubla kirayə edilmiş şəxsi mülklərdə, sonra isə məxsusi tikilmiş binalarda fəaliyyət göstərirdi. Hər binada cəmisi 3 otaq (sinif, müdir katibi və kitabxana) var idi. Şagirdlər çox olduğu üçün 1890-cı ildən etibarən illik məvacibi 360 rubl olan müəllim köməkçisi ştatı təsis olunmuş və I şöbəyə paralel daha bir şöbə açılmışdı.

Məktəblərin ümumi ştatı nəzarətçi, müəllim köməkçisi, ilahiyyatçı və fəxri nəzarətçidən ibarət idi. Müəllim vəzifələrinə seminariya məzunları təyin olunurdular.

1884-1887-ci illərdə bu məktəblərdə orta hesabla hər il 50-65 şagird, 1890-1893-cü illərdə isə 100-110 şagird (bunlardan 8-10 nəfəri qız idi) təhsil alırdı. Bütövlükdə, 1884-1893-cü illərdə bu məktəblərdə 800 şagird (35 qız) təhsil almışdır. Bu illər ərzində həmin məktəbləri cəmisi 81 nəfər (bunlardan ancaq 4 nəfəri azərbaycanlı idi) bitirmiş, 203 nəfəri isə müxtəlif səbəblər üzündən təhsilini başa vurmamışdı.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Bu, dəryada bircə damla idi: bütün əhalinin ancaq 2 faizini belə şagirdlər təşkil edirdilər – hər 45 sakinə cəmi 1 şagird düşürdü. Bu məktəblərdə tədris ili sentyabrın 1-də başlayır və növbəti təqvim ilinin iyun ayının 5-də başa çatırdı. Tədris proqramına ilahiyyat, rus və yerli dillər, hesab, hüsnxət və rəsmxət daxil idi. Şagirdlər həmçinin xor, gimnastika və bostançılıqla da məşğul olurdular. İlahiyyat və yerli dillərdən başqa bütün fənlər rus dilində tədris olunurdu. Haqqında danışdığımız Qubadlı məktəbi el arasında çox vaxt Həsən bəyin məktəbi adlandırılmışdı. Bu, həmin məktəbə bir müddət başçılıq etmiş əslən Qubadlı kəndindən olan Həsən bəy Xancanbəyovun adı ilə bağlı idi.

1892-ci il üçün "Qafqaz təqvimi"ndə verilən məlumatlara görə, Zəngəzur qəzasındakı xalq ictimai məktəbləri içərisində seçilən Qubadlı kənd məktəbində 1891-ci ildə müəllim Həsən bəy Xancanbəyov, ilahiyyat müəllimi isə molla Rəhim Burxanov idi (Otchet o sostoyanii uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga za 1900 god, 1901: 62) Həmin bu məktəbdə 45 oğlan şagird təhsil almış, məktəbə 850 rubl vəsait xərcləmişdi (Kavkazskiy kalendar' na 1892 god, 1891: 274).

Növbəti ildə Yelizavetpol və İrəvan quberniyaları və Qars vilayəti Xalq məktəbləri müdiriyyətinin məlumatlarında Həsən Mahmudağazadə Xancanbəyovu artıq Xaçmaz kənd məktəbinin nəzarətçisi kimi görünür. Həmin ilin məlumatına görə, 1882-ci ildə açılmış Qubadlı kənd məktəbində 45 şagird təhsil alırdı. Məktəbin nəzarətçisi Həşim bəy Vəzirov, fəxri inzibatçısı isə Əliağa Cavanşir idi. Molla Burxanov öz vəzifəsində qalırdı (Otchet pochechitel'ya Kavkazskogo uchebnogo okruga o sostoyanii uchebnykh zavedeniy za 1891 god, 1892: 35). 1894-cü ilədək Zəngəzur qəzasında tədris müəssisələrinin sayında kəskin artım olmasa da, XX əsrin əvvəllərində yeni açılmış məktəblərin sayı 40-a çatırdı. Yeni açılmış dövlət məktəblərində müsəlmanların sayı onlar şəriət məktəblərinə getmələrinə üstünlük verdiklərinə görə azlıqda qalırdı (Kavkazskiy kalendar' na 1893 g., 1892: 243-244).

"Qafqaz təqvimi"nin 51-ci buraxılışında verilmiş məlumata görə, Qubadlı xalq məktəbində şagirdlərin sayı 2 dəfə artmışdı. Həmin il məktəbin nəzarətçisi vəzifəsini Rəhim Novruzbəyov, fəxri inzibatçı vəzifəsinə isə İldırım bəy Sultanov tuturdu. Burxanov yenə də ilahiyyat

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

müəllimi olaraq qalırdı (Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza, 1904: 194). Növbəti, 1896-cı ildə şagirdlərin sayı 1 nəfər artmış, müəllim heyətində dəyişiklik olmamışdı (Kavkazskiy kalendar' na 1896 g., 1895: 298). 1899-cu ildə də müəllim heyəti dəyişməz qalsa da, şagirdlərin sayı 2 dəfə artaraq 52 nəfərə çatmışdı (Kavkazskiy kalendar' na 1896 g., 1895: 298).

Bu və sonrakı kütləvi şagird axını iki əsrin kəsişməsində Qubadlı sakinləri içərisində dünyəvi təhsilə meyilin kütləvi hal almasına dəlalət edirdi. Qubadlı məktəbi təkcə ümumtəhsil bilikləri verməklə kifayətlənmirdi. Bu məktəb yerli əhali içərisində praktiki vərdişlərin yayılmasında da müəyyən rol oynayırdı. Buna hələ 1889-cu ildə Qubadlı xalq məktəbinin nəzdində təşkil edilmiş ipəkçilik kursu misal ola bilər.

1889-cu ildə Qubadlı xalq məktəbində ipəkçilik haqqında həmin məktəbin müəllimi Nərimanbəyov yazırdı ki, *"xalqın pulu ilə dolandığı üçün mən öz birbaşa vəzifəmi yerinə yetirməkdən əlavə, xalqa kənd təsərrüfatı sahəsində nə iləsə xeyir vermək istəyirdim. onların bütün işlərini nəzərdən keçirərkən aydınlaşdırdım ki, ancaq ipəkçilik sahəsində gücüm çatan köməyi edə bilərəm* (Kavkazskiy kalendar' na 1900 god, 1899: 349)".

Bu məqsədlə Nərimanbəyovun "İpəkqurdunun bəslənilməsi barədə kənd sahibkarlarına məsləhətlər" adlı (tərcüməsi Bezobrazovun) kitabın bir neçə nüsxəsini Qubadlı kəndinə gətirdərək onları şagirdlərinə və kəndin savadlı adamlarına paylamışdı. Müəllim Nərimanbəyovun yerli sakinlərə bu sahədə nəzəri biliklər verməklə kifayətlənməyərək qəza rəisi Karayevdən 10 zolotnik (cəmi 4,2 qramlıq qızıl pul vahidi dəyərində) italyan baraması toxumu xahiş etmişdir. Karayev bu xahişə müsbət cavab vermişdir. Nərimanbəyov yazırdı ki, "mən 1886-cı il aprelin 23-də broşürlar alaraq sakinləri topladım və həmin broşürün aydın olmayan yerlərini onlara başa saldım. Onlara danışdım ki, toxumu kənarları yuxarı qatlanmış kağızın üstünə səpib ona toxunmamaq lazımdır (yerli sakinlər isə toxumu düyüncəyə tökүb onu diriltmək üçün bədənlərində gəzdirirlər). Qurdlar çıxandan sonra mən onları həmişə dəvət olunmuş sakinlər və şagirdlərinin gözü qarşısında yemləməyi və altlarını dəyişərdim. Yemləmə 33 gün çəkdi; 10 zolotnik barama toxumu buralarda görünməmiş və hamı üçün heyrətamiz olan məhsul, məhz 6 pud və 9 funt məhsul verdi (Sbornik materialov dlya

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

opisaniya mestnostey i plemen Kavkaza, 1891: 236)”.

“Yerli sakinlər baramaya yaxşı qulluğun üstünlüklərinə əmin olduqdan sonra mənim pişxanama həvəslə gəlməyə və məni öz yanlarına dəvət etməyə başladılar ki, onlara bəzi faydalı məsləhətlər verim. Bu il (1889-cu ildə) şagirdlərimdən 9 nəfəri barama becərməyin nəzəriyyəsi və praktikasını öyrənir (Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza, 1891)”.

Qubadlı kəndi XX əsrin əvvəllərində bölgənin mədəni həyatında daha bir yeni, mütərəqqi addımın atıldığı yer oldu: Bölgənin ilk dünyəvi qız məktəblərindən biri məhz Qubadlıda fəaliyyətə başladı. Qız məktəbinin açılmasında Həsən bəy Teymur oğlu Sultanovun böyük əməyi olmuşdur. H.T.Sultanov 1885-ci ildə Qubadlı kəndində dünyaya gəlmişdir.

Qori seminariyasında Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Əli Gerequlov kimi görkəmli şəxsiyyətlərlə birlikdə təhsil alan H.T.Sultanov seminariyanı bitirdikdən sonra doğma kəndinə qayıdaraq Qubadlı birsinifli kənd məktəbində işləməyə başladı.

H.T.Sultanov 12 noyabr 1912-ci ildə Yelizavetpol quberniyası üçüncü rayonun xalq məktəbləri müfəttişlərinə “120 şagird təhsil aldığı məktəbdə 2 nəfərin nəzarəti və müəllimin dərs keçməsinin son dərəcə ağır olduğu üçün 1913-cü ilin yanvarından Qubadlı məktəbinə üçüncü müəllimin göndərilməsinin vacib olduğunu” yazırdı. Yeni müəllimin məvacibinin hər şagirddən ildə 2-3 rubl təhsil haqqı almaqla ödəməyin mümkünlüyünü (Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza, 1891) göstərən H.T.Sultanov məktəbdə hətta üçüncü şöbənin açılması üçün geniş otağın olduğunu da bildirirdi (18). H.T.Sultanov qız məktəbinin açılması üçün hökumətə müraciət etdiyi zaman həmin ilin aprelində hökumət idarələri Qubadlı kənd icmasından kənddə qız məktəbinin açılması barədə kənd icmasının xüsusi qərar-razılığını tələb etdi (19). Bu şöbə qızların təhsil alacağı şöbə olmalı idi. 1913-ci il fevralın 4-də üçüncü rayonun müsbət rəyini alan H.T.Sultanov Qubadlı məktəbində yeni üçüncü sinfin açılması zərurətinin yarandığını fikri ilə razılaşmalı oldu.

1913-cü il fevralın 18-də Qubadlı kənd yığıncağı kəndxudanınköməkçisi Təhməz Məmməd oğlunun sədrliyi altında Qubadlı kənd məktəbində üçüncü şöbə komplekslərinin açılması və onun saxlanılması xərclərinin ödənilməsi üçün hər şagirdin üzərinə ildə 4 rubl haqq

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

qoyulması barədə xüsusi qərar qəbul etmişdi.

Qubadlı məktəbinin nəzarətçisi olmuş H.T.Sultanov üçüncü rayonun xalq məktəbləri müfəttişinə yazırdı: *"Məktəbə üçüncü müəllim əvəzinə müəllimə göndərildiyindən kənd sakinlərini öz qızlarını məktəbə göndərməyə təhrik etməyə başlamışdır. Lakin valideynlər qızlarının oğlanlarla birlikdə oxumasına razı olmadıqlarına görə, qızlar üçün məktəb şöbəsi məktəbin binasından kənardakı şəxsi evdə yaradılmışdır".*

Nəhayət, 1914-cü il fevralın 25-də kəndin hörmətli nümayəndələri, qəza qazisi Axund Həsən Məmmədzadə və bütün məktəb şagirdlərinin iştirakı ilə Qubadlı qız məktəbinin açılış mərasimi keçirildi. Mərasimdə qazi nəzarətçisi, müəllimlər və b. məktəbin xeyrinə ianə vermiş, yerli sakin T.Kərimov isə öz otağını əvəzsiz olaraq məktəbə bağışlamışdı. Qız məktəbində dərslər günortadan sonra, müəllimə və ilahiyyat müəllimi oğlan məktəbində işi başa vurduqdan sonra başlayır və gündə 3 saat davam edirdi. Yeni açılmış Qubadlı qız məktəbi 17 qız şagirdlə ilk dərs ilinə başladı. Qubadlı dünyəvi qız təhsili müəssisəsinin ilk qaranquşlarının siyahısına bir də fəxarətlə nəzər salaq: Aslanəlibəyova Əfrangiz 7 yaş, Aslanəlibəyova Asiya 11 yaş, Aslanəlibəyova Gözəl 10 yaş, Bayramova Sarabəyim 7 yaş, Hacıyeva Qönçə 8 yaş, Hacıyeva Savginə 7 yaş, Həsənxanbəyova İrina 6 yaş, Həsənxanbəyova Zinyət 12 yaş, İmanquliyeva Həyat 7 yaş, İsmixanova Tavat 8 yaş, Kərimova Mina 8 yaş, Məmmədbəyova Füruzə 11 yaş, Məmmədova Bəyaz 11 yaş, Orucova Zəhra 7 yaş, Sultanova Turna 7 yaş, Şahmuradova Güləndər 9 yaş, Eliyavsova Çöhrə 10 yaş.

Amma istənilən halda yerli təhsil sistemi nə ruhani, nə də dünyəvi təhsil sistemi təbii ki, mövcud tələbatı ödəməkdən hələ çox-çox uzaqda olub ilk növbədə müstəmləkəçi siyasətinin maraqlarına kömək göstərirdi.

Qeyd etmək yerinə düşərdi ki, Zəngəzurda təşkil edilmiş bu məktəblərdə təhsil almış şagirdlərin arasından çox görkəmli ədəbiyyat, elm və dövlət xadimləri çıxmışdır.

Zəngəzur bölgəsi XIX − XX əsrin əvvəllərində Şimali Azərbaycan elminə ictimai fikrin bir neçə sayılıb-seçilən şəxsiyyətini bəxş etmişdir. Bunların sırasında filosof Hacı Mirhəmzə Əfəndi Seyid Niğarini, tanınmış tarixnəvis Mirmehdi Xəzanini, Bəhlul Əfəndi Behcəti və başqalarını göstərmək olar.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Haqqında danışdığımız dövrdə bölgənin görkəmli elmi və mədəniyyət xadimlərindən biri də Seyid Nigari idi.

Mirhəmzə Seyid Nigari Qarabaği (1805-1885) təkkə-təsəvvüf ədəbiyyatının nümayəndəsi, nəqşibəndi şeyxi idi. Qarabağ xanlığının Bərgüşad mahalının (indiki Laçın rayonunun) Cicimli kəndində 1799-cu ildə dünyaya gəlmiş Nigari Qarapapaq türklərindəndir. Atası Mirpaşa (türk mənbələrində Seyid Əmir Paşa) təxəllüsü ilə tanınan Mir Rüknəddin Əfəndi, anası isə Qızxanım adı ilə tanınan Xeyrənsə xanım olmuşdur.

Həmzə əfəndi uşaqlığını Cicimlidə keçirmişdir. Sadə bir həyat sürən bu kənddə tay-tuş və yaşıdları kimi o da silah, barıt, qurşun, saçma kimi odlu silahlara həvəs göstərər, bunlarla məşğul olurdu. 15 yaşına qədər molla yanına göndərilmişsə də, getməkdən imtina etmişdir. Axırda anasının danlaqlarından zara gəlib, kənddən qaçaraq o zamanın məşhur müdərrislərindən Qaraqaş kəndindəki Mahmud əfəndinin yanına gedərək orada təhsilə başlamışdır.

Qaraqaşda təhsil aldığı zaman Nurəddin əfəndi adlı bir şəxslə zövcəsi Nigar xanım onun hər cür ehtiyacını qarşılamış, təhsili üçün lazım olan yardımı bu xanımdan görmüşdür. Kəsbi-feyz etməsində bu qadının dəstəyini təqdir edərək “Nigari” təxəllüsünü götürmüş və divanında bu addan istifadə etmişdir (Ağabali, 2015: 49).

Həmzə Nigari təhsilini Şəkinin Dəhnə kəndində dövrün alimlərindən dərs alaraq tamamladıqdan sonra mürşid axtarmaq məqsədilə səyahətə çıxmışdır. Mövlana Xalid Bağdadinin adını eşitmiş və Bağdada getmək üçün yola çıxmış, ancaq Xarputa çatanda Mövlanə Xalidin vəfat etməsi xəbərini almış, Sivasa gəlmiş, daha sonra isə Qarabağa qayıtmışdır. Qarabağda ikən cəddi əmcəsi Həzrət Əlinin mənəvi işarəsi ilə “Hər bir nəfəsi Məsih-əsa, hər bir nəzəri nazir-kimya” dediyi İsmayıl Şirvaniyə (1782-1848) mürid olmaq üçün Kürdəmirə gəlmiş və onun müridi olmuşdur (Rıhtım, 2012: 174).

Kürdəmirdə şeyxin yanında fəaliyyətə başlayan Həmzə Nigarı öz şeyxinin ardınca Anadoluya gəlmiş, Sivas və Amasyada müxtəlif fasilələrlə 20 ildən çox şeyxinin yanında qalmışdır. Həmzə Nigari İsmayıl Əfəndidən izn alaraq müqəddəs məkanları ziyarət üçün səfərə çıxmış, əvvəlcə Konyaya, Mövlana Cəlaləddin Rumi türbəsinə, sonra isə Mədinə, Şam, Qüds şəhərlərinə getmişdir. Ziyarətlərdən sonra Amasiyaya qayıtmış və bir il sonra mürşidi İsmayıl Şirvanidən

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

xilafətnamə alıb Azərbaycana qayıtmışdır.

Həmzə Nigari irşad fəaliyyətinə Bərgüşad və Bərdə ətrafında başlamışdı. Rusiya ilə Osmanlı ordusunda cihada qatılmaq üçün müridləri ilə birlikdə gizlicə Qarsa gəlmiş və ruslara qarşı vuruşmuşdu. Müharibədən sonra Ərzurumda yerləşərək Bakırlar məhəlləsindəki məscidin dəftərxanasında üç il qalmışdı.

Ərzurumdan İstanbula gedən Həmzə Nigari sonra Amasiyaya qayıdaraq orada məskunlaşmışdı. Burada uzun müddət təfsir və hədis dərsləri deməklə yanaşı fəaliyyətilə də məşğul olmuşdur. Lakin onun fəaliyyətindən narahat olanların şikayətindən sonra Xarputa sürgün edilmişdir.

1886-cı ildə Xarputda vəfat edən Nigarinin nəşi vəsiyyətinə uyğun olaraq öz şeyxinin yanına – Amasyaya gətirilmişdir. Qazaxlı Hacı Mahmud Əfəndinin hümməti ilə Qarabağ, Qazax və Gürcüstandakı müridlərinin də yardımı ilə türbənin yaxınlığında məscid inşa edilmişdir.

Həmzə Nigarinin Muhyiddin Arabinin "Futuhati-məkkiyyə" əsərinə yazdığı təvzihat, ayrıca "Nigarnamə" və "Saqinamə" adlı əsərləri vardır. Onun şeirləri Şərqi Anadoluda, Borçalı, Qazax və Qarabağda yaşayan türklər tərəfindən əzbərlənir, zikr məclislərində sürətlə böyük mistik həyəcanla illərlə mənəvi zövqlə oxunurdu. Onun Türkiyə hicrətindən sonra Şimali Qafqazdan minlərlə insan köçərək Amasya və ətrafında məskunlaşmışdı.

Onun "Divan"ı İstanbulda (1885) dərc edilmişdir. Son illər onun bu kitabı 2001-ci ildə Müzəffər Akkuş, 2003-cü ildə Əzmi Bilgin, 2004-cü ildə Kurtuluş Altunbaş tərəfindən Türkiyədə, 2010-cü ildə isə Nəzakət Məmmədli tərəfindən Azərbaycanda nəşr olunmuşdur. Nigarinin fars dilində "Divan"ından başqa "Nigarnamə" və "Menakip" əsərləri vardır (Ağabali, 2015: 51-506). Divan 1908-ci ildə Tiflisdə "Qeyrət" mətbəəsində ərəb əlifbası ilə nəşr olunmuşdur. Bu divanın ən nəfis şəkildə nəşri həmin dövrdə Ö.F.Nemanzadəyə məxsus olmuşdur.

Həmzə Nigarinin Osmanlı, Azərbaycan, Gürcüstan və Dağıstanda çox sayda müridi və xəlifəsi olmuşdur. Türkiyə və Azərbaycanda onun nəslindən olan bir çox insan var idi. Onun xəlifələrindən bəziləri bunlardır: oğlu Siracəddin əfəndi Hacı Mahmud Əfəndi Aslanbəyli, Cəfər Təyyar Paşa, Ömər Kəşfi Dağıstani, Ərzurumlu Mehmet Zakir Əfəndi, Ərzurumlu Xoca Hafiz Osman Siraci, Mir Seyid Həsən Hüsnü

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Əfəndi əd-Dağıstani, Ağarəhim Ağa Dilbazi, Şahnigar Xanım Rəncur, Qazi Osman Əfəndi, Hacı Zəkəriyyə Əfəndi, Sadi Qarabaği, Hafiz Mehmet Kaşif Dağistani, Trabzonlu Osmanlı Nefi, Dağıstanlı Rəcəb Həberi, Hacı Teyyub Əfəndi, Hacı Mustafa Əfəndi, Postlu Hacı Mahmud Əfəndi, Amasyalı Payasizadə Hacı Haqqı Əfəndi (Yıldırım, 2012: 128).

Seyid Nigari poetik yaradıcılığı eyni dövrdə yaşamış və təriqət nümayəndəsi sayılan Seyid Əbülqasim Nəbati, Şeyx Nemətullah Vəlinin davamçısı olmuş şairin yaradıcılığı ilə müqayisə oluna bilər. Firidun bəy Köçərli bu şair haqqında, hətta çarizm dövründə müsbət fikirlər söyləmişdir (1863-1920). Əlbəttə, F.Köçərli çarizm dövründə yaşayıb-yaratdığı üçün Tiflisdə, hətta Qori seminariyasında olan arxivlərlə ətraflı tanış idi. Bu arxiv sənədləri çarizmə heç bir təhlükə yaratmırdı. Ona görə də şair və yazıçılarımızın həmin mənbələrdə qorunub saxlanması və onlardan istifadə icazəli idi (Ağabali, 2015: 341).

Mirmehdi Mirhəşim bəy oğlu Musəvi (1819-1894) 1819-cu ildə Qarabağın Bərgüşad mahalının Məmər kəndində anadan olmuşdur. Hələ kiçik yaşlarından atasız qaldığına, ailə vəziyyətinin ağırlığına baxmayaraq, mükəmməl təhsil almış, ərəb, fars dillərini öyrənmiş, dövrünün bir sıra elmlərinə dərindən yiyələnmişdir. "Xəzani" təxəllüsü ilə şeirlər yazmışdır. Bu şeirlər ilk dəfə olaraq bu yaxınlarda, 1989-cu ildə çap edilmişdir (Qurbanova, 2012: 229). Mirmehdi Xəzaninin həyat və yaradıcılığını tədqiq edən N.Quliyev öz araşdırmalarında onun 1830-cu ildə Qarabağa Şıxımlı kəndinə, 1838-ci ildə Gəncəyə köçməsi, orada məktəbdarlıqla məşğul olması, yenidən Şıxımlıya geri qayıtması və 1859-cu ildə Qarabağa Tuğ kəndinə köçməsi haqqında məlumat verir.

Öz ana dilini dərindən sevən Mirmehdi Xəzani müsəlman dini ehkamına dair uşaqlar üçün Azərbaycan dilində mənzum bir əsər yazaraq 1884-cü ildə çap etdirmişdir (Quliyev, Kərimov, 1989). Mirmehdi Xəzaninin yaradıcılığında ən əsas yeri onun "Kitabi-tarixi-Qarabağ" tutur. Müəllif müqəddimədə qeyd etdiyinə görə, əsəri Mirzə Adıgözəl bəyin, Mirzə Camal Cavanşirin "Qarabağ tarix"lərindən əlavə, "təvarixi-qədimlər"dən geniş istifadə edərək Mirzə Camalın nəvəsi Məhəmmədbəy Cavanşirin xahişi ilə "xalis türki" (Azərbaycan) dilində yazmışdır. Əsər müqəddimə, 24 fəsil və xatimədən (nəticə)

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

ibarətdir (Hüseynzadə, 1967: 114-219). Mirmehdi Xəzani təxminən 1894-cü ildə vəfat etmişdir.

Əsərində göstərildiyi "Zəngəzur uyezdində Mehri mahalının... Baharlı" kəndində (Qarabağnamələr, 2006: 236) olan "Əhvalati Qarabağ" əsərinin müəllifi Baharlı "Qarabağnamə"lərdə adı çəkilən Mirzə Vəli Baharlının nəvəsidir. "Əhvalati-Qarabağ" əsərinin əvvəlində onun yazılma səbəbi və mündəricəsi qeyd olunur. Burada göstərilir ki, əsər 12 fəsildən ibarət olacaqdır. Lakin yeganə əlyazması Matenadaranda olan "Əhvalati-Qarabağ"ın üç fəsli yazılmışdır. Əsərdə Qarabağ tarixindən daha çox onun memarlıq abidələri, tarixi şəxsiyyətləri, adət-ənənələri, etnoqrafik xüsusiyyətlərindən nümunələr araşdırılır. "Əhvalati-Qarabağ" əsəri 1888-ci ildə yazılmışdır (Qarabağnamələr, 2000: 51-248).

Xurşidbanu Natəvan (1832-1897) ədəbiyyat və mədəniyyətimizin inkişafında əvəzsiz xidmətlər göstərmiş istedadlı qadın şairəmiz olmuşdur. İncəsənətin bütün növlərinə bələd olması Natəvanı dövrünün görkəmli sənətkarları ilə yaxınlaşdırmışdır. Onun təşkil etdiyi ziyafətlərin, söhbət məclislərinin iştirakçıları çox vaxt müxtəlif sənəti təmsil edən ziyalılar olmuşdur: Zəngəzurun Comardlı, Məlikpəyəsi, Müsəlmanlar və Birinci Cikcik kəndlərinin sahibkarı (Qarabağnamələr, 2006: 31-74). Xurşidbanu Natəvandan uzaq şəhərlərdə oxuyan azərbaycanlı tələbələr, yoxsul alim, şair və sənətkarlar yardım almışdılar. Qarabağla birlikdə bütün Cənubi Qafqazın sənət sahibləri onun himayəsinə sığınırdı (Mikhel'sona, 1885-1887: 31-32).

Bəhlul Əfəndi Behcət 1869-cu ildə Zəngəzur qəzasının Dondarlı kəndində anadan olmuşdur. İbtidai təhsilini atasından, daha sonra isə qaynatası Hacı Qasım Çələbidən almışdır. Sonradan Şəki şəhərinə yollanmış, mədrəsədə təhsilini davam etdirmişdi. 1915-ci ildə Zəngəzur qəzasının qazisi təyin edilmişdi. Çox işıqlı düşüncəyə malik olan Bəhlul Əfəndi dini məzmunda əsər yazmış, həmin əsərdə sünni-şiə məsələlərini araya atanlara tutarlı cavab vermişdir. Bəhlul Behcət Zəngəzurda ideya ayrılığını nəinki aradan qaldırmış, hətta əqidə birliyindən mehriban və möhkəm silahlı dəstələr yarada bilmişdi. Erməni daşnaklarına qarşı cihad elan edən Bəhlul əfəndinin məqsədi Qafqazdan erməni daşnaklarını biryolluq süpürüb atmaq idi (31).

Xalq ədəbiyyatı ilə bağlı araşdırmalar aparmış, özünə "Behcət" təxəllüsü götürən Bəhlul Əfəndi şifahi xalq ədəbiyyatı nümunələrinin

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

toplanmasında və nəşrində də mühüm xidmətlər göstərmişdi. Bəhlul Əfəndi Bəhlul Danəndənin tarixi şəxsiyyət və azərbaycanlı türkü olduğunu, IX yüzillikdə Təbrizdə yaşadığını, müasirləri arasında alim və bağban kimi şöhrətləndiyini yazılı mənbələr əsasında sübut etmişdir. Hətta albalının təzə bir növünün kəşf etdiyini, həmin calaq cinsin Bəhlulun zəhmətinin bəhrəsinə el qiyməti olaraq “bəhli” adlandırıldığını göstərirdi.

O, Azərbaycanda sovet hakimiyyəti qurulanda xalqa “Ya qalib gəl ağa ol, ya da şəhid!” deyə müraciət etmişdir. 1922-ci ildə Tehranda fars dilində, 1923-cü ildə Təbrizdə Azərbaycan dilində nəşr edilən “Məhəmməd Peyğəmbərin və ailəsinin tarixi” kitabını yazıb, “Qarabağ tarixi”, “Nizami və Qafqaz folkloru” və digər fundamental tədqiqatları tamamlayıb, Sarı Aşıq, Nəbati yaradıcılığını toplayıb tədqiq və nəşr etdirib. Burada həbs edilərək on il həbsdə yatmışdır. 1934-1937-ci illərdə Quranı və “Şahnamə”ni ilk dəfə Azərbaycan dilinə tərcümə etmişdir. Bəhlul Əfəndi 1938-ci ilin martın 15-də Zəngəzur camaatını cihada çağırdığına görə Xalq Daxili İşlər Komissarlığı üçlüyünün qərarı ilə güllələnmişdir (Eloğlu, 1992: 21-58).

Azərbaycan xalqının ən çox sevdiyi, vəsf etdiyi Qaçaq Nəbinin həyatı və mübarizəsini əks etdirən ən etibarlı, bitkin, dolğun mənbə, heç şübhəsiz, Bəhlul Bəhcətin “Qaçaq Nəbinin tarixi” əsəridir (33). Ona görə ki müəllif Qaçaq Nəbinin müasiri, həmyerlisi, onu və dəstəsindəkilərin əksəriyyətini yaxından tanıyan, görüşüb söhbətləşən, mübarizəsinin məramını yaxşı bilən müdrik insandır. Bəhlul Əfəndinin araşdırıcı kimi tədqiqat subyektinə yanaşma metodu, mövqeyi bir çox müasirlərindən fərqli olaraq tamamilə düzgündür, inandırıcıdır, obyektivdir. Zəngəzur məclislərinin hikmətli söz ustadlarından biri də Piçənisli Aşıq Abbas olmuşdur. Elin qəmi-kədəri, sevinci-fərəhi ilə yaxından bağlı olan, keçirdiyi məclislərdə gəncliyə müsbət təsir edəcək nəğmələri daha çox oxuyan Aşıq Abbas xalq qəhrəmanı Sultanbəyin yaxın məsləhətçisi olmuşdur. XX əsrin əvvəllərində Zəngəzurda daşnak fəaliyyətinə qarşı mübarizənin fəal iştirakçılarından olan Aşıq Abbas öz sazı, sözü ilə vətənpərvərləri düşməni qırmağa ruhlandırmaq sahəsində böyük iş görmüşdü. Sultanbəyin, Çal Aslanın, Fərzalıbəyin, Ağaməmmədin mürəkkəb əməliyyatlarında döyüşkən dəstələrin önündə getmişdir. Aşıq Abbasın elin igid oğlanlarına həsr olunmuş çoxlu şerləri qalmışdır (Behcət, 2011: 296).

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Bölgənin Əliquluuşağı kəndi yaxınlığında 1867-ci ildə salınmış "Laləzar" körpüsü, Dondarlı kəndindəki məscid və Dəmirçilər kəndindəki Hacı Bədəl körpüsü XIX əsr Zəngəzurun memarlığının yadigarıdır. XIX əsrin axırlarında Ağa çayı üzərində yumurta sarısından tikdirdiyi birtağlı Hacı Bədəlin daş körpüsü 1993-cü ilədək dururdu. Bu körpü Dəmirçilər kəndində tarixi abidə kimi qeydə alınmışdır (Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza, 1904: 190-191).

Bölgə həmçinin Qarabağ xalçaçılıq sənətinin geniş intişar tapdığı ərazilərdən biri idi. Zəngəzur xalçaları o zaman Şimali Azərbaycan və Güney Qafqaz, eləcə də Osmanlı, Güney Azərbaycan və b. yerlərdəki bazarlarda sabit tələbata malik idi. Zəngəzur bölgəsində toxunan "Zili-qərvənd" xalçası və "Yəməni" palazları daha məşhur idi (Eloğlu, 1992: 49-58). Xalçaçılıq yerli türk-müsəlman əhalisinin əsas məşğuliyyətlərindən biri olaraq qalmaqda idi.

Beləliklə, diqqətinizə təqdim olunan, mötəbər qaynaqlara söykənən materiallar bir daha sübut edir ki, XIX-XX əsrin əvvəllərində Zəngəzur ellərimizin mədəni həyatı Azərbaycanımızın mədəni həyatının üzvi tərkib hissəsi kimi təkamül prosesini keçirmiş və ümumölkə mədəniyyətinə məxsus olan xüsusiyyətləri ilə tanınmışdır.

## Ədəbiyyat

1. Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza. (1890). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Vypusk 9, otdel 2, s.1-6.
2. Urud, M. (2005). Zəngəzur. Elmi-publisistik nəşr. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, s.172-504.
3. Kavkazskiy kalendar' na 1877. (1876). Tiflis: Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazskogo. Chast' vtoraya, vtorogo otdela, 28 s.
4. Kavkazskiy kalendar' na 1893 g. (1892). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'-stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Adres-kalendar', 240 s.
5. Kavkazskiy kalendar' na 1896 g. (1895) Tiflis: Tipografiya Gruzinskogo izdatel'skogo tovarishchestva. Adres-kalendar', 284 s.
6. Otchet o sostoyanii uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga za 1900 god. (1901). Tiflis: Tipografiya kantselyarii Glav-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

nonachalstvuyushchego grazhdanskoyu chastyu na Kavkaze. Spisok uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga, 59 s.

7. Otchet pochechitel'ya Kavkazskogo uchebnogo okruga o sostoyanii uchebnykh zavedeniy za 1899 god. (1900). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Spisok uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga, 58 s.
8. Kavkazskiy kalendar' na 1898 g. (1897). Tiflis: Tipografiya Sharadze. Adres-kalendar', 313 s.
9. Otchet pochechitel'ya Kavkazskogo uchebnogo okruga o sostoyanii uchebnykh zavedeniy za 1899 god. (1900). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Spisok uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga, 57 s.
10. Otchet o sostoyanii uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga za 1900 god. (1901). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Spisok uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga, 62 s.
11. Kavkazskiy kalendar' na 1892 god. (1891). Tiflis: Tipografiya kantselyarii Glavnona-chal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Adres-kalendar', 273 s.
12. Otchet pochechitel'ya Kavkazskogo uchebnogo okruga o sostoyanii uchebnykh zavedeniy za 1891 god. (1892). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Polnyy spisok uchebnykh zavedeniy Kavkazskogo uchebnogo okruga, 35 s.
13. Kavkazskiy kalendar' na 1893 g. (1892). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'-stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Adres-kalendar', s.243-244.
14. Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza. (1904). Tiflis: Tipografiya kantselyarii Glavno nachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Vypusk 9, 194 s.
15. Kavkazskiy kalendar' na 1896 g. (1895). Tiflis: Tipografiya Gruzinskogo izdatel'skogo tovarishchestva. Adres-kalendar', 298 s.
16. Kavkazskiy kalendar' na 1900 god. (1899). Tiflis: Tipografiya Sharadze. Adres-kalendar', 349 s.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

17. Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza. (1891). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Vypusk 11, otdel 2, 233 s.
18. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 406, siy. 1, iş. 24, v.1.
19. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 406, siy. 1, iş. 24, v. 2 arx.
20. Ağabali, M.F. (2015). Qarabaği Şeyx Mirzə Həmzə Nigarinin mənaqibnaməsi. Hümayi ərş. Bakı: Nurlar nəşriyyat-poliqrafiya mərkəzi, s.49-506.
21. Rıhtım, M. (2012). Qarabağlı Mir Həmzə Nigari. “Azərbaycan” jurnalı. № 1, s.171-178.
22. Ağabali, M.F. (2015). Qarabaği Şeyx Mirzə Həmzə Nigarinin mənaqibnaməsi. Hümayi ərş. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, s.51-506 s.
23. Yıldırım, İ. (2012). “Ben”deki Seyyid Nigari. Qarabağdan Amasiyaya Konül Körpüsü. I Beynəlxalq Həmzə Nigari simpoziumu. 31 may − 1 iyun. Amasiya, s.121-136.
24. Ağabali, M.F. (2015). Qarabaği Şeyx Mirzə Həmzə Nigarinin mənaqibnaməsi. Hümayi ərş. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, s.294-506.
25. Qurbanova, M. (2012). Mirhəmzə Seyid Nigari: yaradıcılığı, dil və üslub xüsusiyyətləri. Qarabağdan Amasiyaya Konül Körpüsü. I Beynəlxalq Həmzə Nigari simpoziumu. 31 may − 1 iyun. Amasiya, s.227-231.
26. Quliyev, N., Kərimov, R. (1989). Mir Mehdi Xəzani əsərləri. Bakı.
27. Hüseynzadə, Ə. (1967). XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. Bakı, s.114-219.
28. Qarabağnamələr. (2006). II kitab. Bakı: Şərq-Qərb, s.109-288.
29. Qarabağnamələr. (2006). III kitab. Bakı: Şərq-Qərb, s.51-248.
30. Mikhel'sona, A.A. (1885-1887). Materialy dlya izucheniya ekonomicheskogo byta gosudarstvennykh krest'yan Zakavkazskogo kraya. Tipografiya. T. IV, ch. I., s.31-32.
31. Kaspi qəzeti. (1911). № 146.
32. Eloğlu, S. (1992). Zəngəzur hadisələri. Bakı: Azərnəşr, s.21-58.
33. 525-ci qəzet, 22 iyun 2011-ci il.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

34. Behcət, B. (2011). Qaçaq Nəbinin tarixi. Mətni hazırlayan və "Ön söz"ün müəllifi İ.Abbaslı. Bakı: Çıraq, 296 s.
35. Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza. (1904). Tiflis: Tipografiya kantselyarii Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Vypusk 34, s.190-191.
36. Eloğlu, S. (1992). Zəngəzur hadisələri. Bakı: Azərnəşr, s.49-58.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 73-77**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 73-77**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**İradə Kərimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-8057-8333
irade.kerimova.81@mail.ru

# ZƏNGƏZUR QƏZASI KONTEKSTİNDƏ QƏDİM APELYATİVLİ TOPONİMLƏR

***Açar sözlər:*** *areal, toponim, oykonim, oronim, etnotoponim, arxaik*
***Keywords:*** *areal, toponym, oikonym, oronym, ethnotoponym, archaic*

*Türkmən* – qədim oğuz-türk yurdu olan tarixi torpağımız Zəngəzur qəzası ərazisində qeydə alınmış oykonimdir. Əsasında "türk" sözü duran toponimlərin olduqca geniş yayılma arealları vardır. Yalnız Azərbaycanda təkcə kənd və qəsəbə tipli yaşayış məntəqəsi adı bildirən 12 toponim qeydə alınır: *Türkmən* (Bərdə, Göyçay), *Türkan* (Bakı), *Türkədi* (Kürdəmir, Sabirabad), *Türkəçi* (Ucar), *Türkəkəran*, *Türkəncil* (Lənkəran), *Türklər* (Beyləqan, Laçın), *Türkoba* (Xızı, Masallı).

Türkmən toponimi *türk+mən* komponenti əsasında formalaşmışdır. Toponimin ikinci komponenti olan "man//mən" topoformantı çox-mənalı sözdür, onun mənaları arasında "ev", "qala", "məskən", "dağ", "meşə", "insan", "qoyun", "batırmaq" və s. vardır. "*-man*" hissəciyi həm də sözdüzəldici vasitə kimi maraq doğurur. Bu hissəcik istər yer adlarının, istərsə də türk dillərinin ümumi leksikasında çox işləkdir. R.Əliyeva "man" və "van" formalarının topoformant olduğunu qeyd edir. O göstərir ki, bu topoformantlar çox vaxt şəkilçi kimi qəbul edilir. Əslində, bunların hər biri müstəqil sözdür. Çünki əvvəla, türk dillərində şəkilçi həmişə sözün sonuna artırılır, ikincisi, şəkilçilər müstəqil şəkildə işlənmir. Bu topoformantlar isə həm əvvəldə, həm də sonda işlənir. Müəllif *man* topoformantının lüğətlərdə "12 aydan üçüncüsü", "4 aylıq qoyun", "qurşaq bağlamaq", "örtmək", "gəzmək", "addım-lamaq" və s. mənalarda işlənməsini qeyd etdikdən sonra toponimlərdəki *man* topoformantının "əhatə olunmuş, dövrəyə alınmış, sərhədi olan məntəqə, şəhər və ya qala" mənasında işlənməsi fikrini irəli sürmüşdür.

Birinci komponentin etnos adı olması aşkardır. Bu etnos

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Azərbaycanın etnogenezində aparıcı rola malik olmuşdur. M.Kaşğari "Divan"ında türkmən tayfası haqqında məlumat verərkən yazır: "Türkmən: bunlar oğuzdurlar", "Oğuz: bir türk boyudur. Oğuzlar türkməndirlər". Müəllifin fikirlərinə öz münasibətini bildirən B.Xəlilov yazır ki, M.Kaşğarinin "Lüğət"ində Oğuzla türkmən eyniləşdirilir, eyni boyun sinonim adları kimi verilir. Əslində, tükmənlər oğuza daxildir. Başqa cür desək, *oğuz* sözü ümumiləşdirici etnik termindir. Bu etnik termin digər Oğuz boyları kimi türkməni də özündə ehtiva edir. Doğrudan da, türkmən adı sonradan yaranmışdır. Bu fikirlərə bir qədər də aydınlıq gətirən müəllif yazır: "Türkmən adı sonra yaranmış etnik ad kimi ehtifa dairəsi Oğuzdan məhduddur, eyni zamanda Oğuzun bir qoludur. Onu da qeyd edək ki, bu hadisəyə qədər türkmən adı olmamışdır, belə olan təqdirdə türkmən sözünü Oğuzun sinonimi kimi qəbul etmək olmaz".

Ş.Sədiyevə görə, *türk* Azərbaycanın qədim xalqlarından birinin adıdır. Bu barədə ətraflı məlumat verən M.İsmayılov miladdan qabaq IV yüzilliyə aid qədim Assur mənbələrində haqqında məlumat verilən, Urartu mixi yazılarında turukkillər adlandırılan türklərin Urmiya gölü yaxınlığında, bu gölün uzaq və yaxın hövzələrində məskun olduqlarını göstərir. Çox ehtimal ki, Türkmən kəndi, habelə Türk dağı (Göyçay), Türk təpəsi (Ağdam) oronimləri Azərbaycanın bu qədim aborigenlərinin (türklərin) adını əks etdirir.

Yaşayış məskəninin adının əsasında keçmişdə qaraqoyunlu və ağqoyunluların özəyini təşkil edən *türkmən* tayfasının adının durması ehtimalı vardır. XV əsrin axırı XVI əsrin əvvəllərində isə qızılbaş tayfa ittifaqına daxil olan türkmənlər Səfəvilər dövlətinin siyasi həyatında mühüm rol oynamışdır.

*Çullu* – Zəngəzur ərazisində qeydə alınmış oykonimdir. Azərbaycan xalqının dili və mənşəyinin formalaşmasında *çullu* tayfasının böyük rolu olmuşdur. Çullular çol, çul da adlanırlar. Çul etnoniminin iştirakı ilə formalaşmış coğrafi adlara təkcə Azərbaycanda deyil, Qafqazda və türk xalqlarının yaşadığı digər ərazilərdə də rast gəlmək mümkündür. Tədqiqatçılar Çul toponimi haqqında müxtəlif fikirlər söyləmişlər. Q.Qeybullayev Çullu/Çul/Çol etnotoponimini türk mənşəli *çullu* etnoniminin əsasında yarandığını qeyd etmişdir. Müəllif bu haqda yazır: "Eranın ilk əsrlərində Albaniyanın şimal-şərqində Dərbənddən cənubda bir şəhər Çol/Çul adı ilə məlumdur. Bu toponimi

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 73-77**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 73-77**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Qafqazdilli hesab edirlər. Lakin biz bu adın Albaniyada yaşamış türk mənşəli çul tayfasının adını əks etdirdiyini və etnonimin indiyədək Çullu kəndlərinin adlarında saxladığını demişik".

N.A.Baskakov qeyd edir ki, Çol, Cul Xəzər xaqanlığının adıdır. V.Qukasyan da Çol, Çul oniminin Xəzər xaqanlığının adı olduğunu və bu sözun çuvaş dilində "dərə", "qaya" mənalarında işləndiyini bildirmişdir.

Çol/Çul onimini etnonim kimi araşdıran H.Mirzəyev yazır ki, Çul Dərələyəzdə kənd adıdır. Tarixi mənbələrdən aydın olur ki, türk tayfasının adını daşıyan Cul da qədimdən Azərbaycanlı kəndi olmuşdur.

Çul/Çol toponimi haqqında toponimik araşdırma aparmış Ç.Kazımov yazır ki, Çul/Çol eramızın V əsrində yazılı abidələrdə qeydə alınmışdır. V əsrin erməni tarixçiləri Egişe Fovstos Buzand və Aqofongel türk tayfalarının şimaldan Azərbaycana gəldiyini qeyd edərək, Çol/Çul mağarasının adını tez-tez çəkirlər. K.M.Treverə istinad edən müəllif yazır ki, maskutlar Xəzər dənizinin şimal-qərb sahilində, Samurun mənbəyindən cənubda V əsrdə Çor, Çul adlanan ərazidə məskən salmışlar. Müəllif daha sonra V.V.Bertolda istinad edərək bəzi ərəb mənbələrində rast gəlinən Sul oykonimini Çul kimi oxumağın düzgün olduğunu qeyd edir. Ç.Kazımov yazır ki, "sad" ərəb hərfi "ç" səsinin əvəzlənməsi kimidir.

Q.Məşədiyev V.Q.Yeqorova əsaslanaraq yazır ki, Çol/Çul türk mənşəli söz olub, çuvaş dilində "daş", "qaya", "dərə" mənasında işlənir ki, bu da həmin oykonimin coğrafi landşaftına uyğundur. Bizcə, çul/çol sözü ilə əlaqədar olub, "çöllük" mənasını verir.

R.Eyvazova Əfqanıstan ərazisində Çul/Çol toponiminin arealları haqqında məlumat verərkən yazır: "Çol-kənd–Pərvanda; Şor/Şur kənd – Qəndaharda. Biz Əfqanıstan ərazisindəki Çol, Çar, Sul, Sur coğrafi adlarını və "sal", "sar" tərkibli toponimləri eyni semantik mənalı, müxtəlif fonetik variantlı türk mənşəli adlar sayırıq".

N.Məmmədov tədqiqatlarında respublikamızın ərazisində Çullu dağ, Çullu dərə və Çullu təpə oronimləri haqqında məlumat verərkən yazır ki, adları çəkilən oronimlər çullu etnoniminin adını daşıyır. Respublikamızın ərazisində eramızın ilk illərindən etibarən bir sıra Azərbaycandilli tayfaların (kəngər, tərtər, qarqar, çiraq, gəncə)

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

içərisində *cul* tayfası da olmuşdur. Keçən əsrdə Qafqazda Çullu adlı beş toponim mövcud olmuşdur.

N.Əsgərov Çol/Çul/Sul oniminin "su", "çay" kimi izahının daha elmi olduğunu bildirmişdir. Çol/Çul/Çullu toponim və hidronimlərinin areallarına Gürcüstanda – Çullu k. Alının yeri, Çolman, Çolyan k., Sul dərə; Qərbi Azərbaycanda – Çulabad k., Çul k., Çullu k., Cul k.; Tatarıstanda – Çulım ideli, Çulman çayı, Çullu k.; Türkiyədə – Çullu k., Cənubi Azərbaycanda – Çölabad k.; Özbəkistanda – Çulobod k., Çulvotir dağı; Dağlıq Altayda – Çuluş çayı və Tuva ərazisində – Çulça çayı formalarında rast gəlinir.

*Zeyvə, Aşağı Zeyvə, Yuxarı Zeyvə* – Zəngəzur ərazisində – Qubadlı rayonu və Qərbi Azərbaycanın Qafan rayonu ərazisində qeydə alınmış toponimlərdir. Eyniadlı toponimlər Azərbaycanın Şabran, İsmayıllı, Laçın, Goranboy və Naxçıvan MR-nın Culfa rayonlarında da mövcuddur. Bu adda Azərbaycan ərazisində vaxtilə 10 kəndin mövcud olduğu bidirilir. Laçın rayonu ərazisində yerləşən Zeyvə kəndi yaxınlığında dağın zirvəsində üç hücrəli künbəz mövcuddur. Bu künbəz Zeyvə qalası adlanır. T.Əhmədov *zeyvə* sözünün ərəb mənşəli olduğunu, bu sözün ərəb dilindəki *zaviyə* sözü ilə eyni kökdən olduğunu qeyd edir. Müəllif *zeyvə* sözünün istər ərəb dilində, istərsə də keçdiyi dillərdə islamiyyətlə əlaqədar olduğundan, demək olar ki, eyni mənada fars dilindəki xanəgah sözünün sinonimi kimi "künc, bucaq, cəmiyyətdən uzaq guşə, hücrə, ibadətgah" mənaları ilə eyni mənanı ifadə etdiyini bildirərək yazır: "Zeyvə adlı məntəqələr keçmişdə bir bucaqda, hücrədə, camaatdan kənarda oturub, öz ömürlərini ibadətdə keçirən ruhanilər, din xadimləri və tərkidünyalar üçün salınmış hücrə, ibadətgah və ya guşələrin – "zabiyə"lərin qalıqlarıdır.

Tarixin müəyyən dövrlərində, o cümlədən Səfəvilər dövründə ruhanilər imtiyazlı zümrələrdən hesab olunurdu. Kürdəxanıda Əxizaviyəsi (XV əsr), Bibiheybət Zaviyəsi (XVII əsr) həmin dövrün yadigarlarıdır.

M.Soltanov *zeyvə* oniminin dilimizdəki onomastik leksikasında məkan mənası ilə yanaşı "müqəddəslik" mənasında antroponim (qadın adı) kimi də işləndiyini qeyd etmişdir.

Bir vaxtlar Qərbi Azərbaycan ərazisində mövcud olmuş Zeytə toponimi də ərəb apelyativi olan *zaviyə* sözünün yerli əhalinin danışığında təhrifə uğrayaraq *zeytə* formasına düşmüşdür.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 73-77**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 73-77**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Yuxarıda deyilmiş fikirləri ümumiləşdirsək Zeyvə toponimi "müqəddəs insanların yaşayış yeri, müqəddəs yer" mənasını ifadə etmişdir.

*Məzrə, Mərzğat* – Zəngəzur ərazisində qeydə alınmış toponimdir. Qubadlı rayonu ərazisində Məzrə nomenli 3 coğrafi obyekt qeydə alınmışdır. Məzrə oykonimi, Məzrə düzü və Məzrə piri oronimləri. Zəngilan rayonu ərazisində Məzrə yurdu, İmişli, Qubadlı, Quba və Naxçıvan MR-nın Ordubad rayonunda da Məzrə qeydə alınmış oykonimdir.

S.P.Zelinski Zəngilan rayonu ərazisində qeydə alınmış Məzrə yurdu toponimini Bartas "daçası" adlandırmışdır. Məzrə, arxaik apelyativli ərəb mənşəli *məzrə* sözündən yaranıb, "şum yeri", "əkin üçün yararlı yer, tarla", habelə "əkin yerləri əsasında yaranan məntəqə, oba, kiçik yaşayış məntəqəsi" mənalarını ifadə edir.

Fars dilinin leksikasında "sərhəd" anlamında *məzrə* sozünə rast gəlinir. Azərbaycan dialekt və şivələrində *məzrə* "biçənək, otlaq", Quba dialektində isə "iki qonşu yer arasındakı ayrıca əlamət" mənalarında işlənir.

Qərbi Azərbaycanın ərazisində bir vaxtlar Mes-Məzrə, Pokr-Məzrə oykonimləri və Məzrə hidronimi mövcud olmuşdur. Hazırda İranda "məzrə" komponentli 26 toponim vardır.

Qədim Azərbaycan torpağı olan Zəngəzurun, apelyativi qədim olan toponimlərini tədqiqata cəlb etməklə həmin bölgənin çox qədim və rəngarəng tarixə malik olduğunun bir daha şahidi olursan. Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, bu ərazilərin aborigen sakinləri türkdilli etnoslar olmuşlar, ona görə də bu regionda mövcud olan yer-yurd adları, əsasən, türk mənşəli toponimlərdən ibarətdir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 78-80**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 78-80**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Həcər Hüseynova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmlər doktoru
hacerhuseynova@mail.ru

# ZƏNGƏZURUN TARİXİ TOPONİMLƏRİ

***Açar sözlər:*** *vətən, həsrət, ərazi, toponimlər*
***Keywords:*** *homeland, longing, territory, toponyms*

Cənubi Qafqazın ən qədim yaşayış məskənlərindən biri olan Zəngəzurun toponimlərinin tamamı, yəni doxsan faizdən çoxu türk mənşəlidir. Buradakı yaşayış yerlərinin adları Qafqaz Albaniyasının yarandığı dövrlərdən burada yaşayan türk etnoslarının adları ilə – prototürklərlə bağlıdır. Qafan, Qoroz, Sisakan, Şəki, Aqvanna, Aqvani, Hot və digər coğrafi adlar bunlara nümunədir. Zəngəzur ərazilərinə sakların, kimmerlərin gəlişi eradan əvvəl VII yüzilliyə təsadüf etmişdir. İki min il öncə Qara dənizin şimalından Cənubi Qafqaza, Ön və Cənubi Asiyaya gələn kimmerlər, saklar burada məskunlaşmış və xalqımızın formalaşmasında iştirak etmişlər. Mənbələrdə qeyd olunduğu kimi, Si saklar Göyçə gölündən Qarabağ yaylasına qədər olan ərazilərdə, Ər saklar isə indiki Qarabağ ərazisində, Mil və Muğan düzlərində yerləşmişlər. Zəngəzurda böyük türk etnoslarından olan Xəzərlərin kulas, tarna, belencer tayfalarının da izləri olmuş və bu adlar toponimlərdə yaşamaqdadır. Bütün bunlar ərazinin – Zəngəzurun yerli aborigenlərinin Azərbaycan türkləri olduğunu əsaslandıran elmi sübutlardır (Qəniyev, 2019). Zəngəzurun tarixini isbatlayan Bayandur oykonimi, hidronimi (çay), Qayalı, Babalı oykonimləri, Xələc, Çəpni, Avsarlu oykonimləri tarixi mənbələrdə, xəritələrdə və yerli əhalinin yaddaşında qorunub saxlanmışdır. Ancaq Azərbaycan-türk mənşəli toponimlər tarixin yaddaşında qaldı. Süni şəkildə yaradılmış Ermənistan ərazisi hesab edildikdən sonra ərazinin coğrafi adları erməniləşdirilmişdir. İndi Zəngəzurun, Qərbi Azərbaycanın tarixini, azərbaycanlıların tarixi coğrafiyasını, Ermənistan azərbaycanlıların etnogenizini aydınlaşdırmaq üçün ərazinin toponimləri, xüsusilə etnotoponimləri əvəzolunmaz mənbədir. Zəngəzurun toponimiyasını öyrənmək də mühüm mətləblərin açılmasına yardım edər. Erməni

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

mənbələrində Zəngəzur Sünikin sonrakı adı kimi qeyd edilir. Azərbaycan tarixi rusların bu əraziyə gəlişindən (işğalından) sonra daha çox təhrif olunmuşdur. Tarixi Azərbaycan və Zəngəzur mahalı XX əsrin əvvəllərində bolşeviklərin köməyi ilə işğal edilmişdir. Bu müddət ərzində həm Qərbi Azərbaycanın bütün ərazilərində, o cümlədən Zəngəzurda yüzlərlə coğrafi adları dəyişdirib, saxta tarixlərinə "yamamışlar". Zəngəzur qədim Azərbaycan torpağıdır. XX əsrin əvvəllərində təxminən 7,8 kv.km ərazisini əhatə edən, sonralar 7 bölgəyə − Laçın, Gorus, Sisyan, Qafan (Tarixi mənbələrdə Qapan və Qappan kimi yazılıb), Qubadlı, Meğri//Mığrı və Zəngilan bölgələrinə ayrılan Zəngəzurun qədim tarixi haqqında ətraflı məlumatlar ərəb və fars mənbələrində olsa da, qeydə alınmış və hətta çağdaş dövrümüzə qədər gəlib çatmış toponimləri tədqiq etməklə bölgənin çox qədim və rəngarəng tarixə malik olması haqqında əsaslı mülahizərlər irəli sürmək mümkündür. Bu ərazi Sovet hökuməti dövründə yenidən iki hissəyə bölündü: Zəngəzurun Azərbaycan ərazisinə daxil olan hissəsi (Qubadlı, laçın, Zəngilan) və Emənistan hissəsinə aid olan hissəsi (Qafan, Gorus, Sisyan, Meğri). Zəngəzurun bizə məlum olmayan səbəblərdən, bəlkə də, minlərlə açılmamış və öyrənilməmiş sirləri də qalmışdır. Qədim Azərbaycanın ərazisi olan Zəngəzurun tarixinin öyrənilməsi bu gün dilçi-tarixçilərin qarşısında duran aktual məsələlərdəndir. Qədim Zəngəzurun tarixi tədqiqata tam şəkildə cəlb olunmamışdır və buna ehtiyac var. Son dövrlərdə baş verən ictimai-siyasi tarixi hadisələrlə əlaqədar milli tariximizin, eləcə də Zəngəzurun hərtərəfli tədqiq olunmasına imkan yaranmışdır. Tarixi Zəngəzur ərazisi ayrı-ayrı dövrlərdə müxtəlif ad altında göstərilib. Bölgənin ən qədim adlarından biri Sünik olub. Erməni tarixçiləri isə həm bu ərazinin ermənilərə məxsus, Sünik sözünün isə erməni mənşəli olduğunu sübut etməyə çalışmışlar. Alban tarixçisi M.Kalakantlı "Alban tarixi" əsərində Zəngəzur ərazisini "Sisakan" və "Sünik", həm də "Sünestan" adlandırmışdır. "Ağvan tarixi"ndə adı çəkilən Sisəkan toponimi (Sünik) də Araz çayı ilə Sevan gölü arasında vilayət elə indiki Sisyanla bağlıdır (Azərbaycan toponimləri ensiklopediyası, 1999: 229). Sünik adı etnik, mədəni və ictimai-siyasi baxımından Albaniya və Atropotena ilə ilə bağlı olmuşdur. Qaynaqlarda Sünikin adının Albaniya ilə yanaşı müstəqil ölkə kimi çəkilməsi göstərir ki, bu bölgə birbaşa Alban tayfa birliyinə daxil imiş. Burasını qeyd edək ki, Sünik adlı toponim

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Qafan//Qapan rayonu ərazisində müasir dövrə qədər gəlib çıxmışdır. Zəngəzur qədim oğuz elidir (Rüstəmli, 2019: 5).

Torpağın kimə məxsusluğunu onun adından düzgün söyləyən heç bir həqiqət yoxdur. Hunud, Xələc, Syvarı, Ağvanlı, Çəpni, Bayandur, Muğancıq, Qapan, Qazan dağ, Şəki, Quşçulu, Oxçu, Komaran, Uz, Yaycı, Çullu, Həyərək, Zəngəzur və s. adlar türk mənşəlidir.

## Ədəbiyyat

1. Qəniyev, H. (2019). Azərbaycan tarixi. Bakı.
2. Azərbaycan toponimləri ensiklopediyası. (1999). Bakı.
3. Rüstəmli, Ə. (2016). Zəngəzurun toponimləri − tarixin izi. Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 81-90**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 81-90**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elşən Aslanov**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
elshenaslanov79@mail.ru
https://orcid.org/0000-0002-3823-4350

# XIX ƏSR – XX ƏSRİN İLK ONİLLİKLƏRİNDƏ ZƏNGƏZUR BÖLGƏSİNDƏ BAŞ VERƏN HADİSƏLƏRİN AZƏRBAYCANIN TARİXİ-SİYASİ COĞRAFİYASINA TƏSİRİ

***Açar sözlər:*** *XIX əsr − XX əsrin əvvəlləri, Rusiya işğalı, Zəngəzur bölgəsi, tarixi-siyasi coğrafiya məsələləri, ermənilərin ərazi iddiaları*
***Keywords:*** *19th century − beginning of 20th century, Russian occupation, Zangazur region, issues of historical and political geography, territorial claims of Armenians*

Tarixi Zəngəzur ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini və Qərbi Azərbaycan torpaqlarının (indiki Ermənistan ərazisinin) cənub-şərqini əhatə edir. Hal-hazırda Zəngəzur ərazisi Azərbaycan Respublikasının Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edən Şərqi Zəngəzur və indiki Ermənistan Respublikasının Gorus, Sisyan, Qafan və Mehri rayonlarını əhatə edən Qərbi Zəngəzur ərazilərinə bölünüb. Tam dağlıq ərazidən ibarət olan bu region geniş və maraqlı bir coğrafi ərazini əhatə edir. Zəngəzur təkcə özünün təbii sərvətləri, füsunkar təbiəti ilə deyil, keşməkeşli tarixi və onomastik adların zənginliyi ilə də diqqəti cəlb edir. Dünyanın elə bir regionu yoxdur ki, Zəngəzur mahalı qədər siyasi oyunların mərkəzinə çevrilmiş olsun (Qubadlı, 2013: 34).

Əhalisi türk-müsəlmanlardan ibarət tarixən Azərbaycan torpağı olan Qərbi Zəngəzurun XX əsrin 20-ci illərinin əvvəlində Sovet Rusiyası tərəfindən Ermənistan Respublikasına verilməsindən sonra Azərbaycanın Naxçıvanla quru əlaqəsi kəsildi və Qərbi Zəngəzur ərazisi bu gün də Ermənistan Respublikasının sərhədləri daxilindədir. Hələ illər öncə, 2014-cü il aprelin 8-də Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngəzurun əzəli Azərbaycan torpağı olduğunu, onun Azərbaycandan ayırıb Ermənistana verilməsini,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngəzurun bütün yaşayış məntəqələrinin adlarının Azərbaycan adları olduğunu, Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu vurğulamış, bolşeviklərin 1921-ci ildə verdiyi qərarla Zəngəzurun coğrafi baxımdan iki yerə bölünməsini xalqımıza qarşı həyata keçirilən tarixi ədalətsizlik, qərəz və sağalmayan yara adlandırmışdı (2). Nəhayət, Azərbaycan ordusunun qəhrəmanlığı, xalqın prezidentinə inamı, Ali Baş Komandanın isə xalqa güvəni nəticəsində Azərbaycan 44 günlük Vətən müharibəsinində möhtəşəm qələbə qazandı. Bu qələbənin ən mühüm nəticələrindən biri kimi 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanatda "Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planının müəyyənləşdirilməsi" ilə Zəngəzur məsələsi geostrateji baxımdan siyasi müstəviyə qaldırıldı. Azərbaycanda Zəngəzur tarixi-coğrafi adının istifadə edilməsi ilə bağlı qorxuya düşən erməni tərəfi bu gün bütün ciddi-cəhdlə bu prosesi pozmağa çalışırır. Çünki XX əsrin 20-ci illərindən Ermənistana verilmiş Qərbi Zəngəzur ərazinin tarixən Azərbaycana məxsus olması faktı tarixi reallıqdır. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü" Fərmanı ilə "Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları hesabına Şərqi Zəngəzur iqtisadi rayonu"nun yaradılması, əslində, siyasi-coğrafi baxımdan tarixi Azərbaycan torpağı olan və zorla əlimizdən alınan Qərbi Zəngəzur ərazilərinin bərpası məsələsini də gündəmə gətirir.

Tarixin müxtəlif dövrlərində Zəngəzur mahalının siyasi hüdudları sabit şəkildə qalmamış, zamanla regionda baş verən ictimai-siyasi hadisələrə uyğun olaraq müəyyən dəyişikliklərə məruz qalmışdır. Təəssüflər olsun ki, 70 illik sovet dönəmində və sonrakı illərdə tarixən dədə-baba yurdumuz olan Zəngəzuru elmi tədqiqatlar, xüsusilə də mütəmadi arxeoloji qazıntılar səviyyəsində öyrənməyə imkan vermədilər (İskəndərov, 2022: 8).

Nadir şah Əfşarın imperiyası dağılanadək Azərbaycan inzibati vahidinin tərkibində olan Zəngəzur Azərbaycan ərazisi xanlıqlara bölündükdən sonra Təbriz, Qaradağ və Naxçıvan xanları arasında bölünmüşdü. Zəngəzurun tarixi-siyasi coğrafiyasından bəhs edərkən ərazinin Pənahəli xan tərəfindən Qarabağ xanlığının tərkibinə daxil olması ilə bağlı A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində yazır: "Xudafərin körpüsündən başlayaraq Kürək çayına və Bərgüşat mahalına qədər yerləri ələ keçirtdi. Bundan əlavə, Qaradağa aid Mığrı (Mehri − kursiv bizimdir) və Güney mahallarını, Naxçıvana aid Tatif (Tatev − kursiv bizimdir) və

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Sisyanı (Qarakilsə − kursiv bizimdir), Təbrizə aid olan Zəngəzur və Qapanı (Qafan − kursiv bizimdir) tutmuşdu” (Bakıxanov, 2001: 185). Beləliklə, Zəngəzur ərazisi əvvəllər olduğu kimi, yenə də bir siyasi-inzibati vahidin sərhədlərində birləşdi.

XIX əsrin başlanğıcında dünya siyasətinin prioritet probleminə çevrilən Şərq məsələsində Rusiya ərazisinin şimal, qərb və şərq istiqamətlərində genişlənməsi imkanları tükəndiyi üçün Rusiyanın xarici siyasətində cənubdakı ərazilərə − Orta Asiya və Qafqaza sahib olmaq arzusu önəmli yer tuturdu. XIX əsrin astanasında Cənubi Qafqazda, eləcə də Avropada yaranmış vəziyyət Rusiyanın Azərbaycana dair işğalçılıq planlarını gerçəkləşdirmək üçün imkan yaradırdı (Mustafazadə, 250).

Rusiya imperiyasının Qafqazda hegemonluğa can atması, XIX əsrin başlanğıcında sürəkli və qanlı rus-türk (1806-1812 və 1828-1829) və rus-İran (1804-1813 və 1826-1828) müharibələrinə gətirib çıxardı. Gözlənildiyi kimi, dərin böhran içində çabalayan Osmanlı imperiyası və İran rusların işğalçılıq planlarının gerçəkləşməsinə ciddi müqavimət göstərə bilmədi və bu müharibələr Qafqazın Rusiyanın müstəmləkə imperiyasının tərkibinə daxil edilməsi ilə sonuclandı (Balayev, 2022: 19). Böyük əksəriyyətini Azərbaycan xanlıqları təşkil edən Cənubi Qafqaz ərazisi Rusiya üçün siyasi və hərbi-strateji cəhətdən böyük əhəmiyyət daşıyırdı. Birincisi, bu diyarın işğalı ənənəvi rus-türk rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyrinə həll edə bilərdi. İkincisi, Rusiya Mərkəzi Qafqazı hələ tam fəth edə bilməmişdi. Cənubi Qafqazın istilası dağlıların əraziləri şimaldan və cənubdan mühasirəyə almaq üçün əlverişli şərait yarada bilərdi. Nəhayət, rus-ingilis rəqabəti Cənubi Qafqazın, o cümlədən Azərbaycanın əhəmiyyətini artırırdı (Kazımbəyli, 2017: 35). O zaman isti dənizlərə − Hindistana yol açmaq siyasəti yeridən Rusiya imperiyası Qacarlar dövlətini və Osmanlı imperiyasını məğlub etdikdən sonra Cənubi Qafqazda özünə güclü bir xristian istinadgahı yaratmaq siyasəti də yürüdürdü. Bu siyasət Azərbaycan xanlıqlarının işğalı və işğal olunan Şimali Azərbaycan torpaqlarına xristian əhalinin, ən başlıcası isə ermənilərin kütləvi surətdə köçürülməsi ilə həyata keçirildi. Bu işğal qaçılmaz deyildi, lakin xanlıqlar arasında ümummilli maraqlar baxımından mənasız və ziyanlı olan mütəmadi qarşıdurmalar, daxildə bir-birilə hakimiyyət uğrunda aramsız mübarizələr nəinki Azərbaycan xalqının etnik konsolidasiya proseslərini əngəllədi, həm də iqtisadi və hərbi baxımdan ölkənin tam gücsüz duruma düşməsinə gətirib çıxardı. Eyni zamanda XIX

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

yüzilliyin əvvəllərində Ağa Məhəmməd şah Qacarın hücumları nəticəsində Qarabağ xanlığının daxili vəziyyəti ağırlaşmış, çoxlu dağıntılara səbəb olan bu hücumlarda əhali var-yoxdan çıxmış, məhsul qıtlığı yaranmış, xanlığın müdafiə qüdrəti isə xeyli zəifləmişdi.

Rusiya və Qacarlar dövləti üçün Qarabağın strateji mövqeyinin böyük əhəmiyyəti var idi. Əhməd bəy Cavanşir "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" əsərində qeyd edirdi ki, o zamankı İran sərkərdələrinin, o cümlədən şahın özünün rəyinə görə alınmaz qala olan Şuşa qalası qacarlar üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı hesab olunurdu (Qarabağnamələr, 1989: 182).

Qeyd edək ki, Qarabağ xanlarının xarici siyasəti öz hakimiyyətini, öz hakim mövqeyini saxlamaq və möhkəmlətmək təmayülü ilə təyin edilirdi. Mürəkkəb beynəlxalq vəziyyətdə, İran, Türkiyə və Rusiyanın Azərbaycanı özünə tabe etmək uğrunda mübarizəsi şəraitində xanlar tərəddüd edir və vəziyyətdən asılı olaraq, öz sinfi mənafelərini təmin edən tərəfə meyil edirdilər (Qarabağnamələr, 1989: 18). Eyni zamanda digər çar zabitləri ilə müqayisədə bütün Qafqaz müsəlmanlarına, o cümlədən azərbaycanlılara qarşı son dərəcə həqarətli münasibəti ilə seçilən Rusiyanın Qafqazdakı baş komandanı, Azərbaycanın bir parçasını Rusiya üçün kəsib ayırmaqda əsasən hərbi məqsədlər güdən Pavel Sisianov onun şərtlərini öz xoşu ilə qəbul etmək istəməyən xanlara silahlı qüvvə ilə inandırma üsulunu tətbiq edirdi. Görünür məhz bu səbəbdən "Qarabağ, Şəki və Şirvan xanları ilə müqavilə bağlanması dinc yolla baş verdi" (Svyatochovski, 2000: 7). Bu müqavilələrin siyasi baxımdan müsbət əhəmiyyəti ondan ibarət oldu ki, "1805-ci il mayın 14-də Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı məhz müsəlman − Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu" (Mahmudlu, 2011: 45). Xanlıqlar dövründə Zəngəzur ərazisi Qarabağ xanlığının 21 mahalından 9-nu əhatə edirdi və bu əraziyə Həkəri və Bərgüşad çayları hövzəsindən başlayaraq Zəngəzur dağ silsiləsinədək olan torpaqlar, Sisyan, Tatev, Qaraçorlu, Püsiyan, Bərgüşad, Qafan, Mehri-Güney və Çuldur mahalları daxil idi. Qarabağ xanlığının Rusiyaya ilhaqı ilə əlaqədar olaraq xanlığın 9 mahalını əhatə edən Zəngəzur ərazisi də rusların himayəsinə keçdi və 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Zəngəzur da Rusiyanın işğal etdiyi ərazilər sırasında oldu.

Beləliklə, XIX əsrin əvvəllərində, xüsusilə də "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra Zaqafqaziya sərhədi Rusiya imperiyasının ərazisinə daxil oldu. İmperiya Osmanlı və Qacar dövlətləri

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

üzərində qazandığı qələbə ilə "Asiyadakı qüdrətini gücləndirdi", "qonşu himayədarlıq" mövqeyindən "yerli (Cənubi Qafqaz) xalqlarının tam hökmdarı" (Obozreniye rossiyskikh vladeniy za Kavkazom v statisticheskom, etnograficheskom i finansovom otnosheniyakh, 1836: 3-4) vəziyyətinə keçdi. Rusiya hərbi idarəsinin nəzarətinə keçən Şimali Azərbaycan əraziləri xanlıqların ləğvindən sonra vilayətlər kimi tanındı.

Rusiya imperiyası işğaldan dərhal sonra xəzinənin müəyyən bir əyalətdən alacağı vergilərin səviyyəsini müəyyənləşdirmək məqsədilə xanlıqların maddi və insan resurslarının kameral təsvirlərinin tərtibini həyata keçirtdi. 1819-cu ildə Şəki, 1820-ci ildə Şirvan, 1823-cü ildə Qarabağ, 1831-ci ildə Quba, 1833-cü ildə Naxçıvan vilayətlərinin təsvirlərində hələ xanlıqlar dövründə hər bir xanlığın bütün kəndləri, şəhərləri, təbii sərvətləri, kənd təsərrüfatı, sənətkarlıq, ticarətdə məşğuliyyət növləri, əhalisi, vergi və mükələfiyyətlər, vergilərin miqdarı ilə bağlı məlumatlar öz əksini tapmışdır. Təsvirlərin tərtibi eyni zamanda xanların, bəylərin, ağaların torpaq və mülklərinin Rusiya hakim dairələri tərəfindən zəbt olunmasını və bu səbəbdən onların mühacirət etmək məcburiyyətində qalmasına şərait yaradılmasını nümayiş etdirir.

Rusiya siyasi elitası Qafqazda sərhədlər müəyyən etsə də, Cənubi Qafqazın Rusiya imperiyası tərəfindən işğalından sonra Sankt-Peterburqda yerləşən çar hakim dairərələri ən çətin sərhəd bölgələrindən biri ilə bağlı strategiyanın işlənib hazırlanması məsələsi ilə qarşılaşdılar. Qafqazın, o cümlədən Cənubi Qafqazın işğalından sonra çar hakim dairələrində müzakirələrə səbəb olan məsələlərdən biri də bu ərazilərin birbaşa Rusiya ərazisinə çevrilməsi, yoxsa, inzibati, sosial və xüsusilə mədəni baxımdan imperiyaya aid olmayan, lakin imperiyaya məxsus ərazi olaraq qalmaları məsələsi idi. Bununla əlaqədar olaraq 1820 – 1830-cu illərdə Cənubi Qafqazda siyasətə cavabdeh olan və fəaliyyəti regionla bağlı olan ayrı-ayrı çar məmurları, rəsmi və qeyri-rəsmi məktublarda, məruzə və hesabatlarda, göstəriş və qeydlərdə bu məsələ ilə bağlı öz "layihə"lərini irəli sürmüşdülər.

Qeyd edək ki, Kürəkçay müqaviləsində Qarabağ xanı xarici dövlətlərlə əlaqə saxlamaq hüququndan məhrum edilsə də, lakin müqavilədə Əlahəzrət imperator tərəfindən "İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyətinin dəyişilməz" saxlanılacığına, habelə "daxili idarə etmə ilə bağlı hakimiyyət işlərinin, məhkəmə və divanxana işlərinin, bununla

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

yanaşı ölkədən yığılan gəlirin zati-alilərin (xanın) səlahiyyətində" qalacağına (Azərbaycan tarixi üzrə qaynaqlar, 1989: 274) söz verilirdi. Lakin 1822-ci ildə ruslar Qarabağ xanlığını ləğv edib onu Müsəlman əyalətləri hərbi dairəsinin tərkibində bir əyalətə çevirdikdən sonra, 30-cu illərin əvvəllərində bu əyalətin tərkibində 9 minbaşılığı birləşdirən iri Zəngəzur mahalı təşkil olundu. Bunlar keçmiş Sisyan, Tatev, Zəngəzur, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Meğri-Güney və Çavundur (Çuldur) mahalları idi (13).

Türk-müsəlman əhalisini və Azərbaycanı Cənubi Qafqazda qəddar müstəmləkəçilik siyasətinin başlıca hədəfinə çevirən Çar Rusiyasının əsas məqsədi Azərbaycanın Cənubi Qafqazda minilliklərlə davam edən dövlətçilik ənənələrini və inzibati-ərazi sərhədlərini məhv etmək idi. Rusiya imperiyası əsiri olan xalqların, o sıradan Azərbaycan türklərinin milli varlığını danmağa çalışırdı. Ümumdövlət idarəçiliyi sistemində əsir xalqların torpaq-ərazi bütövlüyünü göstərə biləcək "Azərbaycan", "Gürcüstan" kimi anlayışlar yox idi (Əliyarlı, 2012: 88). Onların yerinə, sadəcə olaraq, inzibati-vilayət bölgüsü əsasında müxtəlif adlar altında quberniyalar yaradılmışdı.

1840-cı il aprelin 10-da I Nikolay tərəfindən "Zaqafqaziya diyarının idarə olunması üçün müəssisə" adı altında inzibati məhkəmə islahatı layihəsinin təsdiqindən sonra Cənubi Qafqazın inzibati quruluşu dəyişdirilərək Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırıldı. Cənubi Qafqazda quberniya – qəza – sahə (nahiyə) inzibati bölgüsü tətbiq edildi. İslahat nəticəsində inzibati cəhətdən iki yerə ayrılan Cənubi Qafqaz diyarının mərkəzi Şamaxı olan Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində 1841-ci il yanvarın 1-dən keçmiş Zəngəzur mahalı Zəngəzur və Meğri sahələrinə bölündü. Çarizmin 1841-ci ildə verdiyi qərara əsasən Kaspi (Xəzər – kursiv bizimdir) vilayəti bəylərinin kəndlərin idarəçiliyindən kənar edilməsi, eyni zamanda bəy və ağaların tiyul torpaqlarından məhrum olunması hökumətə qarşı kütləvi xalq çıxışları ilə nəticələndi və 1842-ci ildə torpaqların müsadirəsi dayandırıldı. Qafqazda öz mövqeyini möhkəmləndirmək məqsədilə 1844-cü ildə Qafqaz Canişinliyini təsis edən çarizm sonrakı mərhələdə 1846-cı il reskripti ilə ali müsəlman silkinin həm mülk, həm də tiyul torpaqları üzərində tam irsi mülkiyyət hüququnu təsdiq etməklə ölkəmizdə özünə sosial dayaq yaratmaq yolunda ilk ciddi addım atdı.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Çarizmin bölgədə güclənməsi üçün qraf M.Voronsovun təşəbbüsü ilə atılan növbəti addım Cənubi Qafqazda 1846-cı il 14 dekabr tarixli fərmanla yeni ərazi-inzibati bölgüsünün həyata keçirilməsi oldu. Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti ləğv edilərək, onların yerində Tiflis, Kutais, Dərbənd və Şamaxı quberniyaları yaradıldı ki, 1859-cu ildən Şamaxı quberniyası Bakı quberniyasına çevrildi. 1849-cu ildə İrəvan, 1868-ci ildə Yelizavetpol quberniyaları yaradıldı. 1846-cı ildə tətbiq olunan yeni ərazi-inzibati bölgüsünə görə Qarabağ qəzası Şuşa qəzası adlandırıldı. İrəvan quberniyasının təşkil olunması ilə əlaqədar Zəngəzurun cənub hissəsi Meğri sahəsi (Qapan, Meğri-Güney, Çavundur və Püsyan mahalları ilə birlikdə keçmiş Qapanat əyaləti) 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibinə daxil edildi.

Yelizavetpol quberniyası yaradılarkən Bakı quberniyasının Şuşa qəzasının və İrəvan quberniyasının Ordubad qəzasının Mehri dairəsi ərazilərinin bir qisminin hesabına Zəngəzur qəzası yaradıldı. Zəngəzur qəzası Yelizavetpol quberniyasına daxil olan qəzalar içərisində ərazicə ən böyüyü idi. Bu qəza İrəvan quberniyasının Şərur − Dərələyəz və Naxçıvan, Yelizavetpol quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl qəzalarının əhatəsində, Araz çayı ilə İranla həmsərhəd idi.

XIX əsrin sonlarında Zəngəzur qəzasının ərazisi 7,83 min kv.km olmuşdur. İnzibati-ərazi quruluşunda baş verən bu dəyişikliklər Azərbaycan torpaqlarını nəinki müvafiq quberniyaların hüdudlarında birləşdirdi, əksinə onu daha da parçaladı. Göründüyü kimi, türk-müsəlman əhalisini və Azərbaycanı Cənubi Qafqazda qəddar müstəmləkəçilik siyasətinin başlıca hədəfinə çevirən çar Rusiyasının əsas məqsədi Azərbaycanın Cənubi Qafqazda minilliklərlə davam edən dövlətçilik ənənələrini və inzibati-ərazi sərhədlərini məhv etmək idi. Eyni zamanda çar Rusiyasının hakim dairələri Cənubi Qafqazın işğalını özünün təsir dairəsində saxlamaq üçün “Cənubi Qafqaz xalqları arasına düşmənçilik toxumu səpmək və süni ərazi münaqişələri yaratmaqdan tutmuş, köçürmə siyasətinə və zorla pravoslaşlaşdırmaya, dini-etnik zəmində toqquşmalar və milli qırğınlar, deportasiyalar və soyqırımları törətməyə qədər müstəmləkəçiliyin bütün iyrənc formalarını bu regionda sınaqdan çıxarmışlar (Rəhmanzadə, 2008: 6).

XIX əsrin əvvəllərində Rusiya çarizmi Cənubi Qafqazı işğal etdikdən sonra İran və Türkiyədən kütləvi surətdə ermənilərin Şimali Azərbaycanın

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Qarabağ, Naxçıvan və İrəvan ərazilərinə köçürülməsi ilə gələcəkdə Azərbaycanda milli zəmində baş verəcək münaqişələrin əsasını qoydu.

Zaqafqaziya Seyminin dağılmasından sonra böyük dövlətlərin təzyiqi və Osmanlı hakim dairələrinin təklifi ilə 1918-ci il may ayının 29-da qədim Azərbaycan torpaqları hesabına və İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi ilə Ermənistan Respublikası yaradıldı. Əvəzində isə ermənilər Daqlıq Qarabağ və digər bölgələrə iddialarından birdəfəlik əl çəkməyi vəd etsələr də, 4 iyun 1918-ci ildə Batum konfransında ərazisi 10 kv.km olan Ermənistan Respublikası vədinə xilaf çıxaraq Azərbaycanın Zəngəzur, Qarabağ, Naxçıvan və Göyçə bölgələrinə ərazi iddiaları ilə çıxış edərək 1918-ci ildə bu ərazilərdə kütləvi soyqırımları həyata keçirdi. Bu məqsədlə 1919-cu il yanvarın 25-də Azərbaycan hökumətinin qərarı ilə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları Gəncə quberniyasının tərkibindən çıxarılaraq, həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğu yaradıldı. Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilən Zəngəzur ərazisi 1920-ci ilə qədər bütün beynəlxalq sənədlərdə, xəritələrdə və yazışmalarda Azərbaycan əraziləri kimi qeyd olunmuşdur.

1920-ci ilin avqustunda Sovet Rusiyasi ilə Ermənistan Respublikası arasında bağlanan sazişə əsasən, Azərbaycanın Şərur − Dərələyəz bölgəsinin Ermənistana verilməsi nəzərdə tutulur, əzəli torpaqlarımız olan Qarabağ, Zəngəzur və Naxçıvan isə “mübahisəli ərazi” hesab edilirdi.

1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi − əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi.

AK/b/P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında “*Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili*” haqqında qərar çıxarıldı. Uzun müzakirələrdən sonra Zəngəzur qəzasının köhnə inzibati sərhədlərdə saxlanması qərara alındı və Zəngəzurla bağlı qeyri-müəyyənlik 1927-ci ilə qədər davam etdi. Zəngəzurun azərbaycanlı əhalisini sıxışdırmaqda davam edən ermənilər bununla kifayətlənməyərək sonralar bir sıra ərazilərin də ələ keçirilməsinə nail oldular. Belə ki, Zaqafqaziya MİK Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasında Mehri − Cəbrayıl qəzasında 24 kəndin, 1927-ci il 20 iyun tarixli iclasında isə Zəngəzur − Kürdüstan qəzasının 1.065 desyatin ərazisinin bu və ya digər qəzalara aid edilməsi məsələləri müzakirə edildi. Yenə də bu

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

qanunverici hakimiyyət orqanının 1929-cu il fevralın 18-də M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyatzadə, M.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasda Mehridə erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun üç kəndi − Nüvədi, Ernəzir və Tuğut Ermənistana verildi. 1938-1939-cu illərdə Ernəzir kənd kollektiv təsərrüfatı Nüvədi kəndi, Tuğut kəndi isə ermənilər yaşayan Astazurla birləşdirildi, hər iki kəndin doğma yerlərindən Nüvədi, Əldərə və Astazur kəndlərinə köçürüldü. Beləliklə, Zəngəzurun cənub-qərb hissəsindəki torpaqların da ermənilərə "bağışlanması" və burada Mehri rayonunun təşkili ilə Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvandan ayrı salındı, bu bölgə ilə əlaqə çətinləşdi. Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsi ilə Şimali Azərbaycan parça-parça edildi, onunla Türkiyə arasında əlaqə pozuldu, torpaqlarımızın sonrakı işğalı üçün yeni zəmin yaradıldı (Bəhrəmov, 2013: 6).

"Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik, kiminsə siyasi maraqlarının girovuna çevirə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir – 101 il bundan əvvəl" (Mahmudov, 2021: 7). Lakin Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyevin ictimaiyyətlə keçirilən bütün görüşlərdə söylədiyi kimi, "Bu gün bizim indiki Ermənistan Respublikasının torpağında gözümüz yoxdur. Biz nə İrəvanı, nə Mehrini, nə Gorusu hərbi yolla qaytarmaq fikrində deyilik" (18). Lakin vaxtı ilə müəyyən şərtlərlə ermənilərə verilən Qərbi Zəngəzur əraziləri üzərində tarixi varislik hüququmuz bərpa edilməlidir. Tam əminik və inanırıq ki, "vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq", xalqımıza qarşı ədalətsizlik və qərəz tezliklə aradan qaldırılacaqdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Qubadlı. (2013). Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı. Bakı, 34 s.
2. Prezident İlham Əliyevin nitqi. https://president.az/az/articles/view/11356
3. İskəndərov, A. (2022). Azərbaycanın Zəngəzur mahalı. Xalq qəzeti, 14 may, 8 s.
4. Bakıxanov, A.A. (2001). Gülüstani-İrəm. Bakı, 185 s.
5. Mustafazadə, T. Azərbaycan-Rusiya münasibətləri XVIII əsrin ikinci – XIX əsrin əvvərində. Bakı, 250 s.
6. Balayev, A. (2022). Azərbaycan Cümhuriyyətinin doğuşu. 1917-1918-ci illər milli mücadiləsi. Bakı, 19 s.
7. Kazımbəyli, İ. (2017). Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri). Bakı, 35 s.
8. Qarabağnamələr. (1989). I kitab. Bakı, 18 s.
9. Svyatochovski, T. (2000). Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, 7 s.
10. Mahmudov, Y. (2021). Zəngəzur dəhlizi bizim üçün strateji məsələdir. Xalq qəzeti, 26 avqust, 7 s.
11. Obozreniye rossiyskikh vladeniy za Kavkazom v statisticheskom, etnograficheskom i finansovom otnosheniyakh. (1836). V 4 tt. SPb., T. 1, s.3-4.
12. Azərbaycan tarixi üzrə qaynaqlar. (1989). Bakı, 274 s.
13. https://files.preslib.az/projects/zangazur/az/a1.pdf
14. Əliyarlı, S. (2012). Tariximiz açılmamış mövzuları ilə. Bakı, 88 s.
15. Rəhmanzadə, Ş. (2008). Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri. Bakı, 6 s.
16. Bəhrəmov, C. (2013 10 yanvar). Bir səhvin acı nəticələri. “Azərbaycan” qəzeti, № 4, 6 s.
17. Mahmudlu, Y. (2011). Seçilmiş əsərləri. VII cild. Bakı, 45 s.
18. Prezident İlham Əliyev. Vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq. 03.12.2016. https://azertag.az/xeber/1016236

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 91-96**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 91-96**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Könül Mədədzadə**
Sumqayıt Dövlət Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
konulmededzade@mail.ru

# HEYDƏR ƏLİYEV DÖVRÜNÜN XARİCİ SİYASƏTİ

***Açar sözlər:*** *xarici siyasət, prioritet, balans, əməkdaşlıq*
***Keywords:*** *foreign policy, priority, balance, cooperation*

Dövlətin müstəqilliyinin əbədiliyini təmin edən başlıca atribut xarici siyasətdir, eyni zamanda hər bir dövlətin fəaliyyətinin çox vacib, prioritet istiqamətlərindən biridir. 1991-ci ildə qarşımızda duran əsas vəzifələrdən biri də ölkəmizin dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə məhz milli mənafelərə əsaslanan xarici siyasət və sistemli olaraq onun həyata keçirilməsi idi. Çünki ölkəni üzləşdiyi ağır siyasi, iqtisadi, sosial durumdan xilas etmək üçün ağıllı daxili siyasətlə yanaşı, həm də düşünülmüş, praqmatik xarici siyasət kursuna ciddi zərurət yaranmışdı.

Etiraf etmək lazımdır ki, müstəqilliyin ilk illərində Azərbaycan dövlətinin xarici siyasətdə buraxılmış səhvlər nətəcəsində ölkəmiz beynəlxalq aləmdən təcrid olunmuşdu, müxtəlif təhdidlərlə, təzyiqlərlə üz-üzə qalmışdı. 1993-cü il tarixində xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini ölkənin strateji maraqlarına uyğun olaraq tamamilə yenidən qurdu. O, xarici siyasətdə başlıca vəzifələri qeyd edərək deyirdi ki, Azərbaycanın xarici siyasəti − sağlam, düşünülmüş, dünya dövlətləri birliyinə bağlı, bütün dövlətlərlə əlaqəsini qoruyub saxlayan, xalqın mənafeyini təmin edən və Azərbaycanı de-fakto dünya miqyasında bir dövlət kimi tanıtmağı təmin edən xarici siyasət olmalıdır.

Heydər Əliyev Azərbaycanın xarici siyasətində başlıca istiqamətləri müəyyən edərkən bütün dövlətlərlə, ilk növbədə, qonşu Türkiyə, İran, Gürcüstan, Rusiya ilə, həmçinin Amerika, Avropa, Ərəbistan, Mərkəzi Asiya dövlətləri ilə bərabər hüquqlu əlaqələrin qurulmasını vacib hesab edirdi ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dünya dövlətləri ilə bərabərhüquqlu əlaqələr yaratmalıdır, bu da

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

ölkəmizin müstəqil dövlət kimi formalaşmasına və inkişafına kömək edəcəkdir.

Heydər Əliyev xarici siyasətdə balanslaşdırılmış və praqmatik siyasət yürüdərək ölkədə öz nüfuzunu daha da möhkəmləndirdi, hakimiyyəti dövründə ona qarşı çevrilişləri uğurla aradan qaldıraraq baş verə biləcək daxili və xarici təzyiqləri azaltmağa nail oldu. Heydər Əliyevin daxili siyasətində siyasi sabitlik üstünlük təşkil edirdi, bununla yanaşı o, ölkənin daxili vəziyyəti ilə xarici siyasət arasındakı əlaqəni də nəzərdən qaçırmırdı. Buna görə də bir prezident kimi xarici güclərin ölkənin daxili işlərinə qarışmasının qarşısını ala bildi, həm də xarici siyasət variantları baxımından müstəqil addımlar atdı. Bu dövrdə Azərbaycanın xarici siyasətdə əsas prioriteti özünü bərqərar etmək və müstəqilliyini möhkəmlətmək idi.

Burada ən əsas məqsəd qonşu dövlətlərin ölkənin daxili işlərinə qarışmasının qarşısını almaq idi. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlar və Xəzər problemi də ölkənin özünü və regionda müstəqilliyini qəbul etdirməsi baxımından həllini gözləyən problemlər olduğuna görə bu problemlərin həllinin açarı kimi ilk növbədə neft sazişlərini imzalamaqda gördü, 1994-cü ildə Ermənistanla atəşkəs sazişi imzalamaqla müharibəni dayandırdı, daha sonra enerji şirkətləri ilə enerji müqavilələri imzalandı. Heydər Əliyev prezident seçildikdən sonra Rusiya ilə anlaşaraq onun Ermənistana dəstəyini və Azərbaycanın daxili işlərinə qarışmasını dayandırmaq üçün sələfindən fərqli xarici siyasət yürüdəcəyini və Rusiya ilə münasibətləri hər istiqamətdə inkişaf etdirəcəyini bəyan etdi. 1993-cü il sentyabrın 20-də Azərbaycan Parlamenti MDB-yə üzvlüyü təsdiq etdi, 24 sentyabr 1993-cü il tarixində isə H.Əliyev Moskvaya gedərək MDB-yə üzvlük və birgə təhlükəsizlik və iqtisadi əməkdaşlıq müqavilələrini imzaladı (Aslanlı, 2002: 23).

Digər tərəfdən, Heydər Əliyev İran, Türkiyə, Rusiya və Qərb arasında balanslaşmış siyasəti həyata keçirdi. Azərbaycan MDB-yə üzv olandan sonra Rusiya ilə dialoqa xüsusi önəm verdi, həmin dövrdə Azərbaycan Kollektiv Təhlükəsizlik Təşkilatına da üzv oldu (Nesipli, 65).

1994-cü ilin əvvəllərində, Rusiyanın təzyiqlərinə baxmayaraq, Qərb və Türkiyə ilə münasibətlərin inkişaf etdirilməsinə nail olundu, Azərbaycan − Türkiyə münasibətlərində hərbi əməkdaşlıq ön plana

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

çıxdı. 1996-cı ildən Türkiyə azərbaycanlı zabitlərin hazırlanması prosesinə başladı və Azərbaycanın hərbi təhsil sistemini NATO səviyyəsinə çatdırmaq üçün dəstək verdi. Türkiyə ilə Azərbaycan arasında ən böyük razılaşma 1993-cü il sentyabrın 19-da Türkiyənin o vaxtkı xarici işlər nazirinin Azərbaycana səfəri zamanı reallaşdı. Səfər zamanı Heydər Əliyev Azərbaycan neftinin dünya bazarlarına nəqli üçün əsas ixrac marşrutu kimi Türkiyəyə üstünlük verəcəyini və Türkiyənin Azərbaycan ordusuna təlim keçməsini davam etdirəcəyini bildirdi. 1994-cü ilin fevralında Heydər Əliyevin Türkiyəyə səfəri zamanı Türkiyə və Azərbaycanı *"bir millət, iki dövlət"* adlandırması Türkiyə-Azərbaycan münasibətlərində yeni dövrün başlanğıcı oldu.

Heydər Əliyev Naxçıvana rəhbərlik etdiyi müddətdə İranla münasibətlərin nisbətən yaxşılaşdırılmasına nail olmuşdu. Bu müddətdə o, Ermənistanın mühasirəsində olan Naxçıvana kömək etmək üçün İran rəsmiləri ilə görüşmüş, 1993-cü ilin oktyabrında İranın o vaxtkı Prezidenti Haşimi Rəfsəncani Azərbaycana səfər etmişdi. Heydər Əliyevin 1994-cü il iyunun 29-da İrana səfəri də faydalı olmuşdu. Lakin İranla Ermənistanın işğal etdiyi Azərbaycan torpaqları arasında körpünün yenilənməsi ilə bağlı yayılan məlumatdan sonra münasibətlər yenidən soyuq məcraya yönəldi, Heydər Əliyev iranlı nazirlə görüşməkdən imtina etdi, Azərbaycanın Təbrizdə konsulluq açmaqla bağlı müraciətinə İranın mənfi cavab verməsi səbəbindən onun İrana səfəri də təxirə salındı (Mollazadeh, 1998).

Dünyada əsas söz sahibi olan ABŞ-la da münasibətlərin qurulmasında və inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri böyükdür. ABŞ-da 2001-ci il 11 sentyabr terror hadisələrindən sonra Heydər Əliyev bütün bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmi bəyanatla pislədi və Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını bildirdi. Bununla da ABŞ-ın ölkəmizə olan etimadı gücləndi və hər iki tərəf üçün gələcəkdə mühüm keyfiyyət dəyişikliyinə səbəb oldu. Sentyabrın 11-dən sonra ABŞ-ın Mərkəzi Asiya və Cənubi Qafqaza marağı Azərbaycanın qərbyönümlü xarici siyasət prosesini sürətləndirdi, eyni zamanda Rusiyanı balanslaşdırmaq asanlaşdı. Xüsusən də bu prosesdən sonra Rusiya və İran kimi dövlətlərin Azərbaycanı öz qütblərinə çəkmək cəhdləri Cənubi Qafqazdakı proseslərə yanaşmanı Orta Asiyada gedən proseslərdən fərqləndirməyə səbəb oldu (Aslanlı, 2002: 49).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Ulu öndərin Bakı − Tiflis − Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirməsi, antiterror koalisiyasına dəstək verməsi, Xəzər hövzəsinin ehtiyatlarının Azərbaycandan Qərb ölkələrinə nəql etməsi sahələrində səy göstərməsi nəticə etibarilə ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. Sözsüz ki, bu, xarici siyasətin ən böyük uğuru idi.

Bir sözlə, 11 sentyabr hadisələri Azərbaycanın xarici siyasətinə yeni ölçü və fəallıq gətirdi. ABŞ-ın yaratdığı antiterror alyansına qoşulan Azərbaycan Əfqanıstana 23, İraqa isə 150 əsgər göndərdi. Beləliklə, Azərbaycan − ABŞ hərbi təhlükəsizlik münasibətlərində yeni dövr başladı (Svante, 2003).

Ulu öndərin rəhbərliyi ilə ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi böyük İpək yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətdə qazandığı ən mühüm nailiyyətlərdən biridir.

Ümummilli lider Heylər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsinə də böyük diqqət yetirilib. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması, onların fəaliyyətində müntəzəm, eləcə də fəal iştirak etməsi ölkəmizin beynəlxalq aləmdə tanıdılmasında və üzləşdiyi problemlərin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadı. Bu baxımdan 1994-cü il mayın 4-də imzalanmış "Sülh naminə tərəfdaşlıq" proqramı da Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu, NATO-nun hərbi strukturları ilə Azərbaycan Ordusunun sülh naminə əməkdaşlıq etməsi üçün əlverişli şərait yaratdı.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

22 aprel 1996-cı il tarixində Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında əməkdaşlığa dair Sazişin imzalanması, 2001-ci il yanvarın 17-də Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi də Heydər Əliyevin xarici siyasətinin növbəti uğuru idi. Bu hadisəni ümummilli lider Heydər Əliyev yüksək qiymətləndirərək demişdi ki, "Azərbaycanın Avropa Şurasına qəbul olunması həmçinin onun Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi ölkəmizin inkişafının yeni başlanğıcıdır".

Dünyada ən mötəbər beynəlxalq qurumla − BMT ilə əlaqələrin qurulması və inkişaf etdirilməsi də Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Ümummilli lider BMT Baş Assambleyasının sessiyalarında, çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi. Həyata keçirilən tədbirlər nəticəsində BMT Təhlükəsizlik Şurasının münaqişənin həllinin ilə bağlı 822,853, 874 və 884 saylı qətnamələrində, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsində, habelə ATƏT və Avropa Şurasının müvafiq qərarlarında Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı bir daha təsdiqləndi.

Ümumiyyətlə, Heydər Əliyevin 1993-2001-ci illərdə səksənədək ölkənin dövlət başçıları ilə keçirdiyi beş yüzdən çox görüş, eləcə də nüfuzlu beynəlxalq təşkilatların ən yüksək səviyyəli nümayəndələri ilə etdiyi söhbətlər, mötəbər sammitlər çərçivəsində aparılan müzakirələr öz bəhrəsini verdi. Hazırda Azərbaycanın dünyanın yüz yetmişdən çox dövləti ilə diplomatik münasibətləri vardır. Ölkəmizdə 81 diplomatik nümayəndəlik və konsulluq fəaliyyət göstərir. Öz növbəsində, Azərbaycanın 67 ölkədə səfirliyi, 9 baş konsulluğu və 10 daimi nümayəndəlikləri mövcuddur. Azərbaycan mötəbər beynəlxalq təşkilatların üzvüdür və orada çox aktiv fəaliyyət göstərir. Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında, UNESCO-da, digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır. Ölkəmiz Avropa İttifaqının TRASEKA, "Yeni Qonşuluq", "Şərq tərəfdaşlığı" kimi proqramlarının aktiv iştirakçısıdır (Əliyev, 1997).

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə, müvəffəqiyyətlə davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

çox böyük uğurlara imza atır, ölkəmizin dünya birliyində mövqeyi ildən-ilə güclənir.

Uğurlu xarici siyasət dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldib. Bütün bunlara görə isə Azərbaycan xalqı Prezident İlham Əliyevlə bərabər, həm də ulu öndər Heydər Əliyevə minnətdar olmalıdır.

## Ədəbiyyat

1. Aslanli, A. (2002). The Natural Result of the Balance Policy: Aliyev's Visit to Moscow. Baku: Strategic Analysis. March.
2. Nesipli, N. Azərbaycan və Moskva-İrəvan-Tehran Alyansının Geosiyasi Mühasirəsi.
3. Mollazadeh, C. (1998). Azerbaijan and the Caspian Basin: Pipelines and Geopolitics. The Jorunal Of Post Soviet Demokratization. Vol. 6, № 5.
4. Svante, C. (2003). Azərbaycanın daxili və xarici problemləri. Müstəqilliyimizin on illiyi. Azərbaycan Naminə İctimai Forum. Bakı.
5. Əliyev. H. (1997). Müstəqilliyimiz əbədidir. I kitab. Bakı: Azərnəşr.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 97-100**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 97-100**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Könül Səmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
samedovakonul74@mail.ru

# ERMƏNİLƏRİN SAXTAKARLIQLA ÖZÜNÜNKÜLƏŞDİRMƏYƏ ÇALIŞDIQLARI ZƏNGƏZUR ETNOTOPONİMLƏRİ

***Açar sözlər:*** *onomastika, erməni saxtakarlığı, etnotoponimlər, tarixi kəndlərimiz, etnik mənşə*

***Keywords:*** *onomastics, armenian forgery, ethnotoponyms, our historical villages, ethnic origin*

Onomastik vahid olan etnotoponimlər dil tarixi ilə bağlı qiymətli mənbə olmaqla yanaşı, xalqın qədim yaşayış məskənini müəyyənləşdirmək, bu ərazidə baş vermiş ictimai-siyasi hadisələri, prosesləri qiymətləndirmək, həmin hadisələrin səbəb və köklərini araşdırmaq, obyektiv gerçəkliyi, həqiqəti üzə çıxarmaq üçün konkret material, sübut və faktlar kimi dəyərlidir. Belə faktlar ermənilərin Azərbaycana məxsus əraziləri, insan məskənlərini saxta və qondarma materiallara istinadla öz adlarına çıxarmasına qarşı mübarizədə də vacibdir.

Tədqiqatlar nəticəsində Ermənistan ərazisində bir çox toponimlər qeydə alınmışdır ki, bunlar aban tayfasının adından yaranmışdır. Həmin toponimlər aşağıdakılardır:

*Qacaran* − Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan rayonunda) kənd adıdır. Müasir dövrədək qalmış bu və bu kimi etnotoponimlərin bir çoxu Ermənistan ərazisindəki areal etnotoponimlərdəndir.

*Qafan* − Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (indiki Ermənistanda r-n mərkəzi) kənd adı − Kapan (peçeneq).

Hazırda Qafan Ermənistanda respublika tabeliyində şəhərdir. Şəhərin adı keçmişdə mövcud olan indiki Qafan şəhərindən 10 km şimal-qərbə doğru, Oxçu çayının sağ sahilində yerləşmiş Qapan kəndinin adı ilə bağlıdır. 1918-ci ildə indiki Qafan şəhərinin bilavasitə yanında Qatar adlı azərbaycanlı kəndi olmuşdur.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 97-100**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 97-100**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

X əsrdə Cənubi Asiya çöllərindəki peçeneklərin içərisində yaşamış Konstantin Baqyanorodnı erdim, kapan, çur, kuerçi, kuloba, karabay adlı tayfaların adlarını sadalayır. Ermənistandakı Qafan toponimində qapan tayfasının adının əksini tapması barədə ədəbiyyatda fikirlər vardır (Qukasyan, 1983: 95).

*Bayandur* – Ermənistan ərazisində – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indiki Ermənistanın Sisyan rayonununda) kənd adı; Birinci Bayandur isə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indiki Ermənistanın Gorus rayonunda) kənd adıdır.

Ermənistandakı Bayandur azərbaycanlı kəndi olub, əvvəllər Gəncə quberniyasına Zəngəzur qəzasına daxil olmuşdur. Kənd Xanazax sovetliyinə daxil idi. 1897-ci ildə Bəyəndur kəndində 153 nəfər azərbaycanlı əhali olmuşdur. 1918-ci il milli qırğınından sonra azərbaycanlılar kənddə tamamilə qırılmış, qovulmuş, kənd erməni kəndinə çevrilmişdir. 1969-cu ildə isə ermənilər kəndin adını dəyişib Vağadur qoymuşlar.

Digər Bayandur da azərbaycanlı kəndi olub, əvvəllər Gəncə quberniyasının Zəngəzur qəzasına daxil olmuşdur. 1897-ci ildə kənddə ancaq azərbaycanlılar (210 nəfər) yaşamışlar. Kənd sovet hakimiyyəti illərində Xandzorik sovetliyinə daxil olmuşdur. 1918-ci ildə Andranikin dəstəsi bu kəndləri dağıtdıqdan sonra orada azərbaycanlılar qalmamışdır (Ələkbərli, 1994: 164).

*Qazançı* – Ermənistan ərazisindəki türk mənşəli etnotoponimlər arasında Qazançı adlanan altı kənd və iki dağ da vardır. Ermənistanın Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur (İndiki Sisyan mahalında) qəzasında Qazanşı kəndi olmuşdur. Bu etnotoponimin əsasında da kazan (qazan) etnonimi durur. -*şı* şəkilçisi isə -*çı* şəkilçisinin bulqar dilinə uyğun variantıdır. Ermənistanda Qazanlıqdərə kəndi və Qazangöl gölü də qeydə alınmışdır. Qazan əsaslı bu etnotoponimlərinə Qərbi Azərbaycanın müxtəlif yerlərində rast gəlinməsi onun areal etnotoponim olduğunu və yalnız Ermənistan və Azərbaycan ərazisində deyil, türk tayfalarının yaşadıqları bir çox regionlarda özünü göstərdiyini faktlarla sübuta yetirir. Q.Qeybullayevə görə Kazançı, Kazan toponimləri Şimali Qafqazda, Başqırdıstanda, Qərbi Sibirdə, İranda, Türkiyədə qeydə alınıb. XII əsrə aid mənbədə Ermənistanda Qazan qalasının olması qeyd olunmuşdur (Qeybullayev, 1990: 135). *Quşçu* – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Ermənistanın Qafan r-da) kənd adı olmuşdur. 1950-cı ildə Davidbəy qəsəbəsi ilə birləşdirilmişdir. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur (Bünyadov, 1997).

*Çul* – Hələ orta əsr tədqiqatçıları Albaniyanın şimal-şərqində, indiki Dərbəndlə Quba arasında Çul şəhərinin olduğunu qeyd etmişlər. M.İsmayılov çul tayfasının ya maskutlar çarlığının, ya da Şakaşenanın qalığı olduğunu güman edir. Alim eyni zamanda Qarabağ ərazisində Şuşa, Zəngəzur, Qaryagin qəzalarında bir neçə Çullu toponiminin olmasını qanunauyğun hadisə kimi qiymətləndirir, çol/çul tayfasının Azərbaycanda çullular kimi tanınması qənaətinə gəlir (İsmayılov, 1989: 270).

Çul adı – Çul toponimi xəzərlərin dövründə olmuşdur. Əgər Çul etnoniminə türk dillərinin -lu şəkilçisini əlavə etsək, Azərbaycanda rast gəlinən üç toponimin əsasında bu etnonimin durduğunu görərik. İnqilabdan əvvəl Qafqazda beş Çullu toponimi olmuşdur.

H.Mirzəyev Ermənistanda Dərələyəzdə (Paşalı, Əzizbəyov rayonu) olan Çul kəndi və onun tarixi haqqında ətraflı məlumat vermişdir. Ermənistanda Çorlu-Qukasyan rayonununda kənd adı; İrəvan xanlığının Talin mahalında kənd adı; Çul –İrəvan quberniyasının Şərur-Dərələyəz mahalında kənd adı; Çullu – Yelizavetpol quberniyasının Zəngəzur qəzasında kənd adı etnotoponimlərinin əsasında çul etnonimi durur. Bu etnotoponimlər Ermənistanın müxtəlif yerlərindədir. Bu da etnotoponimlərin həm Ermənistan ərazisi daxilində, həm də ondan kənarda geniş arealda yayılan olduğunu göstərir (Mirzəyev, 2001: 190-194).

*Muğancıq* – Yelizavetopol quberniyasının Zəngəzur qəzasında kənd adı kimi qeydə alınmışdır. Muğan düzü coğrafi adı Azərbaycanın qədim toponimlərindən biridir. Kür və Araz çayına yaxın yerlərdə, Muğan və Şirvan zonalarında, habelə İran Azərbaycanında məskunlaşan xalqlar sırasında Muğan coğrafi adının mənşəyinə dair çoxlu əfsanə və rəvayətlər mövcuddur. Həmin əfsanələrin bəzilərində Muğanı qəhrəman bir oğlan kimi, bir qrup rəvayətlərdə isə gözəl bir qız kimi təsvir edirlər. Q.Ə.Qeybullayev Azərbaycanda Muğanlı oykonimlərinin çoxluq təşkil etdiyini və onların orta əsrlərdə Muğan düzündə yaşamış müxtəlif tayfaların toplusunun ümumiləşdirilmiş adını ifadə etməsini qeyd edir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 97-100**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 97-100**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Qukasyan, V.L. (1983). Azərbaycan dilinin təşəkkül tarixinə dair qeydlər. Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, s.35-36.
2. Ələkbərli, Ə. (1994). Qədim türk-oğuz yurdu "Ermənistan". Bakı: Sabah, 208 s.
3. Qeybullayev, Q. (1990). Qarabağın etnik və siyasi tarixinə dair. Bakı: Elm, 247 s.
4. Bünyadov, Z., Məmmədov, H. (1997). İrəvan əyalətinin icmal dəftəri. Bakı.
5. İsmayılov, M. (1989). Sənin ulu baban. Bakı: Azərnəşr, 302 s.
6. Mirzəyev, H. (1989). Qabaxlı kəndi və onun onomastik vahidləri. Filologiya məsələlərinə dair tematik toplu. Buraxılış 1-2. Bakı: ADPU nəşri, s.26-34.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 101-110
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 101-110
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Ramil Niftəliyev**
AMEA A.A. Bakıxanov adına
Tarix və Etnologiya İnstitutu
tarix üzrə fəlsəfə doktoru
ramil.niftaliyev.67@mail.ru

# XIX ƏSRİN SON RÜBÜNDƏ ZƏNGƏZURDA XALQ-AZADLIQ HƏRƏKATI TARİXİNDƏN – QAÇAQ NƏBİ

***Açar sözlər:*** *Şimali Azərbaycan, Zəngəzur, xalq-azadlıq hərəkatı, Qaçaq Nəbi*

***Keywords:*** *North Azerbaijan, Zangazur, people's freedom movement, Gachag Nabi*

Hələ XIX əsrin I sülsündə, Quzey Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı dövründə başlamış azadlıq hərəkatı romanovların buradakı bütün hökmranlıq dövründə heç bir vaxt səngiməmişdi. Bütün Qafqazda, o cümlədən Quzey Azərbaycanda müstəmləkəçiliyə qarşı ən geniş yayılmış mübarizə forması kimi qaçaq hərəkatı geniş yayılmışdır. XIX əsrin 80-90-cı illərində Zəngəzur qəzasının qaçaq hərəkatı, ilk növbədə, əfsanəvi qaçaq Nəbinin adı ilə bağlı olmuşdu.

Qaçaq Nəbiyə ilk qoşulanlardan biri onun qardaşı Mehdi oldu. Mehdi bütün əməliyyatlarda onunla birlikdə olmuşdu. Nəbinin tərəfdarları gündən-günə artır və böyük atlı qaçaq dəstəsi yaranırdı. Dəstədə Nəbinin ən çox güvəndiyi qaçaqlardan biri Sofulu Balakişi idi. Dağtumaşlı Allahverdi də Nəbinin köhnə dostlarından idi. Bundan başqa Xıdır, Mahmud, Lətif, Atakişi, Telli Qara, İsgəndər, Mollu Kərim, Qoca dəstənin daimi üzvləri idilər. Nəbi Əbrəqunis dağlarına gəldiyi zaman, həmin bölgənin Başkənd sakini Şahhüseyn və onun qardaşları da hökumət tərəfindən təqiblərə məruz qaldıqlarından Nəbinin dəstəsinə qoşulmuşdular. Onun dəstəsinə qoşulmuş Şahhüseyn və onun qardaşları Ağahüseyn, Məmmədhüseyn və Gülhüseyn kimi qaçaqlar hökumət qüvvələrinə qarşı çarpışmalarda böyük şücaət göstərmişdilər. Nəbinin dəstəsinə qoşulmazdan əvvəllər də Şahhüseyn və onun qardaşları dəfələrlə hökuməti narahat olmağa məcbur edən bir sıra hərəkətləri ilə tanınmışdılar. Şahhüseynin qaçaq olması haqqında vaxtilə Naxçıvan qəza idarərəisinin polis hissəsi üzrə müavini, sonralar

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 101-110**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 101-110**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Niyazabad qəza rəisi vəzifəsində işləmiş Korqanov Qafqaz canişini Vorontsov-Daşkova ünvanlandığı məktubunda Şahhüseyndən bəhs edərək yazırdı: "Birisi pristava xəbər vermişdi ki, Nəbinin dostu Şahhüseyn saxta pul kəsməklə məşğul olan bacarıqlı çobandır. Pristav məlumatı düzgünlüyünü yoxlamadan həmin çobanın həbsinə sərəncam vermişdi. Lakin pristava onu həbs etmək müyəssər olmadı. Şahhüseyn qaçmışdı".

Nəbinin həyat yoldaşı Həcər də onunla birlikdə çar hərbi hissələrinə qarşı vuruşmalarda yaxından iştirak etmiş və xalq arasında tanınmışdı. Həcər xanım dəstədə gözəl dost, ağıllı məsləhətçi, həm də mahir nişançı idi. Qori müəllimlər seminariyasının məzunu, uzun müddət Gorus məktəbinin müdiri olmuş P.Vostrikov yazırdı: "Həcər xanım da Nəbi kimi çox cəld silah işlədirdi. Atının sürətlə çapanda belə onun gülləsi hədəfdən yayınmırdı. Həcər həm də Nəbinin ən birinci köməkçisi idi".

XIX əsri 90-cı illərində Qaçaq Nəbinin fəaliyyəti o dərəcədə genişlənmişdi ki, Qafqaz diyarının baş mülki rəisi S.A.Şeremetyev 1893-cü ildə Yelizavetpol quberniyası əhalinin tərksilah edilməsi haqqındakı məsələsinə yenidən qayıtdı. Bununla bağlı o, xüsusi göstəriş verməyə məcbur oldu. Göstərişə əsasən evlərdə odlu silahlar axtarış edilərək məcburi şəkildə müsadirə olunurdu. Göstəriş veriləndən iki il müddətində quberniya əhalisindən 53 min odlu silah müsadirə edilərək götürülmüşdü. Həmçinin hökumət silahların hazırlanmasının qarşısını almaq üçün də qəti tədbirlərin görülməsinə başlamışdı.

1894-cü il iyulun 20-də qardaşı Mehdi Gərçivan kəndində öldürüldükdən sonra Nəbi bunun əvəzini ermənilərdən çıxa bilmişdi. Gərçivan hadisəsi uzun müddət xalqın yaddaşından silinmədi. Belə ki, iyulun 23-də öz dəstəsi ilə Gərçivan kəndinə gələn Qaçaq Nəbi, kəndə girməzdən əvvəl öz silahdaşlarından iki nəfərini, o cümlədən Musa Məşədi Həsən oğlunu çapar qiyafəsində göndərib Ordubad həbsxanasından qaçmış Qəmbər adlı birisini qabaqlarına qataraq Gərçivan kəndinə göndərdi. Guya o, həbsdən qaçdığından pristav tərəfindən tutulub Gorusa göndəriləcəkdi. Çapar kəndə çatan kimi dərhal kənd hampalarına xəbər verir, onların arxasınca da Qaçaq Nəbinin dəstəsi qəza rəisi və kazaklar libasında kəndə daxil olurlar. Qaçaq Nəbi ilə gedən "kazaklar" 18 nəfər atlı idi. Kəndin hampaları və

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

keşişləri rəisi pişvaza çağırırlar. Qaçaq Nəbini qarşılayan hampaları məsləhət bəhanəsi ilə kilsəyə çağırırlar və kilsənin qapısını bağladıqdan sonra onların bütün əmlaklarını alırlar. Qaçaq Nəbi əldə etdiyi qənimətin bir qismini yoxsullara paylamış, qalan hissəsini 17 dəvəyə yükləyib Arazın o tayına keçirmişdi. O dövrün qəzetlərinin yaymış olduğu məlumatda hampa və varlı keşişlərdən qarət edilmiş əmlakın dəyəri 29 min rubla dəyirdi.

Qaçaq Nəbinin dəstəsi təqiblərdən cəld uzaqlaşır, lakin tez-tez qeyri-bərabər döyüşlərə girişir və qalib kimi çıxırdı. "Qafqaz" qəzeti hökumət qüvvələrinin Qaçaq Nəbiyə qarşı mübarizədə dəfələrlə gücsüz olduğunu yazırdı. 1894-cü ilin oktyabr ayında "Qafqaz" qəzetinin Culfa qəsəbəsindəki müxbiri qəribə bir hadisənin şahidi olmuşdu. Müxbir yazırdı: "Oktyabr ayının 12-də, axşam burada məlumat alınmışdır ki, Nəbi öz dəstəsi ilə bizim tərəfə keçəcəkdir. O halda, burada olan könüllülərə, inzibati hissəsinə və sərhəd mühafizə dəstəsinin komandanlığına xəbər verilib və məcbur edilmişdir ki, gözlənilmədiyi halda atışmalar baş verəcəyinə hazır olsunlar və yerli mühafizə dəstələri mühafizə qərargahlarına göndərilsinlər. Eyni zamanda mühafizə qərargahların müdafiəsinin möhkəmləndirilməsi məqsədilə oraya əlavə qüvvələrin göndərilməsi qərara alındı. Bu zaman qəsəbədən bir qədər aralıda güllə səsləri eşidildi. Yerli sərhəd mühafizə dəstəsinin komandiri qərargah rotmisteri F. özü ilə bir neçə nəfər əsgərlə güllə səsləri eşidilən tərəfə getdi. Məlum olmuşdu ki, rəisin komandanlığı altında qonşu qərargahları xəbərdar etmək üçün göndərilənlər qabaqlarına çıxmış əvvəlcə dörd qaçağı, sonra qalan qaçaqları rahatca buraxıblar. Əsgərlər qaçaqlar Arazı keçdikdən sonra onları dallarınca yaylım gülləleri atmışlar və qaçaqlar da, öz növbəsində, yaylım atəşləri ilə cavab vermişdilər".

Çox cəsur və zirək olan Qaçaq Nəbi inzibati idarələr xəbər tutana qədər gah Cənubi Azərbaycana keçir, gah da Naxçıvan və Şərur-Dərələyəz qəzalarında görünürdü. Qaçaq Nəbini ələ keçirməkdə çətinliklərlə üzləşən polis orqanları onun Cənubi Azərbaycana keçdiyi zaman rahatlanır və tutulması barəsində yalan şayiələr yaymaqla əhalini çaşdırmağa çalışırdı.

Cənubi Qafqaz diyarının baş mülki rəisi A.S.Şeremetyevin göstərişinə əsasən Qaçaq Nəbinin mübarizəsinin vüsət aldığı Yelizavetpol quberniyası daxilində bu hərəkata qarşı 1895-ci ilin baharında bir sıra tədbirlər

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

işlənib hazırlandı. A.S.Şeremetyevin qəbul etmiş olduğu həmin mübarizə tədbirlərinə görə quberniyanın sərhədlərində yerli əhalidən olan mühafizə qərargahları qurulmuş, Araz çayı sahili əraziləri nəzarətdə saxlamaq məqsədilə süvari kəşfiyyat dəstəsi yaradılmış, sərhəd xətti boyu kazak piyada batalyonunun iki xüsusi nişançı könüllü komanda ezam edilmişdi. Hətta Cəbrayıl, Şuşa və Cavanşir qəzalarının əhalisinin hesabına yerlilərdən ibarət 114 atlıdan və 16 uryadnikdən ibarət müvəqqəti mühafizə dəstəsi yaradılmışdı. Yelizavetpol qubernatoru knyaz A.D.Nakaşidzeyə isə Qaçaq Nəbinin dəstəsini müdafiə etməyə cəhd edən istənilən zəngəzurlunu həbs etmək səlahiyyəti verilmişdi.

Qaçaq Nəbinin İrəvan quberniyasında da "at oynatmasından" təşvişə düşən Cənubi Qafqaz diyarının baş rəisi A.S.Şeremetyev Qaçaq Nəbinin İrəvan quberniyasındakı fəaliyyətinin qarşısının alınması məqsədilə İrəvan qubernatoru A.A.Frezeyə təliqəsində bir sıra təxirəsalınmaz ciddi tədbirlərin həyata keçirilməsini tələb edirdi. Qaçaq Nəbinin dəstəsi ilə əlaqədar olaraq sərhəddə gediş-gəliş o dərəcədə ciddiləşdirilmişdi ki, hətta vəzifəli şəxslər belə vacib iş üçün sərhədi asanlıqla keçə bilmirdilər.

Qaçaq Nəbi yorulmadan hökumətə qarşı mübarizəsini davam etdirirdi. Təkcə 1895-ci ilin sentyabr ayında Qaçaq Nəbinin dəfələrlə vuruşmaları olmuşdu. 1895-1896-ci illərdə Qafqazda nəşr olunan bütün qəzetlərdə Qaçaq Nəbi ilə bağlı "xoş xəbərlər" yayılırdı. Həmin illərin Qaçaq Nəbi ilə bağlı rəsmi sənədlərində də onun təsirli çıxışları ilə bağlı xeyli məlumatlar əldə etmək mümkündür. Məsələn, "sentyabrın 12-də Qaçaq Nəbinin dəstəsinin Zəngəzur qəzasına daxil olması haqqında məlumat alan qəza rəisi S.Rüstəmbəyov tezliklə Naxçıvan qəza rəisinə xəbərdarlıq etməklə özü Qaçaq Nəbini tutmaq üçün yola düşdü. Yolda ona Şabadin və Hecanat kəndlərinin Nəbi tərəfindən qarət olunması haqqında məlumat verdilər. Nəbi iki kəndin varlılarından 1000-1200 rubl dəyərində qənimət eldə etmişdi".

Qaçaq Nəbinin sentyabrın 16-da növbəti dəfə Naxçıvana gəlişi İrəvan qubernatoru A.A.Frezenin Cənubi Qafqaz diyarının baş rəisi A.S.Şeremetyevə ünvanlandığı təliqəsində belə təsvir olunur: "O, Naxçıvanda peyda olanda onun tərəfindən varlıların qarət olunacağı, düşmənlərindən qisas alınacağı və qışı Persiyaya (İrana – R.N.) keçirəcəyi kimi şayiələr yayılmağa başladı. Ona görə də kazaklar,

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

könüllü və sahə komandaları xəbərdar edilmiş, həmçinin Qaçaq Nəbinin keçəcəyi ehtimal olunan dağ yerlərində və dərələrin ayrı-ayrı yerlərində gizli mühafizə qərargahları qurulmuşdu. Sentyabrın 16-da səhər mühafizəçilər Qaçaq Nəbinin dəstəsinin Nəsiravaz dağ keçidini keçməsi haqqında məlumat verdikdən sonra Ordubad şəhər pristav köməkçisi Mehdi bəy Hacıyevin, Ostrouxovun və uryadnik Məmməd Rahimin komandaları vaxt itirmədən Nəsiravaz kəndinə doğru getdilər. Qaçaq Nəbinin dəstəsini burada tapa bilməyən hökumət qüvvələri Gel kəndində gecələdikdən sonra səhər axtarışlarını davam etdirdilər. Ordubad şəhər pristav köməkçisi Mehdi bəy Hacıyev könüllü dəstənin izi ilə gedərək Arpadərə adlı yerdə qaçaq dəstəsi ilə üz-üzə gəldi və şiddətli atışma başlandı. Pristav köməkçisi özünün Qaçaq Nəbinin öhdəsindən gələ bilməyəcəyini anlayaraq, Ostrouxovun dalınca adam göndərməklə onu da vuruşma yerinə tələsdirdi. Tezliklə döyüş yerinə poruçik şahzadə Şah Ruxun başçılığı ilə kazak dəstəsi də gəlib çıxdı. Tərəflər arasında döyüş axşama kimi davam etdi. Sayca üstün olan hökumət qüvvələrinə müqavimət göstərmək əhəmiyyətsiz olduğundan Qaçaq Nəbi qaranlığın düşməsindən istifadə edərək oradan uzaqlaşdı. Atışmalarda qaçaq dəstəsindən iki nəfər öldürüldü". Həmin gün Nəbinin qələbəsi ilə başa çatmış atışmalarda iştirak etmiş Mehdi bəy Zeynalabdinbəyov yazırdı: "1895-ci il sentyabr ayının 16-da "Donuzqıran" adlanan yerdə məşhur qaçaq Nəbinin 40 nəfərdən ibarət dəstəsini izləyərək... Çənənab kənd yüzbaşısı Ter-Sarkisov ilə birlikdə qaçaq dəstəsi ilə qüllələşdim... Buna görə qubernator general-leytenant Frezedən mükafat olaraq qızıl saat aldım". Kəndlilərin həyati mənafeyini Qaçaq Nəbinin necə müdafiə etdiyini parlaq surətdə göstərən bir fakta nəzər yetirək! Zəngəzur qəzasının Zeyvə kəndində ən münbit torpaqlardan varlı kəndlilər və iri torpaq sahibləri istifadə edirdilər. Payına az məhsuldar, bəzən də təsərrüfat üçün tamamilə yararsız olan torpaqlar düşən yoxsul kəndlilər isə ağır ehtiyac içərisində yaşayırdı. Torpaq çatışmazlığı zəminində kəndlərdə yerli varlılarla yoxsullar arasında baş verən toqquşmalar sakitləşmək bilmirdi. Kəndlilərin şikayət etmədikləri idarə, orqan qalmamışdı. Kəndlilərin torpaq uğurundakı bu inadlı mübarizəsi hakimiyyət orqanlarını Tiflisdən buraya təhqiqat aparmaq üçün adamlarını göndərməyə vadar etmişdi. Əhali bunu Nəbiyə xəbər verdikdə o, yolda onların qabağını kəsib hədələmiş və kəndlilərin tərəfini saxlamağı tələb etmişdi, əks təqdirdə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

isə onlara divan tutacağını bildirmişdi. Bu hadisə çəkişməyə son qoymuş, məmurlar Qaçaq Nəbinin qorxusundan mübahisəni şikayətçilərin xeyrinə həll etmişdilər.

Əlimizdə olan digər bir məlumata görə, Naxçıvan qəzasında bir sıra kəndlilərin, xüsusən Nəsirvaz və Urmus kəndlərinin əhalisi Nəbinin köməyi ilə ağır vergi yükündən xilas ola bilmişdi. Adları çəkilən kəndlərin sakinləri həyətbaşı vergisini ödəyə bilməmişdilər, hakimiyyət orqanları bu kəndlərə atlı polis dəstələri göndərmişdilər, həmin dəstələr əhalinin bütün əmlaklarını əllərindən almışdı. Nəsirvazlılar və urmuslular öz dəstəsi ilə birlikdə yaxınlıqda olan Nəbidən kömək istəmişdilər. Qaçaq Nəbi Nəsirvaza və Urmusa gəlib, kəndlilərin əmlakını özlərinə qaytarmış və onlardan həyətbaşı vergisinin alınmasını bildirən qəbzlə təmin etmişdi. Nəbi Sisiyan mahalının Comərdli və Hortaüz kəndlilərini də verginin ödənilməsini bildirən qəbzlərlə təmin etmişdi.

Qaçaq Nəbi hökumətdən və varlı kəndlilərdən alınmış qənimətin hamısını yoxsul kəndlilərə paylayırdı. Onlar da, öz növbəsində, Qaçaq Nəbidən heç nəyi əsirgəmirdilər. Kəndlilər lazım gələndə qaçaqları patronla, ərzaqla təmin edir və başqa vasitələrlə kömək göstərirdilər. Hətta qaçaqları gizlədərək öz evlərində saxlayırdılar. Məsələn, Naxçıvan qəzasının Biləv kənd sakini Səfər İsmayıl oğlu, Nəsirvaz kəndliləri Məmməd Cəfər Hacı Vəli bəy oğlu və onun qardaşları İbrahim bəy və Mehdiqulu, Hacı Vəlibəyin uşaqları, Babaxan Kərbəlayı Şahəli oğlu, Baxışəli Kərbəlayı Şixəli oğlu və Pevəkazım Vəli Məmməd oğlu evlərində "quldur" dəstələrini gizlətdiklərinə görə Naxçıvan polisləri tərəfindən həbs olunmuşdular.

Ümumxalq yardımı Qaçaq Nəbini ələkeçməz etmişdi. Yelizavetpol qubernatoru knyaz A.D.Nakaşidze Nəbinin ələ keçirilməsinin qeyri-mümkünlüyünü bilib həm Naxçıvan qəza rəisi A.S.Slavoçinskiyə, həm də Zəngəzur qəza rəisi vəzifəsini icra edən S.Rüstəmbəyova Qaçaq Nəbinin adamlarını bir-bir məhv etməklə dəstəni dağıtmağı əmr etmişdi. Qubernator bundan sonra Qaçaq Nəbinin tutulmağının asan olacağı qənaətinə gəlmişdi. Lakin qubernatorun tapşırığı ilə görülən bir sıra məxfi tədbirlər nəticəsində Qaçaq Nəbinin yaxın silahdaşlarını belə aradan götürülsə, yenə də Qaçaq Nəbini ələ keçirə bilmədi. Qaçaq Nəbinin dəstəsinə milli zülmə baş əyməyən yeni-yeni cavanlar qoşulurdu. Xalq Qaçaq Nəbini hökumətdən gələn istənilən zərbədən qoruyurdu. İrəvan

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

qubernatorunun məlumatında göstərildiyi kimi: "Nəbinin dəstəsinin fəaliyyət göstərdiyi bölgənin demək olar ki, bütün müsəlman əhalisinin hamısı onu müdafiə edir və qoruyur". Bununla da Nəbinin qaçaqlıq etdiyi bölgənin əhalisi Qaçaq Nəbinin timsalında imperiyanın müstəmləkə siyasətinə qarşı üsyan edirdi.

Hakimiyyət orqanları qaçaqlara yardım göstərənlərə qarşı da qəddar tədbirlər görürdülər. Həm ayrı-ayrı şəxslər, həm də bütöv kənd cəmiyyətləri cəzalandırılırdı. Kənd cəmiyyətləri barəsində ən müxtəlif cəza tədbirləri görülürdü, kəndlilərə güclü iqtisadi təzyiq göstərilirdi ki, qaçaqlara kömək etməsinlər. Bölgədə fəaliyyət göstərən Qaçaq Nəbinin "dəstəsini təqib və məhv etmək üçün hər ev üç rubl verməli idi. Üç kəndin əhalisinə (Tivi, Nasirvaz və Azıxlar) qaçaqlara daha artıq kömək etdiklərinə və onları gizlətdiklərinə görə üç rubldan başqa 300 rubl əlavə vergi qoyulurdu. Bununla belə xəbərdarlıq edilirdi ki, hərgah kəndlilərdən biri qaçaqlara pul köməkliyi edərsə, alınan məbləğ on dəfə artırılacaqdır". Qaçaqlarla əlaqəsi olan kənddə qoşun dəstəsi, adətən kazaklardan ibarət olan hərbi dəstəni yerləşdirilir, onun xərcinin ödənilməsi isə kəndin sakinləri üzərinə qoyulurdu. Bu qoşun dəstələri kobud özbaşınalıq edir, kəndliləri incidir, hər cür zorakılıqlar edirdilər.

Qaçaq hərəkatını boğmaq üçün tədbirlər işləyib hazırlamaqdan ötrü XIX əsrin sonlarında xüsusi olaraq Cənubi Qafqaza ezam edilən xəfiyyə general-leytenantı D.Skalonun planına Türkiyədən və İrandan həmin dövlətin ərazisində gizlənən Rusiya qaçaqların tezliklə Rusiyaya təhvil verilməsi və Rusiya ərazisində gizlənən Türkiyə və İran qaçaqlarının həmin dövlətlərə təhvil verilməsi, sərhəd boyu ərazilərdə qaçaq dəstələrini müdafiə edənlərin oradan uzaqlaşdırılması və burada qaçaqların ələ keçirilməsi üçün sərtləşdirilmiş qaydaların tətbiq edilməsi və s. daxil edilmişdi.

Bu azadlıq hərəkatının ictimai səciyyə daşımasına, zülmə və istismara qarşı kəndlilərin fəal etirazlarının ifadəsi olmasına ən inandırıcı sübutlardan biri də bütün xalqın qaçaqlara tərəfdar olmasından ibarət idi. Bunu çar hakimiyyət orqanları da etiraf etməyə məcbur olmuşdular. Xəfiyyə D.Skalon kəndlilərin qaçaqlara yaxından kömək etdiklərini təsdiq edirdi. Yüksək rütbəli çar müstəmləkəçisi qəmginlik hissilə yazırdı: "Əhali hakimiyyət orqanlarına quldurların yerini nəinki nişan vermir, hətta quldurlara böyük bir qonaqpərvərlik göstərir, inzibati orqanlar cinayətkarları tutmağa cəhd etdikdə əhali

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

açıqcasına onlara mane olur". Bunu hətta Tiflis Məhkəmə palatasının prokuroru Y.Vasilkov da təsdiqləyərək əlavə edir ki, "bəylər qaçaqları öz evlərində gizlədirlər".

Baş verən hadisələrin bir çoxunun Nəbinin adı ilə bağlı olduğunu anlayan hakimiyyət orqanları belə qənaətə gəlmişdilər ki, hərəkatın qarşısını yalnız rəhbərin öldürülməsi ilə almaq mümkündür. V.A.Veliçko özünün "Qafqaz" əsərində qeyd edirdi ki, "cinayətkarlığa qarşı mübarizədə heç bir polis keçmiş cinayətkarın köməyi olmadan keçinə bilməz. Qafqaz quldurları ilə mübarizədə isə keçmişdə quldurluqda iştirak etmiş şəxslərin köməyi olmadan qaçaq dəstələrinin rəhbərlərinin məhv etmək mümkün deyildir. Ona görə ki, həqiqətən quşu quş vasitəsi ilə tuturlar". Qaçaq Nəbini məhz azərbaycanlıların əli ilə aradan götürmək üçün Yelizavetpol qubernatoru knyaz A.D.Nakaşidze tərəfindən Zəngəzur qəza rəisi vəzifəsinin icrasına Səlim bəy Rüstəmbəyov onun köməkçisi Qəhrəman bəy Mirzəyev və qəzanın üç sahə üzrə milis pristavları isə İsmayıl bəy Vəzirov, İmamqulu bəy Novruzov, Şəfi bəy Fətəlibəyov təyin edilmişdilər. Bununla belə bu adamlara etibar edilmirdi. Ona görə də Nəbinin ələ keçirilməsi əsasən Naxçıvan qəza rəisi A.S.Slavoçinskiyə həvalə edilmişdi.

Nəbinin öldürülməsi üçün 1895-ci ilin sonlarından etibarən fəaliyyətə başlamış xüsusi kəşfiyyat dəstəsi Nəbi ilə bağlı dəqiq məlumatlar toplamağa başladı. Bütün səlahiyyətlər verilmiş bu dəstəyə Naxçıvan qəza rəisi A.S.Slavoçinski başçılıq edirdi. Həmin dəstənin məlumatına əsaslanan İrəvan qubernatoru A.A.Freze Cənubi Qafqaz diyarının baş rəisi A.S.Şeremetyevə yazırdı: "Son vaxtlar Persiyadan (İrandan – R.N.) aldığımız məlumata görə Kərbəla ziyarətindən qayıdan Nəbi hal-hazırda dəstəsi ilə Urmiya əyalətinin Larni kəndindədir". Onu da qeyd etmək yerinə düşərdi ki, İrəvan quberniyası dəftərxanasının rəhbəri A.Saroyan bu məlumatın yoxlanılmasının vacibliyini vurğulayaraq yazırdı: "Məlumatın həqiqiliyinə inanmaq düzgün olmazdı. Çünki biz Nəbi tərəfindən yalan şayiələrin yayıldığının çox şahidi olmuşuq".

Nəbini ələ keçirə bilmədikləri üçün Rusiya dövlət orqanları sui-qəsdə əl atırlar. Qaçaq Nəbi muzdlu qatillər tərəfindən 1896-cı ilin martın 12-də qətlə yetirildi. Nəbinin öldürülməsi ilə bağlı tarixi ədəbiyyatda iki müxtəlif ehtimal vardır. Ə.Axundov yerli əhalidən toplamış olduğu Nəbi haqqındakı xatirələrinə əsaslanaraq, göstərir ki, Nəbiyə sui-qəsd Cənubi Azərbaycanda yaşayan Rusiya təbəəsi olan

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

tacir Paşa Hacı Fərəc oğlu tərəfindən hazırlanmışdı. Ə.Əliyev "Azərbaycan" jurnalında dərc etdirdiyi irihəcmli məqaləsində Nəbiyə sui-qəsdin Paşa Hacı Fərəc oğlu tərəfindən hazırlandığını əminliklə göstərsə də, müəllif Nəbinin İran polisləri ilə atışmada öldürüldüyünü təsdiq edir. Tədqiqatçı R.Rüstəmzadə özünün "Qaçaq Kərəm" və "Keçmişdə qaçaqlar" adlı əsərində Nəbinin öz yoldaşları tərəfindən deyil, İran polis hissələri ilə atışma zamanı öldürüldüyü qənaətinə gəlmişdir.

Qaçaq Nəbi 1895-ci ilin noyabr ayında Cənubi Azərbaycanda olarkən Naxçıvan qəza rəisi A.V.Slavoçinski İrəvan qubernatorunun razılığı ilə oraya gedib, Urmiya şəhərində yaşayan Ordubad taciri Paşa Hacı Fərəc oğluna Qaçaq Nəbinin öldürülməsi təklifini etmişdi. Nəbinin onun tərəfindən öldürüləcəyi təqdirdə A.V.Slavoçinski onun qızıl medalla təltif ediləcəyini və həmçinin əlavə olaraq min rubl məbləğində pulla mükafatlandırılacağını vəd etmişdi. A.V.Slavoçinski ilə razılığa gələn Paşa Hacı Fərəc oğlu Nəbini yaxın silahdaşları olan Şahhüseyni və Kərbəlayı İmanı aldadaraq Nəbinin öldürülməsinə nail oldu. Culfadakı Rusiya ali-konsulluğunun başçısı knyaz Dobidze Nəbinin öldürüldüyünə əmin olandan sonra Qaçaq Nəbinin onun təkidi ilə İran polisləri tərəfindən öldürüldüyü haqqında məlumat yaymışdı. Onda İran mətbuatında da Nəbinin İran polisləri ilə atışmalarda öldürüldüyü barədə məlumatlar yer almışdı.

B.Behcət Qaçaq Nəbinin Rusiya və İranın polis orqanlarının təşkil etdikləri xüsusi əməliyyat nəticəsində öldürüldüyünü göstərirdi. Onun öldürülməsində sonralar İranın hərb naziri olmuş Əmir Bahadır Cəngi Paşa xandan məharətlə istifadə edilmişdi. İran şahı Müzəfərəddin sarayının nüfuz sahiblərindən biri olan Cəngi Paşa xan əvvəllər də Qaçaq Nəbinin Cənubi Azərbaycanda fəaliyyətinin qarşısını almaq üçün Qaradağ və Maku tərəflərdə olan İran hökuməti məmurlarına lazımi sərəncamlar vermişdi. Bu sərəncamların nəticəsi idi ki, Nəbi son vaxtlar o tərəflərə keçəndə təqib və ədavətlə qarşılanmışdı.

Qafqaz canişinin bilavasitə tapşırığına əsasən Nəbinin öldürülməsi işinə ezam edilmiş Naxçıvan və Zəngəzur qəza rəisləri İrandakı adamı Məşədi Paşa vasitəsilə Nəbinin ən yaxın silahdaşlarından biri Şahhüseyni ələ almaqla Nəbini aradan götürmək qərarına gəldilər. Şahhüseynin Nəbinin öldürülməsində İran hökumətindən ehtiyat etdiyini görəndə Rusiya tərəfinin bu işdə maraqlı olan adamları cəng

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 101-110
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 101-110
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Paşa xana müraciət etməklə Şahhüseyni razı sala bilmişdilər. “Şahhüseyn tamamilə çaşmışdı. Ona həm İran, həm də Rusiya hökumətləri yaxşı vədlər vermişdi. O, Rusiya imperatorundan nişan alacaq, İran hökumətindən isə mülk alıb xan olacaqdı”.

Qaçaq Nəbi öldürüldükdən sonra silahdaşlarının bir neçəsi ələ keçirilməklə məhv edildi. Şahhüseyn, Məmmədhüseyn və digərləri Dırnıs dərəsində öldürüldülər. Nəbinin yaxın dostu Musa Məhəmmədhəsən oğlu həbs edilib hərbi məhkəməyə verildi. İrəvan hərbi məhkəməsi onun barəsində verdiyi hökm belə idi: “İran təbəəsi məhkum Musa Məhəmmədhəsən oğlu bütün əmlak hüququndan məhrum olunmaqla ölüm cəzasına məhkum edilsin”. Lakin sonralar ölüm hökmü 20 il katorqa ilə əvəz olundu.

Azərbaycan xalqı əfsanəvi qəhrəman Qaçaq Nəbinin adı ilə bağlı mahnılar qoşmuş və dastanlar yaratmışdır. Azərbaycan yazarları xalq qəhrəmanı Qaçaq Nəbinin mübarizə dolu həyatını təsvir edən bir sıra əsərlər yazmışlar. M.Rahimin “Qaçaq Nəbi” poeması, S.Rəhimovun “Aynalı” povesti və “Qafqaz qartalı” romanı, H.Qasımovun “Dağlara çəkildi” povesti, C.Bərgüşadın “Boz atın belində” romanı, Ə.Vəliyevin “Tunc atlı” əsəri, S.Rüstəmin “Qaçaq Nəbi” pyesi və M.Təhmasibin “Nəbi” ədəbi kinossenarisini bunlara misal göstərmək olar.

Qaçaq hərəkatını digər kəndli hərəkatı formalarından fərqləndirən cəhəti həmin hərəkatda bilavasitə iştirak edənlərin sayının az olması idi. Lakin qaçaqların özlərinin sayı bir neçə yüz olsa da, rəsmi sənədlər əsasında müəyyən etdiyimiz kimi, onlara yardım göstərən kəndlilərin sayı minlərlə idi. Məhz el köməyinin nəticəsi idi ki, çar hakimiyyət orqanları bütün cəhdlərə baxmayaraq, bəzən on illərlə kiçik qaçaq dəstələrinin öhdəsindən gələ bilmirdilər və partizan hərəkatı kimi bütün Azərbaycan ərazisini bürümüşdü.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 111-112
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 111-112
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Sahilə İbrahimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sahila.ibrahimova@yahoo.com

# ZƏNGƏZUR TOPONİMLƏRİNİN YARANMA ÜSULLARI

***Açar sözlər:*** *Zəngəzur, qədim, torpaq, toponim, tayfa, yer adları*
***Keywords:*** *Zangazur, ancient, soil, toponym, tribe, place names*

Zəngəzur qədim Azərbaycan torpağıdır. Qədim torpağımız olan Zəngəzur müasir Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan və Ermənistan Respublikasının Mehri, Qarakilsə, Gorus və Qafan rayonlarını əhatə edir. Zəngəzur ərazisindəki toponimlər, onların yaranma, dəyişilmə prosesləri müxtəlif zamanları əhatə etmişdir. Toponimlər yerləşdiyi ərazinin tarixi haqqında, kimə məxsusluğu barəsində çox şey söyləyir. Tarixi torpaqlamızın araşdırılması məsələsi hazırkı vəziyyətdə böyük əhəmiyyət kəsb edir. Zəngəzur çox zəngin və rəngarəng toponimiyaya malikdir. Burada araşdırma zamanı aydın olur ki, buradakı toponimlərin, demək olar ki, hamısı türk tayfalarının adları ilə əlaqədardır.

Həmçinin mövcud olan hidrotoponim, etnotoponim, zootoponimlərin qədim türk tayfa adları ilə bağlılığını görürük. Toponimlərin tədqiqi zamanı məlum olur ki, Zəngəzur ərazisində Azərbaycan faunasının ifadəsi olan bir sıra zoonim və zooykonimlər mövcuddur. Ulu babalaramızın ilk yurd-yuvalarından olan bu ərazi zootoponimlərin yaranmasına səbəb olmuşdur.

Zəngəzur ərazisi dağlıq relyefə malik olduğu üçün onun toponimləri də rəngarəng və zəngindir. Zəngəzurun oronimləri türk mənşəli dil vahidlərindən ibarətdir. Bu ərazinin oronimləri türk mənşəli etnosların adı ilə (qapan, donqar, qorus və s.), qədim türk sözləri ilə (taş, tap, oba, daş) əmələ gəlmişdir.

Zəngəzur ərazisində olan toponimləri quruluşuna görə aşağıdakı kimi qruplaşdırmaq olar:

- leksik üsulla yarananlar (Balk, Bıx, Tas, Dağ, Şam, Zor və s.),
- semantik üsulla yarananlar (Ağqaya, Qaraqaya, Ağbənd, Bozgüney, Qarağac, Sarıqışlaq, və s.),

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

- morfoloji üsulla yarananlar (Ağalı, Alçalı, Arıqlı (Ərikli), Aşağı Cibikli, Çobanlı, Çullu, Dəflər, Dəmirçilər, Quşçu, Qovşud, Almalıq və s.),
- sintaktik üsulla yarananlar (Alıcan, Ayıbazar, Ballıqaya, Bababelli, Bağırbəyli, Bəybuğan, Çaykənd, Dəvəboynu, Fətəlipəyə, Gəlinqaya, Qaraçimən və s.).

Zəngəzur ərazisindəki Azərbaycan-türk mənşəli toponimlərin etno-linqvistik təhlili zamanı ortaya çıxır ki, bu ərazidə türkdilli xaqların əksəriyyətinin formalaşmasında iştirak edən etnosların adları ilə xeyli sayda toponimlər var.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 113-115**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 113-115**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Günel Buludzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
tarix üzrə fəlsəfə doktoru
elibeyova.gunel@hotmail.com

# ZƏNGƏZUR DƏHLİZİNİN CƏNUBİ QAFQAZ İNTEQRASİYASI ÜÇÜN ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, tarixi torpaqlar, Cənubi Qafqaz, iqtisadi inkişaf, inteqrasiya*

***Keywords:*** *Zangazur corridor, historical lands, South Caucasus, economic development, integration*

Zəngəzur Azərbaycanın ayrılmaz tarixi torpaqlarıdır. Qafan, Qarakilsə, Gorus, Mehri, Zəngilan, Qubadlı, Laçın bölgələri tarixi Zəngəzur mahalının tərkibində idi. Azərbaycanın Rusiya imperiyasına birləşdirilməsindən sonra, 1861-cı ildə mərkəzi Gorus şəhəri olan Zəngəzur qəzası yaradıldı, lakin Yelizavetpol qəzasına (1867-ci il) birləşdirilir. Etnik tərkibi əsasən azərbaycanlılardan ibarət olduğundan imperiya Zəngəzur mahalında ermənilərin sayının süni artırılması siyasətini həyata keçirməyə başlamışdı. Zəngəzurun etnik tərkibinin dəyişdirilməsi ermənilərin torpaq iddialarının bir qədər də güclənməsinə əsas yaratmışdı. Nəticədə 1921-ci ildə Zəngəzur (Qafan, Gorus, Qarakilsə (Sisyan) və Mehri) Azərbaycandan qoparılaraq Ermənistana verilmişdir (Gasımlı, 2022: 22-23). Lakin Azərbaycan öz tarixi ərazilərini bərpa etmək fikrindən heç zaman dönməmişdir. 90-cı illərdə müstəqilliyini yenidən bərpa etdikdən sonra itirilmiş torpaqları uğrunda mübarizə aparan Azərbaycan tarixi torpaqları haqqında gerçəkliyi dünya ictimaiyyətinə çatdırmaq istiqamətində daim fəaliyyət göstərmişdir.

Vətən müharibəsindəki parlaq qələbəsindən sonra Azərbaycan işğaldan azad edilmiş bölgələrdə bərpa-quruculuq işlərinin aparılması planlarını aktiv şəkildə həyata keçirməyə başlamışdır. Məlumdur ki, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixlərində imzalanmış üçtərəfli bəyanatda Zəngəzur dəhlizinin açılması və istifadəyə verilməsi məsələsi hüquqi müstəvidə həll olunmuşdur.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 113-115**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 113-115**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 7 iyul tarixində "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman"ı bu istiqamətdə atılan mühüm addımlardan biridir.

Zəngəzur dəhlizi Ermənistan Respublikasının Meqri ərazisi vasitəsilə Azərbaycan Respublikası ilə Naxçıvan Muxtar Respublikasını birləşdi-rəcək yoldur. Marşrut sovet dövründə Azərbaycan, Ermənistan, İran, Türkiyə və Rusiya arasında regional və beynəlxalq dəmir yolu və avtomobil yolu daşımalarında mühüm əhəmiyyət kəsb edirdi (Gulahmadov, Huseyn, 2023: 121). Zəngəzur dəhlizi Şərq-Qərb və Şimal-Cənub yükdaşımalarının tikintisində mühüm rol oynayacaq. Gələcəkdə dəmir yollarının və avtomobil yollarının bərpasından bir çox ölkələrin faydalanacağı gözlənilir.

2022-ci il 16 noyabr tarixində Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyuk Qayıdışa dair I Dovlət Proqramı"nın Azərbaycan və region üçün həm siyasi, həm də iqtisadi əhəmiyyəti var. Proqramda qarşıya qoyulan məqsədlərə nail olunması Qafqazda sülh və təhlükəsizliyin qarantı baxımından müstəsna əhəmiyyətə malikdir (Dadaşova, 2023: 24).

Qeyd etmək lazımdır ki, Zəngəzur dəhlizinin açılması təkcə region iqtisadiyyatı üçün deyil, həm də dünyanın nəqliyyat və logistika xəritəsi üçün mühüm əhəmiyyətə malikdir.

Belə ki, Zəngəzur dəhlizi isə Türkiyə üçün Orta Asiyaya açılan qapı rolunu oynayacaq. Bu isə Türk dünyası ilə ticarət əlaqələrini genişləndirməyə imkan verəcək. Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya və Ermənistan arasında əməkdaşlıq və nəqliyyat baxımından razılaşdırılmış müqavilələrin ən vacib tərəfidir və bütün region ölkələrinin, o cümlədən Ermənistanın maraqlarına xidmət edir. Dəhliz Naxçıvan Muxtar Respublikasını quru yolu ilə Azərbaycanın qalan hissəsi ilə birləşdirəcək, iştirak edən bütün ölkələrin iqtisadi rifahına mühüm töhfə verəcəkdir. Zəngəzur dəhlizinin region ölkələri üçün təmin etdiyi həyati perspektivlər göstərir ki, onun yaradılması regional nəqliyyat şəbəkələrinin genişlənməsi və region ölkələri arasında qarşılıqlı iqtisadi əlaqələrin stimullaşdırılması ilə nəticələnəcək.

Bu layihələr Cənubi Qafqazda ən çox Ermənistanın yararlanmasına şərait yaradır, lakin rəsmi Ermənistan bu prosesi ləngitməkdə israrlıdır.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Ermənistan regional nəqliyyat və digər kommunikasiya layihələrində əməkdaşlığın dəyərini anlamalıdır. Rəsmi Bakı bu istiqamətdə Ermənistandan müsbət və konstruktiv addımlar gözləyir. Hazırda Azərbaycan bütünlüklə bu dəhlizin inkişafına və nəqliyyat əlaqələrinin bərpasına sadiqdir və hesab edir ki, əməkdaşlıq regionda uzunmüddətli sülhə nail olmaq üçün ən təsirli vasitədir.

## Ədəbiyyat

1. Gasımlı, M. Records on the transfer of western Zangazur to Armenia. IRS History, pp.16-26. www.irs-az.com
2. Gulahmadov, M., Huseyn, R. (2023). The Zangazur corridor as the new haulage hub for integration and cooperation in south Caucasus. Business & IT, pp.121-128.
3. Dadaşova, R. (2023). Qarabağ və Şərqi iqtisadi rayonlarında quruculuq işləri üçün vahid proqramının məqsədləri və əhəmiyyəti. Şuşa şəhəri: Azərbaycan mədəniyyəti Qafqaza və dünyaya. Beynəlxalq elmi konfransının materialları. 1 noyabr. Bakı: Aspoliqraf, s.23-24.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 116-118**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 116-118**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Xanım Əsədova**
Azərbaycan Dövlət Aqrar Universiteti
tarix üzrə fəlsəfə doktoru
xanim.as@mail.ru

# ANDRONİKİN ZƏNGƏZURDA "ETNİK TƏMİZLƏMƏSİ"

***Açar sözlər:*** *Zəngəzur, qəza, torpaq, soyqırımı, etnik təmizləmə*
***Keywords:*** *Zangazur, accident, soil, genocide, ethnic genoside*

XX əsrdə soyqırıma məruz qalan ərazilərimizdən biridir Zəngəzur. Türkmənçay sülh müqaviləsi bu tarixi Azərbaycan torpağının taleyində faciəvi rol oynadı. Belə ki, tarixi Azərbaycan torpaqlarına ermənilərin köçürülməsini nəzərdə tutan XV maddə regionun demoqrafik vəziyyətində ciddi dəyişikliklərə gətirib çıxardı. İrandan və Osmanlıdan köçürülən ermənilər azərbaycanlılar yaşayan kəndlərdə məskunlaşdırı laraq bölgənin türk əhalisinin sayının azalmasına gətirib çıxarmışdı. Təkcə 1828-ci il ərzində İrandan Azərbaycan xanlıqlarına 35.566 nəfər erməni köçürülmüşdü. Ruslar İrandan və Osmanlıdan erməniləri köçürüb Qafqaza gətirməklə xalqlar arasında nifaq toxumunu elə bu zaman səpdilər.

Hələ XIX əsrin sonlarından başlayaraq Zəngəzur bölgəsində "Hnçak" və "Daşnaksutyun" terrorçu təşkilatları fəaliyyətə başlamışdı. Bu təşkilatlar 1904-cü ildə Zəngəzurun erməni əhalisi arasında təbliğat aparmışlar, hansı ki bu təbliğat milli zəmində ərazidə qarşıdurma yaratmalı idi. Bu məqsədlə onlar siyasi terror partiyalarının şöbələrini təşkil edərək əhalini silahlandırmışdılar.

1905-1906-cı illərdə Zəngəzurda müsəlman əhaliyə qarşı törədilmiş qanunsuzluqlardan sonra bir çox kəndlərin müsəlman əhalisi qaçqın düşsə də, onların əksəriyyəti bir müddətdən sonra doğma yurd-yuvalarına geri qayıtmış, öz həyatlarını yenidən qurmağa müvəffəq olmuşdular. 1917-1920-ci illərdə Zəngəzurun türk əhalisi ikinci dəfə soyqırımı və deportasiya ilə üzləşməli oldu. Lakin 1906-cı ildən fərqli olaraq bu dəfə onların əksəriyyətinə öz doğma yerlərinə qayıtmaq müəssər olmadı (İsmayılov, 2017: 14).

1918-ci il mayın 28-də öz müstəqilliklərini elan etdikdə əraziləri 9 min kv.km olmuşdu. Əraziləri İrəvanın şimal, qərb əraziləri və Göyçə

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

gölü ətrafını əhatə ediyi üçün bununla barışmayan ermənilər etnik təmizləmə yolu ilə azərbaycanlılar yaşayan digər ərazilərə də göz dikdilər. Bakıda olduğu kimi, Azərbaycanın digər bölgələrində də soyqırımlar məhz Şaumyanın şəxsi göstərişi ilə həyata keçirilmişdi. Bakı Sovetinin rəhbərliyi Azərbaycanın qərb bölgələrində soyqırımı həyata keçirən S.Şaumyanın "xalq qəhrəmanı" adlandırdığı Androniklə sıx əlaqə saxlayırdı (Nəcəfli, 2017: 5).

Zəngəzurda 1918-ci ildə türk müsəlman əhalisinə qarşı soyqırımı quldur Andronikin bölgəyə gəlməsindən sonra daha da gücləndi. Mudros barışığından sonra Türk ordusunun Qafqazı tərk etməsi ermənilərin Qarabağ və Zəngəzurla bağlı planlarını həyata keçirmələri üçün geniş imkanlar yaratmışdı. Belə bir tarixi şəraitdən istifadə edərək "Böyük Ermənistan" yaratmaq istəklərini türk müsəlman əhalisinə qarşı soyqırımlarını dövlət səviyyəsində davam etdirdilər. Həmin vaxt Zəngəzur müsəlmanlarının durumunun çox ağır olmasının səbəbi buradakı erməni kəndlərində mövcud olan silahlı dəstələrdən başqa Andronikin çoxminli nizami ordusunun bölgəni nəzarətdə saxlaması idi. Bu dəstə 1918-ci ilin noyabr-dekabr ayında Zəngəzur qəzasındakı yerli ermənilərlə birlikdə azərbaycanlı kəndləri olan Kilid, Lehvaz, Buğakar, Əldərə, Tuğut, Bənövşəpuş, Aşağı Vərtənəzur, Yuxarı Vərtənəzur, Tağamir kəndlərini dağıdaraq bu kəndlərin sakinlərinin çoxunu öldürmüş, bir hissəsi Araz çayını keçərək İrana qaçmışdı. Arazı keçə bilməyənlərsə, çay boyu səpələnərək didərgin vəziyyətə düşmüşlər (Urud, 2016: 231). Tarix boyu insanlığa sığmayan vəhşiliklə həyata keçirdiyi soyqırımları Zəngəzurun Şəki, İrmis, Ağudi, Çullu, Bağırbəyli, Qatar, Vərtənəzur, Rəhman-Əfəndi kəndlərinin günahsız sakinlərinə qarşı da törədilmişdi. Bu qırğınların miqyasından bölgədəki birləmmiş qüvvələrə aid ingilis qoşunlarının komandanı general Tomson da dəhşətə gəlmiş və Andronikə bu məzmunda teleqram göndərmişdi: "Andronikə və ya Şuşa rayonundakı erməni komandanına. Aldığım məlumata görə, ermənilər azğınlıq və talanlar törədirlər. Müttəfiqlərin nümayəndəsi kimi mən sizə əmr edirəm ki, bu qanunsuzluğa birdəfəlik son qoymaq üçün tədbirlər görün. Əgər siz bu əmrləri yerinə yetirməsəniz, baş verə biləcək qan tökülməsinə görə şəxsən siz məsuliyyətə cəlb ediləcəksiniz" (İsmayıl, 2017). Göründüyü kimi, Andronikin dəstələri heç bir xəbərdarlığa məhəl qoymamışdı.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Əslində, Andronikin və ümumilikdə ermənilərin ingilislər tərəfindən dəstəkləndiyi də açıq aşkar idi.

Türkiyə hərbi hissələri bölgəni tərk etdikdən sonra Zəngəzur mahalında 120 müsəlman kəndi dağıdılmış, bunlardan 70-ə yaxınının əhalisi tamamilə məhv edilmişdir. Qəzada 1918-ci ilin sonunda Andronikin qana susamış əsgərləri və yerli ermənilərin quldur dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilmiş vəhşiliklər haqqında Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində öz əksini tapmışdır. Fövqəladə Təhqiqat Komissiyasının Zəngəzurda ermənilər tərəfindən dağıdılmış 115 müsəlman kəndində baş verən hadisələri istintaq vasitəsilə müəyyən edərək bildirmişdi ki, məruzə edilən müddətədək həmin kəndlərdə 3257 kişi, 2776 qadın və 2196 uşaq öldürülmüş; 106 kişi, 796 qadın və 487 uşaq yaralanmışdır (İsmayıl, 2017: 106).

Beləliklə, erməni daşnakları türk-müsəlman əhalisinə qarşı 1917-1921-ci illərdə bəşəriyyətdə baş vermiş ən dəhşətli soyqırımı həyata keçirmişlər.

## Ədəbiyyat

1. İsmayılov, K. (2017). Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı.
2. Nəcəfli, G. (2017). Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgələrində Ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlar (1918-1920). Bakı.
3. Urud, M. (2016). Zəngəzur uzaq keçmişdən müasir dövrə qədər. Bakı.
4. İsmayıl, X. (2017). Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı. Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 119-123**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 119-123**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elnarə Seyidova**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
eli.seyid.77@mail.ru

# İTİRİLMİŞ TORPAQLARIMIZ. PROFESSOR S.Y.BABAYEVİN TƏDQİQATLARINDA QƏRBİ AZƏRBAYCAN MÖVZUSU

***Açar sözlər:*** *Qərbi Azərbaycan, tarixi-coğrafi xüsusiyyət, coğrafi tədqiqat, toponim, itirilmiş torpaqlarımız*
***Keywords:*** *Western Azerbaijan, historical-geographic peculiarities, geographical research, toponym, our lost lands*

Azərbaycan elmi ictimaiyyətinin görkəmli nümayəndələrindən biri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, coğrafiya elmləri doktoru, professor Səfərəli Yaqub oğlu Babayev coğrafiya tarixində izi və sözü qalan ziyalılarımızdandır. Onun rəngarəng və maraqlı elmi yaradıcılığı hər zaman diqqəti cəlb etsə də, ətraflı tədqiq edilməmişdir. Bu il 100 illik yubileyi qeyd edilən, uzun illər ərzində coğrafiya elminin müxtəlif sahələrinə aid aktual və diqqətəlayiq əsərlər yazan S.Y.Babayevin elmi yaradıcılığı çoxşaxəli və çoxplanlı olmaqla tədqiqata layiqdir və əsərlərinin elmi təhlili bu baxımdan əhəmiyyətlidir.

Professor S.Y.Babayevin coğrafi tədqiqatlarında Naxçıvanla bağlı mövzular xüsusi əhəmiyyət kəsb etsə də, Qərbi Azərbaycanla bağlı araşdırmaları daim diqqət çəkmişdir. Onun elmi yaradıcılığında itirilmiş torpaqlarımız, Azərbaycan toponimləri, milli irsimiz, təbii sərvətlərimiz haqqında araşdırmaları mühüm əhəmiyyət kəsb edir. Alimin hələ uzun illər öncə aparılmış, lakin günümüzlə səsləşən tədqiqatlarının öyrənilməsi elmi yaradıcılığındakı yenilikləri bir daha üzə çıxarır. Bu tədqiqatlar Azərbaycan torpaqlarının bütövlüyünün və tarixi-coğrafi xüsusiyyətlərinin daim onun diqqətində olduğunu sübut edir. Bundan başqa, xüsusi elmi yaradıcılığın araşdırılması aid olduğu elm sahəsinin zənginləşməsində böyük əhəmiyyət kəsb edir. Bu baxımdan professor S.Y.Babayevin elmi fəaliyyətinin tədqiqata cəlb edilməsi zəruridir.

S.Y.Babayevin tədqiqatları həm də mövzu rəngarəngliyi və sintezi ilə diqqəti cəlb edir. Lakin hansı mövzuda yazırsa yazsın, o, coğrafiyadan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

uzaqlaşmır, bəhs etdiyi elm sahələrini coğrafi mövzularla əlaqələndirir. Onun belə maraqlı mövzularından biri əsrlərdir ki, problemlərlə üzləşdiyimiz bədnam qonşularımız haqda yazılmış "Ermənilərin Zaqafqaziyaya gəlişi və demoqrafik proseslər" məqaləsində əks olunub. Əsərdə ümummilli lider H.Əliyevin Ermənistandakı azərbaycanlıların öz doğma ata-baba torpaqlarından deportasiya edilməsi barəsindəki 18 dekabr 1997-ci il tarixli fərmanından, onun tarixi-siyasi əhəmiyyətindən bəhs edilir.

Məqalədə bir sıra tarixi sənədlərə ("Rusiyanın Zaqafqaziyadakı mülklərinin icmalı", "Zaqafqaziya MİK Rəyasət heyətinin 18 fevral 1929-cu il tarixli qərarı" və s.) müraciət olunaraq mühüm tarixi hadisələr araşdırılır. Bu isə bir daha qəti şəkildə göstərir ki, Ermənistan qədim dövrlərdə türklərin yaşadığı coğrafi ərazidir. Nəinki Ermənistan, o cümlədən Gürcüstan və Dağıstanın da azərbaycanlılar yaşayan zonaları eradan əvvəlki minilliklərdə türk tayfalarının məskunlaşdığı ərazinin tərkib hissəsidir. "Tarixi dəlillər sübut edir ki, Ermənistanda azərbaycanlıların bir hissəsi yerli avtoxton türklər olub, Urartu dövləti vaxtında (e.ə. IX-VII əsrlər) indiki Ermənistan ərazisində məskunlaşmışlar. Bir qismi isə şərqdən və şimaldan buraya gəlmiş türk tayfalarıdır. Azərbaycanlıların ulu əcdadları Ermənistanda e.ə. VII əsrin əvvəllərindən başlayaraq eramızın XI-XII əsrlərinə qədər məskunlaşmış qədim türk tayfaları – gimmer, sak, şirak, alban, quqar, aran, katak, peçeneq, kəngər, oğuz, qapan, bulqar, qarqar, sadak, qorus (Xurs), çinli, xəzər və başqalarıdır" (Babayev, 2002: 25).

"Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" adlı monoqrafik əsərini alimin toponim tədqiqatlarının zirvəsi kimi qiymətləndirmək olar. Kitab 1999-cu ildə nəşr edilmişdir. Kitabın "Naxçıvan diyarının coğrafi mövqeyi, sərhədləri və ərazisi" adlı hissəsində Naxçıvanın İran və Türkiyə sərhədlərinin 1921-ci il martın 16-da bağlanmış Moskva və 13 oktyabr 1921-ci ildə bağlanmış Kars müqaviləsinə əsasən müəyyən olunduğu göstərilir.

"Naxçıvan diyarının coğrafi mövqeyi, sərhədləri və ərazisi" başlıqlı bölməsində tarixi faktlara müraciət olunur və maraqlı müqayisələr aparılır: "Hal-hazırda Naxçıvan MR-in ümumi sahəsi 5502.75 $km^2$-dir. Halbuki 1929-cu ilədək onun sahəsi 5988 $km^2$ olmuşdur. Həmin ilin fevral ayının 18-də Zaqafqaziya MİK-nin qərarı ilə (Protokol №3) Naxçıvan MSSR-in razılığı, Türkiyə Respublikasının xəbəri olmadan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Şərur rayonunun Xaçik, Koradiz, Ordubad rayonunda Karçevan, indiki Şahbuz rayonunun Oğbun, Sultanbəy, Ağxəç, Ses, Almalı, İtqıran kəndləri 625 $km^2$ ərazisi ilə birlikdə Ermənistan SSR-ə verilmişdir" (Babayev, 1999: 14).

Vaxtilə Azərbaycanla Türkiyə arasındakı dəmir sədlər, Azərbaycandakı sərt ideoloji rejim hər iki ölkədə dastanın coğrafiyasının düzgün öyrənilməsinə mane olduğundan onun müstəqillik şəraitində yenidən araşdırılması zərurətini meydana çıxarmış və bu istiqamətdə S.Y.Babayev gərgin elmi fəaliyyəti olmuşdur. O qəti şəkildə göstərir ki, "Qalın Oğuz elləri Böyük Azərbaycanın bütün torpaqlarını – Cənubi Azərbaycanı, Dəmirqapı Dərbənd də daxil olmaqla Şimali Azərbaycanı, indi "Ermənistan" adlanan Qərbi Azərbaycanı, şərqi və cənub-şərqi Gürcüstanı, Şərqi Anadolunu əhatə etmişdir. Dastanda adı çəkilən kafirlərin əlində olan qalalar bir növ Oğuz ellərinin "sərhəd cızıqlarını təşkil edir" (Babayev, 1999: 32).

Dastanda oğuzlara qonşu olan coğrafi ərazilərdən Gürcüstanın və oradakı şəhər və qalaların adı qeyd olunur. "Dastanda heç bir yerdə Ermənistan adına və erməni mənşəli bir dənə də olsun toponimə rast gəlinmir. Bu, onunla izah olunur ki, o dövrdə bu ərazidə Ermənistan və ermənilər olmamışdır. İndiki Ermənistan ərazisi oğuzların – Azərbaycan türklərinin tarixi torpaqları olduğundan buradakı toponimlər də Azərbaycan – türk mənşəlidir" (Babayev, 1999: 55).

S.Y.Babayevin Qərbi Azərbaycan mövzusuna toxunduğu növbəti tədqiqatı 1999-cu ildə nəşr olunmuş "Naxçıvan Muxtar Respublikasının coğrafiyası" kitabında "Harada nə qədər erməni olmuşdur?" adlı məqaləsi çox maraqlıdır (Babayev, 1999: 196). Məqalədə göstərilir ki, vətən məfhumu, vətənə bağlılıq hissi ermənilərə yad olmuş, günləri harada xoş keçirsə həmin yer onlar üçün vətən olmuşdur. Onların şüarı belədir: "Harada erməni varsa, ora Ermənistandır".

Həmçinin professor S.Babayev məqalədə qeyd edir: "Onlar Ermənistanın indiki ərazisində İran və Türkiyənin hökmranlığı dövründə tikilmiş abidələri-məscidləri, karvansaraları, körpüləri, qalaları, kitabələri və s. ya saxtalaşdırmış, ya da özülündən söküb izini itirmişlər". Müəllif qeyd edir ki, İrəvanda İslam dünyasının gözəl memarlıq nümunələrindən olan Göy məscidin necə söküldüyünü ürək ağrısı ilə müşahidə etmişəm. Həmçinin Yeğeqnadzor rayonundakı Arpaçay üzərindəki Şah Abbas körpüsünün, Səlimin gədiyindəki Şah Abbas karvansarayının, Ələyəz

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

kəndindəki Alban kilsəsi yaxınlığında olan ocağın, ərəb əlifbası ilə yazılan kitabələrin və s. bir neçə il ərzində xaçla “bəzədilib” erməniləşdirildiyinin şahidi olmuşam. O zamanlar bu saxtakarlıqlar ermənilərin “daxili işi” adlandırılırdı. Ermənilər isə bu sükutdan istifadə edərək öz “şanlı tarixlərini” zənginləşdirmək üçün Naxçıvan MR-də olan tarixi abidələrdə qazıntı işləri aparır, fotoşəkillər, kinolentlər çəkir, müxtəlif albomlar buraxırdılar. Qəbristanlığımızdan at və qoç heykəlləri, Gəmiqayada qaya rəsmləri Ermənistana daşınırdı. Hətta S.Babayev qeyd edir ki, ermənilər yerli və xarici mətbuat səhifələrində “Gəmiqayada” qədim dövrlərdə ermənilərin kosmodromu olduğunu da qeyd edirlər. Bu saxtakarlığa biz ancaq öz mətbuatımızda cavab verə bildik və dünya bizi eşitmədi. Bütün bu qeydlər professor S.Babayevin sovet dövründə müşahidələri, tədqiqatları və öz doğma yurduna olan həqiqi sevgisi əsasınada yazılmış elmi araşdırmalarıdır.

S.Y.Babayevin “Naxçıvanın itirilmiş torpaqları” məqaləsi maraqlı və aktual bir mövzuda yazılmışdır. Müəllifin Qərbi Azərbaycan mövzusuna toxunduğu bu tədqiqatı 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” jurnalında nəşr olunmuşdur. Əsər həm tarixi, həm coğrafi, həm də milli-mənəvi dəyərlər baxımından əhəmiyyətlidir. Məqalədə Naxçıvanın tarixi torpaqları, ərazisi haqqında keçmiş və indiki məlumatlar müqayisə edilir, bu mövzu ilə əlaqədar tarixi-siyasi sənədlərdən bəhs olunur. Müəllif çox ciddi faktlara müraciət edir. Onlardan biri belədir: “...1924-cü ildə Ribakov familiyalı II dərəcəli kartoqraf Naxçıvan MSSR-in 1:25000 miqyasla təkmil və dəqiq xəritəsini işləmişdir. Bu xəritədə Sədərək kəndinin “Həsənqulu bağı” deyilən sahəsi Naxçıvan Respublikasının ərazisinə daxil edilmişdir. Təəccüb doğuran budur ki, həmin xəritə indiyədək ortalığa çıxarılmamış və onun yeganə nüsxəsi Naxçıvan MR Aqrar Sənaye Birliyinin Yerquruluşu şöbəsində saxlanılır” (“Naxçıvanın itirilmiş torpaqları”. Naxçıvan Dövlət Universitetinin elmi əsərlər seriyası, 2003: 64). Əsərdə müəllif bir çox sənədlərin – müqavilə və qərarların heç bir hüquqi əsas olmadan pozulmasına münasibət bildirilmiş və məqalənin sonunda Naxçıvan MR-nın itirilmiş torpaqlarının xəritə-sxemi verilmişdir.

S.Y.Babayevin bütün bu tədqiqatları nəinki elmi yeniliklərlə yekunlaşır, hətta o, tədqiq etdiyi sahənin gələcək taleyi haqqında da fikir söyləyib yollar göstərir. Həmin məsələlər xronoloji ardıcıllıqla təhlil edilərək elmi həllini tapır. Bütün bunlar onu deməyə əsas verir ki,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

professor S.Y.Babayev Azərbaycan coğrafiyasının inkişafında, onun mühüm coğrafi məlumatlarla zənginləşməsində xüsusi rol oynamışdır.

## Ədəbiyyat

1. Babayev, S.Y. (2002). "Əshabi-Kəhf", "Tanrı hüzuruna gedən yol", Ümid çırağı. Bakı, № 5.
2. Babayev, S.Y. (1999). Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, 226 s.
3. Babayev, S.Y. (1999). Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı, 208 s.
4. Naxçıvanın itirilmiş torpaqları. Naxçıvan Dövlət Universitetinin elmi əsərlər seriyası. (2003). Naxçıvan. № 1-2(67).

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 124-126**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 124-126**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Əsəd Qurbanlı**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
qurbanli.68@mail.ru

# AXIRINCI TÜRK KƏNDİNİN ERMƏNİSTANDAN DEPORTASİYASI (1988 – 1991)

***Açar sözlər:*** *Azərbaycan SSR, Ermənistan SSR, Meğri, Nüvədi*
***Keywords:*** *Azerbaijan SSR, Armenian SSR, Meghri, Nuvedi*

Yenidənqurma illərində ölkənin bütün regionlarında mərkəzdən-qaçma meyillərinin gücləndiyi bir vaxtda ermənilər imperiyanın çökməkdə olduğunu hiss edir, SSRİ-nin tərkibindən böyük bir ərazi ilə çıxmaq istəyirdilər.

Heydər Əliyevin Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefasından sonra bunu bir fürsət bilən ermənilər xeyli fəllaşdılar.

1988-ci il fevral ayının 20-də DQMV XDS-nin sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxıb Ermənistanın tərkibinə birləşməsi bədnam qərarından sonra fevral-dekabr aylarında Ermənistan SSR-dən 250 min azərbaycanlıların etnik təmizlənməsi həyata keçirilsə də, Nüvədi sakinləri kəndini tərk etməmişdi (Əhmədli, 2003).

Ermənistan SSR rəhbərliyinin göstərişi ilə kəndə təzyiqlər başlanmış, kəndə verilən elektrik xətti kəsilmiş, 1989-cu il oktyabrın 10-da Meğri rayonu mərkəzində beş sakin və maşınlar qənimət olaraq ələ keçirilmişdi (Amanov, 2008: 216).

Nüvədi kəndnin sakinlərinin Azərbaycan xalqına ünvanladığı müraciətdə deyilirdi ki, biz Ermənistan vətəndaşı kimi hesaba alınmırıq. Əhali ehtiyac və təşviş içində yaşayır, rayon mərkəzinə gedən adamlarımız döyülür, təhqir olunurlar (3).

Ermənilər Ermənistanda yeganə azərbaycanlı kəndinin qalması ilə barışmaq istəmir, kənd əhalisi isə asanlıqla öz yurdlarından çıxmaq istəmirdilər.

Kənd ağsaqqalı H.Musayevin Meğri rayon rəhbərliyinə açıq məktubunda deyilirdi ki, "Nüvədi  Azərbaycan torpağıdır, 1969-cu ilin

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

7 may tarixli qərarla bu kəndi sizə "pay" vermişlər. Nüvədinin əzəli də, indisi də nüvədililərə məxsusdur..." (Kərimli, 1996: 76).

1991-ci il avqustun 7-dən 8-nə keçən gecə kənd sovet ordusunun köməyi ilə kənd boşaldıldı. Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın yaymış olduğu xəbərdə bu əməliyyata Ermənistan Daxili İşlər Nazirinin müavini Q.Qriqoryanın rəhbərlik etdiyi bildirilirdi (Nüvədi hadisələrinə dair, 1991).

Zəngilan rayonunun Vejnəli kəndində məskunlaşmış nüvədililər qaçqınlıqla barışmaq istəmir, yenidən Nüvədiyə qayıtmaq istəyirdilər. Kənd sakinləri bu məqsədlə Naxçıvan Ali Məclisinin sədri H.Ə.Əliyevə müraciət edərək onların haqlı tələblərinin həll edilməsini xahiş etmişdilər (Rəhimoğlu, 1997).

Nüvədililərin bu müraciəti ilə əlaqədar H.Ə.Əliyevin tapşırığı ilə Ali Məclisin deputatları, məsul şəxsləri və ictimai xadimlərindən ibarət nümayəndə heyəti 1991-ci il oktyabrın 17-də Zəngilanın Vejnəli kəndində məskunlaşmış nüvədililərlə görüşürmüş, onların problemləri dinlənilmişdi.

Naxçıvandan gəlmiş nümayəndələrin hazırladığı arayışda göstərilirdi ki, 3 aydan çox burada məskunlaşmış sakinlər heç bir şəraiti olmayan soyuq çadırlarda yaşayır, xüsusən də 70 ailənin vəziyyəti daha dözülməzdir. Naxçıvan Muxtar Respublikası əhalisinin blokada şəraitində yaşamasına baxmayaraq, nüvədili qaçqınlara yardım məqsədilə onlara hətta ərzaq məhsulları göndərilmişdi (Nüvədililərə kömək lazımdır, 1991).

2006-cı il 4 iyulda Ermənistan hakimiyyəti daha bir saxtakarlığa imza ataraq Nüvədi kəndinin tarixi adını dəyişərək heç bir mənbədə rast gəlinməyən qondarma "Nrnadzor" adı ilə əvəz etdi (Rəhimoğlu, 1997).

Lakin erməni millətçilərinin bütün bu qeyri-insani tədbirlərinə baxmayaraq Azərbaycanın Qarabağ Zəfəri onların öz yudlarına dönmək ümidini artırmışdır.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 124-126**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 124-126**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Əhmədli, İ. (2003). Nüvədi və nüvədililər. Bakı: İqtisad Universiteti.
2. Amanov, M. (2008). Ziyalı ömrü. Bakı: Elm, 216 s.
3. Ermənistan SSR Meğri rayonunun Nüvədi kəndinin sakinlərinin Azərbaycan xalqına müraciəti. (4 oktyabr 1989). "Azərbaycan" qəzeti (Qarabağa Xalq Yardımı Komitəsinin orqanı).
4. Kərimli, A. (1996). Zəngəzurun qeyrət qalası–Nüvədi. Bakı, 76 s.
5. Nüvədi hadisələrinə dair. (10 avqust 1991). "Həyat" qəzeti, № 153.
6. Rəhimoğlu, H. (1997). Silinməz adlar, sağalmaz yaralar. Bakı.
7. Nüvədililərə kömək lazımdır. (1991). "Şərq Qapısı" qəzeti (Naxçıvan Ali Məclisin orqanı), № 200 (16.040).

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 127-131**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 127-131**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Yeganə Qəhrəmanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
yegane.qehremanova.1976@mail.ru
https://orcid.org/0000-0003-3730-7674

# "ZƏNGƏZUR" COĞRAFİ VAHİDİNİN ETİMOLOJİ İZAHI

***Açar sözlər:*** *tayfa, türk, toponim, mənşə, etimologiya*
***Keywords:*** *tribe, Turkic, typonym, origin, etymology*

Kiçik Qafqaz sıra dağlarının ən hündür dağ silsiləsi sayılan, Qarabağ yaylasına qədər uzanan, sərt qayalarla örtülmüş Zəngi türklərinə məxsus dağlıq mahal olan Zəngəzur həm tarixi-coğrafi, həm etnoqrafik baxımdan qədim türk-oğuz məskənlərindən biri olmuşdur. Bütün Qafqazda qüdrətli türk tayfası kimi tanınan, Teymur, Ağqoyunlu, Qaraqoyunlu və nəhayət, Səfəvilər dövlətlərinin tərkibində fəal şəkildə iştirak edən Zəngi tayfaları bu bölgədə uzun əsrlərdən bəri maddi-mənəvi mədəniyyət yaratmış, bu bölgənin yer-yurd adları və etnik tərkibi məsələsi sovet dövründə məqsədli şəkildə geniş tədqiqatlardan kənarda qalsa da, bütün tarixi sənədlərdə ərazinin toponimik adlarının 90 %-ə qədərinin türk mənşəli olduğu göstərilmişdir. Belə ki, Zəngəzurda bayandur, xələc, qayı, çəpni tayfaları, qacar, zülqədər, baharlı, zəngənə, çoban, padar kimi qəbilələrinin adı ilə bağlı minlərlə toponim vardır.

**Zəngəzur lekseminin etimoloji izahı haqqında fikirlərin xülasəsi**

Tarixi faktlar və mənbələr Zəngəzur ərazisində İç Oğuz tayfalarının məskən saldığını, "Kitabi-Dədə Qorqud"dakı hadisələrin çoxunun bu ərazilərdə baş verdiyini göstərir. "Kitabi-Dədə Qorqud"un X boyunda deyilir: "Əkrək dədə-baba, el yolu, yəni Gorus-Əngələyüz-Dərəşam yolu ilə üç gün-üç gecə yortaraq Əlincə qalaya çatdı" (Kitabi-Dədə Qorqud, 1982: 263).

Dini inanclarına görə, atəşpərəst olan Zəngəzur əhalisinin xristianlığın Qafqazda geniş yayıldığı IV-V əsrlərdə ciddi müqavimət göstərməsi, sonralar bir hissəsinin xristianlığı qəbul etməsi haqqında da çoxsaylı məlumatlar vardır. Xristianlığı qəbul etməyən yerli tayfalar

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

VII və VIII əsrlərdən etibarən islamı qəbul edərək tədricən müsəlmanlaşmışdır.

Azərbaycan türklərinin qədim yurd yerlərindən biri, xalqımızın tarixi keçmişində çox mühüm rol oynamış Zəngəzur toponimi, bu onomastik vahidin etimologiyası, leksik-semantik cəhətdən düzgün izahı böyük elmi və siyasi əhəmiyyət kəsb edir. Bu gün Azərbaycanın öz tarixi yurd yerlərini düşmən tapdağından xilas etdiyi, xalqımızın siyasi-iqtisadi-coğrafi baxımdan mühüm strateji gücü olan Zəngəzur dəhlizinin açıldığı ərəfədə bu adın mənşəyinin düzgün izahı bu ərazinin qədim sakinlərinin mənşəyi haqqında da daha dəqiq məlumatlar əldə etməyə imkan verir. Bu baxımdan AR Prezidenti İlham Əliyev cənablarının Zəngəzura qayıdış strategiyasının həyata keçirilməsinə çalışdığımız ərəfədə Zəngəzurla bağlı tarixi, siyasi, etnoqrafik, həmçinin dil faktlarını düzgün bilmək, qədim məskənlərimizdən olan Zəngəzurun xalqımızın tarixi keçmişində oynamış olduğu rolu daha dərindən öyrənmək vacibdir. Bu mənada Musa Urudun bir neçə il öncə vurğuladığı kimi, "Azərbaycanda "Zəngəzur" sözünü eşitməyən adam, yəqin ki, yoxdur. Azərbaycanda "Zəngəzur" sözü Naxçıvan, Şirvan, Qarabağ, Borçalı və s. mahalların adları qədər qədim, ümumişlək, bir qədər də kövrəklik gətirən, xatirələrə qaytaran sözdür. Azərbaycanda hamı bilir ki, Zəngəzur Vətən torpağıdır, Azərbaycanda hamı bilir ki, Zəngəzurun əzəli sakinləri biz – Azərbaycan türkləri, bizim ata-babalarımız olmuşlar. Ancaq təəssüflər olsun ki, bizim Zəngəzur haqqında bilgilərimiz bu beş-üç kəlmədən çox deyildir. Təəssüflər olsun ki, biz Zəngəzurun tarixini, bu qədim torpağın Azərbaycanın taleyində vaxtilə necə mühüm rol oynadığını kifayət qədər bilmirik. Azərbaycan tarixşünaslığında, bəlkə də, Zəngəzur qədər az öyrənilən bölgə yoxdur" (Urud, 2005: 12) fikri indi daha da aktualdır. Bütün dünyanın nəzərlərinin Zəngəzura dikildiyi bir məqamda tarixi həqiqətlərin ortaya qoyulması istiqamətində hər birimizin qarşısında daha ciddi vəzifələr durur. Bu mənada Zəngəzur toponiminin bir leksik vahid kimi izahı ilə bağlı indiyə qədər irəli sürülən fikirlərə münasibət bildirməyi aktual hesab edirik.

1920-ci ildən Ermənistana bağışlanan Zəngəzur sözünün etimologiyası haqqında mənfur düşmənlərimizin uydurmalarına nəzər salsaq görərik ki, erməni "alimləri" bu etnotoponimin mənasını iki cür "izah etmişlər". Birinci fikrə görə, guya sözün ilk hissəsi olan "Zəngi"

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 127-131**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 127-131**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

erməni dilində "mağara" mənasını verən "Zanqe" və ya "Zanqa" sözündən, "zur" hissəsi isə ermənilərin öz adlarına çıxdığı, əslində isə, onlara heç bir aidiyyəti olmayan zurna musiqi alətinin adından götürülmüş, "bərk səslənən" mənasındadır. Lakin Zəngəzurun coğrafiyasına bələd olanlar bilirlər ki, bu ərazidə ermənilərin uyğurduğu kimi, o qədər böyük və çoxsaylı mağaralar yoxdur ki, ərazinin adını "səslənən mağaralar" adlandırmaq üçün hər hansı əsas olsun.

Ermənilərin uydurduğu ikinci izah isə bundan ibarətdir ki, toponim "Zanqe+dzor" hissələrindən yaranmış, "Zəngi dərəsi" mənasını verir. Burada ilk komponentin etnonimlə bağlı olması fikri həqiqətə uyğun olsa da, "zəngi" etnoniminin ermənilərlə heç bir bağlılığı yoxdur, bu söz heç vaxt nə ermənilərin, nə də bu ərazinin aborigen sakinləri olan türklərin dilində "Zanqedzor" kimi işlənməmişdir.

Bəzi erməni və fars mənbələrində zəngi tayfasının kürd mənşəli olması barədə də uydurmalar vardır. Maraqlıdır ki, bu toponimi "Səngi-Sur" formasında fars mənşəli "səng – daş, qaya, ərəb mənşəli "sur" – silsilə divar, qala mənasında izah edənlər də var. Zəngəzur sözü bu anlamda başdan-başa, daşlı, qayalı yer, daşların qala divarları kimi düzüldüyü ölkə mənasını verir (Urud, 2005: 15). Lakin zəngilərin qədim türk tayfası olduğunu sübut etmək üçün heç bir əlavə izaha ehtiyac yoxdur. Bunu tarixi faktlar özü sübut edir. "Zəngi tayfaları orta əsr Azərbaycan Atabəylər dövlətində yuxarı zümrədə təmsil olunmuş, sonra isə Səfəvilər dövlətinin yaranmasında və inkişafında, eləcə də bəzi kürd üsyanlarının yatırılmasında yaxından iştirak etmişlər (Urud, 2005: 13). Bu gün türklərin məskun olduğu Türkiyə, Orta Asiya, Əfqanıstan, Qazaxıstan, İran, Qafqaz kimi bir çox ərazilərdə, o cümlədən Azərbaycanda zəngi tayfa adını əks etdirən onlarla toponim vardır. Alim Zaur Əliyev özünün "Zəngəzur dəhlizi: geosiyasi reallıqlar və perspektivlər" adlı kitabında M.Kaşğarlının, Əbülqazi Xivəlinin, Rəşidəddinin, eləcə də A.Bakıxanovun əsərlərində də 24 oğuz tayfasından biri kimi adı çəkilən, Atabəylər və Səfəvilər dövlətlərinin əsas sütunlarından olan zəngilərlə bağlı türksoylu respublikalarda və Azərbaycanda mövcud olan yer adlarına xeyli nümunə göstərmişdir: "Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngidərə çayı, Zəngibasar, Zəngilər, Zəncan, Zəngili, Zəngi çayı və s. (Zaur, 25)".

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 127-131**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 127-131**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Bölgənin araşdırıcılarından olan V.Əliyevin tədqiqatlarında da Zəngəzur etnonimi ilə bağlı yayılmış toponimlərin geniş arealı göstərilmişdir (Əliyev, 2004: 29).

M.Urud bu siyahını bir qədər də dəqiqləşdirərək, haqlı olaraq, yazır ki, "Zəngi, Zəngitəpə, Zəngərik (Özbəkistanda), Türkiyədə – Ərzincan, Gürcüstanda – Zəngişamlı, Zəngənə, Azərbaycanda – Zəngilan, Sanqaçal, Zəngəran (Yardımlı rayonu), Zəngənə (Sabirabad rayonu), Zəngişalı (Ağdam rayonu), Zəngidərə çayı (Qobustan rayonu), Zəngi çayı (İsmayıllı rayonu), İrəvan mahalında – Zəngibasar, Zəngilər, Zəngili, Zəngi çayı, Cənubi Azərbaycanda – Zəncan kimi "zəngi" komponenti ilə bağlı toponimlərin olması bu toponimin məhz geniş arealda yaşamış, bir yerdən başqa yerə köçmüş böyük və qüdrətli bir tayfanın adı ilə bağlılığından xəbər verir" (Urud, 2005: 13).

Oğuz türklərinin qədim qəhrəmanlıq dastanı olan "Kitabi-Dədə Qorqud" dastanında da Zəngəzurla bağlı çoxsaylı yer adları göstərilir. "Tarixi mənbələrdə, qədim səyyahların memuar və tədqiqatlarında da Zəngəzur türklərin yurd yeri kimi təqdim edilir" (Zaur, 27). Deməli, Zəngəzur sözünün mənşəyi də qədim türk mənbələrinə əsasən izah edilməlidir. Bu barədə ayrı-ayrı araşdırmalarda təqdim edilən faktlar da deyilənləri bir daha sübut edir (Əliyev, 1982; Rəhimoğlu, 1997; Hamdullah Mustovfi Qəzvini, 1986; Həmzə Vəli, 1998; Həmzə Vəli, 1992).

Hazırda tədqiqatçılarımız arasında Zəngəzur sözünün ilk komponentinin türk mənşəli tayfa adı olması ilə bağlı fikirlər üst-üstə düşsə də, bu sözün ikinci komponentinin izahında fikir ayrılığı vardır. Belə ki, M.Urudun fikrincə, "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə "sur" daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər" (Urud, 2015: 14).

Bizə belə gəlir ki, Zəngəzur sözünün ikinci komponentinin ərəb mənşəli "sur" sözü ilə əlaqələndirilməsi o qədər də ağlabatan deyil. Çünki ərəblər gələnə qədər uzun əsrlər bu ərazidə məskunlaşmış yerli tayfa öz yaşadığı əraziyə ad qoymaya bilməzdi. Fikrimizcə, toponimin

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

tərkibindəki "zur" sözünü qədim türk mənşəli söz kimi izah edənlərin fikri daha inandırıcıdır. Belə ki, Ə.Rüstəmov "Zəngəzurun türk mənşəli toponimləri və onun Türkiyə arealları" adlı məqaləsində Zəngəzur sözünün ikinci komponenti olan "zur" sözünün qədim türk dillərində qayalıq, dağlıq, yarğanlıq kimi mənalar verdiyini, bununla da zəngilərin məskunlaşdığı ərazinin relyefini əks etdirdiyini bildirir. İ.Əliyevin "Qədim Azərbaycan torpağı Zəngəzur və ermənilərin xəyanəti" başlıqlı məqaləsində zur, sur, zor sözünün qədim türk dilində çox yaxşı, böyük, gözəl mənalarında işləndiyinə, "zur" sözünün dərə, yarğan mənasını ifadə etdiyinə diqqəti cəlb edir (Rüstəmov, 2021: 5-6).

Beləliklə, Zəngəzur sözünün tərkib hissələrinin zəngi türk tayfa adı ilə, "dağlıq", "dərə", "yarğan" mənalı "zur" sözünün birləşməsindən əmələ gəldiyini qəbul etmək olar. Qədim türk torpağı olan Zəngəzur daşı, qayası, gülü, çiçəyi, otu kimi yer-yurd adları ilə də tamamən bizə məxsus olub, inşallah bundan sonra da elə olacaq.

## Ədəbiyyat

1. Kitabi-Dədə Qorqud. (1982). Bakı.
2. Urud, M. (2005). Zəngəzur. Bakı.
3. Zaur, Ə. Zəngəzur dəhlizi: geosiyasi realliqlar və perspektivlər.
4. Əliyev, V. (2004). Zəngəzurda qalan izimiz. Bakı: Nurlan.
5. Əliyev, H. (1982). Həyəcan təbili. Bakı.
6. Rəhimoğlu, H. (1997). Silinməz adlar, sağalmaz yaralar. Bakı.
7. Hamdullah Mustovfi Qəzvini. (1986). Zeyl-e tarix-e qozide. Bakı: Elm.
8. Həmzə Vəli. (1998). Nüvədi kitabələri. Bakı.
9. Həmzə Vəli. (1992). Babək xürrəmdinin son taleyi. Bakı.
10. Rüstəmov, Ə. (15 yanvar 2021). Zəngəzurun türk mənşəli toponimləri və onun Türkiyə arealları. "Respublika" qəzeti, № 9, s. 5-6.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 132-133
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 132-133
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Asya Şahverdiyeva**
AMEA-nın akademik Y.H.Məmmədəliyev adına
Neft-Kimya Prosesləri İnstitutu
kimya üzrə fəlsəfə doktoru
asya21-89@mail.ru

# ZƏNGƏZUR QƏDİM AZƏRBAYCAN TORPAĞIDIR

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, türk, torpaq, qədim*
***Keywords:*** *Azerbaijan, Zangazur, turkish, land, ancient*

Zəngəzur ərazisi Araz çayı boyu Mehrindən başlamış Akaraya qədər, şimala doğru Qapıcıq, Xüsdub dağlarına, Zəngəzur sıra dağlarına, Bərgüşad dağlarına qədər uzanan ərazini əhatə edir.

Qədim tarixi mənbələrə görə, Zəngəzur əhalisinin 70 %-dən çoxu azərbaycanlılar olmuşdur. Zəngəzur mahalının qədim Azərbaycan torpağı olması, sakinlərin isə türk qəbil tayfalarından ibarət olması tarixi faktlarla, xüsusən toponomik adlarla təsdiqini tapmışdır. Qədim yazılı mənbələrdə, tarixi kitablarda adları çəkilən Kənkər (Kanqar) tayfalarının V əsrdən Xəzərin hər iki sahilində sərbəst hərəkəti, şimal, cənub, qərbi Azərbaycanın hər yerində olmaları, yaşadıqları yerlərə öz adlarını vermələri bunun bariz nümunəsidir.

Zəngəzur bu regiona orta əsrlərdə verilən bir türk mənşəli addır. Urmiya gölü ətrafında eramızın əvvəllərində Zəngi mahalı olmuşdur. Sonralar bu mahalın əhalisi bu gün Zəngəzur kimi tanınan ərazilərə də yayılmış, məskən salmış və mahalı əvvəlki kimi Zəngi sözü ilə Zəngəzur adlandırmışlar. "Zor" elementi toponim yaratmağa xidmət edir. Bu söz haqqında bir neçə fikir mövcuddur. Bəziləri bunu erməni dilindəki "dzor" (dərə) sözü ilə əlaqələndirirlər. Zəngəzur mahalı iki dağ arasında yerləşdiyindən ilk baxışda inandırıcı görünsə də, əslində, bu element, türk dillərində "zəngin, geniş, nəhəng" mənasını verən "zor" sözü ilə bağlıdır.

Bütövlükdə Azərbaycan, o cümlədən onun ayrılmaz hissəsi olmuş Qərbi Azərbaycan və onun Zəngəzur mahalı türk xalqlarının maddi-mədəniyyət qalıqları ilə zəngindir. Qafanda, Sisyanda, Mehridə və b. bölgələrdə neçə minillikdən hunlardan, saklardan, xəzərlərdən, azlardan, qarqarlardan, oğuzlardan, səlcuqlardan və daha neçə-neçə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

doğma etnoslardan xəbər verən abidələr özünü qoruyub saxlamışdır. Ən qədim türk yazısının izlərinə Orxon-Yeniseydə deyil, məhz Mehrinin Nüvədi kəndində rast gəlməyimiz çox mühüm məsələlərdən xəbər verir. Qocaman müəllim Həmzə Vəli 1985-ci ildə Nüvədi kəndinin Qarqadaşı adlı dağda bir naməlum yazı aşkar etmişdi. Yazı 7 daş parçasından ibarət olub, möhkəm bazalt daşına həkk olunmuşdur. Həmzə Vəlinin araşdırmalarından aydın olur ki, “Kitabların ən böyüyünün uzunluğu l m, eni 70 sm, kiçiyinin uzunluğu 40 sm, eni 32 sm-ə çatır. İndiyədək məlum olan şumer, Sinay, Xanmaney-Finikiya, Hörmüz, Ərrindi, Diskoridos, Kəsəc, Aramey, Qədim Yunan, Pəhləvi, Filados, Uyğur, Soqd, Monqol və “Alban” (Arran) əlifbaları ilə müqayisəli araşdırmalar göstərir ki, Nüvədi Qarqadaşı kitabələrindəki yazı bunların heç birinə oxşamır... Bu əvəzsiz kitabələrdəki yazılar Orxon-Yeniseylə eynidir, ancaq yazıların quruluşundan aydın olur ki, bu yazı olduqca qədimdir, Orxon-Yeniseyin “əcdadıdır”. Qədim və Orta əsr mənbələrindən aydın olur ki, qarqarlar şərqi Qafqazda yazamışlar. Onların adına eramızın 24-cü ilində vəfat etmiş yunan alimi Strabonun “Coğrafiya” kitabında rast gəlirik: “...Albanların ölkəsinə gələn Feoan söyləyir ki, Skif tayfaları olan hel və lehlər amazonkalar və albanlar arasında yaşayırlar... Skepsirali Metrodor və Qipsikrat isə iddia edirlər ki, amazonkalar Qafqaz dağlarının Karavin adlanan Şimal ətəklərində qarqarlarla qonşu yaşayırlar. Çox qədim mərasimlərə görə, qarqarlar da bu dağa çıxırlar ki, qadınlarla birlikdə qurban verib uşaq doğmaları üçün onlarla yaşasınlar”. Qarqarların türkdilli xalq olduğunu sübut edən faktlar çoxdur. Q.Qeybullayev “Azərbaycan etnoqrafik məcmuəsi” kitabında yazır: “Şli çayı vadisində Karkar çayı və Semireçidəki qarqar toponimi barədə məlumatlar mövcuddur. Qazaxıstanın Şimal dağlıq hissəsi Karkarlinski adlanır, qədimdə Türkmənistanda Qarqar adına iki çay varmış. Buxara xanlığı ərazisində də Karkar çayı qeyd edilir. Qədim Orta Asiya qıpçaqları arasında Karkar antroponiminin geniş yayıldığı məlumdur”.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 134-135**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 134-135**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Cavid Bağırzadə**
Gəncə Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
cavid.bagirzade@gdu.edu.az

# ZƏNGƏZUR QƏZASININ QUBADLI KƏND MƏKTƏBİ HAQQINDA (XIX ƏSRİN SONLARI – XX ƏSRİN ƏVVƏLLƏRİ)

***Açar sözlər:*** *Zəngəzur qəzası, Qubadlı kəndi, kənd məktəbləri, dünyəvi təhsil, şagird*
***Keywords:*** *Zangazur district, Gubadli village, rural schools, secular education, student*

Ziyalıların tələbləri nəticəsində XIX əsrin 70-ci illərindən etibarən Şimali Azərbaycanın rus kəndlərində olduğu kimi, azərbaycanlı kəndlərində də dünyəvi təhsil verən kənd (xalq) məktəbləri meydana gəlməyə başladı. Bu məktəblər çar hökumətinin 1873-cü il tarixli "Cənubi Qafqazda tədris hissəsinin təşkili haqqında" qanunu ilə rəsmiləşdirildi və qanuna görə quberniya və ya vilayətlərin hər birində üçə qədər normal kənd məktəbi açıla bilərdi. Kənd məktəbləri bir və ya iki sinifdən ibarət ola bilərdi. Birsinifli məktəbdə təhsil müddəti üç, ikisinifli məktəbdə isə beş il idi. 1875-ci il fevralın 18-də bu məktəblərin ştat cədvəli təsdiq edildi.

1882-ci ildə Zəngəzur qəzasının Qubadlı cəmiyyətinin Qubadlı kəndində birsinifli kənd normal məktəbi açıldı. Kənd əhalisi məktəbin III sinfinin açılmasını və bunun üçün hər şagirddən ildə 4 rubl təhsil haqqı yığılmasını təklif etmişdir. 1911-ci ildə məktəb ikisinifli məktəbə çevrildi. Digər bir mənbədə isə bu məktəbin 1913-1914-cü dərs ilindən ikisinifli kənd məktəbinə çevrildiyi qeyd olunur. Məktəbdə 1897-ci ildə 64, 1898-ci ildə 60, 1899-cu ildə 91, 1904-cü ildə 112, 1906-cı ilin oktyabrında 27, 1910-cu ilin oktyabrında 67 şagird təhsil alırdı. Məktəbdə 1911-ci ildə 2 müəllim, 92-si azərbaycanlı, 2-si erməni olmaqla 94 şagird var idi. Onlardan 25-i imkanlı, 40-ı orta, 29-u kasıb təbəqənin uşaqları idi. Məktəbin xərcləri 1897-ci ildə 618, 1898-ci ildə 1653, 1899-cu ildə 1816, 1904-cü ildə 2384, 1911-ci ildə 1245 rubl olmuşdur. Burada illik təhsil haqqı 2-3 rubl təyin edilmişdi. 1914-cü il

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

fevral ayının məlumatına görə, məktəbdə 120 şagird təhsil almış, onlardan 10-u Qubadlı kəndinin, 110-u isə ətraf kəndlərin sakinlərinin uşaqları idi.

Qubadlı kənd məktəbinin hələ 1896-cı ildə məktəbin divarlarında çatlar olmasından qəzalı olduğu, sinif otaqlarının dar olması, hər partada 4 şagird oturması, istilik sisteminin qoyulması üçün yer olmaması, otaqların qaranlıq və rütubətli olması haqqında yuxarı orqanlara məlumat verilsə də, heç bir tədbir görülməmişdir. Yeni məktəb binasının tikilməsi haqqında yazışmalar 1904-cü ilədək davam etdi. Çarizmin müstəmləkəçi təhsil siyasəti bu məktəbdə də özünü göstərmişdir: 1906-cı ilin sonuna olan məlumata görə müəllimlər artıq 10 aydır ki, əmək haqqı almırdı.

1914-1915-ci tədris ilində məktəb artıq öz şəxsi binasında yerləşirdi. Məktəbdə bir nəzarətçi, üç müəllim fəaliyyət göstərirdi. Məktəbin nəzarətçisi Q.Sultanov, şəriət müəllimi A.Zülfüqarbəyov, müəllimlər N.Levyavin, N.Moiseyev idi. 132 şagirddən 131-i azərbaycanlı, 1-i xristian idi. Onlardan 14-ü bəy, 5-i ruhani, 131 kəndli uşağı idi. Şagirdlərdən 41-i hazırlıq, 27-si birinci sinfin birinci, 23-ü ikinci, 20-si üçüncü, 10-u ikinci sinfin dördüncü, 11-i beşinci şöbəsində təhsil alırdı. I Dünya müharibəsi ilə əlaqədar 1914-1915-ci tədris ilinin sonunda məktəbdə 103 şagird qalmışdır. Bu məktəbdə 1914-cü ildə bağçılıq üzrə kənd təsərrüfatı şöbəsi açılmış, məktəbin ərazisində meyvə ağacları əkilmişdir.

Tədqiqatlardan aydın olur ki, bölgənin kəndlərində dünyəvi təhsilin yayılmasında təlimin rus dilində aparıldığı kənd məktəbləri böyük rol oynamışdır. Çarizm xalq maarifi sahəsindəki mürtəce siyasəti ilə kənd məktəblərinin inkişafının və genişlənməsinin qarşısını almağa çalışsa da, Xalq Məktəblər Müdiriyyətinin və Cənubi Qafqaz Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin təşkili, seminariyada müəllim kadrlarının hazırlığı kənd məktəblərinin təşkilinə və tədricən genişlənməsinə rəvac verdi. Digər məktəblərdə təhsil haqqının yüksək olması, kəndlərdən uzaqda yerləşməsi, silki xarakter daşıması, bir çox bürokratik əngəllərin mövcudluğu baxımından kənd məktəbləri xalq arasında dünyəvi təhsili yayan, demək olar ki, yeganə təhsil müəssisələri olmuşdur.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 136-139
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 136-139
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Taleh Əliyev**
AMEA Arxeologiya,
Etnoqrafiya və Antropologiya İnstitutu
tarix üzrə fəlsəfə doktoru
taleh.ali@mail.ru

# ZƏNGƏZURUN MÜDAFİƏ İSTEHKAMLARI

***Açar sözlər:*** *qala, istehkam, orta əsrlər, Zəngəzur, arxeologiya*
***Keywords:*** *castle, fortification, middle ages, Zangazur, archaeology*

Azərbaycanın tarixi torpağı Zəngəzur antik və ilk orta əsrlərdə Qafqaz Albaniyasının tərkibində olmuş, orta əsrlər mərhələsində isə ardıcıl olaraq Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi dövlətlərinin inzibati ərazisinə mənsub idi. Orta əsrlər boyu Zəngəzur ərazisində müdafiə istehkamları inşa edilmişdir (Musa Kalankatuklu, 2006: 378).

*Lök qalası (Kəlbəcər)* Tərtər çayının sol kənarında təxminən 5 km məsafədə, Kəlbəcərin Lev kəndinin ərazisində yerləşir. Qaladan Kəlbəcər rayon mərkəzinə təxminən 20 km məsafə vardır. Qala əzəmətli və nəhəng bir qayalıq üzərində ucaldılmışdır. Qalaya bir yerdən – daşlar üzərində açılmış dar cığırdan ibarət yol var. Bu yolun sərt döngəsində kiçik bir gözətçi yeri düzəldilmişdir. Gözətçi yeri elə ustalıqla düzəldilib ki, burada gizlənən və ya gözətçilik edən bir nəfər belə təkbaşına böyük bir dəstəni adi uzun ağacla itələyib uçurumdan, sərt qayadan sala bilər (Bağırzadə, 2018: 256; Məmmədov, Məmmədzadə, 2022: 282).

Qalanın inşasında, əsasən, yerli çay daşlarından, qara daşlardan və əhəng məhlulundan istifadə edilmişdir. Qaya üzərində inşa edilmiş Lök qalasının divarları qayanın ətrafı boyunca dövrələnmişdir. Qala divarları əksər yerlərdə dağılmış vəziyyətdə olsa da, öz əzəmətliyini saxlamaqdadır. Qala divarlarının hündürlüyü üzərində olduğu qayanın relyefinə görə dəyişsə də, əsasən, 5-6 metr təşkil edir. Divarların eni təqribən 1-1,5 metrdir. Qalanın içərisində qayalar bir neçə yerdən çapılmış, oyulmuş və nəhəng quyular qazılmışdır. Görünür bu quyularda ərzaq və ilk növbədə su ehtiyatı saxlanırmış. Ətrafdakı hündür dağdan qalaya su borusu çəkilmişdir. Lök qalasının sol tərəfində, Tərtər çayının qollarından biri olan Lev çayı görünən

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 136-139**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 136-139**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

istiqamətdə qarşı tərəfdən açıq, bir-birinə yaxın iki mağara vardır. Bu mağaralar ərzaq ehtiyatını uzun müddət xarab olmadan və keyfiyyətini itirmədən saxlamaq üçün düzəldilmişdir. Yerli əhalinin verdiyi məlumata görə, bu mağaralarda ət, süd məhsulları və s. kimi ərzağı uzun müddət saxlamaq olur (Bağırzadə, 2018; Məmmədov, Məmmədzadə, 2022).

Lök qalası yaxınlığında Xos meşəsi adlanan yerdə xristian məbədinin divar qalıqları və çoxlu sayda məzar daşları vardır. Məbədin divarlarında Qafqaz Albaniyasının xristian abidələrində rast gəlinən zambaqvari güllü xaç işarələri həkk edilmişdir. Məzar daşlarında da eyni xaç işarələri vardır. Lakin qalanın özündə nə məzar daşlarına, nə də ki, xristian xaç işarələrinə təsadüf edilməmişdir. Çox güman ki, dini ayinlər qaladan kənarda bəhs etdiyimiz meşə ərazisində icra olunmuş, ölüləri burada dəfn etmişlər (Bağırzadə, 2018; Məmmədov, Məmmədzadə, 2022).

Qalada müxtəlif dövrələrə aid şirli və şirsiz saxsı qabların qırıntılarına rast gəlmək olur. Bununla da aydın olur ki, Lök qalasında uzun yüzilliklər boyu yaşayış olmuşdur. Qalanın içərisində binalar qalmasa da, çoxlu kalafa yerləri vardır. Güman etmək olar ki, bu kalafa yerləri vaxtilə burada mövcud olmuş bina, ev və ya otaqların bünövrə yerləridir. A.M.Məmmədovun və C.V.Bağırzadənin fikrincə, qala V-VIII əsrlərdə intensiv istifadə olunmuş, IX-XIV əsrlərdə də orada həyat davam etmişdir (Bağırzadə, 2018; Məmmədov, Məmmədzadə, 2022).

*Comərd qalası* Kəlbəcər rayonunda eyniadlı kənddən yuxarıda yerləşən qayalığın üzərində tikilmişdir. Qalanın Tərtər çayına sarı olan sol tərəfinin altı elə hündür sərt qayalıqdır ki, bura quşdan başqa heç bir canlı çıxıb enə bilməz. Qalanın sağ tərəfində uca çıxılmaz qalın divarlar hörülmüşdür. Burada dağıntı Lök qalasına nisbətən daha çoxdur. Comərd qalasının təbii mövqeyi istehkam – müdafiə qabiliyyəti baxımından olduqca güclüdür. Qalaya at və digər minik heyvanları ilə çıxmalı olsan və ya yaxınlaşmaq istəsən də, yenə ən azı təqribən 500 metr məsafəni dik yamacla mütləq piyada çıxmalı olursan. Qaladan xeyli aşağıda yol aşırımında artıq məzar daşları torpağa batıb görünməz olan qəbirstanlıq vardır. Bu əzəmətli qala sığınacaq, mühafizə və müdafiə məqsədilə inşa edilmişdir. Comərd qalasının divarlarının inşa xüsusiyyətləri Lök qalası ilə eynidir və V-IX əsrlərə aiddir (Bağırzarə, 2018; Məmmədov, Məmmədzadə, 2022).

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 136-139**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 136-139**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*Qaraçanlı qalası* Kəlbəcər rayon mərkəzindən təqribən 8 km aralıda, Tərtər çayının sağ sahilində, üstü qismən düzəngah olan qayalıqlar üzərində inşa edilmişdir. Qalanın giriş tərəfində daşdan hörülmüş qapı divarının bir yanı salamat olaraq dövrümüzə qədər qalmışdır. Qalaya çıxmağa mümkün olan yerlər hasar divarları hörülməklə keçilməz edilmişdir. Qaraçanlı qalasının gizli bir su yolu yarı dağılmış vəziyyətdə qalmaqdadır. Qalanın sağ yanında Qaraçanlı çayına qədər böyük bir çınqıllıq vardır. Qalanın alt tərəfindən bu çınqıllığın içi ilə üstü daş sallarla örtülmüş bir yol salınmışdır. Bu gizli yol çayın göllənən yerinə qədər enir. Yol gölün üstünə əyilən qayanın altından çıxdığına görə buranı ətrafdan görmək mümkün deyil. Qaraçanlı qalasının yaxın ətrafındakı ərazidə ilk orta əsrlər dövrünə aid zəngin arxeoloji abidələr mövcuddur. Bunlar əsasən alban xristian qəbir abidələri, kilsə – monastr kompleksləri və s-dir. Qala ilk orta əsrlərə aiddir (Bağırzadə, 2018; Məmmədov, Məmmədzadə, 2022).

*Laçın qalası* Kəlbəcərin Laçın kəndi yaxınlığında eyni adlı, hündürlüyü təxminən 200 metrə çatan və üstü düzənlik olan nəhəng və əzəmətli qayanın üzərində ilk orta əsrlər dövründə inşa edilmişdir. Bu qala Tərtər çayının sağ sahilində qalın meşə yamacında yerləşir. Qalanın yerləşidiyi Laçın qayasının sərt sıldırım olması həmin abidəyə çıxmağa imkan vermir. Çox güman ki, qayanın içərisində qalaya gizli yol varmış. Yerli əhalinin verdiyi məlumata görə Laçın qaya abidəsinin yaxın ətrafından müxtəlif saxsı məmulatları, dəmir, mis məişət, bəzək əşyaları və s. tapılmışdır. Qala IV-IX əsrlərə aiddir (Bağırzadə, 2018; Məmmədov, Məmmədzadə, 2022).

*Bağırlı qalası.* Kəlbəcər rayonunun Bağırlı kəndinin yaxınlığında meşəlik ərazidə ilk orta əsrlər dövrünə aid yaşayış yerinin – qalanın xarabalıqları durmaqdadır. Bu abidə yaşayış və ya sığınacaq binasının və qala divarının qalıqlarından ibarətdir. Abidənin xeyli hissəsi torpaqda qalmışdır. Binanın quruluşu və ilkin müşahidələr onun dini abidə – məbəd olması ehtimalını da irəli sürməyə imkan verir. Abidənin yerləşdiyi ərazi strateji baxımdan olduqca əlverişli yerdədir. Coğrafi mövqeyi və digər arxeoloji nümunələr ilk orta əsrlərdə burada möhtəşəm istehkam olmasını göstərir (Bağırzadə, 2018; Məmmədov, Məmmədzadə, 2022).

*Oxçu qalası* Qafan rayonunda Oxçuçay və Kığı çaylarının qovuşan yerində Novruzyurd adlı hündür bir təpəliyin üstündədir. Bu qala

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngəzurun iki zirvəsini bir-birindən ayıran hərbi-strateji baxımdan əhəmiyyətli bir mövqedə yerləşmişdir. Qalanın inşa olunma tarixi VI-VII əsrlərə aid edilir. Qalanın tədqiqi göstərir ki, bu, istehkam xarakterli tikili olmuşdur. Son vaxtlara kimi Oxçu qalasının 17 bürcü qalmaqda idi. Ümumiyyətlə, qalanın 26-27 bürcü olduğu güman edilir. Qalanın iki tərəfi sıldırım, digər iki tərəfi isə ikiqat hasar divarları vasitəsilə ətraf ərazilərdən ayrılır. Oxçu qalası vulkanik yonulmamış daşlarla, əhəng məhsulu vasitəsilə tikilmişdir. Bu qala ilə üzbəüz Oxçu çayının digər sahilində başqa bir (çox güman ki, keşikçi) qalanın qalıqları vardır. Oxçu qalası uzun illər Qafqaz Albaniyasının Sünik-Sisakan əyalətinin mərkəzi kimi fəaliyyət göstərmişdir. Qala XII əsrdə dağıntılara məruz qalsa da, yenidən bərpa edilmişdir (Mxitar Qoş Alban salnaməsi (XI-XII əsr), 1993).

Beləliklə, Azərbaycanın Zəngəzur ərazisi müdafiə istehkamlarının memarlığı baxımından orta əsr üslublu qalaların səciyyəvi xüsusiyyətlərini özündə daşıyır. Azərbaycan xalqının maddi-mədəni irsinin bir hissəsi olan Zəngəzur qalaları mühüm tarixi əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Musa Kalankatuklu. Alban tarixi. (2006). Bakı: Avrasiya Press, 378 s.
2. Bağırzadə, C.V. (2018). Tərtərçay vadisi IV-XIII əsrlərdə (tarixi-arxeoloji tədqiqat). Bakı: Elm və təhsil, 256 s.
3. Məmmədov, A.M., Məmmədzadə, H.A. (2022). Qarabağ və Şərqi Zəngəzur III-XVIII əsrlərdə. Bakı, 282 s.
4. Mxitar Qoş Alban salnaməsi (XI-XII əsr). (1993). Bakı, s.239-264.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 140-142**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 140-142**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Flora Məmmədova**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
coğrafiya üzrə fəlsəfə doktoru
flora-mammadova@mail.ru
**Məzahir Təhməzov**
Bakı, Azərbaycan
mezahir.58@mail.ru

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ-COĞRAFİ RAYONLARININ MİNERAL-TERMAL SULARININ TİBBİ-TOPONİMİK TƏDQİQİ

***Açar sözlər:*** *Qarabağ, mineral-termal sular, hidronimlər, tibbi toponimika*
***Keywords:*** *Karabakh, mineral-thermal waters, hydronyms, medical toponymy*

Təbiət və cəmiyyətin inkişafının qarşılıqlı problemlərinin həllində biliklərin inteqrasiyası dünya elminin müasir mərhələsinin xarakterik xüsusiyyətlərindəndir. Bu məsələnin həllində müxtəlif elm sahələrinin qovşağında yaranan yeni elmi istiqamətlərin nəzəri-praktiki əsaslarının sıx əlaqəsini tapmaq tələb olunur. Belə sahələrdən biri tibb və səhiyyə ilə əlaqəli yaranan coğrafi adları öyrənən tibbi toponimikadır. Azərbaycan toponimiyasında müalicə müəssisələrinin, tibbi sahədə tanınmış mütəxəssislərin, xəstəliklərin və s. adları ilə yaranan toponimlər müəyyən qədər öyrənilmişdir. Lakin bu adlar ayrıca tədqiqat sahəsi kimi tibbi-toponimik istiqamətdə araşdırılmamışdır (Təhməzov, 2011: 543).

Azərbaycan toponimiyasında tibbi adları özündə ən çox əks etdirən təbii obyektlər hidroobyektlərdir (çaylar, göllər, bulaqlar və s.). Tədqiqatda Qarabağ və Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonlarının mineral-termal su adları (hidronimlərə) tibbi-toponimik baxımdan araşdırılmışdır. Əsas məqsədimiz diqqəti mineral-termal su adlarının tibbi-toponimik baxımdan tədqiqinə, həmçinin işğaldan azad olunmuş ərazilərdə yeni müalicə əhəmiyyətli su mənbələrinin aşkarlanmasına yönəltməkdir. Hidronimlər əsasında yeni mineral-termal su

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

qaynaqlarının tapılması regionda müalicə turizminin inkişafına və sanatoriya-istirahət sahələrinin genişləndirilməsinə yeni imkanlar yaradar.

Mineral bulaqların adları suyun kimyəvi tərkibinə, keyfiyyətinə, müalicəvi əhəmiyyətinə və s. xüsusiyyətlərinə görə tarixən burada yaşamış yerli əhali tərəfindən verilmişdir.

*Dadına görə adlandırılan bulaqlar.* Bir çox bulaqlar mineral maddələrin təsiri ilə müəyyən dada və iyə malik olurlar. Ərazidə 37 "Turşsu", 5 "Duzlu", 20 "Şor" adlı bulaq qeydə alınmışdır.

*Qoxusuna görə adlandırılan bulaqlar*. Ərazidə "İyli" adlı 6 bulaq var (Təhməzov, 2013: 503).

*Xəstəliklərə görə adlandırılan bulaqlar*. Regionda "Qotur" adlı 10 bulaq qeydə alınmışdır. Bu bulaqların suyundan müxtəlif dəri xəstəliklərinin (xüsusilə qotruluq xəstəliyinin) müalicəsində istifadə edilir.

"Sarılıq bulağı"nın adı isə sarılıq xəstəliyinə tutulmuş insanlara şəfaverici xüsusiyyətlərinə görə verilmişdir.

*İnsan orqanları ilə adlandırılan bulaqlar*. Bəzi bulaqların adları birbaşa insanın müxtəlif orqanlarına şəfaverici xüsusiyyətlərinə görə verilmişdir (Baş suyu, Göz bulağı, Diş suyu, Mədə bulağı və s.).

*Mineral adları ilə adlandırılan bulaqlar*. Ərazidə bəzi bulaqlar tərkibində müəyyən mineral maddələrin olmasına görə adlandırılmışdır (Dəmirli bulaq, Civəli bulaq, Neftli bulaq).

*Termomineral sular*. Regionun mineral-termal suları termometamorfik mənşəlidir (Əliyev, 2000: 325). Bəzi termomineral bulaqıların adları suyun hərarətinə görə verilmişdir. Ərazidə 15 "İsti", "Qaynar", "Qaynarca", "İlıqsu" adlı bulaq qeydə alınmışdır.

Aşağıdakı cədvəldə mineral-termal suların rayonlar və kəndlər üzrə yerləşməsinə aid nümunə verilmişdir.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 140-142
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 140-142
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Cədvəl.**

**Qarabağ və Şərqi Zəngəzurun mineral-termal bulaqları**

| S. № | Bulaqlar | Kəndlər |
|---|---|---|
| **Kəlbəcər rayonu** | | |
| 1. | Aşağı İstisu, Fonatn | Xoləzəy |
| 2. | Böyük Qotur su, Neftlı b., Turş su | Əsrik |
| 3. | Dəmirli b. | Mərcimək |
| 4. | Qoturlu İstisuyu | Çorman |
| **Laçın rayonu** | | |
| 5. | Əhmədli b., Mədəsuyu b-ğı., Turşsu b-ğı., Şorsu b-ğı., Göz b-ğı., Qotursu b-ğı., İstisu b-ğı., Yel suyu | Əhmədli |
| 6. | Göz b-ğı., İlıqsu, Minkənd İstisuyu | Minkənd |
| 7. | İstisu b-ğı., Turşsu b-ğı. | Qarakeçdi |
| 8. | Mineral b. | Mişni |
| **Qubadlı rayonu** | | |
| 9. | Sarılıq b-ğı. | Dəmirçilər |
| 10. | Qazlısu b-ğı. | Qızılca |
| 11. | Qotursu | Tağlı |
| **Şuşa rayonu** | | |
| 12. | Dərman b. | Şırlan |
| 13. | Şor b. | Malıbəyli |

## Ədəbiyyat

1. Təhməzov, M.O. (2011). Kəlbəcər. Ensiklopedik məlumatlar. Toponimlər-fotoşəkillər-xəritələr. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 543 s.
2. Təhməzov, M.O. (2013). Kəlbəcər. Ensiklopedik məlumatlar. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 503 s.
3. Əliyev, F.Ş. (2000). Azərbaycan Respublikasının yeraltı suları, ehtiyatlarından istifadə və geoekoloji problemləri. Bakı, 325 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 143-146**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 143-146**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Baxış Ələsgərov**
ADPU-nun Ağcabədi filialı
tarix üzrə fəlsəfə doktoru
elesgerov.adpu@ mail.ru
**Araz Əliyev**
ADPU-nun Ağcabədi filialı
ani.eliyev.95@bk.ru

# AZƏRBAYCANIN TARİXİ ƏRAZİSİ OLAN ZƏNGƏZURUN TARİXİ VƏ SİYASİ-COĞRAFİ VƏZİYYƏTİ

***Açar sözlər:*** *Zəngəzur, Zəngi, mahal, qəza, türk*
***Keywords:*** *Zangazur, Zangi, mahal, ghaza, turk*

Zəngəzurumuz Azərbaycanın zəngin tarixi keçmişə malik olan qədim yaşayış yerlərindən biridir. 410 min km2 ərazisi olan geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində yəni 86.6 min km$^2$ ərazidə qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də XX yüzilliyin əvvəllərindən sonra Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır (Azərbaycan tarixi. Ən qədim zamanlardan XX əsrədək, 1994).

Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Midiya şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Qafqaz Albaniyası dövlətinin tərkibində olub. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradılmış, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirilmişdi. VII əsrin əvvəllərində Bizans imperatoru II İraklinin Sasani şahənşahı II Xosrov Pərvizə qarşı apardığı müharibədə qalib gəlməsi fars hakimiyyətinə tabe olan ölkələrdə müstəqillik meyillərini gücləndirdi. Nəticədə, Sünik knyazlığı da müstəqil oldu. Moisey Kalankatlı “Albaniya tarixi” əsərində VII

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcud olduğunu qeyd edir. Qədim dövr mənbələrində bu region Sisakan, yaxud Sünik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan sakların adı ilə bağlı olduğunu yazırlar (Moisey Kalankatuklu, 1993).

Alban tarixçisi Moisey Kalankatuklu “Albaniya tarixi” əsərində bu ərazidə yaşayan alban tayfa birlikləri barəsində, eyni zamanda qar-qarlar, xəzərlər, hunlar və digər türk tayfaları haqqında da məlumat verir. Azərbaycan Albaniya dövlətinin şərq hissəsini təşkil edən Zəngəzur Araz çayı boyu ilə Mehridən başlayaraq, Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərguşad dağlarınadək olan geniş ərazini əhatə edir. VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunmuşdur. Ərəb xilafətinin zəifləməsi dövründə isə keçmiş Albaniya ərazisində kiçik Azərbaycan feodal dövlətləri yaranmışdır (Məmmədov, 2005).

Monqol ağalığı zamanı Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninin tərkibinə daxil idi. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk səfəvilər dövründə davam etmişdir. “Zəngəzur” termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. “Zəngəzur” toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə “sur” daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Sisyan isə Naxçıvan əyalətinə daxil idi. Zəngəzurun Gorus və Kaştaq (Laçın) mahalları isə Qarabağ vilayətinin bir hissəsi idi. 1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi zamanı Azərbaycanın böyük hissəsini ələ keçirən osmanlılar Naxçıvan əyalətini Sisyan və Qapanat mahalları ilə birlikdə Azərbaycan vilayətinin tərkibindən çıxarıb, Çuxursəd vilayətinin tərkibinə keçirdilər. Qapanat mahalı Bərgüşad və Urud livalarına bölündü. Sisyan mahalından Kiçik Bazarçay nahiyəsi ayrıldı. Qapanat və Zəngəzur əraziləri Çuxursədin Bayazid və Alaşkert vilayətləri ilə birlikdə ayrıca Bayazid livasını təşkil etdilər. Keştaq və Həkəri mahalları Qarabağ (Gəncə) əyalətinin tərkibinə daxil idi. I Şah Abbas XVII əsrin əvvəllərində Azərbaycan torpaqlarını geri aldıqdan sonra Naxçıvan, Qapanat və Bərgüşadı yenidən Azərbaycan vilayətinin tərkibinə daxil etmiş, Bazarçay nahiyəsi isə Sisyana birləşdirilmişdi.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 143-146
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 143-146
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

XVII əsrin 30-cu illərinin sonuna yaxın Naxçıvan və Sisyan mahalları Çuxursəd bəylərbəyinin tərkibinə qatıldı. Osmanlılar XVIII əsrin 20-ci illərində yenidən Azərbaycanın çox hissəsini ələ keçirmişdilər (Azərbaycan tarixi, 1961).

20-30-cu illərin Osmanlı hakimiyyəti dövründə Zəngəzur torpaqlarının bir hissəsi – Sisyan və Meğri Çuxursəd vilayətinə, Bərgüşad, Həkəri, Keştaq, Guləndər nahiyələri və Keştakın bir hissəsi Gəncə-Qarabağ əyalətinin tərkibində idi. 1735-ci ilə kimi bütün Azərbaycan torpaqlarını osmanlılardan geri alan Nadir xan Əfşar, 1736-cı ildə Muğan qurultayında şah elan edilməsi zamanı Qarabağ (Gəncə) bəylərbəyi Ziyadoğulları onun şah seçilməsinə qarşı çıxdığına görə, Qarabağ məlikliklərini bəylərbəyliyin tabeçiliyindən çıxarıb, Azərbaycan hakimi təyin edilmiş qardaşı İbrahimin tabeçiliyinə keçirmişdi. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra onun imperiyası xırda dövlətlərə – xanlıqlara parçalandı. Zəngəzur ərazisi Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığının tərkibinə daxil oldu. İnzibati-ərazi vahidi kimi, Zəngəzur XIX əsrin birinci qərinəsinin sonunda meydana çıxmışdır (Azərbaycan tarixi, 1988-2001).

1813-cü il Gülüstan müqaviləsinə əsasən, bu ərazilər Rusiyanın işğal etdiyi ərazilərə daxil edilmişdir. 1822-ci ildə ruslar Qarabağ xanlığını ləğv edib, onu Müsəlman əyalətləri hərbi dairəsinin tərkibində bir əyalətə çevirdikdən sonra, 30-cu illərin əvvəllərində bu əyalətin tərkibində 9 minbaşılığı birləşdirən iri Zəngəzur mahalı təşkil olundu. Bunlar keçmiş Sisyan, Tatev, Zəngəzur, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Meğri-Güney və Çavundur (Çuldur) mahalları idi. 1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati bölgüyə görə, Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində keçmiş Zəngəzur mahalı iki sahəyə – Zəngəzur və Meğri sahələrinə bölündü. 1846-cı ilin yeni ərazi-inzibati bölgüsünə görə, Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı (Piriyev, 2006). İrəvan quberniyasının təşkil olunması ilə əlaqədar olaraq Zəngəzurun cənub hissəsi Meğri sahəsi (Qapan, Meğri-Güney, Çavundur və Püsyan mahalları ilə birlikdə keçmiş Qapanat əyaləti) 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibində oldu. 25 fevral 1868-ci ildə Yelizavetpol quberniyası yaradılarkən Bakı quberniyasının Şuşa qəzasının və İrəvan quberniyasının Naxçıvan qəzasının ərazilərinin bir qismi hesabına Zəngəzur qəzası yaradıldı. Bu qəza İrəvan

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

quberniyasının Şərur-Dərələyəz və Naxçıvan, Yelizavetpol quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl qəzalarının əhatəsində, Araz çayı ilə İranla həmsərhəd idi. Yelizavetpol quberniyasına daxil olan qəzalar içərisində ərazicə ən böyüyü Zəngəzur qəzası idi. XIX əsrin sonlarında Zəngəzur qəzasının ərazisi 7,83 min kv.km olmuşdur. Zəngəzur tarixən 4 sahəyə – Güney (Meğri), Qafan, Zəngəzur (Gorus) və Sisyan (Qarakilsə) mahallarına bölünürdü (Azərbaycan Sovet Ensiklopediyası, 1976-1987).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdir. Zəngəzurun ərazisinin böyük bir qismi 1918-1920-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, yalnız 1921-ci ildə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati-ərazisinə daxil edilən Zəngəzur qəzası yaradılmışdır. Azərbaycan SSR-in tərkibində qalan Zəngəzurun Şərq hissəsi Qubadlı qəzasına çevrildi. 1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzasının tərkibində göstərilir. İnzibati ərazi bölgüsünə görə, Şərqi Zəngəzurun ərazisi Azərbaycanın Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını və Qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Meğri rayonlarının ərazilərini əhatə edir. Ermənistan Respublikası özü 1918-ci ildə Azərbaycan torpaqları hesabına yaranmış dövlətdir və Zəngəzurun erməni torpağı olması barədə əsla söhbət gedə bilməz (Azərbaycan tarixi, 1961).

## Ədəbiyyat

1. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). (1994). (Z.M. Bünyadov və Y.B.Yusifovun red. ilə).
2. Moisey Kalankatuklu. (1993). Albaniya tarixi. Bakı.
3. Məmmədov, İ. (2005). Azərbaycan tarixi. Bakı.
4. Azərbaycan tarixi. (1961).
5. Azərbaycan tarixi. (1988-2001). Yeddi cilddə. Bakı.
6. Piriyev, V. (2006). Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı.
7. Azərbaycan Sovet Ensiklopediyası. (1976-1987). Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 147-151**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 147-151**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Təhminə Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialı
tarix üzrə fəlsəfə doktoru
tehmine.eliyeva@quba.adpu.edu.az
https://orcid.org/0009-0001-2520-4371

# XIX ƏSRİN SONLARINDA ZƏNGƏZUR VƏ QARABAĞ BÖLGƏSİNDƏ RUSİYANIN ERMƏNİ MƏNŞƏLİ ƏHALİNİN ARTIRMASININ NƏTİCƏLƏRİ

***Açar sözlər:*** *Azərbaycan, qəza, Zəngəzur, qiyam, qırğın*
***Keywords:*** *Azerbaijan, accident, Zangazur, uprising, massacre*

XIX əsrin sonlarından başlayaraq ermənilərin Rusiya tərəfindən xüsusi himayə olunması gücləndi. Hər il nəşr olunan Qafqaz təqvimin verdiyi bilgilərə görə, 1880-ci ildə İrəvan quberniyasında yaşayan 539 min əhalinin təxminən 210 min nəfəri (təxminən 40%) türk-müsəlman idi. İrəvan şəhərində 1896-cı ilin statistikasına əsasən, 14,7 min nəfər əhalinin 7,2 min nəfəri (təxminən 49%) türk, 7,1 min nəfəri erməni idi. İrəvan qəzasında isə 99 min nəfər əhalidən 52,8 min nəfəri (53,4%) türk, 36,4 min nəfəri (36.8%) erməni idi. 1916-cı ilin yanvar statistikasına görə, İrəvan qəzasında 74,2 min nəfər (48%), Zəngəzur qəzasında 119,5 min nəfər (53,3%), Sürməli qəzasında 45,9 min nəfər (43,9%) və Yenibəyazid qəzasında isə 50,7 min (29,2%) nəfər türk yaşayırdı (Paşayev, 2011: 102).

Müsəlman əhalisi arasında təbii artmın yüksək olmasına baxmayaraq, XIX əsrin əvvəlləri ilə müqayisədə XX əsrin əvvəllərində adı çəkilən bölgələrdə ermənilərin sayının durmadan artmaqda davam etməsi və müsəlmanları üstələməsi birbaşa Rusiya hökuməti tərəfindən məqsədli şəkildə həyata keçirilən köçürmə və eyni zamanda müsəlmanlara qarşı həyata keçirilən diskriminasiya siyasəti ilə bağlı idi. Sonrakı mərhələdə Rusiyanın bölgədə əsas dayağı olan ermənilərin türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi irqi, milli və dini diskriminasiya, soyqırımı və deportasiya aktları bölgənin demoqrafik vəziyyətində ciddi dəyişikliklərə yol açdı.

Ermənilərin Qafqaz və ona bitişik bölgələrdə türk-müsəlman əhali-sinə qarşı zaman-zaman törətdikləri soyqırımı aktları və

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

deportasiyaların xronikasına diqqət yetirdikdə görürük ki, ermənilərin türk-müsəlmanlara qarşı sistemili və geniş miqyaslı hücumları XIX əsin sonu–XX əsrin əvvəllərində başlamış və bu mərhələnin ən dəhşətli dövrü 1905-1906-cı illər olmuşdur. 1905-ci ildə müvəffəqiyyətsizliklə nəticələnən Rus-Yapon müharibəsindən və I Rus inqilabından sonra hökümətin təsir gücünün az olması səbəbindən Rusiya hökumətinin bir milləti digər millətin əleyhinə təşviq etməsi ilə Qafqazın cənubunda olan ermənilər və müsəlmanlar arasında geniş ölçüdə ilk nifrət toxumları səpildi. Cahil xalq ilə din oyunbazları bu təhriklərin qurbanı oldular. Qafqazda müsəlmanlarla ermənilər arasında heç bir məcburedici səbəb olmadan, bu nifrət başladı (Arxiv sənədləri ilə 1914-1918-ci illərdə erməni fəaliyyətləri, 2005: 258).

Birinci erməni-müsəlman toqquşması 1905-ci il fevralın 6-da Bakıda baş verdi. Buna bəhanə azərbaycanlı sakinin daşnaklar tərəfindən öldürülməsi idi. Polisin və ordunun tam fəaliyyətsizliyi ilə Bakıda üç gün davam edən qırğın Azərbaycanın başqa regionlarına keçdi. Münaqişə nəticəsində "128 erməni və 158 azərbaycanlı kəndi dağıdıldı. Müxtəlif hesablamalara görə, həlak olanların sayı 3100 nəfərdən 10000 nəfərə qədər olmuşdur" (Nəvvab, 1993: 238; Sventokhovskiy, 1990: 86).

1905-ci ilin yayında ermənilər Qarabağda da türk-müsəlman əhali ilə savaşa başladı. 16 avqust 1905-ci ildə başlayan müharibə, avqustun 21-də sülh elan edilməsi ilə başa çatdı. Bu müharibədə yüzlərlə azərbaycanlı qətlə yetirilmişdi.

Çox keçmədən ermənilər imkanlı ermənilərin köməyi ilə 1905-1906-cı illərdə Türkiyə və İrandan muzdlu erməni döyüşçüləri gətirib türklərə qarşı yenidən döyüşə başladılar. Müsəlmanların öldürülməsində Rusiya tərəfindən Qarabağa və Şuşa qəzasına təyin edilən generalların da iştirakı olmuşdur. Bunlardan general Qalaşşapov qəddarlığı ilə xüsusən seçilirdi. Yeni döyüşün başlanması üçün bəhanə 1906-cı ilin iyul ayının 12-də bir neçə gün əvvəl ölmüş erməni meyitini generala nişan verərək: "budur bu saat sənin qonşuluğunda müsəlmanlar qətlə yetirmişlər" – deməklə general Qalaşşapovu hərəkətə gətirdilər. O da bəhanə axtardığından dərhal Köçərli məhəlləsini topa tutmaq əmrini verdi. Kazak dəstələri ilə birlikdə 10 minə yaxın daşnak dəstələri azərbaycanlılara qarşı hücuma keçdilər. Azərbaycanlılar igidliklə vuruşaraq ermənilərin daha çox itki verməsinə nail oldular. General Qalaşşapov vəziyyəti belə görüb daha

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

evdən bayıra çıxmadı. Ermənilər bu müharibəni etməzdilər, çünki bu dəfə hökumət qoşununa arxayın idilər. Müsəlmanların mərdanəliyi ermənilərə və hökumət qoşununa məlum oldu. Müharibənin altıncı günü ayın 18-də general Qalaşşapov hər iki tərəfdən bir neçə vəkil götürüb müsəlman hissəsinin fikrini öyrənməyə gəldi. Söhbət zamanı “bir quru barışıqdan ötrü işi bu məqama çıxardınız” – deyib ağladı (Ordubadi, 2007: 52).

Bütövlükdə 1905-1906-cı illərdə ermənilər azərbaycanlılara qarşı azərbaycanlıların yaşadığı bütün məntəqələri əhatə edən irimiqyaslı qanlı əməliyyatlar həyata keçirdilər, yüzlərlə yaşayış məntəqəsini yerlə yeksan edib, minlərlə azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. Məqsəd, bu bölgələrdə yaşayan türk-müsəlmanları qırmaqla gələcəkdə erməni dövləti yaratmaq üçün zəmin hazırlamaq idi. Lakin 1905-1907-ci illərdə törətdikləri qırğınlar da erməniləri sakitləşdirmədi. Onlar Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edərək yenidən mifik “Böyük Ermənistan” dövləti yaratmağa cəhd göstərdilər (Rüstəmova, 2013: 864).

Mir Möhsün Nəvvab 1905-ci il hadisələrindən bəhs edərkən yazırdı: O vaxt ki, böyük dava (1905-ci il) sakit olmuşdu, erməni tayfası müsəlmanların, müsəlmanlar isə ermənilərin bazarına gedir, alış-veriş edirdilər. Hərçənd ki, yollar açıq idi, amma ermənilər yenə düz durmurdular: tək-tək əlsiz-ayaqsız kasıbkar adamları oğurluq ilə tutub öldürürdülər. Müsəlmanlar da onların əvəzini çıxırdılar. Ermənilər müttəsil (arası kəsilmədən), min cür hiylə ilə hər yerdən hərbi sursat gətirərək dava üçün tədarük edirdilər. Onlar əlavə maşınlar, nasoslar, tüfənglər, toplar, barıt, bombalar və başqa silahlar cəm edib, daha çox müharibəyə hazırlaşırdılar. Bununla bərabər, onlar gələcək vuruşmaların üsul və yollarını müzakirə etdikdən sonra belə bir qənaətə gəldilər ki, müsəlmanlara sarsıdıcı zərbə endirmək üçün pul qüvvəsinə hiylə işlədilərək rus ordusunun və silahının ermənilərə kömək göstərməsi təmin edilməlidir. Bu hiyləni həyata keçirmək üçün yeganə yol rus generalını pul ilə ələ almaq idi (Nəvvab, 1993: 79).

Ermənilər İrəvan və onun ətrafında olan yaşayış məntəqələrində xüsusilə qəddarlıq göstərirdilər. Cahangir Zeynalov “Müxtəsər Azərbaycan tarixi” əsərində türklərə qarşı İrəvan şəhərində törədilən soyqırım haqqında aşağıdakıları yazırdı: “İrəvanın bütün türk kəndləri Andranik və Dro adlı erməni gücləri tərəfindən yandırıldı. Qətliamdan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

qaçmağı bacaranlar Gəncəyə sığındı. İrəvan hadisələrinə görə Cənubi Qafqaz Seymi 5-7-19-20 fevral tarixlərində buraya komissiya göndərdi. Araşdırma heyətinin Seymə verdiyi raportda İrəvanda 211 türk kəndinin ermənilər tərəfindən yandırıldığı, 100 minə yaxın müsəlman türkə qarşı qətliam həyata keçirildiyi qeyd edilmişdir. Beləcə əski türk yurdu olan İrəvanda çarlıq zamanında 300 min müsəlman-türkdən hal-hazırda kimsə qalmadığı məlumdur" (Zeynalov, 1992: 111).

Paris Sülh Konfransına gedən Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun hazırladığı "Memorandum"da isə ermənilərin Borçalı və ona bitişik ərazilərdə törətdikləri qırğınların Qafqaz Birliyi ideyasına necə ciddi zərbə vurduğunu ətraflı şəkildə təsvir edilir. Bu sənəddə dövrün ziddiyyətləri və çətinlikləri öz əksini tapmışdı. Azərbaycan nümayəndələri böyük dövlətlərin təmsilçiləri ilə görüşündə Şimali Qafqazın da qoşulması şərtilə Cənubi Qafqaz xalqlarının konfederasiyası fikrinin nəzərdən keçirilməsini, dəyərləndirilməsini təklif edirdilər. Belə biri qurumun yaradılması, 1919-cu ilin yanvarında Paris Sülh Konfransında təsisi planlaşdırılan Millətlər Cəmiyyətinin mandatı altında olan ərazi statusu almağa ümid edə bilərdi. Belə variant konfederasiyanın yaxın gələcəkdə tam müstəqil dövlət olması üçün yaxşı perspektiv vəd edirdi. Lakin erməni silahlı dəstələrinin Göyçə-Zəngəzur və Qarabağ bölgəsində fəallaşması və dinc müsəlman-türk əhaliyə divan tutması, eləcə də 1918-ci ilin noyabrında erməni birliklərinin mübahisəli Borçalı qəzasını tutmaq məqsədilə burada qətliamlar, dağıntılar törətməsi, sonra isə Gürcüstanla müharibəyə başlaması, Hötenin "nəzəriyyə quru, həyat ağacı isə yaşıldır, mənim dostum" deyimi nümunəsində bu ideyanın gerçəkliyə çevrilməsinin asan məsələ olmadığını nümayiş etdirdi (Topchibashev, 1993: 7).

1920-ci ilin yazında ermənilər yenə də Şuşa, Cavanşir, Zəngəzur qəzalarında və onun ətrafında silahlı qiyam qaldırdılar və Əsgəran qalasını tutdular. Azərbaycan milli ordu hissələri bu qiyamı yatırmaq üçün Qarabağa yeridiləndə XI ordu şimal sərhədlərini keçərək Bakıya irəliləməyə başlaması milli ordunun irəliləməsinə mane oldu. Əslində, Qarabağ ermənilərinin qiyamı da XI ordu qərargahından idarə olunur, tapşırıqlar Moskvadan gəlirdi.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Paşayev, A.Ə. (2011). XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı: "Çaşıoğlu" nəşriyyatı, 328 s.
2. Arxiv sənədləri ilə 1914-1918-ci illərdə erməni fəaliyyətləri. (2005). 8 cilddə, II cild, Baş Qərargah. Ankara: Baş Qərargah Mətbuat Evi, 653 s.
3. Nəvvab, M.M. (1993). 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: "Azərbaycan" nəşriyyatı, 128 s.
4. Sventokhovskiy, T. (1990). Russkiy Azerbaydzhan 1905-1920: Formirovaniye natsional'noy samosoznaniya v musul'manskom obshchestve Xazar, 295 s.
5. Ordubadi, M.S. (2007). Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: "Qafqaz" nəşriyyatı, 184 s.
6. Rüstəmova, S. (2013). Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə. Bakı, 864 s.
7. Zeynalov, C. (1992). Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 144 s.
8. Topchibashev, A.M. (1993). Memorandum. Baku: Izdatel'stvo «Azerbaydzhan», 37 s.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 152-154
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 152-154
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Fəridə Kazımova**
Qərbi Kaspi Universiteti
filologiya üzrə fəlsəfə doktoru
fkazmova@internet.ru

# ZƏNGƏZUR TOPONİMLƏRİNDƏ “KİTABİ-DƏDƏ QORQUD” EPOSUNUN İZLƏRİ

***Açar sözlər:*** *Zəngəzur, Oğuz, toponim, epos, coğrafi ad*
***Keywords:*** *Zangazur, Oghuz, toponym, epic, geographical name*

Toponimlər hər bir ərazinin milli və tarixi məxsusluğunun göstəricisidir. Zəngəzur mahalı qayım-qədim oğuz-türk torpaqlarıdır. Bunun ən bariz sübutu Zəngəzur toponimləridir. Zəngəzur ərazisində tariximizin bədiiləşmiş məxəzi “Kitabi-Dədə Qorqud”la səsləşən, yer-yurd, kənd-oba adları geniş yayılmışdır. Qazançı, Ulaşlı, Dondarlı, Qazan bulaq, Qazan zəmi, Oxçu məhəlləsi, Oxçu çayı, Bayandur və s. kimi coğrafi adlar bu ərazinin qədim oğuzlara aid olduğunu göstərən ən mühüm qaynaqlardır. Eləcə də Çəpni, Bayandur, Çavındır, Piçənək kimi toponimlər – Oğuz xanın nəvələrinin adları ilə adlanan coğrafi məkanlar bu ərazilərin qədim sakinlərinin milli və tarixi kimliyindən xəbər verir.

“Kitabi-Dədə Qorqud” toponimlərinin tarixi-coğrafi semantikasında Qərbi Azərbaycan, eləcə də Zəngəzur ərazisi ilə lokalizasiya olunan yerlər üstünlük təşkil edir. Dastana daxil olan toponimlərdən Gökcə dəniz, Gökcə dağ, Ağca qala, Sürməli, Dərəşam, Qazlıq və s. real tarixi məkanlarla eynilik təşkil edir. Bu mənada “Qazlıq” sözünün semantik yükü daha genişdir. Eposda dağ adı (Qazlıq dağ), şəxs adı (Qazlıq Qoca), at adı (Qazlıq at) kimi çıxış edən “Qazlıq” sözü maraq doğurur. Eposun boylarında dəfələrlə Qazlıq dağının adı çəkilir, hadisələrin baş verdiyi məkan olaraq qeyd olunur. Oğuz bəyləri Qazlıq dağına ova çıxırlar, I boyda Dirsə xan oğlu Buğac Qazlıq dağında yaralanır, bu dağın şəfalı təbiəti ona yenidən həyat bəxş edir və s. (Əlizadə, 1999: 35).

“Kitabi-Dədə Qorqud”un coğrafiyasını araşdıran F.Sümər, O.Ş.Gökyay, M. Ergin, V. Bartold kimi alimlər Qazlıq dağı barədə maraqlı fikirlər irəli sürmüşlər. Qeyd edək ki, Qazlıq dağının Qafqaz

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 152-154
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 152-154
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

dağı olması fikri qorqudşünasların araşdırmalarında dönə-dönə vurğulanmışdır. Ən maraqlısı isə budur ki, 1933-cü ildə bərpa olunmuş Qubadlı rayonunda qeydə alınan coğrafi adlardan biri Qazlıq oykonimidir. Qazlıq oykonimi Qubadlı rayonunun Xocahan sovetliyinin tərkibinə daxil olmuşdur (Rüstəmli, 2016: 84). Bu fakt da göstərir ki, "Kitabi-Dədə Qorqud"da əsas real hadisələrin baş vermə arealı Azərbaycanla bağlıdır.

Qubadlı rayonu ərzisində Ulaşlı, Dondarlı, Qazançı, Bayandur, Sisian rayonu ərazisində Buğacıq və s. bu kimi toponimik vahidlər "Kitabi-Dədə Qorqud" eposunda adı keçən oğuz qəhrəmanlarının adı ilə adlanır. Bu qəbildən olan adlar oykonim olmaqla yanaşı dağ, dərə, çay, göl adları kimi də müşahidə olunur. Qazan xanın qardaşı Qaragünə oğlu Qarabudağın adını əks edən Budaqdərə, Zəngilanda Oxçu çayı, Qazan dağı, Qazan gölü, Qazangöl dağı, Qazangöl keçidi, Basutçay (Basat çay da deyilir) və s. toponimik vahidlər oğuz türklərinin bu ərazilərin əzəli sahibi olduqlarının möhürüdür.

Gorus rayonunda Qanlıbel dağı Qanlı Qoca, Molla Uruz bəy binası isə Salur Qazanın oğlu Uruzun adından yaranmış sintaktik quruluşda çıxış edən toponimlərdəndir.

Zəngəzur mahalında "ağ", "qara", "göy" komponentli toponimlərə sıx rast gəlinir. Qara qaya, Ağqaya, Ağ kənd, Ağ göl, Ağvanlı, Ulu bulaq "Kitabi-Dədə Qorqud" dastanından tanıdığımız toponimlərin əks-sədası kimi səslənir.  Ağ qaya, Ağ saz, Ağ meydan, Qara dağ, Uzun pınar və s.  "Kitabi-Dədə Qorqud"da cərəyan edən hadisələrin məkanı olaraq tanınır və bu kimi Azərbaycan toponimləri "Dədə Qorqud kitabı"nın "coğrafi obrazları"dır (Hacıyev, 1999: 3).

Bəzi toponimlər müəyyən fonetik dəyişimlərə məruz qalmışdır. "Bəsitçay" bu qəbildən olan toponimik vahidlərdəndir. Belə ki, "Bəsitçay" – "Basutçay" formasında da səslənməkdədir. Basutçay – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonu ərazisində, indi Syunik vilayətinin ərazisi daxilində çay. Basatçay formasında da işlənir. "Kitabi-Dədə Qorqud" dastanındakı Basat adı ilə bağlı yaranan hidronimdir (Bayramov, 2023: 328).

Ermənilər nəinki xalqımıza, eləcə də yer-yurd adlarımıza qarşı da mədəni terror aktı həyata keçirmiş, davamlı olaraq Qərbi Azərbaycanda və Zəngəzur ərazisində türk mənşəli adları dəyişdirməklə öz məkrli niyyətlərini icra etmişlər.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 152-154**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 152-154**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Toponimlər tariximizi yaşadan adlardır. Zəngəzur toponimlərinin öyrənilməsi elmi əhəmiyyətə malik olmaqla yanaşı, eyni zamanda siyasi mahiyyət daşıyır. Tarixi, coğrafi, linqvistik materiallar əsasında araşdırılan bu toponimik vahidlər ərazinin oğuz türklərinin əbədi və əzəli yurdu olmasının əyani sübutudur.

## Ədəbiyyat

1. Əlizadə, S. (1999). “Kitabi-Dədə Qorqud” dastanı. Bakı.
2. Rüstəmli, Ə. (2016). Zəngəzurun toponimləri – tarixin izi. Bakı.
3. Hacıyev, T. (2019). Dədə Qorqud: Dilimiz, düşüncəmiz. Bakı.
4. Bayramov, İ. (2023). Tarixi Azərbaycan torpağı – Qərbi Zəngəzur. Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 155-157**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 155-157**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Vüsalə Əsədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
vasadova1984@gmail.com
https://orcid.org/0009-0005-4403-1284

# ZƏNGƏZUR TARİXİ OĞUZ ELİDİR

***Açar sözlər:*** *toponim, oğuz torpaqları, Zəngəzur, yurd*
***Keywords:*** *toponym, Oghuz lands, Zangazur, homeland*

"*Hər bir toponim – yer-yurd adı bütöv tarixdir, həm də canlı tarixdir. Torpağın kimə məxsusluğunu onun adından düzgün söyləyən heç bir həqiqət yoxdur. Bu, aksiomdur. Hunud, Xələc, Syvarı, Ağvanlı, Çəpni, Bayandur, Muğancıq, Qapan, Qazan dağ, Şəki, Quşçulu, Oxçu, Komaran, Uz, Yaycı, Çullu, Həyərək, Zəngəzur və s. adlarını yeri gəldikcə çəkdiyimiz toponimlər kifayət etmirmi ki, bu torpaqlar qədim Türk-Azərbaycan torpaqlarıdır?"* (Rüstəmli, 2016: 12) kimi ritorik sualı ilə sübuta ehtiyacı olmayan tarixi həqiqətləri olduğu kimi qiymətləndirir. Ermənilər bu tarixi həqiqəti nə qədər səhifələrdən silinməsi üçün ad oyunu oynasalar da, tarixi gerçəkliyin yox olmasına çalışsalar da alınmadığının sübutun tarixi soykökə malik olan, illərin sınağından alnı açıq çıxan Zəngəzuru və onun qoynunda qan yaddaşı olan yüzlərcə türksoylu adları gələcək nəsillərə çatdırdığının şahidi oluruq. Bədxah Ermənilərin üstündən xətt çəkməyə çalışdıqları hər bir tarixi adın bir elin, bir tayfanın, bir şəxsiyyətin soyuna edilən mənəvi terror olduğunu qeyd etsək, yanılmarıq. Lakin bu torpaqların hər bir qayasında, mahalında, çayında türk xalqının, tayfasının izi, adı, tarixi salnaməsi olduğunu elə ermənilərin özlərinin də fərqində olmadan etiraf etmələri həmin yurdun qədim Oğuz elinin torpaqları olduğunu aydınlaşdırır. "*Hər bir ad o adın qoyulduğu torpağın pasportudur, şahididir. Bu ərazinin, ümumən Ermənistan ərazisinin toponimlərinin türkdilli olmasını göstərən ən mühüm şahidlərdən biri məhz ermənilərin nəşr etdirdiyi "Ermənistan SSR-nin inzibati ərazi bölgüsü" (1975) kitabıdır. Bu kitabın kütləvi tirajla necə varsa nəşr olunması qan yaddaşının unudulmasının qarşısını alardı. Bu kitabı*

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*soyuqqanlıqla varaqlayan hər bir kəs türkizmi görəcək, duyacaq, həqiqəti dana bilməyəcək" (Rüstəmli, 2016: 23; 2).*

Zəngəzur adının Oğuz torpaqları olduğunun sübutunu özündə yaşadan digər bir qaynaq Oğuz elinin tarixi salnaməsi olan *"Kitabi-Dədəd Qorqud"* dastanındakı toponimlərin, tayfa adlarının və Qazan bulaq, Qazan zəmi, Oxçu məhəlləsi, Oxçu çayı, Bayandur, Həyərək (Ərkək) Basatçay və s. kimi onomastik vahidlərin "İç Oğuz"a aid olduğunu göstərən ən mühüm qaynaqlardandır. Digər bir tarixi mənbələri özündə cəmləşdirən, 1926-cı ildə tarixi proseslərə rəğmən çapdan çıxan "Azərbaycan" əsərini misal göstəririk ki, bu əsərin hər bir sətri Azərbaycanın, Oğuz elinin tarixi həqiqətlərini, ərazi və coğrafi mövqeyini tam dəqiqliyi ilə özündə birləşdirərək, həmin torpaqların və tarixin, Azərbaycan xalqına məxsusluğunun tarixi ensklopedik məlumat külliyyatını özündə birləşdirən traktatdır. Əsərin ikinci hissəsi "Etnoqrafiya" bölməsi adlanır və burada: *"Bu türklər Qayı adlanan xüsusi türk tayfalıdır. Ağ hunların övladları hesab olunurlar. Əvvəllər Qərbi Türküstanda yaşamışlar. Qayı türklərinin məşhur qəbilələri bunlardır: Qacar, Əfşar, Zülqədər, Çoban, Baharlı, Padar, Ustaclı, Lək, Xəlilli, Sorsor, Şəfəq, Usallı, Zəngənə, Armalı və qeyriləri"* (Vəlili, 1993: 48) kimi fikir söylənilməklə Zəngəzur mahalının Oğuz elinə aid olduğunu bir daha sübut edir. Oğuz elinin, Oğuz yurdunun Zəngəzur mahalından başlamasının və əsas məskən olmasının, H.Əliyev 1998-ci ildə Konstitusiya Komitəsinin iclasındakı çıxışından gətirdiyimiz statla şərh edə bilərik:

"*Mehri rayonunda böyük bir Nüvədi kəndi var. O, çoxminlik əhalisi olan bir kənddir, sırf azərbaycanlı kəndidir. Nüvədi Arazın sahilində Naxçıvanla Azərbaycanın böyük torpağını ayıran, indi Ermənistanın olan Mehri rayonunda, həmin məsafənin düz ortasında yerləşir. Həmin Nüvədi kəndi də 1929-cu ildə Azərbaycanın tərkibindən Ermənistana verilibdir.*

*Amma Nüvədi tamamilə Azərbaycan kəndi və qədim, çox böyük ənənələrə malik olan bir kənddir. Onu da deyə bilərəm ki, həmin Nüvədi kəndinin əhalisi çox dəyanətli insanlardır. Mənim xatirimdədir, hətta Ermənistanın ərazisindən azərbaycanlıların əksəriyyəti çıxarıldığı halda, 1991-ci ildə onlar Nüvədidən çıxmırdılar. Sonradan onları oradan zorla çıxarıb Zəngilandakı Vejnəli kəndinin yanına gətirdilər. Orada çadırlarda yaşayırdılar. Onlar doğma kəndlərindən çıxmırdılar,*

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

*mübarizə aparırdılar. Onları oradan çıxara da bilmirdilər. Sonradan bir neçə dəfə Naxçıvana mənim yanıma gəldilər, imdad istədilər. Amma mən özüm Naxçıvanı çox çətinliklə qoruyurdum, onlara nə edə bilərdim? Buna baxmayaraq, onda bizim imkanımız var idi, Zəngilan rayonunun Vejnəli kəndinin yanında yerləşən çadırlara, nüvədililərin yanına vertolyot vasitəsilə bir neçə dəfə nümayəndələr göndərdim. Biz oraya müəyyən yardım göndərdik, onlarla əlaqə saxlayırdıq”* (4).

## Ədəbiyyat

1. Rüstəmli, Ə. (2016). Zəngəzurun toponimləritarixin izi. Sumqayıt, 443 s.
2. https://sabaha-inamla.az/siyaset/28455-heydr-liyevin-zngzur-dhlizi-il-bal-cx-ym
3. Vəlili, M. (1993). Baharlı. Bakı: Azərbaycan, 2008 s.
4. Heydər Əliyevin Zəngəzur dəhlizi ilə bağlı çıxışı yenidən gündəm oldu – Video. Sabaha inamla. 19.12.2023

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 158-160**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 158-160**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Leyla Əliyeva**
Sumqayıt Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
leyla_848484@list.ru
https://orcid.org/0000-0002-8195-6092

# ZƏNGƏZURUN TARİXİ ABİDƏLƏRİ

***Açar sözlər:*** *abidə, Zəngəzur, turizm, tarix, qədim*
***Keywords:*** *monument, Zangazur, tourism, history, ancient*

Zəngəzur, tarixi və mədəni zənginliyi ilə tanınan, Azərbaycanın cənub-qərbində yerləşən qədim bir bölgədir. Bu ərazi müxtəlif dövrlərdən qalan saysız tarixi abidələrə ev sahibliyi edir ki, bunlar arasında qədim qalalar, qəbir abidələr, körpülər, məbədlər və qayaüstü təsvirlər xüsusi yer tutur. Zəngəzurun tarixi abidələri, bölgənin zəngin mədəni irsinin və çoxəsrlik tarixinin gözəl nümunələrini təqdim edir. Bu abidələr Zəngəzurun minilliklər boyu Azərbaycanın qədim torpaqlarına aid olduğunun sübutudur. Xüsusilə dağlıq olan bu ərazidə qədim daş dövrünə aid yaşayış məskənləri, qayaüstü rəsmlər, tunc dövrünə aid məzar abidələri və yaşayış yerləri, bundan başqa, Alban dövrünə aid məbədlər, türbələr və yaşayış məskənləri, qəbir daşları və orta əsrlərdən yaşayış sahələri və daha çox tarixi-arxeoloji abidələr aşkar edilmişdir (Müseyibli, Hüseynova, Fərmanlı, 2023: 6).

Zəngəzur bölgəsi özünəməxsus alban mədəni irsi ilə fərqlənir. Bölgədəki alban xristian məbədləri, Azərbaycanın çoxmədəniyyətlilik və dini tolerantlıq tarixinin canlı şahidləridir. Təəssüflər olsun ki, bu nadir və qiymətli abidələr zamanla müxtəlif dağıdıcı faktorlara məruz qalmış, xüsusilə bəzi erməni qruplarınca məqsədli vandalizm əməlləri ilə üzləşmişdir. Bu əməllər nəticəsində alban xristian məbədləri yalnız fiziki məhv edilməyib, həm də mədəni mənsubiyyət baxımından təhrif edilərək özgələşdirilməyə çalışılmışdır.

Şərqi Zəngəzur, tarixi və arxeoloji abidələrin zənginliyi ilə seçilən, Azərbaycanın mühüm bir bölgəsidir. Bu bölgə, Araz, Həkəri və Tərtər çaylarının vadiləri boyunca, həmçinin Dəlidağın ətrafında qədim tarixin fərqli dövrlərinə aid zəngin mədəni izlərə sahibdir. Buna baxmayaraq, Şərqi Zəngəzur, arxeoloji tədqiqatlar baxımından Azərbaycanın ən az öyrənilmiş bölgələrindən biri olaraq qalır. Bu vəziyyətin əsas səbəbləri

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

arasında bölgənin mürəkkəb relyefi və çətin coğrafi şəraitinin olduğu düşünülür. Ərazidəki abidələr, əsasən, XX əsrin 70-80-ci illərində arxeoloqlar tərəfindən aparılan kəşfiyyat-axtarış işləri zamanı qeydə alınmışdır. Bu işlər, bölgədəki tarixi və mədəni mirasın bir hissəsini üzə çıxarsa da, Şərqi Zəngəzurun potensialı hələ də tam olaraq araşdırılmayıb. 1976-cı ildə arxeoloq Qüdrət İsmayılzadənin Kəlbəcər rayonu, Dəlidağın yamaclarında Tərtər çayının yuxarı axarı hövzəsindəki kəşfləri önəmli rol oynayır. Zalxagöl, Qaragöl sahilləri, Ayı çınqılı, Pəri çınqılı və Taxta kimi sahələrdə, dəniz səviyyəsindən 3000 metrə yaxın yüksəklikdə aşkar edilən qayaüstü təsvirlər, tunc dövrünün zəngin mədəniyyətini və insanların bu qədim dövrlərdəki həyat tərzini əks etdirir. Bazalt daşları üzərinə həkk edilmiş bu təsvirlər, insan fiqurları, müxtəlif heyvanlar, öküzlərin qoşulduğu ara-balar və ov səhnələri kimi müxtəlif mövzuları əhatə edir.

Bu təsvirlərlə eyni ərazidə tunc dövrünün əvvəllərinə aid e.ə. III minilliyin başlanğıcına təsadüf edən dairəvi planlı, daş tikililərlə möhkəmləndirilmiş kompakt yaşayış yeri qalıqları da tapılıb. Bu yaşayış yerinin yaylaq maldarlığı təsərrüfatı üçün istifadə edildiyi düşünülür, burada bir neçə ailənin yaşadığı ehtimal edilir. Bu kəşflər, 5 min il əvvəl insanların yüksək dağlıq ərazilərdə məskunlaşdığını və qabaqcıl mədəni həyat sürdüklərini göstərir. Q.İsmayılzadənin bu arxeoloji tapıntıları, bölgənin qədim mədəni mirasının dərinliyini və zənginliyini ortaya qoyur, eyni zamanda Azərbaycanın tarixi və arxeoloji tədqiqatlarında yeni səhifələr açır (Lələdağ, 2021: 13).

Qərbi Zəngəzur, Göyçə gölü hövzəsi və Ordubad rayonundakı Gəmiqaya kimi ərazilərdə tapılan qayaüstü təsvirlər də, Kiçik Qafqazda Azərbaycanın vahid tunc dövrü mədəniyyətinə aid edilir. Bu təsvirlər, həmin dövrün insanlarının mədəni və təsərrüfat fəaliyyətlərinin müxtəlifliyini və zənginliyini göz önünə sərir.

M.Mənsurovun 80-ci illərdə Kəlbəcər rayonunun Zar kəndi yaxınlığında yerləşən mağarada kəşfiyyat işləri aparmışdı. Orta Paleolit dövrünün son və Üst Paleolit dövrünün başlanğıc mərhələsinə aid düşərgənin aşkarlanmışdı. Tapılan müxtəlif tipli daş alətlər, həmin dövr insanlarının həyat tərzi, məskunlaşma və alətlərdən istifadə metodları haqqında dəyərli məlumatlar verir. Elmi əhəmiyyəti odur ki, Azərbaycan ərazisində Üst Paleolit dövrünün nadir və zəif öyrənilmiş mərhələlərinə aiddir (Müseyibli, Hüseynova, Fərmanlı, 2023: 6).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Qoşundaş abidə-məzar kompleksi, Zəngəzurun qədim tarixi və mədəniyyətinin dəyərli şahidlərindən biri kimi, Sisyan rayonunun köhnə Qarakilsə və Qızılcıq kəndləri arasında yerləşən bir yastı təpəlikdə qədim insanların fövqəladə mədəni və dini praktikalarına işıq tutur. E.ə. II minilliyə aid olduğu düşünülən bu kompleks onun quruluşunda istifadə edilmiş nəhəng daşların dairəvi düzülüşü ilə xüsusi diqqət çəkir. Bu abidənin ətrafında tapılan alçaq kurqan və qazma damlarının qalıqları, Qoşundaşın yalnız dini və rituallarla əlaqəli bir məkan olmadığını, həmçinin yaşayış və dəfn məqsədləri üçün də istifadə edildiyini sübut edir. Dam qalıqlarının divarlarının iri qayalarla səliqəli şəkildə hörülməsi və nəhəng sal daşlarla örtülməsi, qədim insanların mühəndislik və memarlıq bacarıqlarının yüksək olduğunu göstərir. Nüvədi kəndində Qarqadaşı dağında aşkarlanan daş kitabələr, Zəngəzurun qədim zamanlardan insan məskəni olduğunu və bu ərazidə yaşamış insanların kimliyini aydınlaşdıran qiymətli maddi abidələrdir. Həmzə Vəli tərəfindən işıq üzü görən bu kitabələr, müxtəlif yazı istiqamətlərinə malikdir və Azərbaycan xalqının ən qədim əcdadları olan qarqarlara aid edilir. Kitabələrdəki yazıların türk və şumer mənşəli olduğu, hətta yazılarda "Şumer" sözünün də işlənildiyi belə bir qədim mədəni kökənə işarə edir, bu da abidənin və onun yazılarının qədimliyini vurğulayır (Urud, 2022: 4).

Zəngəzurun tarixi abidələri Azərbaycanın turizm potensialının inkişafında da mühüm rol oynayır. Bu abidələrə edilən səyahətlər ziyarətçilərə unikal mədəni və tarixi təcrübələr təqdim edir və onlara bölgənin gözəllikləri və zəngin mədəni irsi ilə tanış olmaq imkanı verir. Bu cür turizm, həmçinin yerli iqtisadiyyata müsbət təsir göstərir, yerli əhalinin rifah səviyyəsinin yüksəlməsinə kömək edir və mədəni məkanların qorunub saxlanılmasına dəstək olur.

## Ədəbiyyat

1. Müseyibli, N., Hüseynova, M., Fərmanlı, S. (19 aprel 2023). Şərqi Zəngəzurun tarixi abidələri. “Mədəniyyət” qəzeti, 6 s.
2. Lələdağ, Ə.M. (2 noyabr 2021). Zəngəzurun daş abidələri. “Xalq qəzeti”, 13 s.
3. Urud, M. (8 sentyabr 2022). Zəngəzur qədim dövrdə: abidələr, əsatirlər. “Yeni Azərbaycan” qəzeti, 4 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 161-164**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 161-164**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Yaqub Səmədov**
ADPU-nun Ağcabədi filialı
tarix üzrə fəlsəfə doktoru
yaqub.semedov63@ mail.ru
**Zalxa Səmədova**
Ağcabədi şəhər Tarix-Diyarşünaslıq Muzeyi
semedovazalxa90@ mail.ru

# ANDRONİK OZANYAN TƏRƏFİNDƏN ZƏNGƏZURUN İŞĞALI VƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI (1918-1920-Cİ İLLƏR)

***Açar sözlər:*** *Andronik, erməni quldur dəstələri, daşnaklar, soyqırımı, etnik təmizləmə*
***Keywords:*** *Andronikos, Armenian gangs, Dashnaks, genocide, ethnic cleaning*

1918-ci il may ayının sonlarında Ararat Respublikası elan edildikdən sonra Andronikla yerli hökumət arasında çox kəskin münasibətlər yarandı. Andronik 1918-ci il iyunun 4-də erməni hökumətinin Batumidə Osmanlı Türkiyəsi ilə imzaladığı sülh müqaviləsini "xəyanət" adlandırdı və Ermənistandakı daşnak hakimiyyəti ilə əlaqələri kəsərək "türk işğalçılara" qarşı silahlı mübarizəni dayandırmayacağını bəyan etdi (1). Əgər 1918-ci ilin mayına qədər azərbaycanlı əhaliyə qarşı kütləvi talanlar və vəhşiliklər I Dünya müharibəsində iştirak etmiş erməni hərbi hissələri və yerli ermənilərin quldur dəstələri tərəfindən həyata keçirilirdisə, Ararat Respublikası yaranandan sonra türk-müsəlman əhalinin soyqırımı rəsmi olaraq İrəvanın dövlət siyasəti səviyyəsinə qaldırıldı (İsmayılov, 2017: 7). Türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırımı siyasəti isə çox keçməmiş, qaniçən Andronikla Ermənistandakı daşnak hakimiyyətini vahid cəbhədə birləşdirdi.

Böyük Britaniyanın Qafqazdakı diplomatik nümayəndəliyinin rəhbəri general Tomson Yerevanda Azərbaycan xalqının iradəsinə zidd olaraq Erməni Milli Şurasının 1919-cu il 28 mart tarixli iclasında etdiyi çıxışında belə demişdi: "Zəngəzur Erməni Milli Şurası tərəfindən idarə ediləcək" (Arzumanlı, Həbiboğlu, Muxtarov, 1995: 90). General

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Tomsonun Azərbaycan xalqının iradəsinə zidd olan bu çıxışı da erməni təcavüzkarlarının daha çox əl-qol açmasına şərait yaratdı.

1918-ci ilin ortalarından etibarən artıq, Azərbaycana qarşı erməni təcavüzü geniş miqyas aldı. Zəngəzur torpaqlarında daşnakların törətdiyi qanlı cinayətlərin mərkəzində yenə də qəddar cani və qatil, bu gün isə rəsmi Ermənistan, erməni lobbisi və diasporu tərəfindən "erməni xalqının milli qəhrəmanı" kimi dünya ictimaiyyətinə təqdim edilən tayqulaq general Andronik dururdu (Arzumanlı, 1995: 33).

Belə ki, Azərbaycanın bu bölgəsinin işğalında erməni kəndlərinin silahlı bandalarından əlavə, general Andronikin yaxşı təşkil olunmuş qoşunları da fəal iştirak etdi. Andronik Ozanyana gəldikdə, o, 1912-1913-cü illərdə baş vermiş Balkan müharibəsi zamanı, həmçinin Birinci Dünya müharibəsi illərində 1-ci könüllü erməni korpusunun başçısı kimi rus ordusunun tərkibində Osmanlı Türkiyəsi ərazisində yaşayan dinc müsəlman əhalinin məhv edilməsi ilə bağlı "böyük təcrübə qazanmışdı". Hətta, "bu xidmətinə görə" ona 1917-ci ildə Rusiya Ali Komandanlığı tərəfindən general-mayor rütbəsi də verilmişdi (1).

1918-ci ilin may-avqust aylarından başlayaraq Zəngəzurda Ermənistan Respublikasının türk-müsəlman əhaliyə qarşı etnik təmizləmə siyasəti (Zəngəzur qəzasında soyqırımlar, 1918-1920) dəhşətli fazaya keçəndə Andronikin başçılığı altında erməni quldur dəstələri dinc azərbaycanlıların soyqırımında fəal iştirak etdi.

1918-ci ilin yay və payız aylarında Andronikin quldur dəstəsi Zəngəzura soxularaq azərbaycanlı əhalidən ya Ermənistan hökumətinə tabe olmağı, ya da Zəngəzuru boşaltmağı tələb etdi. Lakin Azərbaycanın digər bölgələrindən ayrı düşmüş silahsız azərbaycanlılar bu həyasız tələbi rədd etdi (Məmmədov, Məmmədov, 2009: 4).

Erməni təcavüzünün konkret olaraq nə vaxt başladığını müəyyənləşdirmək olduqca çətindir. Çünki bundan əvvəl də erməni yaraqlıları vaxtaşırı olaraq Azərbaycan kəndlərinə hücum etmiş, dinc əhalini qırmış, soyub talamış və terrora məruz qoymuşdular. Bu elan olunmamış müharibənin əsas hərbi əməliyyat zonaları Zəngəzur, Qarabağ bütün Erivan quberniyası və ona bitişik əsasən qaçqınlardan ibarət erməni əhalisinin yığcam yaşadığı ərazilər olmuşdur. Daşnaklar bu torpaqları əsassız olaraq özlərinin dədə-baba erməni torpaqları və gələcək "Böyük Ermənistan"ın "ayrılmaz hissəsi" hesab edirdilər (Nəcəfov, 2006: 90).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

1918-1920-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində erməni daşnaklarının türk-müsəlman əhalisinə qarşı törətdikləri soyqırımı bəşər tarixinin ən qanlı cinayətlərindən birini təşkil edir. Xüsusən Azərbaycanın əzəli torpağı olmuş Zəngəzur bölgəsində həmin illərdə erməni cəlladlarının dinc yerli əhaliyə qarşı həyata keçirdikləri qırğınlar və vəhşiliklər öz miqyasına, forma və metodlarına görə tarix boyu insanlığa qarşı yönəlmiş, yaddan çıxarılması və bağışlanılması mümkün olmayan ən qəddar cinayətlərdən biridir (İsmayılov, 2017: 3-4).

FTK üzvü N.Mixaylovun 1918-ci il ərzində Zəngəzur qəzasında törədilmiş vəhşiliklərin təhqiqatı əsasında hazırladığı məruzəsində azərbaycanlı əhalinin soyqırımına məruz qalmasına dair konkret faktlar öz əksini tapmışdır. Andronikin törətdiyi cinayətlər nəticəsində Azərbaycan kəndləri tamamilə yerlə-yeksan edilmiş, 50000 nəfərdən çox müsəlman öz yurd-yuvalarından qaçqın düşmüşdü. Məruzədə dağıdılmış və məhv edilmiş 115 kəndin adı göstərilmişdir. Adı çəkilən kəndlərdə 10068 nəfər müsəlman öldürülmüş və ya yaralanmışdı (İsmayılov, 2017: 7-8). 1917-ci ildə Zəngəzur qəzasında 123.085 nəfər təşkil edən azərbaycanlıların 1926-cı il siyahıyaalınmanın göstəricilərinə görə sayı heç 5 min nəfərə çatmamışdı (İsmayılov, 2017: 10). Zəngəzur qəzasında Azərbaycanlılara qarşı kütləvi qırğınlar, əsasən, 1919-cu ilin ilk günlərindən başlayaraq bütün il boyu və 1920-ci ilin ortalarınadək davam etmişdi (İsmayılov, 2017: 9).

1965-ci ilin fevral ayında Ermənistan SSR-də də qaniçən cəllad Andronik Ozanyanın dövlət səviyyəsində anadan olmasının 100 illiyini "xalq qəhrəmanı" kimi təntənəli şəkildə qeyd etmək və onun İrəvanda heykəlini qoymaq üçün böyük cəhdlər göstərildi. Naxçıvanda yaşayan tarixçi-alim, maarifci, Naxçıvan MSSR Ali Sovetinin Katibi əsl xalq ziyalısı Əli Əliyevin elmi fəaliyyəti nəticəsində bu plan baş tutmadı (7; 8).

Beləliklə, 1918-1920-ci illərdə Andronik Ozanyan başda olmaqla erməni quldur dəstələri tərəfindən Zəngəzurda Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımın miqyası o dərəcədə böyük olub ki, bu bəşəri cinayətin daha dərindən araşdırılmasına hər zaman zəruri ehtiyac vardı.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Xankişiyeva, S. Andranikin 1918-ci ildə Zəngəzurda törətdiyi qanlı əməllər. https://1news.az/az/news/20210516092911306-Andranikin-1918-ci-ilde-Zengezurda-toretdiyi-qanli-emeller.
2. İsmayılov, K. (2017). Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı: Elm, 248 s.
3. Arzumanlı, V., Həbiboğlu, V., Muxtarov, K. (1995). 1918-ci il qırğınları. Tarixi araşdırmalar Bakı: Öyrətmən, 90 s.
4. Zəngəzur qəzasında soyqırımlar. https://az.wikipedia.org/wiki/.
5. Məmmədov, X., Məmmədov, N. (3 aprel 2009). 1918-1920-ci illərdə erməni millətçilərinin Naxçıvan, Zəngəzur və Qarabağda qanlı cinayətləri. Xalq qəzeti, 4 s.
6. Nəcəfov, B. (2006). Düşmənin iç üzü. XIX-əsrin sonu XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. II hissə. Bakı: Çaşıoğlu, 436 s.
7. Nərimanoğlu, H. Zəngəzur (tarixi oçerk). https://zengezur.com/index.php/m-qal-l-r/186-znzhzur.
8. Orucov, N. Andranikə heykəl qoyulmasını önləyən. Brejnevlə məktublaşan-Azərbaycanlı... https://teleqraf.com/news/maraqli/348193.html.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 165-169**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 165-169**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Məhəmməd Abduyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
coğrafiya üzrə elmlər doktoru
abduyevm@gmail.com

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR ƏRAZİSİNDƏ ÇAY SULARININ CODLUĞU

***Açar sözlər:*** *Qarabağ, Şərqi Zəngəzur, çay suları, codluq, suyun keyfiyyəti*

***Keywords:*** *Karabakh, Eastern Zangazur, river waters, cod, water quality*

Təbii suların tərkibindəki kalsium ($Ca^{2+}$) və ($Mg^{2+}$) ionlarının miqdarı, həmin suların codluğunu müəyyən edir. $Ca^{2+}$ və $Mg^{2+}$ kationlarının mq.ekv/litr kəmiyyətləri ilə müəyyən olunan codluq suyun keyfiyyətinin əsas göstəricilərindən biri sayılır. Ədəbiyyatlarda (Rüstəmov, 1960: 167; Alekin, 1970: 444; Luchsheva, 1983: 423) üç tip codluq ayrılır;

1. Ümumi codluq-$Ca^{2+}$ və $Mg^{2+}$ kationlarının ekvivalent kəmiyyətlərinin cəmi ilə müəyyən olunur;

2. Müvəqqəti codluq (karbonat codluğu) - $Ca^{2+}$ və $Mg^{2+}$ kationlarının ekvivalent cəmi ilə $HCO_3^-$ anionunun ekvivalent kəmiyyətinin münasibəti ilə müəyyən olunur. Müvəqqəti codluq hesablanarkən iki hala baxılır;

a) əgər $Ca^{2+} + Mg^{2+} \leq HCO_3^-$ olarsa, onda müvəqqəti codluq ümumi codluğa bərabər götürülür;

b) əgər $Ca^{2+} + Mg^{2+} > HCO_3^-$ olarsa, onda müvəqqəti codluq $HCO_3^-$ ın ekvivalent kəmiyyətinə bərabər götürülür;

3. Daimi codluq-ümumi və müvəqqəti codluqların fərqi ilə müəyyən olunur. Codluğa görə ən yumşaq (1,5 mq.ekv/litrdən kiçik), yumşaq (1,5-3 mq.ekv/litr), mülayim cod (3-6 mq.ekv/litr), cod (6-9 mq.ekv/litr) və ən cod (9- mq.ekv/litrdən böyük) sular ayrılır (Alekin, 1970: 444; Luchsheva, 1983: 423).

Tədqiq olunan çay sularının ümumi codluğu ilə yanaşı, müvəqqəti və daimi codluğu da hesablanmışdır (cədvəl).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Cədvəl.**
**Ümumi, müvəqqəti və daimi codluq**

| Sıra sayı | Çay-məntəqə | Çoxillik orta minerallaşma, C, mq/l | Çoxillik orta ümumi codluq, mq.ekv/l | Müvəqqəti codluq, mq.ekv/l | Daimi codluq, mq. ekv/l |
|---|---|---|---|---|---|
| 1 | Tərtərçay-Suqovuşan | 353,4 | 3,60 | 2,82 | 0,78 |
| 2 | Levçay-Qamışlı | 305,0 | 3,08 | 2,57 | 0,51 |
| 3 | Tutqun-mənsəbə yaxın | 355,0 | 4,17 | 3,93 | 0,24 |
| 4 | Oxçuçay-Qafan | 734,6 | 6,46 | 3,82 | 2,64 |
| 5 | Həkəriçay-Laçın | 304,0 | 3,21 | 2,66 | 0,55 |
| 6 | Zabuxçay-Zabux | 293,8 | 3,44 | 3,33 | 0,11 |
| 7 | Köndələnçay-Qırmızı Bazar | 482,9 | 4,86 | 3,56 | 1,30 |

Məlumdur ki, $Ca^{2+}$ və $Mg^{2+}$ kationlarının ekvivalent cəminə bərabər olan ümumi codluq $HCO_3^-$ anionunun ekvivalent kəmiyyətindən böyük olarsa, onda müvəqqəti codluq $HCO_3^-$ -ın ekvivalent kəmiyyətinə bərabər götürülür. Apardığımız tədqiqat göstərir ki, bütün öyrənilən çaylarda $Ca^{2+}$ $+Mg^{2+}$ $>HCO_3^-$. Odur ki müvəqqəti codluq $HCO_3^-$ anionunun ekvivalent kəmiyyətinə bərabər götürülmüşdür. Bu codluğun qiyməti 1,10 mq.ekv/l-lə 2,99 mq.ekv/l arasında dəyişir.

Ümumi və müvəqqəti codluğun fərqi ilə müəyyən edilən daimi codluq tədqiq olunan ərazi çaylarının sularında 0,11 mq.ekv/l-lə (Zabuxçay) 2,64 mq.ekv/l (Oxçuçay) arasında dəyişir.

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərində çay sularının ümumi codluğu Oxçuçaydan başqa digər çaylarda 3,08-4,86 mq.ekv/l arasında dəyişir ki, bu da yumşaq və mülayim cod sulara

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

uyğun gəlir. Oxçuçayda çoxillik orta ümumi codluq (6,46 mq.ekv/l) qonşu çaylarla müqayisədə 1,3-2 dəfədən çox olması ilə fərqlənərək, cod və ən çox cod sular qrupuna aid olur. Lakin qıtsulu dövrdə bəzən bu çayda codluq qonşu çaylarla müqayisədə 15-22 dəfə artaraq 70 mq.ekv/l-rə çatdığından sanki kollektora çevrilir.

Çay sularının ümumi codluğu il ərzində sabit qalmır (Abduyev, 2006: 448-452; Abduyev, 2013: 248-250; Abduyev, 2021: 363; Abduyev, 2013: 40-47). Ümumi halda su sərfinin maksimum qiymətinə ümumi codluğun minimum qiyməti uyğun gəlir və əksinə. Yəni qanunauyğunluğa görə gursululuq dövründə səthi axımın artması ilə codluğun azalması, qıtlıq dövründə isə yeraltı sularla qidalanmanın üstünlüyü ilə codluğun artması müşahidə olunmalıdır. Azərbaycan ərazisində Lənkəran təbii vilayətinin çayları istisna olmaqla, digər çaylarda martdan iyunadək davam edən dövr yaz-yay gursululuğu və daşqınları dövrü kimi səciyyələnir. Martdan başlayaraq havanın temperaturunun artması ilə hövzədəki qarların əriməsinin intensivləşməsi və ya yağan yağışlar hesabına çayların su sərfi artır. Ən böyük sərflər may və iyunda müşahidə olunur, sonra isə gursululuğun enməsi başlayır. Enmə dövründə düşən yağışlar bəzən gursululuğn sərfindən böyük olan güclü daşqınlar yaradır. Bu dövrdə su rejiminin əksinə olaraq, ümumi codluğun minimum kəmiyyəti müşahidə olunur. Bu ən böyük sərflərin müşahidə edildiyi may-iyun aylarına uyğun gəlir. Qeyd edilənlər şəkildə verilən qrafiklərdən aydın görünür. İyuldan sentyabradək olan dövr yay qıt sulu dövrünü əhatə edir.




Tərtərçay-Kəlbəcər Quruçay-Tuğ

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II




*Şəkil. Su sərfinin (Q, $m^3$/san) və ümumi codluğun ($Ü_c$, mq.ekv/l) illik gedişi*

Bu zaman, demək olar ki, bütün çaylarda davamiyyətli minimal sərf müşahidə olunur. Oktyabrdan noyabradək olan dövr yağışlı payız kimi səciyyələnir. Bu dövrdə yağan yağışlar çayların sululuğunu artırır və hətta güclü daşqınlar əmələ gətirir. Dekabrdan fevraladək olan dövr qış az sulu dövr kimi ayrılır. Bu dövrdə çaylar, əsasən, yeraltı sularla qidalandığından ümumi codluğun maksimum kəmiyyətilə səciyyələnirlər.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Rüstəmov, S.H. (1960). Azərbaycan SSR çaylarının hidroloji xüsusiyyətləri. Bakı, 167 s.
2. Alekin, O.A. (1970). Osnovy gidrokhimii. L.: Gidrometeoizdat, 444 s.
3. Luchsheva, L.L. (1983). Prakticheskaya gidrometriya. L.: Gidrometeoizdat, 423 s.
4. Abduyev, M.A. (2006). Kiçik Qafqazın çay sularının codluğu. Azərbaycan Coğrafiya cəmiyyətinin əsərləri. X cild. Bakı, s. 448-452.
5. Abduyev, M.A. (2013). Azərbaycanın çay sularında codluğun il ərzində dəyişməsi. "Qlobal dəyişkənliklər şəraitində geo-sistemlərin təbii ehtiyat potensialının qiymətləndirilməsi və səmərəli istifadəsi" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. ACC-nin əsərləri. XVIII cild. Bakı, s.248-250.
6. Abduyev, M.A. (2021). Azərbaycanın dağ çaylarının hidrokimyəvi xüsusiyyətlərinin coğrafi qanunauyğunluqları. Bakı: ADPU nəşri, 363 s.
7. Abduyev, M.A. (2013). Zhestkost' rechnykh vod Azerbaydzhana. Geograficheskiy vestnik, Perm. № 1(24), s. 40-47.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 170-172**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 170-172**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Hüsniyyə Çobanova**
Heydər Əliyev adına Hərbi İnstitut
filologiya üzrə fəlsəfə doktoru
cobanovahusniyye@gmail.com

# ZƏNGƏZUR BÖLGƏSİNDƏ ZOOTOPONİMLƏR

***Açar sözlər:*** *Zəngəzur, toponim, zootoponim, tayfa, xalq*
***Keywords:*** *Zangazur, toponym, zootoponym, tribe, people*

Qədim Zəngəzur ərazisi insanların məskunlaşması üçün ən əlverişli regionlardan biridir və müasir dövrümüzə qədər bir neçə mübarizələrin məskəni olmuşdur. Qədim tarixi mənbələrin verdiyi məlumata görə Azərbaycan türklərinin Qərbi Azərbaycan ərazisində məskunlaşması tarixi quldarlıq ictimai-iqtisadi formasiyasının son əsrlərinə, feodalizm ictimai-iqtisadi formasiyasının isə erkən dövrünə (erkən orta əsrlərə) təsadüf edir.

Müxtəlif dövrlərdə coğrafi obyektlərin adlandırılması səbəblərindən bəhs edən A.Qurbanov qeyd edir ki, Azərbaycan toponimləri dilimizin leksikasında mövcud olan müxtəlif söz qrupları əsasında yaranmışdır (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 322).

Tarixən xalqımızın iqtisadi həyatının bir hissəsinin heyvandarlıq təşkil etmişdir. "Heyvan, quş, balıq, həşərat və s. canlıların adları əsasında düzələn toponimlər zootponimlər adlanır. Bununla əlaqədar olaraq bir sıra yaşayış məntəqələri, yer adları əmələ gəlmişdir" (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 331). Bu xüsusiyyət Zəngəzurun zoonim toponimlərinin bir qisminə aiddir və araşdırmalarımız göstərir ki, ev heyvanlarının adları əsasında yaranmış xüsusi adlar çoxluq təşkil edir.

*Daylaqlı*–Daylaxlı zooetnotoponimi əsasında "daylaq" heyvan adı dayanır. Daylaq iki yaşlı at balasının adını bildirir. Etnotoponim türkmənşəli "daylaq" (özbək, qaraqalpaq, qazax, qırğız və türklərdən "taylaq") tayfasının adından və çoxluq bildirən *-lı* şəkilçisindən ibarət olub, "daylaq çox saxlayan tayfa" mənasındadır (Bartold, 1963: 174).

*Qatırlı* – Qatırlı zooetnotoponimi əsasında "qatır" heyvan adı dayanır. Tarixən türk xalqlarında qatırdan minik və nəqliyyat vasitəsi

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

kimi istifadə edilmişdir. Etnotoponimin mənası "qatır saxlayan, qatırçılıqla məşğul olan el, tayfa" deməkdir.

*Camışlı* – zooetnotoponiminin əsasında "camış" heyvan adı dayanır. XIX əsrdə Borçalı qəzasında qeydə alınmış oykonimdir. Vaxtilə bu kəndin əhalisinin əsas məşğuliyyət sahəsi camışçılıq olduğuna görə etnotoponim belə adlandırılmışdır.

*Ayıbazar (Ayıbasar)* – Laçın rayonunda kənd adı; *Ayı dərəsi* – Laçın rayonunda oronim; *Dovşan dərə* –Zəngilan və Laçın rayonunda oronim; *Kaftar dərəsi* – Qubadlı və Zəngilan rayonunda oronim; *Maraldərə* – Qubadlı rayonunda oronim; *Maralzəmi* – Meğri rayonunda oykonim. Bu kənddə 1988-ci ilə qədər azərbaycanlılar yaşayıblar. Kənd sakinləri ata-baba yurdlarından qovulduqdan sonra kəndin adı dəyişdirilib ermənicə Baztenizar qoyulub (Rüstəmli, 2016: 366).

*Atqız* – Qafan rayonunda toponim. At müqəddəs, təmiz, etibarlılıq simvolu kimi göstərilir; *Buğakar, Buğaçıq* – Meğri rayonunda oykonim; *Öküz qaya* – Laçın rayonunda oronim; *Qatır çuxuru* – Laçın rayonunda hidronim; *Qatır bulağı* – Gorus rayonunda hidronim; *Qoç dərəsi* – Qubalı rayonunda oronim; *Qoçaz* – Gorus rayonunda oykonim; *Malbəyli, Malxələfli* – Laçın rayonunda oykonim; *Qartalqaya* – Laçın rayonunda oronim (Urud, 2013: 400).

*Laçın* – Zəngəzurda şəhər adıdır. 1926-cı ilə qədər qədim türk tayfalarından olan Abdallar adlanıbdır. Kiçik Qafaz dağlarının cənub yamacında Qarabağ silsiləsinin ətəyində yerləşir.

Daqlığ Qarabağ ətrafında yerləşən və erməni silahlıları tərəfindən 18 may 1992-ci ildə işğal olunmuş yeddi rayondan biridir. Ali Baş Komandanın güclü siyasəti, Azərbaycan Ordusunun rəşadəti nəticəsində 10 noyabr 2020-ci ildə imzalanmış birgə bəyanata əsasən heç bir itki vermədən 1 dekabr 2020-ci ildə ermənilər təhvil verdilər və müzəffər Azərbaycan Ordusu Laçın rayonunda yerləşdi və işğaldan azad olundu (Istoriya Azerbaydzhana, 1958: 197).

Laçın cəsurluq rəmzi hesab edilən, "bərk şığıyan quş" kimi başa düşülür. Keçmişdə quş ovlamaq üçün saxlanılan şahin cinsindən olan yırtıcı quşdur (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 744). Şuşada Laçınlar, Kəlbəcərdə Laçın adlı oykonik və Laçınqaya adlı oronim vardır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

*Quşçu* – VII əsrə aid mənbələrdə quşilərin adı çəkilir. Türkdilli quşçu tayfasının adı ilə bağlı yaranmış etnotoponimlər Orta Asiya (xüsusilə Türkmənistan), Gürcüstan, Ermənistan, Şimali Qafqaz, Türkiyə və Cənubi Azərbaycan ərazilərində geniş yayılmışdır. XIX əsrə aid mənbələrdə Qafqazda "quş" komponentli 38 toponim qeydə alınmışdır. Tarixi mənbələr əsaslı faktlarla sübut edir ki, vaxtilə dünya səhnəsində Quşan-Kuşan adlı dövlət olmuşdur (Azərbaycan SSR inzibati-ərazi bölgüsü, 222). Bartold V.V. quşanların eradan əvvəl II əsrdə Orta Asiya hunlarının basqınına məruz qalmasından, onlar tərəfindən məğlub edilməsindən və qərbə sıxlaşdırılmasından geniş şəkildə bəhs edərək yazır ki, bu xalq adı Çin mənbələrində yoeçəni, daha dəqiq, yoeşn adı ilə məlumdur ki, bu da Quşi etnoniminin Çin dilində tələffüz formasıdır. Orta Asiyada indiki Turfan şəhərinin yerləşdiyi əyalət də o zaman Quşi adlanmışdır (Azərbaycan toponimləri, 1999: 174-175). "Azərbaycan tarixi"nin I cildində də göstərilir ki, quşçular Azərbaycana 227-ci ildə gəlmişlər (Qurbanov, 1989: 196). Deməli, Güney Qafqazın, Orta Asiyanın, Türkiyə və Cənubi Azərbaycanın çoxlu sayda toponimlərində paralel izlər qoymuş quşçu tayfası qədim hunların qalıqları olub (Azərbaycan dilinin izahlı lüğəti, 2006: 313). Beləliklə, hər bir ərazinin adı – kənd dağ, çay, məhəllə, qala və s. adları xalqın minillik tarixindən xəbər verir. Burada coğrafi adlardan tutmuş toponimlərin formalaşmasında iştirak edən sözlərin və coğrafi nomenlərin hər biri mühüm mənbə rolunu oynayır.

## Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. (2006). IV cilddə. Bakı, 792 s.
2. Bartold, V.V. (1963). Sochineniye, tom II, ch.1. M., s.174-175.
3. Rüstəmli, Ə. (2016). Zəngəzurun toponimləri tarixin izi. Bakı.
4. Urud, M. (2013). Zəngəzur toponimləri. Bakı: "Nurlar" nəşriyyatı, 400 s.
5. Istoriya Azerbaydzhana. (1958). I tom. Baku, 196 s.
6. Azərbaycan SSR inzibati-ərazi bölgüsü. 222 s.
7. Azərbaycan toponimləri. (1999). Ensklopedik lüğət. Bakı: Azərbaycan ensklopediyası, 588 s.
8. Qurbanov, A. (1989). Azərbaycan dilinin onomastikası. Bakı, 594 s.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 173-176
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 173-176
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Şərəbanı Məmmədova**
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sherebani@gmail.com
**Nazlı Seyidova**
Naxçıvan Dövlət Universiteti
nazliseyidova@gmail.com

# ZƏNGƏZURUN TALEYİ: TARİXİ REALLIQ, ACI NƏTİCƏLƏR

***Açar sözlər:*** *Qərbi Azərbaycan, Zəngəzur, türk tayfaları, deportasiya, soyqırımı*
***Keywords:*** *Western Azerbaijan, Zangazur, Turkish tribes, deportation, genocide*

Qərbi Azərbaycanın köklü sakinləri Azərbaycan türkləri olmuş, ermənilər isə xaricdən bu ərazilərə köçürülmüşdür. Məhz bu səbəbdən 1991-ci ilə kimi ərazinin toponimlərindən 90 %-dən çoxunu türk mənşəli toponimlər təşkil edirdi (Bayramov, 2002). 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşdür.

Hazırda Ermənistanın tərkibində olan Zəngəzur ən qədim dövrlərdən Azərbaycan ərazilərində təşəkkül tapmış dövlətlərin tərkibində mövcud olmuşdur. Erməni, rus, fars mənbələrində bu barədə birmənalı, təkzibolunmaz faktlar, məlumatlar mövcuddur ki, Zəngəzur Azərbaycan torpağıdır. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək erməniləşdirilmiş və ya ruslaşdırılmışdır.

Burada yaşayan azərbaycanlılar isə zaman-zaman – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Ermənistan Zəngəzura dair iddialarını reallaşdırmaq məqsədilə 1920-ci ilin payızında tədbirlər görməyə başladı. Tarixi ərazilərimizlə siyasi alver xəttini tutan Rusiya və Azərbaycan "rəhbərliyi"nin ifrat beynəlmiləlçiliyini, onun sovet-

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 173-176
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 173-176
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

ləşdirmə adı altında həyata keçirilən yenidən işğal ilə Cənubi Qafqazın hamıdan əvvəl razılaşmasını və s. qiymətləndirmədən öz siyasətini yürütməkdə, ermənipərəst mövqedən çıxış etməkdə israrlı oldu. Azərbaycanın Şura hökuməti RSFSR ilə hərbi-iqtisadi ittifaq haqqında müqavilə (30.XI.1920) bağlayarkən birgə sosializm quruculuğu, Sovet Rusiyası rəhbərliyinin təzyiqi və s. mülahizələri əsas tutmaqla yanaşı həm də öz ərazisinin bütövlüyünün təmin olunmasına da ümid bəsləmişdi. O mübahisəli məsələləri həll etmək üçün bir sıra yeni təkliflər irəli sürmüşdü. Bunlarla paralel surətdə Sovet Rusiyası ilə Ermənistan arasında müqavilənin layihəsi hazırlanırdı. Bir sıra diplomatik sənədlərin də sübuta yetirlidiyi kimi, həmin danışıqlarda söhbət gedən layihədə Azərbaycanın milli-dövlət mənafelərinə ciddi qəsdlər edilərək onun tarixi torpaqları olan Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi planlaşdırıldı. Bu zaman Rusiya hökuməti Q.Orconikidzenin belə bir müddəasından çıxış edirdi ki, "...məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər". Həmin fikirləri sovet rəhbərliyi tərəfindən mərhələ-mərhələ ortalığa atılan və regionda həyata keçirilən bu şüarlar da (əvvəlcə "Yalnız Sovet hakimiyyəti Azərbaycanın ərazi bütövlüyünü təmin edə bilər", sonra isə "Yalnız Sovet hakimiyəti Zəngəzuru Ermənistana qaytara və Azərbaycanı Qarabağa muxtariyyat verməyə məcbur edə bilər") təsdiqləyir. İrəvandakı danışıqlar tərəfləri gələcək sülh müqaviləsini tanımağa məcbur edən protokolun imzalanması ilə qurtardı. Həmin sazişlə də Ermənistan Qarabağdan imtina etməli, ancaq Zəngəzur və Naxçıvanı almalı idi.

1920-ci il 10 avqustunda Rusiya KP-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxarır, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olunur. Lakin Serqo Orconikidze dayanmaq bilmir və bütün gücü ilə Zəngəzurun ermənilərə verilməsini müdafiə edir. Moskva Azərbaycanı güzəştlərə məcbur etmək üçün "proletar beynəlmiləlçiliyi" deyilən təbliğat vasitələrindən istifadə edirdi. Bu məsələ bir neçə dəfə müxtəlif səviyyələrdə müzakirə olundu. Lakin bu bölgəni xilas etmək mümkün olmadı. Bakıda 1920-ci il noyabrın 4-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun və RK(b)P Qafbüronun üzvlərinin (sədr Q.Kaminski, katibi isə Lozner) keçirilən birgə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

iclasında (protokol №4, 2-ci bənd) "Ermənistanda vəziyyət haqqında Leqran yoldaşın məruzəsi" müzakirəsi zamanı bu məsələnin siyasi və strateji baxımdan Azərbaycana məxsus olan bir ərazini onun iştirakı olmadan Rusiyanın müqavilə ilə Ermənistana verməsi düzgün hesab edilməmişdi.

İclasda Nərimanov, Hüseynov və Yeqorov, Stalin, Orconikdze, Stasova, Şeynman, Leqran, Qabrielyan və Qarayev iştirak edirdilər. Məruzə ilə Leqran çıxış etdi. Məxfi qərarlar qəbul edildi. Müvafiq təklifin Azərbaycandan gəlməsi daha uyğun görüldü. Siyasi Büronun Naxçıvan və Zəngəzur haqqında fikrinin motivlərini tərtib etmək Nərimanova tapşırıldı. 1920-ci il noyabrın 16-da İ.V.Stalin Vladiqafqazdan V.İ.Leninə göndərdiyi şifrəli teleqramda "Türkiyənin Azərbaycan ilə ümumi sərhədinin olmaması və burada ermənilərdən bunker zona kimi istifadə edilməsi məqsədilə Ermənistanı sovetləşdirmək, erməni sovet pazı ilə Türkiyə və Azərbaycanın arasına vurmaq lazımdır fikri vurğulanırdı. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olundu. Sovet Ermənistanına isə hədiyyə növbəti gün edilir. Ermənistanda sovet hakimiyyəti qurulduqdan bir gün sonra, noyabrın 30-da keçirilən Azərbaycan K(b)P MK Siyasi və Təşkilati Bürosunun iclasında Ermənistan ilə əlaqələrə dair məsələ müzakirə edildi. Müzakirə nəticəsində aşağıdakı qərarlar qəbul olundu: "Sovet Azərbaycanı ilə sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir; Zəngəzur... Ermənistana keçir... bu qətnaməni tərtib etmək Nərimanova tapşırılsın". 1920-ci il noyabrın 30-da Zəngəzurun taleyi həll olundu.

Nəticədə Zəngəzur qəzasının 6.742 kv verstlik ərazisindən 3.105 kv versti Azərbaycan SSR tərkibində qalır, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilir. Tapşırığı yerinə yetirən N. Nərimanov Bakı Sovetinin 1920-ci il dekabrın 1-də Dövlət Teatrında keçirilən təntənəli iclasında etdiyi nitqində Zəngəzurun Ermənistana güzəştə gedildiyini bildirdi. Beləliklə, tarixi torpağımız olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Türkiyənin Azərbaycan və türk dünyası ilə quru əlaqəsi kəsildi. Ermənistan Xalq Komissarları Soveti 20 iyul 1921-ci ildə Ermənistanın 8 qəza 33 nahiyədən ibarət inzibati ərazi bölgüsünü təsdiq etdi.

Həmin inzibatı bölgüdə Zəngəzur qəzası yox idi. Avqustun 31-də isə yeni 9-cu qəza mərkəzi Gorus şəhəri olmaqla Zəngəzur qəzası

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

yaradıldı. Azərbaycan isə, öz növbəsində, Zəngəzurun qərb hissəsini (Gorus, Sisyan, Qafan rayonlarını və Meğri rayonunun bir hissəsini) öz inzibatiərazi bölgüsündən çıxartdı. Bununla da Zəngəzur iki hissəyə bölündü və onun qərb hissəsi Ermənistana birləşdirildi.

## Ədəbiyyat

1. Bayramov, İ. (2002). Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 177-181**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 177-181**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Gülarə Abbasova**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
multikultural@mail.ru
https://orcid.org/0009-0009-8088-4830

# ZƏNGƏZUR – DOĞMA DİYAR

***Açar sözlər:*** *Zəngəzur qəzası, Xalq Cümhuriyyəti, quberniya, tarixi ədalətsizlik, ədalətin bərpası*

***Keywords:*** *Zangazur district, People's Republic, governorship, historical injustice, restoration of justice*

Qüdrətli dövlət yaradaraq tarixdə öz yerlərini alan boylardan biri də qədim dövrlərdə adı "sanqi" şəklində yazılan zəngilərdir. Onlar geniş coğrafi ərazidə yayılmışdılar. Zəngəzur ərazisi ilk insanların məskunlaşması üçün ən əlverişli regionlardandır. Ona görə də bütün kiçik Qafqaz sıra dağlarının ətəkləri kimi Zəngəzur silsiləsi də ilk insan məskənlərindən sayılır. Zəngəzur mahalının yerli əhalisi türk sakları və onların törəmələridir. Zəngilərin bu ərazilərlə tanışlığı tarixi bəzi mənbələrə görə eramızda əvvəl Assur dövlətinin zamanına qədər gedib çıxır. Bu son vaxtlara qədər saxlanılan "Orta əsr müsəlman qəbiristanlığındakı qəbir yazılarında bir daha təsdiqini tapmışdır" (Urud, 2000: 23).

Zəngəzur dağ silsiləsi ilə Qarabağ yaylası arasında yerləşən Zəngəzur mahalı Tərtər və Arpa çaylarının yuxarı axınlarından Araz çayınadək gedib çıxır. Uzunluğu təqribən 130 km, hündürlüyü isə 3904 m-dir. Bütün yaşayış məntəqələrinin adları türk adları idi.

XVIII əsrdən başlayaraq Qərbi Azərbaycan torpaqları siyasi oyun müstəvisinə çıxarıldı. 1828-ci ildən başlayaraq Zəngəzur mahalının taleyinə istiqamət verən vahid bir qüvvə Rus imperiyası olmuşdur.

Rusiyada 1840-cı il inzibatı islahatı zamanı Zəngəzur Kaspi vilayətinə, 1867-cidə Yelzavetpol (Gəncə) quberniyası yarananda isə Şuşa, Cavanşir və Cəbrayıl qəzaları ilə birlikdə məhz Gəncə quberniyasının tərkibində olub. Tarixi mənbələrdə qeyd edilir ki, "1868-ci ildə şimali Azərbaycanın Gəncə-Qazax zonası bazasında

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Yelizavetpol quberniyası yaradıldı. Bu vaxt mərkəzi Gorus olan Zəngəzur ora daxil edildi" (Heydərov, 1972: 8).

Zəngəzur ərazi-inzibati vahidi qismində təxminən 56 il mövcud olub. 1873-cü ildə Yelizavetpol (Gəncə) quberniyasında təsis olunmuş qəza mərkəzi Gorus məntəqəsi idi. 1929-cu ildə ləğv edilib. Qəzanın əsas əhalisini azərbaycanlılar təşkil edirdi.

1897-ci ildə əhalinin siyahiya alınmasına görə Zəngəzur qəzasının 137.871 nəfər əhalisinin 71.216 nəfəri (52,3 faizi) azərbaycanlı, 63.622 nəfəri (46,4 faizi) isə erməni idi. Bu artım Cənubi Qafqaza İran və Osmanlı imperiyasından köçürülən ermənilər hesabına idi.

1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində Zəngəzurda təxminən yarım milyon müsəlman həlak olub. Həmin illərdə 115 müsəlman kəndi yer üzündən silinib. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilib.

Zəngəzur 1918-1920-ci illərdə ADR tərkibində bir ərazi-inzibati vahid idi. 1920-ci ilə qədər bütün beynəlxalq sənədlərdə və yazışmalarda bura Azərbaycan əraziləri kimi qeyd edilib.

Cümhuriyyət dövründə Zəngəzurun ermənilərə verilməsi istiqamətində çox iş görüldü. Belə ki, günahsız azərbaycanlıların qətl edilməsinə göz yumuldu və minlərlə azərbaycanlı torpağından zorla qovuldu (Rəsulzadə, 1990).

1918-ci ildə Andronikin Zəngəzura gəlməsi ilə erməni əhalisinin sayı artdı. Qəzanın 40-a yaxın müsəlman kəndləri dağıdıldı və əhali didərgin düşdü. Bölgədə kütləvi qırgın həyata keçirildi. Yay-payız aylarında Naxçıvan Zəngəzur və Qarabağ bölgələrində həyata keçirilən soyqırımı nəticəsində Zəngəzurda 115, İrəvan quberniyasında isə 60 kənd məhv edildi. 1919-cu il yanvar ayının 15-də Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət Qarabağ general qubernatorluğu yarandı. Fövqəladə səlahiyyətlər verilməklə Xosrovpaşa bəy Sultanovun Qarabağ və Zəngəzurun general qubernatoru təyin edildikdən sonra qəzada vəziyyəti sabitləşdirmək mümkün oldu (Eloğlu, 1992).

Qeyd edildiyi kimi, Qarabağ kimi Zəngəzur qəzası da birmənalı olaraq Cümhuriyyətin tərkibində olub. Zəngəzurun taleyində əsaslı dəyişiklik 1920-ci ilin aprelində Sovet Rusiyası Azərbaycanı işğal etdikdən sonra başlandı.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

1920-ci ilin iyul ayının 8-də Qafqazdakı Sovet canişini Orconikidzeyə yazırdı:

"Qarabağ və Zəngəzuru mübahisəli yerlər elan etmək olar, bunun üçün isə Azərbaycan hökumətinin razılıq verməsi gərəkdir" (G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 8 iyul 1920-ci il, Rusiya Dövlət Sosial Siyasi Tarix Arxivi (RDSSTA), f.64, s.1, i.17, v.60) (Ələkbərli, 1994).

Zəngəzurun Ermənistana verilməsi ideyası məhz 1920-ci ilin noyabr ayının sonlarında gündəliyə gəldi. Bu addımın atılması strateji baxımdan iki məqsəd güdürdü; birincisi, sovetləşmə prosesində erməni kommunistlərinin əlini gücləndirməli, ikincisi isə, türklərin Bakıya quru yolunu bağlamalı idi.

Beləliklə, Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə, Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi (Sumər, 1992).

Orconikidzenin fikrincə, Zəngəzurun Ermənistana verilməsi təklifi Moskvadan gəlməməlidir, bu ideya Nərimanovun dilindən səslənməlidir.

Orconikidzenin "məsləhəti" və Moskvanın göstərişi ilə Nərimanov noyabrın 30-da Zəngəzurun Ermənistana verilməsi haqqında bəyanatla çıxış etdi və az sonra da çox ciddi peşmançılıq hissi keçirdi.

Nərimanovun bəyanatından iki gün sonra, 1920-ci ilin dekabr ayının 2-də imzalanan Rusiya-Ermənistan hərbi-siyasi müqaviləsində Zəngəzur qəzasının Ermənistanın tərkibinə keçdiyi mübahisəsiz fakt kimi tanınırdı. Halbuki az əvvəl keçirilən əhali sayımına görə, Zəngəzur qəzasında 123.095 nəfər müsəlman, 99.257 nəfər erməni yaşayırdı (Bünyadov, 1989).

1921-ci ilin ortalarında Zəngəzurun Ermənistana birləşdirilməsi başa çatdı. Həmin ilin iyulun 20-də Ermənistanda 9-cu Zəngəzur qəzası yaradıldı. "Azərbaycanda bundan əvvəl 1921-ci il 19 may tarixli əhalinin siyahıya alınmasına dair dekretdə Zəngəzur qəzasının adı qeyd edilmədi. Zəngəzurun Azərbaycan hökuməti tərəfindən tamamilə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

unudulmasından bəhrələnən ermənilər qəzanın daxili işlərinə kobud şəkildə müdaxilə edirdilər. Ermənistan hökuməti bölgəyə qaçqınların qayıtmasına imkan vermirdi. Müxtəlif ölkələrdən məqsədyönlü surətdə Ermənistana gətirilən ermənilər isə Zəngəzurda yerləşdirildilər" (Əliyev, 2004: 295).

1929-cu ildə Mehridə erməni rayonu yaratmaq adı altında Nüvədi, Ernəzir və Tuğut Ermənistana verildi. Bu kəndlər Zəngilanın idi və Zəngilanın rəhbər orqanları öz əməllərinə haqq qazandırmışdılar. Mənbələrə əsasən qeyd olunur ki, "1939-cu ildə Ernəzir Nüvədi ilə, Tuğut isə ermənilər yaşayan Astazurla birləşdirildi. Bununla da Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvandan ayrı salındı, məmləkətimiz parça-parça edildi" ("Azərbaycan" qəzeti, 2001: 4).

XX əsrdə ermənilər tərəfindən torpaqlarımızın işğalı, xalqımıza qarşı törədilən etnik təmizləmə tariximizdə geniş tədqidat sahəsinə çevrilmişdir. İyirminci əsrin əvvəllərinə aid olan xəritələrdə bütün yer adları azərbaycan türkcəsində olduğu halda, 1930-cu illərdən başlayaraq bir neçə mərhələdə (1937-40, 1956, 1968, 1991) Qərbi Azərbaycandakı, o cümlədən Qərbi Zəngəzurdakı bütün toponimlər dəyişdirildi, erməniləşdirildi. Bu azmış kimi ermənilər işğal illərində Şərqi Zəngəzurdakı və Qarabağdakı toponimləri də dəyişdirməyə cəhd göstərdilər.

Azərbaycan xalqı 30 ilə yaxın erməni faşistlərinin işğalında olan torpaqlarımız uğrunda mübarizəyə qalxaraq tarixi ədaləti bərpa etdi. Bu gün həmvətənlərimiz öz tarixi ata-baba yurdlarına qayıdır. Erməni vəhşilərinin viranə qoyduğu yurd yerlərimizi yenidən qurmağa, gözəlliklər yaratmağa, talan edilmiş, yandırılmış torpaqlarımızı, Qarabağımızı, Şərqi Zəngəzurumuzu dirçəltməyə qayıdır (Bünyadov, 1985).

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Urud, M. (2000). Bakı.
2. Heydərov, N. (1972). Zəngəzur dağlarında. Bakı.
3. Rəsulzadə, M.Ə. (1990). Azərbaycan Cümhuriyyəti. Bakı.
4. Eloğlu, S. (1992). Zəngəzur hadisələri. Bakı.
5. Ələkbərli, Ə.Y. (1994). Qədim Türk-Oğuz yurdu "Ermənistan". Bakı: Sabah, 201s. ISBN 5-86106-029-0
6. Sumər, F. (1992). Oğuzlar. Bakı.
7. Bünyadov, Z. (1989). Azərbaycan VII-XI əsrlərdə, Bakı.
8. Əliyev, V.M. (2004). Zəngəzurda qalan izimiz. Bakı: Nurlan, 295 s.
9. "Azərbaycan" qəzeti. (4 may 2001).
10. Bünyadov, Z. (1985). Azərbaycan Atabəylər dövləti. Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 182-184**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 182-184**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nurlana Həmzəyeva**
Gəncə Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
hemzeyevanurlana010@gmail.com

# ERMƏNİ VANDALİZMİNİN ZƏNGƏZURUN MEMARLIQ ABİDƏLƏRİNDƏ İZLƏRİNƏ DAİR

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, arxeoloji adidələr, vandalizm, mədəni irs*

***Keywords:*** *Azerbaijan, Zangazur, archaeologocal monuments, vandalism, cultural heritage*

Tarixi arxeoloji abidələri və tarixi-mədəni irs nümunələri ilə dünya mədəniyyətində özünəməxsus yer tutan Zəngəzur ərazisi Azərbaycanın tarixi torpaqlarıdır. Eyni zamanda Zəngəzur qədim tarixə malik Albaniya dövləti dövrünə aid arxeoloji-memarlıq abidələri ilə ən zəngin bölgələrdəndir. Bu ərazilərdə Alban xristian memarlığının nadir nümunələri aşkara çıxardılıb (Əlizadə, 2022: 6). Məhz bu baxımdan da Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bütün dünyaya bəyan edib ki, Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir.

Ötən əsrdə Ermənistanın Azərbaycanın tarixi torpaqlarına işğalçılıq siyasəti nəticəsində bu tarixi ərazilərimiz zəbt olunmuş, bu torpaqlarda erməni qəsbkarları Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti aparmış və arxeoloji-memarlıq abidələrə qarşı misli görünməmiş mədəniyyət məhvi siyasəti yürütmüşlər. Tarixi torpaqlarımızda vandalizm aktı həyata keçirmişlər. Tarixi mənbələrə nəzər salanda şahidi oluruq ki, Rusiya hələ orta əsrlər dövründən isti dənizlərə yiyələnmək üçün planlar hazırlanmışdır. Əlverişli coğrafi mövqeyə, strateji əhəmiyyətə malik Cənubi Qafqaz əraziləri həmişə qonşu ölkələrin diqqətini cəlb edib. Elə məhz bu baxımdan da XIX əsrin əvvəllərində baş verən Rusiya-İran müharibələri nəticəsində Şimali Azərbaycan ərazisi Rusiya imperiyasının, Cənubi Azərbaycan da İranın tərkibinə qatılmışdı. Baş verən hadisələrdən sonra ermənilər albanlara məxsus tarixi abidələri erməni abidələri kimi qələmə vermişlər. Beləliklə, tarixi Azərbaycan torpaqlarının nəzərdə tutulmuş plan

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

əsasında erməniləşdirilməsi prosesi başlamışdır. Və bu proses erməni vandalizmi ilə müşayiət olunaraq ərazidəki xristian dövrü mədəni irsinin məhv edilməsi ilə nəticələnmişdir. Ərazidəki mədəniyyət nümunələrinin formaları dəyişdirilmiş, alban dövrünə aid kilsələrindəki əlyazmalar erməni dilinə tərcümə edilərək orijinalları yandırılmışdır. Ermənilərin vandalizminin təsirinə daha çox məruz qalmasına səbəb buradakı abidələrin, əsasən, türkdilli xalqlara məxsus elementlərdən istifadə edilməsi olub. Ümumiyyətlə, ermənilər məskunlaşdıqları ərazilərdəki tarixi-mədəniyyət abidələri üzərində türk ornamentlərinin və simvollarının olmasını heç cür qəbul etmirlər (İsmayılov, 2016: 16).

Qısaca Ağoğlan məbədi haqqında da məlumat verək. IV əsrə aid edilən Ağoğlan məbədi Laçın rayonunun Kosalar kəndi yaxınlığında yerləşir. Ermənilərin törətdikləri vandallığa ən çox məruz qalan abidələrdəndir. Abidənin yerləşdiyi ərazilər 1992-ci ildən ermənilərin işğalı altına düşüb. Daha sonra ermənilər Ağoğlan monastırını təmir etmək bəhanəsi ilə abidənin daxili interyerini ciddi dəyişikliyə uğratmış, abidənin divarları üzərində olan bir neçə daş yazını, eləcə də xeyli sayda alban dövrünə məxsus ornament və simvolları tamamilə məhv etmiş, bir çoxunun isə formalarını dəyişdirmişdilər (Əliyev, Məmmədzadə, 1997: 8).

Ağoğlan məbədi, Həmzə Sultan sarayı, Cicimli türbəsi, Ağüdi qəbirüstü abidəsi, Baba Hacı məqbərəsi, Bartaz Qız qalası, Məmmədbəyli türbəsi, Göy Qala, Dəmirçilər türbəsi, Mahrızlı, Dondarlı məscidlərinin də taleyi Ağoğlan monastırının taleyi kimi olub. Bir qismi erməni vandalları tərəfindən dağıdılmış, bir qismi də erməni irsi kimi qələmə verilir. Sisian rayonundakı Qırxlar, Salvartı pirləri, Qafan rayonundakı Prdavidan, Çiləxana pirləri, Meğri rayonundakı Buğakar piri, Laçın rayonundakı Quşçu, Ağababa, Sultan baba pirləri, Qubadlı rayonundakı Mir Sədi ağa ocağı, İmamzadə ocağı, Ağ Hasar piri Zəngəzur ərazisində yerləşən çoxsaylı ziyarətgahların bir qismidir.

Qərbi Zəngəzurun bir sıra yaşayış məntəqələrindəki müsəlman məbədlərinin qalıqları isə hələ də qalsa da, 1993-cü ildə Şərqi Zəngəzurun işğalından sonra oradakı yüzlərlə mədəniyyət nümunələri erməni vandalizmi nəticəsində məhv edilmişdir. Qərbi Zəngəzurda məhv edilmiş abidələrin maddi faktları sənədlərdən silinməmişdir. Xüsusilə, müsəlman qəbiristanlıqlarında olan qəbirüstü abidə və

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

sənduqələr (qoç və at fiqurları) bu torpaqların azərbaycanlılara məxsus tarixi keçmişindən xəbər verir.

Uzun illər Qərbi Zəngəzurda Azərbaycana məxsus tarixi, mədəni və dini abidələr ermənilər tərəfindən ciddi şəkildə vandalizmə məruz qalmışdır: talan və təhqir edilmiş, dəyişdirilmiş və qanunsuz olaraq Ermənistana daşınmışdır. Bütün bu proseslər Azərbaycan mədəniyyətini məhv etmək, tarixi torpaqlarımızı xalqımızın yaddaşından silmək və həmin ərazilərin mənşəyinin dəyişdirilməsi məqsədilə edilib (4). Heç şübhəsiz ki, ermənilərin Şərqi Zəngəzurun tarixi-memarlıq abidələrinə qarşı törətdikləri vandalizmin nəticələri qısa müddətdə aradan qaldırılacaq, yenidənqurma və bərpa işləri aparılacaq və erməni cinayətkarlarının törətdikləri vandallıqlar gələcək nəsillərə tarixin ibrət dərsləri kimi çatdırılacaq.

## Ədəbiyyat

1. Əlizadə, R. (22 fevral 2022). Zəngəzur azərbaycanlıların ulu yurd yeridir. Nazir Əhmədlinin kitabı tarixi faktlarla zəngindir. "Şərq" qəzeti, № 33, 6 s.
2. İsmayılov, F. (2016). Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı, 174 s.
3. Əliyev, İ., Məmmədzadə, K. (1997). Qarabağın alban abidələri. Bakı, 32 s.
4. https://files.preslib.az/projects/zangazur/az/a8.pdf

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 185-190**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 185-190**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elbrus Sadıqov**
Azərbaycan Tibb Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
sadiqov.elbrus.72@mail.ru

# ZƏNGƏZUR QƏDİM AZƏRBAYCAN TORPAĞIDIR!

***Açar sözlər:*** *Zəngəzur, Azərbaycan, dəhliz, Ermənistan, tarix, ərazi*
***Keywords:*** *Zangazur, Azerbaijan, corridor, Armenia, history, territory*

Zəngəzur mahalı indiki Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin cənub-qərb hissəsini əhatə edir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Mığrı (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi.

Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən döyüşlərin məkanı olub.

Zəngəzurda atəşpərəstlik məbədləri yerləşirdi. Ərəblər Cənubi Azərbaycan-Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edərək Albaniyanı (Şimali Azərbaycan) zəbt ediblər.

1065-ci ildə Böyük Səlcuq İmperiyasının hökmdarı Alp Arslan Qafan şəhərini tutaraq Sünik knyazlığının mövcudluğuna son qoydu. 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu genişləndirdi və bu yerlərdə çox sayda türksoylu tayfalar məskunlaşdı. 1236-cı ildə monqol-tatarlar, 1395-ci ildə Əmir Teymur Qarabağ və Zəngəzuru böyük itkilər bahasına tutdu, onun qoşunlarına qarşı çox dirəniş göstərdiklərinə görə bu yerləri yağmaladı və 10 min ailəni buradan imperiyanın şərqinə — Əfqanıstana köçürmək əmri verdi. Teymurun bu yürüşünü canlı görüb yazıya alan Foma Mesoplu "Əfqan tarixi", Yesay Həsən Cəlal "Alban ölkəsinin qısa tarixi" əsərlərində bu köç haqqında məlumat veriblər. Təkcə 4 min ailə Qəndəhar yaxınlığında məskən saldı. Yerli əhali bu köçürülənləri öz adları ilə "ağvan" çağırırdı və bu ad sonra fonetik dəyişimə uğrayaraq bütöv bir xalqın və ölkənin adını, ünvanını dəyişib "əfqan"a çevirdi.

Zəngəzur Qaraqoyunlu (1410-68), Ağqoyunluların (1468-1502), 1502-ci ildə Səfəvi qızılbaşlarının hakimiyyəti altına düşdü. 1420-ci

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

ildə Ərzurumda Ağqoyunlu hökmdarı Qara Osmanı məğlub edib Naxçıvan və Zəngəzur ellərini soyurqal alan Qara İsgəndər çoxlu sayda erməni ailəsini Ararat və Sünikə köçürdüb yerləşdirdi. Osmanlı və Səfəvilər arasında Qarabağ-Zəngəzur uğrunda uzunsürən qanlı döyüşlər getdi, bu səbəbdən o dövrlərə aid "Müfəssəl dəftər"lərdə Zəngəzurun əksər yaşayış məntəqələrinin boşaldığı, əhali yaşamadığı, xarabalıqlara çevrildiyi qeyd edilib.

İstanbul Topqapı sarayı muzeyinin kitabxanasında Zəngəzur, Naxçıvan, İrəvanla bağlı müfəssəl məlumatların yer aldığı 48 səhifəlik "Rəvan mühasirəsi tarixçəsi" və "Mühimmə dəftəri"nin müəllifi Cərrahzadə Məhəmməd təsvir etdiyi hadisələrin canlı şahidi olub; I Şah Abbasın Naxçıvan və Zəngəzur uğrunda apardığı savaşlar, onun bu yerlərin müsəlman əhalisinə qarşı pis münasibəti nəticəsində hər iki vilayətin əhalisinin öz yerlərini tərk edib getdiyi faktlarla göstərilir. Zəngəzurdan daha bir kütləvi köç fərmanını I Şah Abbas (27 yanvar 1571 – 19 yanvar 1629) verib.

Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Bölgə Osmanlı İmperiyası ilə bağlanan müqaviləyə görə Fevral inqilabından sonra yaranan Ermənistan Xalq Cümhuriyyəti ərazisinə daxil deyil idi, ancaq bu müqaviləni tanımayan Andranik Ozanyan Osmanlı ordusundan qaçaraq bölgəni işğal etdi. Mudros müqaviləsi əsasında osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilislər AXC tərkibində yaradılan Qarabağ general-qubernatorluğunu tanıdılar və Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Zəngəzur qəzası da bura daxil idi. Andranik bölgəni tərk etsə də, Dronun qoşunları ərazinin bir hissəsini öz nəzarəti altında saxlaya bildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin ərazi bütövlüyünü təmin etmək üçün Zəngəzura qoşun hissələrinin göndərilməsini qərara aldı. Bu məqsədlə hərbi nazirlik 1919-cu il oktyabr ayının 30-da xüsusi Zəngəzur dəstəsi yaratdı. Dəstənin rəhbəri 1-ci piyada diviziyasının komandiri, general-mayor Cavad bəy Şıxlinski idi. Dəstə oktyabrın 30-da ilkin mövqelər istiqamətində Xankəndindən Zəngəzura doğru hərəkətə başladı. Müxtəlif istiqamət-

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 185-190**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 185-190**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

lərlə hərəkət edən birinci, habelə sağ və sol dəstələr Dığ yaşayış məntəqəsinə doğru irəliləməli idilər. Dığın erməni silahlı qüvvələrindən təmizlənməsi həm Qarabağa aparan strateji yolu, həm də bölgəni nəzarət altında saxlamaq üçün böyük əhəmiyyət daşıyırdı. Dəstənin rəisi Şıxlınskinin əmrinə əsasən, 1-ci dəstə noyabrın 3-də hücuma başlamalı, dəstənin piyada bölmələri 2 ədəd topla Sultanlar kəndi, atlı bölmələri isə Sadınlar kəndi istiqamətində irəliləməli və orada döyüşqabağı mövqe tutmalıydı. Hücum zamanı dəstənin sağdan mühafizəsi Sultan bəy Sultanovun rəhbərliyi ilə yerli partizanlara tapşırıldı.

Dığ istiqamətində aparılan döyüşlər Azərbaycan qoşun hissələrinin uğuru ilə başlasa da, onu əldə saxlamaq mümkün olmadı.

1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni qüvvələrinin hücumları davam edirdi. Azərbaycan SSR hökuməti (Müvəqqəti İnqilab Komitəsi) 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi. 1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevikrəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olundu, hərçənd bölgələrdə daşnak hökuməti hələ tam süqut etməmişdi. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi. Bununla da Azərbaycan ilə onun bir hissəsi olan Naxçıvan arasında quru əlaqəsi kəsilir. Üstəlik 1929-cu il fevral ayının 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 9 kəndinin – Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxaç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, az sonra isə Kilit kəndinin (1930-cu ilin

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

əvvəllərində) torpaqlarının bir hissəsinin əkin sahələri ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdir. Bununla da Azərbaycanın əraziləri arasında məsafə daha da artmışdır. 1988-ci ildə təkcə Zəngəzurda deyil, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə – indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

İkinci Qarabağ müharibəsinin əsas nəticələrindən biri Zəngəzur dəhlizi olmuşdur. Zəngəzur dəhlizi ideyasının özəl tarixi vardır. Belə ki, ötən əsrin yetmişinci illərində türk dünyasının düşmənlərindən biri olan, millətçi Z.Balayan özünün “Ocaq” adlandırdığı bədnam cızmaqarasında Zəngəzurun alınmasını zəruru sayıb və buradan keçən yolu “Turan yolu” adlandırıb. Eyni zamanda son zamanlar Ermənistan mediası yazır ki, ötən əsrin 70-80-ci illərində Heydər Əliyev Siyasi Büronun üzvü olan zaman inşasına başlanılan və Mehridən keçən Naxçıvan-Bakı avtomobil yolu “türklərin Böyük Turan layihəsinin icrasına zəmin hazırlamaq məqsədi daşıyırdı. Lakin Dəmirçiyanın (Ermənistan KP MK katibi) etirazlarından sonra layihə dayandırıldı. Lakin Azərbaycan məqsədinə indi çatdı”. Ermənilərin bu fikri təsadüfi söylənilən məsələ deyil, çünki Prezident İlham Əliyev Zəngəzur dəhlizini bərpa etməklə bərabər, həm də ata vəsiyyətini yerinə yetirir.

Zəngəzur dəhlizinin açılmasının xüsusi əhəmiyyətini Prezident İlham Əliyev hələ 12 il bundan öncə, 3 oktyabr 2009-cu il tarixində Naxçıvanda keçirilmiş Zirvə görüşündə açıqlamışdı. O bildirmişdi ki, vaxtilə Zəngəzuru Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi türk dünyasının coğrafi parçalanması demək idi. Çünki qədim Azərbaycan torpağı olan Zəngəzur türk dünyasını birləşdirən körpü rolunu oynayırdı. Buradan keçəcək nəqliyyat, kommunikasiya və infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək. Zəngəzur dəhlizinin üç müstəvidə önəm kəsb etdiyini qeyd edə bilərik: lokal, regional və interkontinental. Dəhlizin lokal müstəvidəki əhəmiyyəti yeni nəqliyyat yolunun keçdiyi hər bir ölkədə yerli inkişafı stimullaşdırıcı faktor kimi çıxış etməsidir. Nəzərə almaq lazımdır ki, yeni dəhliz hər üç ölkənin ən zəif inkişaf etmiş bölgələrindən keçir.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Belə ki, dəhlizin 30 ilə yaxın işğal altında olan və talançılığa məruz qalan Azərbaycanın cənub-qərb rayonları, Ermənistanın ən zəif inkişaf etmiş Sünik bölgəsi və onilliklərdir terrorizm səbəbi ilə zəif inkişaf etmiş Türkiyənin şərq vilayətlərini biri-birinə bağlaması planlaşdırılır ki, bu da hər üç bölgədəki yerli iqtisadi yüksəlişə ciddi töhfə verəcək.

Yeni dəhlizin regional müstəvidəki önəmi isə bir sıra fərqli istiqamət üzrə alternativlik təşkil etməsidir. Birincisi və ən əhəmiyyətlisi Türkiyə və Mərkəzi Asiya arasında yeni marşrutun ortaya çıxmasıdır. Xüsusilə, Türkiyə bu istiqamət üzrə regional rəqibi olan İrandan asılılığın azaldılması və Mərkəzi Asiya ilə bağlantısının daha məqbul ölkələrdən keçməsində maraqlıdır. Artıq uzun müddətdir ki, Gürcüstan-Azərbaycan vasitəsilə şimal istiqamətdən bunu təmin edən Türkiyə, analoji xəttin Ermənistan-Azərbaycan marşrutu üzrə cənub istiqamətində də əldə etmək məqsədindədir. Digər tərəfdən yeni dəhliz türk dünyası ölkələrinin Türkiyəyə diqqətinin artmasına gətirib çıxarır ki, bunun da son aylarda siyasi nəticələrinə Türkmənistan örnəyində şahidlik edirik. Təbii ki, bu proses həm də Xəzər dənizində gəmi nəqliyyatının artmasında stimullaşdırıcı faktor kimi rol oynayacaq. İkincisi, Zəngəzur dəhlizinin gerçəkləşməsi regional siyasi konfiqurasiya çərçivəsində böyük önəm kəsb edən Azərbaycanın əsas ərazisi və Naxçıvan Muxtar Respublikası ilə alternativ keçid yaradacaq ki, bu da İranın Azərbaycan üzərindəki ən vacib rıçaqlarından olan "Naxçıvan tranziti" məsələsinin təsirini azaldacaq. Bundan əlavə, Zəngəzur dəhlizin Rusiya və Türkiyə arasında Gürcüstandan yan keçən yeni istiqamət təklif etməsi dəhlizin regional müstəvidə başqa bir əhəmiyyətli dəyişikliyidir.

Zəngəzur dəhlizinin interkontinental, yəni qitələrarası əhəmiyyəti isə Çinin son illərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni bir alternativlik təşkil etməsidir. Bu alternativlik Çindən gələn malların Türkiyənin şərq vilayətlərinə, oradan da Aralıq dənizi və ya İstanbul boğazları vasitəsilə Avropaya daşınmasını təklif edir. Əslində, bu yenilik həm Türkiyənin, həm də Çinin nəqliyyat yollarının diversifikasiya edilməsi strategiyalarına da uyğundur. Beləliklə, yaxın gələcəkdə Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsi fonunda Zəngəzur dəhlizi Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi çıxış etmək potensialı daşıyır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Bir sözlə, regional nəqliyyat şəbəkələrini daha da genişləndirəcək yuxarıda qeyd olunan dəhliz Cənubi Qafqaz ölkələrinə mühüm imkanlar açır. Bu dəhliz Şimal-Cənub Beynəlxalq Dəhlizinin və Orta Dəhlizinin əhəmiyyətini artıracaq, regional əməkdaşlıq isə sülhü bərpa edəcək, hadisələri azaldaraq münaqişəsiz mühiti önə çıxaracaq. Azərbaycanın regional siyasətindən əsas gözləntisi də budur. Yəni Ermənistan Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşarsa və Türkiyəyə qarşı qondarma soyqırımı iddialarından əl çəkərsə, regional əməkdaşlıqda iştirak edə və ciddi iqtisadi qazanc əldə edə bilər. Bu səbəbdən də İrəvanın zamanla Zəngəzur dəhlizinin təqdim etdiyi imkanların əhəmiyyətini anlayacağını proqnozlaşdırmaq olar. Zəngəzur dəhlizinin hüquqi müstəvidə perspektivliyi aktual bir məsələdir. Belə ki, Zəngəzur dəhlizi Türk dünyasını birləşdirən tək quru sərhəddir. Bu dəhliz Azərbaycanın maraqları daxilində açılarsa, hüquqi aspektdən ölkəmiz və digər türk dövlətləri üçün siyasi, iqtisadi və yeni əməkdaşlıqlar ilə yeni bir çağın başlanğıcının təməlini atacaq.

Prezident İlham Əliyev öz nitqində bəyan edir ki, "Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir". Bu bir milli hədəf və ulu öndərin həyata keçirmək istədiyi tarixi missiyanın davam etdirilməsi anlamına gəlir. Bu ilin feral ayında keçirilən YAP-ın VI qurultayında etdiyi çıxışda bildirdi ki, "Tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir".

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 191-194
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 191-194
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Toğrul Xəlilov**
AMEA Naxçıvan Bölməsi
tarix üzrə fəlsəfə doktoru
x.toqrul@gmail.com

# QƏRBİ AZƏRBAYCAN QAYAÜSTÜ TƏSVİRLƏRİNİN NAXÇIVAN PARELELLƏRİ

***Açar sözlər:*** *Qərbi Azərbaycan, Qarabağ, Naxçıvan, qayaüstü təsvir, prototürk mədəniyyəti*

***Keywords:*** *Western Azerbaijan, Karabakh, Nakhchivan, rock paintings, proto-Turkic culture*

Qayaüstü təsvirlər qədim maddi mədəniyyət nümunələrimiz içərisində çox maraqlı və elmi əhəmiyyətli daşıyan artefaktalardandır. Onlar ibtidai incəsənət nümunələri olmaqla yanaşı ulu əcdadlarımızın məişət və təsərrüfatımı, dini-ideoloji görüşlərini, maddi və mənəvi mədəniyyətini əks etdirir. Qayaüstü rəsmlərə yer kürəsinin müxtəlif yerlərində rast gəlmək olur. Pamir va Tyan-Şan dağlarında, İspaniya və Skandinaviyada, Kareliya, Sibirdə, Orta Asiyada, Altayda, Saxara səhrasında və digər yerlərdə qayaüstü təsvirlər var. Cənubi Qafqaz ərazisində qədim qayaüstü rəsmlərin ilk nümunələri hələ müharibədən əvvəlki illərdə respublikamızın ərazisində Qobustanda tapılmışdı. Qobustanla yanaşı Kəlbəcərdə, Naxçıvandakı Gəmiqaya, Qərbi Azərbaycandakı Soyuqbulaq, Qarakilsə abidələrində də vardır.

Qərbi Azərbaycandakı Qarakilsə rayonu ərazisində qeydə alınmış qayaüstü təsvirlər xronoloji cəhətdən iki qrupa ayrılır. Birinci qrup təsvirlər e.ə. V-IV minilliklərə, ikinci qrupr təsvirlər isə e.ə. III-II minilliklərə aiddir. Soyuqbulaq  qayaüstü təsvirləri eyni adlı kəndin yaxınlığındakı, Armudlu və Qaçaqqırılan dərələrində qeydə alınmışdır (Bahəddin, 2000: 13-14). Onlarda insanların məişət və təsərrüfat həyatını, bədii estetik düşüncə tərzini, dini ideoloji görüşləri ilə bağlı müxtəlif süjetlər əks olunduğu üçün maddi və mənəvi mədəniyyətimizi öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. Onlar mövzu rəngarəngliyi, zəngin süjetləri və böyük bədii dəyəri ilə diqqəti cəlb edirlər. Qərbi Azərbaycan ərazisində qeydə alınmış belə qayaüstü təsvirlərdən birini Qarakilsədə qeydə alınmış iribuynuzlu heyvana

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 191-194
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 191-194
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

qoşulmuş, ətrafında insanlar olan dördtəkərli araba rəsmi təşkil edir. Bu tip təsvirlərə Naxçıvanda Gəmiqaya abidəsində də rast gəlmək olur (Aliyev, 2020: 11). Hər iki abidədən aşkar olunmuş araba təsvirləri insanların məişət və təsərrüfat həyatını öyrənməklə yanaşı, arabadan istifadə edilmə mədəniyyətini öyrənilmək baxımından da, mühüm elmi əhəmiyyət daşıyır.




***1– Qarakilsə, 2,3–Gəmiqaya***

Qeyd olunan məsələ ilə bağlı araşdırma apararkən məlum olur ki, bu tip təsvirlərin "Bir heyvan qoşma mədəniyyəti" (Behayi, Sincan, 1994: 395), “Atlı araba mədəniyyəti” ilə bağlı olması haqqında mənbələrdə müxtəlif məlumatlar var. Tədqiqatçılardan F.Ağasıoğlu, N.Müseyibli, B.Tuncay, V.G.Childe, T.S.Piggott, Y.A.Şervda, A.Speiser ve J.Qavrada, L.Volley və digərləri araşdırma apararaq müxtəlif fikirlər irəli sürmüşlər. N.Müseyibli Azərbaycanın Eneolit dövrü abidələrindən (Leylatəpə, Böyük Kəsik, Qalayeri, II Poylu, Polutəpə) aşkar edilmiş gil təkər modellərinə əsaslanaraq arabadan istifadə edilmə mədəniyyətinin hind-avropa arealından Qafqaza yayılması haqqında fikirlərin heç bir elmi əsasının olmadığını qeyd etmişdir (Müseyibli, 2014: 84-85). A.Spenser ve J.Qavrada apardıqları

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 191-194**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 191-194**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

tədqiqatlar zamanı əldə olunmuş arxeoloji materiallara istinad edərək təkərin, arabanın ilk dəfə e.ə. 5000-ci ildə Mesopotomiyada (İki-çayarasında) icad edildiyini qeyd etmişlər. A.Speiser ve J.Qavradanla yanaşı L.Volley də bu istiqamətdə tədqiqat aparırmışdır. A.Speiser ve J.Qavrada, L.Volley apardıqları tədqiqatlar nəticəsində qeyd etmişlər ki, arabalar əvvəlcə ikitəkərli, sonra isə dördtəkərli düzəldilmişdir. Şumerlər arabanı "kağnı" adlandırmışlar. Ondan e.ə. 3500-cü ildə əsasən yük daşımaq üçün istifadə etmişlər. E.ə. 2500-cü ildə isə ikitəkərli araba dördtəkərli araba ilə əvəz olunmuşdur (Emel, 2002: 210-245). E.Emel qeyd etmişdir ki, "hunlar təkərli arabalar düzəltmişlər. Bu təkərli, çadırlı arabalardan istifadə onlar üçün əlverişli olmuşdur" (Ələkbərli, 2007: 210). Çinli tarixçi Sui Beihayi Tanrı, Altay dağlarında, Monqolustanda, Şərqi və Qərbi Türküstandakı abidələrdən aşkar olunmuş arabaların hun mədəniyyətinə aid olduğunu, e.ə. 2000-800-ci illərdə arabanın türklər tərəfindən geniş istifadə edildiyini qeyd etmişdir (8). Sui Beihayinin fikri ilə bağlılıq təşkil edən məlumat F.Rəşidəddinin "Oğuznamə"sində, Göytürk kitabələrində də, vardır. F.Rəşidəddinin "Oğuznamə"sində qeyd olunan məlumat belə əks olunmuşdur: *"...digər bir qövm də, düşmənləri yağma edib qənimət (olcay) yığdıqlarından, heyvanlar bunları daşımaq üçün gəlib çatmadığından "qanqlı"lar düzəltdilər. Bundan əvvəl təkərlər yox idi. Arabanı ilk dəfə bunlar düzəltdilər. Əşyaları, yükləri və qənimətləri bunun üzərinə qoyaraq daşıdılar, getdilər. Oğuz bu səbəbdən onlara "qanqlı", "yəni arabaçılar" adını verdi*" (Şayan, 2005: 19).

Mənbələrdə olan məlumatları və tədqiqatçıların fikirlərini müqayisəli şəkildə öyrənərək sonda belə bir nəticəyə gəlmək olar ki, bu təsvir insanların məişət və təsərrüfat həyatını öyrənməklə yanaşı, türk mədəniyyətində özünəməxsus yer tutan "Araba mədəniyyəti" ilə bağlılıq təşkil edərək bu mədəniyyətin Qərbi Azərbaycanı da əhatə etdiyini, bu ərazinin qədim oğuz, türk yurdu olduğunu sübut edir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Bahəddin, Ö. (2000). Türk Kültür Tarixinə Giriş, c.1., Nəşr 2. Ankara: Mədəniyyət Nazirliyinin nəşrləri, 452 s.
2. Aliyev, N. (2020). Gəmiqaya rəsmləri. Naxçıvan: Əcəmi, 576 s.
3. Behayi, S, Sincan, Y. (1994). Doğu Türküstan qayaüstü rəsmləri. Urumçi: Doğu Türküstan Gözəl Sənətlər və Fotoşəkillər nəşriyyatı, 613 s.
4. Müseyibli, N. (2014). Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. Bakı: Nafta-Press, 140 s.
5. Emel, E. (2002). Türk sənətində at. türklər., c. 4. Ankara: Yeni Türkiyə nəşrləri, s. 210-245.
6. Ələkbərli, Ə.Y. (2007). Qərbi Azərbaycan abidələri. Bakı: Nurlan nəşriyyatı, 272 s.
7. Tekerlek. [Elektron resurs] URL: https://www.tarihiolaylar.com/tarihi-olaylar/tekerlek-156.
8. Şayan, U.Ş. (2005). Türk Mədəniyyətində At Arabası (At Arabalarının Dili). Bilig, qış, s. 32, Əhməd Yəsəvi Universiteti Mütevelli Heyəti, s.165-178.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 195-198**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 195-198**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Malahat Babayeva**
Azerbaijan State Pedagogical University
Ph.D in philology
milababayeva@mail.ru
https://orcid.org/0000-0002-3600-8499

# REFLECTION OF HISTORICAL REALITY IN AYYUB ABBASOV'S NOVEL "ZANGAZUR"

***Keywords:*** *"Zangazur" novel, Ayyub Abbasov, occupation, refugees, Azerbaijan settlement*
***Açar sözlər:*** *"Zəngəzur" romanı, Əyyub Abbasov, işğal, qaçqınlar, Azərbaycan qəsəbəsi*

Ayyub Abbasov's novel "Zangazur" is first of all a picture of the life of Zangazur and its Azerbaijani inhabitants at the beginning of the 20th century. Unfortunately, the work is dominated by painful panels. What to do, it was our history full of blood and sorrow. The novel can be called a set of moral values of Zangazur villagers. The hardworking villager Nabi, his wife Gulendam, his daughter Novraste, and his son Yusif are pure people, like the air of the mountains they live in and the water of the ice springs they drink. First of all, the novel is a picture of the life of Zangazur and its Azerbaijani inhabitants at the beginning of the 20th century. Unfortunately, the work is dominated by painful panels. What to do, it was our history full of blood and sorrow. The novel can be called a set of moral values of Zangazur villagers. The hardworking villager Nabi, his wife Gulendam, his daughter Novraste, and his son Yusif are pure people, like the air of the mountains they live in and the water of the ice springs they drink. The author gives the plan of atrocities that Andronikos will commit from Dashnak's own language..."

The novel was written and published in the years when the Armenian leaders scattered in the Armenian SSR and in other countries of the world were allegedly making serious preparations for the 50th anniversary of the genocide of the Armenians by the Turks in Anatolia in 1915, openly and secretly. In the books of G.Garibchiyan, S.Khanzadyan, A.Mikoyan, I.Bagramyan, the bloodthirsty Andronikos

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

was created as the "savior of the Armenian people". Therefore, on that eve, Armenians removed "Zangazur", which tells about the Armenian genocide, from the libraries. They were gathering so that the light of truth would not fall on the lies they made up. Because the truth reflected in the novel cut and chopped the lies of the Armenians like a sword.

There is no doubt that the creation of the Armenian state, which had never existed in the historical Azerbaijani lands, was first of all made possible by the military and political assistance of Tsarist Russia, based on the scenario of Peter's wills.

This factor is repeatedly emphasized in the book. The most painful thing is that as soon as A. Abasov's novel "Zangazur" was published, Azerbaijani writers with a bolshevik mindset started to write accusations that this work sows seeds of enmity between the Armenian and Azerbaijani peoples. Suleyman Rahimov, who was the chairman of the Union of Writers at that time, noted in his memoirs that he was repeatedly approached about this.

One of the advantages of "Zangazur" was that it resonated with today. It seems that the work is not about the genocide that took place in Zangezur in 1918, but about the last bloody massacres in Karabakh. We read these lines from the mouth of one of the refugees with a heavy heart: "Now it's spring in our place, the field is blue outside, the trees are leafing, the water lilies are blooming on the banks of the river and the springs. Oh, I wonder what cruel fate my house and clothes have had? If we return to the village, will the Armenians give everyone's house and land to themselves? ...There is a fire on our Andronic root. May God blow the house down, after all, what did we do to the Armenians? Why did they remove the creature from its place, from its home?!"

As we read the novel, we learn that as soon as Andronikos entered Zangazur with his army, he first met the Armenians there and made such a bloody plan: "Not one of the Muslim villages should be left unscathed". "Killing a Turk is not a crime, it's a heroism", says Taigulak Dashnak, brazenly declaring his goal. A.Abasov tried to describe Andronik's bloody tragedies in Zangazur in a more extensive and meaningful way. The author transferred the events of the genocide to the pages of the novel with these lines: "It is the spring of 1919. The

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

life of the Zangazur refugees was getting worse and worse. Thousands of people were in misery. They could not find any way or opportunity to break the chain of disaster that had passed their throats. It had been more than ten months since the Zangazur refugees they were trembling in disaster. Everyone was longing for their burned and destroyed villages and homes. But it was impossible to return to the land where the Dashnaks ruled".

In the days when the work was written, it aroused great interest in the literary community of our country. Those who witnessed the oppression of the Dashnaks during the Armenian-Muslim conflict welcomed the novel.

Even an Armenian named A.Balayan praised the work in the Armenian-language magazine "Grakan Azerbaijan" ("Literary Azerbaijan") and called it "a novel about the friendship of peoples". But Balayan did not write in his article that the author professionally described the brutal face of Andronikos, who was sucking the blood of Azerbaijanis. He could not even write. Because he was Armenian, the Dashnak spirit was circulating in his blood and soul. However, throughout the work, the bloody image of the Taigul Dashnak was clearly visible.

The novel was distributed to libraries in Armenia and then hurriedly collected. I wonder what was the reason for this? Probably, the main reason for this was that Armenians were afraid of the truth. The Dashnaks, who were used to constant falsification, feared the truth as much as they feared fire. Armenians were worried about the writing and publication of the novel because it reflects real events and the truth. The bright dawn of the sun of truth dazzled the eyes of the Dashnaks. Just as a bat is afraid of light, Armenians were also afraid of the truth. The writer boldly revealed the character of Armenians, their inner world full of ugliness.

The truth did not benefit the Armenians. Because they secretly carried their grudges against Azerbaijanis in their hearts and lived with the ideas of Andronik the Taigul, even in a time when the sword of the Soviet government was cutting the branch and front. The fact that "Zangazur" reflected the truth of the Armenian Genocide cut onions to the voice of the Dashnaks. In order to prevent the spread of the genocide they committed in Zangazur, the Armenians tried to cover up

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 195-198**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 195-198**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

the truth with the lies they invented, and in some cases they succeeded. This was evidenced by the fact that the novel was removed from libraries in Armenia in a short period of time without giving any valid reason. In those years, the Dashnaks achieved their goals in both open and hidden ways and implemented their disgusting ideas.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 199-203**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 199-203**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Zəminə Əsgərova**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
zaminacahan2012@gmail.com
https://orcid.org/0000-0001-5906-9588

# QARABAĞ XIX ƏSRİN SONLARI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

***Açar sözlər:*** *Cənubi Qafqaz, milli ədavət, intellektual elita, Qarabağ, Çar hökuməti, Vətən müharibəsi*

***Keywords:*** *South Caucasus, national enmity, intellectual elite, Karabakh, Tsarist government, Patriotic War*

Ermənilərin 1890-cı illərdən başlayaraq Şərqi Anadoluda erməni dövləti yaratmaq niyyəti ilə Osmanlı dövlətinə qarşı qaldırdıqları xəyanətkar qiyamları yatırdıqdan sonra bu mübarizənin mərkəzi Şimali Azərbaycana keçmiş oldu. Cənubi Qafqazı terror yuvasına çevirməyə çalışan erməni siyasi-terror partiya təşkilatıları və komitələri çox təəssüf ki, iri sənaye şəhəri olan Bakını hədəf seçərək burada sürətlə təşkilatlanmağa başladılar.

Hələ 1885-ci ildən onların millətçi təmayüllü ilk siyasi partiyası "Armenakan", 1887-ci ildə isə Cenevrede "Qnçaq" partiyası yaradıldı. 90-cı illərin ortalarından partiyanın Bakıda, XX əsrdə isə Şuşada şöbələri yaradıldı. Bu dövrdə Azərbaycan milli-demokratik qüvvələri isə siyasi təşkilatlanma, milli siyasi partiyaların yaradılması prosesinə daha gec 1905-ci il qırğını dövründə başlamışdır (Baykara, 1992: 83).

Qafqaz hərbi qüvvələrinin komandanı və mülki idarənin xüsusi müfəttişi, general Dondukov-Kopçakov qaçaqlara qarşı ciddi mübarizə aparmaq üçün yerli idarə rəislərinə geniş səlahiyyət verməklə yanaşı, hərbi qüvvələrində onlara yardım etməsini əmr etmişdi. Beləliklə, Çar Rusiyasının bütövlükdə Şimali Azərbaycanda, o cümlədən Qarabağda inzibati-siyasi, sosial-iqtisadi və mədəni inkişafı üçün geniş imkanlar yaratdığı ermənilər kütləvi şəkildə bu torpaqlara köçüb gəldilər və ən əsası, çox keçmədən Azərbaycan torpaqlarında sərsəm "Böyük Ermənistan" ideyasının həyata keçməsi uğrunda mübarizəyə başladılar (Qafqazda erməni məsələsi, 2010: 11).

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Həmin ideyanın əsas tərkib hissələrindən biri də digər Azərbaycan torpaqlarında, xüsusilə də İrəvan, Zəngəzur və Qarabağın yerli azərbaycanlı əhalisini məhv etmək və torpaqlarını ələ keçirmək idi. Erməni millətçiliyi hərəkatında əsas aparıcı yeri 1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksütyan" partiyası tuturdu. Az sonra onun Bakıda, Yelizavetpolda, o cümlədən Qarabağda – Şuşada da bölükləri təşkil edildi. Təsadüfi deyildir ki, görkəmli gürcü ictimai xadimi və publisisti Karibi öz yazılarında ermənilərin bu dəhşətli bəlasını – "Daşnaksütyan" bütövlükdə Kiçik Asiyanın, xüsusilə də Zaqafqaziyanın bütün xalqlarının bəlası adlandırıldı (Qafqazda erməni məsələsi, 32).

XIX əsrin sonu XX əsrin başlanğıcı Azərbaycanda kapitalist münasibətlərinin sürətli inkişafı, milli sənaye burjuaziyası və milli ziyalılar – intellektuallar zümrəsinin yetişdiyi xalqın milli-siyasi oyanma prosesinin dərinləşməsi dövrüdür.

Bu dövrdə Çar Rusiyasının müsəlman əhaliyə qarşı istifadə etmək məqsədilə dəstək verdiyi, böyüməsinə, güclənməsinə göz yumduğu erməni terrorçu-siyasi təşkilatları Şimali Azərbaycanda hücuma keçmək, milli qırğın törətmək üçün artıq tam hazır idilər. Ermənilər 1905-ci ildən başlayaraq Azərbaycan türklərinə qarşı kütləvi soyqırımı törətməyə başladılar. Çarizm Cənubi Qafqazda həm yüksələn inqilabi hərəkat, həm də erməni milli ekstremizmi ilə üzləşmiş oldu. Belə bir şəraitdə 1905-ci ilin fevralında erməni-azərbaycanlı qırğını başlamış oldu. 1905-1906-cı illərdə erməni silahlı dəstələrinin hücumları, eyni zamanda Cənubi Qafqazın müsəlman icmasının sıx birləşməsinə, təşkilatlanma prosesinin başlanmasına inqilabi dövrün hər hansı başqa hadisələrindən daha çox təkan vermişdir (Qafqazda erməni məsələsi, 33).

Çar hökümətinin milli ədavət və milli qırğın siyasəti Azərbaycanın demokratik qüvvələrini, milli-intellektual elitasını, xalqı erməni qətliamlarından müdafiə etmək üçün qətiyyətli addımlar atmağa vadar etdi. Azərbaycanın intellektual elitasının, siyasi təşkilatlanmaq qərarı Qarabağda, onun ürəyi olan Şuşada reallaşmış oldu.

1906-cı ilin iyul qırğınlarından sonra milli hərəkatımızın ən böyük liderlərindən biri Əhməd bəy Ağaoğlunun başçılığı ilə Şuşada keçirilən müşavirədə "Difai" partiyasının yaradıldığı elan edilmiş və burada "Komissiya" adlı ilk özək yaradılmışdı. 1905-1906-cı illərdə törətdikləri qırğınlarla kifayətlənməyən ermənilər Birinci Dünya

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 199-203**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 199-203**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edərək yenidən mifik "Böyük Ermənistan" yaratmaq planını ortaya atdılar. Onların bu sərsəm "Böyük Ermənistan" xülyasının əsas tərkib hissələrindən biri yenə də Qarabağın və digər Azərbaycan torpaqlarının yerli türk müsəlman əhalini məhv etmək və bu torpaqları ələ keçirmək idi (Məmmədov, 2005: 128).

Birinci Dünya müharibəsinə qədər ermənilər Azərbaycanda, xüsusilə Qarabağda öz mövqelərini xeyli möhkəmlədib Rusiya hakimiyyətinə söykənərək yerli azərbaycanlı əhalini artıq sıxışdırmağa başlamışdılar. Həmin dövrdə erməni tacirləri, sənayeçiləri və bankirləri mütləqiyyətin onlara verdiyi qeyri-məhdud imkanlardan istifadə edərək praktik olaraq Qafqazın iqtisadi həyatını ələ almışdılar. Bu yolla böyük sərvətlər də ələ keçirmiş erməni dairələri Qafqaz canişini, ermənipərəst İ.İ.Vorontsov-Daşkov tərəfindən də xüsusi canfəşanlıqla himayə edilirdi.

1915-ci ildə Osmanlı dövlətinə qarşı qaldırdıqları qiyamlarda yenə də məğlub olan xain ermənilər rusların himayəsi ilə yüz minlərlə Qarabağ, Bakı, İrəvan ərazilərinə köçməyə başladılar. Bu dəfə onlar əsas qüvvələrini Cənubi Qafqazda cəmləşdirərək çarizmin himayəsinə sığınmaqla azərbaycanlılara qarşı mənfur siyasətlərini, küdurətlərini davam etdirməyə başladılar (Nəcəfov, 2007: 176-177).

Müharibənin doğurduğu ağır iqtisadi və siyasi böhran günü-gündən artan xalq hərəkatı Azərbaycan da daxil olmaqla Rusiya imperiyasını yeni inqilabın astanasına gətirib çıxarmış oldu. Tezliklə, imperiyanın tarixində iki nəhəng taleyüklü hadisənin baş verməsi – Ramanovlar sülaləsinin 1917-ci il fevral inqilabı ilə devrilməsi, onun ardınca bolşeviklərin həmin ilin oktyabrında qeyri-legitim yol ilə hakimiyyəti ələ alması Qafqazda da yeni siyasi-ictimai vəziyyətin, hətta anarxiyanın yaranmasına səbəb oldu. Belə ki, müharibədən qayıdan, rus ordusunda xidmət etmiş erməni dəstələri və daşnak-bolşevik qatilləri birləşərək ölkəmizdə milli qırğının daha dəhşətli mərhələsinə başlamış oldular. 1918-ci ilin mart qırğınları – erməni qatillərin törətdiyi bu kütləvi soyqırımı Azərbaycan xalqına çox ağır zərbə vurdu. Yalnız Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə xalqımızın, o cümlədən Qarabağın tarixində yeni dövr – milli istiqlal dövrü başlamış oldu (Kafkazskiy kalendar' na 1917, 190-197).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Nəhayət, Azərbaycan xalqının 2020-ci ilin sentyabrın 27-də başladığı və 44 gün ərzində qələbə ilə başa vurduğu Vətən müharibəsi erməni faşizmini məhv etməklə bərabər, Ermənistanın işğal etdiyi əzəli torpaqlarımızın azad edilməsi ilə nəticələndi.

Azərbaycanın bu qələbəsi xalqımızın 30 illik torpaq həsrətinə son qoymaqla yanaşı, ölkəmizdə son 27 ildə güclü dövlət quruculuğu istiqamətində həyata keçirilən strategiyanın və müəyyən hədəflərə hesablanmış siyasətin məntiqi nəticəsi oldu. Son 17 ildə ölkəmizdə bütün sahələrdə qazanılan uğurlar ümummilli lider Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağ incisi, Azərbaycan mədəniyyət mərkəzi adlandırılan Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən bildirmişdir: “Mən bu gün, eyni zamanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim” (Siskin, 2013: 74).

Bu gün ulu öndərin şah əsəri olan Azərbaycan etibarlı əllərdədir. Davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından – Heydər Əliyevdən “Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” – qiymətini alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Baykara, H. (1992). Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 83 s.
2. Qafqazda erməni məsələsi. (2010). Rusiya arxiv sənədləri və nəşrləri üzrə, III cild. Bakı, 11 s.
3. Qafqazda erməni məsələsi. Rusiya arxiv sənədləri və nəşrləri üzrə III cild, 32 s.
4. Qafqazda erməni məsələsi. Rusiya arxiv sənədləri və nəşrləri üzrə III cild, 33 s.
5. Məmmədov, X. (2005). Azərbaycan milli istiqlal mübarizəsi. Bakı, 128 s.
6. Nəcəfov, B. (2007). Düşmənin iç üzü: XIX əsrin sonları XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi, III cilddə, I cild. Bakı, s.176-177.
7. Kafkazskiy kalendar' na 1917 g, s.190-197.
8. Siskin, A.A. (2013). Druz'ya i vragi za Kavkazskim khrebtom Moskva, 74 s.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 204-206
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 204-206
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Aytən Əliyeva**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
dissertant1@gmail.com

# QƏDİM AZƏRBAYCAN TORPAĞI – ZƏNGƏZUR

***Açar sözlər:*** *tarixi mənbə, erməni işğalı, əlverişli ərazi, türk tayfası, tarixi fərman*

***Keywords:*** *historical source, Armenian occupation, favorable area, turkish tribe, historical decree*

Ən qədim tarixi mənbələrlə yanaşı, bir çox dünya alimləri tərəfindən aparılan tədqiqat və araşdırmalar Zəngəzurun IV-IX əsrlərdə – Alban dövlətinin, daha sonra Sasani İmperiyası və Ərəb xilafətinin, IX-XI əsrlərdə ərəb xilafətinə qarşı müharibələrdə qalib gəlmiş qədim Azərbaycan dövlətlərinin – həmin ərazilərdə əsrlər boyu müxtəlif adlar altında hakimiyyətdə olmuş Sacilər, Salarilər və Rəvvadilərin, XII-XIII əsrin əvvəllərində – Atabəylərin, XIII-XIV əsrlərdə – Hülakülərin, XIV əsrdə – Cəlairilərin, daha sonra Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI əsrin başlanğıcında – qüdrətli Səfəvi dövlətinin, XVIII, XIX əsrin 20-ci illərində Qarabağ xanlığının tərkibində olduğunu təsdiq edir.

Zəngəzurun tarixini araşdıran digər tədqiqatlarda 1905-1907 və 1918-1920-ci illərdə silahlı erməni dəstələrinin təcavüzünə məruz qalmış Zəngəzurun 115 müsəlman kəndinin talan edildiyi, yandırılaraq yer üzündən silindiyi, 4472 qadın və uşağın erməni silahlıları tərəfindən xüsusi amansızlıqla öldürüldüyü tarixi sənədlər və faktlarla sübuta yetirilir.

1920-ci ilin 10 avqustunda Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Bürosunun qərarı ilə Zəngəzur Azərbaycanla Ermənistan arasında “mübahisəli ərazi” elan olunsa da, təəssüf ki, qərarın qəbulunda bir nəfər də azərbaycanlı iştirak etmir... Beləliklə, Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi tərəfindən 1920-ci il noyabrın 30-da keçirilən iclasın qərarı ilə Zəngəzur – sovet Ermənistanının tərkibinə verilir. Bu qərarın nəticəsi olaraq, Azərbaycanın Naxçıvan bölgəsi ölkə ərazisindən ayrı Salı-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

nır və beləliklə, Azərbaycanın Türkiyə ilə, eləcə də bütün türk dünyası ilə quru əlaqələri kəsilir (1).

Zəngəzur ərazisinin coğrafi baxımdan əlverişli olması, təbii istehkamların – kaha və mağaraların, gizlənməyə və daldalanmağa etibarlı səngər rolu oynayan nəhəng qayaların, sal daşların, keçilməz sıx meşələrin, gur bulaqların və dumduru çayların bol olduğu bir yer – ilk insanların məskunlaşması üçün ən əlverişli regionlardandır. Zəngəzurun qədim insan məskəni olmasını, bu insanların mənşəcə bizlərə, yəni azərilərə aid olmasını təsdiq edən qiymətli maddi abidələrdən biri də Nüvədi kitabələridir. Bu kitabələri aşkar edən, onları işığa çıxaran, vətəni tərk etmək məcburiyyətində qalanda həmin daş kitabəni də kürəyində Bakıya gətirən, elmi diskusiyaların mövzusuna çevirən qeyrətli vətən oğlu, cəfakeş ziyalı və qələm sahibi Həmzə Vəlinin "Nüvədi kitabələri"ni misal göstərə bilərik (Urud Musa, 2016: 77).

Növbəti bir dəlil isə Zəngəzurun adı ilə bağlıdır. "Zəngəzur" sözü təmiz türk mənşəli toponimdir. "Zəngi" – qədim türk tayfasının adıdır və bu gün bu ərazidə yerləşən bir çox coğrafi adların – Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngi çayı, Zəngibasar, Zəngilər, Zəngan, Zəncan, Zəngilli və s. kimi kənd, çay, dağ adlarının qaynağıdır.

Azərbaycanda Araz çayının bir qolu Zəngibar, Pirsaat çayının bir qolu Zəngi dərə adlanırdı. Ağdamın böyük kəndlərindən biri indiyədək Zəngişalı adlanır. Zəngilan şəhərinin adı zəngi və ilan etnonimləri əsasında yaranmışdır. Cənubi Azərbaycandakı Zəncan şəhərinin də adı Zəngi olmuşdur.

Azərbaycanın qədim mahallarından olan Zəngəzur 7824 kv.km ərazisi ilə indiki Ermənistan Respublikasının Gorus, Sisian, Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını əhatə edir.

Azərbaycan Ordusunun 44 günlük "Vətən müharibə"sində qazandığı qələbə, haqq-ədaləti və saxtalaşdırılmış tarixi bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması təsdiq olundu. Həmin ilin oktyabrın 26-da növbəti uğurlu addım atıldı. Bütün Türk dünyasını birləşdirən, Azərbaycanda və bölgədə yeni reallıq yaradan Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

təməlinin qoyulması ilə tarixə yazıldı. Ulularımızın bizə əmanət verdiyi, miras qoyduğu Zəngəzur elləri uzun illərdir ki, bütünlüklə erməni işğalındadır.

30 ildən sonra Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq Şuşada, Laçında, Ağdamda dalğalanan bayrağımızın yaxın gələcəkdə Zəngəzurda dalğalanancağına inanır və bu yolda Ali Baş Komandanı bir millət olaraq dəstəkləyirik.

## Ədəbiyyat

1. Urud Musa. (2016). Zəngəzur: Uzaq keçmişdən müasir dövrə qədər: monoqrafiya. Bakı: Nurlar NPM, 480 s.
2. https://aztc.gov.az/az/posts/id:1310

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 207-208**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 207-208**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Günel Hümmətova (Pəniyeva)**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
gunelpeniyeva@mail.ru
UOT 82-3.512.162
https://orcid.org/0000-0002-8916-3484

# "KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA ZƏNGƏZUR MAHALININ TÜRK TORPAĞI OLMASI FAKTLARI

***Açar sözlər:*** *boy, tayfa, türk torpağı, xalq, Zəngəzur mahalı*
***Keywords:*** *boy, tribe, turkish land, people, Zangazur district*

Azərbaycan mədəni və ədəbi mühitində böyük rol oynayan "Kitabi-Dədə Qorqud" dastanı eyni zamanda tariximizin, ədəbiyyatımızın, coğrafiyamızın keçmişini özündə çəmləşdirən tarixi salnamə rolunu oynayır. Türk xalqının keçmişini özündə cəmləşdirən bu möhtəşəm qaynağın bütün boylarında tariximizə, ərazimizə məxsus olan hər bir mədəni, tarixi abidələrinin, tayfalarının, toponimik vahidlərinin adları bu və ya digər şəkildə çəkilir. Bunlardan biri də *"Uşun qoca oğlu Səyrək boyu"*dur (Kitabi-Dədə Qorqud, 2014: 208) ki, burada türk torpaqlarına və türk tayfalarına aid olan tayfa və ərazinin adı çəkilməklə həmin ərazinin türk xalqına mənsub olduğunun sübutunu verir. Elə boyun sərlövhəsindəki "Uş" sözündən və "Kitabi-Dədə Qorqud" dastanının baş qəhrəmanının Ulaş oğlu Salur Qazanxanın adındakı "Ulaş" sözündən də aydındır ki, bu tayfa türk xalqına aiddir və Qubadlıda yaşayan Ulaş-hulaş tayfasının adındandır. Həmin tayfaya məxsus olan ulaşlılar Birinci Qarabağ müharibəsinə kimi Qubadlının Ulaşlı kəndində qalırdılar.

*"Uşun qoca oğlu Səyrək boyu"*da baş vermiş hadisələrin Əlincə Qalası ətrafında baş verməsi, "*qara donlu kafirlərin başçısı Qara Təkur Əlincə qalası ətrafında qoruq düzəldib bu yerləri oğuz igidləri üçün tələ etmişdi, qoruğun qapısını qırıb burada ov edən Uşun qoca oğlu Səkrəyin igidlərini altı yüz qara donlu kafir hücum edib qırmış, özünü də Əlincə qalasındakı zindanda əsir etmişdi. Qardaşını azad etmək üçün* (Nərimanoğlu, 2019: 17). *"Əkrək dədə-baba, el yolu, yəni Gorus-Əngəlyurd-Dərəşam yolu ilə üç gün-üç gecəyə yortaraq Əlincə qalaya*

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*çatmışdır»* (Kitabi -Dədə Qorqud, 2014: 263) və burada adı çəkilən hər üç toponimin "*Əkrək dədə-baba", "Gorus-Əngəlyurd-Dərəşam*", "*Əlinc*" Zəngəzurda yerləşməsi həmin torpaqların türk xalqına məxsusluğunun göstəricisidir. Bu toponimlədən biri olan Gorus kəndi Zəngəzurun mərkəzi olmuş və *us, uş* tayfası da burada yaşamışlar. Elə ona görə də igid *uslar* öz tayfasının qərargahını, yaşayış yerini bu mərkəzdə salmışlar. Buradan da məlum olur ki, Zəngəzur mahalının tərkibinə daxil olan Gorus kəndinin sakinləri də qədim türk tayfalarının nümayəndələridir.

Bütün bu nümunə və faktlara, tarixi hadisələrdəki tarixi faxtlara, əsatir və əfsanələrdən, bayatı və xalq deyimlərindən çıxış edərək vurğulaya bilərik ki, Zəngəzur torpağı türk xalqlarının soykökünə məxsusdur və hər daşında, qayasında türk xalqının izi, tarixi yaddaşı, adı və nəsəfi duyulur.

## Ədəbiyyat

1. Kitabi-Dədə Qorqud. (2014). Bakı: Öndər.
2. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Azərbaycan, Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 209-214**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 209-214**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Ələsgər Mirzəzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Cəlilabad filialı
doktorant
mirzezade.elesger@mail.ru

# AZƏRBAYCAN TARİXİNDƏ ZƏNGƏZUR: KEÇMİŞDƏN İNDİYƏ

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, Sak yurdu, inzibati ərazi, nahiyyə, qəza*

***Keywords:*** *Azerbaijan, Zangazur, Sak homeland, administrative area, district, district*

Bütövlükdə Zəngəzur Azərbaycanın *Qubadlı, Laçın, Zəngilan* rayonlarını, bu gün Ermənistan adlandırılan Qərbi Azərbaycanın *Qafan, Gorus, Sisyan, Meğri* rayonlarından ibarət olmaqla 7.892 kv.km ərazini əhatə edir. Qədim dövrdə bu ərazi *Sünik* adı ilə ifadə olunmuşdur. Bu tarixi məlumata Musa (yaxud, Moisey) Kalankatuklunun "Albaniya tarixi" əsərində rast gəlirik (Kalankatuklu, 1993: 33).

Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır.

"Zəngəzur" coğrafi məfhumuna XIX əsrdən çox-çox qabağa, hələ XVI əsrdə rast gəlinir. Zəngəzur inzibati-ərazi vahidi ilk dəfə 1593-cü ildə Osmanlı məmurları tərəfindən tərtib edilən *"Urud və İsgəndər qalasının müfəssəl dəftəri"* adlanan sənəddə "Zəngəzur nahiyəsi" adında ayrıca olaraq göstərilmişdir (Urud, 2005: 404). Zəngəzurun tarixinə nəzər salanda aydın görmək olur ki, ərazinin indi Ermənistan adlanan respublika ilə hər hansı bir bağlılığı belə olmamışdır.

Tarixə nəzər salaq:

İstər keçmiş, istərsə də son tədqiqatlar sübut edir ki, Zəngəzur Azərbaycan torpağıdır. Zəngəzur adı ilk dəfə III əsrdə "Kəbeyi-Zərdüşt" kitabəsinin arameycə mətnində *Sakan* kimi, yəni türk soylu "Sakların yurdu" kimi çəkilib. VII əsrdə alban tarixçisi *Musa*

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*Kalankatuklu* "Alban tarixi" əsərində, həmçinin *Siraklı Ananiya* "Coğrafiya" əsərində Qarabağ və Zəngəzurun qədim əhalisinin hunlar və peçeneqlər olduğunu yazıblar. XVIII əsrdə mxitaristlər (erməni katolikləri) tərəfindən tarixi faktların təhrif edildiyi qondarma "erməni mənbələri"ndə Zəngəzur adı saxta Sünik adı ilə əvəz edilib.

AMEA Tarix İnstitutunun əməkdaşı, Urartu və Vətən tarixinin tədqiqatçısı Ramin Əlizadə AZƏRTAC-a verdiyi müsahibəsində göstərir ki, "XVI-XVII əsrlərdə Avropa coğrafiyaçıları tərəfindən hazırlanan xəritələrdə Qarabağ və Zəngəzur ərazisində yer-yurd adları Azərbaycan türkcəsində qeyd olunub. Avropa coğrafiyaçıları Zəngəzuru *"Sak yurdu"* adı ilə öz xəritələrində qeyd ediblər. Məşhur italyan coğrafiyaçısı Cakomo Qastaldi 1559-1561-ci illərdə hazırladığı "Asiyanın birinci hissəsinin təsviri" xəritəsində Zəngəzurun adı "Zaka" (Saka) (sonda xəritəyə bax), Laçın rayonunda yerləşən Hoçaz dağının adı "Koçias", Göyçə gölü isə "Gyöççe" kimi çəkilib. Bu xəritədə həm Qarabağ, həm də Zəngəzur ərazisində ermənilərə aid heç bir yer-yurd adı qeyd edilməyib. Ermənilərin qondarma Sevan, Sünik, Artsax adları isə heç bir qədim xəritədə əks olunmayıb. Bunun başlıca səbəbi həm Cənubi Qafqazın, həm də Şərqi Anadolunun yerli əhalisinin ermənilər deyil, türk tayfaları olmasıdır (3).

1571-ci ildə brabant coğrafiyaçısı Abraham Orteliusun "Avropa" başlıqlı xəritəsində bütün Şərqi Anadolu və Azərbaycan ərazisi Türkman boylarının yurdu – Turcomani (Turkomani) adlandırılıb. XIII əsrin sonu – XIV əsrin əvvəllərində Elxani hökmdarı Qazan xanın vəziri olmuş Fəzlullah Rəşidəddin "Came ət-Təvarix" əsərində, XV əsrin əvvəlində Əmir Teymurun yürüşlərində onu müşayiət etmiş ispan səfiri R.Q.Klavixo öz səyahətnaməsində, 1459-cu ildə venesiyalı coğrafiyaçı Fra Mauro "Mappa Mundo" dünya xəritəsində Qarabağ adını çəkəndə ermənilərin nəinki Azərbaycan ərazisində, hətta bütün Qafqaz regionunda tarixi keçmişini sübut edən heç bir fakt mövcud deyildi. Qeyd edək ki, Fra Mauro bütün Cənubi Qafqaz regionunu Turcomani, yəni *türk boylarının ölkəsi* adlandırırdı. II əsrdə Klavdi Ptolemey öz xəritəsində Cənubi Qafqaz regionunda yalnız iki dövlətdən – Albaniya və İberiyadan bəhs edir. K.Ptolemeyin xəritəsində Qafqaz regionunda Armeniya adlı ölkədən bəhs edilmir (Bayramov).

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Mada şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olub. Moisey Kalankatlı "Albaniya tarixi" əsərində VII əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcud olduğunu qeyd edir.

Qədim dövr mənbələrində bu region Sisakan, yaxud Sünik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan sakların adı ilə bağlı olduğunu yazırlar.

XIII-XIV əsrlərdə Zəngəzur torpaqları coğrafi baxımdan Azərbaycan əyalətinin Naxçıvan tüməninə və Arran əyalətinə daxil olmuşdur. Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat və Naxçıvan əyalətlərinin tərkibinə düşür. Qapanat Zəngəzurun Bərgüşad silsiləsinə qədər olan cənub hissəsini əhatə edirdi. Sisyan isə Naxçıvan əyalətinə daxil idi. Zəngəzurun Gorus və Kaştaq (Laçın) mahalları isə Qarabağ vilayətinin bir hissəsi idi.

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi zamanı Azərbaycanın böyük hissəsini ələ keçirən osmanlılar Naxçıvan əyalətini Sisyan və Qapanat mahalları ilə birlikdə Azərbaycan vilayətinin tərkibindən çıxarıb, Çuxursəd vilayətinin tərkibinə keçirdilər. Qapanat mahalı Bərgüşad və Urud livalarına bölündü. Sisyan mahalından Kiçik Bazarçay nahiyəsi ayrıldı. Qapanat və Zəngəzur əraziləri Çuxursədin Bayazid və Alaşkert vilayətləri ilə birlikdə ayrıca Bayazid livasını təşkil etdilər. Keştaq və Həkəri mahalları Qarabağ (Gəncə) əyalətinin tərkibinə daxil idi (Bayramov).

Osmanlılar XVIII əsrin 20-ci illərində Azərbaycanın çox hissəsini ələ keçirmişdilər. 20-30-cu illərin Osmanlı hakimiyyəti dövründə Zəngəzur torpaqlarının bir hissəsi – Sisyan və Meğri Çuxursəd vilayətinə, Bərgüşad, Həkəri, Keştaq, Guləndər nahiyələri və Keştakın bir hissəsi Gəncə-Qarabağ əyalətinin tərkibində idi.

1735-ci ilə kimi bütün Azərbaycan torpaqlarını osmanlılardan geri alan Nadir Əfşar, 1736-cı ildə Muğan qurultayında şah elan edilməsi zamanı Qarabağ (Gəncə) bəylərbəyi Ziyadoğulları onun şah seçilməsinə qarşı çıxdığına görə, Qarabağ məlikliklərini bəylərbəyliyin tabeçiliyindən çıxarıb, Azərbaycan hakimi təyin edilmiş qardaşı İbrahimin tabeçiliyinə keçirmişdi. 1747-ci ildə Nadir şah sui-qəsd nəticəsində öldürüldükdən sonra onun imperiyası çoxsaylı xırda

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

dövlətlərə – xanlıqlara parçalandı. Zəngəzur ərazisi Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığının tərkibinə daxil oldu. İnzibati-ərazi vahidi kimi, Zəngəzur XIX əsrin birinci qərinəsinin sonunda meydana çıxmışdır. 1813-cü il Gülüstan müqaviləsinə əsasən bu ərazilər Rusiyanın işğal etdiyi ərazilərə daxil edilmişdir. 1822-ci ildə ruslar Qarabağ xanlığını ləğv edib, onu Müsəlman əyalətləri hərbi dairəsinin tərkibində bir əyalətə çevirdikdən sonra, 30-cu illərin əvvəllərində bu əyalətin tərkibində 9 minbaşılığı birləşdirən iri Zəngəzur mahalı təşkil olundu. Bunlar keçmiş Sisyan, Tatev, Zəngəzur, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Meğri-Güney və Çavundur (Çuldur) mahalları idi.

1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati quruluşa görə, Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində keçmiş Zəngəzur mahalı iki sahəyə – Zəngəzur və Meğri sahələrinə bölündü. 1846-cı ilin yeni ərazi-inzibati bölgüsünə görə Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı. İrəvan quberniyasının təşkil olunması ilə əlaqədar olaraq Zəngəzurun cənub hissəsi Meğri sahəsi (Qapan, Meğri-Güney, Çavundur və Püsyan mahalları ilə birlikdə keçmiş Qapanat əyaləti) 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibində oldu (Əlizadə).

1867-ci ilin dekabrında Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqda Zəngəzur qəzası (mərkəzi Gorus) onun tərkibinə daxil edilmişdir. Cavanşir, Şuşa, Naxçıvan qəzaları, cənubdan Araz çayı boyunca İranla əhatə olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) Qarabağ general-qubernatorluğunun 4 qəzasından biri olmuş Zəngəzurun sahəsi 7.824 kv.km idi (2).

Zəngəzur tarixən 4 sahəyə – Güney (Meğri), Qafan, Zəngəzur (Gorus) və Sisyan (Qarakilsə) mahallarına bölünürdü. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdir. Zəngəzurun ərazisinin böyük bir qismi 1918-1920-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, yalnız 1921-ci ildə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati-ərazisində daxil edilən Zəngəzur qəzası yaradılmışdır. Azərbaycan SSR-in tərkibində qalan Zəngəzurun Şərq hissəsi Qubadlı qəzasına çevrildi. 1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzası tərkibində göstərilir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II









**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

İnzibati ərazi bölgüsünə görə, Şərqi Zəngəzurun ərazisi Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını, Qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Meğri rayonlarının ərazilərini əhatə edir (1).

## Ədəbiyyat

1. Kalankatuklu, M. (1993). Albaniya tarixi. Bakı, 33 s.
2. Urud, M. (2005). Zəngəzur. Bakı, 404 s.
3. Bayramov, İ. Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzur.
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası.
5. Əlizadə, R. (26 noyabr). Bakı: AZƏRTAC.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 215-216
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 215-216
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Gülnar Rəhimova**
Gəncə Dövlət Universiteti
doktorant
gulnar.rahimova1989@gmail.com

# ZƏNGƏZURUN ETNOMƏDƏNİ TƏDQİQATI

***Açar sözlər:*** *Zəngəzur, etnos, mədəniyyət, ərazi, əhali*
***Keywords:*** *Zangazur, ethnos, culture, territory, population*

Zəngəzurun ilk sakinlərindən sayılan sak və kimmerlər bu əraziyə eradan əvvəl VII əsrdə gəlib yerləşmişdilər. Saklar və kimmerlər bütpərəst – çoxallahlı olub və müxtəlif allahlara tapınırdılar: ağaca, dağa, daşa, suya və s. fövqəl qüvvə kimi sitayiş etmişlər.

Antik dövrlərdə Zəngəzur bölgəsi Atropatena və Albaniya ərazi-lərinə daxil olmuşdur. Albaniya hökmdarı Aran Sisakan nəslinə mən-sub idi. Albaniyanın əsas etnosu albanlar olduğuna görə ölkənin adında da daşlaşıb yaşayır. "Kitabi-Dədə Qorqud"un baş qəhrəmanı Qazan xan albanların başçısıdır. Qərb tarixçiləri Raulinson və Lenormana görə, ermənilər Urartu adına haqsız yiyələnmişlər və keçmiş "Böyük Er-mənistan"ı əsassız olaraq özlərinin əzəli vətəni sayırlar. Onlar bu torpaqların qədim sakinləri deyildir (Nərimanoğlu, 2019: 183).

IV əsrdə Zəngəzura gələn hun tayfaları özləri ilə şamanizm elementləri ilə yanaşı, Tanrıçılıq kultunu da bu ərazilərə gətirmişlər. Hunlardan sonra Qafqaza, eləcə də Zəngəzura gələn qıpçaqlar da tanrıçı idilər, lakin onların bir qismi sonradan xristianlığı qəbul etdilər. İndi Qarabağda və Zəngəzurda Alban abidələri kimi tanınan xristian məbədləri də məhz xristian qıpçaqlara məxsusdur. Müsəlmanlığı qəbul edən qıpçaqlar, eləcə də XI əsrdə bölgəyə gələn səlcuqlar Qarabağda və Zəngəzurda xristian qıpçaqlara uzun illər boyu "din ayrı qardaş" deyə müraciət edirdilər. Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi və 30 ildən artıq sürən döyüşlərin məkanı olub. Həmin dövrdə Zəngəzurda atəşpərəstlik məbədləri yerləşirdi. Zəngəzurda mərhumu dəfn edən axşam qəbrinin üzərində od qalayardılar. Bu da çox güman ki, atəşpərəstlikdən gələn bir ayin idi.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngəzur qəzası dörd mahala – Meğri, Qafan, Zəngəzur və Sisyan mahallarına bölünmüşdür (Əhmədli, 2021: 4). S.Zelinski Meğri mahalının 11 kəndində, Y.Naumenko Zəngəzur mahalının cənubundakı Lehvaz və Nüvədi kənd icmalarında tatların yaşadığını, amma onların artıq bu dili unutduqlarını, onların öz etnik kimliyini itirərək tamamilə türklərlə qarışdıqlarını yazırlar. Qərbi Zəngəzurun Meğri mahalında tatların yaşaması həqiqəti əks etdirmir. Belə ki, bu bölgədə, ümumiyyətlə, tatlar yaşamamışdır. Meğri mahalına İrandan gəlmiş azərbaycanlılar tatlar adlandırılırdı. Azərbaycanda "tat" iki mənanı ifadə edir: 1) İrandilli etnoslardan biri; 2) İrandan gəlmiş azərbaycanlıların yerli xalq tərəfindən verilmiş adı. Fikrimizcə, Meğri mahalında S.Zelinski və Y.Naumenkonun adlandırdığı "tatlar" İrandilli etnos deyil, İrandan gəlmiş azərbaycanlılar olmuşdur (Bayramov, 2023: 373).

Nəticə olaraq qeyd etmək istərdim ki, etnik və mədəni tərkibi, tarixi abidələri olduqca zəngin olan Zəngəzur indi artıq uzaqda qalmayıb, lap yaxındadı, bu gün Şərqi Zəngəzurumuz azad günlərini, ölkəmizin bütövləşmiş yeni tarixini yazır.

## Ədəbiyyat

1. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı, 183 s.
2. Əhmədli, N. (2021). Zəngəzur qəzasının kameral təsviri. 1874-cü il. Bakı.
3. Bayramov, İ. (2023). Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzur. Bakı: "İksad" nəşriyyatı, 373 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 217-219**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 217-219**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Şəfa Musayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
dissertant
musayeva_shafa@list.ru

# YELİZAVETPOL QUBERNİYASININ QƏZALARI (XIX ƏSR)

***Açar sözlər:*** *quberniya, idarəçilik, inzibati, islahat, sistem, fərman*
***Keywords:*** *governorate, management, administrative, reform, system, decree*

Cənubi Qafqazda, o cümlədən Azərbaycanda inzibati-polis nəzarətini gücləndirmək məqsədilə çar hakimiyyəti XII əsrin 60-70-ci illərində bir neçə islahatlar həyata keçirdi ki, onlar arasında inzibati-ərazi islahatları mühüm yer tuturdu. I Aleksandr tərəfindən təsdiq edilmiş "Qafqaz və Zaqafqaziyanın idarəçiliyinin dəyişdirilməsi haqqında" 9 dekabr 1867-ci il tarixli fərman bu islahatların hüquqi bazasını təşkil etdi. Həmin fərmanla Cənubi Qafqazın inzibati sistemində yeni quberniya – Yelizavetpol quberniyası təşkil olunurdu (Azərbaycan tarixi, 2000: 452). Yeni yaradılmış quberniyanın tərkibinə Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Yelizavetpol qəzası, İrəvan quberniyasından ləğv edilmiş Ordubad qəzasının bir hissəsi (İndi Ermənistan Respublikasının tərkibində olan Meğri rayonu) verildi. 1883-cü ildə quberniya tərkibində həmçinin Qazax və Zəngəzur qəzaları da təşkil edildi. Yeni inzibati-ərazi vahidinin yaradılmasını və onun tərkibində əlavə qəzaların təşkilini Qafqaz administrasiyası müsəlman ərazilərinin genişliyi ucbatından onların idarə edilməsinin çətinliyi və onlara "xüsusi polis nəzarətinin" zəruriliyi ilə izah edirdi (Hacıbəyli, 1918: 49-51). Diyar administrasiyası hesab edirdi ki, sahələrin (uçastokların) ləğvi və yerli inzibati-polis hakimiyyətinin qəza rəislərinin əlində cəmləşməsi də polis nəzarətinin zəifləməsinə səbəb olacaqdır. Bunu nəzərə alaraq 1873-cü ildə qəzaların yenidən bölünməsi və polis pristavlarının sayının artırılması haqqında qərar qəbul edildi. Həmin qərarla Yelizavetpol quberniyasının tərkibində daha üç qəza – Ərəş, Cəbrayıl və Cavanşir qəzaları yaradıldı. Beləliklə, Şimal Azərbaycanın ərazisi, əsasən, üç

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

quberniyanın – Yelizavetpol quberniyasının, Bakı quberniyasının və İrəvan quberniyasının tərkibində birləşdirildi. Bu, Azərbaycan xalqının milli-etnik birliyinin inkişafında mühüm rol oynasa da, onun ərazi identikliyinin formalaşmasına, Azərbaycan torpaqlarının siyasi-inzibati baxımdan vahidliyinə gətirib çıxarmadı. Cənubi Qafqazda yeni ərazi vahidləri yaradılarkən etnik-milli, tarixi və iqtisadi amillərin nəzərə alınmaması gələcəkdə regionun xalqları arasında ərazi mənsubluğu ilə bağlı münaqişələrin yaranmasında müəyyən rol oynadı. Bu, özünü xüsusən 1918-1920-ci illərdə Cənubi Qafqazda mövcud olmuş müstəqil dövlətlər arasında ərazi münaqişələrinin mövcudluğunda göstərdi.

II Aleksandrın ölümündən (1881) sonra bütün imperiyanın ərazisində olduğu kimi, Cənubi Qafqazda da idarəçilikdə mərkəzləşdirilmə meyilləri daha da qüvvətləndi. 1881-ci ildə Qafqaz canişinliyi ləğv edildi, diyarın idarə edilməsi üçün Qafqazda mülki hissə üzrə baş rəis vəzifəsi təsis edildi. Baş rəis həm də dairədəki ordunun komandanı idi (AKAK, 1868: 151-153). Quberniyaların idarə edilməsində də qismən dəyişiklik edildi. Sahələr ləğv edildikdən sonra bütün inzibati-polis hakimiyyəti qəza rəislərinin əlində cəmləşdirildi. Yelizavetpol şəhərində xüsusi şəhər polisinin yaradılması da məhz bu dövrə təsadüf edir. Quberniyanı bəzi narahat hissələrində, o cümlədən kəndli narazılıqlarının baş verdiyi yerlərdə (Ərəşdə, Samuxda) polis nəzarətini gücləndirmək üçün xüsusi pristavlıqlar da yaradılmışdı. Quberniyada hərbi-polis qaydalarının sərtləşdirilməsində polis aparatının gücləndirilməsi də xüsusi rol oynadı. XIX əsrin 80-90-cı illərində Yelizavetpol quberniyasının əksər sahələrində pristav vəzifəsi təsis edildi. Geniş inzibati-polis səlahiyyətlərinə malik pristavlar hətta nəzarət etdikləri ərazilərdə vergi yığımı ilə məşğul olur, ilkin istintaq işlərini həyata keçirirdi. Bununla yanaşı hakimiyyət narazı kəndliləri bir qədər sakitləşdirmək üçün kəndlərin idarə edilməsində müəyyən güzəştlərə də getməli olurdu. Bu istiqamətdə atılan addımlardan biri 1865-1866-ci illərdə Cənubi Qafqazın bir sıra quberniyalarında kənd cəmiyyətlərinin (сельские общества) yaradılması oldu. Lakin kənd cəmiyyətlərinin yaradılması haqqında əsasnamə Yelezavetpol quberniyasında daha gec – 1870-ci ildə tətbiq olunmağa başlandı. Quberniyada 325 kənd icması yaradıldı (Dubrovin, 1866: 199). Lakin Rusiyanin mərkəzi quberniyaları ilə müqayisədə Qafqazdakı kənd icmalarının səlahiy-

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

yətləri çox məhdud idi və onların fəaliyyəti ciddi nəzarət altında saxlanılırdı.

Çar hakimiyyəti Cənubi Qafqazı mənimsəmək, regionu vahid ümumrusiya iqtisadi-təsərrüfat sisteminə daha tez cəlb etmək, onun resurslarından və potensialından daha səmərəli istifadə etmək imperiyanın mərkəzi ərazilərində həyata keçirdiyi burjua xarakterli islahatları burada da tətbiq etməyə məcbur idi. Lakin regionda, o cümlədən Yelizavetpol (Gəncə) quberniyasında həyata keçirilmiş islahatlar yarımçıq səciyyə daşıyır və mövcud sosial-siyasi münasibətlərin kökündən dəyişdirmək məqsədi güdmürdü. XIX əsrdə, xüsusən həmin əsrin sonuncu onilliklərində çarizmin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda həyata keçirdiyi bütün islahatlar kimi, inzibati-idarə və məhkəmə islahatları da mütləqiyyətin müstəmləkəçi mahiyyətindən doğurdu, Azərbaycan xalqının milli hüquqlarını tapdalayırdı.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. (2000). 7 cilddə, IV cild. Bakı: Elm.
2. Hacıbəyli, Ü. (7 dekabr 1918). Tarixi günümüz. "Azərbaycan" qəzeti.
3. Akti, sobrannoe Kavkazskoy arkheologicheskoy komissiey (AKAK): B 13 тomakh. (1868). Tom II, Tip. Glavnovo Upravleniye Namestnika Kavkazskovo. Tiflis.
4. Dubrovin, H.F. (1866). Zaqafqazye ot 1803-1806 goda, SPB.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 220-222**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 220-222**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Günel Yusibova**
Gəncə Dövlət Universiteti
dissertant
forget379@gmail.com
https://orcid.org/0009-0006-1316-0849

# ZƏNGƏZUR DƏHLİZİ: AVRASİYANIN VƏ TÜRK DÖVLƏTLƏRİNİN MARAQLARI KONTEKSTİNDƏ

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, tranzit, nəqliyyat, kommunikasiya, regional və geosiyasi maraqlar*

***Keywords:*** *Zangazur corridor, transit, transportation, regional and geopolitical interests*

Hazırkı dövr üçün Azərbaycanın əsas geostrateji hədəflərindən biri Zəngəzur dəhlizinin açılmasıdır. II Qarabağ müharibəsində əldə edilən qələbədən sonra siyasi gündəmə gətirilən Zəngəzur dəhlizi məsələsi bundan sonra bütün regionun inkişafını şərtləndirən əsas amillərdən biri kimi qiymətləndirilir. Məhz bu tarixi qələbədən sonra imzalanmış "Şuşa Bəyannaməsi" ilə Azərbaycan və Türkiyə olmaqla yalnız iki qardaş ölkəni deyil, eləcə də bütün Türk dünyasını, həmçinin Şərqlə Qərbi birləşdirəcək Zəngəzur dəhlizinin açılması məsələsi qətiləşdi. Müttəfiqlik haqqında imzalanmış Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır. Onu da qeyd etmək yerinə düşər ki, Zəngəzur dəhlizi Azərbaycan – Ermənistan – Rusiya üçtərəfli Bəyanatında da öz əksini tapmışdı və Şuşa Bəyannaməsi ilə bir daha gündəmə gəldi. Bu dəhlizin açılması türk dünyası coğrafiyasında, eləcə də Asiya ilə Avropa arasında əlaqələrin daha sürətli olmasına və asanlaşmasına şərait yaradacaq. Sənəddə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının inkişaf etdirilməsi də öz əksini tapıb. Yəni Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması regionda nəqliyyat-kommunikasiya əlaqələrinin daha da şaxələnməsinə səbəb olacaq. Bununla bağlı Prezident İlham Əliyev mətbuata bəyanatında vurğulamışdır ki, Azərbaycanla Türkiyənin Zəngəzur dəhlizi vasitəsilə birləşməsi

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir.

Yuxarıda da qeyd etdiyimiz kimi, bu dəhlizin strateji əhəmiyyəti olduqca böyükdür. Ümumilikdə isə Zəngəzur dəhlizinin önəmini bir neçə aspektdən dəyərləndirə bilərik. İlk növbədə, onu qeyd etmək lazımdır ki, Zəngəzur dəhlizi Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirir. Sözügedən dəhlizin açılması nəticəsində Naxçıvanın otuz ildən artıq müddət ərzində davam edən blokadasına son qoyulacaq. Eyni zamanda dəhliz fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi bu baxımdan mühüm rol oynayacaq. Dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları məhz ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya ediləcək. Zəngəzur dəhlizinin açılması region ölkələri arasında ticarət və iqtisadi əlaqələrə müsbət təsir göstərəcək. Bu, bir tərəfdən, Türkiyə ilə Azərbaycan arasında quru yolu ilə birbaşa əlaqə yaratmağa imkan verəcək. Digər tərəfdən, Türkiyə üçün Mərkəzi Asiyaya qapı açılacaq və digər türk dövlətləri ilə iqtisadi əlaqələri gücləndirmək imkanı yaranacaq. Bundan əlavə, hazırda Türkiyə Qars – Naxçıvan dəmir yolu layihəsinin reallaşması üzərində işləyir ki, növbəti mərhələdə bu dəmir yolunun Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb bölgələri ilə birləşdirilməsi nəzərdə tutulur. Bu da iki ölkə arasında ikitərəfli ticarət əlaqələrinin inkişafına yeni təkan verəcək. Zəngəzur dəhlizi Rusiya üçün də xüsusi önəmə malikdir. Rusiya bu dəhlizdən Cənubi Qafqaz və qonşu ölkələrə yük daşımalarında əsas marşrut kimi istifadə edə biləcək. Bu dəhliz vasitəsilə Rusiya qatarları Azərbaycan ərazisindən keçməklə Ermənistan, Türkiyə, İran və Cənubi Asiya ölkələrinə gedə biləcək. Beləliklə, Zəngəzur dəhlizi həm Türkiyə ilə Rusiya arasında ticarət əlaqələrinə müsbət təsir göstərəcək, həm də Moskvanın Türkiyə vasitəsilə Yaxın Şərqdəki bazarlara çıxışı üçün alternativ marşrut olacaq.

Beləliklə, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması, ümumilikdə Türk dünyasının coğrafi baxımından birləşməsi deməkdir. Bu, təkcə coğrafi və siyasi anlamda deyil, həmçinin böyük iqtisadi gücə malik və ümumi daxili məhsulu 1,1 trilyon dollardan çox olan türkdilli dövlətlərin strateji və

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

iqtisadi cəhətdən birləşməsi də deməkdir. Belə ki, Türkiyə 761,4 milyard dollar, Qazaxıstan 181,7 milyard dollar, Özbəkistan 57,9 miyard dollar, Azərbaycan 48 milyard dollar, Türkmənistan 48 milyard dollar və Qırğızstan 8,5 milyard dollar nominal ÜDM-si olan ölkələrdir. Bu isə Zəngəzur dəhlizini kifayət qədər yüksək iqtisadi potensialı və təbii resursları olan böyük və geniş coğrafi ərazini birləşdirən önəmli nəqliyyat infarstrukturuna çevirəcək (Xalq qəzeti, 2022: 3).

Zəngəzur dəhlizi ilə bağlı digər bir qeyd olunması vacib olan məqamlardan biri də Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanan Aşqabat müqaviləsi və bu ölkələrinin Avropaya reinteqrasiyası üçün yeni perspektivlər yaratmasıdır. Bu ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizi vasitəsilə Avrasiya bazarlarına çatdırılması Qarabağ regionunun iqtisadi potensialının artırılmasında xüsusi rol oynaya bilər.

## Ədəbiyyat

1. Xalq qəzeti. (29 yanvar 2022). № 20, 3 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 223-225**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 223-225**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Aytən Əsədova**
Sumqayıt Dövlət Universiteti
doktorant
asadova_ayten@bk.ru
https://orcid.org/0000-0002-5067-1393

# QƏRBİ ZƏNGƏZURUN NÜVƏDİ KİTABƏLƏRİ

***Açar sözlər:*** *Zəngəzur, türk-oğuz, kənd, abidə, qala*
***Keywords:*** *Zangazur, Turkish-Oghuz, village, monument, castle*

Qərbi Zəngəzur tarixi türk yurdu, doğma vətənimizin mühüm tərkib hissəsi idi. Zəngəzurun qədim tarixi qədim daş dövründən başlayır. Bu qədim tarixi qədimdən günümüzədək daşıyan tarixi-arxeoloji abidələrimizdir. Qədim dövrlərin məlumatlarını bizə çatdıran Böyük İşıqlı, Dəvəboynu, Qarqadaşı dağlarında olan türk tayfalarına aid qayaüstü rəsmlər, kitabələr, Nüvədi kitabələri, Urud abidələri (qəbirüstü abidələr), yaşayış məskənləri, qoç heykəlləri, türklərə məxsus kurqanlar, Alban məbədləri və s. abidələrdir. Bu abidələr hər izində türklərin bu ərazilərdə qədim tarixindən xəbər verir.

Zəngəzurun qədim insan məskəni olması və bu torpaqların əsl sakininin kim olmasını təsdiq edən abidələrimizdən biri də *Nüvədi kitabələridir*. Zəngəzur mahalının Meğri rayonunun Nüvədi kəndində Qarqadaşı dağında daş kitabələrdəki yazılar Orxon-Yenisey abidələri ilə eynidir. Kitabələr 1985-ci ildə müəllim Həmzə Vəliyev tərəfindən aşkar edilmişdir. Kitabələrin dili türk dili – şumer mənşəlidir. Şumer sözlərinin işləndiyi kitabənin nə qədər qədim olduğunu ayırd etmək çətin deyil. Bu kitabələr Qafqazın ən qədim sakinləri olan Qarqar türklərinə aid kitabələrdir (Ələkbərli, 2006: 3). Kitabələr eradan əvvəl I minilliyə aiddir. Bu əvəzsiz kitabələrdəki yazılar Orxon-Yenisey abidələri ilə eynidir. Ancaq yazıların quruluşundan aydın olur ki, bu yazılar olduqca qədimdir, yəni Orxon-Yenisey abidələrinin “əcdadıdır” (Əliyev, 2004: 13; Vəli, 1999: 13-15). Təəssüflər olsun ki, bu abidələrin yerləşdiyi kənd 1991-ci ildə 8 avqust tarixində ermənilər tərəfindən işğal edilmişdir. Məhz Qərbi Azərbaycandan 1988-ci ildə başlayan kütləvi qovulma (azərbaycanlıların qovulması) bu kənddə ən sonuncu idi, yəni 1991-ci ilə qədər bu kənddə Azərbaycan türkləri

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

yaşamışdılar. 1988-1991-ci illərdə Qərbi Azərbaycanda 185 Azərbaycan kəndindən 250 mindən çox azərbaycanlı qovulmuşdur. Bu ərazilərdə 51 mindən çox azərbaycanlı evi, təsərrüfatı və s. ermənilər tərəfindən mənimsənilmişdir (Paşayev, 2011: 111).

Nüvədi kitabələri Zəngəzurun qədim insan məskəni olmasını təsdiq edən qiymətli abidədir. Kitabələri vaxtilə aşkar edən bu ərazilərin sakinlərindən olan müəllim Həmzə Vəli tarixi torpağını tərk etmək məcburiyyətində qalan zaman kitabəni də özü ilə Bakıya gətirmişdir. Nüvədi kitabələrində Qarqadaşı abidələri Azərbaycanın ən qədim əcdadlarının kimliyi haqqında bizə məlumat verir. Bu abidə ilə biz Cənubi Qafqazda və Orta Asiyada qədimdən məskunlaşmış qarqarların kimliyi haqqında məlumat alırıq. Qarqarları uzun müddət Qafqazdilli sayılmış və türk mənşəli olmasını K.Əliyev ilk dəfə irəli sürmüşdür. Q.Qeybullayev isə türk faktını onomastik faktlarla irəli sürmüşdür (Əliyarlı, 1991: 144). Əsas arqumentlər qarqar (karkar) kimi səslənən adlar, sözlər məhz türk dilləri xalqlarına mənsubdur. Qafqaz Albanyasında qarqar etnomini ilə yer, çay adları vardır. Hətta bu Orta Asiyada qıpçaqlara məxsus yer adları var, hətta Cənubi Azərbaycanda bu adlarda yaşayış yerlərinə rast gəlinir. Manas dastanında bu adla şəxs adlarına rast gəlinir (Qaraşarlı, 2007: 5). Qərbi Azərbaycanda (İndiki Ermənistanda) Qarqar adlı kəndlərin, yer adlarının olması da bunu təsdiq edir. Bu isə Qərbi Azərbaycan ərazilərinin bir türk yurdu olduğunu və əhalinin isə türkdilli olduğunu təsdiq edir. Zəngəzurun Nüvədi abidələri bu ərazilərdə türklərin qədim tarixi izlərinə işıq salır.

Bu gün müasir Azərbaycan tarixşünaslığında itirilmiş torpaqlarımızın tarixinin tədqiqi ən aktual məsələdir. Biz bu abidələr haqqında arxiv materiallarından və sovet dövründə kortəbii şəkildə öyrənilən materiallar əsasında məlumat alırıq. Bütün materiallar, abidələr Qərbi Azərbaycanın, bu ərazilərin vaxtilə türklərə məxsus olduğunu təsdiq edir.

Bu ərazilərə qayıtmaq arzusu oradan didərgin düşənlərə nəsib olmasa da, onların evladları–biz, tarixi torpaqlarımıza qayıdacayıq və abidələrimiz məhv edilsə də, torpağın köksündə gizlədib saxladığı izlərimizi yenidən araşdırıb öyrənəcəyik.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 223-225**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 223-225**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Ələkbərli, Ə. (2006). Qərbi Azərbaycan abidələri. Bakı: "Ağrıdağ" nəşriyyatı, 228 s.
2. Əliyev, V. (2004). Zəngəzurda qalan izimiz. Bakı, 102 s.
3. Vəli, H. (1999). Nüvədi kitabələri. Bakı.
4. Paşayev, A. (2011). Ermənilərin Azərbaycan xalqına qarşı torpaq iddiaları. Soyqırımı və deportasiya. XIX-XX əsrlər.
5. Əliyarlı, S. (1991). "Kitabi-Dədəm Qorqud" əlyazmaları üzərində çalışmalar – AFM. Bakı, 144 s.
6. Qaraşarlı, Ç.M. (2007). Egey-Aralıq dənizləri regionunun və Qafqaz Albaniyasının onomastikasında ümumi elementlər. Bakı: BDU-nun Xəbərləri. Humanitar elmlər seriyası, № 1, s. 5-11.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 226-227**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 226-227**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Afərim Tağıyeva**
Gəncə Dövlət Universiteti
dissertant
tagiyevaaferim@gmail.com

# ZƏNGƏZURUN DİNİ MƏDƏNİYYƏTİ

***Açar sözlər:*** *Zəngəzur, xristianlıq, kilsə, islam dini, mədəniyyət*
***Keywords:*** *Zangazur, Christianity, church, Islamic, culture*

Zəngəzurda tarixən mövcud olan və günümüzədək mövcudluğunu qoruyub saxlayan tarixi-memarlıq abidələrinin əksəriyyəti dini inanclarla və qəbirüstü abidələrlə bağlıdır. Qədim Zəngəzurun əhalisi təkallahlılığı qəbul edənədək müxtəlif dinlərə – bütpərəstliyə, atəşpərəstliyə və zərdüştiliyə etiqad edirdilər. Zərdüştilik ilk tanrıçılıq dini kimi meydana çıxsa da, Zəngəzurda kütləvi yayılmamışdı. Xristianlığın və islamın yayılmasına qədər bu yerlərdə atəşpərəstlik geniş yayılmışdı. Atəşpərəstliklə bağlı dini etiqadlar zəngəzurluların adət-ənənələrində bu gün də bariz şəkildə özünü büruzə verir. VII əsrin ikinci yarısında Ərəb xilafəti Albaniyanı işğal etdikdən sonra Zəngəzur əhalisinin bir qismi xristian dinindən islam dininə keçmiş, bir qismi isə xristianlıqda qalmışdı. Hazırda Qarabağda və Zəngəzurda yaşayan köklü albanların və qıpçaq türklərin özlərini "erməni" kimi tanımaları məhz bu tarixi prosesin nəticəsidir. Bu bölgələrdə olan günümüzə qədər gəlib çıxmış alban məbədlərinin hamısı erməni-qriqorian kilsələrinə çevrilmişlər (1; Nərimanoğlu, 2019). Zəngəzurun Sisian nahiyəsindəki IV-V əsrlərə aid Tanaat məbədi, VI-VII əsrlərə aid müqəddəs Qriqori, yaxud Qarakilsə məbədi, Gorus nahiyəsindəki IX əsrə aid Tatev məbədi kimi bir çox məbədlər erməni-qriqorian kilsələrinə çevrilmiş qədim alban abidələri nümunələrindəndirlər. Bu abidələr ermənilər tərəfindən dünyaya qədim erməni kilsələri kimi təqdim olunsa da, tarixi-elmi dəlillər bu abidələrin sırf alban məbədləri olduğunu təsdiq edir.

Qafqaz Albaniyası zamanından Alban Həvvari Kilsəsi, Alban Kilsəsi və ya sadəcə Alban Katolikosluğu İmperator I Nikolayın 11 mart 1836-cı il Fərmanına əsaslanan Rusiya Senatının 10 aprel 1836-cı il tarixli Əsasnaməsinə görə erməni-qriqoryan kilsəsinin idarəçiliyinə daxil edilmiş, fəaliyyətini tam dayandırmışdır. Hazırda alban-türk əsilli

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

bir çox ermənilərin təsisçiliyi, təşkilatçılığı ilə "Alban Avtokefal Kilsəsinin və xristian türklərin irsinin bərpası uğrunda hərəkat" başlanıb. XIX əsrin 80-ci illərinin qəzada 46 kilsə və daha 25 erməni-qriqorian ibadətgahı olduğu halda, cəmi 26 məscid fəaliyyət göstərirdi. Qəza əhalisinin yarısından çoxunu müsəlmanlar təşkil etdiyi halda, xristian ibadətgahlarının sayı məscidlərin sayından az qala 2,5 dəfə çox idi. Qəza müsəlmanlarının çox böyük hissəsi şiə təriqətinə mənsub idi; sünnilər az idi. XIX əsrin axırlarının rusdilli müəllifləri belə yerli Zəngəzur ermənilərinin, əslində, Qarabağın keçmiş alban əhalisinin qalıqlarının danışdıqları "erməni dilinin" qəribəliklərini təəccüblə qeyd edirdilər: XIX əsrin 80-ci illərinin ortalarında Cənubi Qafqazın xəzinə kəndlilərinin iqtisadi məişətini öyrənən müəlliflərdən biri yazırdı: "Zəngəzur qəzasının erməni ləhcələrindən Mehri kəndi sakinlərinin dili diqqəti özünə cəlb edir. Digər yerlərin erməniləri onları çətin ki başa düşsünlər. Sırf Qarabağ ləhcəsində danışan Harara və Qaladərəsi kəndlərinin sakinlərinin də dilini başa düşmək çətindir" (Nərimanoğlu, 2019: 33). Ermənilər Qərbi Zəngəzurda azərbaycanlıların çoxəsrlik mədəni irsini və izini yox etməyə çalışsalar da, onu yaddaşlardan, foto-video materiallardan və sənədlərdən silə bilmədilər. Oradakı müsəlman qəbiristanlıqlarında olan qoç və at fiqurlarının öz əksini tapdığı yüzlərlə qəbirüstü abidə və sənduqələr bu torpaqların azərbaycanlılara məxsus tarixi keçmişindən xəbər verir. Şərqi Zəngəzurun Ermənistan ordusunun işğalı dövründə tarixi-memarlıq abidələrinə qarşı törədilən vandalizmin nəticələri qısa müddətdə aradan qaldırılacaq, hər bir abidə, bütün məscidlər yenidən bərpa olunacaq. Lakin erməni cinayətkarlarının törətdikləri vandallıqlar foto və videolar vasitəsilə gələcək nəsillərə tarixin ibrət dərsləri kimi çatdırılacaq (Urud, 2005: 56).

## Ədəbiyyat

1. "Zəngəzur" Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası.
2. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı.
3. Urud, M. (2005). Zəngəzur (elmi-publisistik nəşr). Bakı: Nurlar, 503 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 228-230**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 228-230**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Vaqif Dadaşzadə**
Hərbi Elmi-Tədqiqat İnstitutu
doktorant
vaqif.d@bsu.edu.az

# ZƏNGƏZUR DƏHLİZİNİN AÇILMASINDA İNFORMASİYA SİYASƏTİ VƏ MEDİA

***Açar sözlər:*** *informasiya siyasəti, media, Zəngəzur dəhlizi, regional əməkdaşlıq, Şərq-Qərb nəqliyyat marşrutu*

***Keywords:*** *information policy, mass media, Zangazur corridor, regional cooperation, East-West transport route*

Müharibə əməliyyatlarının hazırlanması və aparılması prosesində hər zaman kütləvi informasiya vasitələrindən istifadə edilib. Media bu gün cəmiyyətin dördüncü sütunu hesab olunur. Texnologiyaların sürətli inkişafı isə media mühitini kəskin şəkildə dəyişdi. İnformasiya texnologiyalarının təqdim etdiyi imkanlar, ənənəvi medianın hadisələr haqqında məlumat yaymasından asılı olmayaraq, hər kəsə real vaxt rejimində məlumat hazırlamağa və paylaşmağa imkan yaratdı.

Müasir tarixə ən uzunmüddətli münaqişələrdən biri kimi yazılan "Dağlıq Qarabağ münaqişəsi" 2020-ci ildə hərbi yolla və Azərbaycanın parlaq qələbəsi ilə həllini tapdı. 44 günlük müharibə zamanı tərəflər arasında qarşıdurma təkcə döyüş meydanında deyil, həm də mediada, o cümlədən sosial media platformalarında baş verdi. İkinci Qarabağ müharibəsində biz ictimai rəyi formalaşdırmaq, tərəfdarları səfərbər etmək, hərbi fəaliyyətləri koordinasiya etmək və məlumat toplamaq üçün sosial mediadan necə istifadə olunduğunun şahidi olduq. Media, xüsusilə sosial media həm dövlət, həm də qeyri-dövlət subyektləri üçün qısa zamanda ciddi bir "yumşaq silaha" çevrildi (İskəndərov, 2021: 45).

Xoşbəxtlikdən Azərbaycan Ermənistanı həm döyüş meydanında, həm danışıqlar masası arxasında, həm də sosial mediada məğlub edə bildi. Diplomatiya və informasiya müharibəsindəki üstünlük Azərbaycan Ordusunun yerlərdə qələbə qazanmasına birmənalı töhfə verdi.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

30 illik qarşıdurmadan sonra Ermənistan və Azərbaycan arasında sülhə ümid var ki, bu da Qafqaz regionunda rifah və təhlükəsizlik üçün olduqca vacib şərtdir.

Cənubi Qafqaz ən mühüm geostrateji regionlardan biridir və Avropa ilə Asiya arasında getdikcə cəlbedici nəqliyyat marşrutuna çevrilməkdədir. Azərbaycan ərazisindən keçən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat marşrutları məsafə və müddət baxımından yük daşımaları üçün çox əlverişlidir. Çindən başlayaraq Mərkəzi Asiya, Xəzər dənizi, Cənubi Qafqaz və Türkiyədən keçərək Avropaya uzanan Şərq-Qərb nəqliyyat marşrutu qısa, təhlükəsiz və etibarlı marşrutlardandır.

10 noyabr 2020-ci il tarixli üçtərəfli sazişdə qeyd edilmiş Ermənistan üzərindən keçəcək yeni dəhliz – Zəngəzur dəhlizi böyük Şərq-Qərb marşrutunu daha da qısa və təhlükəsiz edə biləcək və bunun üçün tarixi və unikal fürsət yaranmışdır. Zəngəzur dəhlizinin istifadəsinin məqsədəuyğunluğunu, onun qlobal tranzit marşrutunun ayrılmaz elementi kimi əhəmiyyətini və potensialını nəzərə alaraq, bu geniş coğrafi məkanda yerləşən ölkələr arasında iqtisadi-ticarət əlaqələrini gücləndirmək, bütün tərəflərin maraqlarına cavab vermək və bütövlükdə regionun inkişafına əlavə təkan vermək olar. Ən əsası isə odur ki, Zəngəzur dəhlizinin açılması regionda uzunmüddətli sülhə doğru addım olacaq (Iskandarov, 2023: 39).

Azərbaycan bu nəqliyyat dəhlizinin reallaşması üçün müxtəlif formatlarda fəal əməkdaşlıq siyasəti həyata keçirir. Zəngəzur dəhlizinin açılması bütün regionun tranzit xəritəsini dəyişəcək. Azərbaycanla Türkiyə arasında quru əlaqəsi təmin ediləcək, Ermənistanla Rusiya arasında Azərbaycan ərazisindən keçən dəmir yolu xətti çəkiləcək. Yəni Zəngəzur dəhlizi həm Azərbaycanla Türkiyəni, həm də Ermənistanla Rusiyanı birləşdirəcək. Bundan əlavə, müasir tarixdə ilk dəfə olaraq Rusiya ilə Türkiyə arasında dəmir yolu əlaqəsi olacaq.

Bütün bunları həyata keçirmək üçün layihədə maraqlı olan ölkələr tərəfindən müvafiq informasiya siyasəti aparılmalıdır. Azərbaycanda və Türkiyədə bunun üçün həm dövlət, həm də özəl media vasitəsilə bütün lazımi dəstək mövcuddur. Lakin Ermənistanda ənənəvi bir mühit var ki, Azərbaycanın həyata keçirmək istədiyi hər şeyin qarşısı Ermənistan və onun qlobal havadarları tərəfindən alınmalıdır, bunun ermənilərin öz

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 228-230**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 228-230**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

maraqlarına uyğun olub-olmamasından asılı olmayaraq. Və belə bir mühitdə ermənilərı maarifləndirmək üçün yerli medianın rolu zəruridir.

Ermənistan başa düşməlidir ki, Zəngəzur dəhlizinin üstünlüklərindən istifadə edə bilər, yəni regional əməkdaşlığa önəm verərsə, sosial-iqtisadi sahədə müsbət göstəricilər əldə edə bilər. O, ilk növbədə, iqtisadi təcriddən çıxmaq və iqtisadi inkişaf yolu keçmək imkanı əldə edəcək.

Buna tezliklə nail olmaq üçün yerli və regional medianın təbliğat fəaliyyəti və maraqlı tərəflərin müvafiq informasiya siyasəti vacibdir. Çünki bütün region ölkələri Zəngəzur dəhlizinin açılmasında yaranan imkanlardan yararlana bilər ki, bu da regional əməkdaşlığın genişləndirilməsinə və qarşılıqlı etimadın artmasına xidmət edəcək.

## Ədəbiyyat

1. İskəndərov, X. (2021). Ermənistanın dezinformasiya kampaniyasında medianın yeri və rolu (İkinci Qarabağ müharibəsinin nümunəsində). Hərbi Bilik, № 3, s.40-50.
2. Iskandarov, Kh. (2023). The Zangezur corridor as part of the global transport route (against the backdrop of power games in the South Caucasus region). Security and Defence Quarterly. № 1, s.38-40.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 231-232**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 231-232**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Gülöyşə Əhmədzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
gulu010894@gmail.com

# ZƏNGƏZUR SÖZÜNÜN TARİXİ İZAHI

***Açar sözlər:*** *Zəngəzur, tarix, fakt, toponim, tayfa*
***Keywords:*** *Zangazur, history, fact, toponym, tribe*

*"Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir".*

Heydər Əliyev

Yerin, ərazinin adı onun tarixi, kimə məxsusluğu barədə çox şey deyir. Adları insanlar verirlər və öz dilinə, yaşadığı yerin təbiətinə uyğun adlar düşünüb tapırlar. Bu mənada Azərbaycanın ən qədim torpaqlarından biri olan Zəngəzurun da adının mənasını Azərbaycanın tarixi keçmişində axtarmaq lazımdır.

"Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə "sur" daş-divar, qala, bürc deməkdir. Zəngi tayfalarının ana vətəni Orta Asiya, daha konkret desək, indiki Özbəkistan əraziləridir. Zəngi tirəsi hal-hazırda da Özbəkistanda yaşayır və burada zəngi adı ilə bağlı çoxlu toponimlər indi də qalmaqdadır (Zəngi, Zəngitəpə, Zəngərik və s.). Məlum olduğu kimi, "Zəngəzur" termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. Bu dövrdə isə təkcə Zəngəzurda deyil, eləcə də bütün Qafqazda qüdrətli türk-müsəlman ruhu hakim idi (Bayramov, 2010). Əmir Teymur, Ağqoyunlu, Qaraqoyunlu və nəhayət, Səfəvilər dövlətlərinin tərkibində olan bir müsəlman vilayətinə orada yalnız bir neçə kənddə yaşayan ermənilərin ad (Zanqedzor şəklində) verməsi qeyri-mümkün, qeyri-məntiqi və qeyri-inandırıcıdır. Bu elə bir dövr idi ki, əksinə, ermənilər kütləvi surətdə türk dilini öyrənir, türk və fars

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 231-232**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 231-232**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

mədəniyyətini, mətbəxini mənimsəyirdilər, bir sözlə, məğlub və kiçik xalqların özünüqoruma instiktinə uyğun olaraq, yalnız öz dinlərini və əlifbalarını qorumaq hayında idilər (Budaqov, Qeybullayev, 1998). Zəngəzur ərazisində xeyli sayda Sur (zür) topomorfantı ilə bitən digər toponimlərin də olması və bu kəndlərin, demək olar ki, hamısının dağlarda və sıldırım qayalıqlarda yerləşməsi (Təkəzür, Ərcəzür, Gecəzür, Dərməzür, Astazur, Əynəzur, Goranzur və s.) faktı da Zəngəzur adının məhz dərə ilə deyil, dağla, divarla, qala ilə bağlılığını bir daha sübut edir. Bu toponimin "Səngi-Sur" formasında izahı da maraq doğurur. Belə ki, fars dilində "səng – daş, qaya, ərəbcə isə "sur" sözü silsilə divar, qala mənasındadır. Zəngəzur sözü bu anlamda başdan-başa, daşlı, qayalı yer, daşların qala divarları kimi düzüldüyü ölkə mənasını verir (Urud, 2005: 17).

## Ədəbiyyat

1. Bayramov, A.Ə. (2010). “Dədə Qorqud” kitabında adlar və Qafqaz arealında onların toponimləşməsi. Avtoreferat. Bakı.
2. Budaqov, B., Qeybullayev, Q.Ə. (1998). Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Natta Press.
3. Urud, M. (2005). Zəngəzur. Bakı, 17 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 233-235**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 233-235**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elmira Aliyeva**
Ganja State University
Ph.D student
elka.emma@mail.ru

# THE HISTORIC AND MYSTERIOUS PROVINCE – ZANGAZUR IN MEDIEVAL PERIOD

***Keywords:*** *Zangazur territory, ancient tribes, Sasanian-Byzantine conflicts, Mongols, competition between Aggoyunlu and Karagoyunlu states*
***Açar sözlər:*** *Zəngəzur bölgəsi, qədim tayfalar, Sasani-Bizans konfliktləri, monqollar, Ağqoyunlu – Qaraqoyunlu dövlətlərinin rəqabəti*

There is no such a person in Azerbaijan who has not heard the term Zangazur. Everyone in Azerbaijan knows that Zangazur is the ancient land of Azerbaijan. The word Zangazur is a term as old as the names of districts such as Nakhchivan, Shirvan, Karabakh, Borchali, etc. Unfortunately, we do not know much about the ancient and medieval history of Zangazur. Perhaps there is no region in Azerbaijani historiography that is less studied than Zangazur. As I mentioned before, Zangazur is the land of ancient Azerbaijani Turks. In this article, I tried to touch on the ancient and medieval history of Zangazur.

Zangazur is Azerbaijan's historical territory. The historical lands of Azerbaijan, which cover a giant geography from Derbent to Zanjan, from Kirkuk to Eastern Anatolia, were from time to time, divided within the borders of the modern Azerbaijan Republic. The modern state of Azerbaijan itself is divided into two parts by the Zangazur corridor. The territory of Zangazur covers part of the Zangazur ridge, the longest mountain range in the Lesser Caucasus, southwest of the border of the Republic of Azerbaijan, and southeast of the territory of Armenia. Part of the historical Zangazur within the borders of Azerbaijan called Eastern Zangazur, and the rest, on the territory of the present Armenian state ― Western Zangazur (Bayramov, 2023).

In the period of the early medieval period, the territory of Zangazur was a part of the kingdom of Media, the Scythian empire and the state of Athropaten called Syunik or Sisakan, as well as the Azerbaijani state

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

of Albania. In the middle of the 6th century, because of the administrative reform of Khosrov I, was created the Adurbadagan region; the north and south of Azerbaijan were united under one name. At the commencing of the 7th century, the reason of the victory of the Byzantine emperor Heraclius II, in the war with the Sassanian emperor Khosrov II, the desire for the independence in the countries under Persian rule intensified. As a result, the principality of Syunik became independent. In his "History of Alban" Moses Kalankatuisky notes the existence of the independent existence of Syunik at the commencing of the 7th century. In the ancient sources this region was called Sisakan or Syunik, and in Arab sources – Siajan (Urud, 2005). The researchers write that the toponym Sisakan is associated with the name of the Sakas, one of the ancient Turkic tribes that inhabited this area. Albanian historian Moses Kalankatuysky in his book "History of Alban" provides information about the Albanian people living in this area, as well as about the Gargars, Khazars, Huns and other Turkic tribes. Azerbaijan occupied an enormous province, starting from the eastern part of the Albanian state ― Zangazur and further along the Araz River, from Meghri to Akara, and in the north to the Kapidzhig and Khustup mountains, from the Zangazur ridge to the Bargushad Mountains (Nərimanoğlu, 2019). In the other half of the 7th century, the Arabs occupied Zangazur, as well as the Albanian state. The period of the weakening of the Arab Caliphate, little Azerbaijani feudal states arose on the territory of the former Albania. In period of the Mongol rule, Zangazur was a part of the Nakhchivan province of the Azerbaijani region. This situation continued during the periods of the existence of the states of Garagoyunlu and Aggoyunlu, as well as during the first Safavids (4).

In the written sources from the XIV century, the term "Zangazur" is known as a toponymal. In the 13-14 centuries, the lands of Zangazur were geographically part of the Nakhchivan district and the Arran province of the Azerbaijani region. In the late middle ages, during the collapse of Syunik, most of Zangazur became part of the Gapanat and Nakhchivan provinces. Gapanat covered the southern part of Zangazur up to the Bargushad ridge. Sisian was a part of the Nakhchivan region. Gorus and Kashtag districts of Zangazur were a part of the Karabakh region. During the Ottoman-Safavid war of 1578-1590, the Ottomans,

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

who captured most of Azerbaijan, allocated the Nakhchivan province together with the Sisian and Gapanat regions from the region of Azerbaijan and transferred it to the Chukhursad province. District of Gapanat was divided into the districts of Bargushad and Urud. The small Bazarchay district separated from the Sisian region. The territories of Gapanat and Zangazur, together with the provinces of Bayazid and Alashkert of Chukhursad, formed into a separate Bayazid district. The regions of Keshtag and Khakar were part of the Karabakh region (5).

Zangazur territory has remarkable history facts. One of the richest territories of the ancient Azerbaijan is Zangazur. As the historians, we need to learn more about that territory's historic facts enthusiastically. We need to never give up our ancient and historic lands. Zangazur history is waiting for its real owners of the land (6).

## References

1. Bayramov, İ. (2023). Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzur. İksad Nəşrləri.
2. Urud, M. (2005). Zəngəzur. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya mərkəzi.
3. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı: Zəngəzur Cəmiyyətləri İctimai Birliyi.
4. https://static.president.az/upload/Files/2018/03/09/3h35xj52qb_Tarix_ENG.pdf
5. https://caliber.az/en/post/112698/
6. https://irs-az.com/sites/default/files/2023-01/Heritage_53_2022%20%28small%29%20%D1%81%D1%82%D1%80.%2016%20-%2026.pdf

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 236-238**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 236-238**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nuranə Allahverdiyeva**
ADPU Quba filialı
dissertant
https://orcid.org/0009-0002-6763-991X
nurane.ava93@gmail.com

# ZƏNGƏZURUN TÜRK MƏNŞƏLİ TOPONİMİYASI

***Açar sözlər:*** *etnonim, toponim, etnotoponimika, türk mənşəli, tayfa*
***Keywords:*** *ethnonym, toponym, ethnotoponymy, of Turkic origin, tribe*

Coğrafi adlar xalqın tarixinin və milli sərvətimizin aynasıdır. Bu adlar xalqın keçmiş, gələcək və bu gününü göstərən şahiddir. Coğrafi adların bir çoxu ulu babalarımızın – hunlar, bulqarlar, oğuzlar və onların sonrakı nəsillərinin adını yaşadır və bizim üçün etibarlı mənbə hesab edilir.

Azərbaycanda müxtəlif etnik qruplar olduğu kimi, Zəngəzur torpaqlarında da müxtəlif etnik qruplara rast gəlinir və bu, həmin ərazinin toponimiyasının formalaşmasında mühüm rol oynayır. Türk mənşəli toponimlər iki hissəyə ayrılır (Azərbaycanın tarixi abidələri və toponimləri, 2016: 646):

a) qədim türk mənşəli terminlər,
b) Azərbaycan mənşəli terminlər.

Zəngəzur ərazisindəki toponimlərin əksəriyyəti ümumtürk səciyyəsi daşıyır. Yəni bir qisim yer-yurd adları vardır ki, onlara digər türkdilli xalqların məskunlaşdığı ərazidə də rast gəlirik. Məsələn: *Kanlı//Qanlı bel – Qambel, Xalac//Xələc, Yəyci//Yaycı, Çullu, Bayındur//Bayan-dur//Bayan, Şamlı//Şam, Sofular//Sofulu, Qızılca//Qızılcıq, Pazar-cıq//Bazar çay, Xatay//Xotan* və s. Bu toponimlərin kökündə eyni söz dayanmışdır. Topoformantlar arasında azacıq fonetik fərqlər mövcuddur (Rüstəmli, 2016: 319).

Qədim türk elementlərinin Zəngəzur toponimlərində özünü göstərməsi faktı türkdilli tayfaların bu ərazilərdə çox qədim zamanlarda məskunlaşmasının ən əsas göstəricisidir. Ulu babalarımız bir sıra ümumi isimləri coğrafi adlara verməklə onları onomastikanın bir vahidi olan toponimlərə çevirmişlər. Məhz bu toponimlərin köməyi ilə qədim

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 236-238**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 236-238**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

türklərin yaşadıqları əraziləri, onların yayılma arealını müəyyənləşdirmək mümkündür. A.A.Bakıxanov bu barədə yazmışdı: “Əgər ölkənin qəbilələri, kəndləri, binaları, qədim qalaları geniş bir surətdə tədqiq edilərsə, əhalinin mənşəyini təyin etmək mümkün olacaqdır” (Bakıxanov, 2010: 38).

Zəngəzurda yaşayış məntəqələrinin və digər coğrafi obyektlərin adlarını özündə əks etdirən toponimlər qəbilə, tayfa adları ilə bağlıdır. Məhz bu toponimlərin bir çoxunun etimologiyasının araşdırılması, bu ərazinin ulu əcdadlarının öyrənilməsi xüsusunda əhəmiyyəti olduqca böyükdür.

Ərazidə mövcud olan türk mənşəli toponimlərdən biri *Dondarlı*dır. Şübhəsiz ki, coğrafi adlarda *Dundar//Dondar//Dondarlı//Tundar* formasında olan bu areal toponim *dondar* etnosunun coğrafi adlarda izidir. Onlar qədim oğuz tayfalarından biridir və “Kutabi-Dədə Qorqud” dastanında da adı çəkilir. Dastanda Dəli Dondar obrazının adında buna rast gəlirik. Dastanda *“Dəmir qapı Dərbənddəki dəmir qapını hücumla alan. Qıyan Səlcik oğlu Dəli Dondaz(r) çaparaq yetişdi”* şəklində işlənmişdir (Kitabi-Dədə Qorqud, 1978: 147).

Zəngəzur ərazisində, Qafan rayonunda lal toponimlərdən biri hesab edilən, erməni vandalizminin qurbanına çevrilən *Buğacıq* toponimi türk mənşəli etnonim əsasında meydana gəlmişdir. Toponim iki komponentdən -*buğa* sözündən və *“-cıq”* şəkilçisindən ibarətdir.

“Dədə Qorqud” dastanlarında adları çəkilən personajların adları ilə bağlı toponimləri bu gün antroponim kimi deyil, etnotoponim kimi götürmək, fikrimizcə, daha doğru olar (Rüstəmli, 2016: 156).

Zəngəzurun Sisyan bölgəsində yaşayış məntəqəsi olan *Başkənd* kəndinin adı mürəkkəb quruluşlu toponimlərdən biridir və iki komponenti də türk mənşəlidir. Oykonim *baş* və *kənd* komponentlərindən düzəlib, *"mərkəz, əsas yaşayış məntəqəsi, yuxarıda, yüksəklikdə olan kənd”* deməkdir (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I cild, 2007: 84).

Zəngəzur ərazisində mövcud olan türk mənşəli toponimlərin paralellərinə Türkiyə ərazisində də rast gəlinməkdədir. Bundan məlum olur ki, Zəngəzur toponimiyası Azərbaycan və ümumtürk mənşəli toponimlərlə zəngindir. Onların ayrılıqda araşdırılması, omotoponim hesab edilən yer adlarının tədqiq edilməsi mühüm nəticələrin əldə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

edilməsinə səbəb olar (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2007: 304).

Həmçinin indiki Ermənistan ərazisi Azərbaycan və ümumtürk mənşəli toponimlərlə zəngindir. Onların tədqiqi tarixin ədalət səhifəsinin açılmasında mühüm rol oynayar. Bu istiqamətdə tədqiqat işlərinin aparılması Azərbaycan tarixi, coğrafiya və Azərbaycan dili elminin aktual problemlərindəndir (Eyvazova, 1995: 244).

## Ədəbiyyat

1. Azərbaycanın tarixi abidələri və toponimləri. (2016). Biblioqrafiya. Bakı: Zərdabi-Nəşr, 646 s.
2. Rüstəmli, Ə. (2016). Zəngəzurun toponimləri – tarixin izi. Bakı: Zəka print, 444 s.
3. Bakıxanov, A. (2010). Gülüstani-İrəm. Bakı: Xatun plyus, 302 s.
4. Kitabi-Dədə Qorqud. (1979). Bakı, 178 s.
5. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. (2007). I cild. Bakı: Şərq-Qərb, 427 s.
6. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. (2007). II cild. Bakı: Şərq-Qərb, 304 s.
7. Eyvazova, R. (1995). Əfqanıstanda türk mənşəli toponimlər. Bakı: Elm, 244 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 239-241**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 239-241**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Seyidnisa Aliyeva**
Azerbaijan National Academy of Science
Ph.D student
nisealiyeva54@gmail.com
https://orcid.org/0000-0002-8271-4781

# HISTORY OF ZANGAZUR

***Keywords:*** *Zangazur, historical, ancient, Azerbaijan, region*
***Açar sözlər:*** *Zəngəzur, tarixi, qədim, Azərbaycan, bölgə*

Zangazur, one of the ancient districts of Azerbaijan, covers the territory of 7824 sq.km. It covers Gorus, Sisian, Gafan, Mehri regions of the present Republic of Armenia and Lachin, Gubadli, Zangilan regions of the Republic of Azerbaijan.

The word "Zangazur" is a toponym of pure Turkish origin. "Zengi" is the name of an ancient Turkic tribe, and many geographical names located in this area today ― Zangichay, Zangitepe, Zangerik, Zangishaml, Zangene, Zangilan, Zangeran, Zangishali, Zangi Chai, Zangibasar, Zangiler, Zangan, Zanjan, Zangilli, etc. is the source of the names of villages, rivers and mountains.

The name of this Turkish tribe is often found in the works of Mahmud Kashgari, Fazlullah Rashidaddin, Abbasgulu Agha Bakikhanov and other such world-famous historians. The second lexeme of the word "Zangazur"–"zur" ― means mountainous, ravine, rocky in ancient Turkic languages, and characterizes the relief of the mountainous area where the Zangazur live.

In historical sources, memoirs and studies of ancient travelers, Zangazur is presented as the homeland of Turks.

Some of the events in the ancient Turkish epic "Kitabi-Dade Gorgud" take place in Zangezur. Many names of places, people, and tribes from the book still exist in this area ― Gorus, Engaleyuz, Dondarlı, Ulaşlı, Gundanlı, Akerak, Boynekar, Basat River, Kapicık Mountain, Ichagyz and Dashagız Cave Caves, Aggaya, Karagöl, Garadag, Agduz, Garayer, Agdara, Aggaya, Agbulag, Karagaya, Karasu, Karachay, Kara Dara, Garahun Dara, Khocik, Aghasar and others (1).

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

In addition to the oldest historical sources, researches and studies conducted by many world scientists have established the history of the Albanian state of Zangazur in the IV-IX centuries, then the Sasanian Empire and the Arab caliphate, and the ancient Azerbaijani states that won the wars against the Arab caliphate in the IX-XI centuries – in those territories for centuries. the Sajis, Salaris and Ravvadis, who were in power under different names, Atabays in the 12th-13th centuries, Hulakus in the 13th-14th centuries, Jalairis in the 14th century, later the Garagoyunlu and Aggoyunlu states, the powerful Safavi state in the beginning of the 16th century, the Safavid state in the 18th and 19th centuries It confirms that it was part of the Karabakh Khanate in the 20s.

In other studies investigating the history of Zangazur, historical documents and facts prove that in 1905-1907 and 1918-1920, 115 Muslim villages of Zangazur, which were attacked by armed Armenian gangs, were looted, burned and wiped out, and 4,472 women and children were killed by Armenian armed forces with particular cruelty.

On August 10, 1920, by the decision of the Caucasian Bureau of the Russian Communist (Bolshevik) Party, Zangazur was declared a "disputed territory" between Azerbaijan and Armenia, but not a single Azerbaijani took part in the decision making... Thus, the Central Committee of the Communist (Bolshevik) Party of Azerbaijan by the decision of the meeting held on November 30, 1920, Zangazur – is included in Soviet Armenia (pause – music).

As a result of this decision, the Nakhchivan region of Azerbaijan is separated from the territory of the country, and thus Azerbaijan's land connections with Turkey, as well as with the entire Turkic world, are cut off.

According to the decision of the Political and Organization Bureaus of the Central Committee of the Communist Party of Azerbaijan (Bolsheviks) dated January 12, 1921 entitled "Administrative organization of the Muslim part of Zangeazur", Zangazur district is divided into two parts — western and eastern parts. 7824 sq. km. 4505 sq.km of Zangazur area (Gafan, Gorus, Garakilsa, Mehri, etc.) was torn from Azerbaijan and given to Armenia. In 1933, the name of Zangezur was removed from the map due to the official decision of Moscow — the division of Zangazur into districts.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

The historic victory of the victorious Azerbaijani Army in the 2nd Karabakh War finally restored justice. By the Decree of the President of the Republic of Azerbaijan, Commander-in-Chief Ilham Aliyev dated July 7, 2021, the establishment of the East Zangazur economic region was established (Abbasov).

This historical Decree, which will be written in golden letters in the history of Azerbaijan, returned the ancient Zangazur name to the maps as a geographical and administrative territorial unit.

October 26, 2021 – with another step towards the restoration of justice ─ was written in history with the laying of the foundation of the Azerbaijani part of the Zangazur Corridor, which connects the entire Turkic world and creates a new reality in Azerbaijan and the region.

## Reference

1. https://files.preslib.az/projects/zangazur/az/a1.pdf
2. Abbasov, Ə. Zəngəzur.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 242-245**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 242-245**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Zümrüd Qəhrəmanova**
Azərbaycan Dövlət Aqrar Universiteti
doktorant
zumrud.q@mail.ru

# TARİXİ – ƏZƏLİ AZƏRBAYCAN TORPAĞI ZƏNGƏZUR

***Açar sözlər:*** *Zəngəzur, toponim, türk tayfaları, tarixi ədalət, saxta-karlıq*

***Keywords:*** *Zangazur, toponym, Turkish tribes, historical justice, forgery*

Bugünkü Ermənistanın 80 faizindən çoxu Azərbaycan torpaqlarıdır. Bu torpaqları ruslar 1828-ci il Türkmənçay müqaviləsindən sonra müxtəlif vaxtlarda Azərbaycandan qoparıb ermənilərə vermişlər (Səbahəddin Eloğlu, 1992: 3). Zəngəzur, Dərələyəz, İrəvan xanlığı, Şəmsəddin və Göyçə gölü və mahalları bizim ata-baba yurdumuzdur.

Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır.

Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Mada şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olub. Urartu çarı Menuanın [e.ə. 810-786-cı illər] zamanında urartulular Cənubi Azərbaycanın Qaradağ mahalında yerləşən əraziləri tuturlar, 21 qalasını, 45 yaşayış məskənini öz hakimiyyəti altına aldılar. E.ə.VII əsrin 70-ci illərində Azərbaycanın Araz çayından şimaldakı ərazilərində, Manna və Urartu arasında Skif şahlığı meydana gəldi. Bu dövlətin hüdudları Şəki və Gəncədən Urmiya gölünə qədər uzanırdı. Zəngəzur bölgəsi skiflərin Urartuya yürüşlərinin əsas dayaq məntəqəsi idi. Eramızdan əvvəl VII əsrdə Skif şahlığı Mada-Midiya ordusu tərəfindən Zəngəzur bölgəsi də daxil olmaqla tam işğal edilir. İ.M.Dyakonovun fikrincə, e.ə. 321-ci ildə Azərbaycan torpaqlarında Atropatena şahlığı yaranarkən Zəngəzur da çox geniş bir ərazini əhatə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

edən bu dövlətin tərkibində olmuşdur. Urartuluların böyük hərbi, strateji əhəmiyyətə malik Zəngəzur ərazisini tutmaq üçün I Rusanın hakimiyyəti illərində apardıqları əməliyyatlar barədə Göyçə gölünün Zəngəzur torpaqlarına bitişik cənub sahillərində aşkar edilmiş Sovinar kitabəsində məlumat verilir. Urartu mətnlərində xatırlanan toponimlərin lokalizə problemi ilə məşğul olan tədqiqatçılar birmənalı şəkildə Sovinar kitabəsində adı çəkilən 19 ölkənin Göyçə gölündən şərqdə və cənubdakı əraziləri, həm də Zəngəzuru əhatə etdiyini bildirirlər. Antik dövrlərdə Zəngəzur bölgəsi Atropatena və Albaniya ərazilərinə daxil olmuşdur. Albaniya hökmdarı Aran Sisakan nəslinə mənsub idi. Albaniyanın əsas etnosu albanlar olduğuna görə ölkənin adında da daşlaşıb yaşayır. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradılmış, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirilmişdi (2). VII əsrin əvvəllərində Bizans imperatoru II İraklinin Sasani şahənşahı II Xosrov Pərvizlə apardığı müharibədə qalib gəlməsi fars hakimiyyətinə tabe olan ölkələrdə müstəqillik meyillərini gücləndirdi. Nəticədə Sünik knyazlığı da müstəqil oldu. Moisey Kalankatlı “Albaniya tarixi” əsərində VII əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcud olduğunu qeyd edir (Albaniya Salnaməsi, 2006: 14). “Kitabi-Dədə Qorqud”un baş qəhrəmanı Qazan xan albanlar başçısıdır. Qərb tarixçiləri Raulinson və Lenormana görə, ermənilər Urartu adına haqsız yiyələnmişlər və keçmiş “Böyük Ermənistan”ı əsassız olaraq özlərinin əzəli vətəni sayırlar. Onlar bu torpaqların qədim sakinləri deyildir (4).

Azərbaycanın tarixşünaslığının əsas mənbələrindən sayılan alban tarixçisi Musa Kalankatlı “Alban tarixi” əsərində Zəngəzur ərazisini “Sisakan” və “Sünik” adlandırmışdır (Əliyev, 2004: 17). Zəngəzurun ən qədim adının Sünik olması bir çox mənbələrlə əsaslandırılır və bu adın mənasının qədim türk tayfası olan sakların həmin ərazidə yaşaması ilə bağlı olduğu göstərilir. Sisakan toponimində həm də türk mənşəli arxaik söz daşlaşıb qalıb; “kan” – hündür dağ silsiləsi, dağlıq yer anlamında gen-bol işlənmişdir, yəni “Sisakan” Sisak nəslinin yaşadığı dağlıq yer” mənasındadır. Sisianda Şirikan toponimi vardı. Müqayisə üçün: Balakən, Beyləqan, Abakan, Balkan, Alban dövlətinin vilayətləri Atropatakan, Vaspurakan, Varaşkan, Paytarakan, Mardpetakan və b. bu kimi toponimlər də bir qayda olaraq hansısa tayfanın, şəxsiyyətin yaşadığı yer mənasını verməkdədir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 242-245**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 242-245**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Bəzən deyirlər ki, Syuni (Syunik) bu ərazinin erməni mənbələrindəki adı, Sisakan isə farsca adını bildirən sözdür. Elə buradaca qeyd edək ki, həm Syuni, həm də Sisakan sözü türk sözüdür. Eradan əvvəl IV minillikdə Çinde, indiki uyğurların yaşadığı ərazidə Syunnu adlanan türk tayfalan yaşamış, sonra bu tayfalar Orta Asiyaya, Qara dəniz sahillərinə və Qafqaza yayılmışlar. Bunlar sak, iskit, yaxud skif adlandinlan Saqa (Saqat) boyuna qohum tayfalar idilər (Urud, 2013: 15).

"Alban tarixi"ndən yazırdı: "...Qor və Qazan adlı iki qardaş böyük ordu ilə gəlib Sünikdə məskən saldı". Qor – əski türkcəmizdə həm də igid, cəsur adam deməkdi. Gorus bəzi mənbələrdə Qorus kimi də gedib. Zəngəzur ellərindən Qaf, Qazan köklü 40-dan çox toponim var. Sisianın adı ilkin yazılı mənbələrin əksəriyyətində "Sisakan"dır. Moisey Xorenatsi yazırdı: "Qoxtan əhalisi Sisak nəslinin varisləridir. Bu diyarın əzəli sakinləri hər şeydən əvvəl saklar və onların törəmələri, uti, uz, qarqar, ud və başqaları olmuşlar" (4). Zəngəzuru erməni torpağı elan edən erməni tarixçilərinin iddialarına rəğmən nə Arsax (sak ərlərinin yaşadığı yer), nə Qarabağ (geniş, çoxlu bağları olan torpaq) heç zaman ermənilərə mənsub olmayıb (5).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan EA-nın aparıcı alimləri və institut rəhbərləri ilə keçirdiyi görüşdə milli tarix elmi qarşısında Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yenidən obyektiv, vicdanlı yazılması vəzifəsini qoydu. Məsələnin bu müstəvidə qoyulmasının əsas məqsədi son iki əsr ərzində Azərbaycan xalqının yaşadığı məşəqqətli tarixin bütün qaranlıq səhifələrinin açılaraq ilk növbədə Azərbaycan xalqına, həm də dünya ictimaiyyətinə çatdırılması idi. 1997-ci il dekabrın 18-də imzaladığı "1948-1953-cü il illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlar itirilmiş torpaqlarımızın, o cümlədən Zəngəzurun həqiqi elmi tarixinin tədqiqi üçün hüquqi əsaslar yaratdı.

2014-cü il aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqində son iki əsrdə Zəngəzurla bağlı tarixi ədalətsizliyin aradan qaldırılacağına dair demişdir: "Xalqımıza qarşı ədalətsizlik edilmişdir. Çünki Azərbaycanın

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 242-245**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 242-245**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü. Bu, ədalətsizlikdir, bu, sağalmayan yaradır. Ancaq mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq. Bəli, tarixi ədalət bərpa olundu. Çox keçmədən Ali baş Komandan, cənab Prezident İlham Əliyevin siyasi dühası, iradəsi, əzmi, fədakarlığı sayəsində tarixi Azərbaycan torpaqlarımıza qayıtdıq.

## Ədəbiyyat

1. Səbahəddin Eloğlu. (1992). Zəngəzur hadisələri. Bakı: Azərnəşr.
2. https://files.preslib.az/projects/zangazur/az/a1.pdf
3. Albaniya salnaməsi. (2006). Mixtor Qoş. Bakı.
4. https://zengezur.com/KITABLAR/Zengezur-kitab-1.pdf/
5. Əliyev,V. (2004). Zəngəzurda qalan izimiz. Bakı, 102 s.
6. Urud, M. (2013). Zəngəzur toponimləri. Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 246-248**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 246-248**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Müseyib Şirəliyev**
Ankara Hacı Bayram Vəli Universiteti
doktorant
museyibshiraliyev@gmail.com

# ŞƏRQ-QƏRB KONTEKSTİNDƏ ZƏNGƏZUR DƏHLİZİNİN STRATEJİ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *Cənubi Qafqaz, İkinci Qarabağ müharibəsi, Azərbaycan, Zəngəzur dəhlizi, əməkdaşlıq*

***Keywords:*** *South Caucasus, Second Karabakh War, Azerbaijan, Zangazur Corridor, cooperation*

27 sentyabr 2020-ci il tarixində Azərbaycan Ordusu, işğalçı ünsürlərə qarşı hərtərəfli döyüş əməliyyatlarına başlamış və 10 noyabr 2020-ci il tarixdən müharibənin mütləq qalibi olmuşdur. Elə həmin gün qəbul olunan üçtərəfli Bəyanatın ən önəmli məqamlarından biri də Naxçıvan-Zəngəzur-Zəngilan əlaqəsinin təmin edilməsini nəzərdə tutan maddənin əlavə olunmasıdır.

Bildiyimiz kimi, Naxçıvanın Azərbaycanla quru əlaqəsinin olmaması həm Azərbaycanın, həm də Türkiyənin hərəkətliliyini azaldır. Bu boşluq Azərbaycanı və deməli, Naxçıvanı İrandan asılı vəziyyətə salır. Üstəlik, Gürcüstan və İran Azərbaycanın enerji və tranzit imkanlarından yararlandığı halda, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan nisbətən məhrumdur. Azərbaycan özünü Rusiyanın, Qafqazın və Mərkəzi Asiyanın magistral və enerji tranzitinin mərkəzinə çevirərək, əhəmiyyətini artırıb. Enerji Dəhlizi baxımından Avrasiya coğrafiyasında və xüsusilə Xəzər dənizi və ətrafı ilə bağlı müzakirələrin mərkəzi olmağı və hər baxımdan Türkiyə ilə türk dünyası arasında körpü olmağı hədəfləyir (Şirəliyev, 2022: 189).

Əslində, Zəngəzur dəhlizi Ermənistan üçün tarixi fürsət yaradır. Çünki Ermənistan artıq Azərbaycandan başlayan və keçən bütün nəqliyyat layihələrindən kənarda qalıb. Ona görə də Zəngəzur dəhlizi Ermənistan üçün "nəfəs borusu-həyat dəhlizi" kimi fəaliyyət göstərəcək (Həsənoğlu, Məmmədov, Məhərrəmov, 2020: 527). Uzun illər Rusiyanın dəstəklədiyi erməni işğalı səbəbindən Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə əlaqəni kəsərək Şərq-Qərb oxu isti-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

qamətində nəqliyyat şəbəkəsinin funksiyasını passivləşdirib. Lakin Qarabağın Zəfəri ilə bu vəziyyət tərsinə çevrildi və mühüm layihələr həyata keçirilməyə başladı. Zəngəzur dəhlizinin tam şəkildə həyata keçirilməsi və səmərəli istifadəsi regional strategiyaları transformasiya edərək beynəlxalq münasibətlərdə yeni proseslərə gətirib çıxaracaq.

Zəngəzur dəhlizi təkcə Xəzər dənizindən Aralıq dənizinə qədər Yaxın Şərq ölkələri də daxil olmaqla, regionu əhatə edən geniş nəqliyyat şəbəkəsini təmsil edən Naxçıvanı Azərbaycanın materik hissəsi ilə birləşdirmək funksiyası ilə məhdudlaşmayacaqdır. Zəngəzur dəhlizinin ortaya qoyduğu funksiyalar regional gücləri narahat edən əsas amillər ola bilər. Zəngəzur dəhlizi cənub istiqamətində yeni dəmir yolu xəttinin reallaşmasına ən ciddi maneə kimi görünür. Bu problemin həlli Azərbaycanla Türkiyənin Cənub-Şərqi Anadolu bölgəsini, Aralıq dənizi regionunu, Xəzər və Aralıq dənizi hövzəsini birləşdirəcək, regional əməkdaşlığa, sülhə və inkişafa töhfə verəcək yeni nəqliyyat xəttinin reallaşması ilə nəticələnəcək. Zəngəzur dəhlizinin açılması Şərqi və Cənub-Şərqi Anadolu bölgələrinin istehsal gücünə, ixracına və nəqliyyat infrastrukturunun inkişafına böyük töhfə verəcək, eyni zamanda Aralıq dənizi regionunun turizm potensialının diversifikasiyasına ciddi təsir göstərəcək (Həsənoğlu, Məmmədov, 2023: 339). Bu nəqliyyat xəttinin regional inkişaf, regional əməkdaşlıq, region dövlətləri arasında qarşılıqlı etimadın formalaşması, icmalararası kommunikasiya, turizm marşrutlarının şaxələndirilməsi və həm sərnişin, həm də yük daşıma xərclərinin azalması kimi bir çox müsbət faydaları olacaq. Ona görə də Zəngəzur dəhlizini bu kontekstdə nəzərdən keçirmək və onun reallaşmasına daha böyük layihənin xəbərçisi kimi baxmaq çox faydalıdır (Şirəliyev, 2022: 110). Bu dəhliz və dəmir yolu xətti region ölkələri arasında daha səmərəli nəqliyyat infrastrukturunu təmin etməklə ticarətin artırılmasına, iqtisadi əməkdaşlığın gücləndirilməsinə və regional inkişafın təşviqinə mühüm töhfə verə bilər.

Eyni zamanda Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığı daha da gücləndirəcək bir addım kimi diqqət çəkir. Bu cür layihələr regional inteqrasiyanı dəstəkləyə və daha böyük coğrafi ərazilərdə əməkdaşlıq imkanları yarada bilər.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 246-248**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 246-248**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Şirəliyev, M. (2022). İkinci Qarabağ müharibəsinin geosiyasi və geoiqtisadi baxımdan nəticələri: Zəngəzur dəhlizinin strateji əhəmiyyəti, Ege Universiteti Türk Dünyası Araşdırmalar İnstitutu II. Soyuq Müharibədən Sonra Sosial, İqtisadi və Siyasi İnkişaflar Kontekstində Beynəlxalq Cənubi Qafqaz Simpoziumu (12-13 May 2022). Materiallar Kitabı. Ankara: İKSAD, s.181-196.
2. Həsənoğlu, M., Məmmədov, A., Məhərrəmov, B. (2020). İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan-Türkiyə münasibətləri. "Beynəlxalq İdarəetmə Akademiyası" jurnalı. 3 (3), s.522-529.
3. Məmmədov, A., Həsənoğlu, M. (2023). Xəzərdən Aralıq dənizinə Zəngəzur dəhlizi. "Beynəlxalq İdarəetmə Akademiyası" jurnalı. 6(2), s.334-344.
4. Şirəliyev, M. (2022b). Şuşa bəyannaməsi və onun beynəlxalq hüquq baxımından əhəmiyyəti, II. Qafqazın Gələcəyi üzrə Beynəlxalq Konqres (11-13 May 2022). Proseslər Kitabı. Ankara: SDE, s.103-111.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 249-253**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 249-253**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nərmin Salmanlı**
Naxçıvan Dövlət Universiteti
doktorant
narminnagiyeva98@gmail.com

# QƏRBİ AZƏRBAYCANIN TƏBİİ RESURS POTENSİALI

***Açar sözlər:*** *Qərbi Azərbaycan, filiz, qeyri-filiz, təbii ehtiyat, mahal, mineral*
***Keywords:*** *Western Azerbaijan, ore, non-ore, natural resource, county, mineral*

Qərbi Azərbaycan torpaqları öz əsrarəngiz təbiəti, təbii ehtiyatları ilə bütün Qafqazda fərqlənir.

Qərbi Azərbaycan dərinlikləri filiz və qeyri-filiz ehtiyatları, mineral su mənbələri ilə olduqca zəngindir. Burada təbii faydalı qazıntıları arasında əlvan və qara metallar, qaya duzu, bentonit gilləri, perlitlər, odadavamlı gillər, diatomitlər, travertinlər, pemza, tuf və tuf lavalar, bazaltlar, qranitlər, andezitlər, andezit-bazaltlar, mərmər, mərmər əhəngdaşları və s. ehtiyatları əsas yer tutur. Yarımqiymətli və bəzək daşlarının, o cümlədən əqiq, ametist, firuzə, jasper, obsidian və s. sənaye əhəmiyyəti aşkar edilmişdir.

**Filiz ehtiyatları.** Abovyanskoye (keçmiş Qırxbulaq mahalı, indiki Kotayk rayonunda) apatit-maqnetit filizlərinin təsdiqlənmiş ehtiyatları ilə təqribən. 244 milyon ton (Fe tərkibi 28 %), ehtiyatı 50 milyon ton olan Hrazdan (Kotayk rayonu) maqnetit filiz yatağı (Fe tərkibi 32 %), Svarantskoye yatağı (Fe tərkibi 20 %), həmçinin şimalda Axtala (Loru mahalı), Abovyan (Kotayk rayonu) və Hrazdan yataqlarının filiz ehtiyatları təmiz dəmir istehsalı üçün mineral xammal kimi təsdiq edilmişdir. Abovyan yatağında qalınlığı 50-180 m olan bazalt və andezit-bazaltik lavaların örtüyü altında dəmir filizi yerləşir. Bu süxurlar hərtərəfli tədqiq edilmiş, tikinti materialları kimi 64 milyon m³ ehtiyatı təsdiq edilmişdir. Hrazdan yatağının filizindən alınan xüsusi poladlar və ərintilər çox yüksək xassələri ilə xarakterizə olunur ki, bu da filizlərin müstəsna təmizliyi və bir sıra nadir torpaq elementlərinin olması ilə izah olunur. Yataq açıq mədən hasilatı üçün əlverişli şəraitə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

malikdir: filiz gövdəsi yumşaq meylli təbəqə gövdəsi ilə təmsil olunur və yerin səthinə birbaşa çıxışı var.

Qərbi Azərbaycan mis-molibden filizləri ilə zəngindir. O, dünya üzrə təsdiq edilmiş molibden ehtiyatlarının 5,1 %-nə və təsdiqlənməmiş molibden ehtiyatlarının isə 7,6 %-nə malikdir. Ermənistanın mis və molibden ehtiyatlarının böyük hissəsi, 90%-dən çoxu Kacaran (Syunik rayonunda, keçmiş Zəngəzur mahalı) filiz yatağının molibden-porfir mis yataqlarında cəmləşmişdir. Ehtiyatlarına görə mis-molibden filizlərinin ikinci yatağı Teghout (Lori rayonunda) mis-molibden yatağıdır. Kiçik Aqarak (Qafan rayonunda) mis-molibden yatağında filiz yataqları da var. Yataqlar mürəkkəbdir, açıq mədən üsulu ilə işlənir və inkişaf etmiş ərazidə yerləşir. Ən böyük molibden yatağı Zəngəzur mis-molibden zavodu tərəfindən işlənən Kacaran mis-molibden yatağıdır. İri Kacaran hidrotermal yatağı damarlı yayılmış mis-molibden filizlərindən ibarət şkafdır və tərkibində eyni zamanda renium, selen, tellur və vismut var. Yatağın təsdiq edilmiş ehtiyatları 100 ildən artıq müddətdə daha da işlənməyə imkan verəcək.

Təmiz qızıl ehtiyatlarına görə birinci yerdə iki yataq durur: tərkibində qiymətli metal da olan Kacaran mis-molibden yatağı (təxminən 40 ton) və ehtiyatı 40 ton olan və 2011-ci ildə istismara başlayan yeni Amulsar qızıl yatağı (Syunik rayonunda, Keçmiş Zəngəzur mahalı); ikinci, Kapan (Syunik rayonunda) filiz yatağının daxilində yerləşən və damarlı minerallaşma növü ilə təmsil olunan və ehtiyatı 40 tondan bir qədər az olan Şaumyan (Goranboy) qızıl yatağı, dördüncüsü, ehtiyatı təxminən 22 ton olan Meqradzor qızıl yatağıdır (Kotayk rayonunda).

Filizdəki əsas faydalı komponentlər: qızıl (orta tutumu 2,6 q/t), gümüş (50,0 q/t), sink (2,4%), mis (0,6%), qurğuşun (0,15%). İki qızıl-polimetal yatağı – Liçkvaz (Syunik rayonunda) və qalınlığı 3 m-ə qədər damar filiz gövdələri olan Tərtərasar (Syunik rayonunda) fərqlənir. Liçkvaz yatağının filizinin təsdiq edilmiş balans ehtiyatı orta qızıl tərkibi ilə 3,4 milyon ton təşkil edir. 5,3, gümüş 32 q/t. Tərtərasar yatağı miqyasına görə daha kiçik olsa da (325 min ton), yüksək keyfiyyətli filizlə (qızılın tərkibi 11 q/t) fərqlənir. Syunik bölgəsində sənaye üçün maraq doğura biləcək bir sıra əlvan və qiymətli metalların yataqları və aşkarları var.

Armanisskoye (Lori rayonunda) və Azatek (Vayots Zor, keçmiş Dərələyəz mahalı) qızıl-polimetal yataqları da diqqətəlayiqdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Onlardan ən böyüyü Alaverdi şəhərindən 50 km aralıda yerləşən ehtiyat Armanisskoye yatağıdır. Təsdiq edilmiş filiz ehtiyatları 15 milyon ton təşkil edir, faydalı komponentlərin orta tərkibi: qızıl - 0,84, gümüş - 11,0 q/t; mis - 1,08, sink - 2,6, qurğuşun - 1,22%. Yatağın yeraltı işlənməsi planlaşdırılır. İlk üç yataq Ermənistanın şimalında yerləşir və Alaverdi mədən-metallurgiya kombinatının tərkibində istismar edilib. Bu yataqların filiz gövdələri dik və yumşaq damarlar, filizli zonalar və linzalardır. Alaverdi yatağında (Lori rayonunda) filiz ehtiyatlarının qalığı (2000) 4,8 milyon ton (orta misin miqdarı 2,8%); Şamluqski (Lori rayonunda)üçün - 4,5 milyon ton (mis tərkibi 3,4%); Akhtalsky boyunca - 1,3 milyon ton (mis tərkibi 0,6, qurğuşun 1,7, sink 4,5%).

Qərbi Azərbaycan torpaqlarında polimetal filiz yataqları da yerləşir. Əsas olanları barit-polimetal filizləri olan Axtala yatağı (Lori rayonunda) və tərkibində qurğuşun-sink filizləri olan Qladzor (Vayots Zor rayonunda) yatağıdır.

Eyni zamanda ərazidə nadir torpaq metallarına da, o cümlədən volfram, uran, vismut, qalium, indium, selen, tallium, tellur, reniuma rast gəlinir. Filizlərdə və onların emalı məhsullarında vismut, vanadium, dəmir və titan, skandium, platinoidlər, radiogen osmium, qızıl-polimetal filizlərində germanium, sürmə, arsen və s. var.

Qərbi Azərbaycan ərazisində uran yataqları da aşkar edilib. Onların ehtiyatları 100 min tondan çox qiymətləndirilir. Yataqlar Syunik rayonunda, Pxrut və Lernadzor kəndləri arasında aşkar edilib (Gaydar, 2003: 56).

İlkin məlumatlara görə, Kacaran yatağının filizlərində platin qrupu metallarının gözlənilən ehtiyatı 130 tona yaxındır. Bundan başqa, burada qara şist təbəqələrində platin qrupu metalları (0,1-1 q/t) aşkar edilib.

Qərbi Azərbaycanın təbii sərvətləri arasında eyni zamanda yüksək keyfiyyətli kömür yataqları da var. Məlum kömür yataqlarına Germanis, Mehri rayonunda Nor Arevik, Lori rayonunda Şamut və Şirak rayonunda Cajur yataqlarıdır.

**Qeyri-filiz ehtiyatları.** Sözügedən ərazidə qeyri-filiz yataqları da kifayət qədərdir. İcevan rayonunda ehtiyatı 70 milyon tondan çox olan Sarıyux yatağında bentonit gilləri aşkar edilmişdir. Qum-çınqıl material ehtiyatları 90 milyon $m^3$, gilli ehtiyatlar təxminən 50 milyon $m^3$, tikinti qumu təxminən 80 milyon $m^3$ qiymətləndirilir. Sevan gölünün

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 249-253**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 249-253**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

sahilindəki Şorjinskoye yatağında odadavamlı xammal yataqları kəşf edilmişdir. Forsterit məhsullarının istehsalı üçün yararlı xammal ehtiyatı 20 milyon tondur.

Burada böyük daş duz ehtiyatları da var. Proqnoz ehtiyatları bir neçə milyard ton qiymətləndirilir. Ən böyük daş duz yatağı Əştərək rayonunda Avanskoyedir (Prierevan qaya duzu hövzəsi), rayon ərazisində eyni zamanda Yelarskoye və Yeqvardskoye daş duz yataqları da kəşf edilmişdir (Varanskiy, 1974: 178).

Qərbi Azərbaycan torpaqlarında tuflar geniş yayılıb. Dünya tuf ehtiyatlarının təxminən 90 %-i burada cəmləşib ki, bu da təxminən 2,5 milyard $m^3$ təşkil edir. Ərazidə tuf yataqları çox böyükdür və demək olar ki, bütün əraziyə səpələnmişdir. Ən böyük yataq Şirak rayonundakı Artik tuf yatağıdır. Yataqda tuf ehtiyatları 250 milyon $m^3$-dən çox qiymətləndirilir. Artik yatağı miqyası və yüksək fiziki-mexaniki xassələri ilə seçilir. İllik istehsal 800 min $m^3$-dən çoxdur.

Qərbi Azərbaycanda təbii daşların aşağıdakı növləri məlumdur: vulkanik, felsit və kalkerli tuflar, qranitoid və karbonat süxurları, bazalt, qabıqlı qaya, mərmər. Ərazidə cəmi 120 tikinti daşı və 60 üzlük daş yatağı var. Üzlük daşının ehtiyatı 276 milyon $m^3$-dir. Burada ən qiymətli daş növü felsitdir, çünki felsit Qərbi Azərbaycan torpaqlarından kənarda praktiki olaraq yoxdur və çox bahalıdır. Bu daş dekorativ məqsədlər üçün, müxtəlif əşyaların üzlənməsi üçün istifadə olunur (Strany mira, 1998).

Qərbi Azərbaycan ərazisində həm də qiymətli və yarı qiymətli daşlara rast gəlinir. Qiymətli daşlardan Xosrov meşəsi ərazisində almaz yataqları var. Bu yataq ehtiyatı əsasında emal olunmuş almaz ixracı 70,6 min karat təşkil edib ki, bu da 14,1 kq olmuşdur. Yarı qiymətli və bəzək daşları arasında isə əqiq, jasper, ametist, beril, obsidian, oniks, firuzə, andezit məlumdur.

**Mineral və şirin su mənbələri.** Qərbi Azərbaycan ərazisində 7500-ə yaxın şirin və 1300 mineral su mənbəyi məlumdur ki, onların da bir çoxu balneoloji məqsədlər üçün istifadə olunur. Ən məşhurlarına indiki Vayots Zor rayonundakı, keçmiş Dərələyəz mahalındakı Cermuk; indiki Kotayk rayonundakı, keçmiş Qırxbulaq mahalındakı Arzni, Bjni, Hankavan; indiki Tavuş rayonundakı, keçmiş Loru mahalındakı Dilican və Sevan və s. misal göstərmək olar.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Gaydar, Ye.T. (2003). Sotsial'no-ekonomicheskoye razvitiye Rossii i stran SNG v 2002 godu, Goskomstat Rossii, M.
2. Varanskiy, N.N. (1974). Ekonomicheskaya geografiya SSSR. Moskva.
3. Strany mira. (1998). M.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 254-260**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 254-260**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Abdulla Mustafayev**
Naxçıvan Dövlət Universiteti
mustafayevabdulla78@gmail.com
**Elçin Zamanlı**
Naxçıvan Dövlət Universiteti
elçinzamanli70@gmail.com
**Qadir Əkbərov**
Naxçıvan Dövlət Universiteti
ekberovqadir4@gmail.com
UOT9/47.924
https://orcid.org/0009-0005-8693-9338

# 1918-1920-Cİ İLLƏRDƏ ZƏNGƏZUR QƏZASINDA TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMLAR (ARXİV MATERİALLARI ƏSASINDA)

***Açar sözlər:*** *Qərbi Azərbaycan, Zəngəzur, Gəncə qubernatoru, Müttəfiqlərin Ali Komissarı, İndiki Ermənistan*
***Keywords:*** *West Azerbaijan, Zangazur, Governor of Ganja, Allied High Commissioner, Modern Armenia*

1918-1920-ci illər Azərbaycan xalqının tarixində qanlı hadisələrlə yadda qalmış, bu qanlı tarixin izləri ölkəmizin hər bir bölgəsində özündən sonra dərin izlər buraxmışdır. Belə bölgələrdən biri də indiki Ermənistanın cənub hissəsini və və Azərbaycanın kiçik bir hissəsini təşkil edən, əsrin ilk onilliklərində ermənilər tərəfindən işğal edilmiş tarixi Zəngəzur mahalıdır.

1918-1920-ci illərdə Zəngəzur erməni vəhşiliklərindən ən çox ziyan görmüş bölgələrdən biri olmuşdur. Azərbaycan Cümhuriyyətinin yeni yarandığı vaxtlar ölkənin iqtisadi və hərbi cəhətdən zəif olmasından istifadə edən ermənilər həmin əraziləri Azərbaycandan qopara1raq Ermənistana birləşdirmək istəyirdilər. Ermənilərin bu niyyətləri barədə 1919-cu ilin yanvarında Azərbaycan Daxili İşlər Nazirliyində keçirilən iclasda Xəlil bəy Xasməmmədov çıxış edərək bölgədə cərəyan edən hadisələr barədə məruzə etmiş, hərbi dəstələri ilə bölgəyə gəlmiş Andranikin də məqsədinin məhz bu olduğunu bildirmişdi.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Xəlil bəy Xasməmmədovun məruzəsində Andranikin silahlı dəstələri tərəfindən 150-yə yaxın müsəlman kəndinin dağıdılması və qarət edilməsi göstərilirdi. Məhz bunları nəzərə alan Azərbaycan höküməti 1919-cu il yanvarın 15-də keçirilən iclasda Xəlil bəy Xasməmmədovun yuxarıda göstərilən məruzəsini müzakirə edərək Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları ərazilərinin hüdudlarında müvəqqəti general-qubernatorluq təsis etmək haqqında qərar qəbul etmiş, yanvarın 29-da isə həmin qəzalara müvəqqəti general qubernator təyin olunmuşdu. Bu qəzalarda məskunlaşdırılan ermənilərin Azərbaycan hakimiyyət orqanlarına tabe olmaq istəməmələrinə baxmayaraq, Xosrov bəy Sultanovun apardığı gərgin iş nəticəsində Sarov, Seyidsüzən, Maralyan, Həsən-qaya, Yarmaca, Aşağı Çaylı, Yuxarı Çaylı, Merkuşevan kəndlərində məskunlaşdırılan ermənilər Azərbaycan hökümətinə müraciət edərək onu tanıdıqlarını bildirmişdilər (1, f.277, siy. 2, iş 43, v. 11). Ermənistan Xarici İşlər Naziri Tiqranyan Azərbaycanın bu qəzalarda general-qubernatorluq yaratmasına öz etirazını bildirmişdir (2, f.970, s.1, iş 152, v.1). Qeyd etmək lazımdır ki, yeni general-qubernator təyin olunmuş X. Sultanovun 3 azərbaycanlı və 3 erməni köməkçisi, məsləhətçisi var idi.

Ermənistanın Xarici İşlər naziri S.Tiqranyan martın 11-də ingilis generalı Tomsona 559 saylı məktub göndərmiş və həmin məktubunda Azərbaycanın adları yuxarıda qeyd olunan qəzalarda general-qubernatorluq yaratmasına özünün etirazını bildirmişdir. S.Tiqranyan həmin məktubunda yazırdı: "Mən yanvar ayında Ermənistan hökuməti adından Azərbaycan hökumətinə Ermənistan ərazisinə daxil olan Şuşa, Zəngəzur, Cəbrayıl, Cavanşir qəzalarında general-qubernatorluq yaratmasına etirazımı bildirdim və bu vilayətdə onun fəaliyyətini qanunsuz saydım... Ermənistan hökumətinin Gorusda öz komissarı var və bu ərazinin bütün inzibati xərclərini ödəyir. Azərbaycan hökumətinin birtərəfli və zorakılıq addımları xoşagəlməz nəticələrə gətirib çıxara bilər..." (5, f. 314, siy.5, iş 33, v.10).

Ermənistan Respublikasının Xarici İşlər Nazirinin bu barədə etirazına ADR-in Xarici İşlər Naziri Ziyadxanov tərəfindən 1919-cu il yanvarın 31-də göndərilən 178 saylı məktubda Ermənistanın etirazlarının əsassız olduğu bildirilmişdi (2, f.970, s.1, iş 152, v.1).

Ermənistan höküməti dəfələrlə Azərbaycan hökümətinə nota göndərərək X.Sultanovun və Azərbaycan ordusunun Qarabağdan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

çıxarılmasını tələb etsə də bu tələblər Azərbaycan hökuməti tərəfindən qətiyyətlə rədd edilmişdi.

Ermənistanın bütün cəhdlərinə baxmayaraq müttəfiq dövlətləri də X.Sultanovu general-qubernator kimi tanımış, bu barədə mövqelərini Ermənistan hökümətinə bildirmişdilər. Belə ki, Böyük Britaniyanın İrəvanda olan nümayəndəsi general B.Assarın 1919-cu ilin fevral ayında Ermənistan XİN-ə yazdığı məktubda bildirilirdi ki, "1919-cu il fevralın 24-də general Forest Uokerdən radioqramma alınmışdır. General Tomson Bakıdan xəbər verir ki, doktor Sultanov Zəngəzur, Cəbrayıl, Şuşa və Qarabağ qəzalarının general-qubernatoru kimi Şuşa-ya gedir. O həmin qəzalarda qayda-qanun yaratmaq üçün ora yollanır..." (1, f.276, siy. 5, iş 4, v. 2-3).

Lakin bu cür vəziyyətlə barışmaq istəməyən Ermənistanın Xarici İşlər naziri Tiqranyan 1919-cu il fevralın 28-də Böyük Britaniyanın Zaqafqaziyadakı silahlı qüvvələrinin komndanı general-mayor Forest Uokerə etiraz məktubu göndərmişdi (1, f.276, siy. 5, iş 4, v.7-8).

M.Təkinski 1919-cu il iyunun 25-də təkrar olaraq Ermənistanın Xarici İşlər nazirliyinə göndərdiyi notada X.Sultanovun general-qubernator kimi təyin edilməsindən və bu təyinatın müttəfiq dövlətlər tərəfindən rəsmi şəkildə tanınmasından sonra onun apardığı gərgin iş nəticəsində Şuşa rayonunda əmin-amanlığın yaranmasından bəhs etmişdir (2,f.970, siy.1, iş 62, v. 66).

Lakin bütün bunlara baxmayaraq, erməni hökümətinin fəal yardımına, ingilislərin loyal münasibətinə, həmçinin maddi yardımına arxalanan cəllad Andranik Zəngəzurda, Şuşada, Cəbrayıl və Cavanşir qəzalarında azərbaycanlılara qarşı qanlı qırğınlar törətməkdə, onları yurd-yuvalarından qovaraq orada Türkiyədən gələn erməniləri yerləşdirməkdə davam edirdi. General Biçeraxov da Andraniklə sıx əlaqə saxlayır, ona maliyyə cəhətdən köməklik göstərirdi. Bunu Andranikin general Biçeraxova göstərdiyi 1 milyon manata görə 1919-cu il fevralın 7-də göndərdiyi minnətdarlıq məktubu da sübut edir. İngilislərin Andranikə göstərdikləri pul yardımı ona ordusunu möhkəmləndirməyə imkan vermiş, nəticədə Zəngəzurda 192 kənd talan edilmiş, bu kəndlərdə təxminən 37 min əhalidən təqribən 30%-i həlak olmuşdu (1, f.277, siy. 2, iş 43, v. 11-12).

1918-1920-ci illərdə ermənilərin Zəngəzur qəzasında törətdikləri qırğınlar barədə istər Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Sənədlər Arxivində, istər Azərbaycan Respublikası Milli Arxiv İdarəsində, istərsə də Muxtar Respublika Dövlət Arxivində kifayət qədər materiallar saxlanılmaqdadır. Bu dövrə aid arxiv sənədlərində Andranik və onun quldur dəstələri tərəfindən Sisyan mahalının 1-ci polis sahəsinin bütün müsəlman kəndlərinin, 2, 3, 4 və 5-ci sahələrin kəndlərinin böyük əksəriyyətinin məhv edilməsi göstərilir (2, f.970, siy.1, iş 161, v. 7).

1918-ci ilin yazında və payızında Zəngəzurun kəndlərində 4501 nəfər kişi, qadın və uşaq öldürülmüş, 599 nəfər yaralanmışdı. Salamat qalan əhali zorla yurd-yuvalarından didərgin salınmışdır. Belə ki, arxiv fondlarında Zəngəzurun 115 kəndinin hər birində ayrı-ayrılıqda ermənilərin törətdikləri qırğınlar və onların nəticələri öz əksini tapmışdır (2, f.1061, siy. 1, iş 8, 10, 13, 17-20, 30, 32-36, 42-44, 48, 50-51, 54-55, 57-59, 61-66, 75-77, 86, 82, 88-89).

Ermənilərin Zəngəzurda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər müttəfiqlərin gözləri qarşısında baş verirdi. Andranikin müttəfiqlərlə sıx əlaqəsinin olmasını mayor Gibbonun 1918-ci il dekabrın 8 göndərdiyi məktubu da təsdiq edir. Məktubda bildirilmişdi ki, "Müttəfiq ordularının komandanı general Tomsonun tam və qəti qərarına görə Əkərə qalasından Gorusa qədər yolun, habelə Zəngəzur qəzasının bütün sahələrinin mühafizəsi Andranikin sərancamı və rəhbərliyi altında həyata keçirilsin..." (2, f.894, siy. 4, iş 65, v. 44-45).

1919-cu il noyabrın 23-də Tiflisdə Ermənistan və Azərbaycan hökümət başçıları Xatisov və Yusifbəyli arasında münaqişənin dayandırılması ilə bağlı görüş keçirildi. Tərəflər hər cür toqquşmanın dayandırılması, Zəngəzurda yaşayan əhaliyə ərzaq və digər malların çatdırılması üçün yolların bərpası, sərhəd məsələləri də daxil olmaqla bütün mübahisəli məsələlərin noyabrın 26-da Bakıda və dekabrın 4-də Tiflisdə keçiriləcək konfransda müzakirə olunması barədə razılığa gəldilər.

1919-cu il noyabrın 23-də əldə olunmuş razılığa əsasən, Azərbaycan və Ermənistan hökümətləri öz ordularını Zəngəzurdan geri çəkməli idilər. Azərbaycan öz qoşunlarını Zəngəzurdan geri çağırsa da Ermənistan höküməti nəinki bunu etmədi, əksinə oradakı ordularını hərbi sursat cəhətdən gücləndirərək, qəzanı azərbaycanlı əhalidən təmizləməyə başlamışdı.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Azərbaycan hökuməti Ermənistan tərəfinin razılığı pozduğu haqda 1920-ci il yanvarın 17-də Müttəfiqlərin Ali Komissarı polkovnik Haskelə etiraz məktubu göndərsə də, heç bir nəticəsi olmadı (2, f.897, siy. 1, iş 31, v. 12).

Andranikin hərbi hissələrinin Zəngəzurun müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər 1919-cu ilin martınadək davam etdi və bu müddətdə belə əməliyyatların coğrafiyası daha da genişləndi. 1919-cu ildə qəzada özbaşınalıqlar edən daşnak quldur dəstələrinə hərbi yardım gücləndirildi, Andranikin hissələrinin müxtəlif mənbələrdən maliyyələşdirilməsi işi xeyli yaxşılaşdırıldı. Bütün bunların nəticəsində, 1919-cu il aprel ayının 2-də Zəngəzur və Sisyan erməniləri Gorusda ümumi qurultay çağıraraq bu ərazilərdən bütün azərbaycanlıları silah gücünə çıxarmaq haqqında qərar qəbul etdilər (1, f.276, siy. 9, iş 1, v. 10). Bu barədə M.x.Təkinski 1919-cu il iyulun 2-də Azərbaycan Parlamentinin sədrinə və XİN-ə göndərdiyi teleqramda məlumat vermişdi (1, f.277, siy.2, iş 57, v. 57).

Azərbaycan Respublikasının Xarici İşlər Naziri M.Cəfərov Təkinskinin bu teleqramı ilə bağlı iyulun 4-də Bakı şəhərində yerləşən ingilis qüvvələrinin Ali Baş Komandalığına müraciət edərək ondan təcavüzün qarşısının alınması üçün Ermənistan hökümətinə təsir göstərməyə çağırmışdı (1, f.277, siy. 2, iş 57, v. 571). General-qubernator Sultanov da Azərbaycan hökümətinə dəfələrlə teleqram göndərərək ermənilərə qarşı real kömək istəmişdir (2, f.970, siy. 1, iş 62, v. 62).

Azərbaycan hököməti Ermənistan ilə mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi üçün bütün vasitələrə əl atırdı. Azərbaycan hökümətinin səyləri nəticəsində 1919-cu il dekabrın 14-də mübahisəli məsələlərin həlli üçün Bakıda Azərbaycan-Ermənistan konfransı öz işinə başladı. Lakin bu dəfə də Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi danışıqların nəticəsiz qurtarmasına səbəb oldu. Ermənilərin müsəlmanlara qarşı qırğınları isə davam etməkdə idi.

Erməni millətçilərinin Zəngəzur qəzasında azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər 1920-ci ildə özünün kulminasiya nöqtəsinə çatdı. Azərbaycan parlamentinin üzvü Cəlil Sultanov 1920-ci il yanvarın 21-də parlamentin sədrinə göndərdiyi teleqramda bildirirdi ki, "Zəngəzur qəzasına 4-cü gündür ki, erməni nizami qoşunlarının hücumu davam edir… Bədbəxt əhali adından xahiş edirəm ki, kağız

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

üzərində etiraz etməkdən fəal işə keçəsiniz və Azərbaycanın gözəl guşəsini məhv olmaqdan xilas edəsiniz. Zəngəzurdan sonra növbə Qarabağındır…" (2, f.894, siy. 4, iş 129, v. 10).

Ermənilər bir həftə ərazində –1920-ci il yanvarın 19-dan 26-a kimi Zəngəzurda 51 kəndi dağıtmış və əhalisini qırmış, salamat qalanlar canlarını birtəhər qurtararaq Azərbaycanın müxtəlif bölgələrinə pənah gətirmişdilər (2, f. 898, siy. 4, iş 129, v. 40-41). C. Sultanovun parlamentin sədrinə göndərdiyi 23 yanvar 1920-ci il tarixli teleqramda on minlərlə Zəngəzur qaçqının Cəbrayılda açıq havada, ac və lüt halda olduqları bildirilirdi. Eyni zamanda göstərilirdi ki, "erməni meyitlərinin içərisində ingilis əsgərlərinin də meyitləri tapılıb…" (1, f.277, siy. 1, iş 69, v. 46).

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da ermənilərin təcavüzü davam edirdi. 1920-ci il iyul ayının 2-də Azərbaycan SSR Xarici İşlər Naziri M.D.Hüseynov Kirova teleqram göndərərək münaqişələrin həll edilməsi üçün Tiflisdə Ermənistan-Azərbaycan konfrasının çağırılmasını təklif etdi (1, f.276, siy. 9, iş 62, v. 4-5).

Ermənistan Azərbaycanla arasındakı mübahisəli məsələlərin həllində Sovet Rusiyasının vasitəçiliyini istəyir və bu yolla Zəngəzuru və Qarabağı ələ keçirməyə çalışırdı. Nəhayət, Sovet Rusiyası vasitəçilik missiyasını həyata keçirməyə başladı. RSFSR Xalq Xarici İşlər Komissarlığının müavini, milliyyətcə erməni olan Qaraxanyan mayın 15-də İrəvana və Bakıya göndərdiyi teleqramda Ermənistanın Rusiyanın vasitəçilik etməsi barədəki təklifini qəbul etdiyini və Azərbaycanın da buna razılığını bildirməsini göstərirdi. Lakin danışıqların gedişində Njdenin başçılığı ilə erməni ordusu Gorusa hücum edərək iyulun 30-da oranı işğal etdi.

Beləliklə, 1918-ci ilin iyun ayında imzalanmış Batum sülh müqaviləsinə görə, cəmi 9 min kv. kilometrlik əraziyə malik olan Ermənistan 1920-ci il noyabrın 29-da sovet hökuməti qurulduqdan sonra 11 min $km^2$-lik əraziyə malik oldu (Dünya dövlətləri. Ensiklopedik məlumat kitabı, 1990: 61).

Sovet hökumətinin isti münasibətindən istifadə edən ermənilər Azərbaycanın Zəngəzur, Göyçə, Dərələyəz və s. ərazilərini öz tərkibinə qataraq 29,8 min $km^2$-lik bir Ermənistan dövləti yaratdılar. Bunun əksinə olaraq, 1920-ci ildə 113.895,97 $km^2$-lik ərazisi olan Azərbaycan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Demokratik Respublikası isə torpaqlarını itirərək 86,8 $km^3$-lik bir əraziyə malik oldu (Əliyev, 2004: 27).

## Ədəbiyyat

1. Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f. 276; f.277.
2. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 894; f. 897; f. 898; f.970; f. 1061.
3. Naxçıvan MR Dövlət Arxivi, f. 314.
4. Dünya dövlətləri. Ensiklopedik məlumat kitabı. (1990). Bakı: "Azərbaycan ensiklopediyası" NPB, 216 s.
5. Əliyev, Ə. (2004). Zəngəzurda qalan izimiz. Bakı: Nurlan, 295 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 261-264**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 261-264**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Samirə Qasımova**
Azərbaycan Dövlət Aqrar Universiteti
samira.qasimova82@mail.ru
**Elgün Aslanov**
Azərbaycan Dövlət Aqrar Universiteti
e.aslanov85@mail.ru

# 1918-1920-Cİ İLLƏRDƏ ZƏNGƏZURDA TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI HƏYATA KEÇİRİLMİŞ SOYQIRIMI İNSANLIĞA QARŞI TÖRƏDİLMİŞ ƏN QƏDDAR CİNAYƏT AKTIDIR

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, köçürülmə siyasəti, soyqırım, etnik təmizləmə, azərbaycanlılar*
***Keywords:*** *Azerbaijan, Zangazur, ressetlement policy, genocide, ethnic cleansing, azerbaijanis*

XX əsrin əvvəllərində Azərbaycan xalqı öz havadarlarına arxalanan erməni daşnakları tərəfindən dəfələrlə kütləvi qırğınlar, soyqırımlar, deportasiyalara məruz qalmışdır. Ermənilərin törətdikləri bu qırğınlar, onların tarixi Azərbaycan torpaqlarında "Erməni dövləti" yaratmaq siyasətinin tərkib hissəsi idi. Bu işə rəhbərliyi ermənilərin "Daşnaksutyun" və "Hnçak" siyasi-terrorçu təşkilatları öz üzərlərinə götürmüşdülər (Əhmədov, 2021: 86).

Azərbaycanın əzəli torpağı olmuş Zəngəzur bölgəsində də həmin illərdə erməni cəlladlarının dinc yerli əhaliyə qarşı həyata keçirdikləri qırğınlar və vəhşiliklər öz miqyasına, forma və metodlarına görə tarix boyu insanlığa qarşı törədilmiş, ən qəddar cinayətlərdən biridir. İlk olaraq qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının Rusiya və İran imperiyası arasında bölüşdürülməsi ilə Zəngəzurun yerli əhalisi olan azərbaycanlıların həyatında faciə və müsibətli günlərin başlanğıcı qoyulmuş oldu.

Belə ki, Çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi müstəmləkə siyasətinin mühüm formalarından biri olan köçürülmə siyasəti regionun demoqrafik vəziyyətində ciddi kəmiyyət dəyişiklik-lərinə gətirib çıxarmış, erməni əhalinin Azərbaycanın digər bölgələrinə olduğu kimi Zəngəzurda da kütləvi yerləşdirilməsi və əksinə, yerli

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

azərbaycanlıların sıxışdırılması nəticəsində ermənilər bölgənin milli tərkibində tədricən üstünlük qazanmağa başlamışdılar (İsmayılov, 2017: 12).

Xüsusən də, qonşu xalqların hesabına milli dövlət yaratmaq iddiasında olan ermənilər Rusiyada 1917-ci ilin fevral inqilabından sonra bölgədə yaranmış ziddiyyətli vəziyyətdən, I Dünya müharibəsinin yaratdığı mürəkkəb şəraitdən istifadə etmək üçün daha da fəallaşdılar. Bu sərsəm ideyanın həyata keçirilməsi üçün isə yeganə yol bu ərazilərdə yaşayan yerli əhalinin məhv edilməsi idi.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırım və etnik təmizləmə əməliyyatı 1918-1920-ci illərdə Zəngəzurda xüsusi qəddarlıqla həyata keçirilmişdir.

Bu illərdə törədilmiş qırğınlar qəddarlığına görə Zəngəzurun mövcud olduğu bütün tarix ərzində analoqu olmayan faciə kimi qiymətləndirilir. 1918-1920-ci illərdə Zəngəzurda azərbaycanlılara qarşı törədilən qırğınların əsas səbəbkarlarından biri erməni generalı Andronik Ozanyan – tayqulaq Andronik olmuşdur. Bununla bağlı 19 dekabr 1917-ci il "Qanlı Andronikin" bəyənatı yayılmışdır. Bəyənatda deyilir: "Əgər məni Ermənistanın oğlu bilirsinizsə, ...türkləri və azərbaycanlıları, kürdləri və yəhudiləri qırmaq üçün günü sabah Ərzuruma yollanıram və məni heç kim dayandıra bilməz" (Urud 2016: 226).

Məhz bu məqsədlə 1918-ci ilin əvvvəllərində 10 min nəfərlik hərbi dəstə ilə Türkiyədən Qafqaza keçən Andronik İrəvan, Naxçıvan, Dərələyəz mahallarında bir sıra qırğın və talanlar törədərək 1918-ci ilin mayında Zəngəzura daxil olmuş, avqust ayının sonlarına qədər Sisyan rayonunda azərbaycanlılara qarşı xüsusi bir qəddarlıqla soyqırımı və etnik təmizləmə əməliyyatı həyata keçirmişdir. Həmin dövr ərzində Sisyan rayonunda olan bütün azərbaycanlı kəndləri dağıdılmış, azərbaycanlı əhalinin təxminən 30% öldürülmüş, qalan əhali isə qaçqın vəziyyətinə düşərək, bir hissəsi Naxçıvana, bir hissəsi isə quberniyanın Şuşa və Cəbrayıl qəzalarına pənah aparmışdır (Urud 2016: 227).

1918-ci ilin sentyabrın 4-də Sisiyana daxil olan Andronik, yerli erməniləri də səfərbər edərək Azərbaycan kəndlərinə hücum etmiş (70, v.23-27), Qaraqışlaq kəndi yaxınlığında yüzlərlə dinc Azərbaycan kəndlisini qılıncdan keçirmişdi (9, v.128-129). Zəngəzur qəza rəisi M.Namazəliyevin məlumatına görə Andronikin başçılığı ilə erməni

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

quldurları Urud, Darabas, Ağadu, Vağudi, Arıqlı, Şukər, Məlikli, Pulkənd, Şəki, Qızılcıq, İrmis, Pəhlili, Kürdlər, Xotanan, Sisiyan, Zabazadur müsəlman kəndləri - ni Qarakilsənin müsəlman hissəsini, dağıdaraq 500 nəfər insanı qətl etmişdi (9,v.l29). M.Namazəliyevin 30 oktyabr 1918-ci il tarixli raportundan isə bəlli olur ki, 1917-ci ilin dekabrı – 1918-ci ili avqustu arasındakı müddətdə təkcə Zəngəzur qəzasının I sahəsində 16 kənd dağıdılmış, 708 nəfər məhv edilmiş, əhaliyə 47 mln. 390 min rubl məbləğində maddi ziyan vurulmuşdu (83,1918,13 noyabr). Bu kəndlər Kürdlər, Ərəmis (İrmis) (6 nəfər öldürülmüşdü), Bəhrili (9 nəfər öldürülmüşdü), Dulus, Qarakilsə (48 nəfər öldürülmüşdü), Məlikli (165 nəfər öldürülmüşdü), Pulkənd (19 nəfər öldürülmüşdü), Arıqlı (25 nəfər öldürülmüşdü), Dəstəgird, Şükər (95 nəfər öldürülmüşdü), Zabazadur, Şəki (95 nəfər öldürülmüşdü), Yaqublu (96 nəfər öldürülmüşdü), Qızılcıq (27 nəfər öldürülmüşdü), Vağudi (63 öldürülmüşdü), Sisyan kəndləri (60 nəfər öldürülmüşdü) idi (İsmayılaov, 2017: 17-18).

Ermənilərin 1918-1920-ci illərdə müsəlmanlara qarşı həyata keçirdikləri soyqırımı, zorakılıq və cinayətlər sonrakı dövrdə ayrı ayrı erməni tarixçiləri tərəfindən də etiraf edilmişdir. Belə ki, A.A.Lalayan "Daşnaksutyun" partiyasının əksinqilabi rolu" məqaləsində bu məsələyə toxunaraq yazırdı ki, "Daşnaksutyun" partiyası hakimiyyətdə olduğu otuz ay müddətində Cənubi Qafqazda erməni əhalisinin otuz beş faizini və türk (azərbaycanlı) əhalisinin altmış faizini məhv etmişdir. "Daşnaksutyun" Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı silahlı mübarizə apararaq dövlət tələblərinin yerinə yetirilməsi bəhanəsi ilə dinc əhalini talayır və öldürür, bütöv kəndləri məhv edirdi" (Əhmədov, 2021: 105).

Ümumiyyətlə, 1905-1920-ci illərdə indiki Ermənistan Respublikası ərazisində erməni faşistlərinin apardıqları etnik təmizləmə siyasəti nəticəsində bu bölgədə Azərbaycan türklərinə qarşı əsl soyqırımı siyasəti həyata keçirilmiş, yüzlərlə kənd dağıdılmış, yüz minlərlə dinc müsəlman sakin öldürülmüş və ya doğma torpaqlarından qovulmuşdur. Bu qırğınlar nəticəsində onlarla kənd və yüzlərlə ailə yer üzündən silinmişdir (Əhmədov, 2021: 111).

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 261-264**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 261-264**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Əhmədov, B. (2021). Göyçə mahalı azərbaycanlılarına qarşı deportasiyalar və soyqırımlar (XX əsr). Bakı: "İdeal-Print" MMC, 180 s.
2. İsmayılov, K. (2017). Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı: Elm, 248 s.
3. Urud, M. (2016). Zəngəzur. Uzaq keçmişdən müasir dövrə qədər. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 480 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 265-266**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 265-266**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Qadir Əkbərov**
Naxçıvan Dövlət Universiteti
ekberovqadir4@gmail.com
https://orcid.org/0009-0005-8693-9338
**Abdulla Mustafayev**
Naxçıvan Dövlət Universiteti
mustafayevabdulla78@gmail.com
**Elçin Zamanlı**
Naxçıvan Dövlət Universiteti
elcinzamanli70@gmail.com

# AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİNİN QURULMASINA QƏDƏRKİ VƏ ONDAN SONRAKI DÖVRDƏ ZƏNGƏZUR

***Açar sözlər:*** *Zəngəzur, Ermənistan, Zəngi tayfaları, deportasiya, azərbaycanlılar*
***Keywords:*** *Zangazur, Armenia, Zangi tribes, deportation, Azerbaijanis*

Haqqında bəhs olunan Zəngəzur Qərbi Azərbaycanda yerləşən etnotoponimdir. Tarixən bu ərazidə məskunlaşan Zəngi tayfalarının adı bağlı ərazidə Zəngibasar (Zəngi çayının (ermənilər çayın adını dəyişib Razdan qoyublar) daşqınlar zamanı ərazini basması əsasında yaranmışdır) etnotoponimi əsas fakt olaraq müəyyən edilmişdir. Tarixi Oğuz yurdu olan Zəngəzur haqqında orta əsr mənbəsi olan "Kitabi-Dədə Qorqud" dastanında məlumat verilir. Dastanın Salur Qazanın evinin yağmalanması boyunda Qazan xana köməyə gələn Oğuz igidlərindən birinin Qara Dərə adlanan ərazidən gəldiyi bildirilir (Kitabi-Dədə Qorqud, 2004: 48). Qara dərə Zəngəzur ərazisində yerləşmiş yer adıdır (Yunusoğlu, 2022: 17). Bu kimi faktlar Zəngəzurun, eləcə də Qərbi Azərbaycanın digər onomastik vahidləri sübut edir ki, bəhs olunan ərazinin ermənilərlə heç bir əlaqəsi yoxdur.

Ermənistanda Sovet hakimiyyəti yaradıldıqdan sonra erməni millətçiləri azərbaycanlıların yurdlarından qovulmasını reallaşdırmış və yeni məskunlaşma apararkən erməniləşdirmə siyasətini də reallaşdırmışdılar. Belə ki, onlar siyasi motivləşdirmə yolu ilə toponimlərin,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

hidronimlərin, oronimlərin dəyişdirilməsini həyata keçirmişdilər. Erməni saxtakarları hələ 1920-ci ildə onlar üçün yaranmış fürsətdən istifadə edərək yeni yazılmış tarixə və mədəniyyətə istinadla toponimlərin dəyişdirilməsi, mövcud Azərbaycan dilində olan yer adlarının erməni dilinə tərcümə edilməsi, bəzi hərflərin dəyişdirilməsi yolu ilə adların ermənicəyə uyğunlaşdırılması və bir də qədim adların izini birdəfəlik itirmək məqsədilə dəyişdirmələr həyata keçirmişlər.

Ermənilər 1920-ci ildən sonra Zəngəzurda olan dini abidələri də məhv etmiş, xristianlaşdırma siyasətini həyata keçirmişdirlər. Aparılan tədqiqatlar göstərir ki, 1915-ci ilə qədər Zəngəzurda fəaliyyət göstərən 38 məscid olmuşdur. Bir maraqlı faktı da qeyd edək ki, ermənilər müsəlmanlara məxsus qəbir daşlarındakı epitafiyaları soldan sağa oxuyaraq qədim erməni əlifbası olduğunu iddia edirlər. Bu sərsəm iddia erməni alimi Ayvazyanın yazılarında ortaya atılmışdır. Erməni yalanlarını isə akademik B.B.Piotrovski tənqid etmiş, bu iddianın tamamilə əsassız olduğunu bildirmişdir.

1920-ci ildə tarixi Azərbaycan torpaqlarında yaradılan Ermənistan SSR-in erməni əsilli sakinləri öz havadarlarının dəstəyi ilə azərbaycanlılara qarşı etnik əsaslar üzərinə təhdidlər, zorakılıqlar tətbiq etməyə başlamışdılar. Təbii ki, erməni millətçiləri hələ 1918-1920-ci illərdə imperialist qüvvələrin dəstəyi ilə yaratdıqları daşnak Ermənistanın mövcudluğu zamanında da bu fitnəkarlıqları tətbiq etmişdilər. Lakin həmin vaxtlarda Azərbaycan Xalq Cumhuriyyəti hökuməti erməni talanlarına qarşı mübarizə aparmış, parlamentin iclaslarında bu məsələ ilə bağlı mühüm qərarlar qəbul etmişdir. Lakin Sovet hakimiyyəti illərində birbaşa Moskvanın dəstəyindən istifadə edən ermənilər azərbaycanlılara qarşı xüsusi amansızlıqlar nümayiş etdirmişdilər. 1929-1933, 1948-1953, 1987-1991-ci illərdə Zəngəzurdan azərbayacnlıların zorla deportasiyası həyata keçirilmiş, tarixi yurd yerlərimiz erməniləşdirmə siyasətinin qurbanı olmuşdur.

## Ədəbiyyat

1. Kitabi-Dədə Qorqud. (2004). Əsli və sadələşdirilmiş mətnlər. Bakı: "Öndər" nəşriyyatı, 376 s.
2. Yunusoğlu, Q. (9-15 sentyabr 2022). "Kitabi-Dədə Qorqud" dastanında Qərbi Azərbaycanın təbiəti. Olaylar, № 162, 17 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 267-270**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 267-270**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elçin Zamanlı**
Naxçıvan Dövlət Universiteti
elcinzamanli70@gmail.com
**Abdulla Mustafayev**
Naxçıvan Dövlət Universiteti
mustafayevabdulla78@gmail.com
**Qadir Əkbərov**
Naxçıvan Dövlət Universiteti
ekberovqadir4@gmail.com
https://orcid.org/0009-0005-8693-9338

# XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ İNGİLİSLƏRİN VƏ BOLŞEVİK RUSİYASININ CƏNUBİ QAFQAZ PLANLARINDA ZƏNGƏZUR

***Açar sözlər:*** *Zəngəzur, erməni, ingilis, Rusiya, Cənubi Qafqaz*
***Keywords:*** *Zangazur, Armenian, english, Russia, South Caucasus*

Bu gün milli tarixşünaslığımızın ən aktual məsələlərindən biri də Azərbaycan Cümhuriyyəti dövründə ingilislərin Cənubi Qafqazdakı hərbi komandanlığının, eləcə də bolşevik Rusiyasının Zəngəzurun ermənilərə verilməsi üçün həyata keçiridikləri tarixi ədalətsizlik və zorakı prinsiplərə dayanan siyasi fəaliyyət sistemini dərindən, hərtərəfli tədqiq edib beynəlxalq siyasi müstəviyə çıxarmaqdır. Bu istiqamətdə ciddi elmi konsepsiyanın yaradılması çox vacibdir, çünki müasir əlverişli çoxqütüblü dünya nizamı müstəvisində bu məsələ Azərbaycanın milli və dövlətçilik maraqlarının və tarixi ədalətsizliyin bərpa olunması üçün mühüm əhəmiyyətə malik məqsədyönlü fəaliyyətin həyata keçirilməsi olacaq. Birinci Dünya müharibəsindən qalib çıxmış Müttəfiq dövlətlərin və bolşevik Rusiyasının Türkiyənin gələcəkdə Mərkəzi Asiya və Cənubi Qafqazla hərbi-siyasi və mədəni-iqtisadi əlaqələrini kəsmək üçün Azərbaycanı Zəngəzurdan məhrum etmək planları bütün çılpaqlığı ilə elmi-siyasi kontekstdə sərgilənməlidir. Azərbaycan Cümhuriyyətinin mövcud olduğu dövrdə Cənubi Qafqaza gələn ingilislərin Zəngəzur və Naxçıvanda ermənilərin "müvəqqəti hakimiyyətini" bərpa etmək cəhdləri heç də təsadüfi deyildir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 267-270**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 267-270**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Son araşdırmalardan aydın olur ki, 1914-1919-ci illərdə Böyük Britaniyanın xarici siyasəti və Britaniya imperiyasının Cənubi Qafqaz siyasətində "erməni məsələsi"nin xüsusi yeri və rolu olmuşdur. Müəllif qeyd edir ki, hətta Müstəqil Ermənistan dövlətinin yaranması fikri XIX əsrin sonlarında erməni siyasi təşkilatlarının rəhbərlərinə təklif edilmiş və onlar tərəfindən dərhal qəbul edilmişdir. Bu fikir ermənilərə "dənizdən dənizə" "Böyük Ermənistan" vəd edən ingilis diplomatiyası tərəfindən dəstəklənmişdi, lakin Rusiyada Böyük Britaniyaya münasibətin dəyişməsi "erməni məsələsi"nin dondurulmasına səbəb oldu. İngilis kabinetinin üzvü, türkofob Saliberi Qladston tərəfindən erməni millətçilərinə böyük dəstək verildi. Eyni zamanda Londonda, Birinci dünya müharibəsi dövründə fəallaşan Lord Brisin rəhbərliyi altında bir erməni komitəsi yaradıldı (Həyatova, 2022: 3-18). Amma maraqlıdır ki, müasir erməni tarixşünaslığında ingilislərin Cənubi Qafqazda olan hərbi komandanlığı tərəfindən Ermənistana heç bir kömək göstərilmədiyi qeyd olunur. Erməni tarixçisi K.Ambartsumyan yazır ki, 1919-cu ilin noyabrında Ermənistan Respublikasındakı irland mənşəli kapitan Corc Qreysinin maddi durumu Tiflisdə və Bakıda geniş xidməti komanda, eləcə də katib və maşınla təmin olunmuş Ali Komissar Oliver Uordrop və Con Uoltondan tamamilə fərqli idi. Ermənistan xarici işlər naziri A.İ.Xatisov bildirirmiş ki, Ermənistanın mühüm ehtiyacları ingilislərə məlum olsa da, onlar heç bir kömək göstərməmişdilər.

Çoxsaylı arxiv araşdırmaları da ingilislərin erməni məsələsini daim diqqətdə saxladıqlarını təsdiq edir. İstanbuldakı ingilis Ali Komissarlığı 1918-ci ilin sonlarından başlayaraq İngiltərə Xarici İşlər nazirliyinə göndərdiyi hesabatlarda ermənilərin Naxçıvan və Zəngəzur civarında yapdığı bütün qətliamları: Naxçıvanın şimal hissəsində Zəngəzurla Dərələyəz arasında 13 müsəlman kəndin Andranik və Bapon erməni quldur dəstələri tərəfindən dağıdıldığı, sağ qalanların Naxçıvana qaçdığı, Zəngəzur ətrafındakı müsəlman kəndlərin də üç dəfə ermənilərin hücumuna məruz qaldığı, 1000-dən çox müsəlmanın öldürüldüyü və bu qırğından sağ çıxanların bütün mülklərini atıb kəndlərə dağıldığını ən incə detallarına qədər təsvir etmişlər (Başak, 2010: 44). Qeyd etmək lazımdır ki, Azərbaycan Cümhuriyyəti dəfələrlə rəsmi diplomatik kanallarla Ermənistanın qonşularla münasibətdə ekspansionist siyasətinə qarşı notalar təqdim etsə də, heç bir

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

konstruktiv nəticə hasil olmadı. Azərbaycan Xarici İşlər nazirliyinin Ermənistana göndərdiyi 1919-cu il 7 yanvar, 12 fevral, 16 iyul və 22 sentyabr tarixli notalarda Azərbaycanın aydın və prinsipial mövqeyi öz əksini tapmışdı (Azərbaycan, 1919).

Uzunmüddətli diplomatik danışıqlardan sonra 1919-cu ilin 23 noyabrında ABŞ nümayəndəsi D.Rey və Gürcüstanın Xarici İşlər naziri Gegeçkorinin vasitəçiliyi ilə Azərbaycanın və Ermənistanın hökumət başçıları olan N.Yusifbəyli ilə A. Xatisov arasında danışıqlar baş tutdu. Azərbaycanla Ermənistan arasında baş tutan bu çətin və burulğanlı danışıqlar hər iki tərəfin də hazırkı toqquşmalara son qoyması və münaqişələrin yenidən güc vasitəsilə həlli prinsiplərindən qaçmasını tövsiyə edən razılaşma ilə nəticələndi. Əldə olunan razılaşmada hər iki tərəf belə bir öhdəlik götürürdü ki, bundan sonra ərazi-sərhəd məsələləri də sülh danışıqları yolu ilə həll olunacaq, lakin bu danışıqlarda heç bir nəticə əldə olunmayacağı təqdirdə neytral tərəfin üzvlüyü ilə yaradılacaq üçtərəfli arbitraj məhkəməsinin çıxaracağı qərarla razılaşacaqlar. Həmçinin nəzərdə tutulurdu ki, növbəti danışıqlar prosesi 1919-cu il dekabrın 4-də Tiflisdə, 14-də isə Bakıda davam etdirilsin (Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, 9).

Yeri gəlmişkən 72 % azərbaycanlı, 28 % isə erməni yaşayan Zəngəzurun sonradan Amerikanın, ikinci mərhələdə isə bolşevik Rusiyanın planları ilə Ermənistana verilməsi Azərbaycana və Naxçıvana, eləcə də Türkiyəyə vurulan böyük zərbə idi. Bunu təsdiq edən materiallar, 1919-cu ildə ermənilərə verilməsini göstərən, 1919-cu il noyabrın 23-də Tiflisdə üç Cənubi Qafqaz respublikasının təmsilçilərinin iştirakı ilə keçirilən sülh konfransının danışıqlarının stenoqramının surəti və müqavilənin əks olunduğu ABŞ Konqresindən əldə edilən yeni arixv sənədləri paylaşılıb (5).

1920-ci ilin sentyabrında Tiflisdə Ermənistan və Rusiya dövlətlərinin nümayəndələri arasında əldə edilmiş gizli razılaşmada sovet nümayəndə heyəti Qarabağ, Zəngəzur və Naxçıvanın ərazi statusu məsələsini sülh müqaviləsi bağlanana qədər açıq saxlayacağına söz verdi. Nərimanov bu razılaşma barədə yalnız gizli müqavilə bağlandıqdan sonra xəbər tutdu (Baberovski, 2021: 176). Beləliklə, Qars konfransınadək bolşevik Rusiyasının Azərbaycana vurduğu ən böyük zərbə Zəngəzurun bir hissəsinin Ermənistana birləşdiriləməsi oldu. Əslində, 1920-ci ilin noyabrında yaradılmış sovet Ermənistanına

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Naxçıvanın da birləşdirilməsi nəzərdə tutulmuşdu. Çünki Nəriman Nərimanov məlum bəyənatında Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi lazım olduğunu açıqca elan edərək Ermənistan SSR-nin qurulmasını təbrik etmişdi və Stalin də bu gözlənilməz səxavəti belə şərh etmişdi: "Uzun illər şəhidlər vermiş və acı çəkmiş Ermənistan özünü bir sovet torpağı elan edərək artıq qurtuluşu əldə etmişdir. 1 dekabrda sovet Azərbaycanı öz istəyi ilə mübahisəli torpaqlar üzərindəki iddiasını geri çəkmiş, Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağı sovet Ermənistanına vermişdir. Ermənistanla və çevrəsindəki müsəlman icmaları arasındakı çox qədim düşmənçilik, Ermənistan, Türkiyə və Azərbaycan zəhmətkeş icmaları arasında qardaşlıq həmrəyliyi yaradılmasıyla bir həmlədə ortadan qaldırılmışdır" (Forsyth, 2019: 461-462).

Məhz indi 44 günlük Qarabağ müharibəsindən sonra Azərbaycan Türkiyənin dəstəyi ilə əldə etdiyi böyük zəfərin nəticəsi kimi Zəngəzur dəhlizini açmağa çalışmaqla tarixi ədaləti bərpa etmək və regionda əbədi sülhü bərqərar etməyə çalışır.

## Ədəbiyyat


1. Həyatova, F.A. (2022). 1914-1919-cu illərdə Böyük Britaniyanın Cənubi Qafqaz siyasətində erməni amili: tarix üzrə fəl.dok. ...dis.avtoref. Bakı, 28 s.
2. Başak, T. (2010). Ermənilərin Şərqi Anadolu və Qafqazda türklərə qarşı həyata keçirdikləri etnik təmizləmə hərəkatlarının Britaniya sənədlərində əks olunduğu siması (1918-1919). Atatürk Universiteti Ədəbiyyat Fakültəsi, "Sosial Elmlər" jurnalı. Cild 10, Sayı 45, s.29-65
3. Azərbaycan. (1919). 29 iyun.
4. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 190, 9 s.
5. ABŞ-ın Zəngəzurla bağlı məkri-Mübahisəli sənəd yayıldı. https://axar.az/news/kult/553295.html).
6. Baberovski, Y. (2021). Düşmən hər yerdədir. Stalinzm Qafqazda. Bakı: Alatoran Yayınları, 700 s.
7. Forsyth, J. (2019). Caucasia. A date. Translated from English by Timuçin Binder. Istanbul: Ayrıntı publications, 911 p.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 271-273**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 271-273**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**İsmayıl Zeynalov**
Naxçıvan Dövlət Universiteti
ismayilzeynalov@ndu.edu.az

# ZƏNGƏZUR QƏZASINDA ERMƏNİLƏR TƏRƏFİNDƏN AZƏRBAYCAN ABİDƏLƏRİNİN DAĞIDILMASI VƏ ƏHALİYƏ QARŞI TÖRƏDİLƏN SOYQIRIMI

***Açar sözlər:*** *abidələr, etnik təmizləmə, soyqırımı*
***Keywords:*** *monuments, ethnic cleansing, genoside*

Zəngəzur ərazisi Araz çayıboyu Mehridən başlamış Akaraya qədər, şimala doğru isə Zəngəzurun ən yüksək zirvəsi olan Qapıcıq (3904 metr) və Xusdub dağlarına (hündürlüyü 3202 metr), eləcə də Zəngəzur sıra dağlarından başlayaraq Bərgüşad dağlarına qədər ərazini əhatə edir (Əsədov, 1995: 121).

Gəncə quberniyasının Zəngəzur qəzasına təkcə Qafan, Gorus, Sisiyan (Qarakilsə) və Mehri rayonları deyil, eləcə də Zəngilan, Qubadlı və Laçın rayonları daxil idi.

Rusiyanın himayədarlığı altında İrandan köçürülən erməniləri bu ərazilərdə yerləşdirməkdə məqsəd gələcəkdə Azərbaycan torpaqları hesabına “erməni dövləti” yaratmaq ideyasını həyata keçirməkdən ibarət olmuşdur. 1828-ci ildə Azərbaycan torpaqlarına köçürülən ermənilər milli-mənəvi dəyərlərimiz olan tarixi abidələrimizi saxtalaşdırır və kənd adlarını dəyişdirib erməni adları ilə əvəz edirdilər (Piriyev, 2001: 148).

Məhz bu mənada Zəngəzur qəzasında da saxtakarlığa və dağıntıya məruz qalan abidələrimiz və kəndlərimizin sayı 200-250-dən çox olmuşdur.

Onlardan Qafan rayonunun Vənd deyilən yaşayış sahəsində olan abidəni, Ecanin dərəsində yerləşən alban kilsəsini, Sisiyan rayonunda Urut, Vağudi kəndlərinin adlarının dəyişdirilib erməniləşdirilməsini göstərmək olar. Bununla da onların əsas məqsədləri guya burada qədimdən azərbaycanlılar deyil, ermənilərin yaşamasını sübut etməkdən ibarət olmuşdur.

Ermənilər bunula kifayətlənməyərək yerli əhaliyə qarşı etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirmişlər. Türkiyədə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

məğlubiyyətə uğradıqdan sonra İrandan qoşunla keçib gələn Andranik Ozanyan, həmçinin hərbi nazir Dro, ordu rəhbəri Njde tərəfindən 1918-1920-ci illərdə Azərbaycanın digər bölgələrində olduğu kimi, Zəngəzur qəzasında da əhaliyə qarşı kütləvi şəkildə törədilən soyqırımı nəticəsində 200-dən artıq kənd dağıdılmış və yandırılmış, 120 mindən çox əhali qaçqın düşmüşdü.

Zəngəzur qəza rəisinin Gəncə qubernatoruna 2 oktyabr 1918-ci ildə göndərdiyi 644 saylı hesabatdan da məlum olduğu kimi, Zəngəzurda 9 ay ərzində 677 nəfər azərbaycanlı öldürülmüş, 51 milyon manat zərər dəymişdi (Əsədov, 1995: 127).

Azərbaycanın sovet Rusiyası tərəfindən 1920-ci ilin aprel ayında işğal edilməsindən az sonra Zəngəzur Ermənistan tərəfindən işğal edildi.

1988-ci ildə süni “Dağlıq Qarabağ problemi” ortaya atıldıqdan sonra bütün Ermənistana daxil olan Azərbaycan ərazilərindən olduğu kimi, Zəngəzurdan da azərbaycanlıların qovulması prosesinə başlanıldı və bu proses soyqırımı ilə müşayiət olundu. 1991-ci ildə Nüvədi kəndindən son azərbaycanlının çıxarılması ilə monoetnik Ermənistan yaradıldı. O zamankı Azərbaycan rəhbərliyinin biganəliyi və səriştəsizliyi nəticəsində “Dağlıq Qarabağ” və ətraf ərazilər də ermənilər tərəfindən işğal edildi, 1 milyondan artıq azərbaycanlı əhali doğma yurdlarından didərgin salındı (Qeybullayev, 1990: 248).

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlişindən sonra Azərbaycanın ərazi bütövlüyü istiqamətində mühüm addımlar atıldı, ordu quruculuğu sahəsində böyük işlər görüldü. 2003-cü ildə Heydər Əliyev irsinin layiqli davamçısı İlham Əliyev prezident seçildi. Ulu öndərin ideyasına sadiq, vətəninə və xalqına bağlı olan siyasi dünyagörüşə malik, diplomatik gedişi ilə dünyanı heyran qoyan müzəffər Ali Baş Komandan 2016-cı il aprel ayında xəbərdarlıq, 2020-ci il sentyabrın 27-də ölkənin ərazi bütövlüyünün təmin edilməsinə start verdi. 44 gün müddətində Ermənistanı diz çökdürdü, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə xalqına verdiyi vədi və ata vəsiyyətini yerinə yetirmiş oldu (Hacıyev, 2023).

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Əsədov, S. (1995). Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 464.
2. Piriyev, V. (2001). Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 148 s.
3. Qeybullayev, Q. (1990). Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı, 248 s.
4. Hacıyev, İ. (23 sentyabr 2023). Qərbi Zəngəzur ərazisi Ermənistan SSR-in tərkibinə necə verildi. "Şərq qapısı" qəzeti.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 274-278**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 274-278**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Teybə Əfəndiyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
efendiyevateybe1962@gmail.com

# ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI

***Açar sözlər:*** *Zəngəzur, tarix, coğrafiya, Gülüstan müqaviləsi, işğal, SSR, AXC, Müasir Azərbaycan*

***Keywords:*** *Zangazur, history, geography, Gulistan Treaty, occupation, SSR, ADR, Modern Azerbaijan*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə Xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən döyüşlərin məkanı olub. Zəngəzurda atəşpərəslik məbədləri yerləşirdi. Ərəblər Cənubi Azərbaycan-Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edərək Albaniyanı (Şimali Azərbaycan) zəbt ediblər.

Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb.

Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır.

Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Mada şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olub. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradılmış, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirilmişdi. VII əsrin əvvəllərində Bizans imperatoru II İraklinin Sasani şahənşahı II Xosrov Pərvizlə apardığı müharibədə qalib gəlməsi fars hakimiyyətinə tabe olan ölkələrdə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

müstəqillik meyillərini gücləndirdi. Nəticədə, Sünik knyazlığı da müstəqil oldu. Moisey Kalankatlı “Albaniya tarixi” əsərində VII əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcud olduğunu qeyd edir (1).

Qədim dövr mənbələrində bu region Sisakan, yaxud Sünik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan Sakların adı ilə bağlı olduğunu yazırlar.

Alban tarixçisi Moisey Kalankatuklu “Albaniya tarixi” əsərində bu ərazidə yaşayan alban tayfa birlikləri barəsində, eyni zamanda qarqarlar, xəzərlər, hunlar və digər türk tayfaları haqqında da məlumat verir.

Azərbaycan Albaniya dövlətinin şərq hissəsini təşkil edən Zəngəzur Araz çayı boyu ilə Meğridən başlamış, Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərguşad dağlarınadək olan geniş ərazini əhatə edir.

VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunmuşdur. Ərəb xilafətinin zəifləməsi dövründə isə keçmiş Albaniya ərazisində kiçik Azərbaycan feodal dövlətləri yaranmışdır.

Monqolların ağalığı dövründə Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninin tərkibinə daxil idi. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk Səfəvilər dövründə davam etmişdir.

“Zəngəzur” termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. Toponimin sonundakı “zur” türk dilində “dərə”, “yarğan” mənasında işlənən car (>zar>zur – İ. B) sözünün fonetik variantıdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Bölgədə Tatev monastırı adlanan köhnə bir kilsə var. Əmir Teymur bölgəni fəth etmək istədikdə ona zəngin insanları xəbərdar etdiyini və onların qarşısını aldığını söylədilər. Beləliklə, təxribatçılar göndərdi. Səhər olanda monqollar xalqın küçələrə çıxması üçün zəngi çaldı və xalq, camaat bir-birinə dedilər: Güc zəngi (zəngezor) çalındı! (Nərimanoğlu, 2019)

“Zəngəzur” toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə “sur” daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 274-278**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 274-278**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də, yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər.

XIII-XIV əsrlərdə Zəngəzur torpaqları coğrafi baxımdan Azərbaycan əyalətinin Naxçıvan tüməninə və Arran əyalətinə daxil olmuşdur. Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat və Naxçıvan əyalətlərinin tərkibinə düşür. Qapanat Zəngəzurun Bərgüşad silsiləsinə qədər olan cənub hissəsini əhatə edirdi. Sisyan isə Naxçıvan əyalətinə daxil idi. Zəngəzurun Gorus və Kaştaq (Laçın) mahalları isə Qarabağ vilayətinin bir hissəsi idi.

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi zamanı Azərbaycanın böyük hissəsini ələ keçirən osmanlılar Naxçıvan əyalətini Sisyan və Qapanat mahalları ilə birlikdə Azərbaycan vilayətinin tərkibindən çıxarıb, Çuxursəd vilayətinin tərkibinə keçirdilər. Qapanat mahalı Bərgüşad və Urud livalarına bölündü. Sisyan mahalından Kiçik Bazarçay nahiyəsi ayrıldı. Qapanat və Zəngəzur əraziləri Çuxursədin Bayazid və Alaşkert vilayətləri ilə birlikdə ayrıca Bayazid livasını təşkil etdilər. Keştaq və Həkəri mahalları Qarabağ (Gəncə) əyalətinin tərkibinə daxil idi.

I Şah Abbas XVII əsrin əvvəllərində Azərbaycan torpaqlarını geri aldıqdan sonra Naxçıvan, Qapanat və Bərgüşadı yenidən Azərbaycan vilayətinin tərkibinə daxil etdi. Bazarçay nahiyəsi Sisyana birləşdirildi. XVII əsrin 30-cu illərinin sonuna yaxın Naxçıvan və Sisyan mahalları Çuxursəd bəylərbəyinin tərkibinə qatıldı.

Osmanlılar XVIII əsrin 20-ci illərində yenidən Azərbaycanın çox hissəsini ələ keçirmişdilər. 20-30-cu illərin Osmanlı hakimiyyəti dövründə Zəngəzur torpaqlarının bir hissəsi – Sisyan və Meğri Çuxursəd vilayətinə, Bərgüşad, Həkəri, Keştaq, Guləndər nahiyələri və Keştakın bir hissəsi Gəncə-Qarabağ əyalətinin tərkibində idi (Nərimanoğlu, 2019).

1735-ci ilə kimi bütün Azərbaycan torpaqlarını osmanlılardan geri alan Nadir Əfşar, 1736-cı ildə Muğan qurultayında şah elan edilməsi zamanı Qarabağ (Gəncə) bəylərbəyi Ziyadoğulları onun şah seçilməsinə qarşı çıxdığına görə, Qarabağ məlikliklərini bəylərbəyliyin tabeçiliyindən çıxarıb, Azərbaycan hakimi təyin edilmiş qardaşı İbrahimin tabeçiliyinə keçirmişdi. 1747-ci ildə Nadir şah sui-qəsd

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

nəticəsində öldürüldükdən sonra onun imperiyası çoxsaylı xırda dövlətlərə – xanlıqlara parçalandı. Zəngəzur ərazisi Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığının tərkibinə daxil oldu.

İnzibati-ərazi vahidi kimi, Zəngəzur XIX əsrin birinci qərinəsinin sonunda meydana çıxmışdır. 1813-cü il Gülüstan müqaviləsinə əsasən, bu ərazilər Rusiyanın işğal etdiyi ərazilərə daxil edilmişdir.

1822-ci ildə ruslar Qarabağ xanlığını ləğv edib, onu Müsəlman əyalətləri hərbi dairəsinin tərkibində bir əyalətə çevirdikdən sonra, 30-cu illərin əvvəllərində bu əyalətin tərkibində 9 minbaşılığı birləşdirən iri Zəngəzur mahalı təşkil olundu. Bunlar keçmiş Sisyan, Tatev, Zəngəzur, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Meğri-Güney və Çavundur (Çuldur) mahalları idi.

1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati quruluşa görə, Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində keçmiş Zəngəzur mahalı iki sahəyə – Zəngəzur və Meğri sahələrinə bölündü. 1846-cı ilin yeni ərazi-inzibati bölgüsünə görə Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı. İrəvan quberniyasının təşkil olunması ilə əlaqədar olaraq Zəngəzurun cənub hissəsi Meğri sahəsi (Qapan, Meğri-Güney, Çavundur və Püsyan mahalları ilə birlikdə keçmiş Qapanat əyaləti) 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibində oldu.

25 fevral 1868-ci ildə Yelizavetpol quberniyası yaradılarkən Bakı quberniyasının Şuşa qəzasının və İrəvan quberniyasının Naxçıvan qəzasının ərazilərinin bir qismi hesabına Zəngəzur qəzası yaradıldı. Bu qəza İrəvan quberniyasının Şərur-Dərələyəz və Naxçıvan, Yelizavetpol quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl qəzalarının əhatəsində, Araz çayı ilə İranla həmsərhəd idi. Yelizavetpol quberniyasına daxil olan qəzalar içərisində ərazicə ən böyüyü Zəngəzur qəzası idi. XIX əsrin sonlarında Zəngəzur qəzasının ərazisi 7,83 min kv.km olmuşdur.

Zəngəzur tarixən 4 sahəyə – Güney (Meğri), Qafan, Zəngəzur (Gorus) və Sisyan (Qarakilsə) mahallarına bölünürdü.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdir. Zəngəzurun ərazisinin böyük bir qismi 1918-1920-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, yalnız 1921-ci ildə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati-ərazisində daxil edilən Zəngəzur qəzası yaradılmışdır. Azərbaycan SSR-in tərkibində qalan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngəzurun Şərq hissəsi Qubadlı qəzasına çevrildi. 1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzası tərkibində göstərilir.

İnzibati ərazi bölgüsünə görə, Şərqi Zəngəzurun ərazisi Azərbaycanın Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını, Qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Meğri rayonlarının ərazilərini əhatə edir.

Müasir Azərbaycan Respublikası ərazini öz torpaqları saysa da, Ermənistan Respublikasına qarşı torpaq iddiası irəli sürmür. Bunu Azərbaycan Prezidenti İlham Əliyev "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır" – söylərərək elan etmişdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası.
2. Nərimanoğlu, H. (2019). Zəngəzur kitabı. Bakı.
3. Nərimanoğlu, H. (2022). Şərqi Zəngəzur. Bakı.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 279-283
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 279-283
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Türkan Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
turkangulmaliqizi@gmail.com

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR ƏRAZİSİNİN DAĞ LANDŞAFTLARI

***Açar sözlər:*** *landşaft, nival-subnival, dağ-çəmən, dağ-meşə, meşə-çöl, çöl, struktur-genetik xüsusiyyət*
***Keywords:*** *landscape, mountain-forest, mountain-meadow, forest-steppe, desert, stuctucal-functional feature*

Qarabağ və Şərqi Zəngəzur ərazisində 7 landşaft tipi, 15 landşaft yarımtipi, 60 landşaft növü mövcuddur. Bunlardan 6 landşaft tipi, 9 landşaft yarımtipi, 31 landşaft növü dağ landşaftlarına aiddir.

*Subnival və nival-qayalıq landşaftları* 3200-3300 m mütləq hündürlükdən yüksəkdə, kəskin parçalanmış relyefə malik ərazilərdə yayılmışdır.

Bu kompleks Dəlidağ (93616 m), Mıxtökən (3400 m), Böyük və Kiçik İşıqlı (3550 və 3450 m), Murovdağ (3367 m), Qızılboğaz (3580 m) və digər zirvələrdə inkişaf edib. Bu landşaft kompleksi daxilində müşahidə edilən şaxta aşınması yamaclarda iri həcmli aşınma-uçqun materialların geniş sahə tutmasına, soyuq və bitkisiz qayalıq landşaftların formalaşmasına səbəb olur.

Dağ-tundra iqlim tipində yayılan bu landşaft komplekslərində torpaq-bitki örtüyü zəif inkişaf etmişdir. Yalnız dərələrdə seyrək dağ-çəmən bitkiləri altında ibtidai və torflu dağ-çəmən torpaqlarına rast gəlinir. Torpaq örtüyü həmçinin  çökəkliklərdə, hamar səthlərdə əmələ gəlir.

Burada xüsusilə, subnival komplekslərdə şimal ekspozisiyalı yamaclarda mamır, çiçəkli alp xalıları yayılıb. Ərazidə yerləşən bəzi vulkan massivlərində (Böyük İşıqlı, Qızılboğaz, Keçəltəpə və s), Murovdağ və Şahdağ silsilələrinin qayalıqlarında da torpaq örtüyü mövcuddur.

*Dağ-çəmən landşaftları* 1800 (2000) m – 3000 (3200) m mütləq hündürlüklər arasında, subnival-qayalıq landşaft kompleksindən aşağıda geniş ərazini əhatə edir. Bu landşaft kompleksləri kəskin

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

parçalanmış relyefi, nisbətən sərt iqlimi və yüksək antropogen təsirə məruz qalması ilə seçilir. Dağ-çəmən landşaftlarında çimli dağ-çəmən, torflu dağ-çəmən, qaratorpağa bənzər dağ-çəmən və ibtidai dağ-çəmən torpaqları yayılmışdır. Burada landşaftlar alp, subalp və meşədən sonrakı çəmən kompleksləri yarımtiplərinə ayrılır.

Vulkan lavalarının parçalanması nəticəsində Qarabağ vulkanik yaylasının alp və subalp çəmənlərində dağ çəmənlərin potensial məhsuldarlığına mənfi təsir göstərən iri kəsəkli çınqıllar 100 $km^2$-dən çox geniş ərazini əhatə edir (Budaqov, 1996: 53).

Mütləq hündürlüyü 2800-3200 m olan, sərt iqlimə, intensiv geomorfoloji şəraitə malik ərazilərdə *alp çəmənləri* inkişaf etmişdir. Alp və subalp çəmənlərinin formalaşmasında qar örtüyü mühüm rol oynayır. Qar örtüklü günlərin sayı 120-160 gün/il, qalınlığı isə 50-100 sm/il arasında dəyişir (Azərbaycan Respublikası Coğrafi Atlası, 2018: 207).

Alp çəmənlikləri bitkilərin növ tərkibinin rəngarəngliyi relyefin mütləq hündürlüyündən, yamacların ekspozisiyasından, torpaqların rütubətlənmə və radiasiya şəraitindən asılı olaraq dəyişir. Qayalı və daşlı yamaclarda qayalıq bitki qrupları dağ kserofitləri ilə zənginləşir, alçaq relyef şəraitində hidrofillər geniş yayılıb (Məmmədov, Xəlilov, 2002: 472).

Qarabağ və Şərqi Zəngəzur ərazisinin yüksək dağlığın alp çəmənlikləri təsərrüfatda yay otlaqlar kimi istifadə olunur. Normadan artıq yüklənən otlaqlar deqradasiyaya uğramış, torpaqlar eroziyaya məruz qalmışdır.

*Subalp çəmənləri* meşə qurşağı ilə alp çəmənlikləri arasında geniş ərazini əhatə edərək, 1800-2000 m və 2700-2800 m mütləq hündürlükdə yayılmışdır. Kəlbəcər çökəkliyində, Qarabağ silsiləsində, Həkəri çayı hövzəsində və digər ərazilərdə sərhəd 1600-1700 m mütləq hündürlüyə qədər enə bilir (Mikailov, Garibov, 1987). Subalp çəmənləri təsərrüfatda geniş istifadə olunar, qış yem ehtiyatlarının toplanmasında mühüm rol oynayır.

*Dağ-meşə landşaftları* Murovdağ silsiləsinin cənub, Qarabağ silsiləsinin şimal-şərq yamaclarında 600-700 m ilə 2000-2300 m mütləq yüksəkliklərdə, İncə və Qarqar çayları arasında yayılmışdır. Qarabağ silsiləsinin ortadağlıq hissəsində, Qarqarçay hövzəsinin şimal-qərbində daha məhsuldar dağ-meşələri formalaşmışdır. Qarqar və

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Tərtər çayları arasında bu meşələrin yuxarı sərhəddi 2200-2300 m, aşağı sərhəddi isə 700-900 m hündürlüklərdən keçir. Həkəri çayı hövzəsində seyrək ardıc meşələri 1200-1400 m hündürlüyə qədər yayılmışdır. Quru və Xaçın çayları hövzələrinin alçaqdağlıq hissələrində antropogen təsirlərin intensivliyi səbəbindən meşələr kəskin qırılmış və yerlərində antropogen modifikasiyalar, çəmən-kollar meydana gəlmişdir.

Tədqiqat ərazisindəaparılan çoxməqsədli tədqiqatların nəsticələri göstərir ki, insanın təsərrüfat fəaliyyətinin təsiri nəticəsində meşənin yuxarı sərhəddi aşağı düşmüşdür. Dağ meşələrinin əsas bitki növləri fıstıq, vələs və palıddır.

Kiçik Qafqaz dağlarında fıstıq meşələrinin şərq sərhəddi Qarabağda, Xocavənd rayonunda, Böyük Kirs dağının şimal hissəsində müşahidə olunur (Qəribov, 2013: 135).

Antropogen təsirlərin xarakterindən, intensivliyindən asılı olaraq müxtəlif dərəcədə deqradasiyaya məruz qalmış fıstıq meşələri nisbətən az meyilli yamaclarda seyrək şəkildə saxlanılmışdır. Hazırda ortadağlığın meşə zonasında nadir halda xüsusi qruplar yaradan sıx çəmən, bozqırlaşmış çəmən və bozqır bitkiləri fonunda tək-tək və qrup halında yayılmış yemişan, dovşanalması, əzgil, topulqa, alça, itburnu vəs. kollarla örtülü meşə olmayan ərazilərə rast gəlmək mümkündür.

Qarabağ və Şərqi Zəngəzur ərazisində alçaq və ortadağlığın meşələrində iberiya palıdı, şərq palıdı, Zəngilan rayonunun dağətəyi hissəsində Araz palıdı meşələri yayılmışdır. İberiya palıdı meşələrinə Yuxarı Qarabağda və Laçın rayonunda 1400-1650 m hündürlükdə rast gəlinir.

Antropogen təsirlər nəticəsində palıd meşələrinin seyrəlməsi şibləklərin geniş yayılmasına səbəb olur. Nisbətən rütubətli iqlim şəraitinə malik şimal yamaclarda palıd-vələs və vələs meşələrinin seyrəlməsi tərkibində yemişan, əzgil, fındıq, böyürtkən, göyəm, armud, zoğal, alça və s. yetişən şibləklərin inkişafı ilə nəticələnir.

Geniş areala malik şərq palıdı meşələri 1600-2000 m hündürlüklər arasında saxlanılmışdır. Antropogen təsirlər nəticəsində ardıc, gəvən, buynuzlu xaşa və s törəmə kolluqlar formalaşmışdır. Həkəri çayı hövzəsində vələs meşələri iqlimin quraq olması ilə əlaqədar ortadağlıq meşə qurşağının şimal yamaclarında geniş yayılaraq fıstıq meşələrinin aradan çıxmasına səbəb olmuşdur.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

İşğaldan əvvəl Xocavənd və Xocalı rayonlarının ərazisində adi şabalıd meşələrinə, Kəlbəcər və Laçın rayonları, Həkəri çay və onun qollarının hövzələrində palıd, cökə, ağcaqayın və başqa ağaclarla qarışıq meşəlik yaradan qoz ağacları təbii meşələrinə rast gəlmək olurdu (Qarabağ və Şərqi Zəngəzurun coğrafiyası: Təbii coğrafi şərait və sosial-iqtisadi inkişaf potensialı, 2021: 535). Zəngilan rayonu ərazisinin dağlıq hissələrində dar dərələrdə də qoz ağaclarına rast gəlinirdi.

Bəsitçay dərəsində şərq çinarı meşələri və Şuşa ətrafındakı ərazinin 20 %-ni əhatə edən, palıd, fıstıq, qarağac və digər ağac növləri ilə zəngin olan Topxana meşəsi Azərbaycanın nadir incilərindəndir.

*Alçaq və ortadağlığın meşədən sonrakı meşə-çöl və çöl landşaftları* az meyilliyə malik əlverişli relyef şəraitində inkişaf etmişdir.

Qarabağ və Şərqi Zəngəzur ərazisində çöl, kollu-çöl landşaftlarına geniş çay dərələrində və daxili çökəkliklərdə rast gəlinir. Xaçın çayı dərəsində bu landşaftlar geniş areala malikdir.

Həkəri, Bərgüşad, Oxçu və Bəsitçay dərələrində 150-1700 m mütləq hündürlüklər arasında dağ-çöl landşaftları inkişaf etmişdir. Bu landşaftlar meşə komplekslərinin yerində sonradan yaranan törəmə landşaftlardadır.

Kiçik Qafqazın cənub-şərq yamacıında çaylar arasında yerləşən az meyilli hamar suayrıcı zonalarda alçaq və ortadağlığın meşələri antropogen fəaliyyət nəticəsində intensiv qırılmağa məruz qaldığı üçün onların yerində sonradan əmələ gəlmiş dağ-çölləri yüksək dağ-çəmənləri ilə birləşir və sistemli areallar meydana gəlir (Budaqov, Qəribov, 2000: 158-165).

Qışı quraq keçən mülayim-isti iqlimdə, dağ şabalıdı torpaqları üzərində inkişaf edən bu landşaft kompleksləri əkin sahələri və üzüm bağları ilə əvəz olunmuşdur.

Qarabağ və Şərqi Zəngəzur ərazisinin əlverişli relyef şəraitinə malik olması tarixi dövrlər ərzinin erkən məskunlaşmasına, heyvandarlığın və əkinçilyin sürətli inkişafına zəmin yaratmışdır. Bu isə, öz növbəsində, ərazidə landşaftların struktur-genetik xüsusiyyətlərinin dinamikasında təbii amillərlə yanaşı antropogen amillərin rolunu artırmışdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Budaqov, B.A. (1996). Landşaftşünaslıq. Coğrafiya elmi 50 ildə. Bakı: "Elm" nəşriyyatı, 53 s.
2. Azərbaycan Respublikası Coğrafi Atlası. (2018). 207 s.
3. Məmmədov, Q.Ş., Xəlilov, M.Y. (2002). Azərbaycan meşələri. Bakı: "Elm" nəşriyyatı, 472 s.
4. Mikailov, A.A., Garibov, YA.A. (1987). «Nekotoryye voprosy tipizatsii gornykh landshaftov Azerbaydzhanskoy SSR po ustroychivosti antropogennykh faktorov», Izv.AN Az SSR. Seriya nauka o Zemle, № 5.
5. Qəribov, Y.Ə. (2013). Azərbaycan Respublikasılnın təbii land-şaftları. Bakı, 135 s.
6. Qarabağ və Şərqi Zəngəzurun coğrafiyası: Təbii coğrafi şərait və sosial-iqtisadi inkişaf potensialı. (2021). AMEA, akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutu. Bakı, 535 s.
7. Budaqov, B.A., Qəribov, Y.Ə. (2000). Təbii landşaftların antropogenləşməsinin əsas istiqamətləri. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. III c. Bakı: "Elm" nəşriyyatı, s.158-165.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 284-286**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 284-286**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Şərəbanı Məmmədova**
Naxçıvan Dövlət Universiteti
sherebani@gmail.com

# MİRZƏ CƏLİL İRSİNDƏ VƏ "MOLLA NƏSRƏDDİN" JURNALINDA ERMƏNİ XİSLƏTİNİN TƏSVİRİ

***Açar sözlər:*** *Molla Nəsrəddin, Azərbaycan, Zəngəzur, Qarabağ, erməni-azərbaycanlı*
***Keywords:*** *Molla Nasreddin, Azerbaijan, Zangazur, Karabakh, armenian-Azerbaijani*

XX əsrin əvvəllərindən başlayan və bu gün də davam edən Azərbaycan xalqının sağalmaq bilməyən yarası erməni-azərbaycanlı münaqişəsi Cəlil Məmmədquluzadənin yaradıcılığında, eyni zamanda "Molla Nəsrəddin" jurnalının səhifələrində özünəməxsus dillə bədii inikas tapmışdır. Azərbaycan xalqının milli istiqlal tarixi və taleyi ilə möhkəm bağlı olan, xalqı milli dirçəlişə, oyanış və tərəqqiyə səsləyən Cəlil Məmmədquluzadə həm bədii, həm də publisistikasında "Molla Nəsrəddin" jurnalında erməni – Azərbaycan münasibətləri açıq və sətiraltı mənalarla ifadə olunmuş, bir çox məsəllərə aydınlıq gətirilmişdir. Cəlil Məmmədquluzadə "Usta Zeynal" əsərində ilk baxışda sadəlövh, avam görünən usta Zeynalın Muğdisi Akopa verdiyi və cavabsız qalan "Xozeyn, niyə sizin padşahınız yoxdur?" sualı ilə ermənilərin tarix boyu dövlətinin olmadığına işarə etmişdir. "Kamança" əsərində Qarabağda baş verən erməni-Azərbaycan münaqişəsinin real təsvirini verilir. Əsərdə Qəhrəman yüzbaşının simasında əsir düşmüş erməni kamançaçı Baxışı bağışlaması xalqımızın ən ali mənəvi xüsusiyyətlərinin ifadəsi kimi təsvir edilir. Bu münaqişənin baş verdiyi günlərdə ədib özü də Qarabağda yaşamış, real tarixi hadisələrin şahidi olmuş, Əsgəranda erməni silahlılarının qarşısının alınmasında ön cəbhədə təmsil olunmuşdur.

Bu mövzuyla bağlı yazılara "Molla Nəsrəddin"in səhifələrində də rast gəlirik. "Molla Nəsrəddin"də çap olunan felyetonlardan bu münaqişənin tarixi səbəblərini öyrənmək mümkündür. Jurnalın birinci nömrəsindən başlayaraq qırğının səbəbləri göstərilir, şəkillər verilir, məsələnin mahiyyətinə aydınlıq gətirilirdi. Milli, zehni oyanışın tribunu

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 284-286**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 284-286**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

olan junalda siyasi istibdadın xalqları mütilikdə saxlamaq, üsyan edən səsləri batırmaq üçün bu iki xalqı bir-birinə qırdırmaq planı ən bariz şəkildə izah edilirdi. Tiflis 1905-1907-ci illərdə erməni-müsəlman qırğınının mərkəzlərindən biri idi. "Molla Nəsrəddin"in münaqişə şəhərində fəaliyyətə başladığı üçün bu amansız qırğın haqqında həqiqətləri əks etdirirdi. Məcmuənin ilk nömrəsində rəssam Oskar Şmerlinqin çəkdiyi rəsm erməni-müsəlman qırğının mahiyyətini iifadə edir. Burada bir müsəlman kəndlisi öz qaramallarını əli tüfəngli kişiyə verib deyir: *"Mən ölüm, götür bu heyvanları ver mənə tüfəngi"*. Digər şəkildə isə bir erməni əlitüfəngli bir rus soldatına yüz manat uzadaraq deyir: *"Pajalusta vazmi denqi davay rujyo"*. "Molla Nəsrəddin"in səhifələrində və Cəlil Məmmədquluzadənin xatirələrində erməni-müsəlman qarşıdurmasını milli-tarixi zəminli konflikt kimi deyil, siyasi zəmində, düşünülmüş nifaq olduğunu bəyan edən görüşlərə çox rast gəlirik. Müəllif qəflət dünyasında qalan avam müsəlmanla, bic, gözüaçıq ermənini müqayisə edir, xalqı oyatmağa çalışır. Felyetonlarda şikayət, tənqid, kinayə, lağ kimi ifadə formasından istifadə etməklə erməni keşişlərinin kilsə nitqləri vasitəsilə xalqı erməniçilik, milli şovinizm ruhunda yetişdirmək adətini faş edir. Mirzə Cəlil "Axund ilə keşişin vəzi" satirasında bu tarixi faktı unudulmağa qoymur: *"Ey mənim erməni qardaşlarım, dünya xəlq olunandan indiyə kimi erməni tayfası müxtəlif millətlərin cövr və zülmünə düçar olub. Qarışqalar at nalının altında əzilən kimi, ermənilər qüvvətli və bimürüvvət tayfaların yumruğunun altında pamal olublar; bunilə belə erməni ölüm halında can verə-verə, yenə deyib: "vətən, millət, hayreniq"*. Lakin keşişin millətçi çıxışı müqabilində görək həmin vaxtlar məsciddə Axund Molla Qurbanqulu müsəlmanlara nə öyrədir: *"Çaharşənbə, şənbə və tək günü qəbristana və hamama getmək olmaz; çünki bu günlərdə əcinnə və divlər qəbristana və hamama cəm olub qonaqlıq edərlər..."* (Molla Nəsrəddin, 7 iyul 1906, № 14). *Belə müqayisəni verməklə müəllif ermənilərin xislətini, məqsəd və məramını göstərməyə çalışırdı. "Yoldaş" adlı məqaləsində "bunu uşaq da bilir ki ermənin düşməni müsəlmandır..."* ifadəsi ilə millətini ayıq olmağa sələyirdi (Molla Nəsrəddin, 17 sentyabr 1907, № 35).

1905-1907-ci illərdə Qarabağ və Zəngəzurun dinc əhalisinə qarşı ermənilərin törətdikləri saysız və amansız qırğınlar, tarixi salnamə və sənədlərin dilindən daha təsirli şəkildə "Molla Nəsrəddin"in

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

felyetonlarında öz əksini tapırdı. Başqa sözlə desək, *“...Qafqazda millətlərarası münasibətlərin tənzimlənməsində “Molla Nəsrəddin”in əli vardır”* (Həbibəyli, 2007: 634).

*Ey mənim əziz müsəlman qardaşlarım! Zəngəzurda müsəlmanlar acından ölürlər. Mən sözümü qurtardım. Siz də hər kəsə istəyirsiniz baş əyin. İndi Zəngəzurda müsəlman acları buğda vaqonlarının yanına sevincək qaçıb görürlər ki, bu buğdaları ermənilər erməni aclarına göndəriblər. Biz yaxşı adamıq, ermənilər pis adamdırlar”* (Molla Nəsrəddin, 24 mart 1907, № 12).

*“Məcmuənin çoxu Qarabağ və İrəvan tərəflərinə gedir. Bu gün də lənətə gəlmiş şeytan gəlib yapışıb yaxamızdan ki, “niyə yazmırsız?” – Deyirik:*

- *Nə yazaq? – Deyir:*
- *İrəvan və Qarabağ vilayətinin aclarının dad-fəryadı sizin qulaqlarınıza çatmır? İrəvan və Qarabağ aclarının vayıltısı Tiflisdə gürcüləri ağladır.*

*Ey mənim munislərim! Mən bu sözləri ondan ötrü yazmıram ki, siz oxuyandan sonra məcmuəni qoyasınız kənara və bu sözləri yaddan cıxarasınız! Mən bu sözləri yazıram ki, siz oxuyub fikrə gedəsiniz. Mən bu sözləri yazıram ki, fikir edəsiniz, yazıram ki, fikir edəsiniz...* (Molla Nəsrəddin, 8 dekabr 1906, № 36).

*“Qoloşapova”, “Qoloşapovun geri çağrılması” adlı yazılarında müsəlmanlara edilən zülmdən, evlərinin topa tutulması, yandırılması kimi mətləblərə toxunulmuşdur.* “Molla Nəsrəddin” jurnalı Zəngəzur və Qarabağ sakinlərinin acı talelələrini, dil açıb danışan faciələrinin real təsvirini vermişdir.

## Ədəbiyyat

1. Molla Nəsrəddin. (7 iyul 1906). № 14.
2. Molla Nəsrəddin. (17 sentyabr 1907). № 35.
3. Həbibbəyli. İ. (2007). Ədəbi tarixi yaddaaş və müasirlik. Bakı: Nurlan, 696 s.
4. Molla Nəsrəddin. (24 mart 1907). №12.
5. Molla Nəsrəddin. (8 dekabr 1906). № 36.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 287-289
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 287-289
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Mina Qarayeva**
Azərbaycan Dillər Universiteti
mina.sukurlu@gmail.com

# ZƏNGƏZUR DƏHLİZİ İLƏ BAĞLI REGİONAL AKTORLARIN MARAQLARI

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, geosiyasi, geoiqtisadi, aktor, region*
***Keywords:*** *Zangazur corridor, geopolitical, geoeconomic, actor, region*

Zəngəzur tarixi Azərbaycan torpağı olmuş inzibati-ərazi vahidi kimi Yelizavetpol quberniyasının yaranması ilə formalaşmışdır. Bu torpaqlarımızın bir hissəsi Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra rusların köməyi ilə alınıb ermənilərə verilmişdi. XVII əsrə qədər bir nəfər də olsun erməninin olmadığı Zəngəzura Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilər köçürülmüş, yerli sakinlər torpaqlarından məcburi şəkildə çıxarılmış və xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdı (Bayramov, 2021). Tarixən Azərbaycan torpağı olan Zəngəzur Naxçıvana açılan qapı olmuşdur. 1920-ci ildən başlayaraq AXC-nin süqutu və Sovet hakimiyyətinin yaradılması ilə Zəngəzur ərazisi 2 yerə bölünmüş və bununla da Azərbaycanın Naxçıvanla quru əlaqəsi kəsilmişdi. İkinci Qarabağ müharibəsi nəticəsində əldə olunan qələbə coğrafi məkanda dəyişikliklərə səbəb oldu. Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli sazişin əsas müzakirə mövzularından biri Zəngəzur dəhlizinin açılması oldu. Dəhlizin açılmasının regiondakı dövlətlər arasında iqtisadi-siyasi əhəmiyyəti də mövcuddur. Zəngəzur dəhlizi Mərkəzi Asiya, Xəzər regionu, Azərbaycan və Ermənistanı Türkiyə ilə birləşdirməklə yanaşı Azərbaycan, Türkiyə, Rusiya və Ermənistanla nəqliyyat logistikanı genişləndirərək regional ticarətin, əməkdaşlığın genişləndirilməsində böyük rol oynayacaqdır. Dəhliz "Şərq-Qərb", "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat dəhlizinin güclənməsinə şərait yaradacaqdır. Azərbaycan "Tarixi ipək yolu" üzərində yerləşdiyindən dəhlizin açılması ilə Avropa ilə Asiya arasında logistika mərkəzi olacaq və mövqeyi möhkəmlənəcək. Həmçinin Naxçıvanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq olacaqdır ki, Azərbaycanın Naxçıvan və Türkiyə ilə

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 287-289
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 287-289
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

quru yolu vasitəsilə çıxış əldə etməsinə səbəb olacaqdır. Əlavə olaraq, Azərbaycan “Kəmər-yol” layihəsində Türkiyə və Çin arasındakı mövqeyini möhkəmlədirəcək və Orta dəhlizdə tranzit maşınlarının qəbulu ilə əsas aktora çevriləcəkdir. Dəhlizin reallığa çevrilməsi ilə Azərbaycan Qafqazın, Rusiyanın, Mərkəzi Asiyanın yol, enerji tranziti mərkəzinə çevriləcək və əsas güc mərkəzlərindən biri olacaqdır. Prezident İlham Əliyev öz çıxışlarında dəhlizin əhəmiyyətini qeyd etmiş, Azərbaycanla yanaşı regional aktorların da maraq dairəsində olduğunu xüsusi vurğulamışdı. Əsas məqam Zəngəzur dəhlizinin açılmasının Rusiyanın marağında olmasıdır. Rusiya və Gürcüstan müharibəsi onlar arasında münasibətlərin pisləşməsimə, Rusiyanın Ermənistanla quru yolla əlaqəsinin məhdudlaşdırılmasına, Abxaziya dəmir yolunun bağlı olması, Yuxarı Lars yolundakı problemlər quru əlaqəyə maneə olmuşdur (Nəsirov, 2022). Məhz Zəngəzur dəhlizi Rusiya üçün geniş imkan yaradaraq onun Ermənistanla Azərbaycan vasitəsilə əlaqə qurmasına imkan yaradacaq və Rusiya İrana əlavə çıxış əldə edərək, Orta Şərqə çıxması üçün əlavə yol açacaqdır. Digər tərəfdən dəhlizin Tükiyə üçün siyasi, iqtisadi sahədə bir sıra üstünlükləri vardır. Bu layihənin reallaşması ilə Türkiyə quru yolu ilə Azərbaycana birbaşa çıxış əldə edəcəkdir. Həmçinin Turkiyənin İran üzərindən Orta Asiyaya yolladığı yük maşınları üçün əlavə yol açılaraq İrandan aslılığının azalmasına səbəb olacaqdır. Layihənin digər müsbət cəhəti Rusiya-Türkiyə arasında enerji və nəqliyyat sahələrində əməkdaşlığın artması olacaqdır. Dəhlizin açılması İran üçün də bir sıra əhəmiyyətə malikdir. Bununla İran Ermənistanla bir zamanlar mövcud olan dəmir yolunu bərpa edə bilər. İranla Ermənistan arasında Ermənistanın işğalı ərəfəsində avtomobil yolu vasitəsilə iqtisadi əlaqələr qurulurdu. Sonradan Meqridən keçən dəmir yolunun tikintisi fikri irəli sürülmüşdü. Bu yolun açılması Şimal-Cənub nəqliyyat dəhlizi üçün əhəmiyyətli olmuş, İran Fars Körfəzi-Qara Dəniz Nəqliyyat Dəhlizi baxımından da əhəmiyyətlidir. Zəngəzur dəhlizinin açılması Ermənistanla dəmiryolunun bərpası İran üçün əsas layihələrini icra etməyə imkan verir. Gürcüstana gəldiksə isə bəzi gürcü nümayəndələri dəhlizin açılmasını regionda əməkdaşlığı artırması ilə bərabər Gürcüstanın nəqliyyat daşımalarındakı rolunun azalacağını qeyd edirlər. Azərbaycan son illərdə Qara dənizə, Türkiyəyə çıxış üçün Gürcüstan ərazisindən istifadə etmiş, enerji resurslarının quru yolla

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Türkiyəyə, Avropaya daşınmasında Gürcüstan əsas vasitə olmuşdu. Lakin qeyd edə bilərik ki, dəhlizin açılması ilə yanaşı yeni yollarla bərabər ənənəvi yolların da əhəmiyyəti olacaqdır. Çünki Gürcüstan Azərbaycanın enerji resurslarının daşınmasında öz mövqeyini qorumaga davam edəcəkdir. Xüsusilə Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması Gürcüstanın regionda nəqliyyat vasitəçisi kimi əhəmiyyətini qoruyub saxlayacağını göstərir (Rəşid, 2022). Dəhlizin açılması regiondakı digər dövlətlər kimi, Ermənistan üçün də əhəmiyyətli olacaqdır. Belə ki, Ermənistan Rusiyaya, İrana və Avrasiya İqtisadi Birliyinin bazarlarına quru yol ilə çıxış əldə edəcəkdir. Zəngəzur dəhlizinin açılması Ermənistanın quru yollarının bağlanması ilə əlaqədar yaranan blokada vəziyyətindən çıxmasına səbəb olacaqdır, lakin bəzi ermənilər siyasi riskləri əsas gətirib dəhlizin açılmasını gecikdirməyə çalışsalar da, bu region ölkələrinin, xüsusilə də Rusiyanın maraqlarına uyğun gəlmir, onların əməkdaşlığına ziddir.

Ümumi olaraq qeyd edə bilərik ki, Zəngəzur dəhlizi region dövlətlərinin layihələrində mühüm əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizi Azərbaycan, Rusiya, Türkiyə, İran, Gücüstan və Ermənistan üçün həm geosiyasi, həm də geoiqtisadi aspektlərdə mühüm əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Bayramov, V. (19 iyun 2021). Zəngəzur dəhlizinin açılması yeni geosiyasi vəziyyətin nəticəsidir. "Xalq qəzeti".
2. Nəsirov, Ə. (2022). Zəngəzur nəqliyyat dəhlizinin regional və qlobal əhəmiyyəti. İpəkyolu, № 1.
3. Rəşid, L. (4 dekabr 2022). Zəngəzur dəhlizi: Qafqazda geosiyasi rəqabətin transformasiyası. "Xalq qəzeti".

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 290-291**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 290-291**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nərmin Novruzova**
Naxçıvan Dövlət Universiteti
nerminorucova34@gmail.com

# BÖYÜK QAYIDIŞ – ZƏNGƏZUR TORPAQLARI

***Açar sözlər:*** *Böyük Qayıdış, Zəngəzur torpaqları, vətən, Zəngəzur dəhlizi, Cənubi Qafqaz*

***Keywords:*** *Great Return, Zangazur lands, homeland, Zangazur corridor, South Caucasus*

Son üç onillikdə Azərbaycanın millətçiliyi və separatizmi dövlət siyasəti səviyyəsinə qaldırmış Ermənistanın hərbi təcavüzünə məruz qalması, dünyanın güc mərkəzlərinin ölkəmizə qarşı ədalətsiz mövqeyi, beynəlxalq aləmdə hökm sürən çirkin ikiüzlü siyasi münasibətlər müstəqil dövlətimizin ərazi bütövlüyünü bərpa etməsinə, işğala son qoyulmasına imkan vermirdi. Lakin dəmir siyasi iradə, yüksək dövlət-xalq həmrəyliyi, liderə möhkəm inam və orduya güclü dəstək 44 günlük Vətən müharibəsində mütləq qələbəmizlə nəticələndi (Xalq qəzeti, 2021: 3).

30 ilə yaxın davam edən işğala son qoyulması ilə yenidən Vətən torpaqları bütövləşdi, tarixi ədalət bərpa olundu. Bununla Azərbaycan dövləti özü BMT Təhlükəsizlik Şurasının illərlə kağız üzərində qalmış qətnamələrinin icrasını gerçəkləşdirmiş oldu. Xalqımızın şərəf, qürur və heysiyyətini alçaltmağa çalışan mənfur düşmən layiq olduğu cavabı artıqlaması ilə aldı.

Bu gün respublikamız Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında önəmli rola malikdir. Belə ki, qədim İpək yolu üzərində yerləşən Azərbaycan Bakı-Tbilisi-Qars dəmiryol xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Şimal-Cənub beynəlxalq nəqliyyat və Trans-Xəzər tranzit dəhlizləri vasitəsilə Çin ilə Avropa arasında çoxxətli logistik körpü rolunu oynayır. Bu baxımdan, Zəngəzur dəhlizi də ölkəmiz üçün, onun gələcək nəqliyyat və logistik imkanlarının daha da genişlənməsi baxımından önəmli keçid olacaq. Bu gün artıq post-münaqişə dövründə Zəngəzur dəhlizi dövlətimizin strateji hədəf və maraqları çərçivəsindədir. Bu layihə təkcə ölkəmiz üçün deyil, ümumilikdə, region ölkələrinə böyük fayda gətirməklə,

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 290-291
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 290-291
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

beynəlxalq nəqliyyat layihələrində regionun rolunu əhəmiyyətli dərəcədə artıracaq, Qafqazı əhəmiyyətli logistik mərkəzə çevirəcək. Bu layihə region ölkələrinin, onun imkanlarından yararlancaq digər tərəfdaş ölkələrin maraqlarına, ümumi sosial-iqtisadi inkişafa və xalqlarının rifahının yüksəlməsinə də xidmət etmiş olacaq.

Zəngəzur dəhlizinin açılması bir çox cəhətdən bölgənin inkişaf etməsinə kömək edir. Türk dünyasının ticarət imkanlarının genişlənməsi, Orta Asiyaya birbaşa çıxmaq imkanı, bölgə üzrə davamlı sülhün və əməkdaşlıq mühitinin yaranması və tarixi İpək yolunun yenidən canlanması perspektivləri başda olmaqla, regionun nəqliyyattranzit infrastrukturunun inkişafına vəsilə olacaq. Zəngəzur bir vaxtlar müsəlman türk əhalinin yaşadığı tarixi Azərbaycan torpağı olsa da, keçən əsrin 20-ci illərində Sovet Rusiyası tərəfindən Ermənistana birləşdirilmiş və bu gün də Ermənistanın daxilində yerləşən ərazidir. Məlum olduğu kimi, bu torpaqların ermənilərə verilməsi ilə Azərbaycan Naxçıvanla olan quru bağlantısını itirmişdi. 100 il sonra baş verən Vətən müharibəsi bizə həm də tarixi ədalətsizliyi aradan qaldırmaq imkanı yaratdı (Xalq qəzeti, 2021: 3).

Azərbaycanın milli, tarixi və gələcək maraqlarına tam cavab verən, inkişaf, sülh və əməkdaşlıq layihəsi olan Zəngəzur dəhlizi yalnız ölkəmizə deyil, bütövlükdə regiona böyük faydalar gətirəcək, beynəlxalq nəqliyyat layihələrində Cənubi Qafqazın rolunu əhəmiyyətli dərəcədə artıracaq, bölgəni əhəmiyyətli logistik mərkəzə çevirəcək. Dəhlizin regionda yeni nəqliyyat imkanları yaratması Avropa ilə Asiyanın daha sıx birləşməsinin geosiyasi əhəmiyyətini artıracaq, həmçinin türk dünyasının əlaqələrini xeyli möhkəmləndirəcək, sülhün, əməkdaşlığın və təhlükəsizliyin təminatçısı rolunu oynayacaq (İki sahil, 2022).

## Ədəbiyyat

1. Xalq qəzeti. (29 yanvar 2022). № 20, 3 s.
2. İki sahil. (17 fevral 2022). № 30, 6 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 292-294**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 292-294**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Ləman Qarayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
qarayevvusal38@gmail.com
https://orcid.org/0009-0007-3180-2718

# QARABAĞ ADƏTLƏRİ

***Açar sözlər:*** *mədəniyyət, adət-ənənə, xalq, bayramlar, qonaqpərvərlik*

***Keywords:*** *culture, tradition, people, holidays, hospitality*

Milli adət və ənənələrin öyrənilməsi, onların mənəvi dəyərlər sistemindəki rolunun tədqiqi həmişə aktual olmuşdur. Çünki milli adət və ənənələr tarixin bütün mərhələlərində ictimai, mədəni tərəqqinin əsas göstəricisi kimi nəzərə çarpmışdır. Cəmiyyət inkişaf etdikcə adət və ənənələr də ayrı-ayrı quruluşların ictimai-siyasi xüsusiyyətlərinə bu və ya digər formada inteqrasiya etmişdir. Buna görə də hər bir ictimai siyasi quruluş həm bütövlükdə adət və ənənələrə, həm də onun mənəvi-bədii dəyərlərinə öz möhürünü vurmuşdur. Cəmiyyət dəyişdikcə adət və ənənələr də təkmilləşmiş, millətin, xalqın yaradıcılıq nümunələrini yaşatmış, nəsildən-nəslə ötürülmüşdür. Yeni yaranan hər bir mənəvi dəyər isə tarixi ənənələrimizin varisi kimi təşəkkül tapmışdır.

Qarabağ camaatının əsrlər boyunca əsas məşğuliyyəti maldarlıq, əkinçilik olmuşdur. Buna görə də onlarda təbiət hadisələrilə bağlı çölçülük adətləri formalaşmışdır: "Dağaköçmə", "Köç günü", "Seyrə çıxmaq", "Şum bayramı"nı buna misal çəkmək olar. Bu adətlər azərbaycanlıların arasında həmişə yaşamışdır (Abdullayev, 1987).

VII əsrdə Azərbaycanda islam dininin qəbul edilməsi ilə Qarabağda milli ideologiya kimi mövcud olan dini birlik parçalandı. Qarabağın düzən zonası və əsas hissəsi islam dinini qəbul etdi. Yalnız Dağlıq bölgələrdə yaşayan əhali xristian dini ideologiyasını davam etdirmişdi (Abbasov, 2001).

Qarabağ adətlərini təxminən aşağıdakı kimi qruplaşdırmaq olar: qonaqpərvərlik, çörəyə hörmət, ailədə keçirilən bayram və ənənələr, məhərrəmlik, orucluq, Qurban bayramının eldə-ailədə icra edilməsi. Ailə bayramları ailə adətlərinin tərkib hissəsidir. Onların bir

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 292-294
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 292-294
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

qismi ailə daxilində, müəyyən qismi də həm ictimai bayramlar kimi qeyd olunur.

Azərbaycanda İslam dininin və müsəlmançılığın təsiri ilə yaranmış bir sıra mərasimlər, məsələn, məhərrəmlik də ailələrdə icra olunur.

Orucluq və Qurban bayramının tarixi qədimdir. Sovetlər dövründə də Azərbaycanın hər yerində Qurban bayramı keçirilirdi. Qoyun, inək kəsilir, camaat arasında paylanır və bu mərasim "qurbanlıq" adlanırdı.

Azərbaycanda daha geniş şöhrət tapmış bahar fəslinin başlanmasını xəbər verən çərşənbələr, Novruz bavramının qeyd olunmasıdır. Səbirsizliklə yazın gəlməsini gözləyən xalq bir neçə həftə əvvəl Novruz bayramına hazırlıq görməyə başlayırdı. Çərşənbə axşamları və martın 21-də el şənlikləri, əyləncələr keçirirdi.

"Yaz bayramı" adı ilə Novruzun qeyd olunması haqqında ilk yazılı məlumat e.ə. 505-ci ildən məlumdur. Novruz bayramında analar səməni cücərdir, "Səməni saxla məni, ildə göyərdərəm səni"–deyərək, xonçalarda bahar, yaşıllıq rəmzi olan səməninin yanında şam yandırırlar (Hüseynov, 2002).

Novruz əcdadlarımızın əski bayramlarından olmuş, insana həyat verən dörd ünsürün: suyun, odun, yelin (havanın), torpağın isinməsi, dirilməsi istəyi ilə bağlı yaranmışdır. Novruzun başlanmasına dörd həftə qalmış həmin dörd ünsürlə bağlı xalq özünün yaratdığı adət, ənənə, etiqad və ayinləri icra edir.

Novruz bayramı bütövlükdə xalqın həyat tərzi ilə bağlı olduğundan xalqımızın Novruzla səsləşən musiqisi, rəqsləri, mahnıları, şənlikləri də yaranmışdır. Şənliklərdə bayatılar səslənir, mahnılar oxunur və deyişmələrlə yanaşı, müxtəlif rəqslər, güləş, dirədöymə və onlarla başqa əyləncələr icra edilir. El arasında axırıncı çərşənbə kiçik, 21-i axşamı isə böyük bayram adlanır. Kənd camaatı bütün çərşənbələrdə və bayram günü həyətlərdə qaladığı tonqalın üstündən hoppanır, lopa atırlar (Hüseynov, 2002).

Azərbaycanlıların məişətində qeyd olunmuş xalq bayramları ənənəvi şəkildə və təntənə ilə keçirilir. Bu baxımdan Novruz bayramının xalq arasında xüsusi yeri vardır. Bununla yanaşı, əsrlər boyu "Qadınlar bayramı", "Gül-çiçək bayramı", "Məhsul və peşə bayramları" da həyatımıza daxil olmuşdur.

Xalqımızın birliyinin ifadəsi olan və nəsildən-nəslə ötürülən ənənələr, tarixi hadisə və bayramları (28 May, Konstitusiya Günü,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Müstəqillik Günü, Qurtuluş Günü, Gül bayramı, digər peşə və təqvim bayramları) mütəşəkkilliklə qeyd olunur.

Göründüyü kimi, Azərbaycan xalqının adət-ənənələrinin saxlanılması, gənc nəslin bu ruhda tərbiyə olunması ilə yanaşı yeni yaranan adətlərə də riayət olunur.

Adətlərə riayət olunması ictimai rəyə əsaslanır. Adətlərin bir neçə nəslin həyatı müddətində yaşamasının səbəbi də onların uzunömürlü olmasından irəli gəlir və tez-tez təkrar edilməsinə əsaslanır. Ənənələr də qanunlar kimi zaman-zaman yaranır, vaxt ötdükcə yeniləri ilə əvəz olunur. Elə ənənələr də olur ki, klassik nümunələr kimi yaşayır, həmişə insanların həyat tərzində özünü göstərir. Ənənələr bəzən konkret bir mərhələni, dövrü də özündə əks etdirir. Tarixi mənbələrdən və etnoqrafik materiallardan aydın olur ki, Azərbaycanın xalq bayramları da qədim bir tarixə malikdir.

## Ədəbiyyat

1. Abdullayev, O. (1987). Sosial fəallıq və yeni adət-ənənələr. Bakı: Azərnəşr.
2. Abbasov, N. (2001). Elmi araşdırmalar, IV toplu. Filologiya, tarix, incəsənət. Bakı: Elm.
3. Hüseynov, İ. (2002). Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 295-296**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 295-296**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nərmin Mehdiyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nerminmhdv30@gmail.com
https://orcid.org/0009-0001-9072-8702

# ZƏNGƏZUR TARİXİ TÜRK TORPAĞIDIR

***Açar sözlər:*** *qədim, tarixi, türk, torpaq, Zəngəzur*
***Keywords:*** *ancient, historical, Turkish, soil, Zangazur*

Tariximizi vərəqləyəndə Azərbaycanın qədim mahallarından olan Zəngəzurun istər rayonları, istərsə də əhatə etdiyi ümumi ərazisi yada düşür. Zəngəzurun ərazisi 7824 kv.km-dir və indiki Ermənistan Respublikasının Gorus, Sisian, Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını əhatə edir.

Sözün etimoloji mənşəyinə nəzər salsaq görərik ki, “Zəngəzur” sözü təmiz türk mənşəli toponimdir və bu toponim “Zəngi” – qədim türk tayfasının adından yaranıb. Həmin sözdən doğan bir neçə toponim və coğrafi adlar yaranmışdır ki, buna da misal olaraq – Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngi çayı, Zəngibasar, Zəngilər, Zəngan, Zəncan, Zəngilli və s. kimi kənd, çay, dağ adlarını göstərə bilərik.

İstər “Zəngəzur” toponimi, istərsə də bu toponimdən yaranan digər toponimlərin adları tarixi faktlarda işlənməklə öz ərazisinin türk xalqlarına aid olmasının və tarixi türk torpağı olduğunun sübutunu verir. Belə ki, bu adlara və “Zəngi” türk tayfasının adına Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin, Abbasqulu ağa Bakıxanov və digər bu kimi dünya şöhrətli tarixçilərin əsərlərində tez-tez rast gəlinir. Bununla yanaşı Azərbaycan şifahi xalq ədəbiyyatının və türk xalqlarının soykökünə məxsus milli dəyərlərin izlərini özündə daşıyan qədim türk eposu “Kitabi-Dədə Qorqud” dastanındakı hadisələrdən bəzilərinin də Zəngəzurda cərəyan edildiyini görə bilərik. *“Kitabdakı xeyli yer, şəxs, tayfa adı indi də bu ərazidə mövcuddur – Gorus, Əngəleyüz, Dondarlı, Ulaşlı, Qundanlı, Əkərək, Boynəkər, Basat çayı, Qapıcıq dağı, İçağız və Daşağız mağara kahaları, Ağqaya, Qaragöl, Qaradağ, Ağdüz, Qarayer, Ağdərə, Ağqaya, Ağbulaq, Qaraqaya, Qarasu, Qaraçay,*

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*Qara dərə, Qarahun dərə, Xocik, Ağhasar və sair"* (Nərimanoğlu, 2019: 3-4).

"Zəngəzur" sözünün birinci leksemini Zəngi" tayfa adından olduğu kimi, ikinci leksemi olan "zur" hissəsi də qədim türk dillərində dağlıq, yarğanlıq, qayalıq kimi anlamları ifadə edir. Buradan da göründüyü kimi bu leksemin mənası da zəngilərin yaşadığı dağlıq ərazinin relyefini səciyyələndirir. Həmçinin həmin ərazidə yaşayan xalqların türk əsilli olduğunu qədim səyyahların memuar və tədqiqatlarında da türklərin yurd yeri kimi təqdim edildiyinin şahidi oluruq.

Yekun olaraq fikrimizi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Zəngəzurun tarixi və ərazisi haqqındakı dediyi nitqi ilə yekunlaşdıraraq qeyd edə bilərik: *"Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq, görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır".*

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

## Ədəbiyyat

1. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 297-300**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 297-300**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elman İmanov**
Heydər Əliyev adına Hərbi İnstitut
togrul.imanov55@gmail.com
**Qabil Adıyev**
Heydər Əliyev adına Hərbi İnstitut
adiyevqabil@gmail.com

# ZƏNGƏZUR BÖLGƏSİNDƏ PERSPEKTİVLİ OPTİK LİFLİ RABİTƏ XƏTLƏRİNDƏN İSTİFADƏ

***Açar sözlər:*** *mobil rabitə, optik lif, rabitə xətti, optik kabel, internet*
***Keywords:*** *optical fider, communication line, optical cable, unimodal and multimodal fider, hydrophobic coating*

Müasir dünyanı informasiyasız təsəvvür etmək qeyri-mümkündür. Yaşadığımız əsr insan fəaliyyətinin bütün sahələrində informasiyanın çox böyük sürətlə artması ilə xarakterizə olunur. Dünyada baş verən qloballaşma prosesləri ilə əlaqədar olaraq dövlətlər və kontinentlərarası informasiyanın daha geniş miqyasda böyük sürətlə ötürülməsinə və sistemlərin etibarlılığının yüksəldilməsinə ehtiyac var.

Zəngəzur bölgəsinin azad edilmiş ərazilərində tam olaraq ölkənin informasiya-kommunikasiya sisteminə qoşulur. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası, Zəngəzurun yenidən dirçəldilməsi, əhalinin tədricən geri qayıtması, eləcə də regionumuzun sülh və əməkdaşlıq məkanına çevrilməsi istiqamətində genişmiqyaslı işlər görülür. Bu ərazilərdə zəruri sosial-iqtisadi infrastruktur təminatı, iqtisadi canlanmanın sürətləndirilməsi, habelə nəqliyyat potensialının artırılması və yaşayış məntəqələrimizin "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları əsasında yenidən qurulması yüksək templə davam etdirilir. Eyni zamanda yaşayış sahələrində zəruri rabitə infrastrukturu qurulmaqla bu sahədə xidmətlər – mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, poçt-maliyyə, internet və s. xidmətləri təşkil edilir. Şəbəkə və xidmətlərin əhatə dairəsi genişləndirilir. Efirə radionəzarətin və efir məkanının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər görülür (İmamverdiyev, Dəvrişova, 2001).

Digər keçiricilərlə müqayisədə optik lifli kabellər yüksək buraxma qabiliyyətinə və minimal itkilərlə informasiyanın uzaq məsafələrə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

ötürmə xüsusiyyətinə malikdirlər. Optik kabel müasir rabitə şəbəkələrində istifadə olunan informasiya ötürmə vasitəsidir. Bu kabel işıq şüalarının şüşə və ya plastik liflər vasitəsilə ötürülməsinə əsaslanır, telekommunikasiyada, tibdə və digər sahələrdə geniş istifadə olunur. Şüşə plastik liflərdən fərqli olan fotonik kristal, perovskit materialdan hazırlanmış və kevlar lifləri kimi optik lif növləri öyrənilmişdir. Belə polimer liflərin köməyi ilə optik xassələri idarə etmək, dispersiyaya nəzarət etmək, elastikliyi artırmaq, uzunömürlülüyü təmin etmək, dalğanın istiqamətlənməsini təmin etmək mümkündür. Təklif edilən polimer liflər ətraf mühiti çirkləndirmir və utilizasiya xassələri yüksəkdir (Iorgachev, Bondarenko, 2020).

Artıq “Aztelekom” MMC bərpa işlərinə başlanan şəhər və kəndlərdə, o cümlədən Zəngəzur bölgəsində, Şuşada, Ağdamda, Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində telefon və internet xidmətləri göstərir.

“Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq Zəngəzur bölgəsində Laçın şəhərində GPON texnologiyasının tətbiq olunması üçün layihə hazırlanıb, şəbəkə quraşdırılıb. Zəngəzurun başqa bölgələri ilə yanaşı, Laçın şəhəri rayonun Zabux və Sus kəndləri də GPON (Gigabit Passive Optical Networks) texnologiyası əsasında layihələndirilib (Novikov, 2020).

2023-cü il sentyabrın 19-da başlayan, bir gün sonra başa çatan antiterror tədbirlərindən sonra isə Xankəndi və Xocalının da rabitə və rəqəmsal imkanları artırılıb və internet infrastrukturu istismara verilib. “Aztelekom” MMC-nin Xankəndi və Xocalı ərazilərində internet magistral xəttinin və genişzolaqlı internet şəbəkəsi təmin edilibdir.

Zəngəzur bölgəsində internet xidmətlərinin verilməsi imkanlarının hələ də mövcud olmadığı ərazilərdə isə paylayıcı şəbəkə yenidən qurulacaq. Orada məskunlaşan əhali dayanıqlı rabitə, yüksəksürətli internet və digər multimedia xidmətləri ilə təmin ediləcək. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən isə Xankəndi şəhərində, eləcə də Ağdərə və Xocalı rayonlarında dövlət qurumlarının etibarlı idarə olunması və məlumat mübadiləsinin təşkili məqsədilə operativ olaraq TETRA radiorabitə şəbəkəsi qurularaq istifadəyə verilib. Hazırda həmin bölgədə “AzStateNet” şəbəkəsinin qurulması istiqamətində hazırlıq işləri davam etdirilir (Rodina, 2012: 400).

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngəzur bölgəsinin işğaldan azad edilmiş ərazilərində mobil operatorlardan "Azercell" də yaxından iştirak edir. "Azercell"dən bildirilib ki, bu stansiyalar LTE texnologiyasına aiddir. Onların sayı isə 100-dən çoxdur. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcər rayonlarını, İstisu, Hadrut, Suqovuşan qəsəbələrini, həmçinin Xocavənd və digər rayonların kəndlərini əhatə edir (Sizmin, 2015).

Optik kabellərin mühafizə təbəqələrinə geniş tələblər qoyulur. Onlar kifayət qədər sərtliyi, zərbəyə və uzunmüddətli yüklənməyə qarşı mexaniki möhkəmliyi, nəmə (bəzən digər mayelərə) qarşı yaxşı maneə xassələri, eyni zamanda avadanlığın kifayət qədər məhsuldarlığını təmin etməlidirlər. Son zamanlar bu siyahıya yanmanın yayılmaması və məlumatın gizli ötürmə qabiliyyəti əlavə olunur. Optik liflərin perspektiv inkişafında informasiyanın ötürmə məsafəsi mühüm rol oynayır (Dəvrişova, 2008). Hazırda yüksək keyfiyyətli OLRX informasiyanın 400 km-ə qədər ötürməsini təmin edir. Yaxın gələcəkdə 1000 km-ə qədər rabitəni təmin edən sistemlərin yaradılması mümkün olacaq. Beləliklə, OLRX-ləri informasiya ötürücü xətlərin ən yaxşı variantı sayıla bilər (İbrahimov, 2009).

Polad tərkibli optik kabel təbəqələrinin vacib funksiyalarından biri gəmiricilərdən qorunmaqdır. Bunun üçün poliamiddən hazırlanmış xarici təbəqə istifadə olunur. 100 % mühafizəni isə polad möhkəmləndirmə təmin edir, amma bu kabelə sərtlik verir (Mansurov, Əliyev, Bəybalayev, 2006). Yuxarıda qeyd etdiyimiz kimi, regionda zənglər və internet trafiki yalnız Azərbaycanın rabitə operatorları və provayderləri vasitəsilə həyata keçirilir.

Beləliklə, işğaldan azad edilmiş ərazilərimizin, Zəngəzur bölgəsinin ölkənin vahid informasiya-kommunikasiya məkanına hərtərəfli inteqrasiyası üçün magistral və lokal telekommunikasiya şəbəkələrinin tikilməsi və alternativlik təmin edilməklə respublikanın ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulması həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə yaşayacaq və fəaliyyət göstərəcək əhaliyə və dövlət qurumlarına yeni texnologiyalar əsasında keyfiyyətli və fasiləsiz telefon, internet, radio-televiziya yayımı, poçt-maliyyə və s. xidmətləri təşkil edilir.

Bu sahədə regional əməkdaşlığın genişləndirilməsi və bölgənin telekommunikasiya potensialının gücləndirilməsi olduqca vacibdir. Zəngəzur bölgəsində həyata keçirilən bərpa-quruculuq işləri yaxın

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

illərdə Qarabağı telekommunikasiya sektorunda ölkənin qabaqcıl bölgəsinə çevirəcək (Sharvarko, 2020).

## Ədəbiyyat

1. İmamverdiyev, Q.M., Dəvrişova, İ.N. (2001). Elektron və optoelektron cihazlar. Bakı: AzTU.
2. Iorgachev, D.V., Bondarenko, O.V. (2020). Volokonno-opticheskiye kabeli i linii svyazi. Moskva.
3. Novikov, O.S. (2020). Molodoy uchenyy. № 23(313).
4. Rodina, O.V. (2012). Volokonno-opticheskiye linii svyazi, Prakticheskoye rukovodstvo, Moskva. 400 s.
5. Sizmin, D.V. (2015). Nelineynaya optika, Uchebno metodicheskoye posobiye, Sar FTI.
6. Dəvrişova, İ.N. (2008). Rabitə sistemlərinin qida qurğuları, I və II cild. Bakı: Təhsil NPM.
7. İbrahimov, B.Q. (2009). Elektrik rabitə nəzəriyyəsi. Bakı: Elm.
8. Mansurov, T.M., Əliyev, C.Ə., Bəybalayev, Q.B. (2006). Elektrik və optik rabitə xətləri. Bakı.
9. Sharvarko, V.G. (2020). Volokonno-opticheskiye linii svyazi. Moskva.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 301-304**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 301-304**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elvin Garayev**
ANAS, Sheki Regional Scientific Center
elvin_garayev_1993@mail.ru
https://orcid.org/0000-0002-5496-744X

# EASTERN ZANGAZUR: HISTORICAL-ARCHAEOLOGICAL MONUMENTS (LALAZAR BRIDGE)

***Keywords:*** *Zangazur, Lalazar, arch, Barghusad, Goyche, temple*
***Açar sözlər:*** *Zəngəzur, Laləzar, tağ, Bərgüşad, Göyçə, məbəd*

Eastern Zangazur is rich in historical and archaeological monuments. Monuments belonging to different stages of ancient history have been discovered in the territory of each district included in this region, especially in the valleys of the Araz River, its tributary Hekari River, and the Tartar River, which takes its source from Delidag and flows in the eastern direction – Kura. These are ancient settlements, grave monuments, rock carvings, bridges, temples, etc. They are historical monuments. However, despite the discovery of numerous monuments, East Zangazur is the least studied region of Azerbaijan from an archaeological point of view. It seems that this was primarily due to the complex relief and difficult geographical conditions of the region (1). The monuments here were recorded mainly as a result of the exploration and research conducted by archaeologists in the 70s and 80s of the last century. In 1976, archaeologist Gudrat Ismayilzadeh discovered Bronze Age petroglyphs on the slopes of Delidag in the upper reaches of the Tartar River, in the territory of Kalbajar region. The paintings are concentrated on the banks of Zalkhagöl and Karagöl, located at an altitude of up to 3 thousand meters above sea level, in the areas called Bear gravel, Pari gravel, Takta. The subjects of these images carved on basalt stones are varied. These are people, various animals, bullock carts, etc. They are paintings. Scenes of mountain goats and deer hunting can be found here. It is interesting that in the same area as those images, the remains of a compact settlement with a circular plan dating back to the beginning of the Bronze Age – the beginning of the 3rd millennium BC were discovered. Designed for

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

several families and fortified with stone buildings, this dwelling is typical of a pastoral farm. All these petroglyphs are the remains of the habitation of these highlands 5,000 years agoproves that he is settled. Delidag images are, without a doubt, the culture created by the Bronze Age population of the lowland zone of Karabakh – the lower reaches of the Tartar river, engaged in agriculture and cattle breeding, during their migration to the steppes in the summer seasons (Aliyev, 2004). Back in the Early Bronze Age, the lowland and mountainous areas of Karabakh, including the Zangazur mountains, were closely connected economically and culturally. At the same time, Gamigaya paintings in Delidag, Western Zangazur, Goycha lake basin and Ordubad region have the same historical period and the same content and are the constituent parts of the unified Bronze Age culture of Azerbaijan in the Lesser Caucasus. After liberation from the occupation, ample opportunities have been created to conduct extensive research and record thousands of rock paintings in the Delidag zone. It is not an exception that such images will be found on the slopes of Delidag in the direction of Lachin district. In the 80s of the last century, archaeologist Mansur Mansurov discovered a camp belonging to the end of the Middle Paleolithic period and the beginning of the Upper Paleolithic period in a cave near the village of Zar in the Kalbajar region (Muayibili, Huseynova, Farmanli, 2023: 4).

The ceiling of the cave's entrance collapsed. The archaeologist conducted an inspection excavation directly at the entrance of the cave and determined the existence of the cultural layer here and its characteristics.

As a result of the excavation, various types of stone tools used by the Paleolithic people of the area were discovered. The Zar cave camp is of great scientific importance, first of all, because this monument is one of the rare monuments belonging to the poorly studied Upper Paleolithic stage of the ancient Stone Age in the territory of Azerbaijan. The future researches of this camp will allow to fill a certain gap in the researches of the oldest history of Azerbaijan. Conducting large-scale archaeological research, registering monuments, and systematizing their database in Karabakh and Eastern Zangazur, which were freed from occupation, are the most important tasks facing researchers. The researches to be conducted in the region will ensure the study of the

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

connections between historical periods and the problems of cultural heritage (4).

The date of construction of Lalazar bridge is 1867. However, some sources say that the bridge was built earlier, in the 18th century. The monument built on the Bargushad river has one arch, the lower part is oval, and the upper part is flat. Like ofmany historical bridges in Azerbaijan, natural for supportrocks were used.



**Picture. Lalazar bridge**

The width of the Lalazar bridge is 2.8 meters, and its height above the water surface is 4.5 meters. According to the old elders living in the first half of the 20th century talking about the construction of the bridge, Khoja Simon, the father of a person named Lalazar, bought a garden plot at a high price from a gentleman from the village of Aliguluushagi at the beginning of the century. After the sale of the garden area of 2000 $m^2$ of the village, together with that garden, a large area of more than 1000 ha passed into the hands of Armenians. Khoja Simon’s son Lalazar built the bridge in the 19th century (3). The goal was to bring the Armenian villages of Zangezur, living in hunger and poverty, to the forests of Azerbaijan. In the middle of the last century, Armenians used to transport loads of firewood, coal, and forest materials from the mountain slopes of Khinzirak (Khindzoresk), Digh

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

(Tex) and other Armenian villages along the road called “Armenian road” among the people (5).

## References

1. Presidential Library of the Affairs Department of the President of the Republic of Azerbaijan. Zangazur.
2. Aliyev, V. (2004). Our footprint left in Zangazur. Baku.
3. Muayibili, N., Huseynova, M., Farmanli, S. (2023). Historical monuments of Eastern Zangazur. Culture. April 19. № 29/30, 6 p.
4. Historical-architectural monuments https://files.preslib.az/projects/zangazur/az/a8.pdf
5. https://modern.az/qerbi-azerbaycan/364989/zengezurutaniyaq-ve-tanidaq/

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 305-307**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 305-307**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Pənah Xanlayev**
Bakı Dövlət Universiteti
penahxanlayev@gmail.com

# QAÇAQ NƏBİNİN ZƏNGƏZUR QƏZASINDA FƏALİYYƏTİ

***Açar sözlər:*** *Qaçaq Nəbi, Zəngəzur, Mollu kəndi, Səlim bəy, qaçaq*
***Keywords:*** *Qachag Nabi, Zangazur, Mollu village, Selim bey, qachag*

Qaçaq Nəbinin qaçaqlıq fəaliyyətində Zəngəzur qəzasının əsas yer tutması heç də təsadüfi deyildi. Belə ki, Qaçaq Nəbi 1854-cü ildə Zəngəzur qəzasında, indiki Qubadlı rayonunun Aşağı Mollu kənində anadan olmuşdu (Naxçıvan ensiklopediyası, 2002: 247). Bundan əlavə Nəbinin, əsasən, 2 silahdaşı olan qardaşı Mehdi, Həcər Zəngəzurun Mollu kəndindən idi (Bəhcət, 2011: 142). Qaçaq Nəbinin dəstəsində önəmli yer tutan Sofulu Balakişi, Mollu Kərim, Dağtumaslı Allahverdi, Lətif Sofulu kimi silahdaşıları da Zəngəzur qəzasından idilər (Bəhcət, 2011: 228-230; Niftəliyev, 2023: 131).

Qaçaq Nəbinin fəaliyyəti ilə sıx bağlı olan, Qaçaq Nəbinin ən çox fəaliyyət göstərdiyi məkanlardan olan Həkəri çayı ətrafı, Bərgüşad çayı, Qapandərəsi yolu, Ərikli dağı, Üçtəpələr dağı, Dikpilləkan dağı, Kürdlər kəndi və s. ərazilər o zamankı Zəngəzur qəzasında yerləşirdi (Bəhcət, 2011: 268-281).

Nəbinin qaçaq kimi fəaliyyətə başlaması onun Zəngəzur pristavlarından olan Əli ağa Cavanşir tərəfindən Zəngəzurun Dondarlı kəndində həbs edilməsi və həbsdən qaçması ilə başlamışdı. Həmin gündən Nəbi qaçaq kimi ad çıxarmış və bütün Zəngəzur, eləcə də İrəvan, Naxçıvan, İran ərazilərində çar və şah məmurları ilə mübarizəyə başlamışdır (Bəhcət, 2011: 150-152). Qaçaq Nəbinin Zəngəzur naçalnikləri Suçevski və Qəhrəman bəy Mirzəyevin dövründəki aktiv fəaliyyəti çar dairələrini Zəngəzura daha qüvvətli və nüfuzlu naçalnik olan Səlim bəy Rüstəmbəyovu Zəngəzur Nacalniki təyin etməyə məcbur etdi. Səlim bəy Həcəri tutub Gorusda həbs etsə də, Nəbi həbsxananı dağıtmış, həbsxana naçalniki Bedrus bəyi öldürüb, Həcəri azad etmişdi (Bəhcət, 2011: 155-159). Bu hadisədən sonra Zəngəzurda

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 305-307
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 305-307
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Qalaboynuda məskunlaşan Nəbinin nüfuzu daha da artıq, çar məmurlarında daha çox qorxu oyatmağa başlayır.

Zəngəzurun üçüncü hissəsində yüzbaşı olan Əsəd bəyin zülmündən qaçan bir neçə nəfər Nəbidən kömək istəmişdi. Əsəd bəyin Əli ağa Cavanşir və Səlim bəydən kömək istəməsinə baxmayaraq, Nəbi Əsəd bəyi evində öldürdü. Qaçaq Nəbinin Zəngəzurun Xocahan kəndində Lütfəli bəy Xucmanski, Xınzirək kəndində pristav Bedrus bəy, Ginkur bəy kimi çar məmurlarını öldürməsi həm Nəbini adı dillərdə gəzən xalq qəhrəmanına çevirmiş, həm də Zəngəzur naçalnik, pristav, yüzbaşıları üstündə olan təsirini artırmışdı (Bəhcət, 2011: 162-171).

Qaçaq Nəbinin Zəngəzurdakı bu cür aktiv fəaliyyəti Səlim bəylə açıq toqquşmalara gətirib çıxarırdı. Qaçaq Nəbi və Səlim bəy arasında ilk toqquşma Maltəpə adlı yerdə baş vermiş, Nəbi bir neçə yoldaşı ilə Səlim bəyin dəstəsini darmadağın etmişdi. Səlim bəy bunun intiqamını almaq üçün qardaşı Mahmud bəylə birlikdə böyük dəstə ilə Zəngəzur yaylaqlarından olan Sarımsaqlı dağında Qaçaq Nəbini sıxışdırdı. Düşmənə xeyli tələfata uğradan Nəbi mühasirədən çıxmağı bacardı. Qubernatorun əmri ilə Şuşa, Naxçıvan və Zəngəzur naçalnikləri Qaçaq Nəbini Ərikli dağında sıxışdırsa da, Nəbinin dəstəsi düşməni məğlub edib xeyli hərbi qənimət əldə etmişdi. Bundan sonra da Qoparan dağı, Dikpillə yaxınlığındakı döyüşlərdə Nəbi dəfələrlə Səlim bəyin dəstəsini məğlub etmişdi. Qaçaq Nəbini hərəkatını yatırmaq üçün qardaşı Səlim bəyə kömək üçün bölgəyə gəlmiş Murad bəy də Zəngəzurun Kürdlər kəndində Qaçaq Nəbiyə məğlub olub qaçmışdı (Bəhcət, 2011: 171-204).

Səlim bəy Nəbini məğlub etmək üçün onun dəstə üzvləri arasında nifaq salmağa çalışırdı. Səlim bəyin ələ keçirdiyi bəzi üzvlər Nəbidən uzaqlaşmağa başladılar. Bundan əlavə, Nəbinin qardaşı Mehdinin Qarçevan kəndində öldürülməsindən sonra Nəbinin dəstəsi zəifləmişdi (Nərimanoğlu, 2021: 44-47).

Qaçaq Nəbini açıq döyüşlə məhv etməyi bacara bilməyən çar məmurları onun dəstə üzvlərini ələ almağı bacardı. 1896-cı il 12 mayda Nəbinin dəstə üzvlərindən olan Məşədi Paşa və Şahhüseyn Nəbini Cənubi Azərbaycanın Larni kəndində güllələyərək öldürdü (Bəhcət, 2011: 226).

Qaçaq Nəbinin Zəngəzurdakı fəaliyyəti, şübhəsiz ki, ermənilərlə də bağlı idi. Qaçaq Nəbi dəfələrlə erməni məmurlarla, rus dəstələri

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 305-307**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 305-307**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

tərkibində olan erməni əsgərlərlə vuruşmuş, əhalini aldatmağa çalışan erməni tacirlərin əmlakını əhaliyə paylamışdı. Nəbinin insansız erməni taciri Simonun əmlakını əhaliyə paylaması, Dərələyəzin Uz kəndində rus əlaltısı Movses Markarov və digər erməni varlılardan xeyli silah-sursat götürməsi onun ruslarla əlbir olan və yerli əhaliyə qənim kəsilən ermənilərə qarşı olan nifrətinin göstəricisidir (Nərimanoğlu, 2021: 40-44).

## Ədəbiyyat

1. Naxçıvan ensiklopediyası. (2002). Azərbaycan Milli Ensiklopediyası. Bakı, 598 s.
2. Bəhcət, B. (2011). Qaçaq Nəbinin tarixi, vəsiqə və sənədlər üzrə. Bakı: "Çıraq" nəşriyyatı, 288 s.
3. Niftəliyev, R. (19 may 2023). Qaçaq Nəbinin dəstəsi haqqında. Zəngəzurun tarixi və coğrafiyası Beynəlxalq Elmi Konfransın Materialları, s.130-133.
4. Nərimanoğlu, H. (2021). Qaçaq Nəbi tarixdə, elmi, yazılı və şifahi ədəbiyyatda, incəsənətdə. Bakı: Mütərcim, 208 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 308-310**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 308-310**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Gülnar Muxtarzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
muxtarzadegulnar@gmail.com
https://orcid.org/0000-0001-5388-5373

# TARİXİ AZƏRBAYCAN TORPAĞI ZƏNGƏZUR MAHALININ BƏRGÜŞAD HİDRONİMİ

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, Bərgüşad, hidronim, çay*
***Keywords:*** *Azerbaijan, Zangazur, Barghushad, hydronym, river*

Azərbaycanlıların qədim tarixi-etnoqrafik mahalı olan Zəngəzur müasir Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan və Ermənistan Respublikasının Mehri, Qarakilsə, Gorus və Qafan rayonlarını əhatə edir. Mehri bölgəsi özündə dağlıq (Bərgüşad, Alagöz, Xustup), Araz, Həkəri, Bazarçay, Oxçu çayları arasındakı yamac və düzən əraziləri birləşdirir.

Azərbaycanın Qarabağ ərazisindən başlayan çaylar, əsasən, Kür və Araz çaylarına, yaxud da onların hövzəsinə aid olan çaylara tökülür. Burada yerləşən dağların uca zirvələri Kür və Araz çay hövzələri arasında suayrıcı təşkil edir. Burada olan çaylar yağış və qar suları ilə qidalanır və suyundan suvarmada istifadə olunur. Tərtər və Həkəri çayları vulkanik yayladan başlayır. Arpaçay (128 km) və Bazarçayın (178 km) mənbələri yaylanın şimal-qərb hissəsindədir. Bu çaylar, əsasən, yağış, qrunt və yeraltı sularla qidalanır. Ona görə də ilin isti yarısında daşırlar. Kiçik Qafqazın cənub-şərq yamacında axan Tərtərçay, Xaçınçay, Qarqarçay, Həkəriçay, Oxçuçay Mil və Qarabağ düzlərinin suvarılmasında böyük əhəmiyyət kəsb edir.

"Hidronim" su obyektlərinə verilən ümumi addır. Çay adları hidronimlərin bir növü olan "potamonim"lərdə öyrənilir. Yunan mənşəli "potamos" – çay və "onoma" – ad sözlərinin birləşməsidir.

Məqalədə Zəngəzur mahalının Bərgüşad hidronimi tədqiqata cəlb olunmuşdur.

*Bərgüşad çayı.* Bu çay başlanğıcını Zəngəzur silsiləsinin şimal yamacından, 3040 m yüksəklikdə yerləşən Zalxa gölündən götürür. Həkəri çayına qovuşandan sonra nisbətən düzənlik sahə ilə axaraq bir sıra qollara ayrılır. Çayın mənbəyi Ərikli dağlarından başlanır. O, Urud

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

kəndinə qədər *Bazarçay* adlanır. Bərgüşad çayı Qaralar kəndi yaxınlığında Həkəri çayı ilə birləşib Araza tökülür. Ermənistan ərazisində çayın adı *Vorotan* kimi də qeyd olunur. Bərgüşad sözünü etnonim olaraq bəzi tədqiqatçılar kürd tayfasının adı kimi izah edirlər. Lakin bu fikirlə razılaşmaq doğru olmaz. Tədqiqatlardan aydın olur ki, bu tayfanın adı eyniadlı kürd tayfasının adından daha qədimdir. Mənbələrdə *barqu* qədim türk-monqol tayfalarından biridir. 1207-ci ildə Çingiz xanın oğlu Cuci qərbə doğru hərəkət edərək oryat, buriyat, barqu, ubsus, xabsaq və tubasların torpaqlarını tutur. Doğrudur ki, Mahmud Kaşğarinin tərtib etdiyi lüğətdə bu tayfanın adına rast gəlmirik. Ancaq Fəxrəddin Mübarəkşah barqu etnosunu türklərin 58 tayfasından biri kimi qeyd edir. İ.Umiyakov Orxon – Yenisey abidələrində oxunan *Yer-Bayırku* etnonimini barğu tayfa adının digər yazılış variantı hesab edir. Monqol salnaməçisi Rəşidəddin isə bu etnonimi barqut formasında qeyd etmişdir. Bununla da Bərgüşad etnoniminin kürd tayfa adı yox, qədim türk tayfalarından birinin qədim adı olduğunu deyə bilərik.

Tarixi mənbənin birində yazılıb: "Bu toponim ilə əlaqədar Ermənistan SSR-in Kafan rayonunda Bərgüşad sıra dağları vardır. Azərbaycan SSR-in Qubadlı rayonunda Həkəri çayla birləşdikdən sonra Araza tökülən Bazarçayın keçmiş adı Bərgüşad çayı olmuşdur. Ağa Məhəmməd şah dövründə İsfahan hövzəsində yaşayan Əfşar, Buğayiri türk qəbilələri sırasında Bərgüşadi qəbiləsinə də rast gəlirik. Bu sıra dağlar və çay adları Bərgüşadi qəbiləsindən alınmışdır. "Qanunnamə"də Bərgüşad çayı (Bazarçay) nəzərdə tutulur".

Başqa bir mənbədə yazılır: "Bərgüşad – İrəvan xanlığının Sərdarabad mahalında kənd adı. Ucar rayonunda Bərgüşad kəndinin adı kimi, XVI əsrdə Qızılbaş tayfalarından olan Bərgüşad tayfasının adını özündə əks etdirir. Orta əsrlər zamanı Zəngəzurda yaşamış Sofulu tayfası ilə bərabər mənşəcə Naxçıvanın Kəngər tayfa birləşməsinə mənsubdur. Tayfa orta əsrlərdə Zəngəzurun Bərgüşad mahalının adı ilə adlandırılmışdır. Mahalın adı tarixi mənbələrdə ilk dəfə XIV əsrdən çəkilir. Bərgüşad həm də Qubadlı və Zəngilan rayonlarından axan çayın adıdır. Çay dağın adı ilə adlanmışdır. Dağın adı qədim türk dilində berik "möhkəmləndirilmiş" şat "qayalı yüksəklik", "dağ beli", "çoxlu dərəsi olan alçaq sıra dağlar", "vadilərin birləşdiyi yer" sözlərindəndir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

İ.Bayramov Bərgüşad hidronimini oronim kimi tədqiq edib: “Bərgüşad dağı Yelizavetpol (indiki Gəncə) quberniyasının Zəngəzur qəzasının ərazisində yerləşir. Erməni mənbələrində dağın Zəngəzur dağ silsiləsinə daxil olduğu göstərilməklə Barquşati lernaşti kimi qeyd edilir. Oronim qaraçorlu türk tayfasından olan Bərgüşad etnonimi əsasında əmələ gəlmişdir”.

Məqalənin əvvəlində qeyd etdik ki, Bərgüşad çayı Ermənistandan və Azərbaycanın Qubadlı rayonundan keçir. Bütövlükdə, işğaldan azad edilmiş ərazilərdən 14 çay keçir. Bərgüşad, Lev, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay kimi bol su mənbələri də bu sırada yer alır. Başlanğıcını Zəngəzur silsiləsinin şimal yamacından, 3040 m yüksəklikdə yerləşən Zalxa gölündən götürən Bərgüşad çayı da bu siyahıya daxildir.

İşğal dövründə mənfur düşmən, hətta su mənbələrindən də respublikamıza qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. Yayda suyun qarşısı kəsilir, qış aylarında isə bəndlər açılır və beləliklə də keçmiş təmas xətti boyunca torpaqlarımız su altında qalırdı. Hazırda işğaldan azad edilmiş ərazilərdəki digər su hövzələrində də bərpa işləri həyata keçirilir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 311-313**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 311-313**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Həlilə Sadıqova**
Bakı Dövlət Universiteti
hlilsadiqova4@gmail.com

# EL QƏHRƏMANI – QAÇAQ NƏBİNİN TARİXDƏ ROLU

***Açar sözlər:*** *Zəngəzur, Şimali Azərbaycan, Mollu kəndi, Qaçaq Nəbi, qaçaq hərəkatı, "Qafqaz" qəzeti*

***Keywords:*** *Zangazur, Northern Azerbaijan, Mollu village, Fugitive Nabi, fugitive movement, the newspaper "Gafgaz"*

Azərbaycanın xalq qəhrəmanı, XIX əsrin 2-ci yarısında Azərbaycanda "Qaçaq hərəkatı"nın fəal iştirakçısı Qaçaq Nəbi Zəngəzur qəzasının (indiki Qubadlı rayonunun) Mollu kəndində anadan olmuşdur. Nəbinin atası Alı kəndin bütün adamları kimi çox yoxsul idi. Nəbinin anası tez vəfat etmişdir. Ondan sonra da atası ölmüşdür. Nəbinin ancaq kiçik qardaşı Mehdi və bacısı Zeynəb qalmışdır. Nəbinin həyat yoldaşı Həcər xanım onun qaçaqlığında iştirak etmişdir. Nəbinin ailəsi yoxsul idi və o muzdurluqla məşğul olurdu. Əvvəlcə öz kəndlərindən olan Kərbalayı Cəfərin qoyun-quzularına baxırdı. Sonra Nəbi Şuşa şəhərindən olan iki qardaş – Xoca David və Xudan adlı alverçilərə nökər olmuş və onları yollarda yaxşı mühafizə edirdi. Digər ağaları kimi Fərhad Yüzbaşov da qaçaq alver edər və bunun hamısının zəhmətini Nəbi çəkirdi. Nəbi hələ qaçaq olmamışdan qabaq bir dəfə tutulmuşdur. O, iki kənd arasında olan mübahisədə öldürülən şəxsin qətlini törətməkdə günahlandırılırdı. İlk əvvəl Naxçıvana, sonra da Şuşa "türmə"sinə göndərirlər. Yollar qaçmaq üçün əlverişli idi və Nəbi bu yoldan qaçıb öz kəndinə gəlmişdir. Bununla da Nəbinin qaçaqlıq dövrü başlayır.

Sonra bu işə Mollu kəndinin pristavı olan Əli ağa Cavanşir baxır və Nəbini tutur, Yusif Məhəmməd Şərif oğlunun evində dustaq etdirir. Bəhlul Bəhcət yazır ki, Dondarlı kəndindən olan bir neçə adam onun qaçmasının lazım olduğunu deyir. Nəbi də arxa yolla qaçıb öz kəndlərinə gəlir (Bəhcət, 2011: 141-152).

Nəbi qaçdıqdan sonra çar idarəsinin Azərbaycandakı əlaltıları olan mülkiyyət sahibi xan və bəylərin zülmündən cana gələn kəndlilərdən əli

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

silah tutan bir hissəni ətrafında toplayır. Nəbinin əsas düşmənləri xanlar və bəylər idi. O bu mübarizədə kasıbları və onların hüquqlarını müdafiə edirdi. Mübarizə apardığı ərazi Zəngəzur və Naxçıvan vilayətləri idi (Nərimanoğlu, 2021: 28). "Qafqaz" qəzeti axtarışa verilən Qaçaq Nəbinin əlamətlərini belə təsvir edirdi: "Ortaboylu, dolu bədən quruluşlu, enlikürək, qarabuğdayı, qəhvəyi gözlü, alnı çıxıntılı, sifəti təmiz, nazik və qısa bığlı, başın sağ tərəfində diş ətinin altında və arxa tərəfində, eləcə də bədənində onurğada sağalmış yara izləri vardır" (Kazenniye obyavleniya, 1895). Qaçaq Nəbi dəfələrlə həbs olunmuş və silahdaşlarının köməyi ilə həbsxanadan qaça bilmişdi (Əliyev, 1858: 170). Yüzbaşılar Nəbinin məhv olması üçün əllərindən gələni edirdilər. Əsəd yüzbaşı, Nəbi ilə əməkdaşlığa başladıqdan sonra, Balakişi və Atakişi kəndi tərk edib Qaçaq Nəbinin dəstəsinə qoşuldu. Əsəd yüzbaşının əsas düşmənləri bu qaçqınları ciddi şəkildə təqib etdi. Nəbi, Əsəd yüzbaşısının evində hücum edərək onu öldürdü, bu isə çar hökuməti məmurlarını qorxuya saldı (Bəhcət, 2011: 162). Ginkur bəy, Qaçaq Nəbi tərəfindən soyulan bir karvanın şikayəti ilə onunla atışmağa başlayır. Atışmada Ginkur bəyin dəstəsi ağır zərər çəkir və Ginkur bəy özü də qaçarkən Qaçaq Nəbi tərəfindən tutularaq öldürülür (Bəhcət, 2011: 166). Naçalnik Səlim bəy, Mahmud bəyi donluqlu yüzbaşı təyin edib, Qaçaq Nəbiyə zərbə vurmağa cəhd edir. Nəbi intiqam almaq üçün Mahmud bəyi gözləyir, lakin onun qaçaqmal ticarəti ilə məşğul olduğunu öyrənir. Nəbi, Mahmud bəyin ticarət karvanını tutur, hökumət dəstəsi ilə mübarizə başlayır. Dava çox böyük olur, hökumət tərəfi dağılır, pristav Əli ağa Cavanşir kənar edilir (Bəhcət, 2011: 177).

1892-ci ildə Qaçaq Nəbinin dəstəsi Qaçaq Əkbər kərbalayi Əskər oğlunun dəstəsi ilə birləşərək qüvvələrini səfərbər edir. Bu zaman Nəbinin dəstəsinə Qaçaq Əkbərin dəstəsinin üzvləri, Əkbərin qardaşı Məhəmməd, Kərbalayi Riza Kərbalayi Ağakişi oğlu və Abbas İrzaqulu oğlu kimi qaçaqlar qoşulmuşdur. 1895-ci ilin iyulun 12-15-də keçirilən məhkəmənin qərarı ilə ələ keçirilən Məmməd, kərbalayi Riza dar ağacından asılmış, Abbas isə katorga sürgününə göndərilmişdi (Sudebnaya xronika, 1895). Nəbinin dəstəsinə ilk qoşulanlardan biri xalq arasında onun qardaşı kimi tanınan Mehdi oldu. Mehdi bütün əməliyyatlarda onunla birlikdə olmuşdu. O, 1894-cü ildə iyulun 20-də Mehdi Qarçıvan kəndində erməni hampaları tərəfindəndən öldürül-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

müşdü (Bəhcət, 2011: 226). Nəbi Əbrəqunis dağlarına gəldiyi zaman, həmin bölgənin Başkənd sakini Şahhüseyn və onun qardaşları da hökumət tərəfindən təqiblərə məruz qaldığından Nəbinin dəstəsinə qoşulmuşdular. Onun dəstəsinə qoşulmuş Şahhüseyn və onun qardaşları olan Ağahüseyn, Məmmədhüseyn və Gülhüseyn kimi qaçaqlar hökumət qüvvələrinə qarşı böyük şücaət göstərmişdilər (Əliyev, 1858: 171). Nəbinin həyat yoldaşı Həcər xanım onunla birlikdə çar hərbi hissələrinə qapşı vuruşmalarda yaxından iştirak etmiş və xalq arasında tanınmışdı. Qori müəllimlər seminariyasının məzunu, uzun müddət Gorus məktəbinin müdiri olmuş P.Vostrikovun yazdığına görə "Həcər xanım da Nəbi kimi çox cəld silah işlədir, atının sürətli çapacağında belə gülləsi hədəfdən yayınmırdı. Həcər həm də Nəbinin ən birinci köməkçisi idi" (Vostrikov, 1912: 38). Dövlət yetkililərinin qızıl medal, torpaq, mülk, həmçinin, əlavə olaraq, 1000 rubl vədi Nəbinin çoxdankı dostları olan Paşa Hacı Fərəc oğlu, Şahhüseyni və Kərbalayi İmanı şirnikləndirir, onları Nəbinin öldürülməsinə razı salır. Planların sui-qəsd 1896-cı il martın 12-də Urmiya vilayətinin Larni kəndində Novruz çərşənbəsinin gecəsi baş tutur. Şahhüseyn irəlidə gedən Nəbini arxadan güllə ilə vurub qaçır. O vaxt Nəbinin 45 yaşı hələ tamam olmamışdı (Nərimanoğlu, 2021: 13-16).

## Ədəbiyyat

1. Bəhcət, B. (2011). Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər üzrə). Bakı: Çıraq.
2. Nərimanoğlu, H. (2021). Qaçaq Nəbi. Bakı: Mütərcim.
3. Kazenniye obyavleniya. (18 yanvar 1895). Kavkaz.
4. Əliyev, Ə. (1858). Qaçaq Nəbi. Azərbaycan, № 11, s.167-178.
5. Sudebnaya xronika. (23 avqust 1895). Case və ya razboyakh. Kavkaz.
6. Vostrikov, P. (1912). Muzyka i pesni u aderbeydzhanskikh tatar. Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza. Vypusk 42. Tiflis: Tipografiya kantselyariy namestnika yego imperatorskogo velichestva na Kavkaze, Otdel II, s.1-39.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 314-317**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 314-317**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Sevinc İmanlı**
Gəncə Dövlət Universiteti
imanli_sevinc@mail.ru

# ZƏNGƏZURUN AZƏRBAYCANDAN QOPARILMASI "ERMƏNİ MƏSƏLƏSİ"NİN BİR HİSSƏSİ KİMİ

***Açar sözlər:*** *Zəngəzur, "erməni məsələsi", Cənubi Qafqaz, erməni terroru, Osmanlı imperiyası, Rusiya*

***Keywords:*** *Zangazur, "Armenian problem", South Caucasus, Armenian terrorism, Ottoman Empire, Russian*

XIX əsrin 60-cı illərində ortaya atılmış "Erməni məsələsi", əsasən, "Şərq məsələsi"nin içərisində müzakirə obyektinə çevrilmiş və XX əsrin 20-ci illərində çox acı bir sonluqla bitmişdi. 1877-1878-ci illər rus-türk müharibəsi nəticəsində ermənilər xüsusi mənfəət götürdülər. Belə ki, onların adı ilk dəfə San-Stefano müqaviləsinə salındı. Həmin müqavilənin 16-cı paraqrafına əsasən Osmanlı dövlətindən tələb olunurdu ki, ermənilər yaşayan vilayətlərdə islahatları tezləşdirsin və onların təhlükəsizliyini təmin etsin. Müqavilənin həmin maddəsinə əsasən ermənilərə Osmanlı imperiyası daxilində quberniya azadlığı verilməli idi. Beləliklə, "erməni məsələsi" beynəlxalq status almağa başladı (Urud, 2005: 504).

1 iyun 1878-ci ildə Berlində dövlətlərin beynəlxalq konqresi keçirildi. Bu konqresdə ermənilər öz məqsədlərinə çata bilmədilər. Çünki böyük dövlətlərin planlarında müvəqqəti istifadə üçün nəzərdə tutulmuş ermənilərə dövlətçilik vermək hələ yer almamışdı. Çünki Osmanlı hələ bütün gücünü itirməmişdi və ona zaman-zaman təsir etmək üçün erməni kartı hələ lazım idi. Belə vəziyyətdə, xəbis istəklərinin təmin oluna bilmədiyi bir şəraitdə erməni terrorizmi cücərməyə başladı. Onlar artıq Türkiyə hökümətinə qarşı silahlı mübarizəyə başlamaq yoluna keçdilər, həmçinin bu mübarizə tezliklə Azərbaycana qarşı yönəldiləcəkdi. Belə ki, rus-iran və rus-türk müharibələri nəticəsində ermənilərin Qafqaza axını Qafqazda demoqrafik vəziyyəti onların xeyrinə dəyişdirdi. Ermənilərin Qafqazda məskunlaşdırılmasında Rusiya imperiyasının öz məqsədləri var idi. Rusiya imperiyası hakim dairələri anlayırdılar ki, Qafqazın əksər əhalisi

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

müsəlmandır. Həmin əhali Rusiya işğalına boyun əyməyə məcbur olsa da, hər zaman bu boyunduruqdan yaxa qurtarmaq üçün mübarizəyə qalxa bilər. Belə olan halda Qafqazın xəritəsində qarışıqlıq yaratmaq lazım idi. Ermənilər də həmin planın tərkib hissəsi, yəni həmin qarışdırıcı amil rolunu oynayacaqdılar. Ermənilər isə öz istəklərinə çatmaq üçün Qafqazda açıq terror fəaliyyətinə keçmək üçün əsas hazırlayırdılar. Bu terrorun qurbanı isə azərbaycanlılar olmalı idi. Çünki azərbaycanlıları məhv etmədən "Böyük Ermənistan" xülyasını həyata keçirmək mümkün deyildi (Qazıyev, 2009: 344).

Bu məqsədlə XIX əsrın sonlarında "Armenakan", "Xnçak" (Zəng), "Daşnaksütyun" adlı terror təşkilatları yaradılmışdı. Erməni millətçi partiyalarının, xüsusilə "Daşnaksütyun" və "Xnçak"ın terror və təxribat xatakterli əməlləri bütün Güney Qafqazı, Osmanlı imperiyasının şərqini, İranın azəri türklərinin yaşadığı əraziləri əhatə edirdi. Bu terrorun kulminasiya nöqtəsi 1905-1906-cı illər bütün Cənubi Qafqazı bürüyən erməni terroru idi ki, bu da ermənilər tərəfindən başladılan ilk irimiqyaslı açıq erməni-türk müsəlman qırğını idi. Bu terror eyni zamanda Zəngəzur bölgəsinin müsəlman-türk əhalisinə qarşı da yönəldilmişdi. Bu qırğında Zəngəzur qəzasında 43 müsəlman kəndi dağılmış, soyqırımdan ən çox əziyyət çəkən isə Zəngəzurun Qafan bölgəsi olmuşdu. "Kaspi" qəzetinin 5 noyabr 1905-ci il tarixli sayında yazılırdı ki, Yelizavetpolun müvəqqəti qubernatoru oktyabrın 27-də Gorusdan Qafqaz canişininə aşağıdakı məzmunda teleqram göndərmişdi: "Oktyabrın 16-da müxtəlif yerlərdən gəlmələrdən və fərarilərdən ibarət olan erməni bandası Zəngəzur qəzasından Qaryagin qəzasına keçərkən dağlıq erməni kəndlərinin sakinləri ilə birlikdə tatar kəndlərinin əhalisinə hücumlar etmiş və evlərini talan etmişdilər (Nərimanoğlu, 2019: 65). Noyabrın 26-da isə Zəngəzur qəzasının Sisian bölgəsinin müsəlman əhalisinə qarşı hücum edirlər və böyük bir toqquşma yaranır. Zəngəzur igidləri qəhrəmancasına dinc müsəlman əhalinin canı və malını mühafizə etmək üçün əllərindən gələni edərək ermənilərin hücumlarını dəf edirlər. Bütün bu hadisələr Məmməd Səid Ordubadinin "Qanlı illər" əsərində kifayət qədər dəqiqliklə qələmə alınmışdır. O, dövrün real, həqiqi mənzərəsini vermiş, xalqımızın düçar olduğu müsibətləri böyük ürək ağrısı ilə təsvir etmiş, bütün bir xalqa qarşı yönəlmiş erməni terrorunun məqsəd və nəticələrini çox böyük bir dəqiqliklə göstərmişdir. Əsərdə ermənilərin törətdikləri qırğınlar

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

haqqında müfəssəl məlumat verilməklə yanaşı, həmçinin qeyd edilir ki, bu zaman Zəngəzurun 409 kəndindən yanlız 92-də ermənilər yaşayırdı (Bayramov, 2023: 373).

1917-1920-ci illərdə Zəngəzurun türk əhalisi ikinci dəfə soyqırımı və deportasiya ilə üzləşmişdi. Lakin 1905-1906-cı illərdən fərqli olaraq bu dəfə onların əksəriyyətinə öz doğma yerlərinə qayıtmaq müyəssər olmamışdı. Qəza rəisi M.Namazəliyevin 30 oktyabr 1918-ci il tarixli raportundan bəlli olur ki, 1917-ci ilin dekabrı və 1918-ci ilin avqustu arasında Zəngəzur qəzasının əksər kəndləri məhv edilmiş, 50 min nəfər müsəlman isə öz yurd-yuvalarından qaçqın düşərək qonşu Cəbrayıl qəzasında yerləşmişdi (Nərimanoğlu, 2019: 71).

I Dünya savaşı dünyada, Avrasiyada olduğu kimi, Cənubi Qafqazda da ciddi dəyişikliklərə gətirib çıxardı. Rusiyanın Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra, fevral burjua inqilabı və Rusiyada çar höküməti devriləndən bolşevik Rusiyasının 1920-ci ilin aprelin 28-də Azərbaycana bolşevik qiyafəsində gəlişinə qədər Qafqazda cərəyan edən bütün proseslərdə ingilislər əsas rol oynamışdılar. Onların məqsədi Rusiyanı Qafqazdan çıxarıb buranı Antantanın nüfuz dairəsinə daxil etmək, Bakı neftinə sahiblənmək, Naxçıvanla Şuşa arasında yaşayan türk-müsəlman əhalini qırıb, bu əraziləri boşaldıb yeni yaradılmış xristian Ermənistanına qatılmasına maneəsiz zəmin hazırlamaq idi. Yəni XIX əsrin ortalarında Osmanlı dövlətini zəiflətmək üçün ingilislər tərəfindən ortaya atılmış “erməni məsələsi” I Dünya müharibəsinin sonunda indi də Cənubi Qafqazda elə ingilislərin təşəbbüsü ilə də alovlandı. İngilislərin Azərbaycana gəlişinin səbəbi təkcə iqtisadi maraqlarla bağlı deyildi, həm də Türkiyənin türk dünyası ilə əlaqəsini kəsmək idi. Bu planın gerçəkləşməsi üçün yeganə ən uyğun vasitə isə ermənilər idi. Erməni dövlətinin Türkiyə və Azərbaycan arasında Naxçıvan, İrəvan və Zəngəzuru əhatə edən bir bölgədə qurulması və sərhədlərin rəsmən müəyyənləşdirilməsi İngiltərənin planlarının tərkibində idi. İngilislər Türkiyəyə meyilli Azərbaycana inanmadıqlarından məhz Ermənistana etimad edir və Türkiyənin Transqafqaza olan qapısını əbədi bağlamaq üçün Naxçıvan və Zəngəzuru ermənilərə verməyə çalışırdılar. Məqsədlərinə çatmaq üçün daşnak rəhbərlərini dəstəkləmiş, faktik olaraq Ermənistanı Naxçıvan və Zəngəzurla bağlı təcavüzkar hərəkətlərə təşviq etmişdilər. 1918-ci il sentyabrın 4-də Zəngəzura daxil olaraq qəzada törədilən qırğınlarda

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

xüsusi amansızlığı ilə seçilən mütəşəkkil ordu hissəsinin komandanı Andranik hər yerdə onu da deyirdi ki, müsəlmanları qırmaq əmrini ona ingilislər verib (Nəvvab, 1993: 128).

Beləcə, XIX əsrdə Osmanlı dövlətini zəiflətmək üçün böyük dövlətlərin Rusiya, İngiltərə, ABŞ və Fransanın təşəbbüsü ilə ortaya atılmış bu məsələ, ermənilərin "Erməni dövləti" qurmaq istəkləri XX əsrin əvvəllərində qədim torpağımız olan Zəngəzurun Azərbaycandan qoparılması ilə nəticələnməsinə birbaşa şərait yaratdı. Yəni Zəngəzurun torpaqlarımızdan qoparılması "erməni məsələsi"nin reallaşması yolunda böyük dövlətlərin xəbis siyasətinin bir nəticəsi idi.

## Ədəbiyyat

1. Urud, M. (2005). Zəngəzur. Bakı, 504 s.
2. Qazıyev, Y. (2009). Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı, 344 s.
3. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı, 185 s.
4. Bayramov, İ. (2023). Tarixi Azərbaycan torpağı – Qərbi Zəngəzur. Ankara, 373 s.
5. Nəvvab, M.M. (1993). 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 128 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 318-324**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 318-324**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Fuad Xəlilov**
Bakı Dövlət Universiteti
fuadxelilovtarix@gmail.com
https://orcid.org/0009-0004-5992-5451

# ZƏNGƏZUR QƏRB DÖVLƏTLƏRİNİN DİQQƏT MƏRKƏZİNDƏ (1918-1920)

***Açar sözlər:*** *Zəngəzur, Azərbaycan Xalq Cümhuriyyəti, müttəfiq qoşunları, Qarabağ general-qubernatorluğu, Vilhelm Tomson, Andranik*

***Keywords:*** *Zangazur, Azerbaijan Democratic Republic, allied troops, Karabakh Governorate, Wilhelm Thomson, Andranik*

Zəngəzur bölgəsi ermənilər üçün XIX əsrin sonlarından başlayaraq ələ keçirmək istədiyi ərazilərdən biri idi və bu məqsədlə, əvvəlcə Çar Rusiyasına, ardınca isə Antanta dövlətlərinə arxalanaraq soyqırımı siyasətinə davam edirdi. 1918-ci ilin noyabrından etibarən Cənubi Qafqaz regionuna başda İngiltərə qüvvələri olmaqla, Fransa və ABŞ-ın gəlişi ermənilərin Zəngəzur, Naxçıvan və Qarabağ kimi tarixi Azərbaycan torpaqlarını ələ keçirmək üçün əl-qolunu açdı. Hələ 1917-ci ildə Tiflisdə keçirilmiş Ümumqafqaz kəndli deputatların qurultayında Daşnaksütyun partiyası Cənubi Qafqazın yeni inzibati bölgülərə bölünməsini və buraya Yelizavetpol qəzasının dağlıq hissəsinin, Qarabağ və Zəngəzurun qatıldığı Qandzaq quberniyasının yaradılmasını təklif etmişdilər (İsmayıl, 2011: 59). Artıq 1918-ci ilin may ayında üç Cənubi Qafqaz respublikası öz müstəqilliklərini elan etdikdən sonra hər 3 dövlət arasında ərazi-sərhəd məsələlərində mübahisələr yarandı. Bu dövrdə Qafqaz regionuna Rusiyanın başı daxildəki vətəndaş müharibəsinə qatıldığı üçün "Dördlər İttifaqı", xüsusən Osmanlı və Almaniya imperiyaları nəzarət edirdi. 1918-ci ilin iyunun 4-də Osmanlı imperiyasının hər üç respublika ilə ayrıca imzaladığı Batum müqaviləsi ilə ilkin sərhədlər müəyyənləşdirildi. Lakin elə ilk dövrlərdən Ermənistan Respublikası müqavilə şərtlərinə əməl etməməyə başladı. Hətta, 1918-ci ilin 8 iyulunda İstanbul konfransında iştirak edən erməni nümayəndə heyətinin rəhbəri A.Aqaronyan Ermənistanın xarici işlər naziri A.Ohancanyana

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

göndərdiyi teleqramda yazırdı ki, artıq Ermənistanın minimum ərazilərinə Qarabağ, Sürməli, Dərələyəz, Naxçıvan və Şərurla yanaşı Zəngəzur da daxil edilməlidir (Niftəliyev, 2018: 8).

1918-ci ilin oktyabrın 30-da bağlanmış Mudros müqaviləsi ilə Osmanlı qoşunları Qafqazı tərk etmək məcburiyyətində qaldı. Müqaviləyə görə, general V.Tomsonun başçılıq etdiyi və əsas hissəsi ingilislərdən ibarət olan Antanta müttəfiq qoşunları Azərbaycana, habelə Cənubi Qafqaza daxil oldu. General Tomson elə gəldiyi ilk günlərdən başlayaraq idarəçiliyi öz əlinə aldı və onun Zəngəzur, Naxçıvan və Qarabağ bölgələrinə dair siyasəti tam ziddiyyətli idi. Zəngəzurda isə vəziyyət sözün əsl mənasında faciə dərəcəsində idi. Hələ Osmanlı qoşunlarının bölgədə olduğu dönəmdə 1918-ci ilin sentyabrın 4-də Andranik Ozanyanın başçılıq etdiyi erməni quldur dəstələri Sisiyana daxil olaraq yerli erməniləri səfərbər etmiş və Azərbaycan kəndlərinə hücumlar təşkil etmişdilər (İsmayılov, 2017: 17). Türk qoşunlarının bölgəni tərk etməsi və Azərbaycan Xalq Cümhuriyyətinin ucqar bölgələrdə yetərincə hakimiyyətini gücləndirə bilməməsi səbəbindən Zəngəzurda ermənilərin soyqırımı siyasəti genişlənməyə başlayırdı. Sonralar şahidlər tərəfindən deyilən ifadələrə əsasən Zəngəzur qəzasının müsəlman kəndlərinə hücum edən erməni quldur dəstələrinin kimlikləri bəlli olmuşdu: bunlara Gorus şəhərindən Nikolay Osipov, Simon Mirumov, Dərəbas kəndindən Şamir Şahnazarov, Mehri kəndindən David Arşak, Matevas Maçiants, Kəvər kəndindən Hamazasp, Xatanun kəndindən zabit Avanes Ter-Petrosov, Arnuzur kəndindən Sumbat Melik-Stepanovu və digərlərini misal göstərə bilərik (Paşayev, 2011: 169). Zəngəzurda AXC qüvvələrinin olmamasından istifadə edən Andranik 1918-ci ilin noyabrından etibarən öz dəstələrini bölgəyə yerləşdirir, yerli erməniləri də qızışdıraraq türk-müsəlman kəndlərini yerlə-yeksan edirdi. Hətta Ararat Respublikasının birbaşa yardımına və siyasi dəstəyinə arxalanan Andranik Gorus şəhəri mərkəz olmaqla Zəngəzurda qondarma "erməni qubernatorluğu" yaratdığını elan etmişdi. Lakin, bölgədəki vəziyyətlə tanış olmuş müttəfiq qoşunlarının baş komandanı V.Tomson Andranikdən dərhal Zəngəzurdakı soyqırımları və Qarabağa doğru yürüyüşünü dayandırmağı əmr etmişdi. "Ağa deyir, sür dərəyə, sür dərəyə" prinsipiylə yaşayan Andranik 1918-ci ilin noyabrın 23-də Gorusda Zəngəzur qəzasının erməni və müsəlman əhalisinə etdiyi müraciətində

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

“Azərbaycan hökümətinin sədri cənab Xan Xoyskinin vəsadəti əsasında general Tomsonun verdiyi əmrə əsasən” Şuşaya doğru yürüyüşün dayandırıldığını elan edirdi (Musayev, 1998: 120). Bütün bu mövqe sərgiləmələrinə baxmayaraq, ingilislər, əslində, ikibaşlı oyun oynayır və bölgədə öz idarəçilik formalarını yaratmaq istiyirdilər. Buna görə də guya burada qayda-qanun və sabitlik yaratmaq üçün müttəfiq qoşunları tərəfindən xüsusi komissiya göndərilməli, bununla da həmçinin bölgənin gələcək taleyi müəyyənləşdirilməli idi. Bu məqsədlə, 1918-ci ilin dekabrın 2-də Zəngəzur qəzasının Gorus şəhərində mayor Hibbonun başçılıq etdiyi ilkin ingilis-fransız missiyası fəaliyyətə başladı. Missiyanın nümayədələri bölgənin həm erməni, həm azərbaycanlı əhalisi görüşüb danışıqlar aparmış, həm də Azərbaycan və Ermənistanın rəsmi şəxsləri ilə görüşlər keçirmişdir. Görüş və danışıqlar zamanı mayor Hibbo mövqeyini dəyişərək ermənilərin fikirlərinə inanmağa başlamışdı. Hətta, quldurbaşı Andranikə Zəngəzurda Minkənd kəndindən Zabıx çayına və Arazboyu İrəvan quberniyasının sərhəddinədək, Minkənddən yuxarı Bazarçayadək və Naxçıvan qəzasının sərhədinə qədər əraziləri belə vəd edirdi (Musayev, 1998: 121).

Zəngəzurun bu dövrdə taleyi qonşu ərazilərdə yerləşən Qarabağ və Naxçıvanla bir həll edilirdi. Belə ki, bu üç ərazidə ermənilərin maraq dairəsində olduğu üçün daim buraya basqınçı hücumlar təşkil edilir və amansız qətliamlar törədilirdi. 1918-ci il dekabrın 28-də AXC hökümətinə ünvanlanan teleqramda Naxçıvan və Ordubad sakinləri Zəngəzur ermənilərinin onlara hücum etdiyini və əgər İrəvan quberniyasına təcili kömək edilməzsə, bölgənin tezliklə məhv olacağını yazırdılar. Zəngəzur və Naxçıvan kimi qəzalarda erməni vəhşiliklərinin artdığı və ingilis nümayəndələrinin bu vəhşiliklərə canlı şahid olduğu bir dönəmdə mayor Hibbo bölgədə müvəqqəti olaraq onların nəzarətində olacaq bitərəf zonanın yaradıldığını elan edir. İngilislər xalqlar arasında sülhə nail olmaq üçün 1918-ci ilin 1919-cu ilin əvvəllərində Zəngəzurun Abdallar kəndində erməni və azərbaycanlı nümayəndələrin görüşünü keçirsə də, bunun elə də ciddi təsiri olmadı.

Azərbaycan Xalq Cümhuriyyəti də bu vəziyyətə biganə qalmayaraq 1919-cu ilin yanvarın 15-də Daxili İşlər naziri Xəlil bəy Xasməmmədovun məruzəsinə uyğun olaraq Xosrov bəy Sultanovun başçılıq edəcəyi Qarabağ və Zəngəzuru əhatə edəcək Qarabağ general-

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

qubernatorluğunun yaradıldığını elan etdi. Ermənistan rəsmi olaraq həm AXC-yə, həm general Tomsona qubernatorluğunun yaradılmasına görə etiraz etmiş, hətta R.Hovannesyan "armenefob Xosrov bəy Sultanovun Tomson tərəfindən hər iki ərazinin qubernatoru təyin edilməsini" təhqir üzərindən təhqir hesab edirdi (Musayev, 1998: 135). General Tomsonun Qarabağ və Zəngəzurun rəsmi olaraq Azərbaycan ərazisi kimi tanıması və general-qubernatorluğa heç bir etiraz etməməsi erməniləri çaş-baş salan məqamlardan biri idi. Lakin, Tomson bu idarəçilik formasına müvəqqəti quruluş kimi baxır, Şuşaya göndərdiyi xüsusi nümayəndə mayor Mak-Mossenə də bu ərazilərin kimə mənsub olmasını yalnız Paris Sülh konfransında müzakirə edilə biləcəyini söyləyirdi. Tomson hətta, ona irad bildirən ermənilərə demişdi: "Ermənilər başa düşməlidir ki, məsələni hərbi qüvvələr deyil, Sülh konfransı həll edəcəkdir" (Həsənli, 2009: 161). Ermənilər isə hər vəchlə həm Paris Sülh konfransında, həm Qafqazda olan qərb dövlətlərinin müttəfiq qoşunlarına özlərini Antantanın "müttəfiqi" kimi göstərməyə çalışırdı. İrəvandakı ingilis nümayəndə heyətinin üzvlərindən polkovnik Temperleyin ermənilərdən "hansı əraziləri özlərinin ayrılmaz hissəsi hesab etdiklərini" soruşduqda onlar cavabında digər ərazilərlə yanaşı İrəvan və Gəncə quberniyasının (buraya Zəngəzur qəzası da daxildir F.X.) bir hissəsinin adını çəkmişdilər.

Xosrov bəy Sultanov vəzifəsinə rəsmən başladığı dönəmdən etibarən Qarabağ və Zəngəzurda qəzalarında baş qaldıran erməniləri yerinə oturtmuş, bununla da ermənilərin ona qarşı qəzəbini daha da artırmışdır. Müttəfiq qoşunlarının Şuşadakı xüsusi nümayəndəsi Şatelvort 1919-cu il aprelin 3-də Xosrov bəy Sultanovu rəsmən general-qubernator kimi tanıyır. Bu qərarın "Azərbaycan" qəzetində yayılmış hissəsində deyilir ki, "1919-cu il martın 10-dan Azərbaycan Hökumətinin qətnaməsinə görə doktor [Xosrov bəy] Sultanov Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdlərinə general-qubernator təyin edilib, İngiltərə komandanlığının müavinətindən [dəstəyindən] istifadə edir" ("Azərbaycan" qəzeti (1918-1920), 2023: 122). Lakin, ingilislərin ikibaşlı oyunu burda da özünü biruzə verir. Belə ki, aprelin sonlarında ingilislər Zəngəzurun Qarabağ general-qubernatorluğunun tərkibindən çıxarılıb, "erməni milli şurası"nın tərkibinə verildiyi bəyan edilir. Əvvəlcə V.Tomson, may ayında isə onun yerinə təyin olunan general Kori də bu qərarı təsdiq edir. Müttəfiq qoşunları bunu Zəngəzurda

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

“Azərbaycan hakimiyyətinin qorunub saxlanılmaması” ilə izah edir. Ararat Respublikasının Azərbaycandakı diplomatik nümayəndəsi T.Bekzadyan ingilis komandanlığı ilə görüşlərində dəfələrlə bildirmişdi ki, əgər Qarabağ, Zəngəzur və Naxçıvan bölgələri Ermənistanın xeyrinə həll edilməzsə, ən azından bu bölgədə müvəqqəti ingilis general qubernatorluğu yaradılsın. Xosrov bəy Sultanovun 1919-cu ilin iyunun 25-də general Şatelvortla apardığı müzakirələrdən sonra ingilislər onun Zəngəzur məsələsində geri çəkilməyəcəyini görüb, hətta AXC-dən onun vəzifədən kənarlaşdırılmasını belə tələb etmişdilər. Lakin, nə Xosrov bəy Sultanov, nə də Azərbaycan Xalq Cümhuriyyəti höküməti tarixi Zəngəzur ərazilərimizdən imtina etməyərək erməni dəstələrinə qarşı mübarizəni davam etdirərək bölgə əhalisini qorumuşlar. Ümumiyyətlə, AXC-nin xarici siyasətdə gəldiyi qənaətlərdən biri o olmuşdu ki, Qarabağ-Zəngəzur məsələsinin həllində ingilislərin köməyindən qətiyyətlə imtina edilməlidir. Çünki, onlar yalnız maneçilik törədirlər (İsmayıl, 2011: 71).

1919-cu ilin iyun ayından etibarən ingilis qüvvələri Cənubi Qafqazı tərk etməyə başladılar. Onların yerinə isə ABŞ, B.Britaniya, Fransa və İtaliya hökümətləri adından polkovnik V.Haskel gəldi. Haskel həmçinin, ABŞ Dövlət Departamentinin Qafqazdakı xüsusi nümayəndəsi sayılırdı (Mustafa, 2018: 47). Sələflərinin yolunu davam etdirən Haskel avqustda Ermənistan parlamentində etdiyi çıxışında ermənilərin Azərbaycana qarşı ərazi iddialarını dəstəklədiyini bildirmişdi. Bu dəstəyi gurultulu alqışlarla qarşılayan erməni siyasi xadimləri bu dəfə təkcə Qarabağ və Zəngəzuru deyil, Naxçıvan və Şərur-Dərələyəzə iddialar etməyə başladılar. Bölgə əhalisi isə AXC Xarici İşlər Nazirliyinə etdiyi müraciətdə, hökümətin Ali komissar V.Haskel qarşısında Zəngəzurda dinc əhalinin qırğınlarına son qoymaq üçün xüsusi komissiya yaratması haqqında məsələ qaldırmasını tələb etmişdilər. V.Haskel isə avqustun 28-də Azərbaycana gələrək hökümət rəsmiləri ilə görüşlər keçirmiş, nəhayət sentyabrın 1-də yaydığı bəyanatda Zəngəzur və Qarabağı rəsmi Azərbaycan hakimiyyəti kimi tanıdığını bəyan edir. O, həmçinin Naxçıvanda ABŞ general-qubernatorluğunun və neytral zonanın yaradılmasını təklif etsə də, hökümət rəsmiləri bunu qətiyyən rədd edir. AXC Hərb Nazirliyi Zəngəzurda erməni qırğınlarına son qoymaq üçün 1919-cu ilin oktyabrında polkovnik Cavad bəy Şıxlıniskinin rəhbərliyi ilə Dığ

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 318-324
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 318-324
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

əməliyyatını başlatdı və əməliyyat uğurlu getdiyi üçün erməni əhalisi Azərbaycandan Amerika nümayəndələrinin vasitəçiliyi ilə sülhə nail olmaq istədiklərini bəyan etdilər.

Nəhayət, Zəngəzur məsələsini həll etmək üçün Qərb dövlətlərinin Qafqazdakı nümayəndələri – O.Uordrop (İngiltərə) və C.Rey (ABŞ) Azərbaycan və Ermənistanın baş nazirləri N.Yusifbəyli və A.Xatisyana rəsmi olaraq müraciət etdilər. 1919-cu il noyabrın 20-22-də C.Reyin vasitəçiliyi və təklifləriylə Tiflisdə Azərbaycan-Ermənistan arasında rəsmi görüşlər keçirildi. ABŞ missiyasının bölgədə olduğu müddətdə noyabrın 23-də Tiflisdə Azərbaycanla Ermənistan arasında saziş bağlandı. Neytral və təminatçı şəxslər qismində sazişi C.Rey və E.Gegeçkori imzaladılar. Sazişə görə, hər iki tərəf Zəngəzurdan qoşunlarını çəkməli və dinc əhalinin gediş-gəlişinə mane olmamalı idi. Sazişin üçüncü bəndinə görə, əgər tərəflər razılığa gələ bilməsələr, amerikanlara münsiflər məhkəməsi rolu oynamaq imkanı verilirdi (Həsənli, 2009: 308). Tezliklə, Fransa hərbi missiyası da Parisə göndərdiyi teleqramda bu sazişin bölgədə sülhə nail olacağını bildirirdi. Lakin, Azərbaycan qoşunları Zəngəzuru tərk edən kimi ermənilər sazişin şərtlərini kobudcasına pozaraq yenidən bölgəyə qoşun yeritdilər və dinc sakinləri qırmağa başladılar. Belə olan halda, N.Yusifbəyli dekabr ayında V.Haskelə, O.Uordropa, C.Reyə, Fransa və İtaliyanın Qafqazdakı hərbi nümayəndələrinin başçıları Nonankur və Qabbaya göndərdiyi teleqramlarda vəziyyəti izah edir və dərhal tədbir görülməsini tələb edirdi. V.Haskel dekabrın 11-də göndərdiyi teleqramda yazırdı ki, "əgər yoxlamalar zamanı Azərbaycan tərəfinin ittihamları təsdiqlənərsə, bu Ermənistanın gələcəyinə vurulmuş çox güclü zərbə olacaqdır” (Həsənli, 2009: 310). Ermənistana olan etiraz və təzyiqlərə baxmayaraq, onlar Zəngəzurda yenə də öz varlıqlarını davam etdirməyə çalışırdılar. Qərb dövlətləri isə vasitəçilik edərək 1920-ci il fevralın 23-də Tiflisdə O.Uordropun mənzilində Azərbaycan və Ermənistanın nümayəndələrindən ibarət görüş keçirdilər. Görüşdə AXC-nin Ermənistandakı diplomatik nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyev təklif etdi ki, Qarabağda olduğu kimi Naxçıvan və Zəngəzurda da milli şuralar yaradılmalı, idarəçilik müvəqqəti olaraq onlara verilməli və ardınca isə sülh konfransı çağrılaraq sərhəd məsələsi həll olmalı idi. İngilis və fransız nümayəndələri bu təklifdən yana olsalar da, ermənilər kəskin etirazı üzündən məsələ yenə həll

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

olunmamış qaldı (Həsənli, 2009: 381). 1920-ci ilin martın 5-də O.Uordrop Azərbaycan hökümətinə ünvanladığı məktubda Cənubi Qafqazda mübahisəli sərhəd məsələlərinin San-Remo konfransında müzakirə olunacağını və buna görə də, xüsusi məruzə hazırlanmasını təklif edirdi.

1920-ci il aprel işğalı ilə Azərbaycan Xalq Cümhuriyyəti devrildiyi üçün artıq Zəngəzur kimi mübahisəli əraziləri Qərb dövlətləri deyil, Sovet Rusiyası həll etməyə başladı. Təəssüflər olsun ki, Sovet Rusiyasının və “sapı özümüzdən olan baltalar”ın anti-azərbaycan siyasəti üzündən məsələ Ermənistanın xeyrinə həll edildi. Amma, bütün bunlara baxmayaraq, AXC qısa müddət ərzində diplomatik manevrlər həm Qafqazdakı Qərb dövlətlərinin missiyalarına, həm də Paris Sülh konfransının nümayəndələrinə xəritə və tutarlı faktlarla Zəngəzur, Naxçıvan və Qarabağın rəsmi Azərbaycan əraziləri olduğunu təsdiq etdirə bilmişdi.

## Ədəbiyyat

1. İsmayıl, M. (2011). Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 – aprel 1920-ci illər). Dərslik. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 312 s.
2. Niftəliyev, İ. (24 may 2018). AXC dövründə Ermənistanla sərhəd məsələsi, Qarabağ və Zəngəzur bölgələrində erməni separatçılığı. “Xalq qəzeti”, № 116, 8 s.
3. Paşayev, A. (2011). XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı: Çaşıoğlu, 328 s.
4. Musayev, İ. (1998). Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: “Bakı Universiteti” nəşriyyatı, 385 s.
5. “Azərbaycan” qəzeti (1918-1920). (2023). VII cild (aprel 1919). Bakı: Azərbaycan Diplomatik Akademiyası, 644 s.
6. İsmayılov, K. (2017). Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı: Elm, 248 s.
7. Mustafa, N. (2018). Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918-1920). Bakı: Ulu, 268 s.
8. Həsənli, C. (2009). Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: “GARISMA” MMC, 576 s.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 325-327
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 325-327
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Zəhra Hüseynova**
Bakı Dövlət Universiteti
huseynova.z2006@gmail.com

# AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN QƏSDƏN PARÇALANMASI

***Açar sözlər:*** *mübahisəli ərazi, parçalanma, ədalətsizlik, siyasət, qələbə*

***Keywords:*** *disputed territory, fragmentation, injustice, politics, victory*

1920-ci ilin aprel istilasından sonra Sovet Rusiyasının bolşevik rəhbərliyi Azərbaycan SSR-in ərazi bütövlüyünü qorumaq niyyətində deyildi. XI Qırmızı Ordu hissələri isə işğalçı erməni hərbi birliklərinin Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə hücumlarının qarşısını qəsdən almırdı. Ona görə də yerli əhali tərəfindən 1920-ci ilin yayında Veysəl bəyin başçılıq etdiyi türk ordusu Naxçıvana dəvət edildi. Bu qoşun Naxçıvanın erməni daşnak-bolşevik hücumlarından qorunmasında həlledici rol oynadı. Sovet Rusiyası ilə Ermənistan Respublikası arasında 1920-ci ilin avqustunda saziş bağlandı. Sazişdə Azərbaycanın Şərur-Dərələyəz bölgəsinin Ermənistan Respublikasına verilməsi nəzərdə tutulurdu. Bu azmış kimi, əzəli torpaqlarımız olan Zəngəzur, Naxçıvan, Qarabağ "mübahisəli ərazi" hesab edilirdi. "Mübahisəli ərazi" adı ilə başlayan planlı oyun Sovet Rusiyasının istədiyi kimi həll olundu. Əgər Ermənistanda Sovet hökuməti qurulana qədər Stalin "Zəngəzur və Naxçıvanı Ermənistanın indiki hökumətinə vermək olmaz" tezisi ilə çıxış edirdisə, Ermənistanda Sovet hakimiyyəti qurulduqdan cəmi iki gün sonra həmin Stalin dekabrın 1-də Bakı Sovetində keçirilən iclasda N.Nərimanovu Zəngəzurun Sovet Ermənistanına verilməsi barədə bəyanatla çıxış etməyə məcbur etmişdir. Tarixə "Nərimanov bəyanatı" kimi daxil olmuş bu sənəd AK(b)PMK siyasi və təşkilat bürolarının 1920-ci il noyabrın 30-da keçirilən iclasında qəbul edilmiş və bəyanatın oxunması N.Nərimanova həvalə edilmişdir (Urud, 2016: 250).

Sovet hakimiyyətinin Azərbaycanla bağlı siyasəti get-gedə daha da sərtləşirdi. Azərbaycan tərəfi Ermənistanın sovetləşməsindən dərhal

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 325-327**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 325-327**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

sonra Sovet Rusiyasının təzyiqi altında Zəngəzur və Naxçıvanın Sovet Ermənistanının bölünməz ərazisi kimi qəbul olunan bir bəyanat verməli oldu.

Hətta 1924-cü ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (MSSR) yaradılmasından sonra, 1929-1930-cu illərdə Ordubad və Zəngilan rayonlarının bəzi kəndləri hesabına yaradılmış Mehri rayonu Ermənistana verildi. Zəngəzur, Mehri rayonu və bu kimi ərazilərin ermənilərə verilməsinin nəticəsi olaraq Naxçıvan MSSR Azərbaycandan ayrı salındı.

Zəngəzur Cəmiyyətlər Birliyinin sədri tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun "Zəngəzur: 100 sual, 100 cavab" kitabından 1 sualı nəzərinizə çatdırmaq istərdik: "Zəngəzurun tam işğalına nə zaman başlandı? 1988-ci il noyabrın 24-də Zəngəzurun Qubadlı bölgəsinin Eyvazlı kəndinin erməni silahlı qüvvələri tərəfindən talan, qarət edilib tamam yandırılıb xarabalığa çevrilməsi ilə başlamışdı. Ermənistan SSR-dən ilk qaçqın dalğası 1987-ci il fevral ayının sonu – martın əvvəllərindən başlayaraq Zəngəzurun Sisian, Qafan, Gorus, Mehri rayonlarının azərbaycanlılar yaşayan 50 kəndindən, eləcə də ermənilərlə birlikdə yaşadıqları 15 kənddən bütün azərbaycanlı əhalisi vəhşi amansızlıqla, ev-eşiklərini, malqaralarını, əmlaklarını buraxaraq öz doğma yurdlarından məcburən deportasiya edildilər. 1991-ci ilin avqustunda Mehri rayonunun Nüvədi kəndinin əhalisi qovuldu... Laçın, Qubadlı, Zəngilan rayonları Dağlıq Qarabağ və ətraf rayonlarla birlikdə Azərbaycandan qoparıldı" (Nərimanoğlu, 2019: 152).

1993-cü il oktyabrın 29-da işğalçı Ermənistanın ABŞ, Fransa, Böyük Britaniya, ən əsası isə Rusiyanın siyasi dəstəyi ilə Zəngilan rayonunu işğal etməsi ilə tarixi Zəngəzur torpaqlarının azərbaycanlılardan təmizlənməsi prosesi yekunlaşdırıldı. Millətimizə qarşı olan bu növbəti ədalətsizlik neçə illər xalqımızın ürək yanğısına səbəb olmuşdur.

Ümummilli lider uzaqgörən siyasətçi Heydər Əliyevin hər zaman nitqlərində söylədiyi "Mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq" fikri bu gün öz təsdiqini tapdı. Bəli, o gün gəldi və biz tarixi torpaqlarımıza geri qayıtdıq. Və bu qayıdış hələ də davam etməkdədir. Unutmayaq ki, bu torpaqlara yenidən qovuşmaq bizə o qədər də asan başa gəlməyib, bu qələbəni şəhidlərimiz, qazilərimiz, Ali Baş Komandanımız və dəmir

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

yumruq kimi bir olan xalqımızın sayəsində əldə etdik. Biz əminik ki, Zəngəzur dəhlizi də bu qələbənin bir hissəsi olacaqdır.

## Ədəbiyyat

1. Urud, M. (2016). Zəngəzur: Uzaq keçmişdən müasir dövrə qədər. Bakı: Nurlar NPM, 480 s.
2. Nərimanoğlu, H. (2019). 100 sual, 100 cavab. Bakı, 185 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 328-329**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 328-329**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Fatima Jafarova**
Baku State University
cfrlifatim96@gmail.com

# HISTORICAL ROLE OF GAFAN DISTRICT IN ZANGAZUR AND ITS ARMENIANIZATION

***Keywords:*** *Zangazur, Gafan district, armenianization*
***Açar sözlər:*** *Zəngəzur, Qafan rayonu, ermənilәşdirilmə*

Gafan district occupies an important place in Zangazur district. Until 1920, it was a province of Zangazur District of Ganja Governorate, as a result of the political games that took place in 1917-1920, Gafan, like other regions of Zangazur, became an administrative district of the Armenian SSR and operated as an independent district since 1930. This region of Western Azerbaijan, which is rich in historical events, has been covered in various ways based on political views and chauvinist attitudes in existing sources. If we take into account that Zangezur district was part of different states (Albania, Atabays, Sunik, Arab Caliphate, Azerbaijan, Iran, Russia, Armenia, etc.) at different times, it is normal that the opinions expressed about Gafan are contradictory. The traces of our material culture in the territory of Gafan region go back to the times before our era. According to the data of 1970, there is 1 republic subordinate city, 1 district subordinate city, 19 village soviets in the territory of the district (Əliyev, 2004: 102). The number of settlements is 58. More than 200 names of villages, rivers, lakes, mountains, such as Kapicic, Pirhamza, Piricavid, registered in Gafan district alone, are Turkish toponyms. Borders of Gafan region: Zangilan, Gubadli regions of the Republic of Azerbaijan from the south, Gorus and Garakilsa regions of Zangezur district from the east, Mehri region of Zangezur from the southwest. The tragedy of Gafan, which is part of Zangezur, reached its peak in 1915-1989. The Azerbaijani population has been expelled from the territory since 1918 under the leadership of the Dashnak government. It is enough to add the deportations of 1948-1953 and 1988-1989. These were also reflected in the telegram No. 349 of 1919 of the head of Zangazur district. Armenians lived in 26 out of 130 villages in Gafan.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

In Gafan, Azerbaijanis mainly settled in Kığı and Ovchu valleys. Currently, Gafan has been completely Armenianized, even our existing place names have been deleted from the map. The Presidium of the Armenian SSR changed the name of Gafan district to Kilsakand, Kurdkand, Magauz at different times. In general, the territory of Gafan region was rich with ethnic groups of Turkic origin: Gapan, Chobanli, Gushchuli, Baharli, Molalli, etc (Ələkbərli, 1994: 106).

## Ədəbiyyat

1. Əliyev, V. (2004). Zəngəzurda qalan izimiz. Bakı: Nurlan, 102 s.
2. Ələkbərli, Ə. (1994). Qədim türk-oğuz yurdu. Bakı: Sabah, 106 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 330-332**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 330-332**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Reyhana Mammadova**
Zangilan district secondary school No. 21
rmemmedova208@gmail.com

# HISTORICAL GEOGRAPHY OF ZANGAZUR

***Keywords:*** *border, independence, territory, administrative division, war*

***Açar sözlər:*** *sərhəd, müstəqillik, ərazi, inzibati ərazi bölgüsü, müharibə*

Zangazur is one of the territories of Azerbaijan with a rich history. The historical lands of Azerbaijan, which cover a wide geography from Derbent to Zanjan, from Kirkuk to Eastern Anatolia, were from time to time, divided and settled within the borders of the modern Azerbaijan Republic. The modern state of Azerbaijan itself is divided into two parts by the Zangazur corridor. The territory of Zangazur covers part of the Zangazur ridge, the longest mountain range in the Lesser Caucasus, southwest of the border of the Republic of Azerbaijan, and southeast of the territory of Armenia.

Part of the historical Zangazur within the borders of Azerbaijan called Eastern Zangazur, and the rest, on the territory of the present Armenian state - Western Zangazur. In the ancient period and in the period of the early Middle Ages, the territory of Zangazur was a part of the kingdom of Media, the Scythian empire and the state of Athropaten called Syunik or Sisakan, as well as the Azerbaijani state of Albania. In the middle of the 6th century, because of the administrative reform of Khosrov I Anushiravan, was created the Adurbadagan region; the north and south of Azerbaijan were united under one name. At the beginning of the 7th century, because of the victory of the emperor of Byzantine Heraclius II, in the war with the Sassanian emperor Khosrov Parviz II, the desire for the independence in the countries under Persian rule intensified.

As a result, the principality of Syunik became independent. In his "History of Alban" Moses Kalankatuisky notes the existence of the independent principality of Syunik at the beginning of the 7th century. In the ancient sources this region was called Sisakan or Syunik, and in

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Arab sources - Siajan. The researchers write that the toponym Sisakan is associated with the name of the Sakas, one of the ancient Turkic tribes that inhabited this area. Albanian historian Moses Kalankatuysky in his book "History of Alban" provides information about the Albanian tribes living in this area, as well as about the Gargars, Khazars, Huns and other Turkic tribes.

Azerbaijan occupied a large territory, starting from the eastern part of the Albanian state - Zangazur and further along the Araz River, from Meghri to Akara, and in the north to the Kapidzhig and Khustup mountains, from the Zangazur ridge to the Bargushad Mountains. In the second half of the 7th century, the Arabs occupied Zangazur, together with the Albanian state. During the period of the weakening of the Arab Caliphate, small Azerbaijani feudal states arose on the territory of the former Albania.

On February 25, 1868, when was formed of the Elizavetpol province, the Zangazur district was created as part of the territories of the Shusha district of the Baku province and the Nakhchivan district of the Iravan province. This uyezd bordered with the districts of Sharur-Daralayaz and Nakhchivan of the Iravan province, and with the districts of Javanshir, Shusha, Jebrail of the Elizavetpol province, and across the Araz River with Iran. The district of Zangazur was the largest among the districts of the Elizavetpol province. At the end of the 19th century, the territory of the district of Zangazur was 7.83 thousand square meters. km.

Historically, Zangazur was divided into 4 regions - Guney (Meghri), Gafan, Zangazur (Gorus) and Sisian (Garakilse). During the time of the Azerbaijan Democratic Republic, the Zangazur district was considered an indisputable territory within the Ganja province. Most of the territory of Zangazur was occupied by the Armenian armed forces in 1918-1920, and only in 1921, the Zangazur region was formed in the western part of the historical district, which was included in the administrative territory of Armenia. The eastern part of Zangazur, which remained in the Azerbaijan SSR, became the Gubadli region. In the documents of 1925, Zangilan is mentioned as part of the Jebrail region. According to the administrative division, the territory of Eastern Zangazur covers Lachin, Gubadli, Zangilan regions of the Republic of Azerbaijan, and Western Zangazur covers the territories of the former

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Sisian, Gafan, Gorus and Meghri regions, which are currently part of the Syunik region of Armenia.

As can be seen from the historical chronology, there was not even a trace of Armenian rule in Zangazur until 1920! In 1988-93, Zangazur territory was completely occupied by Armenians. ...in the 44-day victory war, our heroic sons freed Karabakh and Eastern Zangazur from occupation.

Zangazur is Azerbaijan!

## References

1. Administrative Department of the President of the Republic of Azerbaijan Presidential library.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 333-334**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 333-334**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Könül Məmmədova**
Azərbaycan Milli Ensiklopediya Mərkəzi
konulmuradova1992@gmail.com

# ZƏNGƏZUR MAHALI

***Açar sözlər:*** *məskən, mədəniyyət, elm, qaynaq, körpü*
***Keywords:*** *settlement, culture, science, resource, bridge*

Zəngəzur mahalı Azərbaycanın ən qədim yurd yerlərindən biri və əcdadlarımızın ilkin yaşayış məskənlərindən olub, zəngin tarixi keçmişə malik olan ərazilərimizdən biridir. Zəngəzur həmişə Azərbaycanın dövlətçilik tarixinin tərkibində olmuş əzəli Vətən torpaqlarımızın ayrılmaz parçasıdır. Bu Azərbaycan torpağı erməni işğalına qədər həmişə öz türkçülüyünü qoruyub saxlamış, Azərbaycan elminin, mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Zəngəzur torpaqları zəngin təbii sərvətlərə malik idi. Sayaddaş dağının qərb və şərq ətəklərində, Havart, Qacaran, Qafan, Atqız, Pirdavudan və Nüvədi kəndləri yaxınlığında mis filizi çıxarılırdı, istehsal, emal müəssisələri var idi.

Cənnətdərəsi, Şahverdiuşağı, Barabatına, Xalac, Şəhərcik və Bartaz bölgələrində də mis yataqlarının olduğu qeydə alınmışdır. Zəngin Sayaddan yataqlarından, əsasən, mis kolçedanı, sink və qalay qatışıqları, mis filizi ilə yanaşı, əhəng, gips, gil, kvars, tabaşir, qaragil və s. çıxarılırdı. Zəngəzur bölgəsində yüzlərlə bulaq, kiçik göl, çay, zəngin mineral su ehtiyatları var idi. Kürdalı yatağı, Daşkənd kəndi, habelə Gorusçay və Bərgüşadın hövzələrində yerləşən bulaqlar, Tatev monastırı yaxınlığındakı Şeytan körpüsü yanındakı İstisu bulağı, Piçənis, Daşkənd və Şıxların turşsu bulaqları, Şahverdiuşağının kükürdlü bulaqları, Laçının Turşsuyu ətrafda məşhur idi. Bərgüşad, Həkəri, Çavundurçay, Oxçu, Basıqçay və Mehri qəzanın ən böyük su qaynaqları idi. Əlverişli coğrafi-iqlim şəraiti əkinçiliyi Zəngəzur əhalisinin başlıca qazanc mənbəyi etmişdi. Əkinçilikdə başlıca yeri buğda və arpa tutsa da, mərcimək, kətan, darı və vələmir də əkilirdi. Bağçılıq da müəyyən rol oynayırdı. Meyvə bağları ilə yanaşı, tut bağları (araqçəkmə və baramaçılıq üçün) geniş yayılmışdı. Bostançılıq çayların sahillərində yaşayan əhali arasında xüsusən geniş yayılmışdı.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Çox yüksək keyfiyyətli balı ilə məşhur olan yerli arıçılıq zəif inkişaf edərək köməkçi təsərrüfat rolunu oynayırdı. Zəngəzur qəzası Azərbaycanın məşhur sənətkarlıq bölgələrindən biri idi. Tarla işləri başa çatdıqdan sonra, xüsusən də qışda, qadınların, demək olar ki, hamısı bu işlə məşğul olurdu. Yerli qoyunçuluq sahəsi yuna olan tələbatı tam ödəmədiyindən buraya Cavanşir qəzalarından da yun gətirilirdi. Bu bölgənin "yaməni", "zili" və b. xalça-palaz məhsulları bütün diyarda məşhur idi. Yerli ustalar mahuddan çuxa, palto, heybə, xurcun tikir, keçəçiliklə, xalçaçılıqlada məşğul olurdular.

Xanlıq xalçaları daha məşhur idi.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 335-336**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 335-336**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Günel Fətdayeva**
Sumqayıt, Azərbaycan
gulu.feva@mail.ru

# ZƏNGƏZURUN TARİXİ ABİDƏSİ – QOŞUNDAŞ

***Açar sözlər:*** *Zəngəzur, Qoşundaş, abidə, daş, qəbir*
***Keywords:*** *Zangazur, Carahunge, tomb, stone, grave*

Azərbaycan tarixi abidələrlə zəngin diyardır. Bu abidələrdən biri də eramızdan əvvəl II minilliyə aid olan və Zəngəzur mahalının qədim tarixindən xəbər verən Qoşundaş abidə-məzar kompleksidir. Qoşundaş abidəsi Cənubi Qafqazın ən unikal meqalitik abidələrindən biridir. Bu abidə 1170 metr hündürlüyündəki dağ yaylasında təxminən 10 hektar sahəni əhatə edir. Abidə 223 daşdan ibarət olmaqla şaquli vəziyyətdə cərgə ilə düzüldüyünə görə bu cür adlanmışdır. Daşların hündürlüyü 1,5-2,2 metr, eni 60-80 santimetrdir. Ermənilər abidəni "Dik - dik karer" yəni "Dik - dik daşlar", "Zorats karer" yəni "Daş qoşun" və ya "Qoşunların daşı" adlandırır.

Zəngəzur türklərindən əldə olunan rəvayətə görə, burada güclü insanlar yaşayıb və bu daşlar da həlak olan döyüşçülərin məzarlığıdır. Ermənilər buranı bütün dünyaya erməni rəsədxanası kimi tanıtmağa çalışmışlar. Lakin tapılan faktlar, qalıqlar bunu inkar edir. Çünki abidənin yerləşdiyi Zəngəzur torpağı, əsasən də Qarakilsə türklərin məskəni olmuşdur. Sadəcə Türkmənçay müqaviləsindən sonra bu əraziyə kütləvi şəkildə ermənilər köçürülmüşlər. Abidənin mərkəzində sərdabə, ətrafında isə məbəd olduğu ehtimal edilir. Burada yerləşən kurqanların qoşun başçılarına aid olduğu bildirilir. Qazıntılar zamanı buradan insan sümükləri, məişət əşyaları, döyüş alətləri tapılmışdır.

Qoşundaş abidəsinin astronomiya ilə əlaqəsini 1984-cü ildə erməni astronom irəli sürüb. O, abidənin 7500 illik rəsədxana olduğunu iddia edib. Ermənilər hər il İrəvandan buraya gələrək İngiltərədəki "Stounhenc"də olduğu kimi qış və yay gündönümlərini qeyd edirlər. Onlar qeyd edirlər ki, əcdadları bu daşlar vasitəsilə Ay və Günəşi müşahidə etmişlər. Lakin abidənin çox da hündürlükdə olmaması və üzərinin dumanla örtülü olması rəsədxana ehtimalının mümkün olmadığını sübut edir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Qoşundaş abidəsininin adı 90-cı illərin sonlarından ermənilər tərəfindən dəyişdiriləәk “Karahunc” qoyulur. 2014-cü ildən arxeoloqlar tərəfindən qazıntı işləri aparılmış və axtarış zamanı 35 böyük qəbir aşkarlanmışdır. Tapılan qəbirlərin əksəriyyəti isə digər tarixi abidələrimiz kimi ermənilər tərəfindən dağıntıya məruz qalmışdır.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 337-338**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 337-338**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Tural Qaffarov**
Bakı Dövlət Universiteti
qaffarovtural75@gmail.com

# AZƏRBAYCAN CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ZƏNGƏZUR QƏZASINDA RƏİS HÜQUQUNDA RƏİS ƏVƏZİ VƏZİFƏSİNİ YERİNƏ YETİRƏN HƏBİB XAN ŞƏKİNSKİ (1880-1956)

***Açar sözlər:*** *Zəngəzur, Azərbaycan Cümhuriyyəti, rəis, Qarabağ general-qubernatorluğu, Çar Rusiyası*

***Keywords:*** *Zangazur, Republic of Azerbaijan, chief, Karabakh Governorate General, Tsarist Russia*

Tarixi ədəbiyyatlarda Süleyman ağa da adlandırılan Həbib xan Süleyman xan oğlu Şəkinski 1880-ci ildə Şuşada doğulmuşdu. O, Şəki xanı Səlim xanın və Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi idi. Hələ çar Rusiyası dövründə Həbib xan Şəkinski Zəngəzur qəzasının Dığ nahiyəsində sahə polis pristavı olmuşdu (Şahsevən, Behbudov, 2013: 402). Tədqiqatçılar qeyd edir ki, Həbib xan Şəkinski Zəngəzur qəzasında pristav olmamışdan öncə, "naçalnik uyezd", yəni qəza rəisi vəzifəsini yerinə yetirmişdir (Rəhimli, 2005: 6).

Azərbaycan Cümhuriyyəti dönəmində isə, Həbib xan Şəkinski Zəngəzur qəzasına rəis hüququnda rəis əvəzi vəzifəsinə təyin edilmişdi. Qeyd etmək vacibdir ki, Azərbaycan Cümhuriyyəti dönəmində Zəngəzur qəzasında rəis vəzifəsində Həbib xan Şəkinski ilə yanaşı, 5 nəfər də xidmət etmişdir. Bunlar Fərəc bəy Məliknamazəliyev, Hüseyn bəy Mahmudbəyov, Camal bəy Sultanov, Fərrux bəy Sərməstbəyov və Mirzə Məhəmməd Axundov idilər. Zəngəzur qəzasının Akara, Muradxanlı, Novruzlar kəndləri Həbib xan Şəkinskiyə məxsus idi (Şahsevən, Behbudov, 2013: 402).

Həbib xan Şəkinskinin ailəsi haqqında onu qeyd etmək olar ki, anası Gövhər xanım görkəmli yazıçı, dramaturq Əbdürrəhim bəy Haqverdiyevin (17 may 1870, Şuşa-17 dekabr 1933, Bakı) əmisi qızı idi. Həbib xan Ağca (Həcər) xanım Mirzə Kərim bəy qızı Hacıyeva ilə həyatı qurmuşdu. Onun Süleyman adlı oğlu, Barat xanım və Səriyyə xanım adlı qızları var idi. Barat xanım Şəkinskaya (14 iyun 1914, Şuşa-

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

14 yanvar 1999, Bakı) görkəmli aktrisa, respublikanın xalq artisti kimi məşhur idi. Həbib xan Şəkinski 1956-cı vəfat etmişdir (Şahsevən, Behbudov, 2013: 402).

Ümumiyyətlə onu qeyd etmək vacibdir ki, Zəngəzurun Azərbaycan Cümhuriyyəti tərkibində olduğu zamanları və Qarabağ general-quberatorluğun tarixini araşdırarkən, tədqiqata az cəlb edilmiş Həbib xan Şəkinskinin həyat və fəaliyyəti dərindən təhlil edilməlidir. Cümhuriyyətin erməni təcavüzü ilə üz-üzə qaldığı şəraitdə, Həbib xan Şəkinski Zəngəzurda vəzifəsini layiqincə yerinə yetirmişdir. İlham Rəhimlinin müəllifi olduğu "Barat Şəkinskaya" monoqrafiyasında qeyd olunur ki, Barat xanım dünyaya göz açarkən, Həbib xan Zəngəzurda iş başında idi. Həbib xan üçün öncə dövlətin suverenliyi və ərazi bütövlüyü idi. Həbib xan Şəkinskinin qəhrəmanlığı nəsildən-nəslə keçmiş, bu gün onun varisləri İkinci Qarabağ savaşında Qarabağı düşmən işğalından azad etmiş və üçrəngli qələbə bayrağını Şuşaya sancmışdılar.

## Ədəbiyyat

1. Şahsevən, İ., Behbudov, T. (2013). İstiqlal Fədailəri-Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirləri və silahdaşları (1918-1920). Bakı: Mütərcim, 497 s.
2. Rəhimli, İ. (2005). Barat Şəkinskaya. Bakı, 149 s.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 339-341
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 339-341
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Sevinc Muxtarova**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
seva_mukhtarova@mail.ru

# ZƏNGƏZUR: TARİXİ MƏKAN, MİLLİ YADDAŞ

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, tarix, toponim, deportasiya*
***Keywords:*** *Azerbaijan, Zangazur, history, toponym, deportation*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır.

Zəngəzur qədim Azərbaycan torpağıdır və 1920-ci ildə bolşevik Rusiyası tərəfindən Ermənistana verilmişdir. 101 il əvvəl Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozuldu. Əgər o tarixi ədalətsizliyə yol verilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı. Zəngəzur mahalı azərbaycanlıların qədim tarixi-etnoqrafik bölgəsi olmaqla müasir Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan və Ermənistan Respublikasının Mehri, Qarakilsə, Gorus və Qafan rayonlarını əhatə edir (İsgəndərov, 2021: 8).

“Zəngəzur” termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. “Zəngəzur” toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə “sur” daş-divar, qala, bürc deməkdir. Addakı “zəngi” etnonimdir, türk tayfa adıdır. Bir çox yer adlarında bu səlcuqların, oğuzların izləri yaşayır. Məsələn, Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngənə,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngişalı, Zəngi çayı, Zəngibasar, Zəngilər, Zəngan – Zəncan, Zəngilli və b. Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin, Abbasqulu ağa Bakı-xanov və b.-nın əsərlərində oğuz tayfalarından birinin "zəngi" tayfası olduğu yazılıb. Zəngəzurdakı ikinci leksem ərəbcə "sur" dağ, daş, divar, qayalıq yer, hasar, qala, bürc deməkdir, dilin ahənginə, asan tələffüzə görə s-z-ya çevrilib. Bu ad ərazinin relyefini düzgün səciyyələndirir – yəni zəngilərin yaşadığı dağlıq yer. Zəngəzur ərazisindəki adların bir çoxunda sur-zurzor daşlaşıb qalıb (Nəriman-oğlu, 2019: 8).

Sovet Rusiyasının yaxından iştirakı ilə Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi ilə Ermənistan SSR dövləti Zəngəzurun azərbaycanlı əhalisinin deportasiya və soyqırımını başa çatdırmışdı. M.Skibitskinin hesablamasına görə, Qarabağ general-qubernatorluğu-nun tərkibinə daxil olan Zəngəzur qəzası ərazisindən (6742,96 kvadrat-verst) 3637 kvadratversti Ermənistana verilmişdi. Sovet Ermənistanı Zəngəzuru ələ keçirdikdən sonra ilk əvvəl onun inzibati-ərazi bölgüsünü dəyişdirməyə başladı. Ermənistan SSR Xalq Komissarları Sovetinin 1921-ci il 31 avqust qərarı ilə onun torpaqları əsasında Zəngəzur (Gorus, Sisyan və Qafan) və Mehri qəzaları təşkil etmişdi. Sovet rayonlaşdırılması zamanı isə 1930-cu ildə həmin qəzaların ərazisi Gorus, Sisyan, Qafan və Mehri rayonlarına bölünmüşdü. Zəngəzurun Ermənistana verilmiş hissəsində ən böyük faciə isə II Dünya müharibəsindən sonra, sovet dövlət rəhbərliyinin bilavasitə iştirakı ilə Ermənistan tərəfindən respublikanın azərbaycanlı əhalisinin 1948-1953-cü illərdə deportasiyası oldu. 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Stalinin ölümü ilə azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası kimi cinayətkar fəaliyyət dayandırılsa da Ermənistan rəhbərliyi bu siyasəti 1950-1980-ci illərdə qapalı, 1980-ci illərin ortalarından isə açıq şəkildə davam etdirdi. 1987-ci ilin noyabrında Qafan və Mehri rayonlarının azərbaycanlılarına qarşı deportasiya başladı. Ermənistanda öz tarixi etnik torpaqlarında yaşayan azərbaycanlılar dövlətin həyata keçirdiyi məqsədyönlü soyqırımı və deportasiya siyasəti nəticəsində oranı tərk etməyə məcbur oldu. Ermənistandakı sonuncu azərbaycanlı kəndi – Zəngəzurun Nüvədi kəndinin əhalisi 1991-ci ilin avqustunda deportasiya edildi. Beləliklə, ermənilərin və Ermənistan dövlətinin

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 339-341**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 339-341**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

həyata keçirdiyi soyqırımı və deportasiya siyasəti nəticəsində Azərbaycanın tarixi Zəngəzur torpaqlarının Ermənistana verilmiş hissəsində yaşayan azərbaycanlı əhalinin varlığına son qoyuldu. Beləliklə, Azərbaycanın tarixi Zəngəzur bölgəsinin bir hissəsinin Sovet Rusiyası tərəfindən Ermənistana verilməsi, digər hissəsinin isə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsilə tarixi Zəngəzur torpaqlarının ələ keçirilməsi başa çatdırılmışdır. Ermənistanın işğal edilmiş ərazilərdə yaratdığı qondarma inzibati-ərazi bölgüsündə vahid Zəngəzuru bərpa etməməsi və erməni əhali ilə məskunlaşdıra bilməməsi bir daha sübut edir ki, onun digər tarixi Azərbaycan torpaqları ilə, eyni zamanda Zəngəzur bölgəsinə iddiası heç bir tarixi zəminə əsaslanmır (İsgəndərov, 2021: 8).

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 7 iyul 2021-ci il tarixində Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları hesabına Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Bu iqtisadi rayonun yaradılması Zəngəzurun qərb hissəsinin də mövcudluğunu və tarixən Azərbaycan torpağı olmasını göstərir.

Bu gün Zəngəzur dəhlizinin yaradılması istiqamətində addımlar atılması və bu dəhlizin reallaşdırılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Bu layihənin icrası bizim dədə-baba torpağımız olan Zəngəzura qayıdışımızın növbəti müjdəsi olacaqdır.

## Ədəbiyyat

1. İsgəndərov, A. (20 noyabr 2021). Tarixin dərinliyindən boylanan Zəngəzur. "Xalq qəzeti", № 251, 8 s.
2. Nərimanoglu, H. (2019). Zəngəzur 100 sual, 100 cavab. Bakı, 185 s.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 342-344
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 342-344
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Xəyalə Əsgərova**
Gəncə Dövlət Universiteti
xayala.askerova@mail.ru

# YELİZAVETPOL QƏZASI TİFLİS QUBERNİYASININ TƏRKİBİNDƏ

***Açar sözlər:*** *Tiflis, quberniya, Yelizavetpol, Rusiya, Zaqafqaziya*
***Keywords:*** *Tbilisi, governorate, Yelizavetpol, Russia, Transcaucasia*

Tiflis quberniyası 1846-cı il dekabrın 14-də Gürcüstan İmeretiya quberniyasından Tiflis, Qori, Telavi, Sığnnax, Yelizavetpol, İrəvan, Naxçıvan və Aleksandropol qəzalarının və Qorski, Osetiya və Tuşino-Pşavo-Xevsurşava rayonlarının tərkibində yaradılmışdır. Tiflis quberniyasının ərazisi Kür çayının orta və qismən yuxarı axarının hövzəsini və Kürün sol və sağ tərəfindən axan Liaxva, Araqva, İora, Alazan Xramçay və s. çaylarını əhatə edirdi. 1849-cu ildə İrəvan, Naxçıvan və Aleksandropol yeni yaradılmış İrəvan quberniyasının tərkibinə daxil oldular. Coğrafi cəhətdən Tiflis quberniyası Zaqafqaziya regionunda orta mövqe tuturdu. Onun formalaşması bütün səlahiyyətlər mülki hissəyə eyni vaxtda nəzarət edən hərbi qubernatora həvalə edildi. Rayon məhkəmələrini əvəz edən əyalət məhkəməsi yaradıldı; mülki və cinayət işləri üzrə kollegiyalar polis orqanlarının yurisdikdiyasından çıxarıldı. Cənubi Qafqaz ərazisinin Rusiya imperiyasının tərkibinə daxil olması ilə müsəlman azərbaycanlılar yeni ərazi-inzibati və sosial-iqtisadi şəraitə düşdülər. Tabeçilik münasibətləri və vergi sistemi dəyişmi, Rusiya hakimiyyət orqanları nəzarət və təhlükəsizlik tədbirləri, cəzalar üçün yeni proseduralar tətbiq etmiş, Tiflis quberniyasının azərbaycanlıların hərəkət və sosial-iqtisadi əlaqələrinin inkişafı imkanlarını məhdudlaşdırmışdır. 1846-1917, 1918-1920-ci illərin ən dramatik dönəmində Tiflis quberniyasının azərbaycanlıları özlərindən xəbərsiz və iradəsi olmadan daxil olmuşlar (Aliyeva, 2009: 22). Əhalinin həyat və rifahının yaxşılaşdırılması üçün ayrılan vəsaitlərin qeyri-bərabər bölüşdürülməsində azərbaycanlılara qarşı sosial ayrı-seçkilik aşkar edilmişdir. Müsəlman azərbaycanlılar imtiyazlı etnik qruplar arasında deyildilər. Əksinə, onları yaşamq üçün ən əlverişsiz və yararsız yerlərə məcbur etmişdilər (Bulatov, Ismailova,

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 342-344**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 342-344**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

2019: 39). Tiflis quberniyasının yaranması ilə azərbaycanlılar da daxil olmaqla, əhali üzərində bütün hakimiyyət eyni zamanda mülki hissəyə nəzarət edən hərbi qubernatora tapşırıldı. Polis orqanlarının səlahiyyətlərindən çıxarılaraq rayon məhkəmələrini, mülki və cinayət işləri üzrə kollegiyaları əvəz edən əyalət məhkəməsi yaradıldı. Məhkəmə bir sədr, iki məclis üzvü, yuxarı təbəqədən və tacirlərdən, eyni zamanda dörd müfəttişdən ibarət idi. Əyalət prokurorunun heç bir köməkçisi yox idi. Əyalət şuraları xəzinə palataları dövlət əmlak palataları funksiyalarını öz üzərinə götürürdü. Rayonun başçısı rayon rəhbəri idi və aşağıdakı funksiyaları yerinə yetiridi.

1) polis xidmətinə rəhbərlik;
2) dövlət əmlakının, dövlət meşələrinin mühavizəsi;
3) kəndlərə qəyyumluq;
4) qəyyumluğa nəzarət.

Rayon rəisi əyalət məhkəməsinin səlahiyyətinə aid olan bütün istintaq işlərini qubernatora göndərirdi. O özü xırda cinayət və mülki işləri apara bilərdi. Bundan əlavə, hər bir məntəqədə polis və məhkəmə səlahiyyətlərinə malik bir bölgə komandiri var idi.

Tiflis quberniyasının azərbaycanlıları üzərində icra hakimiyyəti, əsasən, çar Rusiyasının xristian nümayəndələrinə; ruslara və gürcülərə məxsus idi. Bu xüsusi iş knyaz Vorontosovun hesabatında vurgulanırdı (Aliyeva, 2009: 22).

1859-cu ildə Osetiya rayonu Qori rayonuna birləşdirildi. Tuşino-Pşavo-Xevsur rayonu isə Tionetski adlandırıldı. 1867-ci ildə Duşeti qəzası təşkil edildi. Axaltsixe qəzası Kutaisi qubeniyasından, Yelizavetpol qəzası isə yeni yaradılmış Yelizavetpol qubeniyasına ayrıldı. Beləliklə, Çar II Aleksandrın 1867 il 9 dekabr tarixli fərmanı ilə Yelizavetpol quberniyası yaradıldıqda, Yelizavetpol qəzası Tiflis quberniyasından alınaraq onun tərkibinə verildi. Yelizavetpol qəzası Tiflis quberniyasının tərkibində olmasına baxmayaraq, Gəncə əhalisi öz milli kimliklərini söy-köklərini untmayaraq xalqımızın inkişafında önəmli rol oynadılar.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## Ədəbiyyat

1. Bulatov, B., Ismailova, A.M. (2019). Polozheniye musul'man azerbaydzhantsev Tiflisskoy guberniye na rubezhe-XXvv (etno-demograficheskiyey i sochial'no ekonomicheskiy aspekty). Islamedovaniye. T.10, №1 (39).
2. Aliyeva, I. (2009). Politicheskoye i sotsial'no-ekonomicheskoye polozheniye azerbaydzhantsev Tiflisskoy gubernii (1846-1917). Baku: Bakı, 224 s.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 345-346
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 345-346
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Aytac Bağırova**
Bakı Dövlət Universiteti
aytajbaghirova1004@gmail.com

# ZƏNGƏZUR – ZƏNGİN TARİXİ VƏTƏNİMİZ!

***Açar sözlər:*** *torpaq, tarix, tayfa, vətən, Türk*
***Keywords:*** *land, history, tribe, homeland, Turk*

Zəngəzur – döyüşlərin məkanı, atəşpərəstlik məbədi! 150 il Səlcuqlu hökmranlığı davam edən dövr ərzində Zəngəzurda – Türksoylu tayfaların yaşadığı bu torpaqlarda türk – islam nüfuzuda öz yerini göstərməkdə idi. Kiçik Qafqazın ən uzun dağ silsiləsi "Zəngəzur silsiləsi" Azərbaycanın cənub-qərbini əhatə edir.

Türkdilli respublikalarda, o cümlədən ölkəmizin çoxlu yer adlarında bu oğuz-türk tayfasının izləri yaşamaqdadır. Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngidərə çayı, Zəngibasar, Zəngilər, Zəncan, Zəndilli adlarını çəkmək olar.

Azərbaycanın milli parklarından biridir və inzibati ərazisinə görə Kiçik Qafqaz, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşir. Dağ meşəsi, dağ çəməni, qayalıq landşaftına malikdir. Qırmızı kitaba daxil olan növləri də mövcuddur: bəbir, manul, dağ qoyunu (muflon), bezoar, Xəzər uları, ağboğaz bülbül, qırmızıqanad mərciməkquşu və s.

Hazırda Şərqi Zəngəzur Regional Məşğulluq idarələri fəaliyyət göstərməkdədir. Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Cəbrayıl inzibati əraziləri özündə birləşdirir.

Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi:

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II



Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra – Xidmət) Zəngilan rayonuna (bundan sonra – müvafiq ərazi) əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Xidmət ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Xidmət bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Xidmətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır. Qanuna uyğun olaraq, xidmətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Xidmət məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər. Xidmət Zəngilan şəhərində yerləşir.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 347-350
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 347-350
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**İsmayıl Səmədli**
Bakı Dövlət Universiteti
smdismayil52@gmail.com

# ZƏNGƏZUR TERMİNİNİN DİPLOMATİK TARİXİ

***Açar sözlər:*** *Zəngəzurun itirilməsi, Azərbaycanın haqlı mübarizəsi, müasir diplomatiyada Zəngəzur gündəmi*
***Keywords:*** *the loss of Zangazur, the rightful police of Azerbaijan, Zangazur issue in modern diplomacy*

Azərbaycanın diplomatiya tarixində baş vermiş ən uğursuz hadisələrdən biri də tarixi ata-baba yurdumuzun – İrəvanın Ermənistana güzəştə gedilməsi idi. Ermənilər hələ ötən əsrin əvvəllərində Azərbaycana qarşı ərazi iddiası irəli sürməyə başlamışdı, məhz Zəngəzur məsəsələsi də bu iddianın əsas tərkib hissəsi idi. Müasir dövrdə İrəvanın Azərbaycana verilməsi ilə bağlı müxtəlif tezislər mövcuddur, bu məsələnin, əsasən, 1918-ci ildə fövqəlhal olaraq ortaya çıxdığı deyilir. O dövrə nəzər salsaq, Cənubi Qafqazda hərbi, eləcə də siyasi müstəvidə mürəkkəb proseslər cərəyan edirdi. Ermənilərin İrəvanla bağlı planı hələ 1912-ci ildə nəşr edilən “Известии Бакинского Совета” adlı qəzetin 220-ci sayında öz əksini tapmışdı. Həmin qəzetdə “erməni məsələsi”nin həlli yönündə atılacaq addımlar barədə bildirilirdi ki, ermənilər müstəqil dövlət qurmalı və paytaxt olaraq İrəvan şəhəri seçilməli, həmçinin Zəngəzur, Qarabağ, Naxçıvan əraziləri tamamilə işğal olunmalı idi. Azərbaycan Xalq Cümhuriyyəti Ermənistanın Dağlıq Qarabağa və bir sıra ərazilərə aid iddialarından əl çəkəcəyi şərtinə uyğun olaraq, 1918-ci il mayın 29-da İrəvanı Ermənistana güzəştə gedir.

Lakin ermənilər əsassız ərazi iddiaları ilə bağlı gizli fəaliyyətlərini davam etdirirdilər. Növbəti dəfə AXC süquta uğradıqdan sonra, sovet rejiminin artan təyziqləri və erməni təxribatları nəticəsində 1921-ci ilin yayında Zəngəzurun bir hissəsi Ermənistana birləşdirildi. Beləliklə, bu proses “Otlaq və əkin sahəsi” adı altında 1930-cu ilədək intensivliklə davam etdi.

Daha sonra 1948-1953-cü və 1988-1989-cu illərdə Zəngəzurun böyük bir hissəsində yerli əhali kütləvi deportasiyaya məruz qaldı və öz

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 347-350**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 347-350**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

yurd-yuvalarından köçməyə məcbur edildi (Azerbaydzhanskaya Demokraticheskaya Respublika, 1918-1920).

Ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti növbəti dəfə 90-cı illərin əvvəllərində ciddi bir problemin – I Qarabağ müharibəsinin baş verməsinə səbəb oldu. Müharibə nəticəsində Azərbaycanın 1994-cü ilə qədər ərazilərinin 20 %-i işğal edilir və bu dövr ərzində BMT tərəfindən 822,853,874 və 884 saylı qətnamələr qəbul edilir. Atəşkəs elan olunduqdan sonra Azərbaycan danışıqlar masasında hərəkətə keçir və o dövrdə Azərbaycanın prezidenti Heydər Əliyev diplomatik müstəvidə Qarabağ problemini dünya dövlətlərinin diqqətinə çatdırır, eyni zamanda məsələyə düzgün hüquqi qiymət verilməsini irəli sürür. 1995-ci ildən ATƏT-in Minsk qrupu münaqişənin həllinə cəlb olunur və öncə "Paket variantı", bir müddət sonra isə "Ümumi dövlət" konsep-siyası adlı təklif irəli sürülür. Dəfələrlə iki tərəf arasında danışıqlar aparılır və nəticəsiz qalır. Növbəti dəfə 2004-cü ildə Qarabağ danışıqları fonunda Minsk üçlüsünün təşəbbüsü ilə "Praqa prosesi" başlanır, lakin irəliləyiş qeydə alınmır (2).

Qarabağ münaqişəsinin həllinə dair BMT və Azərbaycanla güclü diplomatik əlaqəyə malik bir sıra ölkələr bəyanatlar səsləndirsələr də, dəyişiklik baş vermir. O cümlədən ara-sıra sərhəddə toqquşmalar baş verir və dərhal danışıqlar yolu ilə atəşkəs elan olunurdu.

Son vaxtlarda, xüsusilə 2019-cu ildə Münhendə baş tutan Təhlükəsizlik Konfransındakı panel müzakirələr zamanı Azərbaycan-Ermənistan münaqişəsinə həsr olunmuş debatda İlham Əliyevin Paşinyan üzərindəki qələbəsi, o cümlədən 15 fevral 2020-ci ildə Soçidə keçirilən "Valday" diskussiya klubunun iclasında Qarabağın işğaldan azad ediləcəyi mesajını verməsi, tezliklə məsələnin danışıqlar masa-sında deyil, məhz döyüş meydanında həll olacağına işarə edirdi. Çox keçmədən Qarabağ məsələsi öz həllini tapdı və 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən Vətən müharibəsi zamanı Şanlı Azərbaycan Ordusu "Dəmir Yumruq" əməliyyatını həyata keçirərək, torpaqlarımızı azad etdi və Qarabağ probleminə son qoydu. Həmin ilin 10 noyabrında Rusiya vasitəçiliyi ilə tərəflər arasında bəyanat imzalandı. Daha sonra 2021-ci il noyabr və 2022-ci ilin sentyabr aylarında Zəngəzur ərazisində tərəflər arasında qısamüddətli döyüşlər baş vermişdir. Nə-hayət, 2023-cü ildə növbəti dəfə Dağlıq Qarabağda düşmən təxribatına cavab olaraq keçirilən lokal xarakterli antiterror əməliyyatlarından

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

sonra Azərbaycan öz ərazi bütövlüyünü tam təmin etmiş oldu (Həsənli, 1918-1920; 4; 5).

Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycan və Ermənistan arasında işçi qrupları təsis edildi və 2021-ci il yanvarın 30-dan fəaliyyətə başladı. Keçirilən görüşlərdə iki ölkə arasında görüləcək işlər müzakirə olundu. Sülh sazişinin imzalanacağı bir dönəmdə Azərbaycan üçün ötən əsrdə ermənilərə güzəştə gedilmiş Zəngəzurun və digər itirilmiş ərazilərin geri qaytarılması, o cümlədən Qərbi Azərbaycandan olan soydaşlarımızın öz ata-baba torpaqlarına geri qayıtması ilə bağlı əlverişli şərait yaranmışdır. Bunun üçün mütləq şəkildə sərhədlərin delimitasiyası lazım idi (6).

Elə problem də burada ortaya çıxırdı ki, sərhədlərin delimitasiyası neçənci illərin xəritələrinə uyğun aparılmalı idi. Ermənistan danışıqlar masasında 2 xəritə üzərində dayanırdı: 1) 1926-1929-cu illərin xəritəsi, 2) 1975-ci ilin xəritəsi. Hər iki xəritədəki coğrafi göstəricilər 1973-ci ildən 1988-ci ilə qədərki dövrü əhatə edir, yəni həmin xəritələrdə Zəngəzurun Ermənistanın ərazi vahidinə aid olması öz əksini tapırdı (7).

2023-cü ildə aparılan diplomatik danışıqlarda Ermənistan əvvəlcə 20-ci illərin xəritəsi, daha sonra isə 70-ci illərin xəritəsini əsas tutmuşdur. Ermənilər tərəfindən sonradan Azərbaycanla bu məsələdə razılıq əldə olunmasına dair şaiələr də yayılmışdı. Ermənistanı ən narahat edən səbəb Azərbaycanın öz tarixi sərhədlərini bərpa edəcəyi idi, buna görə də delimitasiya və demorkasiya prosesini bacardığı qədər ləngidirdi. Azərbaycan tərəfi Zəngəzur məsələsində qətiyytlə 1918, 1920-ci il və ondan əvvəlki illərin xəritələrinə baxılmasını tələb edir. Azərbaycan dövlətinin məsələyə bu cür dəqiq yanaşması artıq danışıqlar masasında Zəngəzurun gələcək müqəddəratı ilə bağlı həlledici mərhələdə olduğumuzu göstərir. Bu həm də Azərbaycan diplomatiyasının uğurudur! (8)

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

## Ədəbiyyat

1. Azerbaydzhanskaya Demokraticheskaya Respublika (1918-1920).
2. Azerbaydzhanskaya Demokraticheskaya Respublika. Dokumenty i materialy (1918-1920 gg.). Baku.
3. Həsənli, C. (1918-1920). Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Bakı.
4. Rasizade, A. Azerbaijan's Chances in the Karabakh Conflict.
5. https://azertag.az/
6. http://mfa.gov.az/
7. https://president.az/
8. http://www.e-qanun.az/

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 351-353**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 351-353**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nəzrin Allahverdiyeva**
Bakı Dövlət Universiteti
nesrinayaz036@gmail.com

# ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏSİNİN TARİXİ ABİDƏLƏRİ VƏ ONLARIN MÜASİR DÖVR ÜÇÜN ƏHƏMİYYƏTİ MƏSƏLƏSİ

***Açar sözlər:*** *Şərqi Zəngəzur, tarixi abidələr, erməni vandalizmi*
***Keywords:*** *Eastern Zangazur, historical monuments, Armenian vandalism*

Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Zəngəzur torpağı, öz zəngin mədəniyyət tarixi ilə Azərbaycanın memarlıq həyatında dərin izlər buraxmışdır. Bu izlər ki, bu gün mənfur düşmənlərimiz tərəfindən dəyişidirilməyə, təhrif edilməyə, saxtalaşdırılmağa çalışılır. Bu torpaqların bizim olduğunu sübut edən ən dəyərli mənbələrdən biri də məhz onun tarixi-mədəni abidələridir.

Öncəliklə qeyd edək ki, tarixi əhəmiyyət daşıyan bu bölgəmizin mədəniyyət abidələrinin öyrənilməsini iki istiqamətdə (Şərqi və Qərbi Zəngəzur kimi) öyrənmək mümkündür. Ümumiyyətlə, Zəngəzur ərazisinə nəzər salsaq, burada bir sıra incəlikləri ilə seçilən türbələr, saraylar, körpülər, xatirə muzeyləri, alban memarlığını özündə əks etdirən məbədlər, məscidlər və s. kimi mədəni abidələrimiz yer almaqdadır ki, onların hər biri bu dövrümüz üçün də tarixi əhəmiyyət kəsb edir (Səfərəliyeva, 2016: 647).

XX əsrin sonlarında, Sovet İttifaqının dağılması ərəfəsində, Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları ilə amansız müharibə başlatması Qarabağ və Şərqi Zəngəzur bölgələrindəki bütün abidələrin tamamilə Azərbaycanın nəzarətindən çıxmasına səbəb oldu. Qarabağın, eyni zamanda Şərqi Zəngəzurun maddi mədəniyyət abidələrinin taleyi ciddi təhlükə altına düşdü. Qarabağ və Zəngəzur ərazilərini işğal edən ermənilər buradakı tarixi-mədəniyyət abidələrini erməniləşdirmək üçün fürsət əldə etdilər (Paşayeva, 2022: 7). Onların saxtalaşdırılmağa cəhd edilməsi isə Azərbaycan xalqını hiddətləndirən amildir. Məqalənin yazılmasında məqsəd, Zəngəzurun şərq bölgəsində yerləşən tarixi abidələrimizlə hər kəsi tanış etmək, onların bizim mədəni irsimizin nümunəsi olduğunu dünyaya çatdırmaqdır.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 351-353**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 351-353**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Belə ki, bu abidələrimizin sırasında: Ağoğlan məbədi, Dəmirçilər kəndindəki türbələr, Dondarlı məscidi, Laləzar körpüsü, Həmzə Sultan sarayı, Cicimli türbələri, Məmmədbəyli türbəsi, Sarı Aşığın Xatirə muzeyi və s. aiddir.

Bunlardan biri kimi Gəncəsər monastırı barədə ətraflı danışsaq, qeyd edə bilərik ki, bu tikili Kəlbəcər rayonunun Vəngli kəndində, Xaçınçayın sol sahilində yerləşir. Abidə işğal dövründə ciddi dağıntılara məruz qalmışdır. Abidənin saxtalaşdırılmasına çalışması ilə bağlı M.Paşayeva əsərində qeyd edərək bildirir: "Daxili interyeri və fasadları üzərindəki yazılar və bədii nümunələr silinərək, müxtəlif heyvan fiqurları və erməni dilində yazılarla əvəz edilmişdir" (Paşayeva, 2022: 14-15).

Bundan əlavə yuxarıda qeyd etdiyimiz abidələrdən biri kimi Sarı Aşığın Xatirə muzeyi barədə deyilənlərə keçmədən öncə nəzərə almalıyıq ki, Sarı Aşıq dövrünün görkəmli şəxsiyyətlərindən biri olmuş, Qaradağlı kəndində dünyaya göz açmış, yaşamış və Qaradağlı kəndinin yaxınlığında, hazırkı Güləbird kəndinin ərazisində dəfn olunmuşdur. Onun qəbir abidəsi ilə bağlı məlumatlar H.Nərimanoğlu tərəfindən qeyd edilir: "Arxeoloqlar 1927-ci ildə qəbri açaraq onun, həqiqətən, XVII əsrdə yaşadığını sübut etmişlər. Məzarı üzərində abidə-muzeyi yaradılmışdı" (Nərimanoğlu, 2019: 41).

Abidələrimizin qorunması ilə bağlı addımlar XX əsrin sonlarından etibarən güclü səviyyədə bu işə yanaşılmışdır. Bu fəaliyyət isə məhz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə əlaqədardır.

H.Əliyevin hakimiyyətə gəlməsindən sonra bölgələrimizdə yerləşən tarixi abidələrimizin bərpası onların tarixinin öyrənilməsi və dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm işlər həyata keçirilmişdir. Bunlardan ən əsası isə G.Səfərəliyevanın da qeyd etdiyi kimi: "Bu böyük şəxsiyyət tarixi abidələrimizə laqeyd münasibətin qarşısını almaq məqsədilə 10 aprel 1998-ci ildə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanun və həmin qanunun tədbiq edilməsi barədə Fərman (13 iyun 1998) imzaladı. 8 fəsildən ibarət olan bu Qanunda tarix və mədəniyyət abidələrinin təsnifatı, qorunub mühafizə edilməsi və beynəlxalq hüquqi aktlar öz əksini tapmışdır" (Səfərəliyeva, 2009: 14).

Şərqi Zəngəzur torpaqlarında yerləşən bu abidələrin dövrümüz üçün əhəmiyyəti sadəcə bunlarla bitmir. İkinci Qarabağ müharibəsindən

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

sonra işğaldan azad edilmiş bir çox bölgələrimizdə bu abidələrin öyrənilməsi davam edir. Bununla yanaşı müəyyən yenidənqurma işləri də aparılır. Yenidənqurma və bərpa işləri zamanı tarixi abidələrimizin orjinallığının qorunmasına isə xüsusi önəm verilir. Hansı ki bu da çox əhəmiyyətli bir faktordur.

Sonda isə onu qeyd etmək istərdim ki, bizlər, təkcə Zəngəzurda yerləşən maddi-mədəni irsimizi öyrənməklə kifayətlənməli deyil, bütün tarixi əhəmiyyətli abidələrimizi tədqiq etməli, reallıqları dünyaya çatdırmağa çalışmalıyıq.

## Ədəbiyyat

1. Səfərəliyeva, G. (2016). Azərbaycanın tarixi abidələri və toponimləri. Bakı: Zərdabi nəşr, 647 s.
2. Paşayeva, M. (2022). Qarabağın və Şərqi Zəngəzurun Alban abidələri. Bakı: Mütərcim, 200 s.
3. Nərimanoğlu, H. (2019). Zəngəzur 100 sual – 100 cavab. Bakı: "QHT Nəşriyyatı" MMC, 185 s.
4. Səfərəliyeva, G. (2009). Tarixin daş yaddaşı. Bakı: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanasının mətbəəsi, 67 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 354-356**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 354-356**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Ramilə Mustafayeva**
Bakı şəhəri 9 nömrəli
xüsusi internat məktəbi
ramile.mustafayeva@gmail.com

# "MƏN TÜRKƏM. TÜRK ÖLƏR, ANCAQ ERMƏNİ DIĞASININ QILINCININ ALTINDAN KEÇMƏZ". YUSİF AĞA HACI AĞA OĞLU DADAŞOV (XEYRİYYƏÇİ)

***Açar sözlər:*** *Zəngəzur, soyqırımı, faciə, erməni qırğınları, tarixi mənbələr*

***Keywords:*** *Zangazur, genocide, tragedy, armenian massacres, historical sources*

Rusiya imperiyasının "parçala, hökmranlıq et" prinsipi ilə xalqları müstəmləkə əsarətində saxlaması sizə məlumdur. Vətənimizə köçürülən, ən əlverişli torpaqlarda məskunlaşan ermənilər gec-tez Rusiya hökumətinə "təşəkkür"ünü nümayiş etdirməli idilər. 1905-1906-cı illərdə Azərbaycanda törədilən milli qırğında daşnaklar aysberqin görünən tərəfi idi. İblis libasına girmiş çar və onun Cənubi Qafqazdakı yüksək rütbəli məmurları qırğına rəvac verirdilər. Milli qırğında çarizmin riyakarlığını ifşa edən "Molla Nəsrəddin" jurnalı yazırdı: "Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla olurlar ki, təbiblər onların çölə çıxmasını rəva görmürlər". Beləliklə 1905-ci il fevralın 6-da Bakıdan başlayan qırğın tezliklə Azərbaycanın başqa bölgələrinə də yayıldı. Onlar Naxçıvanda, Zəngəzurda, İrəvanda, Tiflisdə, Gəncədə, Qazaxda, Qarabağda vəhşiliklər törətdilər.

Bakıda dərc olunan "Kaspi" və "Həyat" qəzetlərində XX əsrin əvvəlində Cənubi Qafqazda baş verən hadisələr öz əksini tapmışdır. Erməni dilində çap olunan qəzetlərin əksəriyyəti milli ədavəti qızışdırır, erməniləri türklərə qarşı qanlı toqquşmalara təhrik edirdilər. 1905-1906-cı illərdə baş vermiş hadisələrin bilavasitə şahidi olmuş müəllif-lərin əsərləri həmin dövr tarixşünaslığı üçün mühüm mənbə hesab olunur. Məmməd Səid Ordubadinin "Qanlı illər" və Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərləri tari-xi gerçəkliyin düzgün dərk edilməsi baxımından mühüm əhəmiyyət

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

kəsb edir (1). Zəngəzur qəzasında ilk qırğınları ermənilər 1905-ci ilin iyun ayında Naxçıvan qəzası ilə həmsərhəd olan iki kənddə törətmişdilər. Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan sənədlərin birində Sisyan kəndində törədilən qırğınlardan bəhs edilir. Ermənilər 1905-ci il avqustun 16-da Gorusdan Qarakilsəyə qayıdan dörd ermənini Ağudi və Vağudi kəndlərinin sərhədində qətlə yetirmiş, bu cinayətin səbəbkarı kimi bizi göstərmişdilər. 1905-ci il sentyabrın 22-də Xoznavar və Xnaçax erməniləri ətraf kəndlərdən gələn silahlı dəstələrin köməyi ilə azərbaycanlı kəndlərinə hücum edərək Bayandur, Hələk, Kosalar, Malıbəyli, Cağacur, Çaylı, Kalavalax, Novruzlu kəndlərini dağıtmışdılar (2). 1905-ci il dekabrın 17-də erməni silahlı dəstələri Böyük Cicimli və Kiçik Cicimli kəndlərinə hücum etmiş, Kiçik Cicimli tamamilə darmadağın edilmiş, Böyük Cicimli kəndinin əhalisi qaçmağa müvəffəq olsa da, evləri qarət edilmişdi.

1906-cı ilin fevral ayında Tiflisdə Qafqaz canişini Vorontsov-Daşkovun təşəbbüsü ilə erməni-müsəlman qırğınlarına son qoymaq məqsədilə sülh danışıqları keçirilmişdir. Həmin danışıqlarda müsəlman nümayəndələri Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Adil xan Ziyadxanov və başqaları "Daşnaksutyun" partiyasının niyyətlərini ifşa etmiş, onun Cənubi Qafqazda törədilən qırğınların, terrorçuluğun təşkilatçısı və icraçısı olduğunu göstərmiş, rəsmi hökumət dairələrinin bu təşkilatın əməllərinə göz yumduğunu sübuta yetirmişdilər. Lakin sülh danışıqlarının keçirilməsindən bir qədər sonra erməni silahlı dəstələri yenidən qırğınlara başlamışdılar.

1906-cı il iyulun 29-da Mirzə Aram bəyin göstərişi ilə ermənilər Zəngəzur qəzasının Mədən bazarında Səfyar bəyi qətlə yetirir, sonra isə Karxana kəndinə hücum edirlər. Elə həmin gün ermənilər Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərini dağıdırlar. Avqustun 1-də ermənilər Qatar kəndinə hücum edirlər. 9 gün qatarlılar kəndi müdafiə edirlər. Saxarov adlı rus pristavı kənddə baş verən hadisələri kənardan izləmiş, lakin onun tərəfindən heç bir tədbir görülməmişdir (Ordubadi, 2007: 98). 1906-cı ilin avqust-sentyabr aylarında erməni silahlı dəstələri Zəngəzurun Oxçu-Şəbadək, Saqqarsu, Atqız, Purdavud kəndlərini viran qoyurlar. Erməni müəllifləri A-Do və Stepan Zavaryanın verdiyi məlumata görə, Zəngəzur qəzasında 43 müsəlman kəndi dağıdılmışdır. Ermənilər öz xislətlərinə uyğun olaraq azərbaycanlıların etibarından, mərhəmətli və sözə inanan olmalarından məharətlə istifadə edirdilər.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Onlar danışıqlara girərək bir kəndin sakinləri ilə sülh bağlayır, digər kənddə isə qırğın törədirdilər. Hər dəfə qırğına başlayan ermənilər daha böyük itkilər verməyə məcbur edilirdilər. 1905-1906-cı illərdə çarizmin Azərbaycanda törətdiyi milli qırğın bununla bitmir. Sonrakı tarixi dövrlərdə xalqın imperiya əsarətinə qarşı mili-azadlıq hərəkatı coşduqda bu tədbirə təkrar olaraq əl atılmışdı. Hər dəfə də imperiya himayədarlarının işarəsi ilə ermənilər azərbaycanlıların qanına susamış və qətl-qarətlər törətmişdilər. Azərbaycan əsrlər boyu mənfur düşmən üçün yağlı tikə kimi görünsə də, igid oğullarımız sayəsində çox vaxt bu tikə onların boğazlarında qaldı. Dəfələrlə ərazi bütövlüyümüzü pozmağa, qürurumuzu sındırmağa, bir dövlət kimi tarix səhnəsindən silməyə çalışdılar. Lakin kökü, tarixi olan bir dövləti, bir xalqı tarixdən silməyə çalışmaq ağılsızlıqdan başqa bir şey deyildir. Biz tarixin bütün sınaqlarından alnıaçıq, üzüağ çıxmağı bacardıq. Bəzən büdrədik, bəzən yıxıldıq, lakin ayağa qalxıb yolumuza davam etməyi də bacardıq.

## Ədəbiyyat

1. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_mart2009/73453.htm
2. https://genocide.preslib.az/az_a1-1.html
3. Ordubadi, M.S. (2007). Qanlı illər. Bakı, 98 s.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 357-358
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 357-358
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Kənan Bəşirov**
Odlar Yurdu Universiteti
magistrant
kbesirov6@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *strateji, region, vilayət, mübahisə, əhəmiyyət*
***Keywords:*** *strategic, region, province, dispute, importance*

Zəngəzur, digər adı ilə Zəngəzur dəhlizi, Cənubi Qafqaz regionunda dar bir torpaq zolağına aid coğrafi termindir. Coğrafi baxımdan qərbdə Zəngəzur dağları ilə, şərqdə Dağlıq Qarabağ arasında yerləşən, siyasi cəhətdən Ermənistanın Sünik Mərz və Azərbaycanın Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edən tarixi rayondur. O, Azərbaycan Respublikasını Naxçıvan Muxtar Respublikası ilə birləşdirir. Dəhliz, əsasən, Ermənistanın Sünik vilayətində yerləşən Zəngəzur dağ silsiləsindən keçir. Tarixən bu ərazi coğrafiyasına və müxtəlif regionlar arasında kommunikasiya və ticarətin asanlaşdırılmasındakı roluna görə strateji əhəmiyyətə malik olmuşdur. Sovet İttifaqının dağılması və sonradan Qafqazda baş verən münaqişələrlə Zəngəzur dəhlizi siyasi mübahisə predmetinə çevrildi.

1065-ci ildə Böyük Səlcuq İmperiyasının hökmdarı Alp Arslan Qafan şəhərini tutaraq Sünik knyazlığının mövcudluğuna son qoydu. Səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunun genişləndirilməsinə və bu yerlərdə çox sayda türksoylu tayfaların məskunlaşmasına səbəb olmuşdur.

Səfəvi dövlətlərinin hakimiyyəti altına düşdü. 1420-ci ildə Ərzurumda Ağqoyunlu hökmdarı Qara Osmanı məğlub edib Naxçıvan və Zəngəzur ellərini soyurqal alan Qara İsgəndər, çoxlu sayda erməni ailəsini Ararat və Sünikə köçürdüb yerləşdirmişdir. Zəngəzur Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. 1920-ci il 28 apreldə Azərbaycanda sovet

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

hakimiyyətinin qurulmasından sonra Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu. 1920-ci il noyabrın 30-da Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi. 1988-ci ildə təkcə Zəngəzurda deyil, indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, ermənilər yüzlərlə tarixi, maddi-mədəniyyət abidələrini dağıdaraq məhv etmişdir.

2020-ci ildə Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ regionu ilə bağlı münaqişəyə son qoyulan atəşkəs razılaşması əldə olunub. Bu saziş çərçivəsində Ermənistan öz ərazisindən Azərbaycanı Naxçıvanla birləşdirən dəhliz açmağa razılıq verdi. Dəhliz faktiki olaraq Azərbaycanın Naxçıvana birbaşa çıxışını təmin edir. Zəngəzur dəhlizinin yaradılması regional geosiyasət və nəqliyyat marşrutları üçün əhəmiyyətli təsirlərə malikdir və potensial olaraq Azərbaycan və Naxçıvan, eləcə də Azərbaycanın yaxın müttəfiqi olan Türkiyə ilə daha geniş iqtisadi inteqrasiyanı təşviq edir. Lakin bu vəziyyət həm də Ermənistanın suverenliyi və təhlükəsizliyi ilə bağlı narahatlıqları və çətinlikləri artırır, çünki bu, ərazisinin bir hissəsinin nəzarətdən çıxarılması ilə nəticələnir. Dəhlizin açılması ilə bağlı bölgədəki qonşu dövlətlərdən və beynəlxalq ictimaiyyətdən müxtəlif reaksiyalar oldu. Bu reaksiyalar regionda sabitliyin təmin edilməsi və problemlərin həlli səylərinə təsir edir. Zəngəzur dəhlizinin açılması regionda iqtisadi və geosiyasi tarazlığa təsir edəcək müxtəlif nəticələrlə nəticələnib. Zəngəzur dəhlizi Cənubi Qafqazın geosiyasi və iqtisadi dinamikasına əhəmiyyətli dərəcədə təsir edən amildir. Bu dəhlizin açılması regionda siyasi və iqtisadi tarazlıqları yenidən formalaşdıracaq və uzunmüddətli sülh və sabitlik üçün imkan yaradacaq.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 359-362**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 359-362**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Shahriyar Samandarov**
Azerbaijan Tourism and Management University
master student
wehriyar2533@gmail.com

# ROOTS OF ZANGAZUR CONFLICT

***Keywords:*** *Zangazur, Azerbaijan, corridor, Meghri*
***Açar sözlər:*** *Zəngəzur, Azərbaycan, koridor, Mehri*

Historical records show that Zangazur was an ancient Turkic settlement and is found in the writings of various explorers. The abundance of Turkish-language toponymic names here is also illustrated. In the 18th century, much of the territory of Zangazur mahal (which was the administrative Teritorial Unit) was part of the Karabakh khanate, and part of the Nakhchivan and Iravan khanates.

Turkmenchay treaty was the first main point, that Zangazur problem had erupted. 15th article states that,As for immovable property, a five-year period is established for its arbitrary disposition and its sale, but extepmtion doesn't apply to person who have commited a crime before the expiration of the said period. Namely based on this article, 10 thousand armenian families were fransfered from the territory of Iran to the territory of Northern Azerbaijan, especially Irevan, Nakchivan, Karabakh regions. Due to this resettlement, there were many demographic changes in Vestern part of Azerbaijan and of course in Zangazur and the foundation of future events was laid (1; 2).

In the XX century, there were 240 Azerbaijanis (Turks) mahals in the Zangazur region, and three times less than that number of Armenians villages. Mahal (neighbourhood) consisted of 7 regions: Qafan, Gorus, Qarakilsa (Sisian), Mehri, Zangilan, Qubadlı, Laçın. During Tsarist Russia, Zangazur district was under the rule of Yelizavetpol goubernia (administrative body).

In 1917 after the "February Revolution" in Russia, a mixed committee of Armenian-Azerbaijanis was established in Zangazur, and ruled from Gorus. The main purpose of the establishment of this committe was to create outonomy within the Russian Federative

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Democratic Republic. However, the civil war that started in the country after the October revolution also affected Zangazur province. In Zangazur committee, a large number of Armenians formed a separate committee in Gorus apart from the Azerbaijanis. Azerbaijanis left Gorus at the end of that year and settled in Dondarlı village of Qubadlı district, where they formalised their national committee (2).

In the 1918-1920th years, together with Shusha, Javanshir, Jabrayil districts Zangazur as a territory of the Azerbaijan Democratic Republic entered Karabakh Governorate-General. On April 28, 1920 After the collapse of ADR directly military agression, Zangazur became the administrative region as a part of Azerbaijan. As a result of 1905-1907 and 1914-1920 massacres about half a million Azerbaijanis were killed by armenian murders. In that years, 115 muslim villages wiped out in Zangazur (Rəhimoğlu, 1997: 266).

Deportations and ressetlements have changed the ethnic composition of Zangazur and it's regions. It becomes clear from Armenian statistics, that inhabitants of Mehri district were mainly Azerbaijani turks.

In 1831-1143 people, in 1897-5765 inhabitants, as a result of the deportation of 1915 our compatriots were exiled from their ancestral lands.6 years later our compatriots came back their homeland. However, 1988-1989 deportation resulted in Azerbaijanis leaving Mehri district.

In the statistics of 1916-1970 the number of Azerbaijanis in Mehri is as follows (Rəhimoğlu, 1997: 43). In 1916-11.185 people, in 1926-1201 people, in 1931- 2334, and 1970-3852 people. Azerbaijanis mainly lived in these villages: Banovshabusht, Bughakar, Vartanizor (Lok), Vahravar, Aldara, Amrakar, Akarak coper mines, Aynazur (Yernazor), Lehvaz, Maral zami (second Vartanizor), Mulk, Nuvadi, Tey, Tagamir copper mines (Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, 1995: 170-176).

Armenia's Sovietization provided more trump cards to Bolshevik Russia so they might increase exertion on Azerbaijan. During their meeting on November 30, the Politburo and the Organizing Bureau of the Central Committee of the Communist Party of Azerbaijan talked about matters concerning their country's relations with Armenia. It was determined by the participants "to point out that Soviet Armenia and

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Soviet Azerbaijan have absolutely no borders." Specifically, it was decided that "Zangazur would go to Armenia". In addition, it was anticipated that Soviet Azerbaijan would forge "an inseparable military and economic alliance with Soviet Armenia (with a particular reference to oil)" and that the People's Commissariat of the Navy would put a stop to hostilities on the front lines with Armenia (5).

So, On November 30, 1920, the Political and Organizational Bureaus of the Central Committee of the Communist Party of Azerbaijan met jointly and decided to transfer Zangezur to Armenia. Gafan, Gorus, Garakilsa (Sisian), and Mehri areas were established in 1933, when the Armenian SSR's territory was divided into regions and the name Zangezur was officially deleted from the record. In 1988, Azerbaijanis who had been living in the ancient Azerbaijani areas that were part of modern-day Armenia were finally driven from their ancestral homes, not only in Zangezur but also in Goycha, Darelaez, Yerevan, and Vedi. Hundreds of historical, material, and cultural relics were destroyed when the last Azerbaijani representatives – who had been targeted by mass terrorism – were forced to evacuate Zangezur (6).

The Zangazur Corridor became a crucial part of the regional environment after the Russia-Ukraine conflict and the reevaluation of transportation routes that followed. This corridor, which is ideally located within Azerbaijan's freed territory, is a lighthouse for promoting regional development and increased connection throughout the South Caucasus.

Discussions on this corridor highlight its potential importance in strengthening trade relations, fostering economic ties, and altering the geopolitical dynamics of the surrounding countries. An unparalleled chance to transform trade networks, reconcile regional boundaries, and promote all-encompassing economic development is presented by the projected Zangazur Corridor. Furthermore, the strategic placement of this corridor represents possible cooperation and mutual prosperity among the participating states in addition to acting as a physical link (7).

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 359-362**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 359-362**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

## References

1. Treaty of Turkmenchay.pdf (mfa.gov.az) 02.02.2024.
2. № 374.pdf (bsu.edu.az)
3. Rəhimoğlu, H. (1997). Silinməz adlar – sağalmaz yaralar. Bakı: Azərnəşr, 266 s.
4. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. (1995). Bakı, s.170-176.
5. Records on The Transfer of Western Zangazur to Armenia (researchgate.net).
6. Azərbaycanın tarixi torpaqları və mədəni irsimiz: Göyçə, Zəngəzur, İrəvan. İki sahil (ikisahil.az). 02.02.2024.
7. The geopolitical implication of the Zangazur corridor: a driver for regional advancement and linkage M. Gulahmadov, N. Hajiyeva (researchgate.net). 04.02.2024.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 363-374**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 363-374**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**İlkin İbrahimov**
Bakı Dövlət Universiteti
magistrant
ilkin.ibrahim1038@gmail.com

# TÜRKİYƏ MARAQLARI BAXIMINDAN ZƏNGƏZUR DƏHLİZİNİN ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *Zəngəzur, Türkiyə, Azərbaycan, İran, Rusiya, Erməni lobbisi*
***Keywords:*** *Zangazur, Turkey, Azerbaijan, Iran, Russia, Armenian lobby*

Zəngəzur coğrafi cəhətdən Azərbaycan və Ermənistan arasında yarıya bölünmüş dağlıq ərazidir. İnzibati ərazi bölgüsünə görə, Şərqi Zəngəzurun ərazisi Azərbaycanın Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını və Qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Mehri rayonlarının ərazilərini əhatə edir (1). Regionun Azərbaycanın Naxçıvanla, Ermənistanın isə İranla yeganə quru əlaqə vasitəsi olması hər iki tərəf üçün həyati əhəmiyyət kəsb edir. Zəngəzur həm də Türkiyənin Xəzər dənizi vasitəsilə ilə digər Orta Asiya ölkələri arasında ən qısa əlaqə nöqtəsini təşkil edir. SSRİ-nin ilk dövrlərində Azərbaycanın bu torpaqları "qardaş xalqlar" adı ilə Ermənistana verilmişdir (Qurut, Yusubzadə, 2022: 467). Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsi 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi Zəngəzur qəzasına bölündü. Nəticədə, Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

1988-ci ildə təkcə Zəngəzurda deyil, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə – indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

Zəngəzur dəhlizi müzakirələri 27 sentyabr 2020-ci ildə Azərbaycan və Ermənistan arasında başlayan və 10 noyabr 2020-ci ildə başa çatan İkinci Qarabağ müharibəsi ilə aktuallaşıb. Azərbaycanın tarixi Şuşa şəhərini işğaldan azad etdiyi və müharibənin gedişatının mütləq Azərbaycanın qələbəsi ilə başa çatacağı məlum olanda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin öz təsirini ortaya qoyaraq Azərbaycan və Ermənistanın dövlət və hökumət başçılarını bir araya gətirdi. 2020-ci il noyabrın 9-da üçtərəfli atəşkəs sazişi imzalanıb. Bu müqavilənin 9-cu maddəsi Zəngəzur dəhlizi ilə bağlıdır. Atəşkəs sazişinin bu maddəsi Ermənistanla Azərbaycan arasında bağlanmış bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur (3). Odur ki Ermənistanın sərhədləri daxilində yerləşən Zəngəzur rayonunun Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında dəhliz təşkil edəcəyi bildirilir. Dəhliz müzakirələrini nəzərə alsaq, tərəflərin atəşkəs sazişinin 9-cu maddəsinə verdikləri mənalar bir-birindən fərqlənir. Lakin bu maddənin həyata keçirilməsinin regionun geosiyasətində ciddi dəyişikliklərə səbəb olacağı anlaşılır. Zəngəzur dəhlizi və onun ölkələrə görə strateji əhəmiyyəti maraq doğurduğu üçün bu yazıda ətraflı şəkildə araşdırılacaqdır (İzzətgil, 2002).

Türkiyə üçün Zəngəzur dəhlizi üç kontekstdə məna qazanır:

1. Türkiyə-Azərbaycan, Türkiyə-Ermənistan ikitərəfli əlaqələr.
2. Qafqaz, Orta Asiya ölkələri, İran və Rusiya kimi ölkələrlə çoxtərəfli əlaqələr.
3. Çindən Londona qədər nəqliyyat marşrutlarını fasiləsiz olaraq birləşdirərək qlobal xarakter daşıyacaqdır (İzzətgil, 2002: 497).

Türkiyə-Azərbaycan münasibətləri "bir millət, iki dövlət" ifadəsi ilə izah olunur. Bu ifadənin sadəcə liderlərin görüşündə istifadə olunan bəsit bir ifadə olmadığını, hər iki ölkənin ən çətin zamanda bir-birlərinə dəstək olması sübut edir (Əliyev, 2023). İki qardaş dövlət arasındakı bu mənəvi bağlılığa baxmayaraq, dövlətlərarası ziyarətlər və ya rəsmi səfərlər maneələrlə və başqa ölkələrin gömrük yolu ilə baş tutur. Məhz bu mənada Zəngəzur dəhlizi məsafələri qısaltmaq və maneələri aradan qaldırmaq imkanı verəcək. Bu həm də ona görə vacibdir ki, sıx əhalisi olan, sənaye və istehlakı yüksək olan Türkiyə və enerji ehtiyatları ilə

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

zəngin olan Azərbaycanın qüvvələrini birləşdirməyə imkan verəcək. Zəngəzur dəhlizi heç bir ölkədən razılığa ehtiyac olmadan dövlətlərarası layihələrin həyata keçirilməsinə zəmin yaratmaq baxımından və hər iki ölkəni daha da gücləndirəcəyi üçün arzuolunan layihə hesab olunur. Bu iki ölkənin yaxınlaşması və birbaşa nəqliyyat yolu ilə birləşməsi onların beynəlxalq siyasətdəki mövqelərinə də müsbət töhfə verə bilər (6).

Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsini təmin etmək üçün Türkiyə və Azərbaycanın 2021-ci il iyunun 15-də Azərbaycanın işğaldan azad edilmiş şəhərlərindən biri olan Şuşada imzaladıqları bəyannamədə deyilir: “Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər” (7).




**Zəngəzur dəhlizi**

Zəngəzur dəhlizi Türkiyə-Ermənistan münasibətlərini də yaxından maraqlandırır. 30 illik işğalın başa çatması və Qarabağ probleminin

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

böyük ölçüdə aradan qalxması ilə Cənubi Qafqazda yeni bir tarixi dövr başladı. Azərbaycanın qələbəsi ilə yekunlaşan İkinci Qarabağ müharibəsindən sonra, prezident R.T.Ərdoğan Türkiyə-Ermənistan münasibətlərində yeni səhifənin açıla biləcəyi mesajını verməyə başladı. O, 2021-ci il iyunun 16-da Milli Məclis binasındakı çıxışında Qafqazda sülh və əmin-amanlıqdan təkcə Azərbaycanın deyil, bütün region ölkələrinin və dünyanın, o cümlədən Ermənistanın faydalanacağını bildirib. Türkiyə ilə sərhədlərin açılmasının Ermənistana bir çox faydası olacağını bildirən Ərdoğan, “Ermənistan Azərbaycanla problemlərini həll etdikcə biz Türkiyə olaraq lazımi addımları atacağıq” demişdir (8).

Başda enerji və ticarət olmaqla bir çox sahədə ikitərəfli əməkdaşlığa zəmin yaradan bu proses Türkiyə-Ermənistan əlaqələrində də normallaşma prosesini başlatdı. Xüsusilə Qarabağ münaqişəsi səbəbindən uzun illər bağlı qalan Türkiyə-Ermənistan sərhədinin açılması məsələsi gündəmə gəlməyə başlayıb. İki ölkə arasında daha əvvəl də Futbol Diplomatiyası (9), Sürix protokolları (10) kimi bir çox normallaşma addımları atılsa da, heç bir nəticə əldə edilməmişdi.

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi səbəbindən 1993-cü ildə Türkiyə-Ermənistan sərhəddi bağlanmış və bununla, Ermənistan blokada vəziyyətinə düşmüşdür. Ən böyük dəstəkçisi olan Rusiya ilə də birbaşa əlaqəsinin olmaması, ölkəni həm iqtisadi, həm də siyasi baxımdan çətin vəziyyətə salırdı. Müharibədən sonra irəli sürülən Zəngəzur dəhlizinin açılması layihəsi ilə Rusiya-İrəvan dəmir yolu və quru nəqliyyatı təmin ediləcək. Eyni şəkildə, Ermənistan-Türkiyə sərhədi açılacaq, Naxçıvan vasitəsilə quru və dəmir yolu nəqliyyatı fəaliyyətə başlayacaq. Hazırda Ermənistan Gürcüstan vasitəsilə Türkiyəyə çata bilər. Türkgözü sərhəd qapısı vasitəsilə Qars və İrəvan şəhərləri arasındakı məsafə 606 km, sərhədin açılması ilə “Əlican” sərhəd qapısı ilə bu məsafə 194,4 km olacaq, beləliklə, 411 km qısaldılacaq. Bu vəziyyət İğdırla İrəvan arasındakı məsafəni 680,8 km qısaldacaq. 1993-cü ildə Türkiyə-Ermənistan sərhədi bağlanana qədər 40 min ton yük və 140 min insan sərhədi keçib. Sərhədin açılacağı təqdirdə bu rəqəmin ən azı 10 dəfə artacağı təxmin edilir. Bu vəziyyət hər iki ölkənin iqtisadiyyatına birbaşa təsir edəcək (İzzətgil, 20024, 498).

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 363-374**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 363-374**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Azərbaycan-Ermənistan danışıqlarına paralel olaraq Türkiyə Ermənistanla danışıqlara nümayəndə təyin etməklə başladı. Bu barədə bəyanatı 2021-ci ilin dekabrın 20-də Türkiyənin xarici işlər naziri Mevlüt Çavuşoğlu çıxışında "Münasibətlərin normallaşması prosesinin başlanması üçün biz xüsusi nümayəndələr təyin etmişik. Onlar ən yaxın bir vaxtda danışıqlara başlayacaqlar" – dedi. Ankara Ermənistanla danışıqlara rəhbərlik üçün xüsusi nümayəndə kimi keçmiş təcrübəli diplomat, Türkiyənin ABŞ-dakı keçmiş səfiri Sərdar Kılıçı, Ermənistan tərəf isə vitse-spiker Ruben Rubinyanı təyin etdi (11). İki ölkənin xüsusi nümayəndələrinin Moskvadakı görüşündən sonra Ermənistanda türk mallarına tətbiq edilən embarqolar aradan qaldırılmağa başlandı. Bu addımdan sonra Ermənistanın "FlyOne" aviaşirkəti Ermənistanın İrəvan-İstanbul çarter reysləri üçün lazımi icazələri aldıqdan sonra ilk uçuşlar (12). İki dövlət arasındakı bu müsbət atmosfer 6 oktyabr 2022-ci ildə Çexiyanın paytaxtı Praqada keçirilən Avropa Siyasi Birliyinin (AST) sammitindəki görüş ilə daha da inkişaf etdi. Görüş R.T.Ərdoğan, N.Paşinyan, İ.Əliyev və xarici işlər nazirləri arasında baş tutdu. Bu görüş Türkiyə Ermənistan arasındakı ikitərəfli münasibətlərin inkişafı üçün mühüm addım kimi qiymətləndirilir. Görüşün səmimi keçdiyini bildirən R.T.Ərdoğan, "Bölgəmizdə tam normallaşma məqsədimizə, mehriban qonşuluq münasibətləri əsasında nail olacağımıza ürəkdən inanıram" dedi. R.T.Ərdoğanın daha sonra mətbuat konfransında "İnanıram ki, biz Ermənistanla tam normallaşma məqsədinə nail olacağıq" sözlərinə qarşılıq, erməni jurnalist ona Türkiyənin Ermənistanla münasibətlərinin normallaşması üçün ilkin şərtlərin olub-olmaması ilə bağlı sual ünvanlanmışdır. R.T.Ərdoğan Ermənistanla sərhədlərin açılması üçün Paşinyan hökümətinə heç bir şərtlərinin olmadığını və bunun Azərbaycanla bağlayacaqları sülh müqaviləsi ilə əldə ediləcəyini bildirib (13).

Paşinyanın ölkəni Qərblə yaxınlaşdırmaq siyasətinin uğuru məhz Türkiyə ilə münasibətlərin bərpasından asılıdır. Türkiyə üçün də arzuolunan bu hal iki icmanı bir-birinə daha da yaxınlaşdıracaq. Bu məsələ üzrə mütəxəsislər belə hesab edirlər ki, Türkiyə və Ermənistan münasibətlərinin yaxşılaşması erməni diasporunun Ermənistan dövlətinə və cəmiyyətinə olan güclü təzyiqini qıracaq. Nəticə etibarilə münasibətlərin yaxşılaşdırılması uzun illərdir ki, soyqırım iddiaları ilə bağlı Türkiyəni beynəlxalq arenada narahat edən təşəbbüslərin

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

səngiməsinə və "erməni soyqırımı" kimi xroniki problemlərin müzakirəsinə şərait yaradacaq (Çiçək, 2022: 5).

Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyən, Ermənistanı Qərblə yaxınlaşdırmağa çalışan Nikol Paşinyan administrasiyasının hakimiyyətdə qalması Türkiyə və Azərbaycanın siyasi maraqlarına uyğundur. Ermənistanla yaxşı münasibətlər və Ermənistanın Türkiyə vasitəsilə Avropa dövlətləri ilə əlaqələri Rusiyanın Ermənistandakı təzyiqini azaldacaqdır. Ermənistan qonşuları ilə münasibətlərini yaxşılaşdırdıqdan və özünü təhlükəsiz hiss edəndən sonra Rusiyanı öz ərazisindən sıxışdırıb çıxara bilər. Əks halda Rusiyanın nəzarətində olan dəhlizlərin o qədər də mənası olmayacaq.

Zəngəzur dəhlizi Türkiyə üçün regional sabitlik və maraqlar baxımından əhəmiyyətlidir. Qafqazda sabitliyin təmin edilməsi Türkiyənin xarici siyasətində mühüm yer tutur. Türkiyə həm qonşu Gürcüstanın etnik zəmində baş verən problemlərinə, həm də 30 ildir qardaş ölkə Azərbaycanın qanayan yarası olan Qarabağ məsələsinə konstruktiv təşəbbüslər irəli sürərək, bu ölkələrin ərazi bütövlüyünün tərəfdarı mövqe tutmuşdur. Türkiyə bu məsələrin həllinə Qafqaz sabitliyi çərçivəsindən baxmış və sülh yolu ilə həll olunmasına çalışmışdır. Çünki  Bunun üçün Türkiyə Qafqaz ölkələri ilə regionun üç ən böyük ölkəsi Türkiyə, Rusiya və İranı Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması, 3+3 kimi platforma ətrafında bir araya gətirməyə çalışmışdır (İzzətgil, 2002: 499). Qafqaz Türkiyə üçün Orta Asiyaya açılan qapıdır. Türkiyə Zəngəzur dəhlizi ilə Azərbaycanla digər Türk Cümhuriyyətləri arasında birbaşa quru və dəmir yolu nəqliyyatını təmin edə biləcəyini düşünür. Bu mənada Zəngəzur dəhlizi daha qısa və maneəsiz daşınmaları təmin edəcək.

Rusiyanın Zəngəzur dəhlizinə yanaşması özünəməxsusluğu ilə fərqlənir. 2020-ci ilin 10 noyabr tarixində imzalanan Üçtərəfli bəyannamə ilə Rusiya sülhməramlı qüvvə adı altında Azərbaycan ərazisinə daxil ola bildi. Laçın dəhlizini və Qarabağda ermənilərin yaşadığı bölgəni nəzarətə götürdü. Digər tərəfdən, Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasındakı nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhülkəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir (15). Yəni Rusiya yaranacaq Zəngəzur dəhlizini qoruyacaq. Rusiya burada mühüm nailiyyətlər əldə edərək Qafqazdakı mövcudluğunu təmin etdi.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Rusiya Ermənistan, Türkiyə və İran kimi ölkələrlə dəmir yolu, avtomobil yolu kimi nəqliyyat xətlərinin açılmasında çox maraqlıdır. Qafqazdakı siyasəti tənqid olunan Rusiya İkinci Dağlıq Qarabağ müharibəsi ilə Qafqazda öz xeyrinə yeni balans yaradıb. Politoloqlar və məsələnin mütəxəssislərinin fikirlərinə görə Zəngəzur dəhlizinin Rusiyanın maraqları ilə bu qədər üst-üstə düşməsinə baxmayaraq hələdə açılmasına razılıq verməməsinə səbəb Türk dövlətləri arasında yaranacaq birlik və Türkiyənin Qazqazda mövqeyinin və nüfuzunun artması qorxusudur.

İranın Qarabağ müharibəsi və Zəngəzur dəhlizinə münasibəti onun tarixi kodlarına uyğundur. Tarixən İranda qurulan dövlətlər Qafqaza qarşı ekspansionist siyasət yürütmüş, xüsusilə də Azərbaycan torpaqlarını öz nəzarətlərində saxlamaq istəyirdilər. İran İslam Dövləti də Azərbaycan üzərində nəzarətin qurulmasını vacib hesab edir. Azərbaycanın problemlərini həll etməsini, güclənməsini və bunun nəticəsində Cənubi Azərbaycana təzyiq edəcəyini düşünərək öz maraqları üçün Azərbaycanın yüksəlməsini istəmir. Sovet İttifaqı dağılanda baş vermiş Birinci Qarabağ müharibəsində İran özü kimi şiə əhalisi olan Azərbaycan əvəzinə Ermənistana dəstək olmuş və ikitərəfli münasibətlərin inkişafına böyük töhfə vermişdir (16). İkinci Qarabağ müharibəsində İran tərəfsiz olduğunu bəyan etsə də, ilk gündən Ermənistana maddi-texniki dəstək verməsi və Rusiyanın hərbi yardımının İran üzərindən Ermənistana daşınması ilə bağlı xəbərlər mətbuatda yer almışdır. Cənubi Azərbaycandakı həmvətənlərimiz İranın bu mövqeyinə qarşı mitinqlərlə reaksiya vermişdir (17). Bakı administrasiyası beynəlxalq hüquq normalarına uyğun olaraq Qarabağı xilas edə bildi. Azərbaycanın İkinci Qarabağ müharibəsində Türkiyənin dəstəyi ilə qalib gəlməsi İran tərəfindən mənfi hal kimi qiymətləndirilib. Zəngəzur dəhlizinin tamamilə İranın maraqlarına zidd olduğu açıq şəkildə ifadə edən iranlı ekspertlər dəhlizini İranın təsirini aradan qaldırmaq məqsədi daşıyan “Turan dəhlizi” layihəsi kimi qiymətləndirirlər.

İran hökümətinin Zəngəzur dəhlizinin açılmasına qarşı olmasının bir neçə səbəbləri var:

1) Zəngəzur dəhlizinin reallaşması ilə İran regional səviyyədə geosiyasi əhəmiyyəti azalacaq. Türkiyə ilə şimal və şimal-qərbində yerləşən türk respublikaları arasında birbaşa quru əlaqəsi yaranması,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Türkiyənin Asiya və Orta Asiya ilə əlaqəsini də təmin edəcəyi üçün İranın türk dünyasında geosiyasi əhəmiyyətini xeyli zəiflədəcək;

2) Türkmənistan və Qazaxıstanın enerji ehtiyatlarının Xəzər dənizinin dibi ilə Azərbaycana, oradan isə Türkiyə və Avropa bazarlarına nəqlini nəzərdə tutan layihələr gündəmdədir. Bu layihələr həmçinin İranı Türkmənistan qazının Azərbaycan və Türkiyəyə nəqli marşrutundan kənarlaşdırıb. Bütün bu səbəbləri nəzərə alsaq, Zəngəzur dəhlizinin açılması ilə Tehranın türk dünyasına təsiri xeyli azalacaq və İran regionda təkcə iqtisadi deyil, həm də siyasi üstünlüklərini itirə bilər;

3) Yenə də bu kontekstdə dəhlizin açılması ilə İranın Azərbaycanı Naxçıvana və Türkiyəyə bağlayan tranzit ölkə kimi xüsusiyyətini itirəcəyi və bu vəziyyətin İranı mühüm iqtisadi, coğrafi və geosiyasi üstünlüklərdən məhrum edəcəyi vurğulanır (18).

4) Zəngəzur dəhlizinin açılması ilə İran-Ermənistan sərhədinin yox olacağı arqumenti. Dəhlizin İran sərhədinə paralel tikiləcəyi üçün İranın faktiki olaraq Avropa ilə əlaqəsinin kəsiləcəyi, buna görə də İranın Avropaya çatmağın "ən təhlükəsiz" yolu olan Qafqazı itirəcəyi, Avropaya çatmaq üçün Türkiyə və Rusiyadan icazə almalı olacağı iddia edilir.

5) İranlı ekspertlərin tez-tez vurğuladığı məsələlərdən biri də Rusiya qüvvələrinin İran sərhəddində məskunlaşacağıdır, çünki bu dəhlizin təhlükəsizliyi Rusiya tərəfindən təmin olunacaq.

6) Türkiyənin Qazqazda mövqeyinin və nüfuzunun artması.

7) Bölgədə İsrail təsiririn artacağı təhlükəsi və s. (19).

Sadaladığım səbələrdən İran üçün ən ağırı dəhlizin açılması ilə İranın Avropaya ən etibarlı qapısı olan Ermənistan marşrutu təhlükə altında olacaq. Bu marşrutdan İranın sanksiyalardan yayınmaq və narkotiklərin Avropaya daşınması üçün istifadə etdiyinə dair iddialar var. Yadımızdadırsa, Prezdent İlham Əliyev 2021-ci il oktyabrın 15-də İranla yaranmış gərginlikdən sonra verdiyi bəyanatda "İran Ermənistanla birlikdə işğal etdiyi Azərbaycan torpaqlarından Avropaya narkotik ticarəti etmək üçün istifadə edir" demişdi (20). İran rəsmilərinin Ermənistan-Azərbaycan münasibətləri, xüsusən də Zəngəzur dəhlizi ilə bağlı fikirlərinə nəzər saldıqda, İranın sərhəd dəyişikliyi olmadan nəticəyə etiraz etməyəcəyi, lakin sərhəd dəyişikliyi ilə İranın Ermənistanla əlaqəsinin qarşısını almaq cəhdinə heç vaxt

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

dözməyəcəyi anlaşılır. Bunu İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci Sammitində də qeyd etmişdir (21).

Zəngəzur dəhlizi ilə bağlı yekun qərar verilməyib. Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi qələbəni Zəngəzur dəhlizi danışıqlarındada əks etdirməsi üçün ən doğru strategiyanı müəyyənləşdirməli və ona uyğun hərəkət etməlidir. Azərbaycanla Naxçıvan arasında birbaşa nəqliyyat mənasını verən Zəngəzur dəhlizi təmin olunarsa, bu, təkcə Azərbaycan üçün deyil, Qafqaz, Türk Dünyası və bütün dünya üçün günü-gündən artan strateji dəyərə çevriləcək. Bu nailiyyəti diplomatik uğur hesab etmək olar. Bu, Azərbaycan və Ermənistan arasında sülh prosesi və danışıqlarla formalaşacaq. Hazırkı proses ikitərəfli, regional və qlobal miqyasda yeni status-kvo yaradacaq. Böyük dövlətlər və region dövlətlərin maraqlarının toqquşması bu dəhlizin açılmasını ləngidən səbəblərdəndir. Dəhlizin hələ də açılmaması müqaviləni imzalayacaq dövlətlərin öz iradəsindən daha çox kənardan olan təzyiqlərin nəticəsidir (22). Zəngəzur dəhlizi Böyük dövlətlər arasında münasibətlərin və maraqların toqquşduğu bir əraziyə çevrilmişdir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dəhlizin nə qədər vacib bir məsələ olduğunu vurğuluyaraq demişdir: "Zəngəzur çox önəmlidir. Bu dəhlizin ən qısa zamanda açılması üçün əlimizdən gələni edəcəyik. Ermənistan bu işlərə yol açmasa, İrandan keçəcək. Arzumuz bu yerlərin açılmasıdır onları sülh dəhlizlərinə çevirməklə" (23).

## Ədəbiyyat

1. Zəngəzurun tarixi coğrafiyası. URL: https://files.preslib.az/projects/zangazur/az/a1.pdf (02.02.2024)
2. Qurut, D., Yusubzadə, N. (2022). Türk dünyasının güc mərkəzi kimi Zəngəzur dəhlizinin geosiyasi əhəmiyyəti. Beynəlxalq Türk Dünyası Sosial Elmlər Simpoziumu. 2-3 dekabr. Abstraktlar kitabı. İzmir, 465 s.
3. Prezident İlham Əliyev xalqa müraciət edib. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 10 noyabr 2020. URL:https://president.az/az/articles/view/45924 (01.02.2024).
4. İzzətgil, E. (2002). Zəngəzur Dəhlizinin Regional Ölkələrə Görə Strateji Önəmi. Sosial, Humanitar və İnzibati Elmlər Sahəsində

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Yeni Trendlər I. Red.: Prof.Dr. Sinan Sönməz. İzmir: Divar Nəşrləri, 491 s.

5. Əliyev, A. (2023). "Bu, "bir millət, iki dövlət" mahiyyətindən irəli gələn bir davranışdır". Bizim yol, 8 fevral. URL:https://www.bizimyol.info/az/news/441307.html (28.01.2024)
6. Türkiyə Zəngəzur dəhlizinə böyük önəm verir. Yeni Azərbaycan, 03.12.2022. URL:https://www.yeniazerbaycan.com/Siyaset_e77803_az.html (28.01.2024)
7. Şuşa Bəyannaməsinin tam mətni. Report İA, 16 iyun 2021. URL:https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/ (27.01.2024)
8. Türkiyə-Ermənistanın normallaşmasına gedən yol. TRT Avaz, 06 yanvar 2022. URL:https://www.trtavaz.com.tr/haber/tur/avrasyadan/turkiye-ermenistan-normallesmesine-giden-yol/61d6da7b01a30a35800876dc (30.01.2024)
9. "Ermənistan ekspansiyası". Türkiyə: 2 Ermənistan: 0, Rose Won, İtirilmiş müddət. Müstəqil Əlaqə Şəbəkəsi), 14 oktyabr 2009. URL:https://bianet.org/haber/turkiye-2-ermenistan-0-gul -udmuş-uduzmuş-117633 (30.01.2024)
10. Sürix Protokolları: Türkiyə Respublikası ilə Ermənistan Respublikası arasında Diplomatik Münasibətlərin qurulmasına dair Protokol; Türkiyə Respublikası ilə Ermənistan Respublikası arasında diplomatik əlaqələrin inkişafı haqqında Protokol. Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı, 4 s. URL:https://www.mfa.gov.tr/site_media/html/zurih-protokolleri-tr.pdf (30.01.2024)
11. Türkiyə və Ermənistan nümayəndələri tezliklə görüşəcək. Azadlıq Radiosu, Dekabr 20. 2021. URL: https://www.azadliq.org/a/turkiye-ermenistan/31618118.html (30.01.2024)
12. İlk uçuş oldu: FlyOne-un Ermənistandan uçan təyyarəsi İstanbuldadır. Müstəqil Türkiyə, 2 fevral 2022. URL:https://www.indyturk.com/node/467376/haber/i%CC%87lk-u%C3%A7u%C5%9F-ger%C3%A7ekle%C5%9Fti-ermenistandan-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

kalkan-flyone%C4%B1n-u%C3%A7a%C4%9F%C4%B1-i%CC%87stanbulda (30.01.2024)

13. Ərdoğan Paşinyanla görüşüb: "İnanıram ki, Ermənistanla tam normallaşma məqsədinə nail olacağıq". BBC News Turkish, 6 oktyabr 2022-ci il. URL:https://www.bbc.com/turkce/articles/cyxyrgvzerqo#:~:text=Teknoloji,Erdo%C4%9Fan%2C%20Pa%C5%9Finyan'la%20g%C3%B6r%C3%BC%C5%9Ft%C3%BC%3A%20'Ermenistan'la,tam%20normalle%C5%9Fme%20hedefine%20ula%C5%9Faca%C4%9F%C4%B1m%C4%B1za%20inan%C4%B1yorum'&text=Prag'da%20d%C3%BCzenlenen%20Avrupa%20Siyasi,Ba%C5%9Fbakan%C4%B1%20Nikol%20Pa%C5%9Finyan%20ile%20g%C3%B6r%C3%BC%C5%9Ft%C3%BC. (01.02.2024)
14. Çiçək, K. (2022). Türkiyə-Ermənistan münasibətlərində normal-laşma: Nə qədər normal, nə qədər sürətli? AVİM (Avrasiya Araş-dırmaları Mərkəzi). Bloq. №, 18.01.2022, 5 s.
15. Prezident İlham Əliyev xalqa müraciət edib: [Elektron resurs]. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 10 noyabr 2020. URL: https://president.az/az/articles/view/45924 (04.02.2024)
16. Umut Başar. Qarabağ müharibəsinin uduzan tərəf İrandırmı? 23.11.2020. URL:https://www.aa.com.tr/tr/analiz/iran-karabag-savasinin-kaybedeni-mi/2052813 (04.02.2024)
17. İran silah qapısı oldu. Yeni Şəfəq, 30/09/2020. URL:https://www.yenisafak.com/dunya/iran-ermenistana-silah-kapisi-oldu-3569137 (04.02.2024)
18. Rəhim Fərzəm. İran niyə Zəngəzur dəhlizinə qarşıdır? İRAM (İran Araşdırmaları Mərkəzi), 19/10/2022. URL:https://iramcenter.org/iran-neden-zengezur-koridoruna-karsi-828 (04.02.2024)
19. Ahmet Dursun. İranın Azərbaycana münasibəti və sərhəddəki hərbi təlimlər gərginliyi artırır. AA, 12.11.2022. URL:https://www.aa.com.tr/tr/dunya/iranin-azerbaycana-yonelik-tutumu-ve-sinirdaki-askeri-tatbikatlar-gerilimi-tirmandiriyor/2736058 (04.02.2024)

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

20. İlham Əliyev: "Ermənistan İranla əlbir olaraq Azərbaycanın keçmiş işğal altında olan ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib": [Elektron resurs] Report İA, 15 oktyabr 2021. URL: https://report.az/qarabag/ilham-eliyev-ermenistan-iran-ile-elbir-olaraq-isgal-edilmis-eraziler-vasitesile-avropaya-narkotik-vasitelerin-dasinmasini-heyata-kecirib/ (04.02.2024)
21. Fehim Taştekin. İranla Azərbaycan arasında gərginlik niyə artıb? BBC Türkcə, 11 aprel 2023-cü il. URL:https://www.bbc.com/turkce/articles/c51kzkg4j48o (04.02.2024)
22. Prezident Ərdoğan: Zəngəzur və Laçın sülh dəhlizi olmalıdır: TRT Xəbər, 26.09.2023. URL:https://www.trthaber.com/haber/ekonomi/cumhurbaskani-erdogan-zengezur-ve-lacin-baris-koridorlari-olmali-798494.html (04.02.2024)
23. İran, Çin və Rusiya arasında "Zəngəzur dəhlizi" çatlaması: Onlar Türkiyədən asılı vəziyyətə düşüblər. Ulduz, 5 aprel 2023-cü il URL: https://www.star.com.tr/ekonomi/iran-cin-ve-rusya-arasinda-zengezur-koridoru-catlagi-turkiyeye-bagimli-hale-geldiler-haber-1777455/ (30.01.2024)

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 375-377
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 375-377
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Asim Rüstəmov**
Azərbaycan Universiteti
magistrant
asimrustamov02@gmail.com

# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONU, ONUN TARİXİ VƏ İQTİSADİ VƏZİYYƏTİ

***Açar sözlər:*** *rayon, iqtisadi, məbəd, xürrəmi, istiqamət*
***Keywords:*** *region, economic, temple, Khurrami, direction*

Şərqi Zəngəzur iqtisadi rayonu — Azərbaycanın 14 iqtisadi rayonundan biridir və Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonlarını əhatə edir. Ərazisi 7448 km²-dir.

Azərbaycanın əsas iqtisadi rayonlarından olan Zəngəzurun keçmiş tarixi çox zəngin məlumatlarla doludur. Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, bununla yanaşı 30 ildən artıq sürən döyüşlərin məkanı olub. Zəngəzurda atəşpərəstlik məbədləri yerləşirdi. Ərəblər Cənubi Azərbaycan-Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edərək Albaniyanı (Şimali Azərbaycan) zəbt ediblər.

1065-ci ildə Böyük Səlcuq İmperiyasının hökmdarı Alp Arslan Qafan şəhərini tutaraq Sünik knyazlığının mövcudluğuna son qoydu. 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu genişləndirdi və bu yerlərdə çox sayda türksoylu tayfalar məskunlaşdı.

1236-cı ildə monqol-tatarlar, 1395-ci ildə Əmir Teymur Qarabağ və Zəngəzuru böyük itkilər bahasına tutdu, onun qoşunlarına qarşı çox direniş göstərdiklərinə görə bu yerləri yağmaladı və 10 min ailəni buradan imperiyanın şərqinə — Əfqanıstana köçürmək əmri verdi. Teymurun bu yürüşünü canlı görüb yazıya alan Foma Mesoplu "Əfqan tarixi", Yesay Həsən Cəlal "Alban ölkəsinin qısa tarixi" əsərlərində bu köç haqqında məlumat veriblər. Təkcə 4 min ailə Qəndəhar yaxınlığında məskən saldı. Yerli əhali bu köçürülənləri öz adları ilə "ağvan" çağırırdı və bu ad sonra fonetik dəyişimə uğrayaraq bütöv bir xalqın və ölkənin adını, ünvanını dəyişib "əfqan" a çevirdi.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 375-377
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 375-377
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Zəngəzur Qaraqoyunlu (1410-1468), Ağqoyunluların (1468-1502), 1502-ci ildə Səfəvi qızılbaşlarının hakimiyyəti altına düşdü. 1420-ci ildə Ərzurumda Ağqoyunlu hökmdarı Qara Osmanı məğlub edib Naxçıvan və Zəngəzur ellərini soyurqal alan Qara İsgəndər çoxlu sayda erməni ailəsini Ararat və Sünikə köçürdüb yerləşdirdi. Osmanlı və Səfəvilər arasında Qarabağ-Zəngəzur uğrunda uzun sürən qanlı döyüşlər getdi, bu səbəbdən o dövrlərə aid "Müfəssəl dəftər"lərdə Zəngəzurun əksər yaşayış məntəqələrinin boşaldığı, əhali yaşamadığı, xarabalıqlara çevrildiyi qeyd edilib.

14 iyul 1920-ci ildə Fransanın L'Œuvre jurnalında dərc edilən xəbər: "Sovet Rusiyası Ermənistan Respublikası ilə iyulun 1-də imzaladığı müqavilə ilə Azərbaycanda yerləşən Zəngəzur bölgəsini Ermənistana verdi. Bu ölkənin tatarları döyüşdükləri ermənilərə hücum etdilər. Orijinal mətn: "La Russie des Soviets ayant, dans un traite signe le 1er juillet avec la Republique armenienne, cede a l'Armenie la region de Zangezour, situee dans l'Azerbeidjan, les Tatars de ce pays s'en sont pris aux Armeniens avec qui ils ont engage des combats".

1920-ci ilin 28 aprelində Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni qüvvələrinin hücumları davam edirdi. Azərbaycan SSR hökuməti (Müvəqqəti İnqilab Komitəsi) 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzuru və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi.

1920-ci ilin 10 avqustunda Rusiya K(b)P-nin Qafqaz bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olundu, hərçənd bölgələrdə daşnak hökuməti hələ tam süqut etməmişdi.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərar ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

1988-ci ildə təkcə Zəngəzurdan deyil, Göyçədən, Dərələyəzdən, İrəvandan, verildikə – indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

Müasir Azərbaycan Respublikası ərazini öz torpaqları saysa da, Ermənistan Respublikasına qarşı torpaq iddiası irəli sürmür. Bunu Azərbaycan Prezidenti İlham Əliyev "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır" söyləyərək elan etmişdir.

Zəngəzur rayonu iqtisadi cəhətdən olduqca faydalı və zəngindir. Bu ərazinin iqtisadi potensialı respublikamız üçün geniş əhəmiyyət kəsb edir. Rayonun əlvan metallurgiyanın inkişafı üçün potensialı vardır. Ərazisində qızıl, civə, xromit, mərmər, perlit, üzlük tikinti daşları koral, və s. faydalı qazıntı ehtiyatları vardır. Bu faktorlar ərazinin iqtisadi potensialını daha da artıraraq daha səmərəli hala gətirir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 378-381**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 378-381**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Aysel Mayılova**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
mayilova_aysel@mail.ru

# QƏRBİ AZƏRBAYCAN – ZƏNGƏZUR MAHALI TARİXİ TORPAQLARIMIZDIR

***Açar sözlər:*** *tarixi, bölgə, torpaqlar, coğrafi, ərazi*
***Keywords:*** *historical, region, lands, geographically, territory*

*"Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir. Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır".*

İlham Əliyev

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb.

"Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə "sur" daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər (Zəngəzurun tarixi coğrafiyası, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası).

Azərbaycanın ən qədim, ən şöhrətli və ən başıbəlalı torpaqlarından biri olan Zəngəzurun da adının mənasını Azərbaycan türkcəsində və Azərbaycanın tarixi keçmişində axtarmaq lazımdır. Bu yolla

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

getməyənlər səhv edəcəklər, həqiqəti danmaq, haqqa böhtan atmaq yolu tutacaqlar. Necə ki, bəzi erməni mənbələri bu səhvi edirlər. Əslində, zamanın amansız hökmü ilə öz soy-kökünü və əzəli vətənini itirmiş, başqa bir xalqın torpaqları hesabına özünə dövlət yaratmış, həmin torpaqlardakı min illik qəbirlərdə uyuyan başqa millətin kişilərini öz dədə-babaları kimi qələmə vermək məcburiyyətində qalan köksüz bir millətin başqa yolu da yoxdur (Musa Urud, 2005: 13).

Zəngəzur tarixən 4 sahəyə – Güney (Meğri), Qafan, Zəngəzur (Gorus) və Sisyan (Qarakilsə) mahallarına bölünürdü.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdir. Zəngəzurun ərazisinin böyük bir qismi 1918-1920-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, yalnız 1921-ci ildə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati-ərazisində daxil edilən Zəngəzur qəzası yaradılmışdır. Azərbaycan SSR-in tərkibində qalan Zəngəzurun Şərq hissəsi Qubadlı qəzasına çevrildi. 1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzası tərkibində göstərilir. İnzibati ərazi bölgüsünə görə, Şərqi Zəngəzurun ərazisi Azərbaycanın Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını və Qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Meğri rayonlarının ərazilərini əhatə edir (Zəngəzurun tarixi coğrafiyası, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 3).

14 İyul 1920-ci ildə Fransanın L'Œuvre jurnalında dərc edilən xəbər: *"Sovet Rusiyası Ermənistan Respublikası ilə iyulun 1-də imzaladığı müqavilə ilə Azərbaycanda yerləşən Zəngəzur bölgəsini Ermənistana verdi. Bu ölkənin tatarları döyüşdükləri ermənilərə hücum etdilər."* Orijinal mətn: *"La Russie des Soviets ayant, dans un traite signe le 1er juillet avec la Republique armenienne, cede a l'Armenie la region de Zangezour, situee dans l'Azerbeidjan, les Tatars de ce pays s'en sont pris aux Armeniens avec qui ils ont engage des combats".*

**Mənbə:** L'Œuvre issue of July 14, 1920, reporting conflict in Zangezur under the title "Entre Russes et Armeniens" (right corner)

Heydər Əliyevin də dediyi kimi, “Sovet hakimiyyəti qurulduqdan sonra... Zəngəzur mahalı Ermənistana verilibdir. Baxmayaraq ki, bu qədim Azərbaycan torpağıdır. Bu da Azərbaycanın əsas ərazisi ilə Naxçıvanın ərazisini bir-birindən ərazicə ayırıbdır... Azərbaycanın ərazi

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

bütövlüyünü nəinki indiki dövrdə, gələcək nəsillər üçün də qoruyub saxlamalıyıq”.


Hors d'Œuvre

Les bégonias flétris

UN NOUVEAU CONFLIT DU THÉATRE

LA GUERRE

Les spéculateurs condamnés

Les expulsions commencent...

VEILLE DE FÊTE

"MES CHERS AMIS, QUAND JE MOURRAI..."

DELION

Source gallica.bnf.fr / Bibliothèque nationale de France

Zəngəzurun Ermənistana verilmiş hissəsində ən böyük faciə isə II Dünya müharibəsindən sonra, sovet dövlət rəhbərliyinin bilavasitə iştirakı ilə Ermənistan tərəfindən respublikanın azərbaycanlı əhalisinin 1948-1953-cü illərdə deportasiyası oldu. 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur (Urud, 2005: 13).

Stalinin ölümü ilə azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası kimi cinayətkar fəaliyyət dayandırılsa da, Ermənistan rəhbərliyi bu siyasəti 1950-1980-ci illərdə qapalı, 1980-ci illərin ortalarından isə açıq şəkildə davam etdirdi. 1987-ci ilin noyabrında Qafan və Mehri rayonlarının azərbaycanlılarına qarşı deportasiya başladı. Ermənistanda öz tarixi etnik torpaqlarında yaşayan azərbaycanlılar dövlətin həyata keçirdiyi məqsədyönlü soyqırımı və deportasiya siyasəti nəticəsində oranı tərk etməyə məcbur oldu. Ermənistandakı sonuncu azərbaycanlı kəndi – Zəngəzurun Nüvədi kəndinin əhalisi 1991-ci ilin avqustunda deportasiya edildi. Beləliklə, ermənilərin və

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Ermənistan dövlətinin həyata keçirdiyi soyqırımı və deportasiya siyasəti nəticəsində Azərbaycanın tarixi Zəngəzur torpaqlarının Ermənistana verilmiş hissəsində yaşayan azərbaycanlı əhalisinin varlığına son qoyuldu.

Azərbaycanın tarixi Zəngəzur bölgəsinin bir hissəsinin Sovet Rusiyası tərəfindən Ermənistana verilməsi, digər hissəsinin isə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə tarixi Zəngəzur torpaqlarının ələ keçirilməsi başa çatdırılmışdır. Ermənistanın işğal edilmiş ərazilərdə yaratdığı qondarma inzibati-ərazi bölgüsündə vahid Zəngəzuru bərpa etməməsi və erməni əhali ilə məskunlaşdıra bilməməsi bir daha sübut edir ki, onun digər tarixi Azərbaycan torpaqları ilə, eyni zamanda Zəngəzur bölgəsinə iddiası heç bir tarixi zəminə əsaslanmır.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 7 iyul 2021-ci il tarixində Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları hesabına Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Bu iqtisadi rayonun yaradılması Zəngəzurun qərb hissəsinin də mövcudluğunu və tarixən Azərbaycan torpağı olmasını göstərir (Xalq qəzeti, 2022: 8).

## Ədəbiyyat

1. Zəngəzurun tarixi coğrafiyası, Zəngəzur, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, s.1-3.
2. Urud, M. (2005). Zəngəzur. Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 13 s.
3. “Xalq qəzeti”. (14 may 2022). 8 s.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 382-383**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 382-383**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Mirisrail Ağazadə**
Azərbaycan Dövlət Texniki Universiteti
magistrant
agazademirisrail@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *müstəqil, işğal, siyasət, dəhliz, gələcək*
***Keywords:*** *independent, occupation, politics, corridor, future*

Bildiyimiz kimi, Zəngəzur Azərbaycanın tarixi torpağıdır. XX əsrin əvvəllərində baş verən proseslər nəticəsində Azərbaycandan qoparılmış və Ermənistana verilmişdir. XX əsrin sonlarında isə Qarabağın işğalı Azərbaycana vurulmuş bir digər yara olmuşdur. Lakin müstəqillik əldə etdikdən sonra Azərbaycan öz yaralarını sağaltmağa başlamışdır. 2020-ci ildə Qarabağımız işğaldan azad edilmişdir. Qarabağın işğaldan azad olması artıq növbəti yaranın sağaldılmalı olduğunun zamanının gəldiyinin işarəsi idi.

Zəngəzur mahalı faktiki olaraq, Azərbaycanın əsas hissəs ilə Naxçıvan Muxtar Respublikası arasında yerləşir və onun Ermənistanın tabeliyində olması Azərbaycandan-Azərbaycana birbaşa keçidə mane olur. Bu təkcə Azərbaycandan-Azərbaycana keçidə deyil, həmçinin böyük Türk dünyasının da bir-birilə əlaqəsinə maneədir. Hazırda Azərbaycan dövləti Naxçıvan ilə Azərbaycanın əsas hissəsini bir-birilə birləşdirəcək olan Zəngəzur dəhlizinin açılması istiqamətində aktiv siyasət yürüdür. Belə ki, 2020-ci ildə imzalanan və Ermənistan üçün kapitulyasiya aktı olan sazişdə də Zəngəzur dəhlizinin açılması razılaşdırılmış, lakin Ermənistan öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdən boyun qaçırması nəticəsində mümkün olmamışdır. Azərbaycan isə bu dəhliz açılmadan Ermənistanla münasibətlərin normallaşdırılmayacağını dəfələrlə bəyan etmişdir.

Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycan və türk dövlət-lərinin amalı deyil, həmçinin bu dəhlizin açılmasında gələcəyin super gücü olacağı düşünülən Çinin də marağı vardır. Belə ki, Çin ABŞ ilə iqtisadi müharibə aparır. Çin ABŞ-a qarşı apardığı mübarizədə Cənubi Qafqazı əsas nəzarətdə saxlayır. Çin və ABŞ heç biri hazırda isti toqquşmalara, müharibəyə hazır deyil. Ümumiyyətlə, dünya buna hazır

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

deyil. Onun üçün də bu müharibə iqtisadiyyat cəbhəsində aparılır. Çin dolların dövriyyəsini azaltmaq üçün ABŞ-ı dünya bazarında, xüsusən də Avropa bazarında sıxışdırmaq və həmin bazarlarda özü hakim olmaq istəyir. Bunun üçün də Çin "Bir kəmər, bir yol" layihəsini işə salır. Layihənin əsası tarixi ipək yolunun bərpa olunmasıdır. Çin bunu etmək üçün Xəzər dənizindən keçib, Azərbaycan üzərindən Türkiyəyə və oradan da Avropa bazarına çıxmağı hədəfləyir. Buna nail olarsa, Avropa bazarına Çin malları daha rahat çıxacaq ki, bu da ABŞ məhsullarını Avropadan sıxışdıracaq. Həmçinin bu vasitə ilə Çin satışı ABŞ dolları ilə deyil, öz valyutası və ya Avropa birliyi ölkələrinin valyutası ilə həyata keçirəcək ki, bu da dolların dövriyyəsini azaldacaq və dolların "dünya pulu" funksiyasını əhəmiyyətli dərəcədə sarsıdacaqdır.

Sual yaranır ki, niyə məhz Zəngəzur dəhlizi? Sualın bir neçə cavabı vardır. Bunlardan biri Azərbaycan-Çin iqtisadi münasibətlərinin yüksək səviyyədə olması və Azərbaycanın etibarlı tərəfdaş olmasıdır. Bir digər səbəb alternativlərin sıradan çıxmasıdır. Belə ki, Çin Avropa bazarına Rusiya vasitəsilə məlum Rusiya-Ukrayna müharibəsinə görə çıxa bilməz. Digər alternativ İrandan keçməklə Avropa bazarına çıxmaqdır ki, bu da regionda dayanmaq bilməyən toqquşmalara görə təhlükəlidir. Suriya, İraq, İsrail-Fələstin münaqişələri regionu keçilməz bir vəziyyətə salmışdır.

Azərbaycan isə öz gözəlliyi və sabitliyi ilə bütün dünya üçün bir nümunədir. Düşünürəm ki, təkcə ensiz bir zolaqlı Zəngəzur dəhlizi deyil, bütünlüklə Zəngəzur mahalı tarixən aid olduğu ölkəyə, Azərbaycana qaytarılmalıdır və qaytarılacaqdır da! Ya xoşluqla, ya da...

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 384-385**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 384-385**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Gulgun Novruzova**
Azerbaijan State Economic University
master student
gulgun.n02@gmail.com

# ZANGAZUR: A JEWEL IN AZERBAIJAN'S LANDSCAPE

***Keywords:*** *region, mountain, sights, strategy, important*
***Açar sözlər:*** *region, dağ, görməli yerlər, strategiya, vacib*

Nestled in the southwestern part of Azerbaijan, the Zangazur region stands as a testament to the nation's rich cultural and geographical tapestry. This enchanting region, known for its diverse landscapes, historical significance, and vibrant communities, is a treasure trove waiting to be explored.

Geographically, Zangazur is characterized by its rugged mountains, fertile valleys, and meandering rivers. The region is part of the larger Caucasus mountain range, providing visitors with breathtaking vistas and a haven for nature enthusiasts. Mount Kaputjugh, the highest peak in the area, not only offers a challenging trek for adventurers but also commands panoramic views that showcase the region's natural beauty.

Zangezur is more than just a picturesque landscape; it is steeped in history that spans centuries. The region has been a crossroads of civilizations, witnessing the rise and fall of empires and the ebb and flow of cultural influences. Numerous archaeological sites, ancient settlements, and historic landmarks dot the area, inviting history enthusiasts to delve into the rich past of Zangazur. Notable sites include the medieval fortress of Tigranakert, a testament to the region's strategic importance throughout the ages.

The cultural mosaic of Zangazur is reflected in the warm hospitality of its people and the vibrant traditions that endure. Visitors have the opportunity to immerse themselves in the local customs, taste traditional Azerbaijani cuisine, and partake in festivities that celebrate the region's unique identity. The colorful markets and artisan workshops provide a glimpse into the daily life of Zangazur's residents, creating an authentic and enriching experience for those who venture into this cultural haven.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

The Zangazur region is not only a destination for history and nature enthusiasts but also a gateway to fostering regional cooperation and understanding. Its location, bordering Armenia and Iran, plays a crucial role in connecting cultures and facilitating economic exchanges. The potential for cross-border initiatives and collaborative projects underscores the importance of Zangazur as a bridge between nations, fostering dialogue and building bridges for a more interconnected future.

In conclusion, the Zangazur region of Azerbaijan beckons travelers with its captivating landscapes, rich history, and vibrant culture. Whether one seeks adventure in its mountains, delves into its historical tapestry, or engages with its welcoming communities, Zangazur promises a unique and unforgettable experience. This hidden gem in Azerbaijan's landscape invites exploration, promising a journey that goes beyond the surface and into the heart of a region that embodies the spirit of diversity and resilience.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 386-387
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 386-387
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Hilalə Əliyeva**
Bakı Dövlət Universiteti
magistrant
hilaliyeva@mail.ru

# 1948-1953-CÜ İL DEPORTASİYASININ TARİXŞÜNASLIĞI

***Açar sözlər:*** *deportasiya, soyqırımı, cinayət, etnik təmizləmə, köçürülmə*

***Keywords:*** *deportation, genocide, crime, ethnic cleansing, resettlement*

Tarix boyu azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti xalqımız üçün ağır nəticələr vermişdir. Belə ki, 1905-1906 və 1918-1920-ci illərdə ermənilərin xalqımıza qarşı törətdiyi dəhşətli faciələr nəticəsində 500 mln azərbaycanlı cinayətə məruz qalmışdır. Erməni siyasi dairələri bu qırğınlar nəticəsində əhalidə vahimə yaradaraq deportasiya həyata keçirmək siyasəti yürüdürdü. Belə deportasiyalardan biri də 1948-1953-cü illərdə həyata keçirilmişdir.

A.Bayramov “Tarixi faciələrimiz: deportasiya, repressiya və soyqrımı” əsərində verdiyi məlumata görə xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi məsələsi ilk dəfə 1943-cü ildə Tehran konfransında əksini tapmışdır: “Xaricdə yaşayan ermənilərin Ermənistanda yaşamaq arzusunda olduqlarını, lakin onları yerləşdirmək üçün ərazilərin azlıq təşkil etdiyini Stalinin nəzərinə çatdırmaq lazım gəlirdi. Çıxış yolunu isə Qərbi Azarbaycanda yaşayan türklərin Azarbaycann aran rayonlarına köçürülməsində görürdülər” Məsələylə bağlı A.Paşayevin yanaşması belədir: “70 ildə Azərbaycan və azərbaycanlılar yaşayan ərazi ilə bağlı məsələlərdə Ermənistan rəhbərliyi öz qarşılarında ki məqsəd qoymuşdu: Əvvəla, Ermənistan ərazisindəki azərbaycanlı əhalini oradan sıxışdırıb çıxarmaq, ikincisi isə Azərbaycan respublikasının torpaqları hesabına öz ərazisini genişləndirmək”.

H.Rəhimov “Silinməz adlar, sağalmaz yaralar” əsərində bu mövzulardan bəhs etmişdir: “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

tarixli qərarı əsasında Ermənistanda yaşayan 100 min nəfər azərbaycanlı əhali köçürülməli idi”. Zənnimcə, azərbaycanlıların Kür-Araz ovalığına köçürülməsi təsadüfi xarakter daşımırdı. Bu məsələdə V.Arzumanlı, N.Mustafa “Tarixin qara səhifələri” adlı əsərində fikirlərini əks etdirmişdir: “Ermənistan rəhbərləri Stalini başa salmış-dılar ki, köçürülən azərbaycanlıları Azərbaycanın pambıq yetişdirilən rayonlarında, Muğan-Mil düzənliyində yerləşdirmək iqtisadi cəhətdən sərfəlidir. Çünki 1945-ci ildə SSRİ Nazirlər Soveti Kür-Araz ovalığının yenidən qurulması haqda qərar qəbul etmişdi”.

Tezisdə 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan köçürülməsi və etnik təmizləmə siyasətinə dair yazılmış çoxsaylı əsərlərin tarixşünaslıq baxımından müqayisəli təhlilinə yer verilib.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 388-392
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 388-392
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Fərhad Rüstəmzadə**
Bakı Dövlət Universiteti
magistrant
ferhadrustemzade@gmail.com

# ZƏNGƏZUR 1988-1991 DEPORTASİYASI İLLƏRİNDƏ

***Açar sözlər:*** *köçürmə, Qafan, Qarakilsə, Meğri, Gorus*
***Keywords:*** *deportation, Gafan, Garakilsa, Meghri, Gorus*

Ermənistanda antitürk, antimüsəlman təbliğatı XX əsrin 60-cı illərin ortalarında yenidən var gücü ilə işə salınmışdı. Həmin dövrdə Ermənistanda aparılan milli ayrı-seçkilik siyasəti və diskriminasiya aksiyası nəticəsində Ermənistandan minlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdu.

1965-ci ildən etibarən hər il aprelin 24-ü rəsmi olaraq "genosid" günü kimi qeyd edildiyindən həmin günlər Ermənistanda yaşayan azərbaycanlılar üçün qorxulu gün hesab edilirdi. Şəhərlərdə və rayon mərkəzlərindəki küçə bazarlarda ələ keçən azərbaycanlıları döyür, təhqir edirdilər. Ermənistanda yaşayan azərbaycanlılara qarşı açıq elan edilməmiş “səlib yürüşü”nün proqramı respublikanın ən yüksək dairələrində hazırlanır, gizli qərarlar və xüsusi göstərişlər vasitəsilə həyata keçirilirdi. Mixail Qorbaçovun 1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi seçilməsindən sonra Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etməsi pərdəsi altında Azərbaycana qarşı anneksiya planı işlənib hazırlandı.

Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə pərdəsi altında Azərbaycana qarşı anneksiya planının həyata keçirilməsinə maneçilik törədə biləcək şəxs – Heydər Əliyev 1987-ci ilin oktyabrında erməni lobbisinin təzyiqi ilə keçmiş Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırıldı. Elə həmin il oktyabrın axırından İrəvanda DQMV-ni Ermənistana birləşdirmək tələbi ilə mitinqlər keçirildi (Urud, 2005).

Ermənilərin azərbaycanlı yaşayış məntəqələrinə basqınları nəticəsində 1988-ci il yanvarın 25-də Ermənistan SSR-in Qafan və Meğri rayonlarından ilk azərbaycanlı qaçqınlar qatarla Azərbaycana gəlmiş, onlar

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Abşeron rayonunda yerləşdirilmişdilər. Lakin bu, ictimaiyyətdən gizli saxlanılmışdı. 1988-ci il fevralın əvvəllərindən etibarən İrəvanda kütləvi mitinqlər başlandı. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürürdülər. 1988-ci il fevralın 20-də Vilayət Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası keçirilmiş, muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qəbul edilmiş və qərara anlayışlı yanaşılması üçün Azərbaycan və Ermənistan Ali Sovetlərinin Rəyasət Heyətlərinə müraciət edilmiş, bu məsələnin müsbət həlli üçün SSRİ Ali Soveti qarşısında vəsatət qaldırılmışdı. Elə həmin gün Qafan rayonundan qovulan azərbaycanlı qaçqınların ilk dəstəsinin nümayəndələrini Azərbaycan KP MK-nın katibi Ramiz Mehdiyev qəbul etmişdi. Ermənistan ərazisindən isə azərbaycanlıların deportasiyası günü-gündən intensivləşirdi. Fevralın 28-nə olan rəsmi məlumata görə, Qafan rayonundan qonşu Zəngilan rayonuna təqribən 2 min nəfər azərbaycanlı qaçqın kimi gəlmişdi. Həmin günlərdə İmişli və Qubadlı rayonlarına da Ermənistandan yüzlərlə qaçqın ailəsi pənah gətirmişdi. Abşeron rayonuna Ermənistandan canını qurtarıb gələn 200 nəfər qaçqını Mərkəzi Komitənin birinci katibi K.Bağırov və Moskvadan gələn yüksək vəzifəli şəxslər qəbul etmək istəmədilər (Nərimanoğlu, 2019).

1988-ci ilin noyabr-dekabr aylarında bir tərəfdən Ermənistandakı azərbaycanlı kəndlərinin əhalisi sıxışdırılır, kəndlərə ərzaq göndərilmir, elektrik xətləri kəsilir və silahlı basqınlar edilirdi. Digər tərəfdən, kəndləri tərk edən ailələrə yollarda divan tutulur, əmlakları qarət edilir, özləri isə qətlə yetirilirdilər. Ermənistanda milli zəmində baş verən cinayətlərin əksəriyyəti, əsasən, azərbaycanlı əhalinin öz yaşayış məntəqələrini tərk etməyə məcbur olduqları vaxt baş vermişdi. Ermənistandan Azərbaycana gedən bütün yollar üzərində bir neçə yerdə silahlı quldur dəstələri yerləşdirilmişdi. Quldurların əksəriyyəti milis forması geyərək, özbaşına yoxlama-buraxılış məntəqələri yaratmışdılar. Onlar bütün maşınları saxlayır, sərnişinlərin sənədlərini yoxlayır və maşında azərbaycanlılar olduğunu müəyyən edən kimi, onları maşından düşürür, əmlaklarını boşaldaraq qarət edir, özlərini isə vəhşicəsinə döyür və yaxud qətlə yetirirdilər.

Artıq 1988-ci ilin dekabr ayının əvvəllərində, demək olar ki, Qərbi Zəngəzurda azərbaycanlı əhali qalmamışdı. Sonuncu həmlə noyabrın

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

son günlərində başladı və bir həftə ərzində tək-tük qalan azərbaycanlı kəndləri vəhşicəsinə və qəddarcasına boşaldıldı. İnsanlara var-mülkünü götürmək imkanı verilmədi, hətta elə kəndlər olmuşdu ki, azərbaycanlılara öz paltarlarını belə götürməyə imkan verməmişdilər (3).

1988-ci il dekabrın ilk üç günü ərzində bütün Zəngəzurda dövlət səviyyəsində təşkil olunmuş şəkildə avtobuslar və yükünü özüboşaldan maşınlar Azərbaycan kəndlərinə göndərildi. Maşınları müşayiət edən əli avtomatlı erməni yaraqlıları bir saat ərzində bütün azərbaycanlıların öz kəndlilərin tərk etmələrini tələb etdilər. Azərbaycanlılar "PAZ" avtobuslara mindirilərək, əli silahlı ermənilərin müşayiəti ilə kənddən çıxarıldılar. Avtobus karvanı yol üzərindəki sonuncu erməni kəndinə çatandan sonra onların hamısı bir-bir yerə düşürdülüb, əyin-başlan axtarıldı. Üstlərindəki pulları və zinət əşyaları zorla əllərindən alındı, əl çantalarında götürdükləri əşyaları isə erməni kəndində yerə boşaldılıb, yerli ermənilər arasında bölüşdürüldü. Sisian rayonunda yaşayan azərbaycanlılarının bir hissəsi Ərikli dağının ətəyində, qarın-buzun içində, şiddətli çovğunun altında avtobuslardan yerə töküldülər və piyada Bazarçay aşırımını 12 saat ərzində aşaraq Şahbuza pənah gətirdilər. Gələn insanların, demək olar ki, hamısı soyuqdəymə və donvurma diaqnozu ilə xəstəxanaya yerləşdirildilər. Bu insanlar arasında 4 nəfər xəstəlikdən dünyasını dəyişdi, 2 nəfər isə donvurmadan Ərikli dağında vəfat etdi. Sisian azərbaycanlılarının bir hissəsi isə (Qızılcıq və Şəki kəndinin camaatı) dekabr ayının 2-3-ü Üçtəpədən keçərək, qarlı Sarıyal aşırımını pay-piyada aşıb, Laçın rayonunun Minkənd kəndinə pənah gətirdilər. Qafan və Meğri rayonlarının azərbaycanlıları dəmiryolu vasitəsilə Azərbaycana gəlib çıxdılar. Qərbi Zəngəzurda yaşayan azərbaycanlıların evləri, əşyaları, mal-qoyunu, o cümlədən, kolxozun varidatı əllərindən çıxdı (Bayramov, 2011).

1988-1991-ci illərdə ermənilər Qərbi Zəngəzurun Meğri rayonunun 7 yaşayış məntəqəsindən, Sisyan rayonunun 11 yaşayış məntəqəsindən, Qafan rayonunun 41 yaşayış məntəqəsindən, Gorus rayonunun 4 yaşayış məntəqəsindən azərbaycanlıları vəhşicəsinə deportasiya edərək azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini başa çatdırdılar. Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-89-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məskənləri boşaldıldı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 388-392**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 388-392**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Keçmiş İttifaq orqanları azərbaycanlıların Ermənistandan deportasiyasına seyrçi münasibət göstərdi. Demək olar ki, bütün azərbaycanlılar Ermənistandan qovulduqdan sonra, yəni 1988-ci il dekabrın 6-da Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Vətəndaşların daimi yaşayış yerlərini məcburi tərk etməsində Azərbaycan SSR və Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin yolverilməz hərəkətləri haqqında" qərar qəbul etmişdi.

Zəlzələnin vurduğu ziyanları aradan qaldırmaq, iqtisadiyyatı bərpa etmək üçün Ermənistana xeyli miqdarda işçi qüvvəsi lazım idi. Məhz bu məqsədlə də 1989-cu il yanvarın 4-də Ermənistan rəhbərliyinin "xahişi" ilə Azərbaycan rəhbərliyi hər iki respublikanın KP MK-larının, Ali Soveti Rəyasət Heyətlərinin və Nazirlər Sovetlərinin adından daimi yaşayış yerlərinə qayıtmaları üçün qaçqınlara müraciət etmişdi.

Ermənistan rəhbərliyi azərbaycanlıların Ermənistana qayıtmasına təminat verilməsi illüziyası yaratmaq məqsədilə 15 dekabr 1988-ci ildə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 6 dekabr tarixli yuxarıda adı çəkilən qərarının yerinə yetirilməsinin gedişini müzakirə edərək 13 nəfər rəhbər işçini partiya sıralarından xaric etmiş, 68 nəfərə partiya tənbehi vermişdi. Büro həmçinin Quqark rayon Partiya Komitəsinin birinci katibini və İcraiyyə Komitəsinin sədrini işdən azad etməklə kifayətlənmiş, Stepanavan və İcevan rayonlarının birinci katiblərinə ciddi töhmət vermiş, adları çəkilən rayonlardan əlavə Yeğeqnadzor, Krasnoselo, Ararat, Masis, Amasiya, Noyemberyan rayonlarında vətəndaşların hüquqlarının pozulması, şantaj və kütləvi iğtişaşlara yol verildiyini qeyd etmişdi. Ermənistan prokurorluğu isə Sevan, Kalinino və Abovyan rayonlarının prokurorlarını işdən azad etmişdi. Lakin bütün bu "tədbirlər" azərbaycanlıların tarixi-etnik torpaqlarından faktiki olaraq qovulmalarından sonra  həyata keçirilmişdi və azərbaycanlılara heç bir faydası yox idi.

Məhz Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məskənləri boşaldıldı. Ermənistanın Meğri rayonunun Zəngilan rayonu ilə həmsərhəd bölgəsində qalmış axırıncı azərbaycanlı kəndi – Nüvədi də 1991-ci il avqustun 8-də boşaldıldı.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Ümumiyyətlə, həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində Ermənistanın 22 kənd, rayonundan və 6 şəhərindən təqribən 250 min azərbaycanlı tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldular.

1988-ci ilə qədər Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi respublika ərazisinin (29, 8 min kv.km.) 25 faizini, yaxud təqribən 7,5 min kv. km təşkil edirdi.

## Ədəbiyyat

1. Urud, M. (2005). Zəngəzur. Bakı.
2. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı.
3. Prezident kitabxanası. 1988-1991-ci illər deportasiyası.
4. Bayramov, İ. (2011). Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 393-397**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 393-397**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Elbrus Bağışov**
Bakı Dövlət Universiteti
magistrant
elbrus2080@gmail.com

# ZƏNGƏZUR OSMANLI HAKİMİYYƏTİ İLLƏRİNDƏ

***Açar sözlər:*** *Osmanlı, Zəngəzur, Naxçıvan, Səfəvi, Qapan*
***Keywords:*** *Ottoman, Zangazur, Nakhchivan, Safavid, Gapan*

Zəngəzur bütün tarixi boyu qanlı müharibələr, amansız döyüşlər meydanı olmuş, bir əldən başqa ələ keçmişdir. Bu müharibələr zamanı Zəngəzurun bütün əhalisi, xüsusən türk-müsəlman əhalisi görünməmiş məhrumiyyətlərə düçar olmuşdur. Bu müharibələr, əsasən, dini zəmində olmuş və işğalçılıq xarakteri daşımışdır. Zəngəzurun azərbaycanlı əhalisinin qanla yazılmış tarix dəftərində Osmanlı-Səfəvi müharibələri, bu müharibələr zamanı törədilmiş qardaş qırğınları, xüsusilə amansız və kədərli səhifədir. Ən dəhşətlisi bu idi ki, Səfəvi-Osmanlı müharibəsi zamanı döyüşlər türk ilə türk arasında, müsəlman ilə müsəlman arasında getmişdir. Evi dağılan da, yurdu talan olan da, nəsli kəsilən də, əsir aparılan və doğma torpağından didərgin salınan da Zəngəzurun etnik əhalisi, Azərbaycan türkləri olmuşlar. XVI əsrin sonlarında Səfəvi dövlətində yaranmış qeyri-sabit vəziyyətdən istifadə edən Osmanlı imperiyası yenidən dağıdıcı müharibəyə başlayaraq, Səfəvilər dövlətinin bir sıra ərazilərini işğal etmişdir. 1578-ci ildə başlayan və bir neçə mərhələdə davam edən Osmanlı-Səfəvi müharibəsi, əsasən, Azərbaycan torpaqlarında aparılmışdır. Bu müharibədə ilk hücuma məruz qalan Qərbi Azərbaycan torpaqları olmuşdur. 1578-1586-cı illərdə aparılmış müharibələr nəticəsində Qərbi Azərbaycanın tərkib hissəsi olmuş Zəngəzur osmanlıların əlinə keçir. Zəngəzuru ələ keçirmiş osmanlılar bu bölgəni idarə etmək məqsədilə xüsusi hesabat dəftərləri tərtib edirlər. Zəngəzura aid məlumatlar ayrı-ayrı dövrlərdə bu yerlərin inzibati tabeçiliyində olduğu İrəvan, Naxçıvan, həmçinin Urut və İskəndər Qalası livaları ilə bağlı dəftərlərdə əks olunmuşdur. Bunlardan biri 1593-cü ildə hazırlanmış "İrəvan vilayətinin müfəssəl dəftəri", digəri – təxminən 1593-cü ildə

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

hazırlanmış və şərti olaraq "Urut və İsgəndər qalası livalarının müfəssəl dəftəri kimi adlanmışdır (Urud, 2005).

1578-ci ildə osmanlılarla Səfəvilər arasında başlanmış müharibənin acı nəticələrindən biri də Azərbaycan torpaqlarında, o cümlədən Zəngəzur diyarının türk-müsəlman əhalisinin yaşadığı kəndlərini tərk etmələri olmuşdur. 1590-cı il "İrəvan vilayətinin müfəssəl dəftəri"nə görə Sisyan, Bazarçayı, Zar və Zebil nahiyələrində qeydə alınmış 94 kənddən yalnız beşinin – Ermənilər yaşayan Tulus (Dulus), Ənkləberd, Pirnəqut kəndlərinin, əhalisi qarışıq, yəni türklərdən və ermənilərdən ibarət olan Əxlətiyan kəndinin və türklərin, ya Çadığı Qarakilsə kəndinin əhalisi öz yerlərini tərk etməmişdilər. Ermənilərin bu müharibə illərində öz yerlərini tərk etməmələrini təbii qəbul etmək lazımdır, çünki müharibə ərəfəsində osmanlı sultanı III Muradın (1574-1595) 28 aprel 1578-ci (20 səfər 986) ildə verdiyi fərmana əsasən ermənilərə heç bir zərərin vurulmaması xüsusi olaraq tapşırılmışdır. Ələ keçiriləcək torpaqlarda yerli əhali ilə necə rəftar olunması ilə əlaqədar verilmiş bu fərmanda müsəlman və xristian (erməni) əhaliyə fərqli münasibət göstərilməsi cidd-cəhdlə vurğulanan məqamlardan ən başlıcası idi. Müqayisə edək: müsəlman əhalisi ilə bağlı fərmanda deyilirdi ki, "nizə və qılıncın hədəfi olduqlarına (yəni kişilərin məhv edilmələri ilə bağlı qərar verildiyinə - M.U.) görə onların övladları və zövcələri əsir götürülməli, məmləkət və vilayətləri istila olunmalı.. .malları qazi qullarımın qəniməti olmalı...". Halbuki elə həmin fərmanda ermənilərlə bağlı olaraq, "...rəayadan xarac-güzar Erməni tayfasının isə mallarına ziyan vurmayasan, canlarına xəsarət yetirməyəsən", deyə yazılmışdır. Göründüyü kimi, Azərbaycanın digər diyarları kimi, Zəngəzurun türk-müsəlman əhalisi, onların osmanlılar üçün Səfəvi şahının təbəəsi, qızılbaş (şiə) olmalarına görə osmanlıların daima hədəfində olmuşdular. Məhz ehtimal olunan təqiblərdən qurtulmaq üçün Zəngəzurun türk-müsəlman əhalisi yeganə çıxış yolu kimi öz yerlərini tərk etməkdə görmüş və buna görə də Zəngəzurun nahiyələrinin təsviri hazırlanarkən, bu diyarın azərbaycanlı kəndləri heç kimin yaşamadığı yerlər kimi qeydə alınmışdılar. Əgər Zəngəzur nahiyələrinin 94 kəndindən yalnız dördündə ermənilərin yaşadığını nəzərə alsaq, XVI əsrdə bu diyarın əhalisinin, demək olar ki, əksəriyyəti türk-müsəlman əhalisindən ibarət olmuş, ermənilər isə XVII əsrin ortalarından etibarən bu yerlərə kütləvi şəkildə köç etməyə və yayılmağa başlamışlar.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Söylədiklərimizi belə bir fakt da təsdiq edir: 1593-cü ildə dörd kənddə qeydə alınmış ermənilər, 1727-ci ildə tərtib olunmuş "Naxçıvan sancağının müfəssəl dəftəri"nə görə artıq Zəngəzurun 18 kəndində yaşayırdılar. Adlarını yuxarıda qeyd etdiyimiz kəndlərlə yanaşı, 1727-ci ildə ermənilər Zəngəzurun daha 14 kəndinə – Uz, Qızılca, Talibabad, Ərikli, Pul, Qalacıq, Ortagir, Benis, Dəsdgird, Şəki, Kivas, Şələt, Sənkar və Berdi kəndlərinə yerləşmişdilər. Daha bir misal: XVI əsrin sonlarında Qapan qəzasına tabe olan Bərgüşad nahiyəsində ermənilər yaşamadığı halda, 1727-ci ildə Gəncə-Qarabağ əyalətinin tərkibində olan bu nahiyəyə artıq 52 erməni ailəsi köçüb yerləşmişdir. Fikrimizcə, burada yerləşmiş ermənilər yerli əhali deyil, vaxtilə I Şah Abbasın İranın iç əyalətlərinə köçürdüyü ermənilərin təkrar geri qayıtmalarına icazə verilərkən, onlar öz yerlərinə, yəni şərqi Anadolu ilə həmsərhəd olan nahiyələrə deyil, Naxçıvan və Zəngəzur nahiyələrinə yerləşmiş ermənilər olmuşlar. Aydınlıq üçün onu da qeyd etmək lazımdır ki, o dövrün hadisələrini şərh edən erməni tarixçilərinin çığırbağırına rəğmən I şah Abbas Anadolu, Qars, Naxçıvan və qismən Zəngəzur ərazilərindən yalnız erməniləri deyil, orada yaşayan bütün əhalini İranın içərilərinə köçürmüşdür. Belə köçürülmə siyasəti o dövrün müharibələrində döyüş taktikası kimi həyata keçirilirdi. Belə ki, hücum edən Osmanlı əsgərləri tutduqları ərazini bomboş görüb, orda möhkəmlənməyin ərzaq, qida, yem təminatının mümkünsüzlüyünü görərək geriyə qayıdırdılar. Məhz I şah Abbas torpaqları Osmanlı işğalına verməməkdən ötrü bu ərazilərdəki əhalini Ərdəbil ətrafına köçürmüş yaşayış evlərini, bağları və əkin sahələrini yandırmışdır. Bir balaca ictimai-siyasi sakitlik yaranan kimi Zəngəzurun azərbaycanlı əhalisi yenidən öz yerlərinə qayıtmışlar. 1595-ci il tarixli "İrəvan vilayətinin icmal dəftəri" Zəngəzur diyarında osmanlıların tətbiq etdiyi torpaq sahibliyi və torpaq sahiblərinin etnik mənsubiyyəti haqqında geniş məlumat verir. Osmanlı torpaq sahibliyi ilə bağlı qaydalara görə dövlətin maliyyə idarəsi hər bir kəndi, həmçinin vaxtilə yaşayış məskəni olmuş və sonradan heç kimin yaşamasına baxmayaraq, əkin yerləri əkinçilik üçün istifadə olunan kəndləri (məzrəələri) gəlir mənbəsi kimi icmal dəftərlərinə salmışdır. İllik gəlirin həcmindən asılı olaraq, torpaq sahibliyi, xas, timar və zeamət kimi bölünmüşdür. İllik gəliri 3 mindən 20 min ağçaya qədər olan gəlir mənbəsi timar, 20 mindən 100 minə qədər olan gəlir mənbəsi isə zeamət adlanırdı. Əgər

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

illik gəlir 100 min ağçadan artıq olurdusa, bu torpaq sahibliyinə xas deyilir və əsasən sultan və onun ailə üzvlərinə, bəylərbəylərə, sancaqbəylərinə və yüksək vəzifəli və rütbəli şəxslərə verilirdi. Nəzərdən keçirdiyimiz 1595-ci il tarixli "İrəvan vilayətinin icmal dəftəri"nə görə, Sisyan nahiyəsində 12 zeamət və 32 timar, Bazarçayı nahiyəsində 13 timar, Zar və Zebil nahiyələrində isə, 5 zeamət və 46 timar mövcud olmuşdur (Nərimanoğlu, 2019).

Adını yuxarıda qeyd etdiyimiz icmal dəftərinə görə, zeamətlərə və timarlara adətən bir və ya bir neçə kəndin gəliri aid edilmişdir. Bundan əlavə, bir neçə torpaq sahibi bir və ya bir neçə kəndin gəlirini bölüşdürürdülər. Beləliklə də, Zəngəzurun osmanlı dövrü tarixində bir kəndin idarə edilməsində bir neçə torpaq sahibinin iştirak etdiyinin şahidi oluruq. Heç şübhəsiz ki, bu keçici xarakter daşımış və sırf osmanlılar dövrü ilə əlaqədar olmuşdur. Lakin bizim üçün daha maraqlısı, Zəngəzur diyarının kəndlərinin torpaq sahiblərinin hamısının türk-müsəlman əhalisindən ibarət olmalarıdır. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nə görə isə, Zəngəzur diyarının kəndlərinin torpaq sahibliyində ciddi dəyişikliklər baş vermiş və onların hamısı sultan xaslarına aid edilmişdilər. Şübhəsiz ki, Osmanlı idarəçiliyi dövründə də, Zəngəzurun yerli hakimləri müsəlmanlar olmuş, ərazinin həm azərbaycanlı, həm də qeyri-azərbaycanlı kəndlərinin idarə edilməsi bu hakimlər tərəfindən həyata keçirilmişdir. Zəngəzur diyarının yerli idarəçiliyinin hansı illərdə kimlərə tapşırıldığı barədə mənbələrdə geniş məlumatlar olmasa da, bəzi faktlar bu məsələyə də aydınlıq gətirir. Misal üçün, Səfəvilər dövlətinin tarixi ilə bağlı əvəzsiz mənbə olan İsgəndər bəy Münşinin (Türkman) "Tarixi-aləm-arayi – Abbasi" əsərində 1628-ci ilə aid hadisələrdən bəhs edərkən, müəllif Səfəvi əmirləri arasında Naxçıvan tüməninə Tabe olan Qapan ölkəsinin hakimi kimi türkmən camaatının Ördəkli Oymağından olmuş Həsən sultanın, Bərgüşad hakimi kimi isə, Maqsud Sultanın adlarını qeyd etmişdir.XVIII əsrin 20-ci illərinə, yəni osmanlı dövrünə aid həmin məsələ ilə bağlı Məlumatlar, İstanbuldakı Başbakanlık Osmanlı Arxivində saxlanılan və 1730-cu İldə tərtib olunmuş "Sancaq tevcih dəftəri"ndə də vardır. Bu dəftərin məlumatlarına gorə Qapan sancaqbəyisi vəzifəsinə 14 oktyabr 1724-cü (hicri 25 məhərrəm 1137-ci) ildə Bayəzid sancaqbəyisi Mahmud paşanın təqdimatı ilə osmanlıların Naxçıvan uğrunda apardıqları döyüşlərdə şücaət göstərmiş əylisli

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Musaxan oğlu Əhməd bəy təyin olunmuşdur. 1727-ci ilin iyun ayının sonlarında (zülqəddə 1139-cu hicri ilində) Təbriz Sərəsgəri Əli paşanın təqdimatı ilə Qapan sancağı Qoca Əli paşa adlı bir şəxsə maaş kimi əvvəlcə arpalıq, 19 mart 1729-cu (hicri 18 şaban 1141-ci) ildə isə, yurdluq şəklində verilmişdir. 1730-cu ildə ildə Əli paşanın vəfatından sonra, 5 mart 1730-cu (hicri 15 şaban 1142-ci) ildə Təbriz sərəsgəri Mustafa paşa Qapan sancağının idarəsini İrəvan valisi İbrahim paşaya tapşırmışdır. XVIII əsrin 20-30-cu illərində İrəvan livasına tabe olan Zarzebil bölgəsi İrəvan livasının dəftəri tərtib olunana qədər, yəni müvəqqəti olaraq sancaq kimi Qəbul edilmiş və 1724-cü ilin noyabr ayının sonlarında (hicri rəbiüləvvəl 1137 ci il). Maraş alaybəyisi Zülqədər oğlu Seyid Mustafa Zarzəbil sancağının Sancaqbəyisi vəzifəsinə təyin olunmuşdur. Lakin 2 yanvar 1725-ci (hicri 16 Rəbiülaxır 1138-ci) ildə İrəvan valisi Rəcəb paşa və baş dəftərdar İbrahim əfəndinin Birgə qərarı ilə Zarzebil sancaqlıqdan çıxarılaraq, nahiyə statusuna keçirilmiş və buradan əldə olunan gəlirin hamısının İrəvan qalası qarnizonunun əsgərlərinin maaşı kimi müəyyən edilmişdir (3).

Ümumi olaraq Zəngəzur əhalisi Osmanlı hakimiyyətini heç bir zaman tam qəbul etməmiş və durmadan ayaqlanmalar etmişdir.

## Ədəbiyyat

1. Urud, M. (2005). Zəngəzur. Bakı.
2. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı.
3. Prezident kitabxanası. Zəngəzur Osmanlı hakimiyyəti illərində.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 398-399**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 398-399**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Əminə Tağıyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
eminetagiyeva24@gmail.com

# ZƏNGƏZUR – ANA VƏTƏN!

***Açar sözlər:*** *dəmir yumruq, ərazi, sərhəd, əsr, zaman*
***Keywords:*** *iron fist, territory, border, century, time*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb.

Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir.

Toponimin sonundakı "zur" türk dilində "dərə", "yarğan" mənasında işlənən car sözünün fonetik variantıdır. Ad etnotoponimdir, quruluşca mürəkkəb toponimdir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır. İnzibati-ərazi vahidi kimi, Zəngəzur XIX əsrin birinci qərinəsinin sonunda meydana çıxmışdır. 1813-cü il Gülüstan müqaviləsinə əsasən, bu ərazilər Rusiyanın işğal etdiyi ərazilərə daxil edilmişdir.

Azərbaycan ötən ilin payızında tarixi qələbə qazanaraq Qarabağın 30 illik işğalına son qoydu. Cəmi 44 günə Ermənistan ordusunun darmadağın edilməsi ilə nəticələnən Vətən Müharibəsi Cənubi Qafqaz regionunda tamamilə yeni situasiya yaratdı.

Azərbaycan xalqının cəm olduğu “Dəmir yumruq” sayəsində bölgənin geosiyasi mənzərəsi dəyişdi, işğalçılar ağ bayraq qaldıraraq qarşımızda diz çökdü və Ermənistan kapitulyasiyaya imza atdı. İkinci Qarabağ savaşının ən mühüm nəticələrindən biri də Azərbaycan, Ermənistan və Rusiya arasında Zəngəzur dəhlizinin açılması barədə üçtərəfli razılığa gəlinməsi oldu.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 398-399**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 398-399**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngəzur Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olub. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinib. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşicəsinə qətlə yetirilib.

*Zəngəzur torpaqlarının ermənilərə verilməsi*

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla mümkün oldu. Həmin qərarda Zəngəzur bölgəsini iki yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə, Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 400-403**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 400-403**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Aynur Namazova**
Azerbaijan State Pedagogical University
aynamaz@mail.ru
https://orcid.org/0009-0001-2498-8880

# TOPONYMS OF TURKISH ORIGIN IN ZANGAZUR

***Keywords:*** *Zangazur, toponyms, Turkic origin, Cimmerians and Saks, Caucasian Albania*

***Açar sözlər:*** *Zəngəzur, toponimlər, türk mənşəli, kimmerlər və saklar, Qafqaz Albaniyası*

More than of the toponyms of Zangazur, one of the oldest settlements in the South Caucasus, are of Turkish-Muslim origin. The names of the oldest settlements in the region are related to the tribes of Turkic origin – proto-Turks, who lived here since the first formation of Caucasian Albania.

Place names such as Gafan, Goroz Castle, Sisakan, Sheki, Agvanna, Agvani, Hot, Shalet in Zangazur are toponyms directly related to ancient Turks. The arrival of Proto-Turks – Sakas and Cimmerians, who were permanently established in these places many years ago and played an important role in the formation of most tribes and derivatives (ethnos) in Sisak (as well as between Kura and Araz as a whole) coincides with the 7th century BC. 2700 years ago, the Cimmerians and Saks came from the northern shores of the Black Sea to the South Caucasus, Front and South Asia and settled here (along with other tribes) and played an important role in the formation of the Azerbaijani-Turkish ethnos. A large branch of the Saks, the Si Saks, settled in the regions of Caucasian Albania from Goycha Lake to the Karabakh Plateau, while the other branch, the Ar Saks, settled in the foothills and plains, in the present-day Karabakh territory, in the Mil and Mugan plains. There are enough place-names related to Sacs and Cimmerians in Zangazur. Sisyan in Sisyan district, (as well as the ancient name of the region Sisakan) Sheki, Shukar, Pusak, Gomur, Gomaran settlements in Gafan district are among our national and spiritual values that have kept the historical secrets related to Sak and Cimmerians until now.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 400-403**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 400-403**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

The toponyms related to the Huns in the zone arose as a result of the settlement of the Huns who came to the South Caucasus at the beginning of the era. In Zangazur, toponyms such as Hunit (Gafan district), Khunzirak (Gorus district), Gundanli (Gubadli district), Gushchu (in Lachin and Sisyan), Gushchulu (Gubadli district) named after the Huns' poultry tribe are undeniable evidences that prove that the aboriginal inhabitants of this zone are none other than Turkic peoples.

Traces of Bulgarians of Turkic origin, who began to settle in the Caucasus from the second century BC, remain in Zangazur until recently. The Gazan mountain, Gazan lake, Gazanchi villages, which reflect the name of the Kazan tribe of the Bulgarians, are the evidences that show that the settlement of Turks in these areas has a history of more than two thousand years. The Turkic-speaking Khazars, who penetrated Caucasian Albania from the beginning of the era (193-213 AD), also left their mark in Zangazur. Toponyms with the names of Kulas, Belenjar, Tarna tribes of the Khazars still exist in Zangezur today: Ulashli village (Gubadli district), Tatnavit meadow of Nuvedi village (Megri district), Belanjar mountain (Zangilan district). Gafan (kapan), Pichenis, Sofulu, Saralli, Gighi, Goyarcik, Suvarlı, Yaycı, etc., bearing the names of other large Turkic tribes (Pecheneg, Suvar, Sofulu, Saral, Yayci, Qigili) in the zone. the existence of settlements are undeniable historical facts that prove that the aboriginal population of this place are Azerbaijani Turks.

It is known from history that the territory of Zangazur is the home of the ancient Oguz. Thick Inner Oguz tribes settled, lived and fought in these mountains.

Most of the events in "Kitabi-Dede Gorgud", which is considered the heroic epic of all Turkic peoples, took place in these areas and have preserved their echoes in the stone memory of history, in the memory of people's blood and genes to this day. Shoklu Malik, who is given as a negative character in the book Dede Gorgud, is not a stranger, he is a Kipchak who accepted Christianity from the same root as Salur Ghazan Khan – Shakli, Sakli Malik. It is also understandable that Shoklu (hidden) Malik is presented as an infidel. As is known, Christianity began to spread in the Caucasus at the end of the 3rd century, and in the

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 400-403**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 400-403**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

4th-5th centuries it came to Zangazur (Sunika), but it was not welcomed so enthusiastically by the population living here.

A part of the Albanian population (Soklu Malik, Sakli Sumbat) accepted Christianity, gained the financial, political and military support of Byzantium and managed to occupy a dominant position in the region. The tribes that did not accept Christianity accepted Islam in the 7th and 8th centuries and gradually converted to Islam, and began to call their fellow Christians "infidels" during conflicts, and "separate brothers" during times of peace and tranquility.

In Zangezur, there are hundreds of toponyms related to the Bayandur, Kayi, Khalaj, Chepni tribes of the Oguz, especially the Gajar, Baharli, Zangane, Zulgadar, Padar, shepherd tribes of the Kayi Turks (Bayandur−village in Gorus district, river in Lachin, Gayali and Babali Gayali villages – Gubadli district, Khalaj village – Gafan and Gubadli districts, Chapni village – Gafan district, Avsarlu village - Gafan district). It is possible to explain the existence of several Baharli villages in Sisyan, Gafan and Zangilan regions with the widespread distribution of the tribe of the same name in this area.

Gajaran, Avsharli, Chepni, Chullu, Khalaj, Chobanli, Darzili in Gafan region; Bayandur, Yayci in Gorus district; Baharli, Uz, Murkhuz, Burjalar Darzili, Zabazadur in Sisyan district; Khalaj, Padar, Dondarli in Gubadli district; The names of Baharli, Burunlu, Ordekli villages in Zangilan district are topomorphants related to 24 Oguz tribes.

Some of the place-names in Zangazur are related to Islam and of Arab-Persian origin: Shikhlar, Mollali, Musallam, Pirdovdan, Sanjarli, Shahercik, Arabkhana, Sham, Shamsiz, Mazra, Malik, etc. The history of some settlements in Zangezur is very old. Urud, Vaghudi, Aghudi, Dovrus, Shurnukh, Shabadin, Gurdgalag, etc., which existed at the beginning of our era, and even in the millennia before the modern era, and whose historical past and belonging are preserved in the name. It is very difficult to explain such toponyms. Almost all hydronyms in Zangezur territory (Bazarchay, Bargushad, Okchu River, Chaundur River, Oxdar River, Basitchay, Eyri River, Deli River, Padarchay, Gazangol, Karagol, etc.) are in Azerbaijani language. In general, it can be said that the detailed historical, ethnographic, linguistic, toponomic researches we conducted strongly suggest that, with the exception of a

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

few villages, there are no topomorphants of Armenian origin in Zangazur.

Unfortunately, the occupation of our lands by the Armenians in the 20th century, the crimes of ethnic cleansing and genocide committed against our people did not escape our toponyms. While all the place names in the maps belonging to the beginning of the 20th century were in Azerbaijani Turkish, starting from the 1930s, in several stages (1937-40, 1956, 1968, 1991), all toponyms in Western Azerbaijan, including Western Zangazur, were changed and Armenianized. Armenians tried to change the toponyms in East Zangazur and Karabakh during the years of occupation.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 404-406
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 404-406
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Eltac Salmanzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
bakalavr
eltac.salmanzadee@gmail.com

# AZƏRBAYCANIN TARİXİ QƏLƏBƏSİ UĞURLU SİYASƏTİN NƏTİCƏSİ KİMİ

***Açar sözlər:*** *II Qarabağ müharibəsi, hərbi texnika, “Qisas” əməliyyatı, sülhməramlı qüvvələr, Azərbaycan ordusu*
***Keywords:*** *Karabakh War II, military equipment, operation "Revenge", peacekeeping forces, Azerbaijani army*

Ermənistan hakimiyyəti tərəfindən sülh prosesində qeyri-konstruktivliyin nümayiş etdirilməsi II Qarabağ müharibəsindən sonra Rusiya Azərbaycan Ermənistan tərəfindən 2020-ci 10 noyabrda imzalanan bəyanatın müddəalarının Ermənistan rəhbərliyi tərəfindən həyata keçirilməmisi, sülh fəaliyyətinin həyata keçirilməsində pozuculuq fəaliyyətlərinin davam etdirilməsi, dəfələrlə Rusiya sülhməramlı qüvvələrinin komandanlığına edilən xəbərdarlıqlara baxılmayaraq Rusiya sülhməramlı qüvvələrinin kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərdəki qeyri-qanuni silahlı birləşmələrinin atəşkəsi pozaraq hərbi və mülki infrasturuktura təhlükə törətməsi, Ermənistan hakimiyyəti tərəfindən Qarabağa əlavə hərbi texnika və birləşmələrin göndərdilməsi, yeni istehkam və səngərlərin yaradılmasına cəhdlər göstərilməsi, davamlı olaraq erməni diversiya qrupları tərəfindən Azərbaycan ordusunun arxa və ön təminat yollarının minalanması və atəşkəsin tez-tez pozulması Ermənistan hakimiyyətinin sülh prosesində qeyri konstruktiv mövqe nümayiş etdirməsinin əyani sübutudur. Ermənistan Baş Naziri tərəfindən Azərbaycan ərazi bütövlüyünün sözdə tanınmasına baxmayaraq, Azərbaycanın beynəlxalq səviyyədə hüquq normalarıyla müəyyən edilmiş sərhədləri daxilində yerləşən ərazilərdə pozuculuq fəaliyyəti aşikar şəkildə davam etdirilmişdir. Ermənistanda revanşist meyillərin güclənməsi lokal antiterror əməliyyatların həyata keçirilməsinə rəvac verən səbəblərdən oldu. Azərbaycan tərəfi II Qarabağ müharibəsindən sonra da beynəlxalq normaya zidd olan fəaliyyətlərin qarşısını almaq üçün “Qisas” kimi bir sıra əməliyyatlar

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

keçirmişdir. Hərbi arenada məğlubiyyətə uğrayan Ermənistan diplomatiyası beynəlxalq arenada da Azərbaycan diplomatiyası tərəfindən biabırcasına məğlub olmasına baxmayaraq öz xülyalarından əl çəkməmiş, 30 ildən çox davam etmiş münaqişə prosesini davam etdirməkdə maraqlı olmuşdur.

Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev Azərbaycan ordusunun müasir standartlara uyğun olaraq yenidən qurulması prosesinin əsasını qoymuş onun görkəmli davamçısı Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandı cənab prezident İlham Əliyev bu prosesin davamlı surətdə həyata keçirərək Azərbaycan ordusunu müasir standartlara uyğun olaraq dünya orduları sırasına daxil etmişdir. II Qarabağ müharibəsində hərbi əməliyyatlarda aparılan taktikalar dünyanın qabaqcıl hərb məktəblərində tədris olunmaqdadır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ermənistan Respublikasının eks-prezidenti Köçəryanla sərhədyanı ərazidə görüşündə də Azərbaycanın işğal altında olan ərazilərinin tez və ya gec, bir gün azad olunacağını bildirmişdir. Ermənistan rəhbərliyi tərəfindən sözdə Qarabağ özünümüdafiə birləşmələrinə əlavə qüvvə cəmləmək üçün sərhədyanı ərazilərə əlavə hərbi texnika və birləşmələrin cəlb olunması Azərbaycan tərəfinin qətiyyətli addımlar atması üçün antiterror hərbi əməliyyatlarını başlatmasıyla bağlı qərar qəbul etməsini məcburiləşdirdi. Son olaraq Ağdam Füzuli təminat yolunun minalanması nəticəsində 6-sı polis əməkdaşı olmaqla 1 nəfər mülki vətəndaşın həyatını itirməsi əməliyyatların başlamasına gətirib çıxardı. II Qarabağ müharibəsi dövründə olduğu kimi qardaş Türkiyə antiterror əməliyyatının başlamsının ilk anından Azərbaycanın dəstəkləyərək yanında olduğunu Türkiyə Cümhriyyətinin prezidenti cənab Rəcəb Tayyib Ərdoğan BMT Assemblyasındakı çıxışında da, beynəlxalq arenada da Azərbaycana dəstəyini ifadə etmişdir, Ermənistan hərbi-siyasi rəhbərliyinin cəbhədə ardıcıl olaraq aldığı ağır zərbələr nəticəsində məğlub olaraq geri çəkilməsini Rusiya SM fəaliyyətinin düzgün aparılmamasında və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı hərbi blokunun üzv olduğu beynəlxalq tərəfdaşı olan Rusiyanın onu dəstəkləməsində günahlandırmışdır. Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən keçirilən brifinqdə də Azərbaycan Ordusunun yüksək dəqiqlikli silahlarla yanlız legitim hərbi obyektləri, silahlı birləşmələri və texnikanı hədəf aldığını bildirmişdir.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Ermənistan hərbi rəhbərliyi II Qarabağ müharibəsi dövründə olduğu kimi, yenə də hərbi texnikaları yaşayış məntəqlərinin yaxınlığında yerləşdirməklə dünyaya Azərbaycanın mülki əhalini hədəfə aldığı donunu geyindirməklə beynəlxalq havadarlarının dəstəyi ilə Avropa İttifaqı tərəfindən Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinə çalışmasına baxmayaraq beynəlxaql arenada riyakar əməllərinə məhəl qoyulmamışdır. Antiterror əməliyyatları zamanında da Laçın dəhlizi açıq saxlanmış, Qarabağın mülki erməni əhalisi tibbi yardım ərzaq sığınacaq və su ilə təmin edilmişdir Cəmi 23 saat 46 dəqiqə davam edən antiterror əməliyyatları zamanı Azərbaycan ordusunun qarşısına qoyulmuş tapşırıq və əməliyyat planı həyata keçirilmişdir və nəticədə Qondarma rejim ağ bayraq qaldıraraq özünün təslim olmasını bəyan etmişdir. Sentyabrın 21-i saat 13:00-da Ermənistan rəhbərliyi nümayəndə heyəti Rusiya sülhməramlı qüvvələrinin müşayəti ilə Yevlaxa gəlmişdir, Yevlaxın görüş məkanı kimi seçilməsi heç də təsadüfi bir hal deyildi. Ermənistan rəhbərliyi hələ I Qarabağ müharibəsi dövründə karikaturalar və başqa vasitələrlə fikirlərində Azərbaycan ərazilərini Kürün sol sahilinə kimi işğal edib orada çay içəcəklərini bildirirdilər. Buna bir səbəb də Azərbaycanın neft kəmərlərinin həmin ərazidən keçdiyini nəzərə alaraq təhlükə törətmək idi. I Qarabağ müharibəsi dönəmində Ermənistan tanklarının Bakıya kimi girəcəyi xülyasına inandıran erməni rəhbərliyin silahlı texnikası Azərbaycanın II Qarabağ müharibəsindən sonra qələbə paradında lülələri endirilmiş şəkildə bütün dünyaya nümayiş etdirilərək hərbi qənimətlər parkında yerləşdirildilər.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 407-410
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 407-410
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Mehman Məmmədov**
Bakı Dövlət Universiteti
bakalavr
mehman059@icloud.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *diyar, şöhrət, müxtəlif, təbiət, bölgə*
***Keywords:*** *land, fame, variety, nature, region*

Zəngəzur – adı da, özü də bizə məxsus olan diyar. Yerin, ərazinin adı onun kimə məxsusluğu haqqında çox şey deyir. Adları, təbii ki, insanlar verirlər və öz dillərinə, xarakterlərinə, tayfalarına, yaşadıqları yerin təbiətinə uyğun adlar düşünüb tapırlar. Azərbaycanın ən qədim və ən şöhrətli torpaqlarından biri olan Zəngəzurun adının mənasını da Azərbaycanın tarixi keçmişində axtarmaq lazımdır.

Tarixi Zəngəzur ərazisi ayrı-ayrı dövrlərdə müxtəlif adlarla tanınıb. Bölgənin ən qədim adlarından biri Sünik olmuşdur. Sünik Albaniyanın dörd böyük vilayətindən biri idi. Sünik bəzi dövrlərdə müstəqil knyazlığa çevrilsə də, bəzən Atropatenanın, əksər dövrlərdə isə Albaniya dövlətinin tərkibində olmuşdur. Qədim dövrü araşdıran bir sıra alimlər Sünik toponimini eradan əvvəl IV minillikdə Çinin indi uyğurlar yaşayan bölgəsindən Qafqaza köç etmiş syun-na, syun-nu tayfalarının adı ilə bağlayırlar. Sünik adını "su ətrafı ərazi" kimi də yozurlar.

E.ə. III minilliklərdə regionda türk mənşəli su, (suv) tayfalarının məskunlaşması həmin ərazidə türk (suv) tayfalarının yaşaması ehtimalını gücləndirir.

Sünik adının fars variantı sayılan Sisakan adına ilk dəfə VI əsr Suriya salnaməçisi Zaxari Ritorun əsərində rast gəlinir. Müəllif 555-ci il hadisələrini təsvir edərkən Sisakanı Ərməniyyə ilə heç bir əlaqəsi olmayan, Arran və Qurzan (Gürcüstan) kimi müstəqil ölkə kimi xarakterizə etmişdir.

Alban tarixçisi Musa Kalankatlı "Alban tarixi" əsərində Zəngəzur ərazisini "Sisakan", "Sünik", eləcə də "Sünestan" adlandırmışdır. Erməni "alimləri" "Zəngəzur" sözünün mənasını iki anlamda izah etməyə çalışırlar. "Zanqe", yaxud "Zanqa" - "mağara" və "Zur" -

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

"bərk səslənən, guya ki, Zəngəzurda çoxlu kahalar və mağaralar vardır və bu mağaralar çox bərk əks-səda verir.

Əslində, bu cür "izah" erməni yalanının əks-sədasından başqa bir şey deyildir. Əvvəla, ona görə ki dünyanın hansı dağlıq ərazisində mağara, yaxud kaha yoxdur, o mağara və kahalar səsə əks-səda vermir? Bəs niyə dünyanın hər hansı bir ölkəsində, eləcə də ermənilər yaşayan başqa yerlərdə böyük bir regiona "bərk səslənən mağara" adı vermirlər?

İkincisi, axı, Zəngəzurda o qədər də çox mağara yoxdur, əksinə, çoxlu sıldırım qayalı, başı qarlı dağlar, dərin dar dərələr, sıx meşələr, kollu yamaclar və çiçəkli alp çəmənlikləri vardır. Erməni alimləri isə yalnız mağaraları görüblər?!

İzahı çox sadədir: ermənicə nə dağ, nə dərə, nə də çəmən sözləri “Zanqe”, yaxud “Zanqa” kimi səslənmir.

Nisbətən abırlı erməni alimləri bir qədər həqiqətə yaxın gələrək “Zəngəzur” sözünü “Zanqe+dzor”, yəni "Zəngi dərəsi" anlamında izah etməyə çalışırlar. Bu izahın birinci hissəsi həqiqətə yaxındır. Lakin erməni mənbələrində erməni mənşəli termin ("dzor" - ermənicə "dərə" deməkdir) kimi vurğulamağa cəhd göstərildiyinə baxmayaraq, əslində, "Zəngəzur" toponiminin nə ermənilərə, nə də onların "dzor" sözünə heç bir dəxli yoxdur. Ermənilər özləri də heç vaxt "Zəngəzur" sözünü Zanqedzor şəklində işlətməyiblər.

Zəngəzur sözünün ermənicəyə dəxli olmadığını daha bir fakt da sübut edir. Hazırkı Ermənistanın inzibati ərazi bölgüsündə Zəngəzur adlı ərazi yoxdur. Bu bölgəni Ermənistanda Sünik mərzi adlandırırlar. Sovet hakimiyyəti illərində Zəngəzurun özü kimi adına da iddia edən ermənilər hazırda faktiki olaraq Zəngəzur terminindən imtina etmişlər.

Bu toponimin "Səngi-Sur" formasında izahı da, hər hansı bir elmi əsasa malik olmasa da, maraq doğurur. Belə ki, fars dilində "səng" - daş, qaya, ərəbcə isə "sur" sözü silsilə divar, qala mənasındadır.

Zəngəzur sözü bu anlamda başdan-başa, daşlı, qayalı yer, daşların qala divarları kimi düzüldüyü ölkə mənasını verir.

Fikrimizcə, "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır.

Ərəbcə "sur" daş-divar, qala, bürc deməkdir. Bu bölgənin çox döyüşkən və azadlıq sevən əhalisi ərəblərə qarşı axıradək mübarizə

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

aparmış, şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də, bu yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər.

Ömrünün sonunadək ərəb xilafətinə qarşı ardıcıl, amansız mübarizə aparmış Babəkin Bəzz qalası yeniləndən sonra Darvazatəpə dağında yerləşən Şəki qalasına gəlməsi və məhz Zəngəzurdakı Şəki qalasının hakimi Saklı Sumbat tərəfindən tutularaq ərəblərə təslim olunması epizodu da bu ərazilərin o dövrdə geniş döyüş meydanı olduğunu və Zəngəzurun ən sonda, həm də Sumbat kimilərin xəyanəti nəticəsində yenildiyini təsdiq edən tarixi faktlardır.

Məlum olduğu kimi, Zəngi tayfaları tarixdə görkəmli qoşun başçıları və dövlət xadimləri ilə məşhur olan bir türk boyudur. Zəngi tayfalarının ən qədim yaşayış məskənlərindən biri Cənubi Azərbaycandakı Zəncan şəhəridir. Bu şəhərin adını farslar "Zənqən" ("ən" farsca çoxluq bildirən şəkilçidir.) kimi tələffüz edirlər. Ərəblərin bu ərazilərə gəlişi ilə bağlı "q" səsinin "c" səsi ilə əvəzlənməsi nəticəsində yazılı mənbələrdə şəhərin adı Zəncan kimi qeyd olunmağa başladı.

Zəngi tayfalarının ana vətəni Orta Asiya, daha konkret desək, indiki Özbəkistan əraziləridir. Zəngi tirəsi hal-hazırda Özbəkistanda yaşayır və burada zəngi adı ilə bağlı çoxlu toponimlər indi də qalmaqdadır (Zəngi, Zəngitəpə, Zəngərik və s.).

Zəngilər bizim eranın əvvəllərində daha geniş areala səpələnməyə başladılar. Qazaxıstana, Əfqanıstana, İrana və Qafqaza gələn zəngilər məskunlaşdıqları yerlərdə öz adları ilə bağlı şəhərlər, kəndlər salmağa, öz adlarını çaylara, dağlara, dərələrə verməyə başladılar.

Məhz Azərbaycan Atabəylər dövlətinin və daha sonra Səfəvilər xanədanının dövründə İrəvan, Çuxursəd, Ərzincan, Sisakan ərazilərində zəngənə oğuzlarının ictimai-siyasi fəallığının yüksəlməsi müşahidə edilməyə başladı. Bu dövrdən etibarən "zəngi(ə)" kökü ilə bağlı müxtəlif toponimlər və oronimlər bu arealda yayılmağa başladı.

Zəngəzurun adı da, özü də bizə məxsusdur. Min illər öncə bizim ulu babalarımız bu torpaqları əkib-becərmiş, abadlaşdırmış, kəndlər, şəhərlər şalmış, Vətən etmişlər. Son yüzillikdəki qısa fasilələr istisna olmaqla bu torpaqlarda həmişə bizim xalqımız yaşamış və hökm etmişdir. Sovet hökuməti tərəfindən Zəngəzura qarşı törədilmiş qəsd və tarixi ədalətsizlik həm də Azərbaycanın və türk coğrafiyasının ərazi

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

bütövlüyünü pozmuşdur. Cənab Ali Baş Komandan İlham Əliyevin iradəsi ilə tarixi geri dönüş, ədalətin bərpası zamanı başlamışdır.

İndi dünya sularında üzərində cənab İlham Əliyevin imzası olan "Zəngəzur" tankeri üzməkdədir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 411-415**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 411-415**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Aytən Heydərova**
Bakı Dövlət Universiteti
bakalavr
ayten.heyderova@icloud.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *ərazi, hissə, sərhəd, tarix, silsilə*
***Keywords:*** *territory, part, border, history, series*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir.

Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır. Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Mada şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olub.

VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradılmış, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirilmişdi. VII əsrin əvvəllərində Bizans imperatoru II İraklinin Sasani şahənşahı II Xosrov Pərvizlə apardığı müharibədə qalib gəlməsi fars hakimiyyətinə tabe olan ölkələrdə müstəqillik meyillərini gücləndirdi. Nəticədə, Sünik knyazlığı da müstəqil oldu. Moisey Kalankatlı "Albaniya tarixi" əsərində VII əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcud olduğunu qeyd edir.

Qədim dövr mənbələrində bu region Sisakan, yaxud Sünik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan sakların adı ilə bağlı

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

olduğunu yazırlar. Alban tarixçisi Moisey Kalankatuklu "Albaniya tarixi" əsərində bu ərazidə yaşayan alban tayfa birlikləri barəsində, eyni zamanda qarqarlar, xəzərlər, hunlar və digər türk tayfaları haqqında da məlumat verir.

Azərbaycan Albaniya dövlətinin şərq hissəsini təşkil edən Zəngəzur Araz çayı boyu ilə Meğridən başlamış, Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərguşad dağlarınadək olan geniş ərazini əhatə edir.

VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunmuşdur. Ərəb xilafətinin zəifləməsi dövründə isə keçmiş Albaniya ərazisində kiçik Azərbaycan feodal dövlətləri yaranmışdır. Monqolların ağalığı dövründə Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninin tərkibinə daxil idi. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk səfəvilər dövründə davam etmişdir.

"Zəngəzur" termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır.

Ərəb "cəsur", daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də, yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər.

XIII-XIV əsrlərdə Zəngəzur torpaqları coğrafi baxımdan Azərbaycan əyalətinin Naxçıvan tüməninə və Arran əyalətinə daxil olmuşdur.

Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat və Naxçıvan əyalətlərinin tərkibinə düşür. Qapanat Zəngəzurun Bərgüşad silsiləsinə qədər olan cənub hissəsini əhatə edirdi. Sisian isə Naxçıvan əyalətinə daxil idi. Zəngəzurun Gorus və Kaştaq (Laçın) mahalları isə Qarabağ vilayətinin bir hissəsi idi.

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi zamanı Azərbaycanın böyük hissəsini ələ keçirən osmanlılar Naxçıvan əyalətini Sisyan və Qapanat mahalları ilə birlikdə Azərbaycan vilayətinin tərkibindən çıxarıb, Çuxursəd vilayətinin tərkibinə keçirdilər. Qapanat mahalı Bərgüşad və Urud livalarına bölündü. Sisian mahalından Kiçik

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Bazarçay nahiyəsi ayrıldı. Qapanat və Zəngəzur əraziləri Çuxursədin Bəyazid və Alaşkert vilayətləri ilə birlikdə ayrıca Bəyazid livasını təşkil etdilər. Keştaq və Həkəri mahalları Qarabağ (Gəncə) əyalətinin tərkibinə daxil idi.

I Şah Abbas XVII əsrin əvvəllərində Azərbaycan torpaqlarını geri aldıqdan sonra Naxçıvan, Qapanat və Bərgüşadı yenidən Azərbaycan vilayətinin tərkibinə daxil etdi. Bazarçay nahiyəsi Sisyana birləşdirildi.

XVII əsrin 30-cu illərinin sonuna yaxın Naxçıvan və Sisian mahalları Çuxursəd bəylərbəyliyinin tərkibinə qatıldı.

Osmanlılar XVIII əsrin 20-ci illərində yenidən Azərbaycanın çox hissəsini ələ keçirmişdilər. 20-30-cu illərin Osmanlı hakimiyyəti dövründə Zəngəzur torpaqlarının bir hissəsi - Sisian və Meğri Çuxursəd vilayətinə, Bərgüşad, Həkəri, Keştaq, Güləndər nahiyələri və Keştaqın bir hissəsi Gəncə-Qarabağ əyalətinin tərkibində idi.

1735-ci ilə kimi bütün Azərbaycan torpaqlarını osmanlılardan geri alan Nadir Əfşar, 1736-cı ildə Muğan qurultayında şah elan edilməsi zamanı Qarabağ (Gəncə) bəylərbəyi Ziyadoğulları onun şah seçilməsinə qarşı çıxdığına görə, Qarabağ məlikliklərini bəylərbəyliyin tabeçiliyindən çıxarıb, Azərbaycan hakimi təyin edilmiş qardaşı İbrahimin tabeçiliyinə keçirmişdi. 1747-ci ildə Nadir şah sui-qəsd nəticəsində öldürüldükdən sonra onun imperiyası çoxsaylı xırda dövlətlərə – xanlıqlara parçalandı. Zəngəzur ərazisi Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığının tərkibinə daxil oldu.

İnzibati-ərazi vahidi kimi, Zəngəzur XIX əsrin birinci qərinəsinin sonunda meydana çıxmışdır. 1813-cü il Gülüstan müqaviləsinə əsasən, bu ərazilər Rusiyanın işğal etdiyi ərazilərə daxil edilmişdir. 1822-ci ildə ruslar Qarabağ xanlığını ləğv edib, onu Müsəlman əyalətləri hərbi dairəsinin tərkibində bir əyalətə çevirdikdən sonra, 30-cu illərin əvvəllərində bu əyalətin tərkibində 9 minbaşılığı birləşdirən iri Zəngəzur mahalı təşkil olundu.

Bunlar keçmiş Sisian, Tatev, Zəngəzur, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Meğri-Güney və Çavundur (Çuldur) mahalları idi. 1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati quruluşa görə Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində keçmiş Zəngəzur mahalı iki sahəyə – Zəngəzur və Meğri sahələrinə bölündü. 1846-cı ilin yeni ərazi-inzibati bölgüsünə görə Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı. İrəvan quberniyasının

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

təşkil olunması ilə əlaqədar olaraq Zəngəzurun cənub hissəsi Meğri sahəsi (Qapan, Meğri-Güney, Çavundur və Püsyan mahalları ilə birlikdə keçmiş Qapanat əyaləti) 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibində oldu.

25 fevral 1868-ci ildə Yelizavetpol quberniyası yaradılarkən Bakı quberniyasının Şuşa qəzasının və İrəvan quberniyasının Naxçıvan qəzasının ərazilərinin bir qismi hesabına Zəngəzur qəzası yaradıldı. Bu qəza İrəvan quberniyasının Şərur-Dərələyəz və Naxçıvan, Yelizavetpol quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl qəzalarının əhatəsində, Araz çayı ilə İranla həmsərhəd idi. Yelizavetpol quberniyasına daxil olan qəzalar içərisində ərazicə ən böyüyü Zəngəzur qəzası idi. XIX əsrin sonlarında Zəngəzur qəzasının ərazisi 7,83 min kv.km olmuşdur.

Zəngəzur tarixən 4 sahəyə – Güney (Meğri), Qafan, Zəngəzur (Gorus) və Sisian (Qarakilsə) mahallarına bölünürdü.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdir. Zəngəzurun ərazisinin böyük bir qismi 1918-1920-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, yalnız 1921-ci ildə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati-ərazisinə daxil edilən Zəngəzur qəzası yaradılmışdır. Azərbaycan SSR-in tərkibində qalan Zəngəzurun Şərq hissəsi Qubadlı qəzasına çevrildi. 1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzası tərkibində göstərilir. İnzibati ərazi bölgüsünə görə, Şərqi Zəngəzurun ərazisi Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını və Qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Meğri rayonlarının ərazilərini əhatə edir.

Zəngəzurun adı da, özü də bizə məxsusdur. Min illər öncə bizim ulu babalarımız bu torpaqları əkib-becərmiş, abadlaşdırmış, kəndlər, şəhərlər salmış, Vətən etmişlər. Son yüzillikdəki qısa fasilələr istisna olmaqla bu torpaqlarda həmişə bizim xalqımız yaşamış və hökm etmişdir. Sovet hökuməti tərəfindən Zəngəzura qarşı törədilmiş qəsd və tarixi ədalətsizlik, həm də Azərbaycanın və türk coğrafiyasının ərazi bütövlüyünü pozmuşdur. Cənab Ali Baş Komandan İlham Əliyevin iradəsi ilə tarixi geri dönüş, ədalətin bərpası zamanı başlamışdır. İndi dünya sularında üzərində cənab İlham Əliyevin imzası olan "Zəngəzur" tankeri üzməkdədir. İndi Şərqi Zəngəzur iqtisadi rayonu sürətlə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

qurulmaqdadır, Zəngəzur dəhlizinin açılması və coğrafi cəhətdən əlaqəsi kəsilmiş böyük türk dünyasının bütövlüyünün bərpası tarixin reallığına çevrilməkdədir. Bakıdan çıxan sürət qatarının Zəngəzurdan keçərək Naxçıvana və Qarsa gedəcəyi gün o qədər də uzaqda deyildir!

Biz Şərqi Zəngəzura qayıtmışıq! Qərbi Zəngəzura da gedəcəyik. Hansı gün və hansı nəqliyyat vasitəsi ilə gedəcəyimizi isə Ali Baş Komandan söyləyəcəkdir! Zəngəzur Azərbaycandır!

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 416-418**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 416-418**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Xədicə Abbasova**
Bakı Dövlət Universiteti
bakalavr
xediceabsova@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *tarix, ərazi, kiçik, hissə, müasir*
***Keywords:*** *history, territory, small, part, modern*

Zəngəzur Azərbaycanın tarixi keçmişə malik olan ərazilərindən biridir. Dərbənddən Zəncana Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb.

Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi mahal. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 azərbaycanlı 91 kürd və 81 erməni kəndi var idi. Son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin "tarixi əzəli torpaqları"nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib.

Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında "Gülüstan", "Türkmənçay", Rusiya və Türkiyə arasında "Andrianopol" müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi halda Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar. Azərbaycanın tarixi mahalı olan Zəngəzur da digər ərazilərimiz kimi ermənilərin işğalçılıq siyasətinə məruz qalıb.

Zəngəzur etnotoponimdir, quruluşca mürəkkəb toponimdir. Zəngə-zur Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olub. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinib. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşicəsinə qətlə yetirilib. 1920-ci ilin 28 aprelində Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni silahlı dəstələrinin hücumları davam edirdi. Azərbaycan SSR hökuməti (Müvəqqəti İnqilab Komitəsi) 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi. 1920-ci il 10 avqustunda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar qəbuletdi. Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu bəyan edildi.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla mümkün oldu. Həmin qərarda Zəngəzur bölgəsini iki yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi. Zəngəzurun ermənilərə verilməsi istiqamətində ilk addımlardan biri 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyəti qurulması münasibətilə keçirilən təntənəli "tarixi" iclasında Nəriman Nərimanov bəyanatla çıxış etdi. Bakı Sovetinin iclasında yekdilliklə qəbul olunan qətnamədə "Nərimanovun Bəyanatı"nın tamamilə bəyənildiyi bildirilir və onun *"...Ermənistanla müsəlman dünyası arasındakı çoxəsrlik düşmənçilik və qanlı müharibələri birdəfəlik aradan qaldırmaqla Güney Qafqaz və bütün Şərq xalqlarının tarixində yeni səhifə açdığı"* qeyd edilirdi. Qeyd etdiyimiz kimi, tariximizin qara səhifəsi olan Zəngəzurun itirilməsinə 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KPMK Siyasi və Təşkilat bürolarının birgə iclasında qərar verildi. Qərarın "q" bəndində deyilirdi ki, Zəngəzur və Naxçıvan Sovet Ermənistanının tərkibinə keçir. Beləliklə, 1933-cü ildə Ermənistan SSR-in ərazisi rayonlara bölündü və Zəngəzur adı xəritədən

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

silindi. Yerində Qafan, Gorus, Qarakilsə (Sisian) və Mehri rayonları yaradıldı, Naxçıvan Azərbaycanın digər torpaqlarından ayrı salındı.

Zəngəzurun Azərbaycanda qalan hissəsində əvvəlcə Kürdüstan qəzası, sonra Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı. 1992-93-cü illərdə Zəngəzurun bu əraziləri də ermənilər tərəfindən işğal edildi. Şərqi Zəngəzur adlandırılan torpaqlarımız 27 illik işğaldan sonra ötən il azad olunaraq, öz əzəli sahiblərinə qovuşdu. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan, Rusiya və Ermənistan arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradır. Sözügedən bəyanatlar Zəngəzur dəhlizinin beynəlxalq səviyyədə siyasi-hüquqi cəhətdən legitimliliyi üçün əsasdır. 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanat ilə Dağlıq Qarabağ ərazisində işğal altında olan torpaqlar rəsmi şəkildə Azərbaycan Respublikasının ərazisinə qaytarıldı.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 419-421
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 419-421
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Ümid Mikayılov**
Bakı Dövlət Universiteti
bakalavr
umidmikail@gmail.com

# XX ƏSR ZƏNGƏZURU ERMƏNİ TARİXŞÜNASLIĞINDA

***Açar sözlər:*** *erməni tarixşünaslığı, sovet Azərbaycan tarixşünaslığı, XX əsr tarixi Zəngəzuru, Zori Balayan*

***Keywords:*** *Armenian historiography, Soviet Azerbaijani historiography, 20th century history Zangazuru, Zori Balayan*

Hər zaman xam xəyallarda yaşayan erməni millətinin tarix elmi də absurdluqlarla dolu olmuş, heç bir məntiq və fakta sığmamışdır. Bu yazıda Zəngəzur bölgəsinin tarixinə dair erməni müəlliflərinin bəzilərinin “araşdırmaları” ilə tanış olub heç birinin elmi əsasa sığmadığını görəcəyik.

1920-ci ildə Azərbaycanda, eləcə də Cənubi Qafqazda sovet rejimi qurulması ilə hər üç millətin azadlıq hüququ əllərindən alındı. Ermənistanda sovet rejimi qurulduqdan sonra “Böyük Ermənistan” “Türksüz Ermənistan” kimi qondarma ideologiyalar daha da geniş vüsət aldı, dəhşətli şəkildə millətçilik artdı. Erməni müəlliflər bu ideologiyaları rəhbər tutaraq Zəngəzur, Naxçıvan, Qarabağ və İrəvan bölgələrinin tarixini saxtalaşdırır, bu bölgələrin “ermənilərin qədim dədə-baba yurdu” olduğunu sübut erməyə çalışırdılar. Ən qəribəsi budur ki, həm xaricdəki erməni diasporası, həm də sovet erməni müəllifləri bu məsələlərdə həmfikir olmuş, həmişə bir ideologiyadan çıxış etsələr də Azərbaycan mühacirət yazarları ilə sovet Azərbaycan müəllifləri arasında fikir ayrılıqları olmuşdur. Mühacirət yazarları bu məsələlər haqda ən doğru məlumatları yazarkən, sovet Azərbaycan tarixçiləri buna əsasən susmuşdur (Azərbaycan tarixi, 2008).

Qatı erməni millətçisi, yazar Zori Balayan özünün bütün ömrünü türk düşmənçiliyinə həsr etmişdir. O, əsərlərində Zəngəzurun, Naxçıvanın Ermənistana məxsus olduğunu yazır, çoxsaylı sovet hakim dairələri ilə görüşərək bu bölgələrin Ermənistana verilməsini xahiş edirdi. “Daşnaksütyun” partiyasının yaradıcılarında biri, Ermənistan baş naziri olmuş Ovanes Kaçaznuni Böyük Ermənistan ideoloji xəttinə

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

sadiq qalaraq Zəngəzur bölgəsini özününkü hesab etmiş, yerli müsəlman türk əhalini yad ünsür adlandırmışdır.

Erməni tarixşünalığı bu bölgələrdə türk-müsəlman əhalinin soyqrımlara məruz qalmasını ört-basdır etmiş, Andranik, Njde kimi cəlladların etdiyi cinayətlər haqqında, necə deyərlər, "3 meymunu oynamışdırlar". İ.Ağayan, A.Akopyan, S.Vartanyan və Q.Qaloyan öz əsərlərində Zəngəzur, Naxçıvan bölgələrində baş verən qırğın və cinayətləri görməzdən gələrək ört-basdır etmişdirlər.

Erməni tarixşünaslığı Türkiyənin soyqırımlar zamanı bölgəyə göndərdiyi humanitar yardımları, habelə Azərbaycan Demokratik Respublikasına edilən köməyi ciddi şəkildə təhrif etmişdirlər.

**Zori Balayanın "Ocaq" və "Yol" əsərləri**

Hər zaman öz qatı millətçiliyi ilə seçilmiş erməni terrorçu Z.Balayan "Ocaq" əsərində Zəngəzuru tarixi erməni torpağı olduğunu yazmışdır. Naxçıvan şəhərini müqəddəs erməni şəhəri qəbul etmişdir. Eynilə "Yol" əsərində də eyni təhrif və absurdluqlara yol vermişdir. S.Atamyan "Erməni icması, sosial və ideoloji münaqişənin inkşaf tarixi" əsərində bir sıra müqavilə və konfransları (Ərzincan, San-Remo, Sevr, Moskva, Qars) öz erməni xislətinə uyğun şəkildə şərh vermiş, guya erməni əraziləri olan Zəngəzur və Naxçıvanın bilərəkdən Azərbaycan rəhbərliyinə verildiyini yazmışdır (Musayev, 1998).

Erməni tarixşünaslığındakı bu təhrif və absurdluqlar o qədər çoxdur ki, elə erməniləri özləri bu xəyal və röyalara inanmırdılar. Erməni kommunist, Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyan bunun haqda yazırdı: *"Bizim tarixçilər Ermənistandan daim bütöv bir dövlət orqanizmi, ictimai orqanizm kimi əhs edillər.Oxucuda belə bir təsəvvür yaranır ki, guya qədim Ermənistan, məsələn Rusiya, Almaniya kimi müasir, bütöv dövlətlərə bənzəyirmiş. Lakin bu, tarixi həqiqətə uyğundurmu. Tarix o zaman nağıl olmaqdan çıxıb həqiqət olurki burada bəhs olunan hadisələr tarixi şəxsiyyətlərin fəaliyyəti ciddi şəkildə işıqlandırılsın,hadisələrin və insanların hərəkətlərində səbəbiyyət əlaqəsi və qanunauyğunluq aşkara çıxarılsın. Onların (erməni müəlliflərin) irs aldıqları vətənpərvərlik keşiş təfəkkür tərzi ilə kifayətlənib,sadəlövhcəsinə təkəbbürlənmək və köhnə nağıllara bəzək-düzək verib bunları oxucuya tarix kimi təqdim etməkdir".*

Sonda dahi Atatürkün bu fikirlərini diqqətə çatdırmaq istərdim: "*Tarix yazmaq tarix yapmaq qədər mühümdür. Yazan yapana sadiq*

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

*qalmazsa, dəyişməyən həqiqət insanlığı çaşdıracaq mahiyyət alır... Tarix gerçəkləri təhrif edən bir sənət deyil, əksinə, onu açıb göstərən bir elm sahəsi olmalıdır”.*

## Ədəbiyyat

1. Azərbaycan tarixi. (2008). Yeddi clddə. V cild. Bakı: “Elm” nəşriyyatı.
2. Musayev, İ. (1998). Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 422-423**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 422-423**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nərmin Heydərli**
Bakı Avrasiya Universiteti
bakalavr
heyderli.nermin@icloud.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *dəhliz, torpaq, xalq, layihə, deportasiya*
***Keywords:*** *corridor, land, people, project, deportation*

"Biz Zəngəzur dəhlizini icra edəcəyik. Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq. Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır".

Bu fikirləri ölkə başçımız cənab İlham Əliyev söyləmişdir.

Son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar dəfələrlə öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin tarixi əzəli torpaqlarını yaratmaq siyasət mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında "Gülüstan", "Türkmənçay", Rusiya və Türkiyə arasında "Andrianopol" müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi halda Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar. Azərbaycanın tarixi mahalı olan Zəngəzur da digər ərazilərimiz kimi ermənilərin işğalçılıq siyasətinə məruz qalıb.

Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri) Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk, 91 kürd və 81 erməni kəndi

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

var idi. Zəngəzur Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olub. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinib. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilib.

Azərbaycan 2020-ci ilin payızında tarixi qələbə qazanaraq Qarabağın 30 illik işğalına son qoydu. Cəmi 44 günə Ermənistan ordusunun darmadağın edilməsi ilə nəticələnən Vətən müharibəsi Cənubi Qafqaz regionunda tamamilə yeni vəziyyət yaratdı. Azərbaycan xalqının cəm olduğu “Dəmir yumruq” sayəsində bölgənin geosiyasi mənzərəsi dəyişdi, işğalçılar ağ bayraq qaldıraraq qarşımızda diz çökdü və Ermənistan kapitulyasiyaya imza atdı. İkinci Qarabağ savaşının ən mühüm nəticələrindən biri də Azərbaycan, Ermənistan və Rusiya arasında Zəngəzur dəhlizinin açılması barədə üçtərəfli razılığa gəlinməsi oldu. Bu, bizim üçün olduqca önəmli, həm də tarixi nailiyyətdir.

Artıq Qarabağ münaqişəsi tarixə qovuşub, dövlətimizin və xalqımızın qarşısında yeni hədəflər, yeni istiqamətlər durur. Hədəfimiz bəllidir – Zəngəzur. Qarabağda addımladığımız Zəfər yolunun sonunda 101 il əvvəl Azərbaycandan qoparılmış tarixi torpaqlarımızın işığı görünür.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 424-425**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 424-425**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Ceyhun Musayev**
Bakı Dövlət Universiteti
bakalavr
ceyhunmusayev860@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *qədim, ərazi, tayfa, hakimiyyət, heykəl*
***Keywords:*** *ancient, territory, tribe, authority, statue*

Zəngəzur mahalı azərbaycanlıların qədim tarixi-etnoqrafik bölgəsidir və müasir Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan və Ermənistan Respublikasının Mehri, Qarakilsə, Gorus və Qafan rayonlarını əhatə edir. Azərbaycan coğrafiyasının mühüm tərkib hissəsi olan Zəngəzurun tarixi qədim daş dövründən başlayır. Zəngəzur ərazisində Böyük İşıqlı və Dəvəboynu dağlarında qədim türk tayfalarına aid qayaüstü rəsmlər, Nüvədi kəndində Qarqadaşı dağında qədim türk yazılı kitabələri, Qubadlı, Zəngilan, Laçın, Qarakilsə, Qafan, Meğri və Gorus rayonlarında qədim yaşayış məskənləri, kurqanlar, dini təyinatlı abidələr, o cümlədən at və qoç heykəlləri aşkar edilmişdir. Yazılı mənbələrdə Zəngəzurun yer adlarından ilk dəfə Mehri yad olunur.

Azərbaycanda 1920-ci ildə Sovet hakimiyyəti qurulduqdan sonra SSRİ hökuməti Zəngəzur qəzasının Dərələyəz, Qafan, Mehri, Gorus və Qarakilsə bölgələrini yenicə yaradılan Ermənistan vilayətinə birləşdirilməsi haqqında qərar verdi. M.Skibitskinin hesablamasına görə, Qarabağ general-qubernatorluğunun tərkibinə daxil olan Zəngəzur qəzası ərazisindən (6742,96 kv.verst) 3637 kv.versti Ermənistana verilmişdi. Ermənistan SSR Xalq Komissarları Sovetinin 1921-ci il 31 avqust qərarı ilə onun torpaqları əsasında Zəngəzur (Gorus, Sisian və Qafan) və Mehri qəzaları təşkil etmişdi. Sovet rayonlaşdırılması zamanı isə 1930-cu ildə həmin qəzaların ərazisi Gorus, Sisyan, Qafan və Mehri rayonlarına bölünmüşdü. Zəngəzurun Ermənistana verilmiş hissəsində sovet dövlət rəhbərliyinin bilavasitə iştirakı ilə Ermənistan tərəfindən respublikanın azərbaycanlı əhalisinin 1948-1953-cü illərdə deportasiyası oldu. 1987-ci ilin noyabrında Qafan və Mehri rayonlarının Azərbaycan əhalisinə qarşı yenidən deportasiya başlamışdır. Sonuncu

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

azərbaycanlı kəndi – Zəngəzurun Nüvədi kəndinin əhalisi 1991-ci ilin avqustunda deportasiya edilib. Azərbaycanın tarixi Zəngəzur bölgəsinin bir hissəsinin işğal edilməsilə tarixi Zəngəzur torpaqlarının ələ keçirilməsi başa çatdırılmışdır.

Vətən müharibəsində əldə olunan şanlı zəfərdən sonra yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması, əhalinin məskunlaşması, təsərrüfat sahələrinin bərpa olunması mühüm əhəmiyyət kəsb edir və bu sahədə müxtəlif səviyyələrdə zəruri addımlar atılır. Qarabağ və Şərqi Zəngəzur rayonlarında kənd təsərrüfatının intensiv inkişaf etdirilməsi üçün əlverişli aqroiqlim şəraitinin, əmək, yem və torpaq ehtiyatlarının, o cümlədən əhalinin tarixi ixtisaslaşması amillərinin mövcudluğu "yaşıl" quruculuq işləri fonunda ekoloji təmiz istehsal texnologiyalarının tətbiqi, tullantıların emal edilməsi və utilizasiyası, avtomatlaşdırılmış və insan faktoru olmadan idarəetmənin tətbiq edilməsinə ehtiyac yaradır. Dünyada və regionda baş verən aqrar inqilablar fonunda əhalinin davamlı qida təminatı və ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə kənd təsərrüfatında informasiya və müasir idarəetmə texnologiyalarının tətbiqi daha geniş yer almışdır. Belə ki, aqrar təsərrüfatların intensiv istehsala keçməsi qısa zaman ərzində ərzaq ehtiyaclarının qarşılanması ilə xarici bazardan asılılığın minimum həddə endirilməsinə səbəb olacaqdır. Kənd təsərrüfatında rəqəmsal və avtomatlaşdırılmış texnologiyaların tətbiqilə mexaniki əməkdən asılılıq azaldılmaqla yanaşı, həm də torpaq fondundan səmərəli istifadə ilə məhsuldarlığın artırılması mümkün olur. Bu hal yaylaq və qışlaq ərazilərinin müəyyən olunması, yem bazasının dayanıqlığı və emaledici təsərrüfatın formalaşması ilə heyvandarlığın da intensiv inkişafına gətirib çıxarır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Əbu-Talib Əliyev**
Bakı Avrasiya Universiteti
bakalavr
eliyevebutalib@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *strateji, demoqrafik, miqrasiya, irs, multikultural*
***Keywords:*** *strategic, demographic, migration, heritage, multicultural*

Zəngəzurun tarixi Avropa və Asiyanın kəsişməsində strateji yerləşməsi ilə səciyyələnən Cənubi Qafqazın daha geniş regional dinamikası ilə iç-içədir. Bölgə Aralıq dənizi, Yaxın Şərq və Mərkəzi Asiya arasında ticarət, miqrasiya və mədəni mübadilə üçün qapı olub, özünəməxsus kimliyini və irsini formalaşdırıb. Tarix boyu Zəngəzur münaqişələr, fəthlər və ərazi sərhədlərinin dəyişməsi ilə üzləşən mübahisəli sərhəd bölgəsi olmuşdur. Onun sərt relyefi və strateji əhəmiyyəti onu müxtəlif regional güclər üçün arzu edilən əraziyə çevirib, tez-tez geosiyasi mübarizələrə və hərbi kampaniyalara səbəb olub. Zəngəzurun demoqrafik quruluşu da zaman keçdikcə miqrasiya, köçürmə və demoqrafik yerdəyişmələrin təsiri ilə inkişaf etmişdir. Bölgənin əhalisi müxtəlif etnik qrupları, dilləri və dini icmaları əhatə edir ki, bu da onun multikultural xarakterinə və sosial mürəkkəbliyinə töhfə verir. Zəngəzur geosiyasi və mədəni əhəmiyyətindən əlavə, arxeoloji və tarixi sərvətlərə, o cümlədən bəşər sivilizasiyasının müxtəlif dövrlərinə aid qədim xarabalıqlara, qalalara, abidələrə malikdir. Bu arxeoloji sahələr regionun keçmişi və onun daha geniş tarixi hekayələrlə əlaqəsi haqqında dəyərli məlumatlar verir.

Son illər Zəngəzurun turizmin inkişafı, təbiətin mühafizəsi və mədəni dirçəliş potensialına maraq artmaqdadır. Dayanıqlı turizm təşəbbüslərini təşviq etmək, təbii yaşayış yerlərini qorumaq və mədəni irs obyektlərini qorumaq üçün səylər davam etdirilir. Bu da regionun ekoloji və mədəni bütövlüyünü qoruyarkən turizm məkanı kimi potensialından istifadə etməkdir. Bütövlükdə, Zəngəzurun çoxşaxəli tarixi, coğrafi xüsusiyyətləri, mədəni müxtəlifliyi və geosiyasi əhəmiyyəti onu zəngin hekayələr, adət-ənənələr və kimliklər qobeleninə malik olan valehedici və dinamik bir bölgəyə çevirir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 427-428**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 427-428**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Murad Abbasov**
Bakı Dövlət Universiteti
bakalavr
murad.abbasov2004@bk.ru

# AZƏRBAYCANIN ZƏNGƏZUR MAHALI

***Açar sözlər:*** *qədim, diyar, mahal, dünya, məkan*
***Keywords:*** *ancient, country, district, world, space*

Zəngəzur qədim Azərbaycan torpağıdır və 1920-ci ildə bolşevik Rusiyası tərəfindən Ermənistana verilmişdir. Türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı qopdu. Əgər o tarixi ədalətsizliyə yol verilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı.

Azərbaycanlıların qədim tarixi-etnoqrafik mahalı olan Zəngəzur müasir Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan və Ermənistan Respublikasının Mehri, Qarakilsə, Gorus və Qafan rayonlarını əhatə edir. Mehri bölgəsi özündə dağlıq (Bərgüşad, Alagöz, Xustup), Araz, Həkəri, Bazarçay, Oxçu çayları arasındakı yamac və düzən əraziləri birləşdirir. Palıd, çinar, vələs meşələri ilə örtülü təbiəti cənuba doğru çılpaq qayalıqlar və seyrək kollarla əvəzlənir. Qafanın dağlıq sahələri çətin keçilən sıldırımlar və yarğanlarla əhatələnir və zəngin meşə örtüyü ilə müşayiət olunur.

Laçın bölgəsi, əsasən, orta hündürlüklü dağlar, cənub-şərq hüdudları isə Qarabağ yaylası ilə davam edir. Qarabağ və Bərgüşad silsilələrinin şərqində, Qarabağ yaylasının cənub-qərb hissəsində Qubadlı bölgəsi yerləşir. Bölgənin bitki örtüyü kollu və seyrək meşələrdən, çəmənlərdən təşkil olunub. Sıldırım qayalı dağlardan və sıx meşələrdən məhrum olsa da, Sisian bölgəsi otlaq və əkinə yararlı sahələrlə zəngindir. Zəngilan bölgəsində Bərgüşad silsiləsi Ağoyuq düzünə qədər uzanır. Araz hövzəsinə daxil olan çaylar (Oxçu, Həkəri, Bərgüşad, Bəsit, Mehri, İlizin, Gorus, Mədən, Əcənan, Uz və s.) dağətəyi münbit vadilərin suvarılmasını təmin edir.

Təəssüflər olsun ki, 70 illik sovet dönəmində və sonrakı illərdə tarixən dədə-baba yurdumuz olan Zəngəzuru elmi tədqiqatlar, xüsusilə

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

də mütəmadi arxeoloji qazıntılar səviyyəsində öyrənməyə imkan vermədilər. Bu səbəbdən, bölgənin qədim tarixi abidələrindən və maddi-mədəniyyət nümunələrindən danışarkən qeydiyyata alınmış bir neçə yerüstü tikilinin təsnifatı və məişət əşyalarından ibarət təsadüfi tapıntıların təsviri ilə kifayətlənməli oluruq. Paleolit dövrünə aid edilən ən qədim abidələr Qarakilsə bölgəsində cəmlənib. Şəki və Saybalı kəndlərinin yaylaq yerləri sayılan Dəvəboynu və Təkəzür dağlarında sal qaya daşları üzərində ov səhnələri, maral və dağkeçilərinin sxematik təsvirləri cızılıb; işlənmə texnologiyasına görə Qobustan və Gəmiqaya təsvirlərinə çox bənzəyir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 7 iyul 2021-ci il tarixində Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları hesabına Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Bu iqtisadi rayonun yaradılması Zəngəzurun qərb hissəsinin də mövcudluğunu və tarixən Azərbaycan torpağı olmasını göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev son çıxışlarında bu fikri bir daha təsdiqlədi: "Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik, kiminsə siyasi maraqlarının girovuna çevirə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir – 101 il bundan əvvəl. Yəni biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur – Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur".

Bu gün Zəngəzur dəhlizinin yaradılması istiqamətində addımlar atılması və bu dəhlizin reallaşdırılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Bu layihənin icrası bizim dədə-baba torpağımız olan Zəngəzura qayıdışımızın növbəti müjdəçisi olacaqdır.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 429-430
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 429-430
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Nigar Abışova**
Bakı Dövlət Universiteti
bakalavr
nabisova5@gmail.com

# ZƏNGƏZUR AZƏRBAYCANIN TARİXİ TORPAĞIDIR

***Açar sözlər:*** *məntəqə, ədalət, iqtisadiyyat, dəhliz, haqq*
***Keywords:*** *precinct, justice, economy, corridor, right*

Prezident İlham Əliyev bildirdi ki, Zəngəzurun o vaxtkı əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Məhz Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubleyinə həsr olunmuş mərasimdə iştirak etmişdir. Dövlət başçısının bu səfəri zamanı çıxışlarından biri də Zəngəzurun tarixi ilə bağlı söylədikləri idi. İlham Əliyev bildirirdi ki, Azərbaycanın əzəli torpağı olan Zəngəzuru bizdən ayırıb Ermənistana verdilər. Bunun böyük ədalətsizlik olduğunu vurğulayan İlham Əliyev bildirirdi ki, Zəngəzur əzəli Azərbaycan torpağıdır. Azərbaycan xalqı, Azərbaycan dövləti 30 ilə yaxın Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan torpaqlarını azad etməklə haqq savaşında zəfər çaldı. İşğalçı ermənilər öz əzəli torpaqlarımızdan qovuldu. Düşmənin növbəti təxribatlarının qarşısının alınması üçün bu qurtuluş savaşı Müzəffər Ali Baş Komandanın sərkərdəliyi uzaqgörən siyasəti, yüksək diplomatik bacarığı və şanlı ordumuzun gücü sayəsində böyük qələbə ilə başa çatdı.

Azərbaycanımızın bununla ərazi bütövlüyü təmin edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "CNN Türk" televiziya kanalına müsahibəsi zamanı dediyi bir fikri xatırlatmaq yerinə düşər: "Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi". Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra Zəngəzur dəhlizinin də açılması zərurəti yarandı. Belə ki, iyulun 7-də ölkə Ali Baş Komandanın imzaladığı Fərman əsasında

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Qarabağ iqtisadi zonası ilə yanaşı, Şərqi Zəngəzur iqtisadi zonası da yaradıldı.

Avqustun 17-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında səfərdə olarkən dövlət başçısı çıxışında Şərqi Zəngəzurla bağlı bəzi məqamları xatırladaraq dedi: "Bildiyiniz kimi, mənim sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonunun yaradılması diqqət çəkdi – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları. İlham Əliyev bildirirdi ki, həm Qarabağ, həm də Zəngəzur Azərbaycanın əzəli torpağıdır. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin açılışı nəticəsində, əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti geniş çıxışında, eyni zamanda  xüsusi olaraq bəyan etdi: "Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı bütün işlər plan üzrə gedəcək və biz istəyimizə nail olacağıq. Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Rasta Məmmədova**
Bakı Avrasiya Universiteti
bakalavr
rhastammdva01@icloud.com

# ZƏNGƏZUR – ERMƏNİSTANIN CƏNUB HİSSƏSİNİ VƏ AZƏRBAYCAN ƏRAZİLƏRİNİN KİÇİK BİR HİSSƏSİNİ ƏHATƏ EDƏN TARİXİ MAHAL

***Açar sözlər:*** *rayon, dağ, qəza, ərazi, mahal*
***Keywords:*** *district, mountain, district, territory, county*

Zəngəzur coğrafi cəhətdən qərbdə Zəngəzur dağları ilə, şərqdə Dağlıq Qarabağ arasında yerləşən və siyasi cəhətdən Ermənistanın Sünik Mərz və Azərbaycanın Zəngilan, Qubadlı və Laçın rayonlarını əhatə edən tarixi bölgədir.

Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Zəngəzurun ərazisindən Bazarçay axır.

Bütün Zəngəzur mahalı boyu uzanan bu dağ silsiləsi Tərtər və Arpa çaylarının yuxarı axınlarından Araz çayınadək gedib çıxır. Uzunluğu təqribən 130 km, hündürlüyü isə 3904 m-dir.

XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk, 91 kürd və 81 erməni kəndi var idi. 1905-1907 və 1914-1920-ci illərdə erməni daşnaklarının törətdiyi qırğınlar nəticəsində bu mahalda çox sayda müsəlman (türklər və kürdlər) həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 kənd yer üzündən silinmişdir. 4472 qadın və uşaq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Zəngəzur qəzası –Yelizavetpol quberniyası tərkibində inzibati ərazi vahidi olarkən, yəni 1891-ci ildə 9 sünnü 24 şiə məscidi fəaliyyət göstərmişdir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 432-433**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 432-433**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Günay Təhməzova**
Bakı Avrasiya Universiteti
bakalavr
gunaytehmezova7@gmail.com

# ZƏNGƏZUR HAQQINDA ÜMUMİ MƏLUMAT

***Açar sözlər:*** *qələbə, nəqliyyat, layihə, tarix, torpaq*
***Keywords:*** *victory, transport, project, history, land*

Azərbaycanın Vətən müharibəsindəki qələbəsi və bunun nəticəsi olaraq, regiondakı geosiyasi reallıqların dəyişməsi onun gələcək inkişafı və tərəqqisi baxımından yeni imkanlar yaradır.

Şübhəsiz ki, yaxın perspektivdə əhəmiyyətli nəqliyyat və infra-struktur layihələrinin həyata keçirilməsi baxımından kommunika-siyaların açılması, ilk növbədə, Zəngəzur dəhlizinin açılması məsələsi ön plana çıxır.

Bütün bunlar Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanatında öz əksini tapsa da, erməni tərəfinin nümayiş etdirdiyi yanaşmalar onun bu prosesi pozmağa çalışdığını göstərir.

Ola bilsin ki, Ermənistanda hökm sürən qorxu Azərbaycanda Zəngəzur tarixi-coğrafi adının istifadə edilməsi ilə bağlıdır, lakin bu onların öz problemidir. 1920-ci ildə Ermənistana verilmiş bu ərazinin tarixən Azərbaycana məxsus olması faktını onlar dəyişə bilməzlər.

"Zəngəzur" sözünün etimologiyasını Azərbaycan və erməni müəllifləri müxtəlif cür şərh edirlər. Bu söz əsasən etnonim və toponimlərlə əlaqələndirilir. Zəngəzuru tarixi Ermənistan ərazisi hesab etməyə öyrəşmiş erməni müəlliflər Zəngəzur adının əmələ gəlməsini müxtəlif cür izah edirlər.

Bunlardan biri – "Zəngə" sözünün mağara, "zur" sözünün güclü səslənən mənasına malik olması ilə bağlıdır. Bu versiyanı izah edərkən onlar iddia edirlər ki, guya qədim Zəngəzur ərazisində çoxsaylı mağaralar olub ki, onların girişində güclü səslər eşitmək olardı. Ermənilər "qədim milli" musiqi alətləri olan "zurna"nın adının mənşəyini də "zur" sözü ilə əlaqələndirməyə çalışırlar. Halbuki zur-nanın Zəngəzur tarixi və adı ilə heç bir əlaqəsi yoxdur. Bundan başqa,

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

ermənilərin digər versiyaları da mövcuddur: “Zəng” – zəng, “zor” – güclü və ya “dzor” – dərə.

Azərbaycanlı müəlliflərin fikrincə, Zəngəzur öz adını ərəb qoşunlarının Azərbaycana yürüşünün qarşısında əlçatmaz divar (ərəbcə “sur” daş divar, qala, hasar deməkdir) kimi durmuş Zəngi tayfasının adından alıb. Cənubi və Şimali Azərbaycan ərazisində bu tayfanın adı ilə əlaqəli çoxsaylı toponimlər mövcuddur: Zəngan (Zəncan), Zəngilan, Zəngibasar, Zəngi çayı (mənbəyini Göyçə gölündən götürən yeganə çay) və s. Zəngəzur toponiminin adına Osmanlı imperiyasının Bəyazid sancağı və Qacarlar dövlətinin Maku xanlığı ərazisində yerləşən mənbələrdə də rast gəlinir.

XIX əsrin sonlarında Qafqazda torpaq quruculuğu işlərinə rəhbərlik etmiş rus tədqiqatçı M.Skibiskinin topladığı materiallara əsasən Dağlıq Qarabağ ərazisi də Zəngəzurun bir hissəsi olmuşdur. Dağlıq Qarabağ şərqdə Qarabağ, qərbdə Zəngəzur dağ silsilələri arasında yerləşir və Yuxarı Qarabağla Aran Qarabağı bir-birindən ayıran Qarabağ silsiləsinin ətəklərini (Dağlıq Qarabağın məhz bu hissəsində 1923-cü ildə süni erməni muxtariyyəti yaradılıb) də əhatə edirdi.

Erkən orta əsrlərdə Zəngəzur Albaniyanın Sünik vilayətinin tərkibində olmuşdur. Qafqaz Albaniyasının ucqar cənub hissəsində yerləşən bu vilayət Zəngəzuru tam, Naxçıvanın yuxarı, dağlıq hissəsini və Göyçənin əsas hissəsini (Zəngi çayının yuxarı axarı olmadan) əhatə edirdi. Zəngəzur Sünikin 12 gavarından 7-sini tam əhatə edir və onun şərq hissəsində yerləşirdi.

Ərəb işğalınadək Sasanilərin bilavasitə vassalı olan Sünik Albaniyanın Mehranilər sülaləsinə də tabe idi. Bu sülalə VII əsrin əvvəllərindən başlayaraq, 705-ci ildə ərəblər tərəfindən işğal edilənədək Albaniyada hakimiyyətdə olmuşdur. Ərəb işğalından sonrakı dövrdən tarixi Azərbaycan torpaqları Səlcuq türkləri tərəfindən işğal edilənədək qədim Alban çarlığı kiçik knyazlıqlar şəklində yenidən dirçəlməyə başlamışdı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 434-435**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 434-435**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Həsən Ağayev**
Bakı Dövlət Universiteti
bakalavr
hsnagayevv@gmail.com

# ZƏNGƏZUR DƏHLİZİ İQTİSADİYYAT SAHƏSİNDƏ

***Açar sözlər:*** *cənub, dəhliz, mahal, ölkə, nəqliyyat*
***Keywords:*** *south, corridor, district, country, transport*

Zəngəzur — Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi mahaldır. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri) Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 azərbaycanlı, 91 kürd və 81 erməni kəndi var idi.

Mərkəzi Asiya ölkələrinin yeni bazarlara çıxışında Zəngəzur dəhlizinin iqtisadi önəmi vurğulanmalıdır. Dünya iqtisadiyyatının əsas lokomotivlərindən biri sayılan Çindən gələn yüklərin Mərkəzi Asiya marşrutu ilə daşınması potensialı və eləcə də Süveyş kanalından keçən dəniz nəqliyyat yoluna alternativ nəqliyyat dəhlizinin formalaşdırılması Azərbaycanın, eləcə də Zəngəzur dəhlizinin vacib nəqliyyat arteriyasına çevrilməsinə şərait yaradır. Elə yaxın dövrə nəzər salsaq, Süveyş kanalında Evergreen gəmisinin qəzaya uğraması gün ərzində qərbə daşınan yüklər üzrə 5.1 milyard və şərqə daşınan yüklər üzrə isə 4.5 milyard olmaqla, ümumilikdə 9.6 milyard dollar zərərə səbəb olub. Ümumilikdə dünya ticarətinin təqribən 12 faizinin bu kanal vasitəsilə həyata keçirildiyini nəzərə alsaq, alternativ nəqliyyat arteriyalarının, o cümlədən Zəngəzur dəhlizi ilə Azərbaycanın Avrasiyanın nəqliyyat infrastrukturunda iqtisadi əhəmiyyətini görə bilərik.

Cənubi Qafqaz ölkələri olan Azərbaycan, Ermənistan və Gürcüstan, qonşu ölkələr olan Türkiyə, Rusiya və İran "3+3" formatda geosiyasi əməkdaşlıq edərək kommunikasiya xətlərinin yenidən bərpa edilməsi ilə beynəlxalq tranzit daşımalarda yeni iqtisadi ağırlıq mərkəzi yarada bilər. Əlbəttə ki, bu əməkdaşlıq çərçivəsində Zəngəzur dəhlizinin siyasi və iqtisadi önəmi danılmazdır. Regionda digər həyata keçirilməsi nəzərdə tutulan layihələri dəyərləndirdikdə Zəngəzur dəhlizi region

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

ölkələrinə daha ucuz alternativ olaraq çıxış edir. Uzun illərdir, beynəlxalq maliyyə institutları, xarici dövlətlər, hətta Ermənistan dövləti belə İran və Ermənistandan keçməsi nəzərdə tutulan və 3.5 milyard ABŞ dolları dəyərində olan yeni dəmir yolu xəttinin maliyyələşdirilməsinə nail ola bilməyiblər.

Belə qənaətə gəlmək olar ki, Zəngəzur dəhlizinin yaradılması ilə formalaşan yeni iqtisadi konyuktura Asiya və Avropanın nəqliyyat infrastrukturunda xüsusi önəmə malik olacaq.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 436-437**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 436-437**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Ceyran Quliyeva**
Bakı Dövlət Universiteti
bakalavr
quliyevaceyran496@gmail.com

# AZƏRBAYCANIN TARİXİ TORPAĞI ZƏNGƏZUR

***Açar sözlər:*** *Azərbaycan, Qara qızıl, Zəngəzur, Qarabağ, erməni daşnakları*

***Keywords:*** *Azerbaijan, Black Gold, Zangezur, Karabakh, armenian dashnaks*

Azərbaycan zəngin sərvətləri ilə məhşur olan ölkələrdən biridir. Azərbaycanın Qara qızılı onun dünya ölkələri ilə iqtisadi əməkdaşlıq etməsinə təsir göstərir. Ölkəmizin hər bir regionu özünəməxsusluğu ilə seçilir. Həmin regionlardan biri də Zəngəzur ərazisidir. Toponimin sonundakı "zur" türk dilində "dərə", "yarğan" mənasında işlənən car sözünün fonetik variantıdır. Aparılan araşdırmalarda qeydə alınmışdır ki, bu ərazidə Tatev monastrı adlanan köhnə bir kilsə də aşkar edilib.

Zəngəzurun təbiətinə gəldikdə isə ərazidə Bazarçay axır. Zəngəzur dağ silsiləsi Qarabağ yaylası arasında yerləşir. Ona görə bu əraziyə Zəngi dərəsi də deyirlər. Bütün Zəngəzur boyu uzanan dağ silsiləsi Tərtər və Arpa çayına qədər uzanır. Onun uzunluğu təqribən 130 km-dir. Hündürlüyü isə 3904 m-dır. Zəngəzur ərazisi qədim dövrlərdən bir çox dövlətlərin döyüş meydanına çevrilib. Həmin döyüş Xürrəmilər hərəkatı ilə ərəblər arasında baş vermişdir. Onlar arasında baş verən döyüş təxminən 30 il davam etmişdir.

Digər döyüş olaraq Əmir Teymurun apardığı döyüşü göstərmək olar. 1395-ci ildə Əmir Teymur Zəngəzur və Qarabağı böyük itkilər hesabına tuta bilmişdir. Zəngəzur ərazisi Azərbaycanın keçmiş qüdrətli dövlətləri olan Baharlı, Bayandurlu və Səfəvi qızılbaşlılarının da hakimiyyəti altında olub.

XX əsrin əvvələrinə gəldikdə isə Zəngəzur mahalında 149 türk və 91 kürd kəndinin olduğu aşkar edilib. 1905-1907, həmçinin 1914-1920-ci illərdə erməni daşnaklarının törətdiyi qırğın nəticəsində bu mahalda çoxlu sayda türk və kürd əhali qətlə yetirilmişdir. Həmin hadisə zamanı

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 436-437**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 436-437**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

115 Zəngəzur kəndi yer üzündən silinmişdir. 4472 nəfər qadın və uşaq ermənilər tərəfindən qətlə yetirilmişdir. Bu hadisədə də açıq şəkildə erməni vəhşiliyinin şahidi oluruq. Sonda bunu qeyd edə bilərəm ki, Zəngəzur Azərbaycanın ayrılmaz hissəsidir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 438-439**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 438-439**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Fərid Tarverdiyev**
Bakı Avrasiya Universiteti
bakalavr
tariverdiyevferid811@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *mahal, torpaq, yayla, dağ, müharibə*
***Keywords:*** *district, land, plateau, mountain, war*

Zəngəzur Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi mahaldır. Mahal Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 azərbaycanlı, 91 kürd və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın siparinə çevrilib. Zəngəzurun ərazisindən Bazarçay axır. Zəngəzur dağ silsiləsi ilə Qarabağ yaylası arasında yerləşir. Ona görə də bu əraziyə "zəngi dərəsi" də deyirlər. Bütün Zəngəzur mahalı boyu uzanan bu dağ silsiləsi Tərtər və Arpa çaylarının yuxarı axınlarından Araz çayınadək gedib çıxır. Uzunluğu təqribən 130 km, hündürlüyü isə 3904 m-dir. Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə Xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən döyüşlərin məkanı olub. Zəngəzurda atəşpərəslik məbədləri yerləşirdi. Ərəblər Cənubi Azərbaycan-Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edərək Albaniyanı (Şimali Azərbaycan) zəbt ediblər.

1065-ci ildə Böyük Səlcuq imperiyasının hökmdarı Alp Arslan Qafan şəhərini tutaraq Sünik knyazlığının mövcudluğuna son qoydu. 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu genişləndirdi və bu yerlərdə çox sayda türksoylu tayfalar məskunlaşdı.

1236-cı ildə monqol-tatarlar, 1395-ci ildə Əmir Teymur Qarabağ və Zəngəzuru böyük itkilər bahasına tutdu, onun qoşunlarına qarşı çox dirəniş göstərdiklərinə görə bu yerləri yağmaladı və 10 min ailəni buradan imperiyanın şərqinə — Əfqanıstana köçürmək əmri verdi. Teymurun bu yürüşünü canlı görüb yazıya alan Foma Mesoplu "Əfqan tarixi", Yesay Həsən Cəlal "Alban ölkəsinin qısa tarixi" əsərlərində bu

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 438-439**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 438-439**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

köç haqqında məlumat veriblər. Təkcə 4 min ailə Qəndəhar yaxınlığında məskən saldı. Yerli əhali bu köçürülənləri öz adları ilə "ağvan" çağırırdı və bu ad sonra fonetik dəyişimə uğrayaraq bütöv bir xalqın və ölkənin adını, ünvanını dəyişib "əfqan"-a çevirdir. Zəngəzur Qaraqoyunlu (1410-1468), Ağqoyunluların (1468-1502), 1502-ci ildə Səfəvi qızılbaşlarının hakimiyyəti altına düşdü. 1420-ci ildə Ərzurumda Ağqoyunlu hökmdarı Qara Osmanı məğlub edib Naxçıvan və Zəngəzur ellərini soyurqal alan Qara İsgəndər çoxlu sayda erməni ailəsini Ararat və Sünikə köçürdüb yerləşdirdi. Osmanlı və Səfəvilər arasında Qarabağ-Zəngəzur uğrunda uzunsürən qanlı döyüşlər getdi, bu səbəbdən o dövrlərə aid "Müfəssəl dəftər"lərdə Zəngəzurun əksər yaşayış məntəqələrinin boşaldığı, əhali yaşamadığı, xarabalıqlara çevrildiyi qeyd edilib.

İstanbul Topqapı Sarayı Muzeyinin kitabxanasında Zəngəzur, Naxçıvan, İrəvanla bağlı müfəssəl məlumatların yer aldığı 48 səhifəlik "Rəvan mühasirəsi tarixçəsi" və "Mühimmə dəftəri"nin müəllifi Cərrahzadə Məhəmməd təsvir etdiyi hadisələrin canlı şahidi olub; I Şah Abbasın Naxçıvan və Zəngəzur uğrunda apardığı savaşlar, onun bu yerlərin müsəlman əhalisinə qarşı pis münasibəti nəticəsində hər iki vilayətin əhalisinin öz yerlərini tərk edib getdiyi faktlarla göstərilir. Zəngəzurdan daha bir kütləvi köç fərmanını I Şah Abbas (27 yanvar 1571 – 19 yanvar 1629) verib.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 440-441**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 440-441**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Anar Mustafayev**
Bakı Avrasiya Universiteti
bakalavr
anarmustafayev150@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *etimologiya, ərazi, müəllif, toponim, mağara*
***Keywords:*** *etymology, area, author, toponym, cave*

"Zəngəzur" sözünün etimologiyasını Azərbaycan və erməni müəllifləri müxtəlif cür şərh edirlər. Bu söz, əsasən, etnonim və toponimlərlə əlaqələndirilir. Zəngəzuru tarixi Ermənistan ərazisi hesab etməyə öyrəşmiş erməni müəlliflər Zəngəzur adının əmələ gəlməsini müxtəlif cür izah edirlər. Bunlardan biri – "Zəngə" sözünün mağara, "zur" sözünün güclü səslənən mənasına malik olması ilə bağlıdır. Bu versiyanı izah edərkən onlar iddia edirlər ki, guya qədim Zəngəzur ərazisində çoxsaylı mağaralar olub ki, onların girişində güclü səslər eşitmək olardı. Ermənilər "qədim milli" musiqi alətləri olan "zurna"nın adının mənşəyini də "zur" sözü ilə əlaqələndirməyə çalışırlar. Halbuki zurnanın Zəngəzur tarixi və adı ilə heç bir əlaqəsi yoxdur. Bundan başqa, ermənilərin digər versiyaları da mövcuddur: "Zəng" – zəng, "zor" – güclü və ya "dzor" – dərə. Rus hakimiyyəti 1822-ci ildə 1805-ci ildə bağlanmış Kürəkçay müqaviləsinin şərtlərini pozaraq Qarabağ xanlığını ləğv etdi. Keçmiş xanlıq rus komendantının rəhbərlik etdiyi Qarabağ əyalətinə çevrildi. Bu üsul-idarə 1840-cı ilədək qüvvədə qaldı. 1840-cı il aprelin 1-də İmperator I Nikolay tərəfindən təsdiq edilmiş yeni inzibati islahatlar 1841-ci il yanvarın 1-dən etibarən bütün Cənubi Qafqazda tətbiq edilməyə başladı. Bu islahata görə keçmiş əyalətlər qəzalara və dairələrə çevrilirdi. Qarabağ əyaləti Şuşa qəzasına çevrildi və Kaspi vilayətinə tabe edildi. Şuşa qəzasının tərkibində Zəngəzur 2 dairəyə – Zəngəzur və Mehri dairələrinə bölündü. 1846-cı il tarixli yeni inzibati-ərazi bölgüsünə əsasən Şuşa qəzası Kaspi vilayəti ləğv edildikdən sonra yaradılmış Şamaxı quberniyasına daxil edildi. 1849-cu ildə İrəvan quberniyasının yaradılması ilə Zəngəzurun cənub hissəsi Mehri darəsi (Qafan, Güney-Mehri, Çuldur və Püsiyan) ona verildi. Dairə 1849-1867-ci illər aralığında bu quberniyanın Ordubad qəzasının

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

tərkibində qaldı. 1868-ci ildə Yelizavetpol quberniyasının yaradılması ilə Şuşa qəzasının tərkibindən Zəngəzur qəzası ayrılırdı və İrəvan quberniyasının tərkibində olan Mehri dairəsi onun tərkibinə geri qaytarıldı. Sonradan Zəngəzur qəzası dairələrə bölünmüş və sovet hakimiyyəti qurulanadək bu formada mövcud olmuşdu. Zəngəzur qəzasının ümumi ərazisi 6742 kv.verst (1 kv.verst -1,138 kv.km) təşkil edirdi.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 442-443**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 442-443**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Sahib İsmayılov**
Bakı Avrasiya Universiteti
bakalavr
sahibismayilov3o5@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *cənub, qədim, tarix, hissə, dağ*
***Keywords:*** *south, ancient, history, part, mountain*

Zəngəzur — Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi mahaldır. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 azərbaycanlı, 91 kürd və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib.

Zəngəzur torpağında Bazarçay axır. Zəngəzur dağ silsiləsi ilə Qarabağ yaylası arasında yerləşir. Ona görə də bu əraziyə “zəngi dərəsi” də deyirlər.

Bütün Zəngəzur mahalı boyu uzanan bu dağ silsiləsi Tərtər və Arpa çaylarının yuxarı axınlarından Araz çayınadək gedib çıxır. Uzunluğu təqribən 130 km, hündürlüyü isə 3904 m-dir. Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən döyüşlərin məkanı olub. Zəngəzurda atəşpərəstlik məbədləri yerləşirdi. Ərəblər Cənubi Azərbaycan-Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edərək Albaniyanı (Şimali Azərbaycan) zəbt ediblər.

1065-ci ildə Böyük Səlcuq İmperiyasının hökmdarı Alp Arslan Qafan şəhərini tutaraq Sünik knyazlığının mövcudluğuna son qoydu. 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu genişləndirdi və bu yerlərdə çox sayda türksoylu tayfalar məskunlaşdı.

1236-cı ildə monqol-tatarlar, 1395-ci ildə Əmir Teymur Qarabağ və Zəngəzuru böyük itkilər bahasına tutdu, onun qoşunlarına qarşı çox direniş göstərdiklərinə görə bu yerləri yağmaladı və 10 min ailəni buradan imperiyanın şərqinə — Əfqanıstana köçürmək əmri verdi.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 442-443**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 442-443**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Teymurun bu yürüşünü canlı görüb yazıya alan Foma Mesoplu "Əfqan tarixi", Yesay Həsən Cəlal "Alban ölkəsinin qısa tarixi" əsərlərində bu köç haqqında məlumat veriblər. Təkcə 4 min ailə Qəndəhar yaxınlığında məskən saldı. Yerli əhali bu köçürülənləri öz adları ilə "ağvan" çağırırdı və bu ad sonra fonetik dəyişimə uğrayaraq bütöv bir xalqın və ölkənin adını, ünvanını dəyişib "əfqan" a çevirdi.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 444-445**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 444-445**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nərgiz Məlikova**
Bakı Avrasiya Universiteti
bakalavr
melikovanergiz@icloud.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *bölgə, tarix, çay, imperiya, dağ*
***Keywords:*** *region, history, river, empire, mountain*

Zəngəzur Azərbaycanın təriqəvi bir bölgəsidir və tarix boyu dövlətlərimizin həyatında əhəmiyyətli rol oynamışdır. Bu ərazi coğrafi mövqeyi ilə strateji əhəmiyyət kəsb edir və Qafqazın cənub-qərbində yerləşir. Zəngəzur dağ və çayların birləşdiyi bu coğrafi bölgədə möhtəşəm təbiətə sahibdir.

Tarix boyu Zəngəzur müxtəlif imperiyaların və dövlətlərin nəzarətində olmuşdur. Əsasən, bu ərazi Azərbaycanın ədəbi və mədəni inkişafında böyük rola sahib olmuşdur. Zəngəzur tarixi abidələri, qalaları və memarlıq inciləri ilə zəngin bir mədəniyyət mirasına sahibdir.

Sovet İttifaqı dövründə Zəngəzur ərazisi Ermənistan tərəfindən işğal edildi və Azərbaycan Respublikası bu bölgədən məhrum qaldı. Bu işğal səbəbindən on illərlədir Zəngəzur əhalisi tarixi və mədəni varlığını qoruyub müstəqil Azərbaycanın birləşməsinə dair ümidlərini qoruyur.

Zəngəzur həm tarixi, həm də coğrafi baxımdan möhkəm bir əhəmiyyətə sahibdir və ərazi problemləri hələ də bölgədə gündəmdədir. Azərbaycan hökuməti və xalqı bu ərazi üçün mövcud olan problemlərin həlli üçün fəal şəkildə çalışmağa davam edir.

Zəngəzur Azərbaycanın birləşməsi və dövlət müstəqilliyinin qorunması üçün əhəmiyyətli bir simvol kimi qalmağa davam edir.

İşğal altında olan bu ərazi hər zaman Azərbaycanın birinci siyasi və ərazi prioritetlərindən biri olaraq qalır.

Zəngəzur bölgəsi Azərbaycanın birliyini və tarixi varlığını simgələyən bir yaddaşın mərkəzi kimi durur və bu gün də birləşmiş və müstəqil Azərbaycan Respublikası üçün strateji bir önəm daşıyır.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngəzur Azərbaycanın cənub-şərqindəki bir bölgədir. Bu ərazi Ermənistanın işğalında olub, əvvəlcə Sovet İttifaqı vaxtında, daha sonra isə müstəqil Azərbaycan Respublikasının torpağı olmuşdur. Zəngəzur Azərbaycan tarixində və mədəniyyətində önəmli bir rol oynayıb və bu gün də Azərbaycanın tarixi və ədəbi məkanlarından biri kimi qalmaqdadır.

O, Azərbaycanın tarixi ərazilərindən biri olmaqla yanaşı, birləşmiş bir mədəniyyət və tarix mirasının dağınıq parçalarından biridir. Ərazinin əsl adı "Zəngəzur" sözündən gəlir ki, dilimizdə "ziya tünd" mənasını verir. Bu ərazi, dövlətçilik tariximizdə ən qədim dövrlərdən etibarən varlığını sürdürüb və tərkibimizə daxil olmuşdur.

Zəngəzur möhtəşəm tarixi abidələri, qalaları və memarlıq əsərləri ilə doludur. Bu bölgədə tapılan arxeoloji qazıntılar, burada əkilən mədəniyyətin neçə dərəcədə kök saldığını göstərir. Zəngəzur ərazisi, çoxsaylı imperiyaların və dövlətlərin əhatə etdiyi, müstəqil bir mədəniyyətin inkişaf etdiyi bir sahə olmuşdur.

Bu ərazi tarix boyu mənsub olduğu dövlətlərin sülh və müharibə zamanlarında strateji əhəmiyyətini göstərən bir bölgə olmuşdur. Ərazinin coğrafi mövqeyi diplomatik əlaqələrin və ticarətin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Sovet İttifaqının fəaliyyətinin nəticəsində Zəngəzur ərazisi Ermənistan tərəfindən işğal olundu. Bu işğal Azərbaycan Respublikasının ərazisinin bölünməsinə və bir qrup əhalinin məcburi köçürülməsinə səbəb oldu. Bu hadisədən sonra Zəngəzurun tarixi və mədəniyyəti daha da əhəmiyyətli və simvolik bir mənasını qazandı.

Zəngəzur Azərbaycan xalqının müstəqilçilik və dövlətçilik yolunda yaşadığı zorlu dövrlərin simvoldur. Bu bölgə həm tarixi və mədəni varlığımızın qorunması, həm də müstəqil Azərbaycanın birləşməsi üçün simvolik vəziyyətdə qalmağa davam edir. İşğal olunmuş ərazi Azərbaycan hökuməti və xalqı tərəfindən torpaqların bütövlüyünün bərpa edilməsi üçün mücadilənin simvoludur.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 446-448**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 446-448**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Aysel Muradova**
Bakı Dövlət Universiteti
bakalavr
aysel_muradova_2019@inbox.ru

# ZƏNGƏZUR TARİXİN İZLƏRİNDƏ

***Açar sözlər:*** *tarix, müasir, sərhəd, dövr, vahid*
***Keywords:*** *history, modern, border, era, unit*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik ərazilərindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluya qədər geniş coğrafi ərazini əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman bölünərək müasir Azərbaycan Respublikasının sərhədləri daxilində məskunlaşıb. Müasir Azərbaycan dövlətinin özü Zəngəzur dəhlizi ilə iki yerə bölünür.

Zəngəzur ərazisi Zəngəzur silsiləsinin bir hissəsini, Kiçik Qafqazın ən uzun dağ silsiləsini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri daxilində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövlətinin ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır. Qədim dövrlərdə və erkən orta əsrlərdə Zəngəzur ərazisi İskit çarlığı və Sünik və ya Sisakan adı altında Atropatena dövlətinin, daha sonra Azərbaycan Albaniyası dövlətinin tərkibində olmuşdur. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradıldı və o, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirildi. Alban tarixçisi Musa Kalankatlı "Albaniya tarixi" əsərində bu ərazidə yaşayan alban tayfa birlikləri, eləcə də qarqarlar, xəzərlər, hunlar və digər türk tayfaları haqqında məlumat verir.

Monqolların ağalığı dövründə Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninin tərkibinə daxil idi. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk Səfəvilər dövründə davam etmişdir. Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat və Naxçıvan əyalətlərinin tərkibinə düşür.

XVI əsrin sonlarında Səfəvi dövlətində yaranmış qeyri-sabit vəziyyətdən istifadə edən Osmanlı imperiyası yenidən dağıdıcı

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

müharibəyə başlayaraq, Səfəvilər dövlətinin bir sıra ərazilərini işğal etmişdir. 1578-1586-cı illərdə aparılmış müharibələr nəticəsində Qərbi Azərbaycanın tərkib hissəsi olmuş Zəngəzur Osmanlıların tərkibinə keçir.

1735-ci ilə kimi bütün Azərbaycan torpaqlarını osmanlılardan geri alan Nadir Əfşar, 1736-cı ildə Muğan qurultayında şah elan edildikdən sonra onun şah seçilməsinə qarşı çıxdığına görə Qarabağ bəylərbəyliyi Ziyadoğullarının qüdrətini sarsıtmaq üçün Qarabağın beş xristian məliyini Bərgüşad və Zəngəzur mahallarının bəylərbəyliyinin tabeçiliyindən çıxarıb, yaratdığı bütöv Azərbaycan bəylərbəyliyinin hakimiyyətinə keçirdi.

Nadir şahın ölmündən sonra Azərbaycan xırda-xırda xanlıqlara parçalandı. 1750-ci illərdə Pənahəli xan Qarabağlı Mehri və Güney mahallarını Qaradağ xanının əlindən, Tatev və Sisian mahallarını Naxçıvan xanının əlindən, Zəngəzur və Qapanı isə Təbriz xanının əlindən aldı. Nəticədə Zəngəzur bir neçə əsr əvvəl olduğu kimi, yenidən bir inzibati vahidin tərkibində birləşdirildi. 1822-ci ildə Qarabağ xanlığı ləğv edildi. Müsəlman əyalətləri hərbi dairəsinin tərkibində bir əyalətə çevrildi. 30-cu illərin əvvəlində bu əyalətin tərkibində 9 minbaşlığı birləşdirən iri Zəngəzur mahalı təşkil olundu. 1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati quruluşa görə Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində keçmiş Zəngəzur mahalı iki sahəyə − Zəngəzur və Meğri sahələrinə bölündü. 1846-cı ilin yeni ərazi-inzibati bölgüsünə görə Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı. İrəvan quberniyasının təşkil olunması ilə əlaqədar olaraq Zəngəzurun cənub hissəsi Meğri sahəsi 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibində oldu.

Bölgə Osmanlı imperiyası ilə bağlanan müqaviləyə görə Fevral inqilabından sonra yaranan Ermənistan Xalq Cümhuriyyəti ərazisinə daxil deyildir, ancaq bu müqaviləni tanımayan Andranik Ozanyan Osmanlı ordusundan qaçaraq bölgəni işğal etdi və bundan sonra silahlı erməni dəstələrinin törətdikləri vəhşiliklər daha da amansız oldu. Mudros müqaviləsi əsasında Osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilislər AXC tərkibində yaradılan Qarabağ general qubernatorluğunu tanıdılar və Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Zəngəzur qəzası da bura daxil idi. Andranik bölgəni tərk etsə

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 446-448**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 446-448**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

də, Dronun qoşunları ərazinin bir hissəsini öz nəzarəti altında saxlaya bildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin ərazi bütövlüyünü təmin etmək üçün Zəngəzura qoşun hissələrinin göndərilməsini qərara aldı. Bu məqsədlə hərbi nazirlik 1919-cu il oktyabr ayının 30-da xüsusi Zəngəzur dəstəsi yaratdı. Dəstənin rəhbəri 1-ci piyada diviziyasının komandiri, general-mayor Cavad bəy Şıxlinski idi. Dəstə oktyabrın 30-da ilkin mövqelər istiqamətində Xankəndindən Zəngəzura doğru hərəkətə başladı. Müxtəlif istiqamətlərlə hərəkət edən birinci, habelə sağ və sol dəstələr Dığ yaşayış məntəqəsinə doğru irəliləməli idilər. Dığın erməni silahlı qüvvələrindən təmizlənməsi həm Qarabağa aparan strateji yolu, həm də bölgəni nəzarət altında saxlamaq üçün böyük əhəmiyyət daşıyırdı. Hücum zamanı dəstənin sağdan mühafizəsi Sultan bəy Soltanovun rəhbərliyi ilə yerli partizanlara tapşırıldı. Dığ istiqamətində aparılan döyüşlər Azərbaycan qoşun hissələrinin uğuru ilə başlasa da, onu əldə saxlamaq mümkün olmadı.

Tarixi Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə, Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 449-451**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 449-451**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Aytac Qurbanova**
Bakı Avrasiya Universiteti
bakalavr
qurbanova.aytacc@gmail.com

# ZƏNGƏZURUN TARİXİ

***Açar sözlər:*** *tarix, mübarizə, mahal, münaqişə, işğal*
***Keywords:*** *history, struggle, district, conflict, occupation*

Zəngəzur Azərbaycanın cənub-qərbində strateji əhəmiyyətə malik olan tarixi ərazidir. Bu ərazi Azərbaycan və Ermənistan arasında tarixi və siyasi münaqişələrin mərkəzində yer alır. Zəngəzur — Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi mahaldır. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. Zəngəzurun tarixi zəngin və qədimdir. Bu ərazi müxtəlif dövrlərdə müxtəlif imperiyalar tərəfindən idarə edilmişdir. Sasani imperiyasının Bizans İmparatorluğu ilə mübarizələrindən sonra Zəngəzur Müsəlman əmirliklərinin nəzarəti altına keçdi. Sonralar Ərəb, Səlcuqlu və Qaraqoyunlu imperiyaları bu ərazi üzərində nüfuz sahibi oldu. XVI əsrdə Osmanlı və Şah İsmayılın dövründə Zəngəzur, Osmanlı və İran imperiyaları arasında müxtəlif mübarizələrin mərkəzi oldu. XIX əsrin ortalarından sonra Rusiya imperiyası bu əraziyə hakim oldu. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk, 91 kürd və 81 erməni kəndi var idi. 1905-1907 və 1914-1920-ci illərdə erməni daşnaklarının törətdiyi qırğınlar nəticəsində bu mahalda çox sayda müsəlman (türklər və kürdlər) həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 kənd yer üzündən silinmişdir. 4472 qadın və uşaq ermənilər tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Sovet İttifaqının formalaşması dövründə Zəngəzur Azərbaycan və Ermənistan SSR-ri arasında bölüşdürüldü. Müstəqil Azərbaycan Respublikasının qurulması ilə birlikdə, Zəngəzur münaqişəsi başlandı. 1988-ci ildən 1993-cü ilin noyabrınadək düşmənə baş əyməyən, yağı hücumlarına sinə gərən, yüzlərlə şəhid verən Zəngilan (1993-cü il oktyabrın 29-da) işğala məruz qalan ən sonuncu rayon oldu və Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edildi. Qonşu Qubadlı və Cəbrayılın işğalı nəticəsində

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

mühasirəyə düşən rayon əhalisi çıxış yolunu Araz çayından İran ərazisinə keçməkdə gördü. Əks təqdirdə ikinci bir Xocalı hadisəsinin baş verməsi qaçılmaz olacaqdı. Zəngilan inzibati rayon kimi 1930-cu ildə təşkil edilib.

Şimaldan Qubadlı, şərqdən Cəbrayıl, cənubdan İran İslam Respublikası, qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Bakı-Culfa-Naxçıvan dəmiryolunun üzərində yerləşən bu rayon mühüm strateji əhəmiyyətə malikdir. Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edib. İşğal olunmazdan əvvəl bir şəhər, bir qəsəbə və 83 kənddən ibarət olub. Zəngilan rayonunda erməni təcavüzü nəticəsində Milli Ordunun 33 nəfər döyüşçüsü qəhrəmancasına həlak olmuş, 7 nəfər polis işçisi itkin düşmüşdür. Zəngilan 200 nəfərdən çox şəhid vermiş, 12800 uşaq zərər çəkmiş, 395 uşaq yetim qalmışdır. 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir. 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən müharibə nəticəsində Azərbaycan Şuşa və Zəngəzur da daxil olmaqla, 30 ilə yaxın işğal altında olan ərazilərini yenidən nəzarət altına alıb. 44 gün davam edən müharibədə ağır artilleriya atəşləri nəticəsində uşaqlar, qadınlar və qocalar daxil olmaqla ümumilikdə 94 mülki şəxs öldürülmüş, 400-dən çox mülki şəxs yaralanmış, eyni zamanda 2908 Azərbaycan əsgəri şəhid olmuş, mindən çox əsgər yaralanmış, 6 nəfər itkin düşmüşdür. Müharibədən sonrakı dövrdə azad olunmuş ərazilərdə bərpa işləri üçün dövlət büdcəsindən transferlər ilbəil artır. Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılmış. 2023-cü ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün 3 milyard manat nəzərdə tutulub. Zəngəzur dəhlizinin yaradılması postmüharibə mərhələsində Azərbaycanın gündəliyində duran əsas məsələlərdən biridir. Zəngəzur dəhlizinin önəmini bir neçə aspektdən dəyərləndirə bilərik.

İlk növbədə, onu vurğulayaq ki, Zəngəzur dəhlizi Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək. Bununla da Naxçıvanın üç onillik ərzində davam edən blokadasına son qoyulacaq. Ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

işlərinin daha da vüsət almasına böyük təkan verir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 452-453**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 452-453**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Ayxan Məmmədli**
Bakı Dövlət Universiteti
bakalavr
ayxanmammadli96@mail.ru

# ZƏNGƏZUR

***Açar sözlər:*** *ərazi, müstəqil, ölkə, xalq, siyasət*
***Keywords:*** *territory, independent, country, people, politics*

Qədim Türk-Azərbaycan torpağı olan Zəngəzur hal-hazırda Ermənistan Respublikasının beynəlxalq səviyyədə tanınan ərazilərinə daxildir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə, Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi. Həmin dövrdə ölkəmizin ağır vəziyyətini bu tarixi faktla sübut edə bilərik: N.Nərimanovun Leninə ünvanladığı məktubda Azərbaycanın ərazi bütövlüyünün hansı vəziyyətdə olduğunu açıq mətnlə vurğulamışdır: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda da Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini ermənilərə verir. Əgər bu ərazilər Gürcüstana verilsə idi, ictimai fikirlə bir təhər mübarizə aparmaq olardı, lakin Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan, pis nəticələr verəcəkdir". Bəli, belə də oldu. Zəngəzurun daşnaklara verilməsindən sonra acgöz hiyləgər "qonşumuz" Qarabağa, hətta bütünlüklə Azərbaycana yiyələnmək üçün yeni mərhələni başlatdı. Bu acı tarixi reallıq ölkəmiz üçün edilən ən ağır haqsızlıqlardan sadəcə biridir. Zəngəzurun önəmi Azərbaycan, həmçinin türk dünyası üçün olduqca önəmlidir. Zəngəzur ərazisinin vətənimizdən ayrı düşməsindən sonra Naxçıvanla olan quru əlaqə tam kəsildi. Türk dünyası arasında olan birbaşa yol bağlandı. Bunun nəticəsidir ki, hal-hazırda türk ölkələri bir-biriləri ilə sadəcə hava və tranzit ölkə vaistəsiylə əlaqə qura bilirlər.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Vətən müharibəsində qəhrəman əsgərlərimiz, xalq-iqtidar birliyi nəticəsində tarixi yenidən yazdıq. Ali baş komandanın dəqiq, sarsılmaz, iradəli siyasəti nəticəsində düşmənə sarsıdıcı zərbə vuruldu. Qarabağın işğalına son qoyuldu. Kapitulyasiya aktı imzalandı və Ermənistan Zəngəzur üzərindən Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirən yol verməyi öhdəliyinə götürdü. Düzdür, hazırda bu vəddən boyun qaçıran Ermənistan gec-tez hazırkı vəziyyəti anlayacaq və o yolu istifadə üçün açıq elan edəcək. Əks halda, regional inkişafdan kənarda qalan Ermənistan iqtisadi-siyasi tənəzzülə məruz qalacaqdır. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu neft siyasəti vaistəsiylə Azərbaycan TANAP-TAP vaistəsi ilə hər il Gürcüstan üzərindən tonlarla yeraltı təbii sərvətləri ixrac edir. Bu layihə Ermənistanın inadına görə əlavə xərc edilərək daha uzun yolla istifadəyə verilmişdir. Zəngəzur dəhlizinin açılmasını təkcə Azərbaycan deyil, dünya güclərindən hesab olunan Çin də istəyir. Çinin "Bir kəmər – bir yol" layihəsi Azərbaycan ərazisindən keçir və plana əsasən bu dəhliz Zəngəzurdan keçməlidir. Ələt Azad İqtisadi Zonanın açılması xarici kapitalların ölkəyə kapital qoymasına şərait yaratdı. Qarabağ regionunun bərpasına xarici şirkətlər cəlb olundu. Zəngəzur tarixdə necə ki 2 yerə bölünərək Ermənistana verilmişdi, hal-hazırda da uğurlu siyasət nəticəsində Qərbi və Şərqi Zəngəzur regionu yaradıldı. Şərqi Zəngəzurun bərpası üçün sərmayə qoyuldu.

Yaşıl enerji ərazisi Qarabağda bu ərazini də əhatə edir. Yaşıl enerji zonası elan olunması nəticəsində xarici ölkələrin regiona olan marağı daha da artdı. Müəyyən zaman sonra əminəm ki, Zəngəzurdan didərgin düşmüş azərbaycanlılar ora yenidən qayıdacaqlar. Necə ki 30 illik işğala son qoyaraq Qarabağı azad etdik. Həmçinin də Zəngəzura, doğma torpaqlarımıza geri dönəcəyik, amma Prezident İlham Əliyevin dediyi kimi, Zəngəzura tanklarla deyil, minik avtomobillərimizlə dönəcəyik!

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 454-456
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 454-456
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Azərin Nəzərova**
Bakı Dövlət Universiteti
bakalavr
azerinnazarova5@gmail.com

# AZƏRBAYCANIN ZƏNGİN TARİXİ KEÇMİŞƏ MALİK OLAN ƏRAZİSİ ZƏNGƏZUR

***Açar sözlər:*** *tarix, mahal, quberniya, siyasət, kənd*
***Keywords:*** *history, district, governorate, politics, village*

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da digər ərazilərimiz kimi ermənilərin işğalçılıq siyasətinə məruz qalıb. Zəngəzur mahalı Qafan, Goruş, Qarakilsə (Sisian), Meğri (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk, 91 kürd və 81 erməni kəndi var idi. Zəngəzur Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olub. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinib. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilib. 1920-ci ilin 28 aprelində Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni silahlı dəstələrinin hücumları davam edirdi. Azərbaycan SSR hökuməti (Müvəqqəti İnqilab Komitəsi) 1920-ci ilin 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi. 1920-ci ilin 10 avqustunda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla mümkün oldu. Həmin qərarda Zəngəzur bölgəsini iki yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə,

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi. Zəngəzurun ermənilərə verilməsi istiqamətində ilk addımlardan biri 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyəti qurulması münasibətilə keçirilən təntənəli "tarixi" iclasında Nəriman Nərimanov bəyanatla çıxış etdi. Həmin çıxışda deyilirdi*: "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın-kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanın bölünməz ərazisidir (Seçdirmə bizimdir-İ.M.); Dağlıq Qarabağın əməkçi kəndlərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; Sovet Azərbaycanın qoşunları isə buradan çıxarılırlar. Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin-neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır".* Qeyd etdiyimiz kimi, tariximizin qara səhifəsi olan Zəngəzurun itirilməsinə 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KPMK Siyasi və Təşkilat bürolarının birgə iclasında qərar verildi. Qərarın "q" bəndində deyilirdi ki, Zəngəzur və Naxçıvan Sovet Ermənistanının tərkibinə keçir. Beləliklə, 1933-cü ildə Ermənistan SSR-in ərazisi rayonlara bölündü və Zəngəzur adı xəritədən silindi.

Yerində Qafan, Gorus, Qarakilsə (Sisian) və Mehri rayonları yaradıldı, Naxçıvan Azərbaycanı digər torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində əvvəlcə Kürdüstan qəzası, sonra Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı. 1992-1993-cü illərdə Zəngəzurun bu əraziləri də ermənilər tərəfindən işğal edildi. Şərqi Zəngəzur adlandırılan torpaqlarımız 27 illik işğaldan sonra ötən il azad olunaraq, öz əzəli sahiblərinə qovuşdu. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan, Rusiya və Ermənistan arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradır. Sözügedən bəyanatlar Zəngəzur dəhlizinin beynəlxalq səviyyədə siyasi-hüquqi

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 454-456**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 454-456**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

cəhətdən legitimliliyi üçün əsasdır. Azərbaycan ötən ilin payızında tarixi qələbə qazanaraq Qarabağın 30 illik işğalına son qoydu. Cəmi 44 günə Ermənistan ordusunun darmadağın edilməsi ilə nəticələnən Vətən müharibəsi Cənubi Qafqaz regionunda tamamilə yeni vəziyyət yaratdı. Azərbaycan xalqının cəm olduğu "Dəmir yumruq" sayəsində bölgənin geosiyasi mənzərəsi dəyişdi, işğalçılar ağ bayraq qaldıraraq qarşımızda diz çökdü və Ermənistan kapitulyasiyaya imza atdı. İkinci Qarabağ savaşının ən mühüm nəticələrindən biri də Azərbaycan, Ermənistan və Rusiya arasında Zəngəzur dəhlizinin açılması barədə üçtərəfli razılığa gəlinməsi oldu.

Bu, bizim üçün olduqca önəmli, həm də tarixi nailiyyətdir.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 457-458
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 457-458
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Əli Məmmədli**
Bakı Dövlət Universiteti
bakalavr
mammmdli201@gmail.com

# ZƏNGƏZURUN İNZİBATİ ƏRAZİSİ

***Açar sözlər:*** *tarix, sərhəd, rayon, vilayət, torpaq*
***Keywords:*** *history, border, region, province, land*

Bu ərazi Azərbaycanın zəngin tarixi keçmişinə sahib olan bölgələrindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluya qədər olan geniş coğrafiyası ilə məşhur tarixi Azərbaycan əraziləri, vaxtaşırı parçalanaraq müasir Azərbaycan Respublikasının sərhədlərində yer almışdır. Müasir Azərbaycan dövləti özünü Zəngəzur dəhlizi aracılığı ilə iki hissəyə bölünmüş kimi təsvir edir. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir hissəsini, Azərbaycan Respublikasının cənub-qərb sərhədini və Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içində olan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövlətinin ərazisində olan hissəsi isə Qərbi Zəngəzur kimi adlandırılır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası, Gəncə quberniyasının hissəsi olaraq mübahisəsiz ərazi kimi dəyərləndirilirdi. Zəngəzurun böyük bir hissəsi 1918-1920-ci illərdə erməni silahlı qüvvələri tərəfindən ələ keçirilmişdir və yalnız 1921-ci ildə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati ərazisinə daxil edilən Zəngəzur qəzası yaradılmışdır. Qalan Şərq hissəsi isə Qubadlı qəzasına dönüşdürülmüşdür. 1925-ci il sənədlərində isə Zəngilan, Cəbrayıl qəzasının tərkibində göstərilir.

İnzibati ərazi bölgüsü əsasında, Şərqi Zəngəzurun ərazisi Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını təşkil edir, əksər Qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Meğri rayonlarının ərazilərini əhatə edir.

Ermənilər Qərbi Zəngəzurda azərbaycanlıların zəngin mədəni irsini və izini silməyə çalışmışlar, ancaq bu mədəni varlığın yaddaşlardan,

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 457-458**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 457-458**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

foto-video materiallardan və sənədlərdən tamamilə silinmədiyini göstərir. Oradakı müsəlman qəbiristanlıqlarında yerləşən qoç və at abidələri öz əksini tapdığı yüzlərlə qəbirüstü abidə və sənduqələrlə bu torpaqların azərbaycanlılara məxsus tarixi keçmişini özündə saxlamağa davam edir. Şərqi Zəngəzurun Ermənistan ordusunun işğalı zamanı törədilən tarixi-memarlıq abidələrinə qarşı törədilmiş vandalizmin nəticələri qısa müddətdə aradan qaldırılacaq, hər bir abidə və məscid yenidən bərpa olunacaq. Lakin erməni cinayətkarlarının törətdikləri vəhşiliklər tarixi mənbələr və tarixi məlumatlar vasitəsilə gələcək nəsillərə bir ibrət dərsi kimi çatdırılacaq. Hər kəsin ermənilərin bu çirkin əməllərini tanıyacağı vaxtda gələcək. O zaman Azərbaycanın bir daha başqasının torpağına iddia etdiyi deyil, Azərbaycanın haqqı olan torpaqları haqq ilə aldığı yad ediləcək.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 459-461
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 459-461
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Fədayə Qasımova**
Bakı Dövlət Universiteti
bakalavr
fedayesenanzade@gmail.com

# ZƏNGƏZUR DƏHLİZİ CƏNUBİ QAFQAZDA STRATEJİ QAPI KİMİ

***Açar sözlər:*** *dəhliz, bölgə, sosial, iqtisadi, regional*
***Keywords:*** *corridor, region, social, economic, regional*

Zəngəzur dəhlizi Cənubi Qafqazda strateji qapı kimi seçilir. Bu, Azərbaycanın Naxçıvan Muxtar Respublikasını vətəni ilə birləşdirən və Ermənistanı regional iqtisadi inteqrasiyaya daxil edən nəqliyyat və ticarət marşrutudur. Zəngəzur dəhlizinin əhəmiyyəti bölgədəki siyasi, iqtisadi və təhlükəsizlik dinamikası ilə birlikdə qiymətləndirilməlidir. Çünki Zəngəzur Sovet İttifaqına qədər əhalisinin əksəriyyəti müsəlman türklərin yaşadığı bir bölgə olub. 1920-ci illərdə Sovet İttifaqı tərəfindən Ermənistana birləşdirildikdən sonra bölgənin demoqrafik strukturu dəyişməyə başladı.

Zəngəzur dəhlizi tarixən regionda müxtəlif mədəniyyətlər, etnik qruplar və dövlətlər arasında əlaqə nöqtəsi olub. Hazırda Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas ərazisindən Mehri rayonu ilə ayrılır. Buna görə də Zəngəzur dəhlizi Naxçıvanı Azərbaycanla birləşdirəcək və bu regionun Azərbaycanın siyasi, iqtisadi və sosial quruluşuna inteqrasiyasını təmin edəcək. Dəhliz Azərbaycanın ərazi bütövlüyünü möhkəmləndirməklə yanaşı, Naxçıvanın xarici dünyaya açılmasına və regional əməkdaşlıqda iştirakına şərait yaradacaq.

Nəzəri mülahizələrə əsaslanaraq, Zəngəzur dəhlizinin işə salınması Azərbaycan və Ermənistanı qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan daha mənalı əlaqələri inkişaf etdirməyə həvəsləndirəcək. Axı Bakı ilə İrəvan arasında heç vaxt iqtisadi əlaqələr olmayıb ki, bu da xalqların əvvəlki üç onillikdə düşdüyü vəziyyətə kömək edə bilərdi. Nəqliyyat və iqtisadi əməkdaşlığa başlanması dövlətlər arasında münasibətlərdə proqnozlaşdırıla bilən səviyyəsini təqdim edəcək və bununla da potensial münaqişə dinamikasının inkişafının qarşısını alacaq.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Buna baxmayaraq, Ermənistanda Zəngəzur dəhlizi ilə bağlı bir qədər qərəzli fikir var və bəziləri dəhlizin işə salınmasının milli maraqlara mənfi təsir edəcəyini iddia edir. Bununla belə, belə bir arqument mənasızdır, çünki Azərbaycan və Ermənistan gələcək münaqişələrə qarşı çəkindirici qüvvəyə malik olmayacaq və dəhliz bir konsepsiya olaraq qalacağı təqdirdə münaqişə dinamikası yenidən üzə çıxa bilər.

Zəngəzur dəhlizinin açılması Ermənistana nəqliyyat infrastrukturunun inkişafı üçün investisiyalar cəlb etməyə imkan verəcək ki, bu da onun təhlükəsizliyinə müsbət təsir göstərəcək. Hər iki hadisə Ermənistan üçün həlledici əhəmiyyət kəsb edir və İrəvanda qərar qəbul edənlər nəqliyyat marşrutunun işə salınmasının faydalarını nəzərə almalıdırlar. Zəngəzur dəhlizinin beynəlxalq ticarət sisteminə daxil edilməsi Azərbaycan və Ermənistanın qloballaşmasını artıracaq. Bakı və İrəvanın artan qloballaşması "çıxış bahasına", yəni razılaşmaya xəyanət etmək və yenidən düşmənçiliyə sıçrayışa iqtisadi və siyasi baxımdan çox baha başa gələcək və beləliklə, Cənubi Qafqazın təhlükəsizliyinə töhfə verəcək. Potensial xərclərə siyasi təzyiqlər, habelə razılaşmaya xəyanət edən tərəfə inamın azalması daxildir. Özbəkistan və Türkmənistan prezidentləri səviyyəsində Cənubi Asiya və Cənubi Qafqazın nəqliyyat-logistika imkanlarının müzakirəsi deməyə əsas verir ki, Mərkəzi Asiya ölkələrinin yeni nəqliyyat dəhlizlərindən, o cümlədən Azərbaycanın tranzit imkanlarından istifadədə marağı böyükdür. Zəngəzur dəhlizi ilə bağlı digər bir qeyd olunması vacib olan məqamlardan biri də Aşqabat müqaviləsi ölkələrinin Avropaya reinteqrasiyası üçün yeni perspektivlər yaratmasıdır. Aşqabat müqaviləsi Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanıb. Bu ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizi vasitəsilə Avrasiya bazarlarına çatdırılması Qarabağ regionunun iqtisadi potensialının artırılmasında xüsusi rol oynaya bilər.

Zəngəzur dəhlizinin bir parçası olacaq həm dəmir yolunun, həm də avtomobil yolunun inşasına dair işlər sürətlə reallaşdırılmaqdadır. Tarixi torpaqlarımızdan keçəcək olan dəhlizə Qarabağ regionu daxilində magistral avtomobil yollarının birləşdirilməsi aparılan işlərin kompleks

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

təbiət ilə implementasiya edildiyindən xəbər verir. Belə ki, 101,9 $km^2$ hərəkət zolaqlı "Zəfər Yolu"-nun inşası Füzuli rayonu ilə Şuşa şəhərini əlaqələndirməklə Qarabağ regionunda sosial-iqtisadi əlaqələrin dirçəlməsinə imkan yaradacaqdır. 123,8 km və 4-6 hərəkət zolaqlı Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolu, 70 km və 4 hərəkət zolaqlı Xudafərin-Qubadlı-Laçın yolu, 73 km və 2 hərəkət zolaqlı Kəlbəcər-Laçın yolu, 13 km və 4 hərəkət zolaqlı Füzuli-Hadrut yolu, 45 km və 4 hərəkət zolaqlı Bərdə-Ağdam yolunun inşası Qarabağ regionunun, o cümlədən Azərbaycanın nəqliyyat dəhlizlərinə çıxışını çoxşaxəli etməklə buradan keçəcək xətlərin önəmini də artıracaqdır.

Cənubi Qafqaz ölkələri olan Azərbaycan, Ermənistan və Gürcüstan, qonşu ölkələr olan Türkiyə, Rusiya və İran "3+3" formatda geosiyasi əməkdaşlıq edərək kommunikasiya xətlərinin yenidən bərpa edilməsi ilə beynəlxalq tranzit daşımalarda yeni iqtisadi ağırlıq mərkəzi yarada bilər. Əlbəttə ki, bu əməkdaşlıq çərçivəsində Zəngəzur dəhlizinin siyasi və iqtisadi önəmi danılmazdır. Regionda digər həyata keçirilməsi nəzərdə tutulan layihələri dəyərləndirdikdə Zəngəzur dəhlizi region ölkələrinə daha ucuz alternativ olaraq çıxış edir. Uzun illərdir, beynəlxalq maliyyə institutları, xarici dövlətlər, hətta Ermənistan dövləti belə İran və Ermənistandan keçməsi nəzərdə tutulan və 3.5 milyard ABŞ dolları dəyərində olan yeni dəmir yolu xəttinin maliyyələşdirilməsinə nail ola bilməyiblər.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 462-463**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 462-463**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Fərid Sadıqzadə**
Bakı Dövlət Universiteti
bakalavr
feridsadiqzade2002@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *qəza, dövlət, məntəqə, quberniya, sahə*
***Keywords:*** *district, state, precinct, governorate, field*

Qarabağ regionunun Zəngəzur qəzasının sərhədləri şərqdən və şimal-şərqdən Şuşa, Cəbrayıl qəzaları, şimaldan Cavanşir qəzası, Ərəş qəzası Nuxa, Göyçay, qərbdən və cənub-qərbdən Naxçıvan və Şərur-Dərələyəz qəzaları, İrəvan quberniyası, Cənubi Azərbaycan Yelizavetpol qəzaları və Zaqatala, cənub və cənub-şərqdən Araz çayı hansı ki, Rusiya və İran dövləti arasındadır kimi göstərilmişdir. 1873-cü ildə Yelizavetpol quberniyasında təsis olunmuş Qəza mərkəzi Gorus məntəqəsi idi. Qəza 3212, 5 km² sahəyə malik idi. Fəaliyyətinə 1929-cu ildə son qoyuldu.

1867-ci il dekabr tarixli fərmana əsasən, Zəngəzur və Cavanşir sahələri Şuşa qəzasından ayrılıb müstəqil qəzalara çevrildilər. Zəngəzur ərazi etibarilə Araz çayı boyu ilə Meğridən başlamış Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərguşad dağlarınadək ərazini əhatə edir. XIX əsrdə yeni inzibati ərazi bölgüsünə əsasən, indiki Qapan, Gorus, Meğri,

Sisian, Laçın, Qubadlı, Zəngilan rayonları Zəngəzur qəzası adı ilə Yelizavetpol (Gəncə) quberniyasına daxil olmuşdur.

1920-ci ilin axırında Ermənistan Respublikasının ərazisində sovet hakimiyyəti qurulan kimi xüsusilə Sovet Rusiyasının Xalq xarici işlər komissarı Çiçerinin, eləcə də Lenin, Stalin və Orconikidzenin təzyiqi ilə Zəngəzur iki yerə parçalandı.

— Laçın, Qubadlı, Zəngilan Azərbaycan SSR-in tərkibində qaldı, bolşeviklərin tabeliyinə keçmiş yeni sovet respublikasının "təhlükəsizlinin təminatçısı" olan XI ordunun qəsdən etinasızlığı ilə ermənilər tərəfindən işğal olunmuş digər dörd rayon isə, yaylaqlar istisna olunmaqla Ermənistana verildi. Sonralar həmin yaylaqlar da əlaltından ermənilər tərəfindən özününküləşdirildi.

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Əslində, Zəngəzurun Ermənistana verilməsi Böyük Britaniyanın o vaxtkı xarici işlər naziri lord Kerzonun layihəsi əsasında olmuşdur. Sovet Rusiyasının Xalq Xarici İşlər Komissarı Çiçerinin Zəngəzur, Qarabağ, Ordubad, Şərur-Dərələyəz və Naxçıvan məsələsində tutduğu antiazərbaycan və antitürk mövqeni araşdırdıqda belə təsəvvür yaranır ki, görünür, bolşeviklər ingilislərlə gizli danışıqlar əsasında bu barədə ümumi razılığa gəlibmişlər. Bu layihə ilə həyata keçirilməsi nəticəsində Türkiyə ilə Azərbaycan SSR və Orta Asiya arasında birbaşa əlaqə kəsilirdi. Bu isə həm ruslara, həm də bütövlükdə qərb aləminə və İrana çox sərf edirdi.

Çayın adı qıpçaqların zəngi tayfasının adı əsasında əmələ gəlmişdir, etnohidronimdir. Çayın adı dəyişdirilib Hrazdan çayı qoyulmuşdur. Zəngilər — İndiki Ermənistanın Zəngibasar (Masis) rayonunda kənddir. Rayon mərkəzindən 4 km şimal-qərbdə, Zəngi çayının sahilində yerləşir. 3 yanvar 1935-ci ilə kimi kəndin adı Donuzgiən (Donuzgirən) olmuşdur. Burada 1988-ci ilin noyabr-dekabr ayına kimi yalnız azərbaycanlılar yaşamışdır.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 464**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 464**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Gülüstan Şahbalayeva**
Bakı Avrasiya Universiteti
bakalavr
gulustansahbalayeva1@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *tədbir, ərazi, işğal, qüvvə, azad*
***Keywords:*** *event, territory, occupation, force, liberation*

Zəngəzur, Azərbaycan və Ermənistan arasında ərazi davamız olan bölgələrdən biridir. Bu bölgə Tovuz, Qazax və İmişli rayonlarından keçən bir ərazidir.

Ermənistan hərbi işğalı nəticəsində 1990-cı illərdə Zəngəzur bölgəsini işğal etmiş və ərazi üzərində nəzarətlərini gücləndirmişdir. Son illərdə Azərbaycan hakimiyyəti Zəngəzur bölgəsinin işğalı altındakı hissələrin azad olunması məqsədilə bir çox tədbirlər həyata keçirmişdir. 2020-ci il iyul ayında Ermənistan və Azərbaycan arasında yaşanan müharibə zamanı Azərbaycan hərbi qüvvələri Zəngəzur bölgəsində müvafiq əməliyyatları həyata keçirərək ərazi üzərində nəzarətlərini geri qaytarmışdır. Bu hadisələrə baxmayaraq, Zəngəzur bölgəsi hal-hazırda hələ də qismən işğal altında olan bir ərazi bölgəsidir.

Azərbaycan hakimiyyəti regional inkişafı təmin etmək və bu ərazilərə sakinləri üçün daha yaxşı şərait yaratmaq məqsədilə fəaliyyətlərini davam etdirməkdədir.

Bu baxımdan Zəngəzur bölgəsi, Azərbaycan ərazi bütövlüyünün bir hissəsi olaraq, ölkənin digər bölgələri inkişaf etməsi və sakinlərin yaşam şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuşdur. Bu proseslər baxımından Zəngəzur bölgəsi Azərbaycanın regional inkişafına və mədəni inkişafına dəstək verən bölgədir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 465-466**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 465-466**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**İlham Əliyev**
Bakı Dövlət Universiteti
bakalavr
ilhamaliyev032@gmail.com

# ZƏNGƏZURUN TARİXİ COĞRAFİYASI

***Açar sözlər:*** *tarix, şərq, feodal, işğal, xəzərlər*
***Keywords:*** *history, east, feudal, occupation, the Khazars*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir.

Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır.

Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Mada şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olub. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradılmış, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirilmişdi. VII əsrin əvvəllərində Bizans imperatoru II İraklinin Sasani şahənşahı II Xosrov Pərvizlə apardığı müharibədə qalib gəlməsi fars hakimiyyətinə tabe olan ölkələrdə müstəqillik meyillərini gücləndirdi. Nəticədə Sünik knyazlığı da müstəqil oldu.

Moisey Kalankatlı "Albaniya tarixi" əsərində VII əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcud olduğunu qeyd edir.

Qədim dövr mənbələrində bu region Sisakan, yaxud Sünik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

sakların adı ilə bağlı olduğunu yazırlar. Alban tarixçisi Moisey Kalankatuklu "Albaniya tarixi" əsərində bu ərazidə yaşayan alban tayfa birlikləri barəsində, eyni zamanda qarqarlar, xəzərlər, hunlar və digər türk tayfaları haqqında da məlumat verir.

Azərbaycan Albaniya dövlətinin şərq hissəsini təşkil edən Zəngəzur Araz çayı boyu ilə Meğridən başlamış, Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərguşad dağlarınadək olan geniş ərazini əhatə edir.

VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunmuşdur.

Ərəb xilafətinin zəifləməsi dövründə isə keçmiş Albaniya ərazisində kiçik Azərbaycan feodal dövlətləri yaranmışdır.

Monqolların ağalığı dövründə Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninin tərkibinə daxil idi. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk Səfəvilər dövründə davam etmişdir.

"Zəngəzur" termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə "sur" daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də, yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər. XIII-XIV əsrlərdə Zəngəzur torpaqları coğrafi baxımdan Azərbaycan əyalətinin Naxçıvan tüməninə və Arran əyalətinə daxil olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdir. Zəngəzurun ərazisinin böyük bir qismi 1918-1920-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, yalnız 1921-ci ildə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati-ərazisinə daxil edilən Zəngəzur qəzası yaradılmışdır.

Azərbaycan SSR-nin tərkibində qalan Zəngəzurun Şərq hissəsi Qubadlı qəzasına çevrildi. 1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzası tərkibində göstərilir. İnzibati ərazi bölgüsünə görə, Şərqi Zəngəzurun ərazisi Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını, Qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Meğri rayonlarının ərazilərini əhatə edir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 467-468**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 467-468**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Fəqan Mansurov**
Bakı Dövlət Universiteti
bakalavr
fmansurov313@gmail.com

# ZƏNGƏZUR DƏHLİZİNİN ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *mövqe, kommunikasiya, hüquq, siyasət, potensial*
***Keywords:*** *position, communication, law, policy, potential*

Ölkəmizin yerləşdiyi coğrafi mövqe tarix boyu digər dövlətlərin marağına səbəb olmuş, ölkəmizi müxtəlif hücumlara məruz qoymuşdur. Bu gün isə yeni geosiyasi vəziyyət yaranmış və ölkəmiz coğrafi potensialından məharətlə istifadə etməyə başlamışdır.

2020-ci ilin payızında baş verən 44 günlük müharibədən sonra regionun geosiyasi düzəni tamamilə dəyişdi. Müharibədə Azərbaycanın qəti qələbəsi, ölkəmizə işğal altında olan ərazilərimizi azad etdikdən sonra növbəti addım kimi coğrafi cəhətdən ölkəmizdən ayrı düşən Naxçıvan Muxtar Respublikası ilə bir-başa kommunikasiya xətlərinin qurulması şəraitini yaratdı. 10 noyabr üçtərəfli bəyanatının 9-cu bəndində qeyd olunur ki, "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan  Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Zəngəzur dəhlizi Azərbaycanın regional və beynəlxalq siyasi, iqtisadi, hüquqi əlaqələrində böyük amildir. Hazırda iki ölkə arasında bu dəhlizlə bağlı razılıq tam şəkildə icra edilməyib. Buna səbəb Ermənistanın hüquqi və siyasi münasibətlərinin icrasında öz öhdəliklərini yerinə yetirməməsidir.

Şərqlə qərb, şimalla cənub, Asiya ilə Avropa arasında yerləşən bu regionda Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycan üçün deyil, həmçinin digər region dövlətləri, türk dövlətləri, eyni zamanda Çin strategiyası üçün çox mühümdür.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Qısaca belə deyə bilərik ki, bu yol lokal, regional və interkontinental əhəmiyyətə malikdir.

Ermənistanın apardığı işğalçı siyasət ərazi problemləri və iqtisadi qeyri-sabitliyə səbəb olmuşdur. Dəhlizin iqtisadi potensialı və regional sülhə verəcəyi töhfə bütün aktorların maraqlarına uyğundur. Ona görə də İrəvan dəhlizin yaratdığı imkanları görsə, ərazi bütövlüyümüzü tanıyıb sülh sazişi imzalayarsa və bu layihə gerçəkləşərsə, Ermənistan da buradan xeyli mənfəət əldə etmiş olacaq. Layihə ilə bağlı Gürcüstanın mövqeyinə gəldikdə isə hər nə qədər Türkiyə ilə Azərbaycan arasında "körpü" rolunu itirsə də, regional sülhün və təhlükəsizliyin təmin olunması Gürcüstan üçün də faydalı olacaqdır.

Bu yolu eyni zamanda "Turan yolu" da adlandırırlar. Çünki bu layihənin gerçəkləşməsi Mərkəzi Asiyanın türk dövlətləri ilə Türkiyə və Azərbaycanı birləşdirəcək. Beləcə, türk dövlətlərinin İrandan asılılığı aradan qaldırılmış olacaq.

Türklərin qatı düşməni olan Zori Balayan hələ 1970-ci illərdə yazdığı qeydlərində buranı Turan yolu adlandırmışdı.

Zəngəzur dəhlizinin qitələrarası əhəmiyyətinə gəldikdə isə Çinin son illərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni güc qatmış olacaq. Belə ki, Çinin gerçəkləşdirmək istədiyi "bir kəmər–bir yol" layihəsi üçün bu dəhliz alternativlik təşkil edəcək. Çindən gələn malların bu dəhliz vasitəsilə Türkiyənin şərq vilayətlərinə, oradan isə Avropaya daşınılması təmin olunacaq. Beləliklə, Zəngəzur dəhlizi Asiya ilə Avropa arasında çox böyük rol oynayacaq.

Bir sözlə bu layihə nəqliyyat şəbəklərini daha da genişləndirəcək. Bu dəhliz Şimal Cənub Beynəlxalq Dəhlizinin və Orta Dəhlizinin əhəmiyyətini artıracaq, regional əməkdaşlıq isə sülhü bərpa edəcək. Gərginlikləri azaldaraq münaqişəsiz mühiti formalaşdırmış olacaq. Azərbaycanın regional siyasətinin əsasını da məhz bu təşkil edir. Ermənistan ərazi iddialarından əl çəkərsə və regional əməkdaşlıqda iştirak edərsə, bu layihədən ciddi iqtisadi qazanc əldə edəcəkdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Minarə Mərdanlı**
Bakı Avrasiya Universiteti
bakalavr
minaramardanli@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *iqtisadi, rayon, bölgü, xəritə, tarix*
***Keywords:*** *economic, region, distribution, map, history*

Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması mühüm siyasi, tarixi hadisədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli Fərmanı ilə işğaldan azad edilmiş ərazilərimizdə Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və "Şərqi Zəngəzur iqtisadi rayonu"nun (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılması, heç şübhəsiz, 2021-ci ilin əlamətdar hadisələrindən biri oldu. 1933-cü ildə Azərbaycanın coğrafi xəritəsindən silinmiş Zəngəzur adının yenidən coğrafi, siyasi anlamda bərpası xalqımızın, dövlətimizin ictimai-siyasi, mənəvi həyatında mühüm hadisəyə çevrildi.

Dövlət başçımızın bu növbəti müdrik, uzaqgörən qərarı həm də qarşımızda bizi tarixi ədalətin bərpası – minlərlə günahsız insanın qanı ilə suvarılmış, zorla Ana Vətəndən qoparılmış Zəngəzur torpaqlarımızın bütövləşməsi, birləşib biri-birinə və Azərbaycana qovuşması kimi mənəvi borcumuzun gerçəkləşməsinə aparan yola işıq saldı, mayak oldu. Azərbaycan Prezidenti İlham Əliyevin bu sözləri artıq strateji yol xəritəsidir:

Qərbi Zəngəzura qayıdacağıq, kimsə bizi dayandıra bilməz! Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək, bütün region ölkələri üçün yeni imkanlar yaradacaq. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq? Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm. Zəngəzurun Şərqi varsa, onun Qərbi də var, bunların qovuşması artıq zaman məsələsidir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 470-471**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 470-471**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nərgiz Əzimli**
Bakı Avrasiya Universiteti
bakalavr
nergizzazimli@gmail.com

# AZƏRBAYCANIN BİR PARÇASI – ZƏNGƏZUR QƏDİM DİYAR!

***Açar sözlər:*** *tarix, diyar, torpaq, xanlıq, hakimiyyət*
***Keywords:*** *history, country, land, khanate, power*

"Zəngəzur" sözünün etimologiyasını Azərbaycan və erməni müəllifləri müxtəlif cür şərh edirlər. Bu söz, əsasən, etnonim və toponimlərlə əlaqələndirilir. Zəngəzuru tarixi Ermənistan ərazisi hesab etməyə öyrəşmiş erməni müəlliflər Zəngəzur adının əmələ gəlməsini müxtəlif cür izah edirlər.

Bunlardan biri – "Zəngə" sözünün mağara, "zur" sözünün güclü səslənən mənasına malik olması ilə bağlıdır. Bu versiyanı izah edərkən onlar iddia edirlər ki, guya qədim Zəngəzur ərazisində çoxsaylı mağaralar olub ki, onların girişində güclü səslər eşitmək olardı. Ermənilər "qədim milli" musiqi alətləri olan "zurna"nın adının mənşəyini də "zur" sözü ilə əlaqələndirməyə çalışırlar. Halbuki zurnanın Zəngəzur tarixi və adı ilə heç bir əlaqəsi yoxdur. Bundan başqa, ermənilərin digər versiyaları da mövcuddur: "Zəng" – zəng, "zor" – güclü və ya "dzor" – dərə.

Azərbaycanlı müəlliflərin fikrincə, Zəngəzur öz adını ərəb qoşunlarının Azərbaycana yürüşünün qarşısında əlçatmaz divar (ərəbcə "sur" daş divar, qala, hasar deməkdir) kimi durmuş Zəngi tayfasının adından alıb. Cənubi və Şimali Azərbaycan ərazisində bu tayfanın adı ilə əlaqəli çoxsaylı toponimlər mövcuddur: Zəngan (Zəncan), Zəngilan, Zəngibasar, Zəngi çayı (mənbəyini Göyçə gölündən götürən yeganə çay) və s. Zəngəzur toponiminin adına Osmanlı imperiyasının Bəyazid sancağı və Qacarlar dövlətinin Maku xanlığı ərazisində yerləşən mənbələrdə də rast gəlinir.

XIX əsrin sonlarında Qafqazda torpaq quruculuğu işlərinə rəhbərlik etmiş rus tətqiqatçı M.Skibiskinin topladığı materiallara əsasən Dağlıq Qarabağ ərazisi də Zəngəzurun bir hissəsi olmuşdur. Dağlıq Qarabağ

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 470-471**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 470-471**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

şərqdə Qarabağ, qərbdə Zəngəzur dağ silsilələri arasında yerləşir və Yuxarı Qarabağla Aran Qarabağı bir-birindən ayıran Qarabağ silsiləsinin ətəklərini (Dağlıq Qarabağın məhz bu hissəsində 1923-cü ildə süni erməni muxtariyyəti yaradılıb) də əhatə edirdi.

Erkən orta əsrlərdə Zəngəzur Albaniyanın Sünik vilayətinin tərkibində olmuşdur. Qafqaz Albaniyasının ucqar cənub hissəsində yerləşən bu vilayət Zəngəzuru tam, Naxçıvanın yuxarı, dağlıq hissəsini və Göyçənin əsas hissəsini (Zəngi çayının yuxarı axarı olmadan) əhatə edirdi. Zəngəzur Sünikin 12 gavarından 7-ni tam əhatə edir və onun şərq hissəsində yerləşirdi.

Ermənilərin Zəngəzura köçürülməsi və 1905-1906-cı illərdə azərbaycanlılara qarşı törədilmiş qırğınlar 1822-ci ildə rus hakimiyyəti 1805-ci ildə bağlanmış Kürəkçay müqaviləsinin şərtlərini pozaraq Qarabağ xanlığını ləğv etdi.

Keçmiş xanlıq rus komendantın rəhbərlik etdiyi Qarabağ əyalətinə çevrildi. Bu üsul-idarə 1840-cı ilədək qüvvədə qaldı. 1840-cı il aprelin 1-də İmperator I Nikolay tərəfindən təsdiq edilmiş yeni inzibati islahatlar 1841-ci il yanvarın 1-dən etibarən bütün Cənubi Qafqazda tətbiq edilməyə başladı.

Bu islahata görə keçmiş əyalətlər qəzalara və dairələrə çevrilirdi. Qarabağ əyaləti Şuşa qəzasına çevrildi və Kaspi vilayətinə tabe edildi. Şuşa qəzasının tərkibində Zəngəzur iki dairəyə – Zəngəzur və Mehri dairələrinə bölündü. 1846-cı il tarixli yeni inzibati-ərazi bölgüsünə əsasən Şuşa qəzası Kaspi vilayəti ləğv edildikdən sonra yaradılmış Şamaxı quberniyasına daxil edildi. 1849-cu ildə İrəvan quberniyasının yaradılması ilə Zəngəzurun cənub hissəsi Mehri darəsi (Qafan, Güney-Mehri, Çuldur və Püsiyan) ona verildi. Dairə 1849-1867-ci illər aralığında bu quberniyanın Ordubad qəzasının tərkibində qaldı. 1868-ci ildə Yelizavetpol quberniyasının yaradılması ilə Şuşa qəzasının tərkibindən Zəngəzur qəzası ayrıldı və İrəvan quberniyasının tərkibində olan Mehri dairəsi onun tərkibinə geri qaytarıldı. Sonradan Zəngəzur qəzası dairələrə bölünmüş və sovet hakimiyyəti qurulanadək bu formada mövcud olmuşdu. Zəngəzur qəzasının ümumi ərazisi 6742 kv. verst (1 kv.verst -1,138 kv.km) təşkil edirdi.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Nəzrin Mirzəzadə**
Azərbaycan Dövlət İqtisad Universiteti
bakalavr
nezrinmirzezade2006@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *kommunikasiya, tarix, quruculuq, milli, inteqrasiya*
***Keywords:*** *communication, history, construction, national, integration*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini təşkil edir. Hal-hazırda işğaldan azad olunmuş digər ərazilərimiz kimi Zəngəzurda da quruculuq-bərpa işləri görülür. Eyni zamanda Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadi potensialı gücləndirmək üçün lazımi addımların atılması davam etməkdədir.

Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş və çoxşaxəli əməkdaşlıq imkanlarının formalaşdırılması bu yolda atılan addımlardandır. Postkonflikt dövründə Azərbaycanın quruculuq modeli və məqsədyönlü siyasəti regionu işbirliyi və inteqrasiya məkanına çevirir. Azərbaycanımızın qüdrətini və gücünü daha da artırmaq, milli sərvətlərindən səmərəli istifadə etmək, yeni reallıqlar şəraitində məhsuldar iqtisadi inkişaf və tərəqqi modeli formalaşdırmaq və inkişaf etdirmək vacib şərtlərdəndir.

Prezidentimizin müəllifi olduğu yeni reallıqlar və Qarabağla Şərqi Zəngəzurda ortaya çıxan son mənzərə Azərbaycanın uğurlu inkişaf modelini bütün ölkələr üçün nümunəyə çevirir. Bütün dünya bir daha görür ki, uzaqgörən siyasət, atılmış strateji vacib addımlar, ən əsası xalqın və dövlətin maraqlarını hər şeydən üstün tutan bir anlayış yekunda qələbəyə səbəb olur. Elə bir qələbə ki, sonradan sürətli inkişafın və tərəqqinin təməlinə çevrilir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Yemən Cahangirli**
Bakı Dövlət Universiteti
bakalavr
namiq.appe86@icloud.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *cənub, işğal, dövr, bölgə, mərkəz*
***Keywords:*** *south, occupation, period, region, center*

Zəngəzur-Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi mahaldır. XX əsrin əvvələrində Zəngəzur mahalında azərbaycanlılar, kürdlər və ermənilərdə var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilibdir. Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən döyüşlərin məkanı olubdur.

Azərbaycan illər öncə tarixi qələbə qazanaraq Qarabağın 30 illik işğalına son qoydu. Azərbaycan Xalqının cəm olduğu "Dəmir yumruq" sayəsində bölgənin geosiyasi mənzərəsi dəyişildi. İşğalçılar ağ bayraq qaldıraraq qarşımızda diz çökdü və Ermənistan kapitulyasiyaya imza atdı. Azərbaycan, Ermənistan və Rusiya arasında Zəngəzur dəhlizin açılması barədə üçtərəfli razılığa gəlindi.

Rayon ərazisində ən qədim insan məskənləri mövcud olmuşdur. Sovet hakimiyyəti illərində arxeoloji-elmi tədqiqatlar aparılmasa da, Ağalı kəndi ərazisindəki yerdənqazma sığınacaqların-kahaların ilk quldarlıq dövrünə aid olduğu barədə ehtimallar vardır. "Ağalı kahaları" adı ilə tanınan bu sığınacaqların bir çoxundan sonrakı dövrlərdə qoyun-quzuların saxlanma yeri kimi istifadə edilirdi. Rayonun ərazisində 60-70-ci illərdə təsərrüfat işləri zamanı tapılan xeyli küp qəbirlər (küp qəbirlər Azərbaycanda e.ə. II əsrdən eramızın əvvəllərinə kimi mövcud olmuşdur) və e.ə. IV-II əsrlərə aid edilən, əksəriyyəti Makedoniyalı İsgəndərin adına zərb olunan onlarla sikkə ərazinin lap qədim zamanlardan beynəlxalq ticarətdə mühüm rol oynadığından xəbər verir. XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixin 15-ci ilində, yəni 636-cı ildə qoyulub.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 474-475**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 474-475**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Rəna Hüseynzadə**
Bakı Avrasiya Universiteti
bakalavr
ranahsynzada003@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *tarix, qələbə, mənzərə, xalq, geosiyasi*
***Keywords:*** *history, victory, landscape, people, geopolitics*

Azərbaycan ötən ilin payızında tarixi qələbə qazanaraq Qarabağın 30 illik işğalına son qoydu. Cəmi 44 günə Ermənistan ordusunun darmadağın edilməsi ilə nəticələnən Vətən Müharibəsi Cənubi Qafqaz regionunda tamamilə yeni vəziyyət yaratdı. Azərbaycan xalqının cəm olduğu "Dəmir yumruq" sayəsində bölgənin geosiyasi mənzərəsi dəyişdi, işğalçılar ağ bayraq qaldıraraq qarşımızda diz çökdü və Ermənisan kapitulyasiyaya imza atdı.

İkinci Qarabağ savaşının ən mühüm nəticələrindən biri də Azərbaycan, Ermənistan və Rusiya arasında Zəngəzur dəhlizinin açılması barədə üçtərəfli razılığa gəlinməsi oldu. Bu, bizim üçün olduqca önəmli, həm də tarixi nailiyyətdir. Artıq Qarabağ münaqişəsi tarixə qovuşub, dövlətimizin və xalqımızın qarşısında yeni hədəflər, yeni istiqamətlər durur. Hədəfimiz bəllidir – Zəngəzur. Qarabağda addımladığımız Zəfər yolunun sonunda 101 il əvvəl Azərbaycandan qoparılmış tarixi torpaqlarımızın işığı görünür. Təsadüfi deyil ki, Prezident İlham Əliyev dəfələrlə çıxışında Zəngəzur məsələsinə toxunaraq, dədə-babalarımızın torpağına qayıdışın anonsunu verib. Ölkə başçısı bildirib ki, Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi mütləq bərpa olunacaq. Bu dəhliz yalnız Qafqaz üçün deyil, daha geniş anlamda region üçün strateji əhəmiyyətə malikdir.

Zəngəzurla bağlı nələri bilirik?

*Gəlin, tariximizə yenidən nəzər yetirək:*

Son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin "tarixi əzəli torpaqları"nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında "Gülüstan", "Türkmənçay", Rusiya və Türkiyə arasında "Andrianopol" müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi halda Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar. Azərbaycanın tarixi mahalı olan Zəngəzur da digər ərazilərimiz kimi ermənilərin işğalçılıq siyasətinə məruz qalıb. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XIX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk, 91 kürd və 81 erməni kəndi var idi.

Qeyd etdiyimiz kimi, tariximizin qara səhifəsi olan Zəngəzurun itirilməsinə 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KPMK Siyasi və Təşkilat bürolarının birgə iclasında qərar verildi. Qərarın "q" bəndində deyilirdi ki, Zəngəzur və Naxçıvan Sovet Ermənistanının tərkibinə keçir. Beləliklə, 1933-cü ildə Ermənistan SSR-in ərazisi rayonlara bölündü və Zəngəzur adı xəritədən silindi. Yerində Qafan, Gorus, Qarakilsə (Sisian) və Mehri rayonları yaradıldı, Naxçıvan Azərbaycanı digər torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı. 1992-93-cü illərdə Zəngəzurun bu əraziləri də ermənilər tərəfindən işğal edildi. Şərqi Zəngəzur adlandırılan torpaqlarımız 27 illik işğaldan sonra ötən il azad olunaraq, öz əzəli sahiblərinə qovuşdu.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 476-478
II International Scientific Conference "History and Geography of Zangazur"
15 march 2024 / 476-478
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Rəna Muradlı**
Bakı Dövlət Universiteti
bakalavr
renamuradli11@gmail.com

# ZƏNGƏZUR DƏHLİZİ İLƏ BAĞLI AVROPANIN MÖVQEYİ

***Açar sözlər:*** *region, dəhliz, kommunikasiya, nəqliyyat, inteqrasiya, əməkdaşlıq, tranzit*

***Keywords:*** *region, corridor, communication, transport, integration, cooperation, transit*

2020-ci 27 sentyabr tarixində başlayan, 44 gün çəkən İkinci Qarabağ müharibəsi qələbə ilə nəticələndi. Bu qələbə bizə bir sıra imkanlar, yeniliklər gətirdi. Bu imkanların ən böyüyü Zəngəzur dəhlizi idi. Zəngəzur dəhlizi Naxçıvanla Azərbaycanı birləşdirən koridordur. Zəngəzur yolu nəqliyyat, kommunikasiya vasitəsi olub, "Turan Yolu" da adlandırılır.

10 noyabr 2020-ci il üçtərəfli bəyanatla işğal altındakı Azərbaycan torpaqlarının qaytarılması, münaqişə tərəfləri arasında kommunikasiyaların açılması elan edilib. Bəyanatın 9-cu maddəsinə əsasən, Naxçıvanla Azərbaycanı birləşdirən Zəngəzur dəhlizinin açılmasına imkan yarandı.

İkinci Qarabağ müharibəsindən sonra regionda yeni geosiyasi reallıqlar meydana gəldi. Azərbaycan Zəngəzur dəhlizi ilə alternativ şəkildə yüklərin daşınmasına nail olacaqdı.

Biz bu alternativlə Ermənistan-Zəngəzur-Naxçıvan-Türkiyə üzərindən dəmir yolu çəkdirmək imkanı əldə edirik. Zəngəzur dəhlizi açılarsa, Azərbaycanda yeni imkan yaranar, Uzaq Şərqdən gələn yüklər Transxəzər ilə Azərbaycandan keçərək oradan iki istiqamətdə Bakı-Tbilisi-Qars və Bakı-Zəngəzur dəhlizi-Naxçıvan-Türkiyəyə çıxış əldə etməklə daşına bilər. Yeri gəlmişkən, son bir neçə ildir ki, bu dəhliz Transxəzər və Azərbaycan üzərindən daşınma dəhlizi kimi Orta Dəhliz adlandırılır. Çinin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində onun davamı olaraq Orta Dəhliz adlandırılır. Bu istiqamətdə hazırda güclü

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

aktivlik göstərilir. Əgər reallaşarsa, o zaman bu layihə Azərbaycan və bütün region üçün böyük ümidlər yaradır.

Zəngəzur dəhlizi əhəmiyyətli geostrateji və geosiyasi baxımdan Azərbaycan, Türkiyə, Ermənistan, Mərkəzi Asiya, Xəzər regonunu özündə birləşdirən böyük proyekt-layihədir. Gələcəkdə regional ticarətə müsbət həlledici təsir göstərən, ən başlıcası, Cənubi Qafqazda nəq-liyyat-logistika şəbəkəsini genişləndirəcək kommunikasiya əhəmiyyətli dəhlizdir. Dəhliz, o cümlədən Xəzərdən Avropaya qədər uzanan böyük bir kəmər layihəsini – neft və qaz boru kəməri sisteminin istismarını asanlaşdıran nəqliyyat kəməridir. Zəngəzur dəhlizinin reallaşması istər Avropa İttifaqı, istər ABŞ, istərsə də Rusiya və Çinin enerji təchizatı xətləri üçün mühüm rol oynayan regionun tranzit imkanlarını genişləndirəcək.

Prezident İlham Əliyev Zəngəzur dəhlizinin strateji əhəmiyyətini müxtəlif regional və beynəlxalq forumlarda, o cümlədən Birləşmiş Millətlər Təşkilatının (BMT) Asiya və Sakit Okean üzrə 77-ci İqtisadi və Sosial Komissiyasında çıxışlarında qeyd etmiş, Zəngəzur dəhlizinin Türkiyə, Azərbaycan, Ermənistan üçün yeni imkanlar yaradacağını bildirmişdir. Ermənistan Zəngəzur dəhlizinin üstünlüklərindən istifadə edə bilər; başqa sözlə, regional əməkdaşlığa önəm verərsə, sosial-iqtisadi sahədə müsbət göstəricilər ola bilər. O, ilk növbədə, iqtisadi təcriddən çıxmaq və iqtisadi inkişaf yolu keçmək imkanı əldə edəcək. Əks halda, o, ümumi iqtisadiyyatını təkmilləşdirmək və inteqrasiya etmək üçün aydın imkanını itirəcək. Ona görə də Zəngəzur dəhlizi onilliklər boyu davam edən düşmənçiliyə son qoymaq üçün uzunmüd-dətli sülhün bərqərar olması üçün real potensiala malik böyük layihədir.

Türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizi Azərbaycan və Türkiyə arasında dəmir yolu, avtomobil yolu şəbəkələrini asanlıqla təmin edəcək, həmçinin Çindən Avropaya və ya əks istiqamətdə yüklərin daşınması və daşınarkən ayrılan vaxta qənaət edəcək. Çin, Avropa İttifaqı, ABŞ, Rusiya, İran kimi regionların strateji maraqlarının kəsişməsində yerləşən Zəngəzur dəhlizi həmçinin xarici investisiyalara xarici şirkətlərin region üçün yatırımlar etməsində həlledici rol oynayacaq.

14 may 2023-cü il Brüssel görüşündə Azərbaycan və Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı Ümumdünya Gömrük Təşkilatının dəstəyini almağa razılaşdıqları şərtlər açıqlandı. Avropa İttifaqının (Aİ) təşəb-

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

büsü ilə Brüsseldəki bəyanatda ən çox diqqəti cəlb edən məqamlardan biri Zəngəzur dəhlizi ilə bağlı oldu. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bildirdi ki, tərəflərin, xüsusən də Naxçıvan vasitəsilə dəmir yolu əlaqəsinin bərpası ilə bağlı mövqeyi bir-birinə çox yaxındır. Bunun üçün Ümumdünya Gömrük Təşkilatının (ÜGT) dəstəyini almağı da razılaşıblar. Ümumdünya Gömrük Təşkilatının dəstəyi ilə bu istiqamətdə aparılan müzakirələr ondan xəbər verir ki, Azərbaycan tezliklə Zəngəzur dəhlizinin reallaşmasını həyata keçirə biləcək.

Avropa Zəngəzur dəhlizinin tranzit yol, Mərkəzi Asiyadan Avropaya açılan qapı kimi qiymətləndirir. Zəngəzur dəhlizi həmçinin vaxt qənaətinə, həm də yüklərin daşınmasında əlverişli əhəmiyyətə malikdir. Avropa həmçinin bu dəhlizin açılması ilə regionda sabitliyin yaranması, rifah vəziyyətinin yüksəlməsi, sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində rol oynayacağını düşünsə də, bu mövqedə sabit durur, mövqeyi hərəkətverici deyil, məsləhətverici xarakter daşıyır.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 479-480**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 479-480**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Xumar Əhədzadə**
Bakı Dövlət Universiteti
bakalavr
xumarehedzadee@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *dağ, cənub, bağ, əkin, şərt*
***Keywords:*** *mountain, south, garden, cultivation, condition*

Zəngəzur — Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə, Meğri (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. Zəngəzurun təbii-coğrafi mövqeyi elədir ki, burada Araz qırağı düzənlikdəki və uca dağ silsiləsindəki iqlim şəraiti tamamilə bir-birinin əksinədir. Dağ silsilələri, keçilməz dərin dərələr çox yerdə böyük əraziləri bir-birindən ayırır, iki dağ arasındakı böyük çökəkliklər dağların zirvələri ilə tam kontrast təşkil edir.

Zəngəzurun çox hissəsi dağlıq olduğundan, onun ərazisinin 2/3 hissəsində qış çox sərt, soyuq və qarlı keçir. Dəniz səviyyəsindən 1800 metr və daha yüksək olan ərazilərdə qış fəsli oktyabrın sonlarından başlayır və martın ortalarına qədər, bəzi yerlərdə isə aprel ayına qədər davam edir.

Zəngəzur dağ silsiləsinin böyük bir hissəsi geniş alp çəmənlikləridir. Zəngəzurun təbiəti heyvandarlıq, əkinçilik, bağçılıq, ipəkçilik və tütünçülük üçün çox əlverişlidir. Lap qədimlərdən aran Qarabağın, Cavad və Naxçıvan qəzalarının tərəkəmə türk tayfaları yazda Zəngəzur dağlarındakı yaylaqlara köç edər, payızda isə geri dönərdilər.

Zəngəzurun təbiəti və iqlim şəraiti, zəncirvari sıra dağlar, dağlar arasındakı ormanlar, sıldırım qayalıqlar, keçilməz aşırımlar, gursulu, sürətli dağ çayları bu diyarın bitki örtüyünün və heyvanlar aləminin müxtəlifliyini şərtləndirən başlıca amildir.

Zəngəzurun landşaftı dəniz səviyyəsindən 450 m (Yazı düzü) hündürlükdən 4000 m (Qapıçıq dağı) hündürlüyə qədər dəyişir və hər hündürlük zolağı öz bitki aləmini bu torpağa bəxş etmişdir. Düzən və dağətəyi ərazilərdə biçənəklər, otlaqlar, əkin yerləri bir-birini əvəz edir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 479-480**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 479-480**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Əkin sahələrində buğda, arpa, vələmir, pərinc, qismən çəltik (Qubadlıda), texniki bitkilərdən tütün, kartof, bağ-bostan bitkilərindən kələm, pomidor, xiyar, bibər, qarpız-qovun (Meğri, Zəngilan və Qubadlıda) əkilir. Bağlarda ceviz, alma, armud, şaftalı, ərik, alça, gilas, gilənar, tut, gavalı, heyva, nar və s. meyvələr əkilib, becərilir, bol və dadlı məhsul alınırdı.

Zəngəzurun meşələri, əsasən, Qubadlı, Qafan və Gorus rayonlarının, qismən də Laçın, Sisyan və Meğri rayonlarının payına düşür. Meşələrdə palıd (qara palıd və qırmızı palıd), vələs, fısdıq, ağcaqayın, ardıc, qarağac və s. ağaclar üstünlük təşkil edir. Meşələrdə və meşə ətrafı yamaclarda saysız-hesabsız cır alma, cır armud, itburnu, yemişan, qarağat, böyürtkən, moruq kolları bitir.

Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılıb. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, əslində, nadir çinar meşəsi idi.

Burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. İşğal illərində erməni vandalları çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir.

Azərbaycanın 30 ilə yaxın müddətdə işğal altında qalan ərazilərindəki Bəsitçay Dövlət Təbiət Qoruğu (107 ha), Qaragöl Dövlət Təbiət Qoruğu (240 ha), Qubadlı Dövlət Təbiət Yasaqlığı (20000 ha), Arazboyu Dövlət Təbiət Yasaqlığı (2200 ha) və Laçın Dövlət Təbiət Yasaqlığı (20000 ha) ermənilər tərəfindən vəhşicəsinə məhv edilmişdir. Həmin ərazilərdə "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilən 24 fauna və 70-dən çox flora növü qorunurdu ki, bunların da əksəriyyəti artıq məhv edilmişdir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 481-483**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 481-483**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Mələk Sultanlı**
Bakı Avrasiya Universiteti
bakalavr
meleksultanli087@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *tarix, inzibati, bölgü, coğrafiya, sərhəd*
***Keywords:*** *history, administrative, distribution, geography, border*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir.

Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır. Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Mada şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olub. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradılmış, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirilmişdi. VII əsrin əvvəllərində Bizans imperatoru II İraklinin Sasani şahənşahı II Xosrov Pərvizlə apardığı müharibədə qalib gəlməsi fars hakimiyyətinə tabe olan ölkələrdə müstəqillik meyillərini gücləndirdi. Nəticədə Sünik knyazlığı da müstəqil oldu. Moisey Kalankatlı "Albaniya tarixi" əsərində VII əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcud olduğunu qeyd edir.

Qədim dövr mənbələrində bu region Sisakan, yaxud Sünik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan sakların adı ilə bağlı olduğunu yazırlar.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 481-483**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 481-483**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Alban tarixçisi Moisey Kalankatuklu “Albaniya tarixi” əsərində bu ərazidə yaşayan alban tayfa birlikləri barəsində, eyni zamanda qarqarlar, xəzərlər, hunlar və digər türk tayfaları haqqında da məlumat verir. Azərbaycan Albaniya dövlətinin şərq hissəsini təşkil edən Zəngəzur Araz çayı boyu ilə Meğridən başlamış Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərguşad dağlarınadək olan geniş ərazini əhatə edir.

VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunmuşdur. Ərəb xilafətinin zəifləməsi dövründə isə keçmiş Albaniya ərazisində kiçik Azərbaycan feodal dövlətləri yaranmışdır. Monqolların ağalığı dövründə Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninin tərkibinə daxil idi. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk Səfəvilər dövründə davam etmişdir.

“Zəngəzur” termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. “Zəngəzur” toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə “sur” daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər.

XIII-XIV əsrlərdə Zəngəzur torpaqları coğrafi baxımdan Azərbaycan əyalətinin Naxçıvan tüməninə və Arran əyalətinə daxil olmuşdur. Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat və Naxçıvan əyalətlərinin tərkibinə düşür. Qapanat Zəngəzurun Bərgüşad silsiləsinə qədər olan cənub hissəsini əhatə edirdi. Sisyan isə Naxçıvan əyalətinə daxil idi. Zəngəzurun Gorus və Kaştaq (Laçın) mahalları isə Qarabağ vilayətinin bir hissəsi idi.

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi zamanı Azərbaycanın böyük hissəsini ələ keçirən osmanlılar Naxçıvan əyalətini Sisian və Qapanat mahalları ilə birlikdə Azərbaycan vilayətinin tərkibindən çıxarıb, Çuxursəd vilayətinin tərkibinə keçirdilər. Qapanat mahalı Bərgüşad və Urud livalarına bölündü. Sisyan mahalından Kiçik Bazarçay nahiyəsi ayrıldı. Qapanat və Zəngəzur əraziləri Çuxursədin Bəyazid və Alaşkert vilayətləri ilə birlikdə ayrıca Bəyazid livasını təşkil etdilər. Keştaq və Həkəri mahalları Qarabağ (Gəncə) əyalətinin

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

tərkibinə daxil idi. I Şah Abbas XVII əsrin əvvəllərində Azərbaycan torpaqlarını geri aldıqdan sonra Naxçıvan, Qapanat və Bərgüşadı yenidən Azərbaycan vilayətinin tərkibinə daxil etdi. Bazarçay nahiyəsi Sisiana birləşdirildi.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 484-487**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 484-487**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nihad Kazımov**
Bakı Dövlət Universiteti
bakalavr
nihat1807200512@gmail.com

# ZƏNGƏZURUN TARİXİ COĞRAFİYASI

***Açar sözlər:*** *ərazi, keçmiş, dövlət, sərhəd, hissə*
***Keywords:*** *territory, past, state, border, part*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir.

Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb.

Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədlərinin içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır.

Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Mada şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olub. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradılmış, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirilmişdir. VII əsrin əvvəllərində Bizans imperatoru II İraklinin Sasani şahənşahı II Xosrov Pərvizlə apardığı müharibədə qalib gəlməsi fars hakimiyyətinə tabe olan ölkələrdə müstəqillik meyillərini gücləndirdi. Nəticədə Sünik knyazlığı da müstəqil oldu. Moisey Kalankatlı “Albaniya tarixi” əsərində VII əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcüd olduğunu qeyd edir. Qədim dövr mənbələrində bu region Sisakan, yaxud Sünik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan sakların adı ilə bağlı olduğunu yazırlar.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 484-487**
**II International Scientific Conference “History and Geography of Zangazur”**
**15 march 2024 / 484-487**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Alban tarixçisi Moisey Kalankatuklu “Albaniya tarixi” əsərində bu ərazidə yaşayan alban tayfa birlikləri barəsində, eyni zamanda qarqarlar, xəzərlər, hunlar və digər türk tayfaları haqqında da məlumat verir.

Azərbaycan Albaniya dövlətinin şərq hissəsini təşkil edən Zəngəzur Araz çayı boyu ilə Meğridən başlamış, Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərgüşad dağlarınadək olan geniş ərazini əhatə edir.

VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunmuşdur. Ərəb xilafətinin zəifləməsi dövründə isə keçmiş Albaniya ərazisində kiçik Azərbaycan feodal dövlətləri yaranmışdır.

Monqolların ağalığı dövründə Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninin tərkibinə daxil idi. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk səfəvilər dövründə davam etmişdir.

“Zəngəzur” termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. “Zəngəzur” toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə “sur” daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər.

XIII-XIV əsrlərdə Zəngəzur torpaqları coğrafi baxımdan Azərbaycan əyalətinin Naxçıvan tüməninə və Arran əyalətinə daxil olmuşdur.

Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat və Naxçıvan əyalətlərinin tərkibinə düşür. Qapanat Zəngəzurun Bərgüşad silsiləsinə qədər olan cənub hissəsini əhatə edirdi. Sisyan isə Naxçıvan əyalətinə daxil idi. Zəngəzurun Gorus və Kaştaq (Laçın) mahalları isə Qarabağ vilayətinin bir hissəsi idi.

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi zamanı Azərbaycanın böyük hissəsini ələ keçirən osmanlılar Naxçıvan əyalətini Sisyan və Qapanat mahalları ilə birlikdə Azərbaycanın vilayətinin tərkibindən çıxarıb, Çuxursəd vilayətinin tərkibinə keçirdilər. Qapanat mahalı Bərgüşad və Urud livalarına bölündü. Sisyan mahalından Kiçik Bazarçay nahiyəsi ayrıldı. Qapanat və Zəngəzur əraziləri Çuxursədin

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

Bayazid və Alaşkert vilayətləri ilə birlikdə ayrıca Bayazid livasını təşkil etdilər. Keştaq və Həkəri mahalları Qarabağ (Gəncə) əyalətinin tərkibinə daxil idi.

I Şah Abbas XVII əsrin əvvəllərində Azərbaycan torpaqlarını geri aldıqdan sonra Naxçıvan, Qapanat və Bərgüşadı yenidən Azərbaycan vilayətinin tərkibinə daxil etdi. Bazarçay nahiyəsi Sisyana birləşdirildi. XVII əsrin 30-cu illərinin sonuna yaxın Naxçıvan və Sisyan mahalları Çuxursəd bəylərbəyinin tərkibinə qatıldı.

Osmanlılar XVIII əsrin 20-ci illərində yenidən Azərbaycanın çox hissəsini ələ keçirmişdilər. 20-30-cu illərin Osmanlı hakimiyyəti dövründə Zəngəzur torpaqlarının bir hissəsi – Sisyan və Meğri Çuxursəd vilayətinə, Bərgüşad, Həkəri, Keştaq, Guləndar nahiyələri və Keştakın bir hissəsi Gəncə-Qarabağ əyalətinin tərkibinə düşdü.

1735-ci ilə kimi bütün Azərbaycan torpaqlarını osmanlılardan geri alan Nadir Əfşar, 1736-cı ildə Muğan qurultayında şah elan edilməsi zamanı Qarabağ (Gəncə) bəylərbəyi Ziyadoğulları onun şah seçilməsinə qarşı çıxdığına görə, Qarabağ məlikliklərini bəylərbəyliyin tabeçiliyindən çıxarıb, Azərbaycan hakimi təyin edilmiş qardaşı İbrahimin tabeçiliyinə keçirmişdi. 1747-ci ildə Nadir şah sui-qəsd nəticəsində öldürüldükdən sonra onun imperiyası çoxsaylı xırda dövlətlərə - xanlıqlara parçalandı. Zəngəzur ərazisi Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığının tərkibinə daxil oldu.

İnzibati-ərazi vahidi kimi, Zəngəzur XIX əsrin birinci qərinəsinin sonunda meydana çıxmışdır. 1813-cü il Gülüstan müqaviləsinə əsasən bu ərazilər Rusiyanın işğal etdiyi ərazilərə daxil edildi.

1822-ci ildə ruslar Qarabağ xanlığını ləğv edib, onu Müsəlman əyalətləri hərbi dairəsinin tərkibində bir əyalətə çevirdikdən sonra, 30-cu illərin əvvəllərində bu əyalətin tərkibində 9 minbaşılığı birləşdirən iri Zəngəzur mahalı təşkil olundu. Bunlar keçmiş Sisyan, Tatev, Zəngəzur, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Meğri-Güney və Çavundur (Çuldur) mahalları idi.

1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati quruluşa görə Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində keçmiş Zəngəzur mahalı iki hissəyə – Zəngəzur və Meğri sahələrinə bölündü. 1846-cı ilin yeni ərazi-inzibati bölgüsünə görə Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı. İrəvan quberniyasının təşkil olunması ilə əlaqədar olaraq Zəngəzurun cənub

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

hissəsi Meğri sahəsi (Qapan, Meğri-Günay, Çavundur və Püsyan mahalları ilə birlikdə keçmiş Qapanat əyaləti) 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibində oldu.

25 fevral 1868-ci ildə Yelizavetpol quberniyası yaradılarkən Bakı quberniyasının Şuşa qəzasının və İrəvan quberiyasının Naxçıvan qəzasının ərazilərinin bir qismi hesabına Zəngəzur qəzası yaradıldı. Bu qəza İrəvan quberniyasının Şərur-Dərələyəz və Naxçıvan, Yelizavetpol quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl qəzalarının əhatəsində, Araz çayı ilə İranla həmsərhəd idi. Yelizavetpol quberniyasına daxil olan qəzalar içərisində ərazicə ən böyüyü Zəngəzur qəzası idi. XIX əsrin sonlarında Zəngəzur qəzasının ərazisi 7,83 min kv.km olmuşdur.

Zəngəzur tarixən 4 sahəyə – Güney (Meğri), Qafan, Zəngəzur (Gorus) və Sisyan (Qarakilsə) mahallarına bölünürdü.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdir. Zəngəzurun ərazisinin böyük bir qismi 1918-1920-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş, yalnız 1921-ci ildə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati-ərazisinə daxil edilən Zəngəzur qəzası yaradılmışdır. Azərbaycan SSR-in tərkibində qalan Zəngəzurun Şərq hissəsi Qubadlı qəzasına çevrildi. 1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzası tərkibində göstərilir.

İnzibati ərazi bölgüsünə görə, Şərqi Zəngəzurun ərazisi Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilən rayonlarını və qərbi Zəngəzur isə hazırda Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan keçmiş Sisian, Qafan, Gorus və Meğri rayonlarının ərazilərini əhatə edir.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 488-490**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 488-490**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

**Nəzrin Qocayeva**
Bakı Dövlət Universiteti
bakalavr
nezrinq14@gmail.com

# ZƏNGƏZUR

***Açar sözlər:*** *kənd, ərəbcə, tayfa, hissə, mahal*
***Keywords:*** *village, Arabic, tribe, district, district*

Zəngəzur — Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi mahaldır. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri) Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 azərbaycanlı, 91 kürd və 81 erməni kəndi var idi.

"Zəngəzur" termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır.

Ərəbcə "sur" daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də, yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə, Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi. 1988-ci ildə təkcə Zəngəzurda deyil, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə – indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus

**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

Müasir Azərbaycan Respublikası ərazini öz torpaqları saysa da, Ermənistan Respublikasına qarşı torpaq iddiası irəli sürmür. Bunu Azərbaycan Prezidenti İlham Əliyev "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır".

Nəhayət, 44 günlük Vətən müharibəsində əldə edilmiş böyük zəfərlə erməni işğalına son qoyulduğunu xatırladan prezident nəzərə çatdırıb ki, biz bu zaman nəinki Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad etdik, eyni zamanda çox böyük bir prosesin əsasını qoyduq: "Həmin proses qədim Azərbaycan torpaqlarında xalqımızın yaşamaq haqqının tanınması və reallaşmasıdır. Bu tarixi torpaqlarımıza sülh yolu ilə getmək istəyindəyik".

*Zəngəzur dəhlizinin regional əməkdaşlıq üçün önəmi:* Zəngəzur dəhlizinin yaradılması postmüharibə mərhələsində Azərbaycanın gündəliyində duran əsas məsələlərdən biridir. Bu dəhlizin yaradılması ölkəmizin milli, tarixi və gələcək maraqlarına tam cavab verir.

Respublikamız müharibədən sonrakı mərhələdə yeni dəhlizin yaradılması ilə bağlı danışıqların səmərəliliyinin artırılması və praktiki müstəvidə işlərin sürətləndirilməsi istiqamətində israrlı yanaşma sərgiləyir. Zəngəzur dəhlizinin önəmini bir neçə aspektdən dəyərləndirə bilərik. İlk növbədə, onu vurğulayaq ki, Zəngəzur dəhlizi Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək. Bununla da Naxçıvanın üç onillik ərzində davam edən blokadasına son qoyulacaq. Eyni zamanda dəhliz fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək. Zəngəzur dəhlizinin yaradılmasında ən mühüm məqamlardan biri isə türkdilli ölkələr arasında əlaqələrin genişlənməsi üçün yeni imkanların yaranması ilə bağlıdır. Söhbət 1.1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri strateji və iqtisadi baxımdan birləşdirəcək dəhlizdən gedir. Perspektivdə Zəngəzur dəhlizi üzrə çəkilən həm dəmir, həm də avtomobil yolları Naxçıvandan keçməklə Türkiyəyə qədər uzanacaq.

**Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans**
**15 mart 2024 / 488-490**
**II International Scientific Conference "History and Geography of Zangazur"**
**15 march 2024 / 488-490**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/II**

Beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq. Mərkəzi Asiyada yerləşən türkdilli ölkələr isə Transxəzər (Orta Dəhliz) marşrutu üzərindən Zəngəzur dəhlizinə birbaşa çıxış qazanacaqlar. Bu, faktiki olaraq tarixi Türk birliyinin bərpa olması deməkdir. Zəngəzur dəhlizinin yaradılması region dövlətləri üçün də yaxşı perspektivlər vəd edir. Dəhliz açılandan sonra Azərbaycan ərazisindən keçməklə Rusiyadan Ermənistana dəmir yolu xəttinin açılma ehtimalı realdır. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı yaranacaq.

Bundan başqa, İran ilə Ermənistan, Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir.

Zəngəzurun Tarixi və Coğrafiyası II Beynəlxalq Elmi Konfrans
15 mart 2024 / 491-493
II International Scientific Conference “History and Geography of Zangazur”
15 march 2024 / 491-493
DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

**Ayişə Aslanova**
Bakı Dövlət Universiteti
bakalavr
ayseaslanova712@gmail.com

# AXC DÖVRÜNDƏ ERMƏNİSTANLA SƏRHƏD MƏSƏLƏSİ, ZƏNGƏZURUN QƏRB HİSSƏSİNİN ERMƏNİSTAN SSR-Ə VERİLMƏSİ

***Açar sözlər:*** *Batum razılaşması, Zəngəzur, AXC, N.Nərimanov*
***Keywords:*** *Batumi Agreement, Zangazur, APC, N.Narimanov*

Rusiya imperiyasının süqutundan sonra onun milli ucqarlarında, o cümlədən Cənubi Qafqazda yaranmış dövlətlər arasında ən çox ziddiyyətlər qarşılıqlı sərhədlərin tanınmaması zəminində yaranmışdı. Buna əsas səbəb kimi Cənubi Qafqazda yaranmış yeni siyasi sərhədlərin ən azı, son 100 ildə formalaşmış regionun etnik və təsərrüfat xüsusiyyətlərini nəzərə alınmadığını göstərmək olar.

Təsadüfi deyil ki, Cənubi Qafqaz respublikalarının ilkin sərhədlərini məhz 1918-ci ilin iyun ayının 4-də Batumda Osmanlı komandanlığının hər üç dövlətin nümayəndələri ilə ayrılıqda imzalanmış müqavilələri müəyyənləşdirmişdi. Lakin həmin müqavilələr daha çox Cənubi Qafqaz respublikalarının Türkiyə ilə sərhədlərini müəyyənləşdirmişdi (Niftəliyev, 2018: 8).

Batumda əldə olunmuş şifahi razılaşmaya əsasən, İrəvanın Ermənistana güzəşt edilməsi əvəzində o, Yelizavetpol quberniyasının dağlıq hissəsinə olan iddialarından əl çəkəcəyini bildirmişdi, lakin 1918-ci il iyulun 8-də İstanbul konfransında Ermənistanın nümayəndə heyətinin rəhbəri A.Aqaronyan Ermənistanın xarici işlər naziri A.Ohancanyana göndərdiyi teleqramda qeyd edirdi ki, artıq Ermənistanın minimum sərhədlərinə Qarabağ, Zəngəzur, Sürməli, Dərələyəz, Naxçıvan, Şərur əraziləri daxil edilməlidir. Sonrakı hadisələr göstərdi ki, əslində, bu teleqramda öz əksini tapmış fikirlər 1918-1920-ci illərdə Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları üçün bir növ təlimat rolunu oynayırdı.

Ermənistan nümayəndələri Osmanlı hökumətinə göndərdikləri xəritələrdə, statistik məlumatlarda həmin ərazilərin əhalisinin 70 %-nin

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

ermənilər olduğunu sübut etməyə çalışırlar. Bu dövrdə Ermənistan Qarabağ və Zəngəzur uğrunda fəal diplomatik səylərini həmin bölgələr ətrafında öz hərbi hissələrinin, o cümlədən Andranikin quldur dəstələrinin cəmləşməsi və bu ərazilərdə 1918-ci ilin yay-payız aylarında müsəlman əhalisinə qarşı apardığı etnik təmizləmə siyasəti ilə tamamlayırdı. Ermənistan Qarabağı və Zəngəzuru etnik prinsip əsasında bölərək, bu yolla ermənilər yaşayan əraziləri Azərbaycandan ayıraraq burada müvəqqəti erməni idarəçiliyinin yaradılmasını istəyirdi. Qarabağ və Zəngəzur məsələsi 1919-cu ildə Azərbaycanın və Ermənistanın iştirakı ilə çağırılmış bir neçə konfransda əsas müzakirə mövzusu olmuşdu (Niftəliyev, 2018: 8). 1918 ci il aprelin 28-də AXC süqut etdikdən sonra Qarabağ və Zəngəzur bir müddət unuduldu. Zəngəzur azərbaycanlılarının Sovet hakimiyyətinə bəslədikləri ümidlər özünü doğrultmadı. Azərbaycanda Sovet hökuməti qurulduqdan sonrakı ilk aylarda Zəngəzurla bağlı bir neçə bəyanat verilsə də, həmin bəyanatlar sırf deklorativ xarakter daşıyırdı (Urud, 2005: 154).

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Gorusda Zəngəzur qəza komitəsi yaradıldı və komitənin sədri azərbaycanlı Şirvani, onun müavini isə milliyyətcə erməni Qaragözov təyin edilsə də, Zəngəzura nə maddi, nə hərbi cəhətdən heç bir yardım edilmirdi.

Moskvaya Zəngəzurun və Qarabağın tarixən kimin torpağı olması o qədər də maraqlı deyildi. Moskvaya Ermənistanda Sovet hökumətini qurmaq maraqlı idi. Moskvaya Zəngəzur və Qarabağ əhalisinin dərd içərisində, ac-yalavac, ölümlə üz-üzə yaşaması, Zəngəzurda sabitlik yaradılması maraqlı deyildi, Moskva üçün Azərbaycanı və Ermənistanı bir sapla barmağına bağlayıb, hər iki milləti, hər iki ölkəni özündən asılı etmək, özünün hər iki ölkənin hakimi olduğunu bu xalqlara hər an xatırlatmaq maraqlı idi (Urud, 2005: 155).

Sovet Rusiyası Azərbaycanda Sovet hökuməti qurulduqdan sonrakı 7 ay ərzində Zəngəzuru, Qarabağ və Naxçıvanı hər bəhanə ilə Azərbaycana qaytarmağın zəruriliyini bildirirdisə də, artıq Ermənistanda 1920-ci il noyabrın 29-da Sovet hökuməti qurulduqdan sonra Sovet rəhbərliyi başqa bir tezislə "yalnız Sovet hakimiyyəti Zəngəzuru Ermənistana birləşdirə bilər və Qarabağa muxtariyyat hüququ verə bilər" tezisi ilə çıxış etməyə başladı.

Zəngəzurun Ermənistana bağışlanmasında diqqət çəkən məsələlərdən biri Azərbaycan Sovet hökumətinin rəhbərliyində

DOI: https://doi.org/10.36719/2663-4619/2024/II

N.Nərimanov istisna olmaqla milli və vətənpərvər ruhlu azərbaycanlıların, demək olar ki, olmaması idi. Nərimanovun digər bir səhvi isə, Moskvaya arxalandığı qədər, öz xalqına arxalanmaması idi. Bəlkə də N.Nərimanov, Ə.Qarayev və M.Hüseynovla birlikdə AK(b)P-MK-nın 1920-ci il 30 noyabr tarixli büro iclasında Q.Orconikidze, Q.Kaminski və b. Zəngəzurun Ermənistana verilməsi barədə qərarın qəbuluna mane ola bilsəydi və bir gün sonra tarixə bədnam "Nərimanov bəyanatı" kimi daxil olmuş çıxışı etməsəydi, Zəngəzuru bağışlamaqla yanaşı, Ermənistana iki yüz milyon manatlıq kredit ayırmasa idi, əksinə, Azərbaycan ordusunu S.Sultanovun köməyinə göndərsəydi, indi hər şey başqa cür ola bilərdi. Lakin Nərimanov aldandı və gecikdi (Urud, 2005: 159).

1921-ci il iyulun 20-də Ermənistan SSR XKS respublikanın ərazi bölgüsünü 9 qəzadan ibarət olmaqla təsdiqlədi. IX qəza indiki Sisyan, Qafan, Gorus rayonları və Mehri rayonunun bir hissəsinin ərazisindən ibarət olan Zəngəzur qəzası elan olundu. Zəngəzurun böyük bir hissəsini ələ keçirən Ermənistan 1921-ci ilin yayına qədər bu ərazilərdə özünün yerli hakimiyyət orqanlarını yaratdı.

Sisyan, Gorus və Qafan rayonlarından qaçqın düşmüş azərbaycanlıların geriyə qaytarılması barədə rəsmi razılaşma olmasına baxmayaraq, Ermənistan hökuməti qaçqınların öz dədə-baba yurdlarına qaytarılmasına hər vasitə ilə mane olmağa çalışırdı. Bu məqsədlə Ermənistan İnqilab Komitəsi 1921-ci ildə qaçqınlar haqqında qərar qəbul etdi. Qərara əsasən, ərzaq, nəqliyyat və yer məsələləri həll olunana kimi Ermənistana qaçqın axınının dayandırılmasını məqsədəuyğun sayır (Urud, 2005: 160).

Nəticədə, Zəngəzur 1930-cu illərə qədər türksüzləşdirildi. Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsilə Azərbaycanın ərazi bütövlüyü pozuldu, Naxçıvan kimi mühüm strateji əhəmiyyətə malik olan bir bölgə respublikadan ayrı düşdü, Türkiyənin isə Azərbaycanla əlaqəsi xeyli zəiflədi.

## Ədəbiyyat

1. Niftəliyev, İ. (2018). "AXC dövründə Ermənistanla sərhəd məsələsi, Qarabağ və Zəngəzur bölgələrində erməni separatçılığı" məqaləsi. "Xalq qəzeti". 24 may, 8 s.
2. Urud, M. (2005). "Zəngəzur" kitabı, s.154-161.

# İÇİNDƏKİLƏR

**Mahirə Hüseynova**
"Əkərək" coğrafi termini əsasında formalaşmış paleotoponimlərin linqvistik etimoloji təhlili . . . . . . . . . . . . . . . . . .7
**Naqif Həmzəyev**
Tarixi Azərbaycan torpağı Zəngəzurdan azərbaycanlıların deportasiya olunması . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .13
**Okan Yeshilot, Guljan İnaljik**
Zangazur corridor and Turkey . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .17
**Sevinc Sadıqova**
Zəngəzur toponimləri - tarixin yaddaşı . . . . . . . . . . . . . . . . . . . . . . .23
**Elmira Məmmədova-Kekeç**
Zəngəzurda qədim türk yurdu - Dəstəgird qəsəbəsinin mikrotoponimləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .25
**Sədaqət Həsənova**
Zəngəzurlu Ululu Kərimin dil-üslub xüsusiyyətləri . . . . . . . . . . .42
**Mirvari İsmayılova**
Zəngəzurun türk mənşəli etnotoponimləri . . . . . . . . . . . . . . . . . . .50
**Hacı Həsənov, Elmar Məhərrəmov, Zeynəb Qafarova**
XIX əsrin sonu - XX əsrin əvvəllərində Zəngəzur elimizin mədəni həyatının tarixindən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 55
**İradə Kərimova**
Zəngəzur qəzası kontekstində qədim apelyativli toponimlər . . . . 73
**Həcər Hüseynova**
Zəngəzurun tarixi toponimləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78
**Elşən Aslanov**
XIX əsr - XX əsrin ilk onilliklərində Zəngəzur bölgəsində baş verən hadisələrin Azərbaycanın tarixi-siyasi coğrafiyasına təsiri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81
**Könül Mədədzadə**
Heydər Əliyev dövrünün xarici siyasəti . . . . . . . . . . . . . . . . . . . . . 91
**Könül Səmədova**
Ermənilərin saxtakarlıqla özününküləşdirməyə çalışdıqları Zəngəzur etnotoponimləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 97
**Ramil Niftəliyev**
XIX əsrin son rübündə Zəngəzurda xalq-azadlıq hərəkatı tarixindən - Qaçaq Nəbi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 101

**Sahilə İbrahimova**
Zəngəzur toponimlərinin yaranma üsulları . . . . . . . . . . . . . . . . . 111
**Günel Buludzadə**
Zəngəzur dəhlizinin Cənubi Qafqaz inteqrasiyası üçün
əhəmiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 113
**Xanım Əsədova**
Andronikin Zəngəzurda "etnik təmizləməsi" . . . . . . . . . . . . . . . 116
**Elnarə Seyidova**
"İtirilmiş torpaqlarımız". Professor S.Y.Babayevin
tədqiqatlarında Qərbi Azərbaycan mövzusu . . . . . . . . . . . . . . . . 119
**Əsəd Qurbanlı**
Axırıncı türk kəndinin Ermənistandan
deportasiyası (1988-1991) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .124
**Yeganə Qəhrəmanova**
"Zəngəzur" coğrafi vahidinin etimoloji izahı . . . . . . . . . . . . . . . . 127
**Asya Şahverdiyeva**
Zəngəzur qədim Azərbaycan torpağıdır . . . . . . . . . . . . . . . . . . . . 132
**Cavid Bağırzadə**
Zəngəzur qəzasının Qubadlı kənd məktəbi haqqında
(XIX əsrin sonları-XX əsrin əvvəlləri) . . . . . . . . . . . . . . . . . . . . 134
**Taleh Əliyev**
Zəngəzurun müdafiə istehkamları . . . . . . . . . . . . . . . . . . . . . . . . 136
**Flora Məmmədova, Məzahir Təhməzov**
Qarabağ və Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonlarının
mineral-termal sularının tibbi-toponimik tədqiqi . . . . . . . . . . . . . 140
**Baxış Ələsgərov, Araz Əliyev**
Azərbaycanın tarixi ərazisi olan Zəngəzurun tarixi və
siyasi-coğrafi vəziyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 143
**Təhminə Əliyeva**
XIX əsrin sonlarında Zəngəzur və Qarabağ bölgəsində
Rusiyanın erməni mənşəli əhalinin artırmasının nəticələri . . . . . 147
**Fəridə Kazımova**
Zəngəzur toponimlərində "Kitabi-Dədə Qorqud" eposunun
izləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 152
**Vüsalə Əsədova**
Zəngəzur tarixi oğuz elidir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 155
**Leyla Əliyeva**
Zəngəzurun tarixi abidələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 158

**Yaqub Səmədov, Zalxa Səmədova**
Andronik Ozanyan tərəfindən Zəngəzurun işğalı və azərbaycanlıların soyqırımı (1918-1920-ci illər) . . . . . . . . . . . . 161
**Məhəmməd Abduyev**
Qarabağ və Şərqi Zəngəzur ərazisində çay sularının codluğu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 165
**Hüsniyyə Çobanova**
Zəngəzur bölgəsində zootoponimlər . . . . . . . . . . . . . . . . . . . . . . . 170
**Şərəbanı Məmmədova, Nazlı Seyidova**
Zəngəzurun taleyi: tarixi reallıq, acı nəticələr . . . . . . . . . . . . . . . . 173
**Gülarə Abbasova**
Zəngəzur - doğma diyar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 177
**Nurlana Həmzəyeva**
Erməni vandalizminin Zəngəzurun memarlıq abidələrində izlərinə dair . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 182
**Elbrus Sadıqov**
Zəngəzur qədim Azərbaycan torpağıdır! . . . . . . . . . . . . . . . . . . . . 185
**Toğrul Xəlilov**
Qərbi Azərbaycan qayaüstü təsvirlərinin Naxçıvan parelelləri . . 191
**Malahat Babayeva**
Reflection of historical reality in Ayyub Abbasov's novel "Zangazur" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 195
**Zəminə Əsgərova**
Qarabağ XIX əsrin sonları - XX əsrin əvvəllərində . . . . . . . . . . 199
**Aytən Əliyeva**
Qədim Azərbaycan torpağı – Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . 204
**Günel Hümmətova (Pəniyeva)**
"Kitabi-Dədə Qorqud" dastanında Zəngəzur mahalının türk torpağı olması faktları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 207
**Ələsgər Mirzəzadə**
Azərbaycan tarixində Zəngəzur: keçmişdən indiyə . . . . . . . . . . 209
**Gülnar Rəhimova**
Zəngəzurun etnomədəni tədqiqatı . . . . . . . . . . . . . . . . . . . . . . . . 215
**Şəfa Musayeva**
Yelizavetpol quberniyasının qəzaları (XIX əsr) . . . . . . . . . . . . . . 217
**Günel Yusibova**
Zəngəzur dəhlizi: Avrasiyanın və türk dövlətlərinin maraqları kontekstində . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 220

**Aytən Əsədova**
Qərbi Zəngəzurun Nüvədi kitabələri . . . . . . . . . . . . . . . . . . . . . . 223
**Afərim Tağıyeva**
Zəngəzurun dini mədəniyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . 226
**Vaqif Dadaşzadə**
Zəngəzur dəhlizinin açılmasında informasiya siyasəti və media . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 228
**Gülöyşə Əhmədzadə**
Zəngəzur sözünün tarixi izahı . . . . . . . . . . . . . . . . . . . . . . . . 231
**Elmira Aliyeva**
"The historic and mysterious province – Zangazur in medieval period" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 233
**Nuranə Allahverdiyeva**
Zəngəzurun türk mənşəli toponimiyası . . . . . . . . . . . . . . . . . . . 236
**Seyidnisa Aliyeva**
History of Zangazur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 239
**Zümrüd Qəhrəmanova**
Tarixi - əzəli Azərbaycan torpağı Zəngəzur . . . . . . . . . . . . . . . . 242
**Müseyib Şirəliyev**
Şərq-Qərb kontekstində Zəngəzur dəhlizinin strateji əhəmiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 246
**Nərmin Salmanlı**
Qərbi Azərbaycanın təbii resurs potensialı . . . . . . . . . . . . . . . . .249
**Abdulla Mustafayev, Elçin Zamanlı, Qadir Əkbərov**
1918-1920-ci illərdə Zəngəzur qəzasında türk-müsəlman əhaliyə qarşı soyqırımlar (arxiv materialları əsasında) . . . . . . . . 254
**Samirə Qasımova, Elgün Aslanov**
1918-1920-ci illərdə Zəngəzurda türk-müsəlman əhalisinə qarşı həyata keçirilmiş soyqırımı insanlığa qarşı törədilmiş ən qəddar cinayət aktıdır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 261
**Qadir Əkbərov, Abdulla Mustafayev, Elçin Zamanlı**
Azərbaycanda sovet hakimiyyətinin qurulmasına qədərki və ondan sonrakı dövrdə Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . 265
**Elçin Zamanlı, Abdulla Mustafayev, Qadir Əkbərov**
XX yüzilliyin əvvəllərində ingilislərin və bolşevik Rusiyasının Cənubi Qafqaz planlarında Zəngəzur . . . . . . . . . . . 267
**İsmayıl Zeynalov**
Zəngəzur qəzasında ermənilər tərəfindən Azərbaycan abidələrinin dağıdılması və əhaliyə qarşı törədilən soyqırımı . . 271

**Teybə Əfəndiyeva**
Zəngəzurun tarixi və coğrafiyası . . . . . . . . . . . . . . . . . . . . . . . . 274
**Türkan Məmmədova**
Qarabağ və Şərqi Zəngəzur ərazisinin dağ landşaftları . . . . . . . . 279
**Şərəbanı Məmmədova**
Mirzə Cəlil irsində və "Molla Nəsrəddin" jurnalında erməni xislətinin təsviri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 284
**Mina Qarayeva**
Zəngəzur dəhlizi ilə bağlı regional aktorların maraqları . . . . . . . 287
**Nərmin Novruzova**
Böyük Qayıdış – Zəngəzur torpaqları . . . . . . . . . . . . . . . . . . . . . . 290
**Ləman Qarayeva**
Qarabağ adətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 292
**Nərmin Mehdiyeva**
Zəngəzur tarixi türk torpağıdır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 295
**Elman İmanov, Qabil Adıyev**
Zəngəzur bölgəsində perspektivli optik lifli rabitə xətlərindən istifadə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 297
**Elvin Garayev**
Eastern Zangazur: Historical-archaeological monuments (Lalazar bridge) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 301
**Pənah Xanlayev**
Qaçaq Nəbinin Zəngəzur qəzasında fəaliyyəti . . . . . . . . . . . . . . 305
**Gülnar Muxtarzadə**
Tarixi Azərbaycan torpağı Zəngəzur mahalının Bərgüşad hidronimi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 308
**Həlilə Sadıqova**
El qəhrəmanı - Qaçaq Nəbinin tarixdə rolu . . . . . . . . . . . . . . . . 311
**Sevinc İmanlı**
Zəngəzurun Azərbaycandan qoparılması "erməni məsələsi"nin bir hissəsi kimi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 314
**Fuad Xəlilov**
Zəngəzur Qərb dövlətlərinin diqqət mərkəzində (1918-1920) . . 318
**Zəhra Hüseynova**
Azərbaycanın ərazi bütövlüyünün qəsdən parçalanması . . . . . . . 325
**Fatima Jafarova**
Historical role of Gafan district in Zangazur and its armenianization . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 328

**Reyhana Mammadova**
Historical geography of Zangazur . . . . . . . . . . . . . . . . . . . . . . . . 330
**Könül Məmmədova**
Zəngəzur mahalı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 333
**Günel Fətdayeva**
Zəngəzurun tarixi abidəsi - Qoşundaş . . . . . . . . . . . . . . . . . . . . . 335
**Tural Qaffarov**
Azərbaycan Cümhuriyyəti dövründə Zəngəzur qəzasında
rəis hüququnda rəis əvəzi vəzifəsini yerinə yetirən
Həbib Xan Şəkinski (1880-1956) . . . . . . . . . . . . . . . . . . . . . . . . . 337
**Sevinc Muxtarova**
Zəngəzur: tarixi məkan, milli yaddaş . . . . . . . . . . . . . . . . . . . . . . 339
**Xəyalə Əsgərova**
Yelizavetpol qəzası Tiflis quberniyasının tərkibində . . . . . . . . . . 342
**Aytac Bağırova**
Zəngəzur - zəngin tarixi vətənimiz! . . . . . . . . . . . . . . . . . . . . . . . 345
**İsmayıl Səmədli**
Zəngəzur termininin diplomatik tarixi . . . . . . . . . . . . . . . . . . . . . 347
**Nəzrin Allahverdiyeva**
Şərqi Zəngəzur bölgəsinin tarixi abidələri və onların müasir
dövr üçün əhəmiyyəti məsələsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 351
**Ramilə Mustafayeva**
"Mən türkəm. Türk ölər, ancaq erməni dığasının
qılıncının altından keçməz". Yusif Ağa Hacı Ağa oğlu Dadaşov
(xeyriyyəçi) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 354
**Kənan Bəşirov**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 357
**Shahriyar Samandarov**
Roots of Zangazur conflict . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 359
**İlkin İbrahimov**
Türkiyə maraqları baxımından Zəngəzur dəhlizinin
əhəmiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 363
**Asim Rüstəmov**
Şərqi Zəngəzur iqtisadi rayonu, onun tarixi və iqtisadi
vəziyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 375
**Aysel Mayılova**
Qərbi Azərbaycan - Zəngəzur mahalı tarixi torpaqlarımızdır . . . 378

**Mirisrail Ağazadə**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 382
**Gulgun Novruzova**
Zangazur: A jewel in Azerbaijan's landscape . . . . . . . . . . . . . . . . 384
**Hilalə Əliyeva**
1948-1953-cü il deportasiyasının tarixşünaslığı . . . . . . . . . . . . . . 386
**Fərhad Rüstəmzadə**
Zəngəzur 1988-1991 deportasiyası illərində . . . . . . . . . . . . . . . . 388
**Elbrus Bağışov**
Zəngəzur Osmanlı hakimiyyəti illərində . . . . . . . . . . . . . . . . . . . 393
**Əminə Tağıyeva**
Zəngəzur - ana vətən! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 398
**Aynur Namazova**
Toponyms of Turkish origin in Zangazur . . . . . . . . . . . . . . . . . . . 400
**Eltac Salmanzadə**
Azərbaycanın tarixi qələbəsi uğurlu siyasətin nəticəsi kimi . . . . 404
**Mehman Məmmədov**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 407
**Aytən Heydərova**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 411
**Xədicə Abbasova**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 416
**Ümid Mikayılov**
XX əsr Zəngəzuru erməni tarixşünaslığında . . . . . . . . . . . . . . . . 419
**Nərmin Heydərli**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 422
**Ceyhun Musayev**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 424
**Əbu-Talib Əliyev**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 426
**Murad Abbasov**
Azərbaycanın Zəngəzur mahalı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 427
**Nigar Abışova**
Zəngəzur Azərbaycanın tarixi torpağıdır . . . . . . . . . . . . . . . . . . . 429
**Rasta Məmmədova**
Zəngəzur - Ermənistanın cənub hissəsini və Azərbaycan
ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi mahal . . . . . . . 431

**Günay Təhməzova**
Zəngəzur haqqında ümumi məlumat . . . . . . . . . . . . . . . . . . . . . . 432
**Həsən Ağayev**
Zəngəzur dəhlizi iqtisadiyyat sahəsində . . . . . . . . . . . . . . . . . . . 434
**Ceyran Quliyeva**
Azərbaycanın tarixi torpağı Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . 436
**Fərid Tarverdiyev**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 438
**Anar Mustafayev**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 440
**Sahib İsmayılov**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 442
**Nərgiz Məlikova**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 444
**Aysel Muradova**
Zəngəzur tarixin izlərində . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 446
**Aytac Qurbanova**
Zəngəzurun tarixi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 449
**Ayxan Məmmədli**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 452
**Azərin Nəzərova**
Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazisi
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 454
**Əli Məmmədli**
Zəngəzurun inzibati ərazisi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 457
**Fədayə Qasımova**
Zəngəzur dəhlizi Cənubi Qafqazda strateji qapı kimi . . . . . . . . . 459
**Fərid Sadıqzadə**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 462
**Gülüstan Şahbalayeva**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 464
**İlham Əliyev**
Zəngəzurun tarixi coğrafiyası . . . . . . . . . . . . . . . . . . . . . . . . . 465
**Fəqan Mansurov**
Zəngəzur dəhlizinin əhəmiyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . 467
**Minarə Mərdanlı**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 469

**Nərgiz Əzimli**
Azərbaycanın bir parçası - Zəngəzur qədim diyar! . . . . . . . . . . . 470
**Nəzrin Mirzəzadə**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 472
**Yemən Cahangirli**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 473
**Rəna Hüseynzadə**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 474
**Rəna Muradlı**
Zəngəzur dəhlizi ilə bağlı Avropanın mövqeyi . . . . . . . . . . . . . . 476
**Xumar Əhədzadə**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 479
**Mələk Sultanlı**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 481
**Nihad Kazımov**
Zəngəzurun tarixi coğrafiyası . . . . . . . . . . . . . . . . . . . . . . . . 484
**Nəzrin Qocayeva**
Zəngəzur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 488
**Ayişə Aslanova**
AXC dövründə Ermənistanla sərhəd məsələsi,
Zəngəzurun qərb hissəsinin Ermənistan SSR-ə verilməsi . . . . . 491

İmzalandı: 12.03.2024
Kağız formatı: 60x84 1/8
H/n həcmi: 63 ç.v.
Sifariş: 739

"ZƏNGƏZURDA" Çap Evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru

